FOKSUN



# YENİLƏNMİŞ ŞƏHİDLƏR KİTABI

B.E. 33-CÜ İLİNDƏN BU GÜNƏDƏK

Quzu beşinci möhürü açanda qurbangahın altında Allahın kəlamına və etdikləri şəhadətə görə kəsilən canları gördüm. Onlar uca səslə fəryad edirdi: "Ey müqəddəs və haqq olan Pərvərdigar, nə vaxta kimi mühakimə etməyib yer üzündə yaşayanlardan qanımızın qisasını almayacaqsan?"

**Vəhy 6:9–10**

# FOKSUN



# YENİLƏNMİŞ ŞƏHİDLƏR KİTABI

**B.E. 33-CÜ İLİNDƏN BU GÜNƏDƏK**

Originally published in English under the title
*The New Foxe's Book of Martyrs* by John Foxe
© 2007, 2013, 2019 by VoM

© 2021 for the Azerbaijan edition.
Translated by permission. All rights reserved.
Contact us at *fieldresources@vm1.global*

Ayələr Müqəddəs Kitabdan götürülüb.
Müqəddəs Kitab © MKŞ 2009

Müəllif hüquqları bütünlüklə qorunur. Beynəlxalq Müəllif Hüquqları Qanununa əsasən nəşriyyatın yazılı icazəsi olmadan bu nəşrin heç bir hissəsi elektron, mexaniki, foto nüsxə, səsyazma, yaxud digər vasitələrlə yenidən işlənə, ehtiyatda saxlana və ya köçürülə bilməz.

“Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər”.

**Luka 23:34**



# Ön Söz

Siz Məsihə iman edəndə Onun davamçısı olmağı necə təsəvvür edirdiniz? Mən uşaqlıqdan böyüyənədək əzab barədə olan ayələri dəfələrlə oxumuşdum, amma onların mənə aid olmadığını düşünmüşdüm. Ərim Martin və mən hiss edirdik ki, başqa ölkəyə müjdəçi kimi getməyə "çağırılmışıq", amma Allahın bizi "Onun uğrunda əzab çəkməyə" çağırdığını eşitməmişdik. Əgər eşitmiş olsaydım, bəlkə də mən Allahın bu çağırışına cavab verməzdim!

Mən üç uşağım və cəngəlliklərdə pilot işləyən ərimlə birlikdə Filippində kiçik bir məhəllədə rahat həyat yaşayırdıq. Başqa ölkədə olan bu xidmətimizi və həyat tərzimizi xoşlayırdıq. Biz bir-birimizi və Rəbb İsanı sevirdik.

Bir gün 2001-ci ilin mayın 27-də Martin *New Tribes Mission*-un başqa bir pilotunu əvəz etmək üçün cənuba, Palavan adasına getməli oldu. Mən də ərimlə birgə getməyi qərara aldım, çünki işi çox olduğundan ona kömək lazım idi. Həm də bu, toyumuzun ildönümünü qeyd etmək üçün bir imkan olacaqdı. Biz uşaqlarımızı iş yoldaşlarımızın yanında qoyub onlara bir həftədən sonra geri qayıdacağımızı dedik. Amma həyat həmişə planlaşdırdığımız kimi getmir — biz Palavanda olarkən döyüşkən radikal müsəlmanlar tərəfindən girov götürüldük. Növbəti il biz Əbu Səyyaf qruplaşması ilə Basilan cəngəlliyində torpaq üstündə yataraq ac qalıb çirkli çay suyu içməli olduq. Biz bu kişilərin başqalarına qarşı

törətdikləri amansızlıqlara baxaraq nə vaxtsa evimizi və ailəmizi yenidən görə biləcəyimizi düşünərək yaşadıq.

Bir göz qırpımında Martindən başqa həyatımda olan hər bir şey əlimdən alındı. İnsan hər şeyi itirdikdə və təhlükəli şəraitdə olduqda öz ürəyində həqiqətən nələrin olduğunu görür. Mənimsə ürəyimdə gördüklərim heç də yaxşı deyildi.

Mən həmişə "yaxşı" məsihçi olmağımla qürurlanırdım. Axı biz Amerika arzularımızı arxada qoyub başqa ölkəyə müjdəçilik xidmətinə getmişdik. Amma cəngəllikdə olarkən mən görmək istəmədiyim Qrasiya ilə üz-üzə gəldim. Mən nifrət edən Qrasiyanı görürdüm. Elə vaxtlar olurdu ki, bizə qarşı etdikləri əməllərə, ailəmizin başına gətirdikləri bu qədər ağrı-acıya görə həmin müsəlmanlara böyük nifrət bəsləyirdim. Mən tamahkar Qrasiya ilə qarşılaşırdım. Ac qalanda, kiminsə yemək yediyini və bizimlə bölüşmədiyini görəndə həmin yeməyə acgözlüklə baxırdım. Mən özümdə ümidsizliyə qapılmış imansız Qrasiyanı görürdüm.

Ürəyimdə qaranlığı hiss etdim və məni dəyişdirməsi üçün Allaha dua etməyə başladım. O isə Öz sadiqliyinə görə mənə cavab verdi! Aylar keçdikcə bizi girov götürən insanların necə böyük ehtiyacları olduğunu görməyə başladıq. Mənim onlara olan nifrətim qayğıkeşliklə və hətta məhəbbətlə əvəz olundu. Hər gün sınaqlara baxmaqdansa Allahın xeyirxahlığına diqqətimi yönəldib Onu dərk etdikcə ürəyimdə rahatlıq və sevinc hissi artırdı. Allah bizi tapandan sonra artıq heç vaxt bizi tərk etmir. Mən Rəbbin həmin il həyatımda gördüyü işlərə görə Ona çox minnətdaram!

376 gün girov kimi saxlandıqdan sonra 17 nömrəli silahlı atışma zamanı Martin öldürüldü. Mən də yaralandım, amma elə həmin gün xilas edildim. Mən Amerikaya evə qayıdanda bildim ki, Allah saysız-hesabsız imanlıların ürəyinə bizim üçün dua etməyi qoyubmuş. Məsihçilərin duaları olmadan biz nə edərdik?

Məsihçinin həyatı "Allah səni sevir və həyatın üçün gözəl planı var" fikrindən daha çox "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin" deyilmi? Bu kitabda olan şəhadətlər sizin imanınızı bir növ yarışa çağıracaq. Bunun asan olmayacağını bilirəm. Bu hekayələri oxuyarkən yadda saxlayın ki, onlar super məsihçilər olmayıblar. Şəhidlər çətin vəziyyətlərlə üzləşmiş və Rəbbi həyatlarında birinci yerə qoymuş adi kişi və qadınlar idi.

“Siz məhz bunun üçün çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz...Əzab çəkərək heç kimi hədələmirdi, əksinə, ədalətli Hakimə Özünü təslim etdi” (1 Peter 2:21,23).

Rəbb bizi öz çarmıxımızı götürməyə çağırır. İsa bunu necə etməyi bizə öyrədir. Bu məsihçi şəhidlərin etdiyi kimi Onun izi ilə gedin.

Qrasiya Bornham
*New Tribe Mission*
*“Düşmənlərimin Önündə” kitabının müəllifi*

# Giriş

1571-ci ildə kilsələr şurasında qərar verildi ki, Con Foksun "Şəhidlər kitabı" kafedrallarda, seçilmiş kilsələrdə və digər dini mərkəzlərdə Müqəddəs Kitabın yanında kürsüyə zəncirlə bağlansın. Kilsə rəhbərləri istəyirdilər ki, Məsihin davamçıları hər dəfə Rəbbin evinə daxil olanda həmin kitabların başlanğıcında yazılmış Onun "hər gün çarmıxını götürüb ardımca gəl" (Luka 9:23) sözlərini həyatda icra etsinlər. Bəzən Rəbbin əmrləri dünyada məsihçilər tərəfindən sözün hərfi mənasında yerinə yetirilirdi, çünki Foksun kitabında yazılmış şəhadətlər bunu sübut edirdi.

İmanlılar Məsihin ardınca getmək üçün öz həyatlarını qurban verdilər. Bununla onlar Rəbbin çağırışına cavab verməyin nə demək olduğunu yeni bir tərzdə işıqlandırdılar. "Ardımca gəl" sadəcə 5000 adamı yedizdirmək, xəstələrə şəfa vermək və ya izdihamın alqışlarından zövq almaq üçün İsanın ardınca getmək deyil. "Ardımca gəl" həm də bağda qan damlaları ilə tərləməklə, qırx qamçıya dözməklə və Qolqotaya ölümə gedən yoldan keçməklə Onun ardınca addımlamaqdır.

Con Foks həyatlarını Məsih uğrunda qurban verərək Onun ardınca gedənlərin hekayələrini sənədləşdirdi. Müəllifin yazdığı bu həqiqi hekayələr təfərrüatları ilə qeyd edilib dəhşətli səslənsə də, onun niyyəti kilsəni qorxutmaq və ya qanlı-qadalı hadisələri bayram etmək deyildi. Foks istəyirdi ki, məsihçilər şəhidlərin — ən ağır və məşəqqətli anlarda Məsihi yanlarında görən və özlərini Onun uğrunda qurban verən imanlıların şəhadətindən ruhlansın.

1960-cı illərdə kommunizmin hökm sürdüyü Rumıniyadan satın alınıb yenicə Qərbə köçən Riçard Vurmbrandın da ürəyində bu istək var idi. O, kommunist dövründə həbsxanalarda keçirdiyi məşəqqətləri bölüşməyə başladı. Amma Riçard öz başına gələnlərdən daha çox həmin həbsxanalarda hələ də Məsih uğrunda əzab çəkib həyatlarını qurban verən pastorlar və digər məsihçilərdən danışmaq istəyirdi.

Foksun eləcə də Vurmbrandın çağırışı və istəyi bu gün "Şəhidlərin Səsi" təşkilatını ruhlandırır. Məhz bu istəyin sayəsində Foksun kitabının yenilənmiş forması bizi şövqə gətirir.

Foksun bu şah əsəri — əslində "Şəhidlər kitabı", "Sonuncu və qorxulu günlərin işləri və xatirələri" adı ilə ilk dəfə 1563-cü ildə nəşr edilmişdir. Onun hələ sağlığında Yepiskoplar Şurası İngiltərədə hər bir kafedrada və kilsədə bu kitabın bir nüsxəsinin olması barədə qərar vermişdi. Foks 1587-ci ildə dünyasını dəyişdi. Amma onun ölümündən sonra şəhidlik sona yetmədi və bu gün də davam etməkdədir. Müqəddəs Kitab yazır ki, Məsih Ona sadiq olanları Özü ilə birgə göylərə aparmaq üçün qayıdana və şəhidlərin sayı tamam olana qədər (Vəhy 6:11) şəhidlik davam edəcək.

Məsih uğrunda həyatını qurban vermiş imanlıların hamısı barədə yazsaq bir kitaba yerləşməz. Bu tarixi əsər üzərində işləyərkən biz Yəhya 21:25-ci ayə ilə qarşılaşdıq. Orada həvari Yəhya Məsihin həyatı barədə deyir ki, əgər Onun işləri barədə bir-bir yazılsa, yazılan kitablar heç dünyaya sığmaz!

Sizin burada oxuyacağınız hekayələr diqqətlə seçilib və araşdırılıb. Biz onları müfəssəl formada verməmişik. İmanlıların — Məsih uğrunda könüllü olaraq qurban getmiş insanların həyatlarını qısa şəkildə sizə təqdim etmişik. Bu məslək uğrunda həyatlarını itirmiş və bizim xəbərsiz olduğumuz saysız-hesabsız insanlar var. Biz həyatda onları heç vaxt tanımayacağıq. Bütün məsihçi şəhidlərin tam "işləri və xatirələri" yalnız əbədiyyətdə aşkar olunacaq.

Hətta Foksun yaşadığı dövrdə də onun bu əməyinə xoşagəlməz bir iş kimi baxanlar olub. Yəqin ki, yalnız cismani gözlərlə baxan həmin oxucular üçün Foksun kitabı qətl, bədən xəsarətləri və ədavət dolu hadisələrdən ibarət bir məcmuə idi. Bizim "Şəhidlərin Səsi" təşkilatımıza

aylıq bülletenimizdə və ya saytımızda olan hekayələr barədə bu gün də belə oxşar şikayətlər daxil olur. Bir dünyəvi jurnalist "Şəhidlərin Səsi" təşkilatının işçilərini başqa insanların əzab çəkməsinə baxmaqdan eyforiya əldə edən qəribə bir kult kimi təsvir etmişdi. Amma cismani gözlərin yalnız faciəni, itkini və əzabı gördüyü bir yerdə əbədiyyət eynəkləri bizə imkan verir ki, Con Foksun gördüyü kimi cəsarəti, sadiqliyi və xeyir-duanı görə biləк. Həvarilərin İşləri 5-ci fəsildə həvarilər Ali Şurada döyüldükdən sonra yaralarından şikayət etmədilər. Əksinə, "Həvarilər bu ad uğrunda təhqirə layiq görüldükləri üçün sevinərək Ali Şuranın önündən ayrıldılar" (Həvarilərin İşləri 5:41).

Təqiblərin olmadığına və ya azaldığına inanmaq yaxşı olardı. Əslində isə təqiblər hələ də mövcuddur. Statistikaya əsasən ötən yüzillik ərzində bütün tarix boyunca olan illərdən daha çox insan Məsihə imanları uğrunda öldürülüb[1]. Müjdənin yayılması nəticəsində məsihçilər daha çox təqib olunur və şəhidlərin sayı artır. Məsihçiliyə qarşı ədavət və məhdudiyyətlər olan bir çox ölkələrdə hal-hazırda on, əlli və ya beş yüz il bundan əvvəl olduğundan daha çox məsihçilər mövcuddur. Ona görə də təqib üçün daha çox hədəf var.

Amma təqibin artması bizi təəccübləndirməli deyil. İsa davamçılarına dedi ki, dünya Ona nifrət edib və əgər onlar Onun ardınca getsələr, dünya onlara da nifrət edəcək (Yəhya 15:18–19). Paul öz şagirdi Timoteyə yazmışdı: "Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq" (2 Timoteyə 3:12). Hal-hazırda bu sözlər məsihçiliyə düşmən mövqedə olan ölkələrdə həyata keçir. Hər ay biz bülletenimizdə və saytımızda bu həqiqəti qələmə alaraq dünyada məsihçi şəhidlərin "İşləri və xatirələri" kitabını sanki yenidən yazmış oluruq. Bu kitab öz Rəbbi uğrunda hər bir şeyini qurban verməyə hazır olan məsihçilərin qanı ilə qeydə alınır.

Buradakı hekayələri oxuyarkən bəzən siz bu kitabı kənara qoymaq istəyəcəksiniz. Mən ümid edirəm ki, həmin anlarda yadınıza sevinən həvarilər düşəcək və siz bu hekayələri əbədiyyət eynəkləri ilə oxumağı unutmayacaqsınız. İnsanların şər niyyətlərinə deyil, İsanın və davamçılarının sadiqliyinə baxın. Onda siz oxumağa davam edəcəksiniz

[1] Deyvid B. Barret, *International Bulletin of Missionary Research*, 2007

və İsanın sizdən xahiş etdiyi kimi Onun ardınca daha cəsarət və sədaqətlə getməniz üçün ruhlanacaqsınız.

Qoy hamımız nəyin bahasına olursa olsun, Onun çağırışına cavab verək.

"Şəhidlərin Səsi"

BİRİNCİ HİSSƏ

# Birinci əsrin şəhidləri

# Erkən Kilsənin təqibi

## (b.e. 34–98-ci illəri)

Yəhya Vəhy kitabını yazıb qurtaranda İsanın həvarilərindən yeganə sağ qalanı idi. O biri həvarilər Məsih uğrunda əzab çəkib amansız ölümlə dünyalarını dəyişmişdi. Məsihin dirilməsinin şahidi olan şagirdlər həyatları dəyişdirən bu möcüzəni bəyan etmək üçün öz canlarını qurban verdilər. İnsanlar adətən yalan bir şeyə görə işgəncə və ağrılı ölümə getmək istəməzlər. Dünyaya "Məsih dirilib!" deyənlər hədə-qorxular, əzablar və ölüm qarşısında öz fikirlərindən dönmədilər. Onların gələcək nəsillər üçün qoyduqları bu sadiqlik nümunələri misilsiz bir irs oldu.

O vaxtdan çox keçdiyindən və müxtəlif mənbələr olduğundan İsanın həvarilərinin necə şəhid olması barədə dəqiq və təfərrüatlı məlumatlar mövcud deyil. Onların nakam və amansız ölümləri bütün dünya tərəfindən qəbul olunsa da, necə və harada şəhid olduqlarını müəyyənləşdirmək çətindir. Bu kitabda həvarilərin ölümləri barədə daha çox üstünlük təşkil edən, ehtimal olunan və ya maraq doğuran variantlar verilib.

Kəlamda qeyd olunan "Yesseyin kötüyündən çıxmış fidan" (Yeşaya 11:1) şəhidlərin qanı ilə bolluca sulanıb. Biz şəhidlərin bəzilərinin adlarını bilmək şərəfinə nail olduq, digərlərinin hekayələrini isə göylərdə Allahın taxtı qarşısında eşidəcəyik.



*Stefanın daşlanması*

# Stefan

## (b.e. 34-cü ili)

Stefana qarşı yanlış və əsassız ittihamlar irəli sürüldü. Onun dediklərini inkar edib hədə-qorxu ilə susdura bilməyənlər ona qarşı yalançı şahidlər topladılar. Stefan gözəl nitqi ilə oradakıların diqqətini özünə cəlb etdi. Sanki sözləri ilə onu dinləyənləri ovsunlamışdı. Məsihin sadiq xidmətçisi sadə bir insan kimi görünsə də, böyük bir mənzərəni şövqlə təsvir etdi. Bu şagird hamının bildiyi köhnə hekayənin nəzərdən qaçmış və hətta illər ərzində yaddan çıxmış hissələrini vurğulayaraq danışdı. Stefan onu dinləyənləri onların ruhani vəziyyətləri ilə üz-üzə qoydu. O, nəfis işlənmiş libasda ipləri ilməyə taxan toxucu kimi Allahın əsrlər boyu gördüyü möhtəşəm işlərdən məharətlə danışdı.

Stefan öz fikrini çatdırmaq üçün İsrailin ulu babası olan İbrahimdən (Həvarilərin İşləri 7:2–53) danışmağa başladı. Sonra o, israillilərin Allaha itaətsizliyinə baxmayaraq tarix boyu Tanrının onlara necə sadiq olduğundan geniş söhbət açdı. Stefan məbəd barədə dediyi sözlərə görə əsassız ittiham olunduqda məhkəmədə özünü müdafiə edərək bildirdi ki, hətta Allah da məbəd barədə xəbərdarlıq etmişdi. Ümumiyyətlə, məbəd Allahın Öz izzətini göstərdiyi yeganə yer deyildi. Stefan saxta ittihamların əsassızlığını sübut edəndən sonra Allahın ittihamçılara qarşı olan fikrini bildirdi. Allahın Öz xalqına verdiyi ənamlara və xeyir-dualara baxmayaraq onlar son nəticədə Onu və Oğlunu rədd etdilər. Stefanın çıxışı ya güclü qasırğa, ya da tövbə ilə bitməli idi. O dedi: "Ata-babalarınızın təqib etmədiyi peyğəmbər varmı? Onlar Saleh Olanın zühuru barədə əvvəlcədən xəbər verənləri belə, öldürdülər. Sizsə bu Saleh Olana xəyanət edərək Onu qətlə yetirdiniz. Mələklər vasitəsilə verilən Qanunu aldınız, lakin ona riayət etmədiniz" (Həvarilərin İşləri 7:52–53).

İzdiham Stefanı ittiham etmək üçün toplaşmışdı. Lakin gələcəkdə tarix və həqiqət onlara ittiham hökmü oxuyacaqdı. Onlar həqiqəti rədd etmək üçün ayağa qalxıb müjdə gətirəni öldürdülər. Əleyhdarları Stefanın fikrinə qarşı deyil, onun özünə qarşı hücum etdilər və onu daşlayaraq öldürdülər, amma həqiqəti susdura bilmədilər.

Stefan onu öldürmək istəyənlərin gözlərində qəzəb gördü. Amma o, yuxarıya baxanda gözəl bir mənzərənin şahidi oldu. “O dedi: ‘Baxın, mən göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını görürəm’” (Həvarilərin İşləri 7:56). İzdiham Stefanı şəhərdən çıxarıb daşlamağa başladı. O qaçıb canını qurtarmağı düşünmürdü, ona görə də Allahdan xahiş etdi ki, onun ruhunu qəbul etsin. Sonra son nəfəsində dua etdi: “Ya Rəbb, bunu onlara günah sayma” (Həvarilərin İşləri 7:60).

Bu hekayəni yazan Luka Stefanın ölümündə iştirak etməsə də, orada olan bir nəfəri yaxşı tanıyırdı. Həmin adam yəqin ki, Stefanın son sözlərini təfərrüatları ilə yaxşı xatırlayırdı. O adam İsanın davamçılarını güclü təqib edən, həmin vaxtlar Şaul kimi tanınan həvari Paul idi. Amma Şaulun ağlına da gəlməzdi ki, Stefanın görüntüdə gördüyü İsa ilə Dəməşqə gedən yolda görüşəcəkdi.

“Ya Rəbb, bunu onlara günah sayma”.

**— ilk məsihçi şəhid Stefanın daşlanıb öldürülərkən dediyi sözlər**

# Böyük Yaqub/Zavday oğlu Yaqub

## (təxminən b.e. 44-cü ili)

İlk imanlılar cəmiyyəti dövründə həbslər, qamçılanma və hədə-qorxular adi hal aldı. İmanlıları həbs edib Hirodun zindanına saldılar. Onların arasında həvari Yaqub da var idi. Bu imanlılar üçün adi narahatçılıq kimi görünürdü. Romalı rəhbərlər İsanın davamçılarına qarşı qəzəblənmiş bəzi yəhudi din xadimlərinin təkidi ilə bunu yerinə yetirmək məcburiyyətində idilər. Amma sakitcə Yaqubu zindandan çıxarıb qılıncla edam edəndə hər şey qəfildən dəyişildi. Bu, Yerusəlimdə olan imanlılar cəmiyyətini sarsıtdı, lakin onların düşmənləri bundan razı qaldı (Həvarilərin İşləri 12:1–2).

Məlum oldu ki, Yaqubun ölümü Hirod tərəfindən keçirilmiş siyasi bir təcrübə idi. Ola bilsin ki, o, sarayında Məsihin davamçılarının yoluxucu xəstəlik kimi yayıldığını düşünənlərin söz-söhbətindən təngə gəlmişdi. Onlar aranı qızışdırmaqdan başqa bir iş görmürdülər. Amma qocaman siyasətçi Hirod öz siyasi müttəfiqlərinin Yaqubun ölümündən razı qaldığını görəndə o, bu məsihçilərin daha bir neçəsini aradan götürməyi qərara aldı. Lakin onun Peteri öldürmək niyyəti baş tutmadı. O, başqa plan cızmağa imkan tapmamış diqqəti padşahlığının digər bir yerində yaranmış böhrana yönəldi. Bundan sonra "Rəbbin bir mələyi Hirodu vurdu. Çünki izzəti Allaha vermədi. Onu daxildən qurdlar yedi və canı çıxdı" (Həvarilərin İşləri 12:23).

Həvarilərdən ilk şəhid olan Zavday oğlu Yaqubun ölümü İsanın göylərə qalxmasından on dörd il sonra baş vermişdi. İsanın davamçılarından Stefan, həvarilərdən isə Yaqub ilk şəhid olmuşdu. Stefanın ölümü və Şaulun təqibi həvarilərə İsaya xidmət etməyin təhlükəli olacağını göstərdi. İsa davamçılarına "Mən dövrün sonuna qədər hər gün sizinləyəm" (Matta 28:20) deməklə şagirdlərinin təhlükəsizliyini deyil, onları tək qoymayacağını vəd etmişdi.

Bir dəfə Yaqub və qardaşı Yəhyanın anası İsa ilə görüşəndə Rəbdən oğulları üçün göylərdə xüsusi yer istəmişdi. İsa da onlara sual vermişdi:

“Mənim içəcəyim kasadan siz də içə bilərsinizmi?” (Matta 20 22). Onun nəyə eyham etdiyini yəqin ki, başa düşməyən qardaşlar dərhal cavab verdilər: “Bilərik”. Onlar düşündülər ki, qalan on həvaridən daha üstün bir yer əldə edəcəklər.

İsa onlara cavab verdi: “Mənim içəcəyim kasadan içəcəksiniz” (Matta 20:23). Onun sözləri peyğəmbərlik sözləri idi. Yaqub birinci, Yəhya isə axırıncı öldü. Onların ölümləri həvarilərin şəhidlik hekayələrində başlanğıcı və sonluğu təşkil etdi.

İsanın daha çox vaxt keçirdiyi üç həvaridən (Peter, Yaqub və Yəhya) Yaqub barədə bizdə az məlumat var. Yəhya yazdığı Müjdədə nə qardaşının, nə də öz adını heç vaxt qeyd etməyib. Zavday oğlu Yaqub digər həvari Alfay oğlu Yaqubdan (“Kiçik Yaqub”) fərqləndirilmək üçün “Böyük Yaqub” adlandırılıb.

Tarixdə hadisələrin gedişinə nəzər salarkən on dörd il elə də böyük bir müddət deyil. Amma İsanın xidməti yalnız üç il olmuşdu. Bəs onda Yaqub Hirodun əli ilə öldürülməzdən əvvəl o və başqa həvarilər həmin on dörd il ərzində nə işlə məşğul idilər?

İsa göylərə qalxandan sonra Yerusəlimdə artan məsihçilərin ünsiyyətləri Rəbbin öldürülməsində iştirak edən yəhudi din xadimləri və asayişi qoruyan romalı rəhbərlər arasında gərginləşmişdi. Sülh və sakitliyə çox vaxt hədə-qorxular və işgəncələrdən istifadə etməklə nail olunurdu. Həvarilərin İşləri kitabının əvvəllərində imanlıların təqibləri barədə az yazılıb. Amma Luka Şaulun müəllimi olan din xadimi Qamliel ilə bağlı əhəmiyyətli bir məqamı qeyd edib. Qamliel imanlıların təqibinə qarşı getməsə də, öz yoldaşlarını, Ali Şuranın üzvlərini məsihçiləri öldürməkdən çəkindirdi. O, iman uğrunda şəhid olmağın insanlara necə təsir göstərdiyini dərk edərək belə demişdi: “İndiki iş barəsində sizə onu deyirəm ki, bu adamlardan əl çəkin və azad buraxın. Əgər bu hərəkat, bu iş insandandırsa, məhv olub gedəcək. Yox, əgər Allahdandırsa, bu adamların işini məhv edə bilməzsiniz. Allaha qarşı çıxanların vəziyyətinə belə, düşə bilərsiniz” (Həvarilərin İşləri 5:38–39). İmanlılara qarşı səbirli olmaq taktikası bir çox məsihçilərin Yerusəlimdə qalmasına kömək etdi. Beləliklə, Müjdənin bütün dünyaya yayılması ləngidi. Sonra Stefanın və Yaqubun ölümü vəziyyəti tamamilə dəyişdirdi. (B.e.70-ci ilində Yerusəlimin süqutu imanlılar cəmiyyətini külək kimi hər tərəfə səpələdi.)

Stefanın ölümü imanlılar üçün gözlənilməz idi. Amma məsihçilərin zindana salınması Yerusəlimdə adi bir hala çevrilmişdi. Yəqin Şaul məsihçiləri elə qorxuya salmışdı ki, bir çoxları Yerusəlimi tərk edib daha təhlükəsiz yerlərə qaçıb getmişdilər. Müjdənin yayılması üçün imanlıların ətraf bölgələrə səpələnməsinin böyük əhəmiyyəti var idi. Şaul sözsüz ki, nə bunu, nə də Dəməşqə gedən yolda Rəblə görüşməyi istəməzdi. Amma Ali Şuranın əsas təqibçilərindən biri olan Şaul (Paul) dəyişiləndən sonra da Yerusəlimdə vəziyyət neçə illər gərgin qaldı.

İspaniyada qədim bir kilsədə Yaqubun sümüklərinin olduğu iddia edilir. Buna görə belə düşünürlər ki, Yaqub ölməzdən əvvəl Yerusəlimi tərk edib bir neçə il İspaniyada müjdəçilik səfərində olub. Luka Həvarilərin İşləri kitabında bu barədə qeyd etməyib. Amma müjdəçilik səfərləri barədə



*Həvari Yaqubun (Böyük) b.e. 44-cü ilində Yerusəlimdə boynu vurulmuşdu.*

yazılara əsasən demək olar ki, balıqçı həvarilərdən biri Aralıq dənizinin sahillərinə — yer üzünün ən uzaq guşələrinə Məsihin tapşırığını yerinə yetirmək üçün səyahətə çıxmışdı.

Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən xilas olacaq.

**Mark 13:13**

# Filip

## (b.e. 54-cü ili)

İlk imanlılar cəmiyyətində Filip adlı iki nəfər var idi. Onlardan biri həvari Filip idi. O, İsanın həvarilərdən ilk çağırdığı şəxs idi. Digəri isə müjdəçi Filip idi. O, Yerusəlimdə artan imanlıların xüsusi ehtiyaclarına kömək etmək üçün həvarilərin seçdiyi yeddi nəfərdən biri idi. Hər iki Filipin oxşar müjdəçi xasiyyəti var idi və onların həyatları haqda olan məlumatlar çox vaxt tarixdə bir-birinə qarışıb. Onların həyat hekayələrini fərqləndirmək sonradan daha da çətinləşir, çünki hər ikisinin bir neçə qızı var idi. Filipin adı Yəhyanın Müjdəsində bir neçə, amma Həvarilərin İşləri kitabında (1:13) bir dəfə xatırlanır. Həvarilərin İşləri kitabından görünür ki, imanlılar cəmiyyətinin xidmətçisi Filip həbəşli xədimin iman etməsində, eləcə də samariyalılar arasında ruhani oyanışda mühüm rol oynayır. Xidmətçi Filip axırıncı dəfə Yerusəlimə səfər edən həvari Paulu öz evində qonaq saxlamışdı (Həvarilərin İşləri 21:8). Ola bilsin ki, Paul mühafizəçilərin nəzarəti altında Romaya getməzdən əvvəl Qeysəriyyədə iki il həbsdə olarkən onunla yenidən görüşmüşdü.

Həvari Filip İsrailin şimalında yerləşən Kefernahuma və Qalileya gölünə yaxın Bet-Sayda şəhərindən idi. Roma işğalından əvvəl Makedoniyalı İsgəndər yunan nüfuzunu bütün dünyaya yaymışdı. Məhz Filipin qeyri-yəhudi adından görünür ki, Bet-Sayda şəhəri yunan mədəniyyətinin və dövlət dilinin təsirinə məruz qalmışdı. O dövrdə ticarət və rəsmi dil olaraq latın deyil, qədim yunan dilinin geniş yayılmış *koine* dialekti idi və bu da Romanın hər şey üzərində hakimlik etmədiyini göstərirdi.

Yəhya öz Müjdəsində Filipin adını dörd dəfə qeyd edib. İsa Filipi şagirdi olmağa çağıranda (Yəhya 14:3) cavan həvari dərhal öz dostu Natanaeli tapıb İsa ilə tanış olmağa apardı. Özünü böyük işləri həyata keçirən biri kimi deyil, insanları tanış edən biri kimi görürdü. Bu həvari xəbər eşidən kimi onu çatdırmağa çalışırdı. İsanın beş min nəfəri doyuzdurmazdan əvvəl həvarilər ilə müzakirəsində Filip də iştirak etmişdi. O, belə böyük izdiham üçün ərzağın neçəyə başa gələcəyini söyləmişdi (Yəhya 6:7). Vəziyyətin qeyri-mümkün olması Allahın iş görməsinə mane ola bilməzdi.

Bir dəstə yunan da İsanı görmək istəyəndə vasitəçi kimi Filiplə əlaqə saxlamışdı. Yəhya qeyd edir ki, yunanların Filipə yaxınlaşmasına səbəb onun Bet-Sayda şəhərindən olması idi (Yəhya 12:21).

Yəhya həm də Sonuncu Şam yeməyi zamanı Filipin İsadan etdiyi xahişi xatırlayır: "Ya Rəbb, Atanı bizə göstər, bu bizim üçün kifayətdir" (Yəhya 14:8). İsanın Filipə verdiyi cavab bütün həvarilərə aid idi: "Xeyli müddətdir ki, Mən sizinləyəm, Məni tanımadınmı, Filip? Məni görən, Atanı görmüş olur. Bəs sən niyə 'Atanı bizə göstər' deyirsən? Mənim Atada, Atanın da Məndə olduğuna inanmırsanmı? Sizə söylədiyim sözləri Özümdən söyləmirəm, Məndə olan Ata Öz işlərini görür" (Yəhya 14:9–10).

Filipin yunan adı, çox dil bilmək qabiliyyəti, dostcanlı xasiyyəti və dirilmiş Məsihə olan imanı onu Xoş Xəbəri bölüşmək üçün bir müjdəçi etdi.

Həvari Filiplə bağlı başqa bir cəhət onun Fransa kimi tanıdığımız ərazidə xidmət etməsidir. Güman edilir ki, o, Müjdəni həmin ərazinin qədim sakinləri olan qal xalqına çatdırmış yeganə həvaridir. Həvari Filipin, eləcə də qərbi Türkiyədə yerləşən Hierapolis şəhəri ilə əlaqəsi olduğu bildirilir. O həmin şəhərdə imanlılar cəmiyyətinə rəhbərlik etmişdi. Həmin yer Vəhy kitabındakı yeddi imanlı cəmiyyətinin əhatəsindən bir az kənarda yerləşirdi. O, həvari Yəhyaya yaxın yerdə xidmət etdiyi üçün Yəhya öz Müjdəsində Filipin sözləri və hərəkətlərini qeyd edib.

Mədəniyyət baxımından Hierapolis keçmiş Frigiya mədəniyyətindən qaynaqlanırdı. Həmin ərazilərdə insanlar rəmzi ilan olan Sabazios allahına sitayiş edirdilər. Coğrafi baxımdan Hierapolis möhtəşəm mineral bulaqlar məkanı idi. Bu bulaqların şəfa gücü barədə hər yanda söz gəzirdi. Buna görə də dünyanın hər yerindən insanlar ora axışıb gəlirdi. Yəqin ki, müxtəlif millətlərin buraya gəlməsi həvarinin müjdəçilik xidməti üçün böyük imkan yaratmışdı. Tarixi baxımdan Hierapolis əsasən məsihçilərin yaşadığı şəhərə çevrilmişdi. Bu şəhər Paulun səyahətlərində xatırlanmasa da, çox güman ki, oradakı imanlı cəmiyyətlər onun səfərləri sayəsində yaranmışdı. Hal-hazırda Hierapolisin dağıntıları arasında bir neçə qədim kilsənin qalıqları mövcuddur. Çox güman ki, Filip imanlılar cəmiyyəti uğrunda öz həyatını qurban vermişdi. Hierapolisin bütpərəst kahinləri dünyanın bir çox yerlərindən gələn ziyarətçilərin gətirdiyi gəlirdən faydalanırdılar. Amma Filipin yaydığı Müjdənin onların dinini şübhə altına salmasını istəmirdilər.

Çarmıxa çəkmə romalılarda xüsusi bir cəza növü idi. Lakin bu edam üsulu barədə İsanın davamçıları Müjdənin yayarkən çox danışmışdılar. Ona görə də onun daha geniş tətbiq olunduğu güman edilir. Məsihçiliyin erkən dövrlərində bir çox müjdəçilərin çarmıxda öldürülməsi onların məhz çarmıxdan çox danışması ilə bağlıdır. Yəqin ki, Filipin çarmıxa çəkilib daşlanmasını dini rəhbərlər təşkil etmişdilər. Müjdənin yayılmasını dayandırmaq üçün onların işlətdiyi üsulun yenə də təsirsiz olduğu sübut olundu.

Əgər siz Mənim sözümə sadiq qalsanız,
həqiqətən, Mənim şagirdlərimsiniz.
Onda siz həqiqəti biləcəksiniz
və həqiqət sizi azad edəcək.

**Yəhya 8:31–32**

# Matta

## (b.e. 60-cı ili)

İsanın seçdiyi həvarilər arasında üç cüt qardaş var idi. Matta və onun qardaşı Kiçik Yaqub (Alfay oğlu) barədə az məlumatımız var. O birilər isə Peter və Andrey (Yəhyanın oğulları), Yaqub və Yəhya (Zavday oğulları) qardaşlarıdır. Mattanın əsl yəhudi adı Levi idi. Vergiyığan olduğu üçün Kefernahumda insanlar ona nifrət edirdi və buna görə ailəsi xəcalət çəkirdi. Amma İsa Mattada fərqli bir xüsusiyyət gördü. Bir gün adəti üzrə Matta Kefernahumda mühüm nəqliyyat yolunun üstündə dayanıb vergi yığırdı. İsa onun yanından keçdi və ona dedi ki, ardınca gəlsin, beləliklə, "o da durub İsanın ardınca getdi" (Matta 9:9). Onun yazdığı Müjdəyə əsasən ehtimal edirik ki, Matta öz keçmiş həyatından yalnız yazmaq qabiliyyətini götürmüşdü.

İsa Mattanı həvari kimi çağırdıqdan sonra onun evinə qonaqlığa gedir. Belə məlumdur ki, həm qonaqlar, həm də tənqidçilər ora təşrif buyurur. Məclisdə günahkar kimi tanınan adamlar, xüsusilə vergiyığanlar olduğundan bəzi fariseylər İsanın şagirdləri ilə mübahisə etdilər: "Niyə Müəlliminiz vergiyığanlar və günahkarlarla birgə yemək yeyir?" (Matta 9:11). Bu sual fariseylərin birbaşa İsa ilə üzləşmək istəmədiklərini aşkar edir. Bu vəziyyətdə həvarilər cavab verə bilmədilər. Amma İsa fikrini qısaca söyləməklə onlara cavab verdi. "Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı var. Gedin və 'Mən qurban deyil, mərhəmət istəyirəm' sözünün mənasını öyrənin. Çünki Mən salehləri deyil, günahkarları çağırmaq üçün gəlmişəm" (Matta 9:12–13). İsa Öz xidmətini, günahkarları tövbəyə çağırdığını izah edərək onları xilas yoluna dəvət etdi. İsa Əhdi-Ətiqin Yazılarından sitat gətirərək tənqidçilərə Öz iradını bildirdi: "Mən qurban deyil, mərhəmət istəyirəm". Həmin ayə həm də İsanı dinləyənlərə Onun kim olması barədə sezilməyən bir eyham vurdu. Allah insanlar üçün olan əsas niyyətini bədəndə gəlmiş Məsihdə nümayiş etdirirdi. Matta bir daha keçmiş işinə qayıtmadı.

İsrailin itmiş oğlu olan Matta vergiyığan kimi düşmənlə əməkdaşlıq etmişdi. O, İsaya iman edərək İbrahimin nəslindən olan biri kimi öz xalqı üçün Müjdəni yazdı. Matta yazdığı Müjdədə Məsihin yəhudi xalqı üçün

gəldiyini aydın surətdə göstərmişdi. Qədim əlyazmalara əsasən Matta İsanın həyatını ibrani dilində yazan yeganə müəllifdir.

Matta israillilərə onların Xilaskarının Xoş Xəbərini çatdırmaq üçün böyük səy göstərirdi. Onun Roma imperiyasına səpələnmiş yəhudilərə xidməti barədə müxtəlif şifahi mənbələr var. Yəqin ki, Matta bir müjdəçi kimi çox yerlərə səyahət etmişdi. O, həvari olaraq Efiopiyaya göndərilmişdi. Qədim dövrlərdə bu yerin adı iki ərazi üçün istifadə olunurdu. Onlardan biri hamıya məlum olan Afrikadakı ərazi, o birisi isə Fars ölkəsində olan ərazi idi. Şifahi mənbələr Mattanın Afrikada yerləşən Efiopiyada xidmət etdiyini təsdiqləyir. İsanın bütün dünyaya Müjdəni yaymaq tapşırığını yerinə yetirərkən Mattanın boynu vurulmuşdu.



*Müjdəçi Mattanın b.e. 60-cı ilində Efiopiyada, Haddayarda yerə mıxlanaraq boynu vurulmuşdu.*

"Müqəddəs Mattanın Müjdəsində Xilaskarımız Məsih Peteri qaya adlandırdı. O bu qaya üzərində Öz Kilsəsini quracaq və ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək. Burada əsas üç şeyi qeyd etmək lazımdır. Birincisi, Məsihin bu dünyada Kilsəsi olacaq. İkincisi, həmin Kilsəyə qarşı təkcə dünya deyil, həm də cəhənnəm bütün var qüvvəsi ilə kəskin surətdə mübarizə aparacaq. Üçüncüsü isə həmin Kilsə, şeytana və onun şər qüvvələrinə baxmayaraq, möhkəm duracaq".

**— Con Foks, *Foksun Şəhidlər kitabının* birinci fəslindən**

# Kiçik Yaqub/Halfay oğlu Yaqub

## (b.e. 63-cü ili)

Daşlar Yaqubun üstünə yağış kimi yağarkən onun dediyi son sözlər barədə məlumatımız yoxdur. Amma ölümündən sonra o bizim üçün yaxşı nümunə və miras qoyub.

Əhdi-Cədiddə olan "Yaqub üçlüyü" arasında, Halfay oğlu Yaqubun ("Kiçik") həyatı barədə qısa tərcümeyi-hal var. O, Məsihlə birgə olduğu vaxtlarda hər hansı bir sözü və ya hərəkəti ilə seçilməyib. O, sadəcə On İki şagirddən biri idi. Kiçik Yaqub hər hansı bir hərəkətinə görə nə ələ salınıb, nə də alqışlanıb. Zavday oğlu ("Böyük") Yaqub və Yusif oğlu Yaqub, hər ikisi o dövrün tarixində olduqca böyük rol oynamışdılar. Zavday oğlu Yaqub həvarilər arasında məşhur İldırım Oğullarından biri idi. İsanın ögey qardaşı olan Yusif oğlu Yaqub sonralar Yerusəlimdəki imanlılar cəmiyyətində rəhbərlik işini öz üzərinə götürmüşdü. Müjdələrdə digər həvarilərə nisbətən Halfay oğlu Yaqub barədə az yazılıb.

Şifahi mənbələrə əsasən həvarilər Müjdəni yaymaq üçün dünyanın müxtəlif yerlərinə getməyə təyin edilmişdilər. Kiçik Yaqub Suriyaya xidmət etmək üçün göndərilmişdi. Məsihçiliyin erkən dövrlərində Yerusəlimdəki imanlılar təqib olunarkən ən çox qaçıb getdikləri yer cənubi Suriyada Dəməşq şəhəri idi. İş o yerə gəlib çıxmışdı ki, hətta Şaul Yerusəlimdəki imanlıları tapmayanda onları həbs etmək üçün məsihçilərin ən çox olduğu yerə — Dəməşqə üz tutmuşdu. Xoşbəxtlikdən, Allahın başqa planları var idi. Şaul Dəməşqə gedən yolda İsa ilə görüşdükdən sonra həmin şəhərdə həbs etmək istədiyi imanlılar ona sığınacaq vermişdilər.

Yerusəlimdə olan təqiblər müjdəçiliyin yayılmasında durğunluq yaratmışdı. Nəhayət, Paulun İsaya iman etməsi, eləcə də Yerusəlimi tərk edib xüsusi xidmətlərə yollanmış Peter və Filipin qazandığı uğurlar durğunluğa qalib gəldi. Məsihin son sözləri yerinə yetdi: "Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız" (Həvarilərin İşləri 1:8).

Yaqub Suriyada üç növ insanlara xidmət etmişdi. Birinci növ insanlar Xananya kimi oraya köçmüş imanlılar idi. İkinci növ insanlar Yaquba əngəl yaradan biri kimi baxan oraya köçmüş yəhudilər idi. Üçüncüsü isə əsas ticarət yolları yerləşən ərazilərdəki qarışıq mədəniyyətli insanlar idi. Belə görünür ki, Suriyada olan yəhudilər Yaqubun vəzlərini dinləmək istəməmiş və onu daşlayıb öldürmüşdülər.

Mənbələrin birinə əsasən deyilir ki, o, Məsihin ölümündən az sonra Yerusəlimdəki imanlı cəmiyyətinə ilk rəhbər təyin edilmişdi. Həmin mənbəyə əsasən baş kahin Xananya onu hakimlərin qarşısına gətirmişdi ki, İsanın Məsih olduğunu inkar etsin. Onu məbədin başına çıxarıb Məsihi insanlar qarşısında inkar etməyi ona əmr etmişdilər. O isə əksinə, İsanın vəd olunmuş Xilaskar olduğunu cəsarətlə insanlara bəyan etmişdi. İzdiham Allahı izzətləndirmişdi, lakin Yaqubu oradan yerə atıb daşlamışdılar. Amma yerə yıxılmaq və daşlanmaqla onun yalnız ayaqları sınmışdı. Ona görə də Yaqub ona hücum edənlər üçün dizüstə Allaha belə dua etmişdi: “Ya Rəbb, onları bağışla, çünki nə etdiklərini bilmirlər”. Sonra onu başından vurub öldürmüşdülər.

Yaqub Müjdənin şərqdə yayılmasına yardım etdi. Bu da öz növbəsində qərbdən Yerusəlim və Dəməşqi, şərqdən isə qədim İraqı birləşdirən qövsşəkilli ticarət yolunu yaratmış oldu. Beləcə imanlı cəmiyyətlərinin davamlı şəbəkəsi quruldu. Müjdə yer kürəsinin hər bir guşəsinə gedib çıxaraq, daha uzaqlara, hətta şərqə — Hindistana səyahət etdi.

Onlar Quzunun qanı və öz şəhadət sözləri vasitəsilə Ona qalib gəldilər. Hətta ölümlə üzbəüz olanda da öz canlarını sevmədilər.

**Vəhy 12:11**

# Mark

## (b.e. 64-cü ili)

Kəlamda İsanın həyatı və Müjdənin yayılmasını qeydə alanların əzablı və bəzən isə məzəli səmimiliyini görürük. Yəhya Mark adı ilə tanınan Mark İsanın həbsini təsvir edərkən öz Müjdəsini utandırıcı bir qeyd ilə "imzalayıb". "Çılpaq bədənini kətan örtüklə bürüyən bir gənc İsanın ardınca gedirdi. Əsgərlər onu yaxaladılar. Amma o, kətan örtükdən sıyrılıb çılpaq qaçdı" (Mark 14:51–52).

Bəzi mənbələrə görə Mark öz Müjdəsini Peterin İsanın xidməti barədə fikirlərinə əsasən yazıb. Amma kətan örtükdən sıyrılıb qaçması və Markın Yerusəlimdəki evində imanlıların toplaşması bu cavan şagirdin də tarixdə rolunu göstərir. Markın Müjdəsinin tez sona yetməsi və fasiləsiz olaraq hadisələri qeyd etməsi nəql edənin yazmaq üslubuna işarə edir. Mark Müjdəsində istifadə etdiyi "və sonra" ifadəsi onun sevimli bağlayıcısıdır. Buradan biz cavan oğlanın hadisələri səbirsizcəsinə tez danışıb bitirməsini görürük. Mark bütün baş verənlərdə iştirak etməsə də öz Müjdəsində qeyd etdiyi hadisələrə şahid olanları şəxsən tanıyırdı. Bu da onun Müjdəsinin həqiqi olduğunu sübut edir.

İsa diriləndə cavan bir oğlan olan Markın hələ həyatı qabaqda idi. Onun həyat yolunun bəzi məqamları barədə Luka tərəfindən Həvarilərin İşləri kitabında yazılıb. Markın anası Məryəm və əmisi oğlu Barnaba ilk imanlılar cəmiyyətində tanınmış simalardan idilər. Barnaba Paul ilə birgə Antakya imanlılar cəmiyyətindən ilk müjdəçilik səfərinə çıxmazdan əvvəl Markı Paulla tanış etmişdi. İmanlılar cəmiyyəti Paul və Barnabanın üzərinə əl qoyub xeyir-dua verərək onları yola salmışdı, "Yəhya isə onların köməkçisi idi" (Həvarilərin İşləri 13:5). Yəqin ki, yoldakı çətin şərait, təzyiqlər və əzablar onu səfərdən tez qayıtmağa məcbur etmişdi. Onlar cənubi Türkiyədəki Pamfiliyaya gəlib çatanadək, o, Paul və Barnabadan ayrılıb Yerusəlimə qayıtmışdı (Həvarilərin İşləri 13:13).

Markın onları tərk edib getməsi Paul və Barnaba arasında fikir ayrılığı yaratdı və onlar səfər yoldaşı kimi bir-birilərindən ayrıldılar (Həvarilərin İşləri 15:36–40). Barnaba təkid etdi ki, Marka yenidən onlarla birgə

yola çıxmaq imkanı verilsin. Nəticədə, Barnabanın Markın xasiyyətini Pauldan daha yaxşı tanıdığı sübut olundu, çünki Paul sonralar Markın bacarıqlarını qiymətləndirərək bunu etiraf etdi (Kolosselilərə 4:10; 2 Timoteyə 4:11; Filimona 23–24). Mark Barnabaya müjdəçilik səfərlərində kömək etdikdən sonra öz vaxtını Peter ilə səyahətlərdə keçirmişdi (1 Peter 5:13). O, köməkçi kimi getdiyi bu müxtəlif səfərlərdə Yerusəlimdən Antakyaya, Babilə və Romaya gedib çıxmışdı.

Mark özü bacarıqlı müjdəçi idi. O, Misirin İsgəndəriyyə şəhərinə tez-tez səfərlər etmiş və orada imanlılar cəmiyyətinin yaranması və inkişaf etməsində böyük rol oynamışdı. Bir çox hallarda olduğu kimi İsanın Xoş Xəbərini yerli bütpərəst rəhbərlər qəbul etməmişdilər. Neçə illər onun xidmətinə qarşı bir tədbir görülməsə də, nəhayət, izdiham öz məkrli niyyətlərini həyata keçirmişdi. Markı kəndirlə bağlayıb İsgəndəriyyənin daş döşənmiş küçələri ilə sürümüş və bədənini tamamilə yaralamışdılar. Onu bir gecə belə halda zindanda saxlayıb ertəsi gün ölənədək eyni cəzanı təkrarlamışdılar. Mənbələrə əsasən izdiham Markın cəsədini yandırmaq istəmişdi. Lakin tufan onlara mane olmuşdu və məsihçilər onun cəsədini geri alıb dəfn etmişdilər.

Heç kəsin məhəbbəti dostları uğrunda canını qurban verən adamın məhəbbətindən üstün ola bilməz.

**Yəhya 15:13**

# Peter

## (b.e. 69-cu ili)

Yəhya oğlu Şimon Qalileya gölünün şimalında Kefernahumda boya başa çatmışdı. Qardaşı Andreylə balıqçı ailəsində böyüyən Şimon həmin peşə ilə məşğul olurdu. Sonra İsa sahildə gəzərkən Şimonu Onun ardınca gəlməyə çağırmış və onu balıq əvəzinə insan tutmağa dəvət etmişdi. Şimon, həm dəvəti, həm də İsanın ona verdiyi yeni Peter[1] adını qəbul etmişdi. Üç il ərzində Peter İsanın daimi yoldaşı olmuşdu.

Şimon Peter bu ayələri qələmə alarkən İsanın onu daş adlandırmasını yəqin ki, xatırlamışdı: "İnsanların rədd etdiyi, amma Allahın qiymətli sayıb-seçdiyi diri Daşa, Rəbbə yaxınlaşaraq özünüz də diri daşlar kimi hörülün ki, ruhani ev qurulsun. Orada müqəddəs kahin dəstəsi olasınız və İsa Məsih vasitəsilə Allaha məqbul olan ruhani qurbanlar təqdim edəsiniz. Çünki Müqəddəs Yazıda yazılıb: 'Budur, Sionda bir daş, Seçilmiş, qiymətli bir guşədaşı qoyuram. Ona iman edən kəs əsla utandırılmaz'" (1 Peter 2:4–6).

Peter "əsla utandırılmaz" vədinin təsirini yaxşı anlayırdı. Şimon uğursuzluqla üzləşəndə İsa ona "Sən hələ mənim üçün çox işlər görəcəksən" demişdi və Peter ifadə olunmaz bir sevinc hissi keçirmişdi. Müqəddəs Kitabda İsanın Peterə birinci və sonuncu sözləri "ardımca gəl" olmuşdu (Mark 1:17; Yəhya 21:22). Tarixdə biz Peterin Rəbbin əmrinə tabe olduğunu görürük. Peter Qalileyanın sahilindən başlayaraq Romaya qədər İsanın ardınca getdi. O, torlarını kənara atıb həyatını qurban verənədək insanları tutan balıqçı oldu. Peter bizim üçün şəhidliyin bariz nümunələrindən biridir. O, dolğun bir ömür sürüb ölənədək Məsihə sadiq qaldı.

Peterə ilk imanlılar cəmiyyətində və həvarilər arasında rəhbər rolu verilmişdi. Biz Müjdələrdə Peterin düşünmədən dediyi sözləri oxuyuruq. Həvarilər çox vaxt İsanın nə etmək istədiyini başa düşmürdülər. Adətən belə vəziyyətlərdə onların suallarını Peter açıq şəkildə ifadə edirdi. O, çılğın xasiyyətinə görə hərdən həqiqəti söyləsə də, çox vaxt səhv danışırdı. İsanın dirilməsi bu sadə şagirdləri Müjdə üçün güclü təsir qüvvəsinə çevirsə də, camaat onların keçmişini unutmamışdı. Müjdələri

[1] *petros* yunan sözü olub mənası bir parça daş deməkdir.

yazan şagirdlər həvariləri cəsur təsvir edib onların hərəkətlərini fərqli tərzdə göstərə bilərdilər. Amma onlar heç nəyi dəyişmədən olduğu kimi yazdılar. Beləliklə, onlar bizə həqiqəti — Allahın Kəlamını çatdırdılar. Onların təqdim etdiyi hekayələri biz özümüzə tətbiq edə bilərik. İsa ilə vaxt keçirən insanlar elə bizim kimi adi adamlar idilər. Onların bir həvari kimi bu hadisələrə şahid olması bizə xatırladır ki, Allah Öz adını izzətləndirmək üçün bizlərdən istifadə etmək istəyir.

Həvarilərin İşləri kitabının on iki fəsli İsanın hər yerdə şagirdlər etmək əmrinin həyata keçirilməsindən danışır. Burada ilk imanlıların həyatlarında baş vermiş maraqlı hadisələr təsvir olunur. Peterin Əllinci Gün bayramındakı ilk vəzi yeni imanlılar üçün qapı açdı. Lakin Müjdə əvvəlcə az sayda yəhudilərə və yəhudi dinini qəbul etmiş insanlara yayıldı. Allah Peterin romalı yüzbaşının evinə qonaq getməsindən istifadə etdi. Bununla da O, Müjdə vasitəsilə hər bir xalqın xilası üçün qapı açdığını təsdiqlədi. Korneli bütpərəstlərin imana gəlməsi üçün ilk nümunə oldu.

Peter Həvarilərin İşləri kitabında, 12-ci fəsildə səhnəni qəflətən tərk edir. O, yenicə zindandan möcüzəli surətdə azad olmuşdu. Məryəmin evinə onun üçün dua etməyə toplaşmış imanlılara qısa müddətə baş çəkmişdi. Onlar Peterin azad olması üçün dua edirdilər və elə bu vaxt Peter qapını döydü. Beləliklə, Allah onların duasına cavab verdi. Əslində Peter həbsxanadan qaçmış məhbus olduğu üçün həyatı hələ də təhlükədə idi. Luka Peterin oradakı imanlılardan ayrılarkən dediyi sözləri belə qeyd edir: “Peter əli ilə susmaq işarəsi verərək Rəbbin onu necə zindandan çıxardığını nəql etdi. Sonra ‘bu xəbəri Yaquba və o biri qardaşlara da çatdırın’ deyərək onlardan ayrılıb başqa yerə getdi” (Həvarilərin İşləri 12:17).

Peterin getdiyi o “başqa yer” həm şifahi tarixin, həm də rəvayətlərin mövzusu olub. Şifahi tarixə əsasən Peter səfərləri zamanı əsasən Babildə (şərqdə) və Romada (qərbdə) xidmət edib. Biz Peterin Babildə xidmətini sübut edən faktı 1 Peter 5:13-cü ayədə görürük. “Sizin kimi seçilmiş Babildəki cəmiyyət və oğlum Mark da sizi salamlayır.” Burada həvarinin olduğu yer aydın göstərilir. İmanlılar cəmiyyətinin şərq qolunun mənbələrinə əsasən Müjdənin orada yayılmasında Peterin mühüm rolu olub. Onun Romada xidmət etdiyini təsdiqləyən fakt budur ki, o, Romaya səyahət edib və orada şəhid olub. Romadakı imanlılar cəmiyyətinin Peter tərəfindən yaradılmasını təsdiq edən sübutlar azdır. Lakin kimsə

Müjdəni Roma imperiyasının paytaxtına gətirib çıxarmışdı, çünki Paul öz məktubunu Romaya yazanda orada artıq üç imanlı cəmiyyəti mövcud idi. Əgər Peter o vaxt artıq Romada idisə, Paulun məktubunda göndərdiyi salamlarda Peterin adını çəkməməsi qəribə görünür. Biz Həvarilərin İşləri kitabından bilirik ki, Peter haradasa Müjdəni yaymaqla məşğul idi.

İsa Peterlə axırıncı dəfə Qalileya gölünün sahilində görüşərkən Rəbb təkcə Peterin həyatındakı çağırışını yenidən bərpa etmədi, O həm də Peteri gözləyən ölümdən onu üstüörtülü xəbərdar etdi.

> “Doğrusunu, doğrusunu sənə deyirəm: cavan olanda qurşağını özün bağlayıb istədiyin yerə gedərdin, amma qocalanda əllərini uzadacaqsan və başqası sənin qurşağını bağlayıb istəmədiyin yerə aparacaq”. İsa bunu ona görə söylədi ki, Peterin necə öz ölümü vasitəsilə Allahı izzətləndirəcəyinə işarə etsin. Bunu söylədikdən sonra ona “ardımca gəl” dedi (Yəhya 21:18–19).

Bizim harada olub nə işlə məşğul olmağımız vacib deyil. Əsas olan həyatda bir imanlı kimi İsanın “ardımca gəl” əmrinə necə tabe olmağımızdır.

Peterin Romada olan son günləri Müqəddəs Yazılarda təsvir olunmasa da, müxtəlif şifahi mənbələr bu günə gəlib çıxıb. Deyilənlərə görə, o, neçə ay məşhur Mamertin həbsxanasında qalmışdı və orada həbsdə olmaq onun üçün ölüm hökmünə bərabər idi. Əli qandallı və pis rəftarla qarşılaşan Peter işgəncələrə tab gətirmiş və yəqin ki, öz mühafizəçilərinə də Müjdəni çatdırmışdı. Nəhayət, o, zindandan çıxarılıb Neronun meydanına gətirilmiş və orada başı aşağı çarmıxa çəkilmişdi, çünki Peter özünü Məsih kimi başı yuxarı çarmıxa çəkilməyə layiq bilməmişdi.




*Həvari Paulun Romada boynu vuruldu.*

# Paul

## (təxminən b.e. 69-cu ili)

Başqa həvarilərdən fərqli olaraq, Paulun öldüyü yer barədə heç bir şübhə yoxdur. Onun Romada Müjdəni vəz etmək üçün həmişə böyük həvəsi var idi və elə oradaca gözlərini dünyaya əbədi yummuşdu. Paul Romaya iki dəfə səfər etmişdi və bu səfərlərin hər ikisi Roma imperiyasının hesabına olmuşdu. Paulun səyahətləri zamanı qaldığı yerlər yüksək səviyyəli olmasa da, onlar həvarinin həyat tərzinə çox uyğun idi. Həvarilərin İşləri kitabında və Paulun məktubларında qeyd olunur ki, o, ömrünün sona yaxınlaşdığını hiss edirdi və yaşadığı hər anı yüksək dəyərləndirirdi. Paulun fikrincə, Allahın lütfü dərin ruhani məfhum deyil, onun yaşaması üçün bir səbəb idi. O, Allahın lütfünü qiymətləndirirdi, çünki ona böyük ehtiyacı olduğunu bilirdi.

Onun son düşüncələri peşmançılıq hisləri ilə deyil, lütflə, zəngin həyatdan irəli gələn məmnunluqla dolu idi. O, Timoteyə yazmışdı:

> "Çünki qanım artıq içmə təqdimi kimi tökülmək üzrədir. Artıq ayrılma zamanım gəldi. Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım, imanı saxladım. İndi salehlik tacı mənim üçün hazır durur. Ədalətli Hakim olan Rəbb qiyamət günü onu mənə — yalnız mənə deyil, Onun zühuruna can atanların hamısına verəcək" (2 Timoteyə 4:6–8).

Paul Müjdəni bəyan edərək çoxlu ölkələrə səyahət etmişdi. Kolosselilərə dediyi sözlər onun qəlbinin şövqünü gözəl təsvir edir: "Hər bir insanı Məsihdə kamilləşmiş olaraq Allaha təqdim etmək üçün hamıya tam müdrikliklə nəsihət və təlim verərək Məsihi bəyan edirik. Bu məqsədlə də zəhmət çəkirəm və Onun məndə qüdrətlə fəaliyyət göstərən qüvvəsi ilə mübarizə aparıram" (Kolosselilərə 1:28–39).

Paulun həyatında olan maraqlı məqamlardan biri budur ki, o, hətta imanlılar cəmiyyətini təqib edərkən Müjdənin yayılmasında böyük uğura nail olmuşdu. Onun Yerusəlimdə və ətraf bölgələrdə məsihçiləri güclü təqib

etməsi imanlıları külək kimi ətrafa səpələmişdi. Bu da onların getdikləri hər yerdə Müjdə toxumlarının əkilməsinə səbəb olmuşdu. Həqiqətən Allah Öz iradəsini yerinə yetirmək üçün, hətta şər insanların planlarından və səylərindən istifadə edir. Lakin Dəməşqə gedən yolda Paul İsa ilə görüşəndən sonra tamamilə dəyişildi. Onun keçmiş həyatının odlu-alovlu çılğınlığı Məsih üçün cani-dildən xidmətə yönəldi. O, imanlı cəmiyyətlərə göndərdiyi məktubları ilə demək olar ki, Əhdi-Cədidin yarısını yazdı. O, müjdəçinin həyat tərzini təyin etdi və müjdəçilik qaydalarını ilk həyata keçirən adam oldu. Paul sayca iyirmidən çox imanlılar cəmiyyətini yaratdı və cəsarətlə Allahın məhəbbətini və lütfünü qeyri-yəhudilərə çatdırdı. Lakin bu işində sadiqliyinə görə onu ruhlandırmaq əvəzinə məzəmmət etdilər. İsa Məsihi bir vaxtlar təqib edən şəxs ömrünün qalan hissəsini Məsihi insanlara çatdırmağa həsr etdi.

Yaxşı ki Paul o dövrdə müjdəçi kimi gördüyü əsas işinə görə ona göstərilən münasibət barədə qeyd edib. Allahın xidmətçisinin aşağıdakı ayələrdə yazdığı qurbanlar imanlıları qorxuda bilər. Bu həm də İsanın ardınca gedənlərin həyat təcrübələrini göstərir. Onlar Xoş Xəbər uğrunda bütün həyatlarını təhlükə qarşısına qoydular. İsanın çarmıxda bizim üçün əldə etdiyi xilas misilsiz bir bəxşişdir. Biz imanımızı Məsihə sadiq qalıb həyatlarını qurban verən bir çox məsihçilərdən miras almışıq.

> “Beş dəfə yəhudilərdən otuz doqquz qırmanc yemişəm, üç dəfə dəyənəklə döyülmüşəm, bir dəfə məni daşqalaq etdilər, üç dəfə gəmi qəzasına düşdüm və bir gün gecə-gündüz ucsuz-bucaqsız dənizdə qaldım. Tez-tez səyahətdə olduğum müddətdə çaylarda təhlükəyə, quldurlar arasında təhlükəyə, soydaşlarım arasında təhlükəyə, başqa millətlər arasında təhlükəyə, şəhərdə təhlükəyə, çöldə təhlükəyə, dənizdə təhlükəyə, saxta qardaşlar arasında təhlükəyə məruz qaldım. Zəhmət və əmək çəkdim, dəfələrlə yuxusuz qaldım. Aclığın, susuzluğun dadını gördüm. Çox vaxt yemək, soyuqda paltar tapmadım. Bunlarla yanaşı bütün cəmiyyətlər üçün hər gün çəkdiyim qayğının yükü boynumdadır” (2 Korinflilərə 11:24–28).

Əgər əzab çəkməyi birinci yerə qoysaq, onda Paulun həyatından əsas prinsipləri gözdən qaçırmış olacağıq. Əzab çəkmək itaətin və ya sadiqliyin

dəqiq ölçüsü deyil. İtaətsizlik və imansızlıq da əzab gətirə bilər. Əgər əzab çəkməyi ön cərgəyə qoyuruqsa deməli, onun arxasında qürur gizlənir. İmanlı insan itaət və sadiqlikdə addımlayarkən əzabla qarşılaşa bilər. Amma Məsihdəki həyatın əsas cəhəti böyük sevincdir, əzablarsa kiçik bir hissəsidir! İman uğrunda şəhid olanların qoyduqları nümunə sevinc dolu qayğısız həyatdır.

Onlar əzabdan həzz almadılar, amma eyni zamanda ondan qaçmadılar. Şəhidlər Paul kimi hər vəziyyətdə razı qalmağın sirrini öyrəndilər:

> "Ehtiyaca düşdüyüm üçün bunları söyləmirəm, çünki hansı şəraitdə yaşasam, ondan razı qalmağa alışmışam. Mən məzlumluğun da, bolluğun da nə olduğunu bilirəm. İstər tox, istər ac, istər bolluq, istər ehtiyac içində olum, hər şəraitdə, hər vəziyyətdə razı qalmağın sirrini öyrənmişəm. Mənə qüvvət verən Məsihin köməyi ilə hər işə gücüm çatır" (Filipililərə 4:11–13).

Paulu dünyanın uzaq yerlərinə getməkdən yalnız Allahın Ruhu saxlaya bilərdi. Onun yaşadığı dövrə, şifahi mənbələrə və Kəlamda müxtəlif ərazi adlarına (məsələn, İspaniyada xidmət etmək arzusu, Romalılara 15:23–24) əsasən deyə bilərik ki, o, Ərəbistandan Britaniya adalarına qədər gedib çıxmışdı və Romada iki dəfə həbsdə olmuşdu. Birinci və ikinci həbsi arasında olan altı il ərzində onun bir sıra səyahətlər etməsi üçün imkan yaranmışdı.

Həvarinin əbədiyyətə qovuşmazdan əvvəl sonuncu məkanı Romadan kənarda olan Ostiya yolu idi. Deyilənlərə görə şəhər darvazalarından kənarda keçmiş farisey olan fədakar müjdəçinin boynu vuruldu. O, yaxşı mübarizə apardı, yolu sona çatdırdı və imanı saxladı.

# Mattiya

## (b.e. 70-ci ili)

Mattiya başqa həvarinin yerinə seçilmişdi. Yəhuda Rəbbə xəyanət edib özünü öldürdükdən sonra onun yerini tutmaq üçün o, həvari kimi təyin edilmişdi (Həvarilərin İşləri 1:23–26). Həvariliyə namizəd İsanın şagirdi kimi Onunla uzun müddət olan bir şəxs olmalı idi. Mattiya Rəbbin göndərdiyi yetmiş şagirddən biri idi (Luka 10:1) və İsanın xidmətində iştirak etmişdi.

Həvarilərin İşləri kitabının ilk fəslində onun həvari təyin edilməsindən sonra Mattiyanın adı Əhdi-Cədiddə bir daha çəkilmir. Əslində bu kitabda on iki həvarinin də adları çəkilmir. Luka Həvarilərin İşləri kitabında əsasən Peter və Paulun ilk imanlılar cəmiyyətinin yaranmasında göstərdikləri xidmətlərindən yazıb.

Mattiyanın rolu barədə öyrənmək üçün biz Yerusəlimdəki ilk imanlılar cəmiyyətində On İki həvarinin xidmətinə və Mattiyanın adının qeyd edildiyi müxtəlif şifahi mənbələrə nəzər salmalıyıq. Şaul və başqaları İsanın davamçılarını susdurmağa çalışarkən həvarilərdən biri kimi o da böyük təqiblə üzləşmişdi.

Mattiya müjdəçilik tapşırığı ilə şimala gedib çıxmış həvarilərdən biri idi. Hətta Qara dənizin şimal tərəfində olan Sebastopol (indiki Sevastopol) onun olduğu yerlərdən biri kimi tez-tez qeyd edilir. Sonralar Mattiyanın geriyə — Yerusəlimə qayıtdığı bildirilir. O burada daşlanaraq öldürülmüşdü. Bəzi mənbələrdə yazılır ki, Yupiter allahına qurban gətirmək istəməmişdi. Başqa mənbələrdə isə deyilir ki, o, Allaha, Musaya və Qanuna qarşı küfr etməkdə ittiham olunaraq çarmıxdan asılmış, daşlanmış və sonra balta ilə boynu vurulmuşdu. Deyilənlərə görə Mattiya Məsihdən inkar etməyəndə belə demişdi: "Qoy qanınız öz başınıza dönsün! Çünki sizin əleyhinizə öz diliniz şahidlik etdi".

# Andrey

## (b.e. 70-ci ili)

Yəqin ki, qardaşı Şimonun icazəsi ilə Andrey müvəqqəti balıq torlarını kənara qoymuş və Vəftizçi Yəhyanı dinləməyə getmişdi. Hamı Yəhyadan danışdığından o, şəhərdə tanınmış bir adam idi. O, insanlara deyirdi ki, Allah qarşısında günahlarını tövbə etsinlər, çünki çoxdan gözlənilən Xilaskar gəlir. Andrey Yəhyanın dediyi sözləri bəyənmişdi. Bu çöl adamı təkcə cəmiyyətin nöqsanlarını kəskin tənqid edən bir adam deyildi, eləcə də o, insanlara tövbə vasitəsilə ümid təklif edirdi. O, insanlara günahları barədə danışırdı və onlar da özlərini günahkar hiss edirdilər. Bununla da Yəhya onları tövbəyə gətirib çıxarırdı. Beləliklə, Andrey Vəftizçi Yəhyanın şagirdi oldu. Sonra dostu Zavday oğlu Yəhya da onlara qoşuldu. Bu, İsanın Özünə şagirdlər seçməyini qələmə alan həmin Yəhya idi. Həvarilərdən ən azı beşi Vəftizçi Yəhyanın xidmət etdiyi ərazidə olmuşdu.

Müqəddəs Kitaba əsasən Andrey İsanı dünyanın günahını üzərinə götürən Allah Quzusu kimi tanımış ilk həvari idi. Kəskin danışan Vəftizçi Yəhya İsanın gəlməli olan Şəxs olduğunu söyləyəndə Andrey onun yanında durmuşdu. Andreyin İsanın vəftizinə şahid olmağı barədə məlumat yoxdur. İsa səhrada qırx günlük orucdan qayıdanda yəqin ki, Vəftizçi Yəhya İsanın kim olduğunu müəyyən etmişdi.

Andrey və onun adı çəkilməyən yoldaşı (yəqin ki, Yəhya) İsaya yaxınlaşdı. İsa onları Özü ilə birlikdə vaxt keçirməyə dəvət etdi. Onlar dərhal Şimonu da bu görüşə çağırdılar. Bir neçə günün içində Filip və Natanael də Allah barədə öyrənmək istəyən bu kiçik qrupa qoşuldu. İsa Qanaya toya gedəndə onlar İsanın ilk möcüzəsinə şahid oldular. Bundan az sonra İsa Şimon və Andreyə dedi ki, torlarını kənara qoyub Onun ardınca getsinlər. Andrey bir daha geriyə boylanmadı.

Andrey insanların hər birinə ayrılıqda vaxt ayırırdı. O, insanların ehtiyaclarına və xasiyyətlərinə diqqət yetirir və onları Məsihin yanına gətirirdi. Andrey öz böyük qardaşı Şimonu İsa ilə tanış etmişdi. Mötəbər insanların da İsa ilə tanışlığında bu şagirdin böyük rolu olmuşdu. Şifahi

mənbələrə əsasən ilk həvari insanları bir-birilə tanış etmək xüsusiyyətinə görə həyatını itirmişdi.

Andreyin adı İsanın etdiyi işlərdə çox az hallarda qeyd edilir. Lakin o, həmişə Rəbbin yanında olmuşdu. Müjdələrdən görürük ki, Andrey həmişə baş verənlərdən xəbərdar idi və kömək etmək üçün yollar axtarırdı.

Andrey beş min nəfərin yedizdirilməsində (Yəhya 6:4–13) öz təklifini irəli sürmüşdü. O, beş çörəyi və iki balığı olan oğlanla yenicə söhbət etmişdi. Uşağın yeməyi çox az idi. Amma İsa bu kiçik xeyir-dua ilə heyranedici möcüzə yaratdı. Yəhya 12:20–26-cı ayələr bir qrup yunanın İsa ilə görüşmək istədiyini qeyd edir. Onlar İsaya yaxınlaşmaq üçün yunan adı olan Filipi seçdilər. Lakin Filip onları tanış etmək üçün Andreydən xahiş etdi. Andreyin adı sonuncu dəfə Həvarilərin İşləri 1:13-cü ayədə qeyd olunur. Bu ayədə onun adı Yəhudanı əvəz etmək üçün Mattiyanı seçərkən on bir həvarinin adları arasında çəkilir. O şübhəsiz ki, həmin maraqlı və coşqun illərdə Yerusəlimdə idi və ilk imanlılar cəmiyyətinin rəhbərləri ilə birgə xidmət edirdi.

Andreyin sonrakı müjdəçilik səfərləri onu şimala — Skifiyaya (cənubi Rusiya) aparmışdı. O, Yəhya ilə birgə Efesə və sonra isə Yunanıstanın Patra şəhərinə gedib çıxmışdı. Andrey orada insanlarla dostlaşmış və onları Xilaskarla tanış etmişdi. İmana gələnlər arasında Romanın yüksək vəzifəli məmuru, Egey adlı valinin arvadı Maksimiliya da var idi. O, arvadının iman etməsinə görə çox əsəbləşərək Andreyi çarmıxda ölümlə hədələmişdi. Andrey isə ona belə cavab vermişdi: “Əgər mən çarmıxda ölümdən qorxsaydım, Məsihin əzəmətindən və izzətindən vəz etməzdim”.

Andrey həbs edilərək məhkəmə qarşısına çıxarılmışdı. Hədələnib qamçılanaraq işgəncələrə məruz qalsa da, o, imanında möhkəm durmuşdu. Deyilənə görə hakim Andreyə yalvarmışdı ki, öz həyatına heyfi gəlsin. Qoca həvari Andrey də ona cavab verərək demişdi ki, hakimin də öz qəlbinə heyfi gəlsin.

Məsihdən dönməyən Andreyin yavaş-yavaş və əzablı tərzdə ölməsi üçün onu “X” formalı çarmıxa bağlamışdılar. Bu xüsusi çarmıx hələ də müqəddəs Andreyin çarmıxı adlanır. Bir mənbə yazır ki, Andrey çarmıxa yaxınlaşanda demişdi: “Ah sevimli çarmıx! Mən səni necə də gözləyirdim. Səni qarşımda görməyimə çox şadam. Mən sənin yanına böyük sülh və gülərüzlə gəlirəm. Çarmıxa çəkilmiş Məsihin şagirdi kimi mən özüm də

çarmıxa çəkilməyi arzulayıram. Çarmıxa nə qədər yaxınlaşıramsa, bir o qədər Allaha yaxınlaşıram və çarmıxdan nə qədər uzaqlaşıramsa, Allahdan bir o qədər uzaqlaşmış oluram”.

Andrey çarmıxda üç gün qaldı və bu vaxt ərzində orada dayanmış adamlara Allahdan danışaraq belə dedi: “Məni bir müddət səfir kimi işlədən Rəbb İsa Məsihə minnətdaram ki, indi bu bədənimə, yəni mənə icazə verir ki, səmimi tövbə ilə əbədi lütfə və mərhəmətə nail olum. Qəbul etdiyiniz Kəlamda və təlimdə möhkəm qalın. Bir-birinizi öyrədin ki, Allahla əbədiyyətdə birgə olasınız və Onun vədlərinin bəhrəsini görəsiniz”. Andreyin səhnə arxasında gördüyü sakit və davamlı xidmətinə görə dəyişilmiş minlərlə həyatlar barədə yalnız göylərdə öyrənəcəyik.

Rəbbin gözündə hər bir
möminin ölümü çox bahadır.

**Zəbur 116:15**

# Yəhuda/Tadday

## (təxminən b.e. 70-ci ili)

İsanın ətrafında Yəhuda adlı ən azı üç adam var idi. Onlardan ikisi İsanın seçdiyi həvarilər idi: Yəhuda İskaryot və Yaqub oğlu Yəhuda/Tadday. Üçüncüsü isə dirilməyə qədər Məsihə iman etməyən İsanın ögey qardaşı Yəhuda idi. İsanın bu ögey qardaşı Əhdi-Cədiddə Yəhuda məktubunu yazıb. İndi haqqında danışdığımız Yəhuda/Tadday isə İsanın sadiq şagirdi idi.

Hətta Müjdəni yazanlar da hiss edirdilər ki, İsanı ələ verən Yəhuda ilə bu sadiq şagird arasında fərq qoymalıdırlar. Hər iki şagird amansız ölümlə dünyasını dəyişmişdi. Birincisi vicdan əzabından özünə qəsd etmişdi (Matta 27:3–10; Həvarilərin İşləri 1:18–20), ikincisi isə İsanın Müjdəsini dünyaya yayarkən yerli adamların əli ilə öldürülmüşdü.

Şagirdlər barədə danışılanda Yəhuda/Tadday bütün Müjdələrdə xatırlansa da, onu az hallarda təklikdə görürük. Yəhya Müjdəsində Yəhudanın təsirli sualı qeyd olunub. “İskaryot deyil, o biri Yəhuda Ona dedi: ‘Ya Rəbb, necə olacaq ki, Özünü dünyaya deyil, bizə zahir edəcəksən?’” (Yəhya 14:22). Həmin sözlərdə biz şagirdlərin İsanın məqsədini başa düşmədiyini görürük. Onlar üçün İsanın Allah Oğlu olduğuna inanmaq çətin deyildi. Lakin onlar Allah Oğlunun dünyada nə edəcəyini səhv başa düşürdülər. Yəhudanın sualının mənası əslində belə idi: “Özünü dünyaya göstərmədən dünyaya necə hökmranlıq edə bilərsən?” İsanın cavabı bir daha aydınlaşdırdı ki, Onun padşahlığı bu dünyadan deyil: “Kim Məni sevsə, sözümə riayət edər, Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq” (Yəhya 14:23).

Bu ayələrdə (Matta 28:19–20 və Həvarilərin İşləri 1:8) İsanın Böyük Tapşırığı — Müjdəni dünyaya çatdırmaq əmri qeyd edilmişdir. Allahın Padşahlığı dünyanın hər yerində, insanların ürəklərində və həyatlarında olacaq. İsa onlara böyük və vacib bir tapşırıq həvalə edərək səlahiyyət və hikmətlə təmin etdi. Onlar yaxşı dərk edirdilər ki, tapşırıqlarını həyata keçirmək asan iş olmayacaq. Rəblə necə rəftar etmişdilərsə, onlarla da

eyni cür rəftar edəcəkdilər. İsa şagirdlərinə həm qələbə çalacaqlarını, həm də Onun kimi əzab çəkəcəklərini vəd etmişdi.

Şifahi mənbələrə əsasən Yəhudanın müjdəçilik xidməti Yerusəlimin şimal və şərqini, hətta Hindistana qədər əraziləri əhatə edib. Yəhudanın da Bartalmay kimi Qara dənizlə Xəzər dənizi arasındakı ərazilərdə və indiki şərqi Türkiyə olan ərazilərdə müjdəçilik etdiyi ehtimal olunur. Buralara Müjdəni gətirən Yəhuda, sonra isə Bartalmay olub. Birinci Yəhuda/Tadday gəlib və səkkiz il xidmət edib. O, təxminən b.e. 70-ci ilində ox və ya cida ilə öldürülərək şəhid olub. Onun ölümü barədə dəqiq məlumat yoxdur. İsanın Xoş Xəbəri adətən yeni ərazilərdə həm iman, həm də müqavimətlə qarşılanırdı. Müjdəni məhv edə bilməyəndə çox vaxt müjdəçiləri öldürürdülər.

İsanın dirilməsi ilə insanlar arasında yaranmış Xoş Xəbərin dalğaları yəqin ki, uzaqlara — hər bir istiqamətə yayılmışdı. Müjdəni ilk dəfə dünyanın bütün guşələrinə çatdırmış insanların tam hekayəsi yalnız göylərdə aydın olacaq.

Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu.

**Filipililərə 1:29**

# Bartalmay/Natanael

## (b.e. təxminən 70-ci ili)

Filip Bartalmayı çağıranda o, könülsüz halda İsanın yanına gəlmişdi. Filip Məsih barədə xəbəri tez çatdırmağa tələsən bir adam idi. Bartalmay İsa barədə eşitdiyi xəbərə istehza və şübhə ilə cavab verdi: "Nazaretdən yaxşı bir şey çıxarmı?" (Yəhya 1:46).

İsa Bartalmayı dərin və düşündürcü sözlərlə qarşıladı. Rəbb onu yaxşı tanıdığını söylədi. Təsəvvür edin ki, kimsə sizi bu sözlərlə salamlayır: "Bu, həqiqətən, ürəyində hiylə olmayan bir İsraillidir" (Yəhya 1:47).

Bartalmay məəttəl qaldı. "Sən məni haradan tanıyırsan?" — deyə o soruşdu. Kiminsə onu tərifləyəcəyini gözləmirdi. Amma o anladı ki, onu yaxşı tanıyan bir Nəfər var. İsanın onun barəsində bilməsi ona çox maraqlı gəldi. İsa Bartalmaya Onunla görüşməzdən əvvəl olduğu məkanı təsvir etdi. Bununla da Bartalmay inandı ki, Filip doğru söyləyir. Həqiqətən də İsa Vəd olunmuş Xilaskar idi. Ona görə də belə dedi: "Rabbi, Sən Allahın Oğlusan, İsrailin Padşahısan!" (Yəhya 1:49). İsa da ona vəd etdi ki, Bartalmay bundan sonra daha böyük möcüzələr görəcək.

İsa səhrada sınağa çəkildikdən sonra beş həvari Onun xidmətinə qoşuldu. Bu həvarilərdən biri də Bartalmay idi. O, Vəftizçi Yəhyadan ayrılıb Andrey, Yəhya, Şimon və Filipə qoşularaq İsanın davamçısı oldu. Biz onu iki adla, Bartalmay və Natanael adı ilə tanıyırıq. Onun adı on iki şagirdin adları sadalanarkən Matta 10, Mark 3 və Luka 6-cı fəsillərdə Bartalmay kimi qeyd olunur. Amma Yəhya 21:2-ci ayədə İsanın dirilməsindən sonra balıq tutmağa gedən və sahildə Onunla birgə səhər yeməyi yeyən yeddi həvarinin adları sırasında onun adı Natanael kimi xatırlanır. Bartalmayın Müjdələrdə hər hansı bir sözü və hərəkəti barədə yazılmır. Lakin İsanın xidmətində həmişə iştirak etmişdi. İrəli çıxıb fikrini söyləyən çılğın xasiyyətli Peterdən fərqli olaraq Bartalmay sakitcə müşahidə edərək öyrənmişdi.

Bartalmay ilə Yəhuda/Taddayın həvari kimi həyat yolları bir-birilə əlaqəlidir. Şifahi mənbələr bildirir ki, o, şərqə Hindistan adlı ərazilərə

qədər gedib çıxmışdı. Lakin tarixdə daha çox güman olunur ki, o, Qara dənizlə Xəzər dənizi arasındakı torpaqlarda xidmət edərək şəhid olmuşdu.

Məsihin Xoş Xəbərini yayanlar həqiqəti söylədikləri üçün çox vaxt həyatlarını itirirdilər. Hətta hamı ilə sülhdə yaşayıb yaxşı işlər görəndə belə imanlılar təqib olunurdular. İnsanlar İsaya necə münasibət bəsləmişdilərsə, onun Müjdəsini yayanlara da elə münasibət göstərmişdilər. Xoş Xəbəri eşidənlərin bəziləri onu qəbul etmirdilər, çünki nəyisə qurban vermək istəmirdilər. Əvəzində Onun elçilərini susdurmağa çalışırdılar.

Biz həm Məsihə sadiq qalmaq, həm də təhlükəsizlikdə yaşamaq istəyirik. Amma bunu yadda saxlamalıyıq ki, Məsihin ən uğurlu və sadiq xidmətçiləri Müjdəni bölüşdükləri üçün insanlar tərəfindən rədd olunmuşdular. Onlar Öz Müəllimləri kimi eyni tale ilə üzləşmişdilər.

Bartalmay həbs olunub dəhşətli bir işgəncəyə məruz qalmışdı. Bu, insanı qamçılamaqla dərisinin tamamilə soyulduğu bir işgəncə növü idi. Bundan sonra onu böyük iztirab içində çarmıxa çəkmişdilər (bəzi mənbələrə əsasən başı aşağı) və o, beləcə Məsih uğrunda şəhidlik zirvəsinə ucalmışdı.

Nə bəxtiyardır salehlik uğrunda
təqib edilənlər! Çünki Səmavi
Padşahlıq onlarındır.

**Matta 5:10**

# Tomas

## (təxminən b.e. 70-ci ili)

Peter və Pauldan başqa Tomasın həyatı barədə o biri həvarilərdən daha çox məlumatımız var. Bunlar bizə şifahi mənbələrdən gəlib çatıb. Tərəddüd etməsi ilə tanınmış bu həvarini müxtəlif xalqlar öz imanlarının banisi hesab edir.

Tomas barədə ən çox Yəhya Müjdəsində qeyd olunub. Amma söhbətlərin hamısı İsanın xidmətinin sonuncu həftələrində cərəyan edir. Onun xasiyyətinin səciyyəvi cəhətləri artan təzyiqlər zamanı daha aydın görünür. İsanı Yerusəlimdə gözləyən, təhlükədən yaxşı agah olan Tomas hamının düşüncəsində olan fikirləri dilə gətirdi. “Biz də gedək ki, Onunla ölək” (Yəhya 11:16). Tomas vəziyyətə digər şagirdlərdən fərqli baxırdı. O düşünürdü ki, əgər İsanın rəhbər kimi padşahlığı barədə ümidləri boşa çıxıbsa, onda bu ölümlə nəticələnəcək. İsanın tez-tez ölümündən danışması bəzi şagirdləri çaşdırmışdı, amma bu, Toması daha çox narahat etmişdi.

Biz Son Şam yeməyində Tomasla yenidən qarşılaşırıq. İsa Atasının evi barədə təsəlliverici sözlər söyləyəndə Tomas fikrini bildirir. Onun həqiqətən də narahat olduğu görünür: “Ya Rəbb, hara gedəcəyini bilmirik, yolu necə tanıya bilərik?” (Yəhya 14:5). Biz Tomasın cəsarətinə görə minnətdar olmalıyıq, çünki onun sayəsində İsa aydın şəkildə Rəbb və Xilaskar kimi Öz rolunu insanlara izah edir: “Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz” (Yəhya 14:6).

İsanın dirildiyi bazar günü axşam Tomas üçüncü dəfə səhnədə görünür. İsa həmin axşam on şagirdə göründü, bircə Tomas orada yox idi. Ola bilsin ki, o, İsanın dirilməsi barədə xəbəri digər şagirdlərdən fərqli qarşılamışdı. Onlar bir yerə yığışmışdılar, amma Tomas ora gəlməmişdi. İsanın orada zühur etməsi barədə Tomasa bildirəndə o, şübhə içində demişdi:

> “O biri şagirdlər Tomasa ‘Rəbbi gördük’ deyəndə onlara söylədi: ‘Əgər Onun əllərində mıxların açdığı yaraları görməsəm, mıxların yerinə barmağımla toxunmasam, böyrünə də əlimi qoymasam, buna heç inanmaram’” (Yəhya 20:25).

Bir həftə sonra onun şübhələrinə son qoyuldu. İsa bütün şagirdlərinin qarşısında göründü və Tomasın şübhələri "Ya Rəbbim və Allahım!" (Yəhya 20:28) deməklə itib getdi. İsa orada iman barədə daha bir vacib xüsusiyyəti göstərdi: "Sən Məni gördüyün üçünmü iman etdin? Görmədən iman edənlər nə bəxtiyardır!" (Yəhya 20:29).

İsa Öz şagirdlərində böyük bir həvəs oyatdı. Həvarilər böyük şövqlə Məsihi gözlə görməyən minlərlə insana Onun Müjdəsini çatdıracaqdılar. Bu insanlar İsanı həyatda görməsələr də, canlarından keçməyə hazır olanların bölüşdükləri Müjdəyə inanacaqdılar. Tomas Yerusəlimdən



*Həvari Tomas b.e. 70-ci ilində Kalaminada yerli camaat tərəfindən işgəncəyə məruz qaldı, onu sobaya atdılar və sonra nizələr ilə bədənini dəlib deşdilər.*

getdikdən sonra onun nə vaxtsa geri qayıtması barədə heç bir məlumat yoxdur. O, şübhələrini arxada qoyaraq dünyanın uzaq guşələrinə həqiqəti bölüşmək üçün yola düşdü. Tomas İsanın vədinin şübhəsiz doğru olduğunu bilirdi. Axı İsa sona qədər onunla olacağını vəd etmişdi.

Tomas İsraildən şimala və şərqə, Babil və Fars ölkələrindən keçərək səyahət etdi. O həm də Hindistanın cənub bölgələrinə gedərək Müjdəni yaydı. Onun Roma imperiyasından kənarlara səyahətləri barədə şifahi mənbələr bu günə qədər gəlib çatıb. Tomasın olduğu yerlər və həmin dövrlərdəki padşahlar əfsanə kimi qəbul olunsa da, sonralar tarixi və arxeoloji tədqiqatlar tərəfindən bunların doğru olduğu təsdiqləndi. Şərqdə, üfüqdən kənarda, inkişaf etmiş mədəniyyəti olan xalqlara Müjdəni çatdırmaq daim həvarilərin fikrində olub. Tomasın getdiyi tiracət yolları min illər mövcud idi. On altıncı əsrdə portuqaliyalı dənizçilər və tədqiqatçılar Müqəddəs Tomas məsihçiləri kimi tanınan xeyli sayda imanlıların mövcud olduğunu aşkar etdilər. Beləliklə, onlar Tomasın həmin ərazilərdə xidmətini sübut etdilər. Tomasın Hindistanla sıx əlaqəsi həvarinin orada xidmət etməsini bir daha təsdiqləyir.

Tomasın şəhid olması barədə müxtəlif mənbələr bildirir ki, hindu kahinləri onun uğurlarına həsəd aparmış və Müjdəni rədd etmişdilər. O, nizə ilə öldürülmüşdü. Tomasın məzarını Hindistanın Çennai şəhərinin Mayilapur rayonunda ziyarət etmək olar.

# Millətçi Şimon/Kənançı Şimon

## (b.e. 74-cü ili)

Şimon yəqin ki, şagirdlərin arasında tez özündən çıxan biri idi. Həvarilərin hər birinin öz tarixçəsi var idi, bəlkə də Şimon axtarışda olan adam idi. İsanın davamçılarına qoşulanda o, Kənançı[2]/Millətçi Şimon kimi tanınırdı. O, Roma hakimiyyətinə qarşı xalq üsyanlarını təşkil edən siyasi hərəkatın üzvü idi. İndiki dövrdə romalılar bu hərəkatı terroristlər adlandırardı. Millətçi Şimon necə də qəribə və qeyri-adi bir insan idi! İsa adi insanlarla yanaşı onlardan tamamilə fərqli olan iki insanı, Matta və Şimonu da seçdi. Matta Romaya satılmış və düşmən ilə birlikdə əməkdaşlıq edən insanları təmsil edirdi. Kənançı Şimon isə romalılara təzyiq göstərmək üçün hətta öz həmvətənlərini belə öldürməyə hazır olan qəzəbli və qanıqara yəhudiləri təmsil edirdi. Ola bilsin ki, Şimon əvvəlcə İsanın ardınca getməyə tərəddüd etmişdi. İsanın xidmətində heç bir zorakılıq yox idi və camaat axışıb Onun yanına gəlirdi. Yəqin ki, Şimon da o biri şagirdlər kimi İsanın yer üzündə padşahlıq quracağını və onları romalılardan azad edəcəyini düşünürdü.

Müjdələrdə Şimonun adı həvarilərin arasında çəkilib, amma hansısa bir sözü və ya əməli ilə qeyd olunmayıb. Gizlində fəaliyyət göstərən biri kimi, o hətta həvarilərin arasında belə özünü göstərməyə cəhd etmirdi. O, sakitcə müşahidə edib öyrənərək yavaş-yavaş dəyişilmişdi. Maraqlıdır ki, İsanı həbs etməyə gələn mühafizəçilərə hücum etmək üçün şagirdlər arasında Şimon ən yaxşı namizəd idi. Amma çılğın təbiətli balıqçı Peter öz xəncəri ilə qarşıya çıxdı.

Lukanın yazdığı Həvarilərin İşləri kitabı əsasən Peter və Paulun xidmətini işıqlandırır. Burada o biri həvarilərin və xidmətçilərin işlərindən az danışılır. Biz digər həvarilərin səyahətləri və gördüyü işlər barədə əsasən məlumatı şifahi mənbələrdən əldə edirik. Biz bilirik ki, məsihçilik birinci əsrdə meşə yanğını kimi yayılmışdı. Bu da Müjdəni təsirli surətdə

[2] İfrat millətçi yəhudi firqəsi yaxud təriqəti.

bölüşə bilənlərin sayəsində olmuşdu. Həm də bizə məlumdur ki, o dövrdə Roma imperiyasının sülhü (*Paks Romana*) olduqca asan və uzun səyahətlər etmək üçün imkanlar yaratmışdı. Həvari Paul yəqin ki, öz müjdəçilik səfərlərində minlərlə kilometr məsafə qət etmişdi. Bəs niyə o biri həvarilər səfərlərə çıxmasın ki?

Şimonun müjdəçilik səfərləri barədə şifahi mənbələr qeyd edir ki, o, az səyahət edilən yerlərə yollanmışdı. O, Yerusəlimdən cənuba və şimala üz tutaraq Misir, Liviya və Mavritaniyadan şimali Afrikanı tam eninə keçərək yuxarıya — İspaniyaya və hətta Britaniya adlandırdığımız adalara gedib çıxmışdı. Bütün bu yerlər Roma imperiyasının hüdudları çərçivəsində idi. Karfagen və İsgəndəriyyə kimi uzaq yerlərdə sonradan çiçəklənən məsihçi icmaları barədə daha çox araşdırılma aparılmalıdır. Həvarilərin İşləri 2-ci fəsildə qeyd olunub ki, Müqəddəs Ruhun gəlişi ilə Müjdəni bölüşmək üçün imkanlar yarandı. Amma həvarilər səfərlərə çıxaraq Müjdəni daha güclü və təsirli surətdə yaydılar. Nəzərə almaq lazımdır ki, Yerusəlimdən kənarda, hər yerdə yəhudi mühacirlər yaşayırdı. Paul bu yəhudi icmalarına Müjdəni bölüşmək üçün bir imkan kimi baxırdı. Paul səfərləri zamanı sinaqoqlara gedib onlara çoxdan gözlədikləri Xilaskar barədə bölüşürdü.

Sonra biz Şimonu Orta Şərqdə görürük. O, Yerusəlimdən şimala və şərqə səyahət edərək Yəhuda ilə birgə müjdəçiliklə məşğul olmuş və Müjdəni Fars ölkəsinədək yaymışdı. Şifahi mənbələrə əsasən Şimon başı aşağı çarmıxa çəkilmiş və sonra mişarlanaraq iki yerə bölünmüşdü.

İbranilərə 11-ci fəsildə müəllif "iman qəhrəmanlarının siyahısı"nı yazarkən o dövrdəki şəhidlərin necə öldürülməsini təsvir etmişdi. Həmin ayələrdə Məsih uğrunda şəhidlərin keçirdiyi işgəncələri görürük:

> "Qadınlar öz ölülərini dirilmiş geri aldılar. Bəziləri işgəncə çəkəndə qurtulmaqdan imtina etdilər ki, dirilib daha yaxşı həyata nail olsunlar; digərləri də təhqir olunub döyüldülər, habelə zəncirlərə və həbslərə məruz qaldılar; onlar daşqalaq edildilər, mişarlanıb bölündülər, qılıncdan keçirilib öldürüldülər. Bəziləri isə qoyun dərisinə və keçi gönünə bürünərək gəzib-dolaşdılar, yoxsulluğa, əzab-əziyyətə məruz qaldılar. Dünya onlara layiq deyildi. Onlar səhralarda, dağlarda, mağaralarda və yeraltı oyuqlarda dolaşıb gəzdilər" (İbranilərə 11:35–38).

"Qoy var-dövlət, qohum-əqrəba
və bu fani həyat da getsin;
onlar bədəni öldürə bilsələr də,
Allahın həqiqəti dəyişməz qalacaq;
çünki Onun səltənəti əbədidir!"

**— Martin Lüterin "Qüdrətli qala" himnindən**



*Müjdəçi Luka b.e. 93-cü ilində Yunanıstanda zeytun ağacından asılaraq öldürülmüşdü.*

# Luka

## (b.e. 93-cü ili)

Luka imanlılar cəmiyyətinin erkən dövrlərini qeydə alan tarixiçi idi. Onun yazdığı Luka Müjdəsindəki İsanın tərcümeyi-halı — Matta, Mark və Yəhya Müjdələrinə uyğundur. Bizim əlimizdə tarixçi İosif Flavinin yazılarından sübutlar da var. Tarixi faktlara gəldikdə isə İsanın həyatının xronoloji ardıcıllığını və Onun yer üzündəki xidməti barədə dəqiq məlumatları Luka və Həvarilərin İşləri kitablarından oxuyuruq.

Luka İsanın həvariləri sırasına aid olmasa da, onlardan çoxu ilə yaxından tanış idi. O, Luka Müjdəsi və Həvarilərin İşləri kitabının giriş bölmələrində öz mövqeyini təsvir edir: “Mən də əvvəlcədən hər şeyi diqqətlə araşdırıb bunları sənə ardıcıllıqla yazmağı münasib bildim. Belə ki sən öyrəndiyin şeylərin doğru olduğunu biləsən” (Luka 1:3–4). Lukanın İsanın doğulması barədə yazdığı məlumatlardan hiss olunur ki, o, hadisələrin şahidi olub (Luka 1,2). Əlbəttə ki, İsanın doğulmasında şahid Məryəm özü idi. Amma Məryəm o xatirələri ömrü boyu ürəyində qoruyub saxlamışdı. Sonra o, hadisələri yadına salıb mülayim xasiyyətli həkimlə bölüşmüşdü.

Həvarilərin İşləri kitabının əsas xüsusiyyətlərindən biri orada “biz” sözünün tez-tez qarşıya çıxmasıdır. Luka Paulun səyahətlərində baş verən hadisələri danışarkən özünün iştirakçı olduğuna yüngülcə eyham vuraraq bəzən “biz” sözündən istifadə edirdi. (Əgər bu doğrudursa, onda Luka ilk dəfə Paulun müjdəçi dəstəsinə Troasda qoşulmuşdu.) Paul Lukanı “sevimli həkim” (Kolosselilərə 4:14) adlandırır. Paulun yanında həkimin olmasının ona böyük faydası var idi. Onların səyahətləri zamanı Luka yəqin ki, qrupun həkimi kimi xidmət göstərmişdi. O təkcə Paulun uzun sürən xəstəliyində ona qulluq etməmişdi. Eləcə də, müjdəçilərin döyülərkən aldıqları yaralarının qayğısına qalmışdı. Luka camaat qarşısında danışan şəxs deyildi. O, köməkçi və baş verənləri qeydə alan biri olduğundan yoldaşlarının çəkdiyi ağır əzabların bəzilərindən canını qurtara bilmişdi.

Amma Lukanın da payına İsa uğrunda əzab çəkmək düşmüşdü. Paul Qeysəriyyədən Romaya gedərkən Luka ona yol yoldaşı olmuşdu.

Adətən müjdəçilik səfərləri ilin mövsümünə görə daha da təhlükəli olurdu. Fırtınaya düşmüş gəmi heyətinin sağ qalması üçün apardığı mübarizəyə Luka şahid olmuşdu və olan hadisəni dəqiqliklə təsvir etmişdi (Həvarilərin İşləri 27). Gəmidə iki həftə ərzində davam edən çətinlik hər bir iştirakçını sınaqdan keçirmişdi. Gəmi qəzasından sonra Luka Maltada bir həkim kimi diqqətini cəlb edən iki hadisəni təsvir edir. Birinci hadisədə, Paulu zəhərli ilan sancır, lakin o ölmür. Adanın sakinləri isə bu hadisəni görüb təəccüblənirlər. İkinci hadisədə isə adanın tanınmış sakinlərindən biri qızdırma və qanlı ishaldan əziyyət çəkir. Amma Allah Paulun duası vasitəsilə həmin xəstəyə şəfa verir. Beləliklə, gəmi qəzasından sonra Müjdəni oradakı insanlara çatdırmaq üçün çoxlu imkanlar yarandı. Allahın məqsədi yerinə yetdi. Çəkilən əzablar öz bəhrəsini verdi.

Şifahi mənbələrə əsasən Lukanın ölümü ilə bağlı ziddiyətli fikirlər mövcuddur. Bəzi mənbələrə əsasən Luka Paulla Romada axıra qədər qalıb və sonra özü böyük müjdəçilik xidmətini davam etdirib. Həmin mənbə bildirir ki, Luka qoca yaşlarında Beotiya[3] adlı yerdə həyatdan köçüb. Güman edilir ki, o dövrdə məsihçilərə qarşı amansızlıqlar olduğundan, Luka Yunanıstanın hansısa bir yerində şəhid olmuşdu. Sevimli həkim şübhəsiz ki, öz yazıları ilə daha çox qəlblərə şəfa vermişdi.

Çünki mənim üçün yaşamaq
Məsihdir, ölməksə qazancdır.

**Filipililərə 1:21**

[3] ola bilsin ki, o yer qədim Yunanıstanda bir ərazi olub.

# Yəhya

## (təxminən b.e. 98-ci ili)

Həvari yoldaşlarından fərqli olaraq Yəhya sevdiyi imanlı cəmiyyətinə xidmət edərək Efes şəhərində rahatcasına bu dünyadan köçmüşdü. Amma o, rahat həyat yaşamamışdı. Yəhya ona düşən ömür payında İsanın on iki şagirdindən biri olmuş, Yerusəlimdə ilk imanlı cəmiyyətin inkişafında iştirak etmiş və Əhdi-Cədidin beş kitabını (Yəhya Müjdəsi, 1 Yəhya, 2 Yəhya, 3 Yəhya və Vəhy) yazmışdı. Yəhyanın şübhəsiz ki, qazandığı uğurlar çox idi, amma o, həyatda etdiyi hər bir işin İsanın onun üçün etdiyi iş ilə müqayisə olunmadığını söyləyən birinci adam olardı. Yəhyanın xasiyyətnaməsi İsanın insan həyatını necə dəyişməsi barədə bizə çox şey öyrədir.

Başqa həvarilərdən bircə Yəhyanın sağ qalması onun keçirdiyi özünəməxsus əzabları göstərir. O biri həvarilərin hamısı əzab çəkib ölmüşdülər, Yəhya isə əzab çəkib yaşamışdı. O, şəhid olmasa da, həyatı şəhidlərin xüsusiyyətlərini nümayiş etdirmişdi. Yəhya bir neçə dəfə əsl şəhidlikdən yalnız Allahın müdaxiləsi ilə qurtulmuşdu.

Yəhya və onun qardaşı Yaqub İsanın şagirdlərinin içərisində ən coşğun və qaynar xasiyyətli üzvlər idi. Bədii təqdimat və şəxsi təəsüratlar çox vaxt Yəhyanın obrazını təhrif edir. Bəli, o, İsanın sevimli şagirdi idi, amma bu o demək deyildi ki, məxsusi xoşagələn xasiyyəti var idi. Yəhya daha çox dövrünün tipik balıqçısına oxşayırdı, qaba xasiyyətli, işgüzar, özünə arxayın və camaat arasında özünü apara bilməyən bir adam idi. İsa Yəhyanı və onun qardaşını "İldırım oğulları" adlandırmışdı, yəqin ki, bu, tərifdən daha çox nəvaziş mənasında işlədilmişdi. Mark onların xasiyyətlərinin başlanğıcdan aydın göründüyünü bildirərək bu xüsusi adı öz Müjdəsinin (3:17) əvvəllərində qeyd edir. Onlar şübhəsiz bu ləqəbə uyğun həyat yaşamışdılar.

Peter, Yaqub və Yəhya dağda İsanının görkəminin dəyişildiyini görəndən sonra həvarilər arasında kimin daha üstün olduğu barədə mübahisə yarandı: "Kim ən böyük sayılacaq?" Rəbb bu mübahisəyə müdrik cavabı ilə son qoydu. Sonra Yəhya İsanın adı ilə cinləri çıxaran bir adamla rastlaşdığını və onlarla birgə getmədiyinə görə həmin adama

mane olduğunu bildirdi (Luka 9:49). Yəhya ustadının bu məsələdə onunla razılaşacağını gözləyirdi. Lakin İsa onu məyus edərək söylədi ki, Öz adındakı gücdən başqalarının da istifadə etməsinə icazə verib.

Amma səlahiyyət və şan-şöhrət qazanmaq uğrunda yarış hələ də bitməmişdi. Luka Yerusəlimə sonuncu səfərdən və Samariyada İsanın qəbul edilmədiyi bir şəhərdə baş verənlərdən danışır. Yəhya və Yaqub ola bilsin ki, Rəbbin davamçıları arasında daha çox səlahiyyətə malik olduqlarını hesab edirdilər, ona görə də özlərini göstərməyə çalışaraq belə bir hərəkəti etməyi üzərlərinə götürdülər: "Rəbb, bunları məhv etmək üçün bir əmrlə göydən alov yağdırmağımızı istəyirsənmi?" (Luka 9:54). Bizə sadəcə deyilir ki, İsa bu təklifə görə "dönüb onlara qadağan etdi". Ola bilsin ki, İsa heç nə deməmişdi, onun üzünü görmələri üçün sadəcə üzünü çevirmişdi. Onun baxışı sözlərindən daha çox təsirli olmuşdu. İsanın ilk şagirdlərini öyrətməsi çox səbr tələb edən və vaxt aparan bir proses idi və bu, həvarilərin həyatında da davam etdi.

Yəhya çətin və ağrılı təcrübədən keçərək sevməyi öyrənmişdi. Müjdədə öz adını İsanın sevimli şagirdi yazmaqla o, ildırım oğlundan məhəbbət oğluna çevrildiyini göstərir (Yəhya 13:23). İsa onu sevirdi. Yəhyanın yazılarından onun məhəbbətlə dolu bir adam olduğu hiss olunur. Evsebi kimi qədim ilahiyyatçılar yazır ki, Yəhya ömrünün sonuna yaxın sadə bir əmrlə insanlara məsləhət verirdi: "Övladlar, bir-birinizi sevin!" Belə görünür ki, bu sözlər onun sevimli şüarı idi. Qoca həvari demişdi ki, əgər bu əmr düzgün qaydada yerinə yetirilərsə, onda başqa hər şey yoluna düşəcək.

Bu gün də həmin sadə, amma dərin məna daşıyan əmr əsl şagird ilə İsanın tərəddüdlü davamçısı arasındakı fərqi göstərir. İmanlılar başlanğıcdan bəri sadəcə imanlarına görə təqib olunub öldürülməmişdilər. Onların həyatları insanlara təsir göstərmişdi. Məhəbbət istənilən vəziyyətdə insana möhtəşəm güc hasil etdiyindən qaranlıq Məsihin davamçılarına qarşı durmuş və onları məhv etməyə çalışmışdı. İnsanları sevən və onları həqiqi sevənlərə çevirən Allahın Müjdəsi qaranlığın nifrət etdiyi hər şeyi təqdim edir.

Şübhəsiz ki, Yəhyanın uzun ömrü əzabsız keçməmişdi. Sevimli həvari həyatda həyəcan doğuran sınaqlarla çox üzləşmişdi. Onun yaşadığı dövrdə məsihçiləri təhqir edib öldürənlər qanuna əməl etmirdilər. Əslində onlar bu yolla bəzən qanunu icra edirdilər. Dostlarının işgəncə ilə ölümü

sözsüz ki, Yəhyaya pis təsir bağışlamışdı. Şifahi mənbələrdə deyilir ki, bir dəfə Yəhyanı qaynar yağa atıb öldürmək istəmişdilər. O, ilahi müdaxilə nəticəsində bu cəzadan qurtulmuşdu. Patmos adasına sürgün edilməsi ölümlə nəticələnə bilərdi. Yəhyanı Patmosa sürgün edən imperator Domisian öləndən sonra həvari geriyə — Efesə qaytarılmışdı. Burada o, iki il bağlı bir yerdə saxlanılmışdı. Deyilənə görə Yəhyanı zəhər içməyə məcbur etmişdilər, amma o, sağ qalmışdı. Nəhayət, İsanın sevimli şagirdi sülh içində öz dünyasını dəyişmişdi.



*Həvari Yəhya*

İKİNCİ HİSSƏ

# İkinci əsrdən iyirminci əsrə qədər olan şəhidlər




*Antakyalı İqnati vəhşi heyvanlar tərəfindən parçalanmışdı.*

# Roma imperiyası dövründə təqiblər

(b.e. 107–404-cü illəri)

İsanın doğulduğu vaxtlarda Roma imperiyasının hökuməti dəyişildi. Yuli Sezarın övladlığa götürdüyü oğlu Qay Oktavi köhnə respublika konstitusiyasını yeni prinsipat[1] sistemi ilə əvəz etdi. Oktavi b.e.ə. 27-ci ildən b.e. 14-cü ilinə qədər qeysər Avqust[2] titulu ilə rəhbərlik edən ilk prinsipat oldu. Prinsipat ömürlük seçilirdi və bu şəxs konstitusiyaya tabe olub Senat ilə əməkdaşlıq etsə də, geniş səlahiyyətə malik idi. Bu da asanlıqla zülmkarlığa gətirib çıxara bilərdi, çünki belə hallar b.e. 64-cü ilində Neronun hakimiyyəti dövründə baş vermişdi.

B.e. 64-cü ilində Romada yanğın baş verdi və buna görə məsihçiləri təqsirləndirdilər. O vaxta qədər məsihçilər yəhudilər kimi eyni üstünlüklərə malik idilər. Məsihçilərin təkallahlıq prinsipləri Romada mövcud olan dini sitayişi sual altına qoysa da, onlara ibadət etməyə icazə verilmişdi. Amma Paul Kiçik Asiyanın[3] qeyri-yəhudi olan əhalisi arasında imanlı cəmiyyətləri yaratmağa başlayanda Roma hakimiyyəti bu dini öz hegemonluğu üçün bir təhlükə kimi gördü. İmperator Neron Paul da daxil olmaqla çoxlu məsihçiləri edam etdirdi.

Növbəti böyük təqiblər 249–251-ci illərdə imperator Desinin hakimiyyəti dövründə başladı. Roma öz ərazilərini, əhalisini və gücünü

---

1 Şərti termin olub Qədim Romanın ilkin imperiya dovrünə xas olan hakimiyyət-idarə üsulunun adı.

2 səkkizinci ayın adı buradan götürülüb.

3 Türkiyə və Yaxın Şərqdə Anadolu adlanır.

itirmişdi. Desi ona sitayiş etməyənlərə qadağa qoymaqla Romanın yüksək mövqeyini qaytarmaq qərarına gəldi. Qısa müddət ərzində sülh hökm sürdü. Sonra imperator Valeri hakimiyyətə gəldi və bütün imperiya boyunca məsihçilərin təqibinə (257-ci il) başladı. Buna baxmayaraq III əsrin sonuna yaxın Roma imperiyasının nəzarəti altında olan bəzi yerlərdə sakinlərin əksəriyyəti məsihçiliyi qəbul etmişdi. İnsanlar romalıların qılıncından qorxmayıb məsihçi olmağı üstün tuturdular.

Məsihçiliyin rəhbərlər və ziyalı şəxslər arasında artmasından qəzəblənən Diokletian IV əsrin əvvəllərində sonuncu böyük təqibə (303-cü ildə) başladı. İmanlılar cəmiyyəti səkkiz il ərzində Romanın din barədə olan qanunlarının ağır təzyiqlərindən əziyyət çəkdi. Milan Tolerantlıq Fərmanından (311-ci il) sonra bütün dinlərə azadlıq verildi. 312-ci ildə döyüş qalxanlarının üzərində Məsihin çarmıx işarəsi olan Konstantin Milviya Körpüsündə Maksentini məğlub etdi. 324-cü ildə Konstantin bütün imperiyanın yeganə imperatoru oldu. O, məsihçiliyin yayılmasını təşviq etdi və özü 337-ci ildə ölümündən əvvəl vəftiz oldu. Onun dəstəyi ilə məsihçilik möhkəmləndi və sonra gözəl natiq olan görkəmli şəxsiyyət, ilahiyyatçı Avqustin (354–430) məsihçiliyə öz töhfəsini verdi. Məsihçilər isə hələ də əziyyət çəkirdilər. Amma bu daha çox sərhəd zonalarında, barbarların bir zaman qüdrətli olan Roma ordusunu hədələdiyi yerlərdə baş verirdi. Amma imperiyanın daxilində imanlı cəmiyyətləri artırdı və rəsmi təqiblər sona çatmışdı.

"Mən indi şagird olmağa hazırlaşıram.
İstər alov, istər çarmıx, istərsə
də sümüklərimi və bədənimi
parçalayan vəhşi heyvanlar olsun,
təki mən İsa Məsihə qovuşum".

**— Antakyalı İqnati**

# Antakyalı İqnati

## (təxminən b.e. 30–107-ci illəri)

"Mən ümid edirəm, sizin dualarınız sayəsində Romada vəhşi heyvanlarla vuruşda uğur qazanacağam" sözlərini yepiskop İqnati Antakyadan Roma imperiyasının paytaxtına gedərkən yazmışdı. Həmin vaxtlarda yetmiş yaşlarında olan İqnati "həvarilərdən sonra gələn atalardan" — həvarilərin özlərinin imanda yetişdirdiyi rəhbərlərdən biri idi. Güman edilir ki, Yəhya özü İqnatini öyrətmiş və Peter onu yepiskopluğa təyin etmişdi. Əfsanələrə əsasən İqnati İsanın Matta 19-cu fəsildə xeyir-dua verdiyi həmin uşaqdır.

İmperator Trayanın hakimiyyəti dövründə (98–117-ci illərdə) məhkəmə İqnatiyə hökm cəzası vermişdi. Onu öldürmək üçün həbsxanadan Romaya, Kolizeyə apararkən yolda yeddi məktub yazmışdı. İqnati hərbi mühafizəçilərin nəzarəti altında Filadelfiyadan Troasa getmiş və Smirnada onu yepiskop yoldaşı Polikarp qarşılamışdı. Orada olarkən İqnati ilk dörd məktubunu yazmışdı. Sonra o, iki imanlı cəmiyyətə və Polikarpa bir şəxsi məktub yazmışdı.

İqnati "Allahı daşıyan" və ya "Allahdan ilhamlanmış" mənasını daşıyan Teofor adını özünə götürmüşdü. O, Məsihi və imanlılar cəmiyyətinin birliyini nəzərdə tutaraq məktubları yazmışdı. İqnati bütlərə səcdə etmədiyi üçün Roma hakimiyyətinə qarşı sədaqətsizlikdə saxta ittihamlarla günahlandırılmışdı. Həmin dövrdə məsihçi rəhbərləri asanlıqla ittiham edə bildikləri üçün İqnatini də dövlətə xəyanətdə qısa vaxtda günahlandırdılar. Rəsmi şəxslər üçün yepiskopun vəzlərinə qulaq asmaq, kimə inandığını soruşmaq və artan məsihçilərlə söhbət etmək kifayət idi. Onlar yeni və güclü ruhani hərəkatın yarandığını hiss edirdilər, çünki məsihçilər əvvəlki kimi Roma hakimiyyətinə tamlığı ilə sadiq olmayacaqdılar. İqnatinin ürəyi üçlük olan Allaha məxsus idi. O, "cinayətlərinə" — öz imanı və Məsihə sadiqliyinə görə məhkəmənin çıxardığı hökm cəzasını sevinclə qəbul etmişdi. Müasir oxucular İqnatinin məktublarının başlanğıcında Paulun salamlama tərzini görürlər:

> "İsa Məsihin kamil sevinci ilə dolu atəşin salamlar... Ata Allahın zənginliyindən siz bol xeyir-dua almısınız, daimi və solmayan izzətdən zövq almaq üçün əbədiyyətdə əvvəlcədən təyin edilmisiniz. Sizin birliyinizin mənbəyi Ata Allahımızın və İsa Məsihin iradəsi ilə keçirdiyiniz həqiqi əzablardır".

İqnati "son günlər"in gəlib çatdığına inanırdı. Onun üçün istər həyat, istərsə də ölümün artıq heç bir mənası yox idi. İqnati Romaya səfərindən zövq almışdı, onu ölümə gedən yol deyil, qələbə adlandırmışdı. O, imanlılardan xahiş etmişdi ki, "duada yorulmasınlar" və "Rəbbin süfrəsini qəbul edib Onu izzətləndirmək üçün tez-tez toplaşsınlar", çünki belə bir ibadət "şeytanın qüvvələrini məğlub edir".

Yepiskop İqnatinin nə səlahiyyəti, nə də var-dövləti var idi. Sonralar yepiskoplar bunlardan istədikləri kimi istifadə edib öz xeyirləri üçün faydalanırdılar. Lakin onun yaşadığı əsrdə yepiskop yaxşı təşkil olunmuş kilsə hakimiyyətində yeparxiyanın[4] başçısı deyildi. O sadəcə bir imanlı cəmiyyətin rəhbəri idi. Özünü tamlığı ilə Məsihə həsr edən İqnati imanlı cəmiyyəti qurmuş, öyrətmiş, həvariləri dəfn etmiş, onların yazılarını toplamış və imperatorun qızğın qəzəbi qarşısında durmuşdu. İqnati həm də məsihçilərin arasına soxulmaq istəyən kafirlər və fırıldaqçılarla mübarizə aparmış rəhbərlərdən idi. Bu kafirlərin fikrincə Allah sükut edib danışmırdı. Amma İqnati "Sükutdan — əbədi Həyatımızdan gəlmiş Kəlamı, Allah Oğlu İsa Məsihi" yaxşı tanıyırdı. Öz bədəni şirlər tərəfindən parçalanana qədər bədən almış Kəlamın — İsanın ardınca getdi. İqnati Romaya şəhid olmağa gedərkən imanlı cəmiyyətlərə belə yazmışdı: "Siz Allahın xilas barədə Xoş Xəbərinə görə sevinməyə layiqsiniz". İqnati özü də hər addımında sevinirdi.

"Mən indi şagird olmağa hazırlaşıram. Mən görünən və görünməyən heç bir şeyin arzusunda deyiləm, yalnız Məsihi qazanmaq istəyirəm. İstər alov, istər çarmıx, istərsə də sümüklərimi və bədənimi parçalayan vəhşi heyvanlar olsun, təki mən İsa Məsihə qovuşum".

---

[4] bir yepiskopun idarə etdiyi ərazi bölgüsü

# Smirnalı Polikarp

## (təxminən b.e. 70–155-ci illəri)

Səksən yaşlarında olan məsihçi Polikarp bilirdi ki, həyatı təhlükədədir. Bir qrup məsihçi imanlarına görə yenicə meydanda edam edilmişdi. Amma Polikarp qaçıb Romanı tərk etməmişdi. Romalılar özünü məsihçi bəyan edən hər bir kəsi edam edir və bütpərəstlər tanıdıqları məsihçiləri ələ verirdilər. Məsihçilərin edamından sonra meydana toplaşmış izdiham qışqıraraq Polikarpın ölümünü tələb etmişdi.

Smirnanın yepiskopu (baş kahin) olan tanınmış Polikarp həvari Yəhyanın himayəsi altında məsihçi olmuşdu. Roma prokonsulu neçə gün idi ki, onu axtarırdı. Onlar Polikarpın xidmətçilərindən birini həbs edib işgəncə verdilər. Bununla da yepiskopun harada olduğunu öyrəndilər. Əsgərlər Polikarpı həbs etmək üçün evinə gələndə o qaçıb gizlənmək əvəzinə sakitcə dedi: “Qoy Allahın iradəsi olsun”.

Polikarp əsgərlər üçün yemək gətirilməsini xahiş etdi və dua etmək üçün bir saat vaxt istədi. Yaşlı bir kişinin heç nədən qorxmadığını görən romalı əsgərlər ona icazə verdilər. O, tanıdığı bütün məsihçilər və dünyada olan bütün imanlı cəmiyyətləri üçün iki saat dua etdi və əsgərlər də ona mane olmadılar.

Yaşlı yepiskop stadiona daxil olanda orada olan bir neçə məsihçi göydən bir səs eşitdi: “Polikarp, güclü ol və əsl kişi kimi hərəkət et”. Yaşlı olduğuna görə Roma prokonsulu ona yaşamaq üçün sonuncu bir şans verdi. O, sadəcə Qeysərin adına and içib “Allahsızları yox et[5]” deməli idi. Polikarp isə bağıran izdihama baxdı və barmağını onlara uzadaraq dedi: “Allahsızları yox et!”

Prokonsul yenə də təklif etdi: “And iç və səni sağ buraxım. Məsihdən dön!”

Polikarp ona tərəf çevrilib cəsarətlə bəyan etdi: “Səksən altı ildir ki, Ona xidmət edirəm və O mənə heç bir pislik etməyib. Məni xilas edən Padşahıma necə küfr edə bilərəm?”

---

5 Həmin dövrdə məsihçilər yunan və Roma allahlarına ibadət etməkdən imtina etdikləri üçün allahsızlar adlandırılmışdı.

Prokonsul yenidən ondan xahiş etdi: "Qeysərin ilahi gücünə and iç!"

Amma Polikarp cavab verdi: "Sən əbəs yerə düşünürsən ki, mən Qeysərin ilahi gücünə and içəcəyəm və özünü elə aparırsan ki, guya kim olduğumu bilmirsən. Amma diqqətlə qulaq as: Mən məsihçiyəm!"

Prokonsul onu hədələdi: "Mənim vəhşi heyvanlarım var. Əgər yolundan üz döndərməsən, səni onlara atacağam".

Polikarp ona dedi: "Qoy gəlsinlər! Çünki biz üzümüzü yaxşıdan pisə döndərə bilmərik, amma şər olandan saleh olana tərəf dönmək bizim üçün şərəfdir".

Prokonsul sonra Polikarpı alovla hədələdi. O isə cavabında dedi: "Sən məni bir saat yanan və tez sönən alovla hədələyirsən, çünki sən gələcək mühakimənin alovundan və allahsızları gözləyən əbədi cəzadan xəbərsizsən. Daha niyə gecikdirirsən? Ürəyin istəyəni et".

Nəhayət, prokonsul carçını meydanın mərkəzinə göndərdi ki, Polikarpın Məsihə iman etdiyini camaata elan etsin. İzdiham qışqıraraq Filip Asiarkdan Polikarpı şirlərə atmasını tələb etdi, amma o buna məhəl qoymadı. Sonra camaat Polikarpın yandırılmasını istədi və o, bazar meydanına aparıldı. Orada bu sadiq məsihçinin yandırılması üçün edam dirəyi hazırlandı. Yepiskop paltarlarını soyunub oraya çıxdı və dirəyə mismarla bərkidiləndə onlara dedi: "Qoyun necə var, elə də qalım. Mənə bu alova dözməyə güc verən dirəyə bərkidilmədən də bu tonqalda qalmağa dözüm verəcək". Beləliklə, onu mismarla bərkitməyib sadəcə dirəyə bağladılar. Əsgərlər odun hazırlayarkən Polikarp cəsarətlə dua etdi:

> "Ey Küll-İxtiyar Rəbb, sevimli və xeyir-dualı Oğlun Atası! Biz İsanın vasitəsilə mələklərin, qüvvələrin və bütün yaradılışın Allahını tanıdıq. Eləcə də, Sənin qarşında yaşayan salehlər barədə bilik əldə etdik. Mən bu günə, saata və Məsihin kasasından içən şəhidlərdən biri olmağa məni layiq bildiyinə görə Sənə şükür edirəm. Müqəddəs Ruhun ölməzliyi ilə canın və bədənin ədəbiyyətdə dirilməsi üçün minnətdaram. Ey saleh və həqiqi Allah, qoy bu gün kökəldilmiş və məqbul qurban kimi şəhidlərin sırasına qəbul olunum. Əbədi və səmavi baş kahin olan sevimli Oğlun, İsa Məsihdə hər bir şeyə görə Sənə təşəkkürümü bildirirəm. Qoy Məsih vasitəsilə Allah sonsuzadək izzətlənsin. Amin".

Romalılar Polikarpı vəhşi heyvanlar və alovla hədələdilər, amma heç nə onu Məsihdən döndərə bilmədi. Bu duadan sonra tonqala od vurdular, alovun dilləri dərhal yuxarı qalxdı. Amma alov yepiskopa toxunmadı və onun üzərində bir qövs yaratdı. Sonda romalılar edam edənə əmr etdilər ki, onu xəncərlə öldürsün. Məsihin bu sadiq xidmətçisinin tökülən qanı alovu söndürdü və Polikarp gözlərini bu dünyaya əbədi yumdu.

Belə ki imanınızın sınaqdan
keçməsi İsa Məsihin zühurunda
sizə tərif, izzət və şərəf gətirsin.
Bu imanınız odla təmizlənsə belə,
fani qızıldan daha çox dəyərlidir.

**1 Peter 1:7**

# Şəhid Yustin

## (təxminən b.e. 100–165-ci illəri)

Şəhid Yustin nə vaxtsa Roma imperiyasının əlində amansızcasına öldürüləcəyinə heç şübhə etmirdi. Onun yaşadığı dövrdə edam olunmaqla bu həyatdan o biri dünyaya köçmək adi bir hal idi. Roma hakimi istəyirdi ki, camaat imperatora və ya büt allahlara sadəcə baş əyməklə hörmət etsinlər. Sadiq məsihçilər bunu etmədiklərinə görə ittiham olunurdular. Yustin də belə bir tale ilə üzləşəcəyini gözləyirdi. Amma həmin vaxt gəlib çatana qədər o artıq yaşa dolmuşdu.

Yustin özünü müzakirə və sübutlarla məşğul olmağa həsr etmiş bir alim idi. Bu indiki zamanda adi görünsə də, həvarilərdən sonrakı onilliklərdə ilk imanlı cəmiyyətləri üçün olduqca əhəmiyyətli idi. Bu zəkalı oğlan Samariyanın qədim Şekem şəhərində bir bütpərəst ailəsində doğulub boya-başa çatmışdı. O, Roma və Yunanıstanın fəlsəfə məktəbi olan stoaçıların və platonçuların yazılarını dərindən öyrənmişdi. Sonra naməlum yaşlı bir kişi həqiqət üçün susamış Yustini Məsihlə tanış etmişdi. Nəhayət, otuz yaşlarlarında o, həyatını və şüurunu "dəyərli fəlsəfəni" öyrədən yeganə Şəxsə, İsa Məsihə təslim etmişdi.

Bundan sonra Yustin ağlını həmin həqiqəti səylə və böyük qətiyyətlə yaymağa sərf etdi. Gənc alim Allah üçün qəlbindəki böyük həvəs və antik fəlsəfənin alətləri ilə silahlandı. O, yəhudilər və qeyri-yəhudilər ilə Müjdənin dəyərləri, Məsihin həqiqəti, eləcə də saleh və mərhəmətli olan Allahın gələcək mühakiməsi barədə müzakirələr edirdi. Çox vaxt deyilir ki, Yustin Pauldan sonra məsihçi imanının universal anlayışlarını qavrayan ilk məsihçi mütəfəkkir idi. Bu universal anlayışlara əsasən Allahın məhəbbətini hamı əldə edə bilər; Məsihin dirilməsi günahın dəhşətli cəzasına həmişəlik cavab oldu.

İmanda möhkəm olan və erkən imanlılar cəmiyyətinin nəzəriyyəsini aydın ifadə edən Yustin öz ətrafındakılara qarşı etinasızlıq etmirdi. O, mədəniyyəti düzgün qiymətləndirir, insanları və dövrləri yaxşı anlayırdı.

Yustin öyrədirdi ki, insan həqiqəti bütpərəstlərin fəlsəfəsində də tapa bilər. Allah bütpərəst filosoflara Məsihin mərhəməti vasitəsilə həqiqət

barədə bir az təsəvvür verib. Amma bu təsəvvür əsl mahiyyət deyil, sadəcə kiçik bir nümunə idi. Bütpərəstlər Məsihə gəlməyincə həqiqəti tamlığı ilə dərk edə bilməzlər, çünki əsas mahiyyət İsadır. O, Kainatın yer üzünə gəlmiş Kəlamıdır. Yustinin dünyagörüşü qeyri-məsihçilərin mədəniyyətlə bağlı əsərlərində və yazılarındakı yaxşı, həqiqi və gözəl olanları başqa məsihçilərin görməsi üçün yol açacaqdı. Cəsarətli və qətiyyətli Yustinin məsihçi imanı barədə "apologiya[6]"sı təsdiqlədi ki, yalnız Məsih Rəbdir və digər allahlar rədd edilməlidir.

O, məsihçilərin satqın, əxlaqsız, zəif və üsyankar olduqları barədə geniş yayılmış fikirlərə qəzəblənirdi. Əsərlərinin böyük hissəsi məsihçi əqidəsinin ictimaiyyətə verdiyi dəyərləri təsvir edirdi. Yustin Roma rəhbərlərinə demişdi ki, İsanın davamçılarına hörmət edilməli və nümunəvi vətəndaşlar kimi irəliyə çəkilməlidirlər. Bu məsihçilər imanlarına, Məsihin xeyirxahlığına görə imperiyaya böyük möhkəmlik verirdilər. "Əslində bizlər hamımız qaydalara düzgün əməl etməkdə sizin ən yaxşı köməkçiləriniz və müttəfiqlərinizik". Amma alim həm də xəbərdarlıq etmişdi: "Məsihçilərdən yalan qarşısında səcdə etməyi tələb etməyin!"

Bu tələb Yustinin otuz beş il təlim keçib vəz etdikdən[7] sonra taleyini möhürlədi. İmperator Mark Avrelinin hakimiyyətinin erkən dövrlərində Yustin və altı nəfər həbs edilib prefekt[8] Rustikin qarşısına çıxarıldı. Əlbəttə, Yustin qrupun nümayəndəsi idi. Lakin o, etirafına və müdafiəsinə başlayan kimi prefekt vəzi dinləməkdən yoruldu və məsihçilikdən üz döndərib Qeysərə səcdə etmələri barədə qəti qərar çıxardı. Onların hər biri bundan imtina etdi və Rustik ağır hökm cəzasını bəyan etdi. Tezliklə Yustin və onun yoldaşları qamçılandı və boyunları vuruldu, amma həqiqət isə susdurulmadı. Yustin "Birinci Apologiya"sının başlanğıcında yazmışdı: "Həqiqəti sevən şəxs, hətta öz həyatı bahasına başa gəlsə də, ölüm onu məhv etsə də, hər vəziyyətdə doğru olanı deməli və etməlidir. Siz bizi öldürə bilərsiniz, amma heç bir zərər yetirə bilməzsiniz".

---

6 Məsihçi ilahiyyatında təlimi əsaslı dəlillərlə sübut edən əsər

7 Onun heç vaxt rəsmi kilsə idarəsi olmamışdı.

8 Qədim Romada ərazilərə nəzarət edən məmur.

# Skilliumdan olan şəhidlər

## (180-ci il)

Şimali Afrikanın Roma əyalətində — Skilliumda[9] qızmar bir yay günü idi. Altı məhbus məhkəmə zalında Roma prokonsulunun qarşısında dayanmışdı. Bu, axırıncı məhkəmə idi və onlara hökm oxunacaqdı. Prokonsul Saturnin məhbuslara müraciət etdi: "Əgər ağlınızı başınıza yığsanız, siz bizim Ağamız İmperatorun mərhəmətini qazana bilərsiniz".

Bu kiçik qrupun nümayəndəsi olan Sperat təqsirsiz olduqlarını bəyan etdi: "Biz heç vaxt səhv iş görməmişik. Bizə qarşı pis rəftar edildikdə minnətdarlığımızı bildirmişik, çünki biz öz *İmperatorumuza* qulaq asırıq".

Prokonsul onları yenidən inandırmağa çalışdı: "Biz də mömin insanlarıq və bizim dinimiz sadədir: Biz İmperatorun ilahiliyinə and içirik və onun sağlamlığı üçün dua edirik. Siz də bunu etməlisiniz".

Sperat ona dedi: "Əgər siz mənə qulaq assanız, sizə sadəliyin sirrini izah edərəm".

Amma Saturnin hirslə ona cavab verdi: "Əgər sən bizim müqəddəs mərasimlərimizi pisləsən, sənə qulaq asmayacağam. Yaxşısı budur, bizim imperatorumuzun ilahiliyinə and içəsən!"

Məhbus sakit tərzdə cavab verdi: "Mən bu dünyanın imperiyasını tanımıram, əslində mən 'insanlardan heç kəsin görmədiyi və görə də bilmədiyi' (1 Timoteyə 6:6) Allaha xidmət edirəm. Mən heç nə oğurlamamışam və aldığım hər bir şeyin vergisini ödəmişəm, çünki mən Rəbbimi, Padşahların padşahını və bütün xalqların İmperatorunu tanıyıram!"

Sonra prokonsul üzünü o biri məhbuslara çevirib dedi: "Bu əqidədən əl çəkin!"

Sperat ona cavab verdi: "Qatillik etmək və ya yalan şahidlik etmək özü şər əqidədir".

Saturnin ona etiraz edib dedi: "Bu ağılsızlıqda iştirak etməyin!"

Digər məhbus Sittin danışdı: "Bizim göylərdə olan Allahımızdan başqa heç kimdən qorxumuz yoxdur!" Sonra üç məhbus qadından biri olan Donata əlavə etdi: "Qeysərə Qeysər kimi hörmət edin, amma Allahdan

[9] qədim Karfagen şəhərinin, indiki Tunis şəhərinin yaxınlığında yerləşən bir şəhər

qorxun". İkinci qadın Vestiya uca səslə dedi: "Mən məsihçiyəm!" Üçüncü qadın Sekunda isə etiraf etdi: "Mən məsihçilikdən dönmək istəmirəm".

Prokonsul qrupun nümayəndəsi Sperata müraciət edərək dedi: "Sən də məsihçilikdən üz döndərməyəcəksən?" O cavab verdi: "Mən məsihçi olaraq qalacağam". Bütün qrup da məsihçi olduqlarını təsdiqlədi.

Sonra Saturnin taktikasını dəyişərək məhbuslara dedi: "Bu məsələ barədə yaxşı-yaxşı düşünmək üçün vaxt istəyirsiniz?" Sperat dərhal ona cavab verdi: "Belə aydın məsələdə müzakirəyə ehtiyac yoxdur".

Prokonsul onlardan soruşdu: "Çantanızda nə var?"

Sperat cavab verdi: "Saleh insan olan Paulun kitabları və məktubları".

Prokonsul təkid etdi: "Sizə otuz gün vaxt verirəm ki, yenidən düşünəsiniz".

Amma Sperat israrla dedi: "Mən məsihçiyəm!" Bütün qrup da məsihçi olduqlarını təsdiqlədi.

Nəhayət, prokonsul fərmanı oxudu:

> "Sperat, Nartal, Sittin, Donata, Vestiya, Sekunda və qalanları məsihçi qaydalarına əsasən yaşadıqlarını etiraf etdilər. Onlara Roma adət-ənənələrinə qayıtmaq imkanı verilsə də, inadkarlıqla öz yollarından dönmədikləri üçün qərara alındı ki, qılıncla ölümə məhkum olunsunlar".

Sperat dedi: "Biz Allaha minnətdarıq". Nartal ona qoşuldu: "Biz bu gün şəhid olub cənnətə gedəcəyik. Allaha şükür olsun".

Prokonsul çarçıya əmr etdi ki, əvvəl ittiham edilmiş altı məhbusla birgə onların ölüm hökmünü elan etsin. Bu qrup 180-ci il, iyulun 17-də edam olundu. Onlar bədəni öldürüb, lakin canı öldürə bilməyənlərdən qorxmadılar. İnsanlar qarşısında Məsihi iqrar edən bu məsihçiləri Rəbb də göylərdə Atasının qarşısında iqrar etdi (Matta 10:28, 32).

# Perpetuya, Felisiti və Blandina

## (203-cü il)

Perpetuya Məsihdə imanlı bacılar kimi birlikdə öləcəklərini düşünərək cəsarətlə Felisitini qollarının üstünə almışdı. Öküzün buynuzları artıq Felisitini yaralamışdı. İzdiham isə qışqırtı və hiddət içərisində yaralının öldürülməsini tələb edirdi. Birdən müəmmalı bir tərzdə öküz sakit dayandı. İzdiham içərisində bir sükut yarandı. Heyvan əmrə tabe olmurdu. Bu dəfə artıq izdiham dözməyib bu işin sona çatdırılmasını istədi və qladiatorlar onları öldürmək üçün irəliyə çıxdılar. Felisiti dərhal dünyasını dəyişdi. Perpetuyanı edam edən şəxs tərəddüd edəndə qadın özü ona kömək etdi ki, qılıncını onun bədəninə saplasın.

Kolizeydəki izdiham heç vaxt belə bir mənzərənin şahidi olmamışdı. Perpetuya zəngin bir ailədə böyümüşdü. Atası bütpərəst, anası və qardaşları isə məsihçi idilər. Perpetuya Məsihi iqrar etdiyi üçün həbs olunanda südəmər körpəsi var idi. Atası qızından ailəsinə görə imanından dönməyi xahiş etmişdi. Hətta məmurlar da ondan Roma hakimiyyətinə sadə bir qurban gətirməsini istəmişdilər. İmanlı gənc qadın isə bundan imtina etmişdi. Perpetuya öz adının bir məsihçi adı olduğunu və Məsihi inkar etməyəcəyini demişdi.

Qul qadın olan Felisiti hamilə idi. Roma qanunlarına əsasən hamilə qadının edamı qadağan edildiyinə görə ölüm hökmü təxirə salınmışdı. Felisiti həbsxanada körpə qızını dünyaya gətirdi, körpəni məsihçilər övladlığa götürdülər. Uşağı doğulandan dərhal sonra mühafizəçilər bu qadından meydanda vəhşi heyvanlarla necə üzləşəcəyini soruşanda o belə cavab vermişdi: “İndi əzablarım yalnız mənə məxsusdur. Amma vəhşi heyvanlarla üz-üzə gəlib Onun uğrunda əzab çəkəndə məndə bir başqası yaşayacaq və mənim üçün əzab çəkəcək”.

Bu iki fərqli təbəqədən olan qadın insanlar qarşısında alçaldılıb əzab çəkərkən mətanətli olub hamını heyrətləndirəcək bir sevinc nümayiş etdirdilər. Bir neçə dəfə bəraət qazanmaq təklif olunsa da, qadınlar

canlarını qurtarmaq üçün edilən xahişlərə məhəl qoymadılar. Onlar işgəncəli sınağa dözmək üçün səmavi ümidə və bir-birilərinə sarıldılar. Roma tələbləri ilə razılaşmayıb xahiş etdilər ki, zindanda olarkən vəftiz olunsunlar. Perpetuya demişdi: "Zindan mənim üçün saraydır". Sonra Perpetuyaya və yoldaşlarına vəhşi heyvanlara atılacaqları bildirilmişdi. Bu cəsarətli məhbuslar isə Allahın izzəti üçün ölümü təsəvvür edərək böyük ruh yüksəkliyində zindana qayıtmışdılar. Bu qadınlarla yanaşı həbs edilən üç kişi qladiatorların döyüşündə iştirak etməyə məcbur olunmuşdu. Onların ikisi vəhşi heyvanlar tərəfindən öldürülmüş, o birisinin isə boynu vurulmuşdu.

Perpetuya isə qan gölməçələri və qarmaqarışıqlığın içərisində məğrur durdu. Öküz bu mətanətli qadını kənara vurub atanda, onun heç bir yeri zədələnmədi, sadəcə saçları üzünə dağıldı. O xahiş etdi ki, saçlarını yığmaq üçün ona icazə verilsin, çünki saçların üzə tökülməsi kədər əlaməti hesab olunurdu. Amma bu gün onun üçün qələbə və sevinc günü idi.

Axırıncı şəhid olan məsihçi qul Blandina idi. Qızı dirəyə bağlayıb vəhşi heyvanların qarşısına qoysalar da, ona hücum etmədilər. Dəfələrlə işgəncə verdikdən sonra Blandinanı tora saldılar və öküz qızı tapdalayaraq öldürdü. Bütün şəhidlərin cəsədləri meydanda qalıb əsgərlər tərəfindən mühafizə olundu.

Ölüm qarşısında məsihçilərin belə cəsarət göstərməsi romalılara böyük təsir bağışladı. Sonadək Məsihə sadiq qalan imanlılar həyatlarını qurban verdilər. Bu müdhiş səhnəyə şahid olanlardan, Romanın valisi də daxil olmaqla bir neçəsi məsihçiliyi qəbul etdi.

# Origen

## (185–254-cü illər)

Erkən kilsə atalarından biri olan Origen Müqəddəs Kitabın ilk mətnşünas alimi və şərhçisi idi. O, məsihçi ehkamlarını formalaşdıran ilk insan olmuşdu. Bu misirli dahi imanlı ailəsində boya-başa çatmış və məsihçiliyin erkən dövrlərində yaşamışdı. Təqiblər zamanı Origen səyahət edərək Kəlamı başqalarına öyrətmişdi. O dövrdə imperatorlar Septimi Sever (202-ci il), Karakalla (215) və Desi (250-ci il) məsihçiləri təqib etmişdi.

Origenin atası Leonid 215-ci ildə şəhid olmuşdu. Bir yeniyetmə kimi o, təqiblərin yaratdığı ağrı-acını həyatında yaşamışdı. Origen də ölümə gedənlərə qoşulub şəhid olmaq istəyirdi. Amma anası paltarlarını gizlətdi və onu evdən bayıra çıxmağa qoymadı.

Origen dini təlimatlar məktəbində dərs keçməyə başlamışdı. Məsihçi müəllim şagirdlərinin məhkəmələrində və əzablarında yanlarında dayanmışdı, onların bir çoxu şəhid olmuşdu. Amma ona toxunmamışdılar. Bu məsihçi alim pulunu kasıblara paylayaraq, yalnız bir paltoya sahib olub döşəmənin üstündə yataraq təvazökar bir həyat sürmüşdü.

İmperator Karakallanın təqiblərindən qaçaraq Origen vəz edib öyrətmək üçün indiki İsrail torpaqlarına getmişdi. On beş il sonra o, kahin təyin edilmək üçün geriyə qayıtmışdı.

Desinin tərəfdarları təxminən altmış beş yaşlı Origeni həbs edib zəncirləyərək işgəncə verdilər. Sonra isə onu azadlığa buraxdılar. Amma aldığı yaralardan o tezliklə dünyasını dəyişdi.

İndi onun yazıları tarixçi və alimlər tərəfindən tədqiq olunur. Bu alimin düşüncələrində yunan fəlsəfəsinin təsiri hiss olunduğuna görə bəziləri onu tənqid edirlər. Buna baxmayaraq onun "Dua haqqında" kitabında Allaha olan sevgisi və xidmət etmək istəyi təsvir olunur. Origenin həyatı iman yolunda necə dözümlü olduğunu əks etdirir.

# Kiprian

## (təxminən 200–258-ci illər)

Kilsə parçalanmışdı. Karfagendə imanlılar qəzəbli imperator Valerinin təqiblərinə qarşı möhkəm dayanmışdı. Amma bu bütün imanlılara aid deyildi. Bəziləri təzyiq altında təslim olub Romanın heykəldən olan allahlarına qurbanlar gətirərək Məsihə imanlarından üz döndərmişdilər. İndi artıq Valerinin hakimiyyəti və onun təqibləri sona çatmışdı. Bu qorxaqlar yenidən kilsəyə qəbul edilsinmi? Yepiskop Kiprian bu məsələni həll etdikdən sonra kilsədə imanlılar arasında birliyə rəhbərlik edəcəkdi. Əslində o özü də təqiblərdən qaçmaq üçün başqa yerdə didərgin kimi yaşamışdı. Kiprianın bu işi görmək üçün nüfuzu var idimi?

Kiprianın həyatının erkən dövrləri barədə məlumat yoxdur. Onun varlı məsihçi ailəsindən olduğu və yaxşı təhsil aldığı güman edilir. Karfagendə hörmət sahibi olan bu şəxs təxminən qırx yaşlarına yaxın Məsihi tanımışdı. Həqiqəti necə tapdığını bilməsək də, İsanın yolunda şəhidliyi onun iman həyatını sübut etmişdi. Kiprian yoxsulluq və nikaha girməmək barədə əhd vermişdi. O, imanında möhkəmlənərkən fikrinin yayınmamasına görə yalnız Müqəddəs Kitabı oxumaq üçün dünyəvi müəlliflərin kitablarından imtina etmişdi. İmanlı yoldaşlarının rəğbətini qazanmış Kiprian Məsihi tanıdıqdan iki il sonra 248-ci ildə Karfagendə kilsənin yepiskopu təyin olunmuşdu. Amma həmin dövrlərdə yepiskoplar üçün hər yerdə təhlükə var idi.

Desi 249-cu ildə imperator oldu. Roma imperiyasını şimaldan qotlar[10], daxildən isə zorakılıqlar təhlükəyə salmışdı. Desi bunu imperatora sadiqlik andı içməklə yoluna qoymaq istədi. Onun məqsədi xüsusilə məsihçi rəhbərlərini aradan götürmək idi. İmperatorun əmrinə əsasən hər kəs Roma allahlarına ümumi qurban gətirməli, heyvanın qanı axıdılmalı və sonra əti yeyilməli idi. Romanın səlahiyyətli şəxsləri bu əmri icra edən hər kəsə xüsusi bir qəbz verirdi. Bu qəbzlər təqib olunmamaq üçün dini mərasimdə iştirakı təsdiqləyən bir sənəd idi.

---

[10] şərqi german tayfası

İki il davam edən Desinin təqibləri ən qanlı təqiblər dövrü hesab olunur. Kilsə tarixində heç vaxt bu qədər məsihçi imanından dönməmişdi. Roma imperatoruna səcdə edənlər öz qəbzlərini, həm də imandan dönüklük qəbzlərini daşıyırdılar. Desi döyüşdə öldü və təqiblər bitdi. Onun hakimiyyəti dövründə Karfagendə on səkkiz məsihçi şəhid oldu. Kiprian ölkədən qaçdığına görə sağ qaldı. 251-ci ildə o geriyə qayıtdı.

İmperator Valerinin hakimiyyəti dövründə 258-ci ildə təqiblərin başqa bir dalğası qalxdı. Bu dəfə Kiprian ölkədən qaçıb getmədi. Yepiskop ilk həbs olunan şəxs idi və ondan tələb olundu ki, başqa məsihçi rəhbərlərin adlarını açıqlasın. Kiprian bundan imtina etdi və edam olunmağını gözləyərkən yaxınlıqdakı Siqva mədənlərinə sürgün edilmiş doqquz məsihçiyə məktub yazdı: "Qoy hər cür qəddarlıq bacaracağı qədər sizi burada öz buxov və zəncirlərində saxlasın. Yer üzündən və bu əzablardan siz sürətlə səmavi padşahlığa qovuşacaqsınız. Bədənləriniz mədənlərdə taxt və yastıqlarda deyil, Məsihin təravəti və təskinliyi ilə rahatlanır".

Kiprian Rəbbin əzəmətini təbliğ etmək üçün öz edamından istifadə etdi. Diz çöküb dua etdikdən sonra edam edən şəxsə bir hədiyyə verdi. Sonra özü gözlərini sarğı ilə bağladı. Əbədiyyətdəki yeni həyatını hər şeydən üstün tutaraq bu həyatını sülh içində qurban verdi.

# Valentin

## (təxminən 269-cu il)

Fevralın 14-də Valentinin adı ilə sevgililər günü qeyd edilsə də, onun kim olduğunu heç kim bilmir. Valentin barədə məlumat vermək üçün azacıq faktları və bir neçə əfsanəni burada təqdim edirik.

III əsrdə şəhid olmuş üç nəfər Valentin adını daşıyır. Onlardan biri Romada kahin, digəri İnteramnada yepiskop, o birisi isə Afrikanın Roma vilayətində adi bir məsihçi olub. Bu üç nəfərin həyatı barədə bizə heç nə məlum deyil. Deyilənə görə imperator II Klavdinin fərmanına əsasən Valentin öldürülmüşdü. Biz düşünürük ki, onun hekayəsi əsgərlər, nikahlar və daş ürəkli imperator ətrafında cərəyan edirdi. Papa Gelasi şəhid Valentinin fədakarlığını dəyərləndirərək 496-cı ildə Romanın bütpərəst bayramı olan Luperkaliyanı[11] müqəddəs Valentin günü ilə əvəz etdi.

Deyilənlərə görə Klavdinin ordusuna çağırılan yeni əsgərlər həyat yoldaşları və sevgililərindən uzun müddət ayrıldıqları üçün şikayət edirdilər. Ona görə də fərman verilmişdi ki, hər bir əsgər Romaya sadiq qalmalı və cəsarətini itirməmək üçün evlənməməlidir. Əlbəttə, fərmanlar qəlbin sevgisinə qarşı dura bilməzdi, bu səbəbdən də nikah mərasimləri şəfqətli kahin Valentinin köməyi ilə həyata keçirilirdi. Əsgərlər və onların sevdikləri qızlar gizlincə onun yanına qaçıb gəlirdilər.

Kahin fərmana itaətsizlik etdiyinə görə Roma prefekti tərəfindən ölümə məhkum olunmuşdu. Fevralın 14-ü, 269 və ya 270-ci ildə Valentin toppuzla döyüldükdən sonra boynu vurulmuşdu.

Başqa bir hekayəyə əsasən Valentin zindanda olarkən həbsxana rəisinin anadangəlmə kor qızı Culiyaya dərs keçmişdi. Şəhid olmazdan bir gün əvvəl Valentin qıza ruhlandırıcı sözlər yazaraq məktub göndərmişdi və içərisinə sarı zəfəran çiçəyi qoymuşdu. Culiya məktubu açanda kor gözləri birdən görməyə başlamışdı. Minnətdarlıq əlaməti olaraq Culiya şəhid Valentinin məzarının yanında badam ağacı əkmişdi. Bu gün badam ağacı ölməz məhəbbət və dostluq rəmzi olaraq qalır.

---

[11] qədim Roma bayramı olub Luperk allahının şərəfinə paklanma və məhsuldarlıq üçün qeyd edilirdi.

# Fivaida legionu

## (286-cı il)

Bir insan neçə ağaya və neçə əhdə sadiq qala bilər? İnsan bir əhddən savayı qalan əhdlərə sadiq qala bilməz. Misirin şimalında Fivaidadan olan cavan kopt[12]məsihçilər əzəmətli Roma ordusunun 6600 nəfərlik legionunda xidmət etməyə çağırılmış və təlim keçmişdilər. Onlar əvvəlcə Allaha sonra isə imperatora sadiq olacaqlarını əhd etmişdilər.

Fivaida legionu barədə məlumatlar bir-birindən fərqlidir və bəzən alimlər bunların doğruluğuna şübhə ilə yanaşırlar. Altmış dörd il sonra 350-ci ildə Oktudurmun yepiskopu Teodor legionun cəsarəti və qurbanı barədə sübut aşkar etdi. Əlyazmalara əsasən deyə bilərik ki, onların hekayələri 490-cı illərdə Lionlu yepiskop Yukeri tərəfindən yazılmışdı. Əgər bu iki yepiskopun yazıları etibarlı mənbədirsə, onda Fivaida legionu iman tarixinə həmrəyliyin, xidmətin və ümidin ən gözəl nümunəsini bəxş etmişdir.

İmperator Maksimianın əmrinə əsasən Mavrikinin[13] rəhbərliyi altında legion qərbə, Alp dağlarına getməli və Qalliyada olan üsyanı yatırmalı idi. Əlbəttə, legion əmrə tabe oldu. Uzun yürüşdən sonra qısa hərbi əməliyyat aparıldı. Maksimian digər imperatorlar kimi olduqca təkəbbürlü idi. Qələbə çalmış imperator bütün əsgərlərindən "Sadiqlik Əhdi" verməsini tələb etdi. Bu əhdi verməklə onlar imperatorun ilahi olduğunu təsdiqləyəcəkdilər. Sonra imperatorun əmrinə görə legion Burqon vilayətindəki bütün məsihçiləri öldürməli idi.

Mavriki öz əsgərlərinin məsihçi olduqları üçün əsas düşərgədən kənara çəkiləcəyini bildirdi. O, başqa batalyonların öz vicdanlarına uyğun hərəkət etməsinə imkan verəcəkdi. Mavriki və onun əsgərləri vəftiz olunarkən verdikləri ilk əhdi — hər şeydən öncə Allahı sevmək və Ona xidmət etmək əhdini pozaraq günahsız insanları öldürməyəcəkdilər.

---

12 Ərəb dilində qibti, yunan dilində isə kopt kimi işlənir. Misirdə yaşayan qədim məsihçi xalq.

13 O, İsveçrədə "Müqəddəs Mauris" adlanır və orada xatirəsi anılır.

Legion komandirindən belə bir cavab imperatorun qüruruna toxunub sanki üzünə bir sillə kimi təsir etdi. O, edam barədə əmr verdi. Fivaida legionunda hər on nəfərdən biri öldürülməli idi.

Əmr icra olundu. Əsgər papaqlarından adlar seçilərək imperatorun 660 döyüşçüsü Onun əmri ilə öldürüldü.

Bu qədər əsgərin öldürülməsinə baxmayaraq legion hələ də imperatorun əmrinə tabe olmaq istəmədi. Onlar nə əhd verdilər, nə də imanlı qardaşlarına qarşı qılınc çəkdilər. Maksimian ikinci dəfə edam əmri verdi. Daha 600 əsgər qətlə yetirildi.

İyirmi birinci əsrin oxucuları Fivaida legionunda sağ qalanların keçirdikləri hisləri duya bilərlər. Onlar seçim qarşısında idilər. Özlərini müdafiə etsinlər? Əmrə tabe olsunlar? Yoxsa daha başqa bir soyqırıma kənardan tamaşa etsinlər? Mavriki və onun zabitləri imperatora belə cavab verdilər:

> "Möhtərəm imperator! Biz sənin, eləcə də Allahın həqiqi əsgərləriyik. Biz sənə hərbi xidmətdə və sadiqlikdə borcluyuq. Sən Onu rədd etsən də, bizim, həm də sənin Yaradanın və Ağan olan Allahı inkar edə bilmərik. İndiyə kimi Onun qanunlarına əks olmayan hər şeydə biz sənə itaət etmişik. Biz sənin bütün düşmənlərinə qarşı durmağa hazırıq. Amma əllərimizi günahsız insanların (məsihçilərin) qanına batıra bilmərik. Biz sənə əhd verməzdən əvvəl Allaha əhd vermişik. Əgər biz o biri (birinci) əhdimizi pozsaq, bizim ikinci əhdimizə arxalana bilməzsən. Sən məsihçiləri öldürməyi bizə əmr etdin, budur, biz də məsihçiyik. Biz hər şeyi yaradan Ata Allahı və Onun Oğlu İsa Məsihi iqrar edirik. Biz əsgər yoldaşlarımızın qılıncla öldürüldüyünü gördük. Biz onlar üçün göz yaşı tökmürük, əksinə bu şərəfə nail olduqlarına görə sevinirik. Bunlar bizi qiyam etməyə sürükləmir. Bax, bizim əlimizdə silah var, amma biz müqavimət göstərmirik, çünki hansısa bir günahla yaşamaqdansa, ölümü üstün tuturuq".

Maksimian öz imperiyasını müdadiə etməyə hazır olan belə cəsarətli və qətiyyətli əsgərlərinə görə fəxr edə bilərdi. Amma o, böyük qəzəb içində bütün legionun məhv edilməsinə əmr verdi. 286-cı ilin sentyabrın

22-də imperatorun əmri yerinə yetirildi. Legion özünü müdafiə etməyə və ya gizlənmək üçün yer axtarmağa çalışmadı. 6000-ə yaxın döyüş hazırlıqlı əsgər birinci Məsihə, ikinci isə imperator Maksimiana sadiq olduqlarına görə öldürüldü.

Neçə əsr sonra 515-ci ildə Burqon padşahının bəxşişi sayəsində əsgərlərin şəhid olduqları yerdə monastır tikildi.

Qardaşlar, sizin üçün həmişə Allaha şükür etməliyik və belə etməyimiz yerinə düşər, çünki imanınız artdıqca artır və hamınızın bir-birinizə olan məhəbbəti çoxalır. Bunun üçün tab gətirdiyiniz bütün təqiblərə, əziyyətlər zamanı dözümünüzə və imanınıza görə Allahın cəmiyyətlərində sizinlə özümüz də fəxr edirik.

**2 Saloniklilərə 1:3–4**

# Alban

## (304-cü il)

Alban Roma Britaniyasında Verulamium şəhəri yaxınlığında yaşamışdı. Bu şəhər Hartfordşirdə, indiki Sant Albans şəhərinin yaxınlığında yerləşirdi. Hal-hazırda həmin yer park və kənd təsərrüfatı ərazisidir. Britaniyada Roma ordusunda bütpərəst əsgər olan Alban ilk məsihçi şəhid olmuşdu. O, İngiltərənin və Uelsin anqlikan təqvimində "Müqəddəs Alban" kimi qeyd edilmişdir.

303-cü ildə şərqi Roma imperiyasının imperatoru Diokletian məsihçilərə qarşı fərman verdi. Həmin vaxtlar Alban öz evində səlahiyyətli şəxslərdən qaçıb gizlənən bir keşişə sığınacaq vermişdi. Keşişin həyat tərzi, Allaha olan sadiqliyi və onunla olan bir çox söhbətlərindən təsirlənən Alban Məsihi ürəyinə qəbul edib vəftiz olunmuşdu.

Keşişin həmin ətrafda olduğunu eşidən yerli magistrat onu tapmaq üçün əsgərlərini göndərdi. Onlar Albanın evinə yaxınlaşanda o, keşişin geyimini geyindi və əsgərlər keşişin əvəzinə onu həbs etdilər. Magistrat bütpərəst allahlara qurban təqdim edərkən Albanı onun qarşısına gətirdilər. Keşişin əvəzinə başqa adamın həbs edildiyini görən magistrat çox əsəbləşdi. Alban könüllü olaraq evindəki keşiş qonağının əvəzinə əsgərlərə özünü təqdim etmişdi.

Magistrat Albandan məsihçiliyi qəbul edib-etmədiyini soruşdu. Alban da Məsihi qəbul etdiyini bildirdi. Magsitrat onun bütpərəst allahların yanına gətirilməsini və keşişin cəzasının ona verilməsini əmr etdi. Alban ona cavab verdi: "Mən hər şeyi yaradan həqiqi və diri Allaha səcdə və pərəstiş edirəm".

Bir məsihçi kimi özünü könüllü olaraq təqibçilərə təslim edən Alban magistratın hədələrindən qorxmadı. Əksinə, o açıq-aşkar bəyan etdi ki, onun əmrlərinə əməl etməyəcək. Sonra magistrat ona sual verdi: "Hansı ailədən və nəsildənsən?"

Alban cavab verdi: "Hansı nəsildən olmağım sənin nəyinə lazımdır? Əgər sən imanım barədə eşitmək istəyirsənsə, bil ki, İsanın davamçısıyam və özümü məsihçi xidmətinə həsr etmişəm".

Daha da qəzəblənən magistrat düşündü ki, Alban döyülərkən zərbələr qarşısında məsihçi imanından dönəcək. Amma Alban səbirlə işgəncəyə tab gətirdi. Nəhayət, magistrat bu qətiyyətli insanın boynunun vurulmasını əmr etdi.

Albanı Verulamium şəhərindən kənara çıxarıb çayın o biri tayındakı təpənin üstünə apardılar. Onun boynunun vurulduğu yerdə indi Sant Alban kilsəsi durur. Çox ehtimal edilir ki, Alban 304-cü ildə Məsih uğrunda həyatını qurban vermişdi.

Beləliklə, Alban Britaniyada ilk şəhid oldu. İkinci şəhid onun imanı barədə eşidib oradaca Məsihi qəbul edən cəllad idi. O, əmri yerinə yetirməkdən imtina etmişdi. Üçüncü şəxs isə Albanın evində gizlənən keşiş idi. Albanın həbs edildiyini eşidən kimi onu azad etmək üçün o, cəld məhkəməyə qaçmışdı.

Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin. Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənə görə canını itirirsə, onu qoruyacaq.

**Matta 16:24–25**

# Sebastenin qırx şəhidi

## (320-ci il)

320-ci ildə Qərbin Roma imperatoru Konstantin Şərqin imperatoru Lisiniyə təzyiq etdi ki, öz ərazisində məsihçiliyi qanuniləşdirsin və Lisini bununla razılaşdı. Amma sonra ordusunda satqınlıqdan qorxaraq Lisini öz vədinə xilaf çıxdı və öz ərazisindən məsihçiliyi ləğv etməyi qərara aldı. Öz şər əməllərini həyata keçirmək üçün Sebastedəki (indi Türkiyənin Sivas şəhəri) qoşunlarının komandiri Aqrikolaya səlahiyyət verdi.

Aqrikolanın döyüşçüləri arasında güclü döyüş bacarıqları olan qırx sadiq məsihçi əsgər var idi. Onları imanlarından dönməyə məcbur edərək bir əmr verdi: "Ya allahlara qurban təqdim edib böyük şərəfə nail olacaqsınız, ya da əmrə tabe olmayıb hərbi rütbənizi itirərək rüsvay olacaqsınız". Sonra Aqrikola əsgərləri həbsxanaya salaraq verdiyi əmr barədə yaxşı düşünməyi onlara tapşırdı. Həmin gecə onlar məzmurlar oxuyub dua etməklə özlərini ruhlandırdılar.

Ertəsi gün Aqrikola əsgərləri həbsxanadan çıxarıb cəsarətlərinə və yaraşıqlı görkəmlərinə görə tərifləyərək imanlarından döndərməyə çalışdı. Lakin bu məsihçi əsgərlər komandirin boş sözlərinə uymadılar. Aqrikola rəsmi şəxsin gəlişini gözləyənə qədər onları yenidən həbsxanaya saldı. Əsgərlər bu vaxt ərzində özlərini şəhid olmağa hazırladılar.

Rəsmi şəxs gəlib çıxanda o yenidən əsgərləri inandırmağa çalışdı. Heç nəyə nail olmadıqda Aqrikola qırx nəfər əsgəri donmuş gölə aparmağı əmr etdi. Onlardan paltarlarını soyunub buzun üstündə dayanmaq tələb olundu. Mühafizəçi isə bu vaxt kənardan dayanıb nəzarət edirdi. Əsgərləri Məsihdən üz döndərməyə və bütpərəst allahlara qurban gətirməyə şirnikləndirmək üçün sahildə tonqal qalanmışdı. Orada isti vannalar, ədyallar, qalın geyimlər, qaynar yeməklər və içkilər də qoyulmuşdu. Onlardan biri artıq soyuğa dözməyib sahilə qaçdı. Bunu görən o biri əsgərlər Allaha yalvardılar ki, onlara kömək olsun. Məsihçi əsgərlərin dəyanəti mühafizəçilərdən birini elə təsirləndirdi ki, o, bütün paltarlarını soyunub onlara qoşuldu. Mənbələrdən birinə əsasən səhərə qədər bütün əsgərlər donub öldülər. Lakin digər mənbəyə əsasən deyilir ki, səhərə

kimi sağ qalanları yenidən həbsxanaya aparıb işgəncə verərək öldürdülər. Sonra onların sümüklərini gürzlə əzdilər.

Hansı mənbənin dəqiq olduğuna baxmayaraq Sebastenin qırx əsgəri imanda böyük qətiyyət göstərib Məsihdən dönmədi. Gəlin onların cəsarətini xatırlayaq və bizi Məsihdən uzaqlaşdırmağa çalışan hər bir şeyə qarşı möhkəm duraq. Qoy biz də sınaqlar zamanı Allahın lütfünü görək!

Öz canıma heç əhəmiyyət vermirəm, onu qiymətləndirmirəm. Mənə kifayətdir ki, yolumu — Rəbb İsanın mənə tapşırdığı kimi Allahın lütfünü göstərən Müjdəni şəhadətetmə xidmətini başa çatdırım.

**Həvarilərin İşləri 20:24**

# Telemakus

## (404-cü il)

Yunan əfsanələrində Telemakus (mənası "uzaqdan vuruşan döyüşçü") obrazı qorxaq və cəsarətsiz bir uşaq idi. Amma o böyüyəndən sonra sevdiyi insanların şərəfini qoruyan döyüşçü və qəhrəman olmuşdu. Əfsanəvi obrazdan fərqli olaraq IV əsrin rahibi Telemakus döyüşçüdən çox fərqli bir insan idi. Başqa sözlə desək, onun ən böyük mübarizəsi döyüşü ləğv etməsi idi.

Şərqdən olan bu tərki-dünya insan və yalnız sonuncu hərəkəti ilə tanınan Telemakus Romaya qələbə bayramında gəlib çıxmışdı. Nəhayət, neçə illər davam edən güclü hücumlardan sonra 403-cü ildə Roma şimali İtaliyada Qot padşahı Alarixi məğlub etmişdi.

Həmin dövrlərdə hərbi qələbələri bayram edərkən bahalı qladiator döyüşləri keçirilirdi. İyirmi yaşlı imperator Honori fərman verdi ki, bu xüsusi bayram 50000 yerlik Kolizeydə keçirilsin. Bu döyüş meydanı Neronun adını daşıyırdı və yaxınlıqda onun 40 metrə yaxın nəhəng heykəli dururdu. İmperator Neron məsihçiləri yandırıb insanları məşəllərə çevirməsi ilə tanınmışdı. Əgər bütün Roma imperiyasında bir məsihçinin olmaq istəmədiyi bir yer var idisə, o da Kolizey idi. Qaba geyimli, amma ciddi təsir yaradan Telemakus Kolizeydə olan qanlı qladiator döyüşünü dayandırmaq üçün oyunçuların arasına girməyi qərara aldı.

Həmin gün minlərlə insan oraya toplaşmışdı. İzdihamdan "*habet, hok habet*" — "O yıxıldı, daha vurma!" səsləri ucalırdı. Onlar döyüşçü ölümcül yaralananda bu sözləri deyirdilər. Belə bir vəziyyətdə Telemakus artıq tamaşaçı kimi deyil, fəal, sülhpərvər bir vaiz kimi izdihamdan ayrılıb özünü meydana atdı.

O qışqıraraq dedi: "Allah sizi düşmənlərinizin qılıncından xilas etdi, indi isə siz bir-birinizi öldürməklə Allahın mərhəmətini tapdalamayın!" İzdiham onu eşitsə də, qladiatorlar döyüşməkdə davam etdilər. Telemakus qladiatorların arasına girib döyüşü dayandırmaları üçün onlara yalvardı. "Onu rədd edin!" — deyə izdiham qışqırdı. "Bura vəz etməyin yeri deyil. Romanın adət-ənənəsinə riayət edilməlidir! Qladiatorlar, davam edin!"

Telemakus isə üzünü hər iki qladiatora tutub yalvarırdı və döyüşün qızğın vaxtında onları dayandırmağa çalışırdı. Bu vaxt oyunlara mane olan Telemakusun əlindən əsəbləşmiş bir nəfər qəfildən qılıncını çıxarıb onu vurdu. Telemakus yerə yıxıldı. Camaat da öz yerindən aşağıya meydana daşlar atdı.

Öldürülən adamın tərki-dünya Telemakus olması xəbəri sürətlə Romanın hər yerinə yayıldı. Belə fəqir və sülhpərvər insanın öldürülməsi imperator Honorini və bütün Romanı sarsıtdı. Telemakusun Allahın mərhəməti və məhəbbətindən danışmaqla göstərdiyi cəsarəti nəticəsində qladiator döyüşləri həmişəlik dayandırıldı. O, sülh üçün qətiyyətlə yalvardı. Telemakus öz həyatını Romanın ən böyük döyüş meydanında sülh üçün vuruşaraq itirdi. Onun ölümündən dərhal sonra qladiator döyüşləri Kolizeydə qadağan edildi. Telemakus qeyri-mümkün olan bir uğura nail oldu.

Siz məhz bunun üçün çağırıldınız.
Çünki Məsih də sizin üçün əzab
çəkdi və sizə nümunə oldu ki,
siz də Onun izi ilə gedəsiniz. O heç
bir günah etmədi, ağzından hiylə
sözü çıxmadı. Onu söydülər, O isə
cavabında söymürdü, əzab çəkərək
heç kimi hədələmirdi, əksinə,
ədalətli Hakimə Özünü təslim etdi.

**1 Peter 2:21–23**



*İnkvizisiyada[1] İstifadə edilən İşgəncələrin Təsviri*

[1] Orta əsrlərdə Qərbi Avropa ölkələrində katolik kilsəsinin keçirtdiyi siyasətin, həmçinin bu siyasəti yerinə yetirən təşkilatın adı.

# Orta əsrlərdə təqiblər

(600–1500-ci illər)

361–363-ci illərdə imperator Yulian Roma imperiyasında bütpərəstliyi dirçəltməyə çalışdı, amma köhnə adət-ənənə artıq məhv olmaq üzrə idi. İmperator Feodosinin (392-ci il) qoyduğu qayda-qanun sayəsində bütpərəst ibadətlərə son qoyuldu və müjdəçilik xidmətlərini genişləndirməkdə kilsəni azadlığa çıxardı. V əsrdə Patrik məsihçiliyi İrlandiyaya aparıb çıxardı. 600-ci illərdə şotlandiyalı rahiblər Müjdəni İngiltərənin cənubuna yaydılar. 500–1000-ci illərdə irlandiyalı rahiblər Avropaya müjdəçilər kimi qayıtdılar.

Roma yepiskopu olan papa kilsənin rəhbəri kimi özünü aparmağa başladı. Papa güclü olanda Avropanı idarə edən dünyəvi monarxlara da başçılıq edirdi. Hilderbrandt (Papa VII Qriqori) belə bir simalardan biri idi. Onun orduları Müqəddəs Roma İmperiyasının imperatoru IV Henri ilə vuruşdu. Nəhayət, Hilderbrandtın qarşısında imperator tövbə edib ona sadiq olacağını əhd etdi.

Bu erada müsəlmanların Şərqdə, İspaniyada və Şimali Afrikada təsirlərini azaltmaq üçün böyük səlib yürüşləri təşkil olundu. Müqəddəs Döyüşün nəticəsində Yerusəlim səlibçilər tərəfindən iki dəfə fəth olundu və sonra isə itirildi. Həmin vaxtlarda Çingiz Xanın yenilməz bütpərəst orduları Kiçik Asiyanın çox hissəsini ələ keçirdi.

1232-ci ildən kilsələrin İnkvizisiyası öz gücünü "Müqəddəs Kitab hamı üçün" deyən fəallara və sonralar Reformasiyanın rəhbərlərinə yönəltdi. Valdenslər və lollardlar kimi tanınan bu fəallara "kafir" kimi baxırdılar.

Qeyd: Con Uikliff (1329–1384-cü illər) bu eranın aparıcı islahatçısı kimi tanınırdı. Uikliff papa hakimiyyətinin nöqsanlı olduğunu bəyan etdi. İslahatçının fikrinə görə iman və onun tətbiqi üçün yeganə güc və səlahiyyət mənbəyi yalnız Kəlam idi. Sonra o, ingilis dilində Müqəddəs Kitabın ilk əlyazmalarını hazırladı. Oksford professoru, alim və ilahiyyatçı Uikliffin kilsənin təlimlərinə qarşı müqaviməti bütün Avropaya məlum idi. Öz davamçıları olan lollardların və başqalarının köməyi ilə, Uikliff Müqəddəs Kitabın ingilis dilində nüsxələrini çap etdirdi. O bu əlyazmalarını yeganə əldə olan mənbədən, Latın dilində olan Vulqatadan tərcümə etmişdi. Papa islahatçının təlimlərinə və Kəlamı tərcümə etməsinə görə çox hiddətlənmişdi. Buna görə də o, Uikliffin ölümündən qırx dörd il sonra məzarından sümüklərinin çıxarılmasını, əzilməsini və çaya səpələnməsini əmr etmişdi.



*Uikliffin sümükləri papistlər[1] tərəfindən yandırılmışdı*

[1] Roma papasına siyasi hakimiyyət verilməsini təbliğ edən cərəyanın tərəfdarı

# Bonifas

## (təxminən 680–755-ci illər)

O, heç vaxt müjdəçilik xidmətinə olan həvəsini itirmədi. Almaniyanın yepiskopu Bonifas ömrünün o yaşlarında əldə etdiyi şan-şöhrətdən zövq alıb yaşaya bilərdi. Amma Müjdəni yaymaq monastırlara və ya kilsələrə nəzarət etməkdən daha vacib idi. Bonifas Müjdəni vəz etmək üçün Almaniyaya gedəndə yetmiş beş yaşı var idi.

VIII əsrdə papalardan və krallardan başqa Bonifas da tanınmış bir insan idi. O, 680-ci illərdə İngiltərədə Uinfrid adı ilə doğulmuş və erkən yaşlarında atasının qorxusundan kilsədə özünə peşə seçmişdi. Uinfrid benediktçilərin[1] monastırlarında təhsil almış və İngiltərədə ilk latın qrammatikasını yazmışdı. Otuz yaşında keşişliyə təyin edilsə də, sərhədləri aşıb Müjdəni yaymaq həmişə qəlbinin istəyi olmuşdu.

716-cı ildə Uinfrid Frislandiyaya (və ya Frisiaya) müjdəçilik səyahətinə çıxdı. Onun anqlo-sakson dili frislərin danışıq dilinə yaxın idi. Amma Karl Martell[2] və Frisia padşahı arasında baş verən müharibəyə görə müjdəçilik xidməti səmərəsiz oldu.

719-cu ildə Uinfrid Romaya səfər edərkən Papa II Qriqori tərəfindən ona Bonifas adı verildi. Həmin papa ona Almaniyada müjdəçilik etmək tapşırığını həvalə etdi. Beş il Bonifas Hessendə və Türingiyada vəz edib insanları vəftiz etdi. 722-ci ildə o, alman ərazilərinin yepiskopu adlandırıldı.

Bir ildən sonra Bonifas yerli qaydalara zidd gedərək sadə bir hərəkət etdi ki, bu da əfsanələrin yaranmasına səbəb oldu. O, şimali Hessendə Fritzlar şəhərinin yaxınlığında yekə bir palıd ağacını baltaladı. Bu ağac yerli adamlar tərəfindən Tor Palıdı kimi tanınırdı. Yerli insanlar onu müqəddəs ağac hesab edir və ilahi qüvvə kimi baxırdılar. Bonifas palıdın qalın gövdəsini baltaladıqca camaat ona kənardan tamaşa edirdi. Ətrafdakı adamlar baltanın hər zərbəsi ilə onların allahlarını əsəbləşdirən bu yadelli adama qəzəblənib onun işinin necə bitəcəyini gözləyirdilər. Onlar

---

1 Müqəddəs Benediktin qaydalarına əməl edən rahib və rahibələr bölüyü

2 O, sonralar 732-ci ildə Puatye döyüşündə "məhəmmədiləri" Avropaya girməyə qoymamışdı.

Torun və ya onun "ilahi nümayəndəsi"nin yepiskopu göydən ildırımla vuracağını düşünürdülər. Nəhayət, palıd ağacı qırılıb yerə düşəndə dörd yerə parçalandı. Camaat dərhal Allahın orada iş gördüyünü anladı. Bonifas ağacı mişarlayıb yerində kiçik kilsə tikəndə bir çoxları Məsihə iman etdilər. Həmin kilsənin yerində bu gün Fritzler Kafedralı durur.

Bonifas Romaya başqa səfərlər də etdi. O hər dəfə işinə görə təriflənir və daha çox əraziləri Məsih üçün qazanırdı. 732-ci ildə o, Almaniyanın arxiyepiskopu oldu və baş qərargahlarını Maynsda yerləşdirdi. Sonra isə daha çox binalar tikildi və hərəkatlar başlandı.

755-ci ildə Bonifas Frisiadakı bütpərəstlərə Məsihin Müjdəsini yaymaq fikrinə düşdü. O, keşişlərdən və adi köməkçilərdən ibarət böyük bir qrup təşkil edərək orada uğurla vəz etdi. 755-ci ildə Əllinci gün bayramı ərəfəsində bütün yeni imana gələnləri Dokkum yaxınlığında böyük toplantıya çağırdı. Amma yerli bir dəstə pusqu quraraq onlara hücum etdi. Beləcə, Bonifas da daxil olmaqla əlli iki məsihçini amansızcasına qətlə yetirdilər.

Bonifas sağlığında titullar və mükafatlar qazandı. Böyük nüfüz əldə etmiş bu məsihçi həyatını qurban versə də, özündən sonra miras qoydu. Romanın səlahiyyətli şəxsləri onun üçün yaşlı vaxtlarında dinc bir həyatı təmin edə bilərdilər. Lakin Bonifas müjdəçilik xidmətini hər şeydən üstün tutdu və Frisiada şəhid kimi dünyasını dəyişdi.

Siz Məni seçmədiniz, Mən sizi seçib təyin etdim ki, gedib bəhrə verəsiniz və bəhrəniz çox qalsın.

**Yəhya 15:16**

# Elfec

## (954–1012-ci illər)

O, tərki-dünya həyatını sakitlikdə, Allah barədə düşüncələrdə və tənhalıqda keçirmək istəyirdi. Lakin ona rəhbərlik etmək, səyahətlərə çıxmaq, beynəlxalq sülh danışıqları aparmaq və sonda şəhidliyə ucalmaq nəsib oldu. Kenterberinin 29-cu arxiyepiskopu olan Elfec ömrünün sonuna yaxın belə demişdi: "Mənim yox, qoy Allahın iradəsi yerinə yetsin".

Elfec zadəgan ingilis ailəsində doğulmuşdu. Amma erkən yaşlarında Allahı müvəqqəti vəzifələrdən və şöhrətdən daha üstün tutmuşdu. Əvvəlcə o, Dierrhorst, sonra isə Bat şəhərindəki monastırda yaşamış və təvazökar bir rahib olmuşdu. 984-cü ildə 27-ci arxiyepiskop Dansten Elfeci Uinçesterin yepiskopu təyin etmişdi.

1006-cı ildə Elfec Kenterberinin arxiyepiskopu oldu. Həmin vaxtlar ölkə skandinaviyalı soyğunçulardan əziyyət çəkdiyi üçün Elfecin həyatı daha da çətinləşdi. Deyilənə görə bu arxiyepiskop Norveçin kralı Olaf I Tryuqqvasonu dilə gətirdiyi üçün o, İngiltərə sahillərinə hücum etməmişdi. Amma Elfec danları (şimali alman qəbiləsi) uzaqlaşdırmağa nail ola bilmədi. Danimarkadan olan soyğunçular 1011-ci ildə Kenterberini talan edəndə Elfec girov götürüldü və pulla azad edilmək üçün Qrinviç yaxınlığında düşərgədə saxlanıldı.

Danlar ondan tələb etdilər: "Bizə qızıl ver!"

Elfec cavab verdi: "Sizə verəcəyim qızıl Allah Kəlamıdır".

1066-cı ildə Elfec bir neçə ay girov saxlanıldıqdan sonra Pasxa bayramı günü dəyənəklə döyülərək qətlə yetirildi. Danların tələb etdiyi məbləğ ödənilmədiyi üçün onu öldürdülər. Deyilənə görə dan qəbiləsindən olan bir nəfər əzab çəkən Elfecin halına acıyıb başına balta vuraraq əzablarına son qoymuşdu.

Elfec Londonda Müqəddəs Paul Kilsəsində basdırılmışdı. Sonralar onun cəsədi Kenterberiyə köçürülmüşdü. Onun şəhidliyinin ildönümü anqlikan təqvimində aprelin 19-u, Müqəddəs Elfec günü kimi qeyd olunur.

# Yepiskop Gellert

(980–1046-cı illər)

Əslində məsihçilərin yer üzündə vətənləri yoxdur, bizim vətəndaşlığımız Məsihlə göylərdədir. Amma yer üzü Rəbbin olduğundan (Zəbur 24:1) hər bir yer Allaha məxsusdur. Yepiskop Gellert Macarıstanda yaşayıb oradakı xalqa Müjdəni öyrədərkən həyatını qurban verdi.

Gellert 980-ci ildə İtaliyanın Venesiya şəhərində doğulmuşdu və ona Corco Saqredo adı verilmişdi. O, zadəgan ailəsində böyüyüb boya-başa çatmışdı. Gellert gənc yaşlarında təhlükəli bir xəstəliyə tutulmuşdu. Oğullarının həyatı üçün qorxan valideynləri onu monastıra aparmış və Allaha həsr etmişdilər. Gellert sağalmış və rahiblərin benediktçilər bölüyünə qoşulmuşdu. Atası dini ziyarət zamanı öldükdən sonra gənc rahib atasının Gellert adını özünə götürmüşdü.

Gellert monastırda dərslərində və həyatda nailiyyətlər qazandı. Sonra onu San-Corco Macore adasının rahibi təyin etdilər. 1015-ci ildə o, Müqəddəs Torpağı ziyarət etmək üçün öz şərəfli vəzifəsindən əl çəkməyi qərara aldı. Bu səyahət onun həyatını dəyişdirəcəkdi.

Gellert ora getmək üçün Macarıstandan keçməli idi. Oranın kralı Müqəddəs I İştvan Müjdəni öz xalqına çatdırmaq istəyirdi. Kral gənc müəllim və səyyahın sözlərinə diqqətlə qulaq asırdı. O, Gellertdən xahiş etdi ki, oğlu şahzadə İmreyə müəllimlik etsin. Müjdəçi şahzadəyə yeddi il ərzində müəllimlik etdi. Növbəti yeddi ilini isə o, Müqəddəs Yazıları öyrənməklə və macar xalqı üçün şərhlər yazmaqla Bakon dağlarında təklikdə keçirdi.

1035-ci ildə Kral İştvan Gellerti Sanad ərazisinin birinci yepiskopu təyin etdi. Gellertin xidməti əsasən təhsilsiz məsihçilərin qayğısını çəkmək və bütpərəstləri imana gətirmək idi. O, macarlara Müjdəni bölüşdü, rahibləri müjdəçilik xidmətləri üçün yetişdirdi və daha geniş xidmətlər üçün monastırlar təşkil etdi. Gellertin müjdəçilik işi Macarıstandakı insanları Məsihə gətirməkdə böyük rol oynadı.

1038-ci ildə Kral İştvan öldü və özündən sonra heç bir varis qoymadı. Kralın yerinə bacısı oğlu taxt-taca sahib oldu. Onun sərt qaydaları siyasi

iğtişaşlara, bütpərəstlərin üsyanlarına və məsihçilərin təqiblərinə səbəb oldu. Buna baxmayaraq Gellert öz müjdəçilik işini 1046-cı ilin sentyabrın 24-nə qədər davam etdirdi. Həmin səhər o, Dunay çayının yaxınlığında ibadət aparırdı. Çayın o tayına keçərkən bütpərəst qiyamçılar yepiskopun qayığına daşlar yağdırmağa başladılar. Onlar Gellerti bıçaqladılar və çəlləyə salıb təpədən aşağı çaya atdılar. Ölməzdən əvvəl o, ilk şəhid Stefanın duasını etdi: "Ya Rəbb, bunu onlara günah sayma" (Həvarilərin İşləri 7:60).

Macar məsihçilər bu gün də Şərqi Avropada Gellerti iman atası kimi xatırlayırlar. Onun öldüyü təpə indi adını daşıyır. Gellertin Budapeştdəki abidəsi yad ölkədə xidmət edən müjdəçinin Məsihə sadiqliyini yada salır.

Çürüyən bədən çürüməzliyə və
ölümə düçar olan bədən ölməzliyə
büründükdə "Ölüm yox edildi,
Onun üzərində qələbə çalındı!"
deyə yazılmış söz yerinə yetəcək.

**1 Korinflilərə 15:54**

# Pravoslav və Roma kilsələri arasında olan böyük ixtilaf

## (1054-cü il)

Siyasi qüvvələr və Qərblə (Fransa və İngiltərə) Şərq (Konstantinopol) arasında böyük coğrafi məsafələr orta əsrlərdə kilsədə ziddiyyət və parçalanma yaratdı. Böyük Karl 800-ci ildə imperator seçiləndə Şərq kilsələrini qorxuya saldı. Filiokve[3] termininin 885-ci ildə Nikeya iman simvoluna[4] daxil edilməsi rus və yunan kilsə rəhbərləri üçün qəbuledilməz idi.

1054-cü ildə Papa IX Leo və Patriarx Mixael Kelluariosun nümayəndələri heç bir müqavilə və ya birləşmək barədə plan olmadan ayrıldılar. Beləliklə, Konstantinopolda Şərq və Qərb kilsələri[5] bir-birindən aralandı. 1417-ci ilə qədər uzun müddət davam edən Konstansiya Şurasının (1414–1418) cəhdləri də bəhrə vermədi. Konstansiya Şurası Roma papasını məcbur etdi ki, vəzifəsindən getsin. Sonra papa olmaq istəyən daha iki namizəd işdən kənarlaşdırıldı. 1420-ci ildə seçilmiş Papa IV Martin Romada birləşmiş papa hakimiyyətini yenidən yaratdı.

Kilsənin çətin vaxtları idi. Səlib yürüşləri müvəffəqiyyətsizliyə uğramışdı. Həmin dövrlərdə ruhanilər dini rütbə verməyin əhdlərindən sui-istifadə edirdilər. Papa hakimiyyətinin başı dünyəvi səlahiyyət uğrunda mübarizələrə o qədər qarışmışdı ki, kilsədə insanlar arasında çaşqınlıq və etibarsızlıq yaranmışdı.

Con Uikliff 1380-ci ildə ilk dəfə Müqəddəs Kitabı latın dilindən ingilis dilinə tərcümə etdi. Kəlamın tərcüməsi və çap olunması papaların

---

[3] latın dilində "və Oğuldan" mənasını verir. Müqəddəs Ruhun təkcə Ata-Allahdan deyil, eləcə də Oğuldan gəldiyini bildirir.

[4] Eramızın 325-ci ili Birinci Nikeya Kilsə Məclisində qəbul olunmuş məsihçi əqidəsinin əsasları

[5] həm də Böyük Skizma adlanır.

hegemonluğuna bir təhlükə idi. İngiltərənin hər yerinə göndərilən səyyar vaizlər ruhani inqilaba başladılar. Avropada savadlanma artdıqca məsihçilər kilsənin ağır qanunlarından daha çox Müqəddəs Yazıların verdiyi təskinliyi axtardılar. Ana dilində çap edilmiş Müqəddəs Kitab ingilisdilli hər bir oxucunu "kahin" etməyə başladı. Papaların birliyi üçün çalışan şura üzvləri həm də Yan Qusun (1415) edam edilməsində məsuliyyət daşıyırdılar. Konstansiya Şurasından sonra bir əsr ərzində heç bir papa kilsəyə ruhani islahat gətirmədi. Lüterdən əvvəl ən çox səy göstərən islahatçı Savonarola din xadimlərinin nalayiq hərəkətlərini tənqid etdi və o, 1498-ci ildə kilsə tərəfindən edam olundu.

# Səlib yürüşləri

## (1095–1291-ci illər)

Məsihçi dünyasının o dövrdəki ən böyük tarixi rüsvayçılığı səlib yürüşləri idi. O vaxtlar bütpərəst düşmənlər Bizans kilsələrini hədələyirdilər və papa hakimiyyəti Avropanı birləşdirmək üçün onlara qarşı bu “parlaq” strateji addımı atdı. Əslində nə Romada Papa II Urban Konstantinopol üçün, nə də Konstantinopol Roma üçün narahat idi. Qərb və şərq kilsəsi 1054-cü ildə böyük ixtilaf zamanı artıq bir-birindən ayrılmışdılar. Amma Müqəddəs Torpağı və Şərq kilsəsini işğalçı türklərdən qorumaq üçün daxili çəkişmələrə başqa hərbi əməliyyatlar lazım idi. Bu da cəngavərlər və lordlar üçün olduqca qanuni bir hədəf təqdim edirdi, əks halda onlar bir-biri ilə vuruşmaqda davam edəcəkdilər.

1095-ci ildə Pyer Lermit tərəfindən aparılan birinci Səlib yürüşü hərbi faciə ilə üzləşdi. Belə bir faciə sonuncu yürüşlərdən biri olan 1212-ci ildə Uşaq Səlib yürüşündə də baş vermişdi. Bu yürüş zamanı sayca yüzlərlə yeniyetmə gəmi ilə Marseldən Fələstinə yola düşəndə qul alverçilərinin əlinə düşdü. Amma başqa səlib yürüşlərində uğurlar da qazanıldı. İngiltərənin kralı Şirürəkli I Riçardın rəhbərlik etdiyi ordular qələbə çaldı. Onun əsgərləri geyimlərində məşhur Qırmızı Xaç işarəsini gəzdirirdilər. 1099-cu ildə Yerusəlim fəth edildi. Bulonlu Qodfridə Yerusəlimdə taxt-tac təklif olundu. O isə bir vaxtlar Xilaskarının başına tikandan tac qoyulan şəhərdə qızıl tac taxmaqdan imtina etdi. Bunun əvəzinə “Rəbbin Məzarının Müdafiəçisi” titulunu özünə götürdü.

Amma fəth olunmuş torpaqları əldə saxlamaq onun üzərində qələbə çalmaq kimi asan deyildi. Avropa döyüşçülərinin çoxu qələbə çaldıqdan sonra evə qayıtdılar və orada qalanlar əks-hücuma məruz qaldılar. Müsəlmanların böyük generalı Səlahəddin 1187-ci ildə yenidən hücum etdi və qorxuya düşmüş Avropa cavab olaraq səlibçilərin üçüncü dalğasını göndərdi. Riçard 1191-ci ildə Səlahəddini məğlub etdi. Orta əsrlərdə papa hakimiyyətinin ən böyük rəhbərlərindən biri olan Papa III İnnokenti dördüncü Səlib yürüşünə başladı. Onun komandirləri əvvəlcə Konstantinopola nəzarət etmək istədilər. Ona görə də bu yürüşdə

məsihçilər məsihçilərə qarşı vuruşdular. Papa İnnokenti isə bunu dayandırmaqda gücsüz idi.

Nəhayət, məsihçilik olmayan ərazilərdə baş verən hadisələr hərbi vəsaitlərin tükənməsinə gətirib çıxardı və münaqişəli ərazilərin müqəddəratı həll olunmamış qaldı. Çox uzaqlarda — Asiyada Çingiz Xanın monqol qəbilələri hamıya qarşı vuruşaraq, hər kəsi azğınlıqla məğlub edərək dəfedilməz ordusunu nümayiş etdirirdi. Xanın taktikası yalnız müharibə və ona təslim olmayanları məhv etmək idi.

1291-ci ildə Akkonun ələ keçirilməsi ümumilikdə Səlib yürüşlərinin sonu hesab edildi. Monqollar İslamı qəbul etdilər. Bir neçə kiçik məsihçi icmaları qalsa da, Asiya qitəsində İslam qələbə çaldı. Səlib yürüşləri uğursuzluqla nəticələndi.

Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin...

**Matta 5:44**

# Valdenslər

## (təxminən 1173-cü il)

Deyilənə görə bu hərəkat 1173-cü ildə Peter Valdo tərəfindən yaradılmışdı. Bəzi mənbələr Valdodan əvvəl IX əsrdə valdenslərin fəal olduğunu bildirir. Digərləri isə deyirlər ki, bu hərəkat erkən imanlı cəmiyyətinin yetirməsi idi. İmperator Konstantinin məsihçiliyi qəbul etməsindən sonra papa hakimiyyətinin kilsəyə nüfuz etmiş şan-şöhrətini və nüfuzunu valdenslər rədd edirdilər.

Valdenslər yalnız Müqəddəs Kitabdan öyrədir və könüllü olaraq var-dövləti paylamağı düzgün hesab edirdilər. Onlar araf[6] barədə təlimləri, ölülər üçün rekviyemi[7], indulgensiyanı[8], müqəddəslərə və bakirə Məryəmə sitayişi inkar edirdilər. Bu hərəkatın üzvləri əsasən sülh tərəfdarları idilər. Tarixən valdenslər sənətkarlıq məşğuliyyətini dəstəkləyir və mənəvi cəhətdən ticarəti təhlükəli hesab edirdilər.

Valdenslər XII və XIII əsrlərdə katoliklərin hədəfi olub təqiblərə məruz qalmışdılar. Adətən onlar dağlarda gizlənirdilər. 1541-ci ildə Fransada iyirmi iki kəndin sakinləri qətlə yetirilmişdi. 1655-ci ildə İtaliyanın Pyemont yaşayış məntəqələrinə hücum edildi və sakinlər vəhşicəsinə öldürüldü.

Valdenslərdən çoxları şəhid olsa da, onların kilsəsi, xüsusilə İtaliyada mövcudluğunu qoruyub saxladı. Şimali İtaliyadan gələn valdenslər Şimali Karolinada məskunlaşaraq 1893-cü ildə Valdes şəhərini saldılar. İkinci Dünya müharibəsi zamanı onlar bir çox yəhudilərə faşistlərin əlindən qaçmaqda kömək etdilər. Valdenslərin kilsələri bu gün də fəaliyyət göstərir və onların çoxu Cənubi Amerika, İtaliya, Almaniya və ABŞ kimi ölkələrdə presviterian kilsələrinə qoşulublar.

---

6 dini təsəvvürə görə cənnətlə cəhənnəm arasında yer

7 mərhumun xatirəsinə həsr olunmuş dini matəm xoru

8 Katolik kilsələrində günahın tam və ya qismən bağışlanması; günahların bağışlanması üçün Roma papası adından pul və ya müəyyən xidmətlə əldə olunan sənəd. "Cənnət qəbzləri" də adlanır.

# Uilyam Svinderbay

## (1401-ci il)

Con Uikliffin fikirləri kilsə rəhbərlərini narahat edirdi, çünki o deyirdi ki, kilsə Kəlamda yazılanları öyrətmir. 1380-ci ildə Uikliff ilk dəfə Müqəddəs Kitabı latın dilindən ingilis dilinə tərcümə etdi. Onun ardınca gedənlər özlərini lollardlar adlandırdılar. Bu hərəkat insanlara həqiqi tövbə etməyi öyrədir, Kəlamdan oxuyur, eləcə də keçmişin qalıqları olan köhnə qaydalardan və şan-şöhrətdən azad olmaq haqda danışırdılar. 1384-cü ildə iflic Uikliffin həyatına son qoydu. Con Uikliff öləndən qırx dörd il sonra papa əmr etdi ki, onun sümüklərini məzardan çıxarıb yandırsınlar.

Amma digər lollardlar onun yolunu davam etdirdilər. Uilyam Svinderbay onların içərisində yaxşı vaiz kimi tanınırdı. O, Uikliffin ən cəsarətli davamçılarından biri idi. Gördüyü işlər barədə çox məlumat olmasa da, insanlar arasında nüfuzu və itaətsizliyi Uikliffin ölümündən beş il sonra kilsə rəhbərlərinin diqqətini cəlb etmişdi. Svinderbay Linkoln yeparxiyasında keşiş idi. Yoxlama heyəti onun təlimlərinin “iftiralı” olduğunu aşkar edəndə ona bir daha danışmamağı əmr etdi. Əks təqdirdə özləri ilə gətirdikləri quru odun onun bədənini külə döndərmək üçün istifadə olunacaqdı.

Belə hədələr bir çox insanları dərhal susdurardı, amma Svinderbay danışmaqda və öyrətməkdə davam etdi. 1392-ci ildə inadkar keşişlə bağlı bu dəfə kral II Riçard tərəfindən başqa bir fərman imzalandı. Svinderbay həbs edildi, sorğu-sual olundu və kilsə qaydaları, vəftiz, idarəçilik, xilas, eləcə də dini mərasimlərlə əlaqəli məsələlərdə səhv olduğu aşkarlandı.

Əlyazmalara əsasən Svinderbayın ikinci dəfəki həbsi ilə 1401-ci ildə Londonda dirəkdə işgəncəli edamı arasında doqquz il vaxt keçmişdi. Həmin illər ərzində nə baş verdiyini heç kim bilmir. Amma onun həyatının son illəri göstərir ki, düşüncəsində qəti bir əminlik əldə etmişdi və bütünlüklə inanırdı ki, məsihçinin imanı üçün əsas təməl Müqəddəs Kitabdır. İmanlı insanın ümid yeri olan bu kitab vasitəsilə o, xilas yolunu və Allahın mərhəmətini dərk edir. Svinderbay uzun sürən sınaq və

dustaqlıq dövründə nə ümidini, nə səmimiyyətini, nə də vicdanını itirdi. O, əzablı ölümlə həyatını qurban verdi. Bununla da Uilyam Rəbbə sadiq qalmağın mükafatını və əbədi həyata tam əminliyi əldə etdi.

# Yan Qus

## (1370–1415-ci illər)

Məhkəmədə Yan Qusu ittiham edənlər ona ümidsiz öləcəyini bildirdilər. "Biz sənin əlindən xilas kasasını alırıq" — ittihamçılar ölüm hökmünü oxumazdan əvvəl ciddi tərzdə dedilər. Amma Qus onlara belə cavab verdi: "Mən Küll-İxtiyar Rəbb Allaha etibar edirəm ki, O məndən xilas kasasını almayacaq. Amma bu gün Allahın padşahlığında həmin kasadan içəcəyimə tam əminəm".

Rəbbin süfrəsində kasa Qusun cinayət işi üçün əsas məsələ idi. O, 1362-ci ildə cənubi Bohemiya krallığının (indiki Çex Respublikası) Husinets kəndində doğulmuşdu. Bu kəndli balası uşaqlıqda dua etməyi anasından öyrənmişdi. Gənc Yanın keşişliyi seçməsində anası onu istiqamətləndirmişdi ki, başqa üstünlüklərlə yanaşı ailəsini kasıbçılıqdan qurtarmaq üçün var-dövlət və nüfuz əldə etsin. Adi, amma çalışqan tələbə olan Qus Praqa universitetində ilahiyyatçılıq üzrə magistr dərəcəsi əldə etdi. 1402-ci ildə həmin şəhərin Bet-Lexem Kilsəsində vaiz oldu. Bundan əvvəl Con Uikliff adlı bir islahatçı barədə İngiltərədən xəbərlər gəldi. Onun ideyaları tez bir zamanda universitet fakültələri arasında parçalanmaya səbəb oldu. Həmin ideyaların içərisində ən əsası Rəbbin Süfrəsindəki kasa idi. Rəbbin Süfrəsini qəbul edərkən şərab həqiqətən Məsihin qanına çevrilir? Alman və romalı ilahiyyatçılar şərabın həqiqətən Məsihin qanına çevrildiyini iddia edirdilər. Amma bir çox çex və Uikliff tərəfdarları isə bunu inkar edirdilər. Beləliklə, Rəbbin süfrəsindəki kasa islahatın əsası olacaqdı və bu səbəbdən Qus edam ediləcəkdi.

XV əsrin erkən dövrləri təhlükəli idi. Kilsə biri Fransada, digəri isə Romada olan iki papa arasında parçalanmışdı. Qərb və Şərq kilsələri arasında Böyük İxtilaf (1378–1417-ci illər) ondan ibarət idi ki, hər bir rəhbər, siyasətçi və ya kilsəyə gedən adam papanın tərəfini tutmalı və seçdiyi papanın qalib çıxacağına ümid etməli idi. Kilsənin mövcudluğu və gələcəyi sual altında idi.

Vaiz Qusun təlimlərində Uikliffin təsiri daha aydın görünür və təhlükə üçün qapı açırdı. 1405-ci ildə Qus dini rahiblərin günahlarını və kilsəyə



*Yan Qus dirəkdə yandırıldı*

gələn adi adamlara qarşı etdikləri fırıldaqları ifşa etməyə başladı. Bohemiya kilsəsi Məsihin qanının Rəbbin süfrəsindəki çörək parçalarının üzərində göründüyünü iddia edəndə Qus kəskin bir tərzdə ifşa etdi: "Bu keşişlər cəhənnəmdə asılmağa layiqdirlər, çünki onlar zinakarlar, müftəxorlar, xəsis pulgirlər, kök donuzlardırlar". Kilsə rəhbərləri üçün bu sözlər çox təsirli idi. "Onlar (kahinlər) ikinci buxaqları sallanana qədər qarınlarını həddən artıq dolduran qarınqululardırlar". Daha sonra Qus indulgensiyalara qarşı qəzəbini bildirdi. Papalar öz müharibələrini maliyyələşdirmək üçün səmavi lütfü pul ilə sataraq cənnət qəbzlərindən istifadə edirdilər. Qus "Mən susmalıyammı? — deyə soruşdu, — Allah etməsin".

Dörd dəfə Qus kilsədən kənarlaşdırıldı. İki il (1412–1414) o, cənubi Bohemiyanın kəndlərində yaşayıb sakit həyat sürdü. Bu vaxt ərzində yazmaqla və vəz etməklə məşğul oldu.

Sonra 1414-cü ilin oktyabrında Papa XXIII İoann Konstansiya Şurası keçirdi və Yan Qusu oraya dəvət etdi. Şuranın gündəliyində iki ümdə məsələ — parçalanmaya son qoymaq və Avropadan küfrü təmizləmək dururdu. Yanın təhlükəsizliyinin təmin ediləcəyi vəd olundu. Qus bu dəvəti zarafat edərək qəbul etdi: "Qaz ('hus' çex dilində qaz deməkdir) hələ bişməyib və bişməkdən də qorxmur".

Bir həftənin içərisində o həbs edildi. Neçə ay Qus Konstansiya gölündəki adada yerləşən Dominikan monastırında qaldı. Orada kamerada bir az çörək və su ilə təmin edilərək məhkəmə üçün saxlanıldı. İslahatçıya qarşı ediləcək ittihamlar acı ölümdən xəbər verirdi.

Qusun təndiqçiləri həmişəki ittihamları irəli sürdülər. Onu təhlükəli kafir, məsihçi adına layiq olmayan biri, şər insan, Allahın ilahi üçlüyündə dördüncü şəxs barədə öyrədən müəllim adlandırdılar. Bütün bu ittihamlara qarşı cavab vermək Qusa qadağan edilmişdi.

1415-ci ilin iyulun 6-da kilsə qışqırıqlar və həqarətli istehzalar içərisində onun canını şeytana təhvil verdi. İzdiham Qusu itələyə-itələyə Konstansiyanın küçələri ilə apararaq toplanmış quru ağaclar olan yerə gətirdi. Onu boğazından dirəyə bağlayaraq odunları alışdırdılar. Fədakar islahatçı ilahi oxuyaraq əbədiyyətə qovuşdu: "İsa, diri Allahın Oğlu, mənə mərhəmət et".

"İnanmayın ki, həqiqətdən başqa nəsə öyrətmişəm. Mən heç bir səhv şey öyrətməmişəm. Öyrətdiyim həqiqəti mən qanımla möhürləyəcəyəm".

**— Çex islahatçı Yan Qus**



*Praqalı Yeronim işgəncə alətində*

# Praqalı Yeronim

## (1416-cı il)

Almaniyanın Konstansiya şəhərində Yan Qusun ölümündən üç ay əvvəl bohemiyalı alim Yeronim gizlicə şəhərə gəlmişdi. O, Vyanadakı həbsxanadan qaçmışdı. Dostu Qusa kömək etmək üçün heç bir mühafizəçisi olmadan cəsarətlə Almaniyaya yollanmışdı. Yeronim Con Uikliffin yazılarını çex dilinə tərcümə etmişdi. Yan Qus da onları oxuyub həmin ideyaların ardınca getmişdi. Həbs olunacağını hiss edən Yeronim qorxmadan imperatora və Konstansiya Şurasına məktublar yazmışdı. O, təhlükəsizliyinin təmin olunmasını xahiş etmiş və Qusun tərəfini tutmaq üçün danışmağa icazə istəmişdi. Amma xahişləri rədd olunmuşdu. Bacardığı hər bir şeyi etdikdən sonra Yeronim geriyə, Bohemiyaya qayıtmaq üçün yola düşdü.

Lakin o heç vaxt evə gedib çıxa bilmədi. Yeronim Almaniyada kiçik şəhərin içindən keçərkən hersoq Zulsbax onu qeyri-qanuni şəkildə həbs etdirmək üçün zabit göndərdi. Boğazına zəncir salınmış və əl-ayağı qandallı halda onu sanki paradın əsas adamı kimi Konstansiyaya gətirdilər. Atlılar və bir çox mühafizəçilərlə əhatə olunaraq onu məhkəməni gözləmək üçün təhqiredici bir həbsxanaya saldılar.

Yan Qusun şəhid olduğu vaxtda Konstansiya Şurası yenə də Yeronimin danışmasına icazə vermədi. Onlar islahatçının zəkalı alim və inandırıcı natiq olduğunu bilirdilər və onun məsihçi imanını müdafiə etmək qabiliyyətindən qorxurdular. Yeronim özünü müdafiə etmək üçün xahiş etdi, amma yenə onu rədd etdilər. Cəsur islahatçı üçün nə məhkəmə keçirildi, nə də öz işini müdafiə etməyə imkan verildi. O isə bütün bunlara dözməyib qışqıraraq dedi:

> “Bu nə qəddarlıqdır? 340 gündür ki, mən müxtəlif həbsxanalarda dustaq olmuşam. Keçirmədiyim məşəqqət qalmadı...və siz mənə ən kiçik imkanı belə vermədiniz ki, özümü müdafiə edim... Siz ali şurasınız və sizdə bu dünyanın verdiyi bütün hikmət, ləyaqət və müqəddəslik var. Amma siz bununla belə insansınız.

> İnsanlar da sözlərə və görünüşlərə aldanır. Siz nə qədər hikmət axtarsanız da, bir o qədər çox ehtiyatlı olmalısınız ki, səfehliyə düşməyəsiniz. Mənim müdafiə etmək istədiyim məhkəmə işim özümün, insanların, məsihçilərin işidir. Yoxlama prosesinin hansı yolla mənə tətbiq olunmasından asılı olmayaraq, bu iş gələcək nəsillərin hüquqlarına təsir edəcək".

Cəsarətli alimi papa hakimiyyətini ələ salmaqda və təqib etməkdə, eləcə də "məsihçilik dininə nifrət edən" biri olmaqda altı cinayət işi üzrə ittiham etdilər. Buna görə islahatçıya on bir gün dabanlarından asılmaqla işgəncə verildi. Yeronim bundan daha pis işgəncələrlə hədələnəndə əqidəsində büdrədi. O, şifahi olaraq təsdiqlədi ki, Qusun və Uikliffin yazıları yanlışdır. Amma zindana qayıtdıqdan sonra onunla yaxşı rəftar edilməsinə baxmayaraq dediyi sözləri geri götürdü və and içdi ki, Qusu və Uikliffi tam dəstəkləyəcək. Şura onun əleyhinə 107 yeni ittiham irəli sürdü, amma sonda Yeronimi dirəkdə yandırmazdan əvvəl ona danışmağa icazə verdi.

Yeronim bəlağətlə danışaraq onlara xatırlatdı ki, bütün tarix boyunca həqiqət adamları açıqcasına öz mövqelərini və fikir ayrılıqlarını dilə gətiriblər. Yeronim və Uikliffin əsas işi öz ana dillərində soydaşlarına Roma kilsəsinin yanlış təlimlərini açıb göstərmək idi. Onlar öyrədirdilər ki, hər bir məsihçi öz həyatını Kəlamla idarə edə bilər; papa başqa keşişlərdən fərqlənmir; Rəbbin süfrəsindəki şərab və çörək Məsihin əsl qanı, bədəni və sümükləri deyil. Bundan başqa onlar protestant düşüncə tərzinə uyğun bir çox təlimləri insanlara çatdırırdılar.

Roma kilsəsi həmin vaxtlarda artıq Yan Qusu öldürmüşdü, Uikliffin təlimlərini qadağan etmişdi və indi isə praqalı Yeronim edam olunurdu. Tonqal alışarkən Yeronimin oxuduğu himnlərdən bu son sözləri bizə gəlib çıxıb: "Məsih, alovlar içərisində olan bu canı Sənə təqdim edirəm".

Onun ölümü əbəs yerə deyildi. Qus və Uikliff kimi Yeronim də insanları sadəcə ruhlandırırdı ki, Kəlamda yazılanları bilsinlər. Məsihçilik üzərində ən böyük səlahiyyətə malik olduqlarını iddia edənlərin kor-koranə ardınca getməsinlər. Yeronimin, Qusun və Uikliffin işləri Tindeyl kimi insanlar üçün yol açdı. Onlar Müqəddəs Kitabı ingilis və sonralar başqa dillərə tərcümə etdilər ki, hər bir kəs Allahın Kəlamını oxuya bilsin.

# Con Oldkesl

## (1417-ci il)

Kralın dostu olmaq həm sərfəli, həm də təhlükəli idi. Əgər kralın dostu onun varlanmasına və ad-san qazanmasına kömək edirsə, onda dostun özü də var-dövlətə və şan-şöhrətə sahib ola bilər. Amma dostlar bir-birindən fikir ayrılığına görə də uzaqlaşa bilərlər.

Con Oldkesl rəhbərlik etmək üçün yaranmışdı. O, ingilis kralı IV Henrinin ordularında xidmət edən güclü, cəsarətli, sadiq, eləcə də toppuzlar və qılınclarla vuruşan fədakar bir əsgər idi. Qoca kral onu çox sevirdi. Amma kral Henrinin həyatı əbədi deyildi. Bir gün kral öldü və Oldkesl Uikliff və lollardlar kimi tanınan erkən ingilis islahatçılarının təsirinə düşdü. Lollardlar Roma kilsəsinə, din xadimlərinə, onların üstünlüklərinə və İsanın əvəzinə müqəddəslərə və ikonalara pərəstiş edilməsinə qarşı dururdular. Eləcə də Rəbbin Süfrəsində çörək və şərabın möcüzəli şəkildə İsanın qanına və bədəninə çevrilməsi ideyasına inanmırdılar. Lollardlar deyirdilər ki, günahlar üçün yalnız Rəbbin qarşısında tövbə edilməlidir, çünki günahları bağışlayan yalnız Odur.

Kral V Henrinin hakimiyyəti dövründə vərəsə ilə evlənmiş Oldkesl parlamentə qoşulmuşdu və 1411-ci ildə Fransada döyüşmüşdü. Lakin Con Oldkesl lollard hərəkatından idi. Kenterberinin qəddar arxiyepiskopu Arundel isə İngiltərə kilsəsini təmizləmək istəyirdi. Nəhayət, cavan kral tovlanaraq Oldkesli istintaqa çağırdı. Lakin döyüşçü buna məhəl qoymadı.

Kafirliklə bağlı məhkəmələrdə məsələlər qabaqcadan müəyyən edilmişdi. Hər iki tərəf bilirdi ki, heç kim öz mövqeyini dəyişməyəcək. 1413-cü ilin sentyabrın 13-də Oldkesl Rəbbin Süfrəsi və günahların din xadimlərinə tövbə edilməsi barədə öz fikirlərini kilsəyə təqdim etdi. Arundel isə onu kafir kimi ittiham etdi.

Məhkəmədə hökm cəzası verildikdən sonra edam dərhal həyata keçirilirdi. Amma Oldkesl kralın dostu idi, buna görə də fikrini dəyişmək üçün ona qırx gün vaxt verildi. Bu müddət ərzində Oldkesl qaçıb taxt-tacı devirmək planının təşkilində lollardların rəhbəri oldu. O, kralın oğurlanması planını işləyib hazırlasa da, bu iş barədə xəbər krala gedib

çatdı. Henri bu gizli planda iştirak edənlərin çoxunu tutdu, amma Oldekl qaçıb canını qurtara bildi.

Digər gizli planlar hazırlansa da, həyata keçmədi. Nəhayət, 1417-ci ildə Oldkeslin gizləndiyi yer aşkar edildi və yaralı vəziyyətdə ələ keçdi. Onu Londona aparıb ikiqat ölüm cəzası — satqın kimi asılmaq və kafir kimi dirəkdə yandırılmaq hökmü verdilər. Elə həmin gün onu Müqəddəs Caylsın Sahələri adlı əraziyə, onun sonuncu gizli planının həyata keçmədiyi yerə apardılar. Orada onu zəncirlə iki dar ağacının arasına qaldırıb bağladılar və aşağıda isə tonqal qalayıb alışdırdılar. Deyilənə görə ölüm əzabını yaşayarkən o, Allahı izzətləndirmiş və canını Allahın əllərinə tapşırmışdı.

1598-ci ildə Uilyam Şekspir kral Henri və Oldkeslin hələ yaxın dost olduqları vaxtı əhatə edən bir pyes yazmışdı. Amma Şekspir bilirdi ki, öz çərçivəsindən kənara çıxa bilməz və özünün "IV Henri" pyesində qoca kafirin adını Falstaff ilə əvəz etmiş və onu lollardların rəhbərinin xasiyyətinə tamamilə uyğun olmayan bir personaja çevirmişdi.

İngiltərədə fikir ayrılığı gətirənlərə qarşı təqibləri daha bir neçə kral Henrilər davam etdirdi. Kraliça I Mariyanın öz ölkəsini Oldkeslin davamçıları və yurddaşlarından uğursuzluqla, amma qəddarcasına təmizlədiyi dövrdə bu təqiblər ən son həddə çatdı.

"Mən qanımla kilsənin azadlıq və sülh əldə etməsi üçün Rəbbimin uğrunda ölməyə hazıram".

**— Tomas Bekket, 1170-ci ildə şəhid olan Kenterberinin arxiyepiskopu**

# Katerin Saube

## (1417-ci il)

XV əsrdə baş verən dini islahatlarda Katerin kiçik bir rol oynamışdı. O, Fransanın Lotaringiya ərazisində olan Tu şəhərində yaşamışdı. Hələ gənc qız ikən özünü Monpelyenin rəhbərlərinə və keşişlərinə qadın monastırı üçün namizəd kimi təqdim etmişdi. O, əsasən tərki-dünya həyatı yaşayaraq rahibələrdən başqa heç kəslə əlaqə saxlamadan kənar bir yerdə olmaq istəyirdi. Katerin yəqin ki, həyatında dua etmək çağırışını hiss etmişdi.

Amma rahibə duadan daha çox işlər gördü. Monpelyenin rəhbərləri onu Late Yolunda olan qadın monastırına göndərib orada qapalı saxlamışdılar. Bu müddət ərzində Katerin elə inandırıcı tərzdə danışıb öyrətmişdi ki, 9 aydan sonra imana zidd hərəkətlərinə görə məhkəmə qarşısına çıxarılmışdı. O, Rəbbin Süfrəsində şərab və çörəyin Məsihin qanına və bədəninə çevrildiyinə, eləcə də günahların yalnız keşiş qarşısında etiraf edilməsinə inanmırdı. Əslində Katerin mübahisə doğuran ideyalarını başqa rahibələrə də bölüşmüşdü və onun fikirləri bütün qrupa sirayət etmişdi.

Məhkəmə müstəntiqinin keşişi M. Reymond Kabas Katerini 1417-ci ilin oktyabrın 2-də kafir elan etdi. Kilsənin təmizlənməsi və paklanması məqsədilə onu məhkəmə icraçısına təhvil verdi. Katerin həmin günorta dirəkdə yandırıldı.

Katerin belə düşüncə tərzini necə əldə etmişdi? Bu barədə heç bir məlumat yoxdur. Görəsən, o, monastırda yaşayan qadından islahatçı fikirləri öyrənmək üçün oranı seçmişdi? Bu da bizə məlum deyil. Bəlkə özü monastırdakı qadınlara bölüşmüşdü? Qadınlar onun dediklərini qəbul etmişdilər, çünki Monpelye şəhər kitabında qeyd edilir ki, Katerin Late Yolundakı monastırın bütün rahibələri ilə birlikdə yandırılmışdı.

Katerinin və Late Yolunda olan qadın monastırındakı rahibələrin hekayəsi yalnız Allaha məlumdur. Göylərdəki kitablar açılanda və ədalətlə hökm çıxarılanda görəsən, Allahın hüzurunda daha neçə şəhidin səsini eşidəcəyik?



*Martin Lüter*

# Reformasiya dövründə təqiblər

## (1500–1600-cü illər)

Martin Lüter ilahiyyat ilə təcrübə arasında zidiyyətlərə toxunmaq və kilsədə kədərlə müşahidə etdiyi qarma-qarışıqlığı yoluna qoymağa çalışırdı. O, əsrlər boyu davam edən siyasət və səhv idarətmə nəticəsində yaranmış təlimləri müzakirə etmək və onlar barədə mülahizə yürütmək istəyirdi. İslahatçı yeni kilsə açmaq fikrində deyildi. Amma 1517-ci ilin oktyabrın 31-də Martin Vittenberq şəhərində "95 Tezisini"[1] kilsənin qapısına mıxladı. Beləliklə o, kilsədəki indulgensiyalara və papaların öz hegemonluğundan sui-istifadəsinə qarşı kütləvi etirazlar yaratdı. Nəhayət bu, dünyada Protestant hərəkatına səbəb oldu. Bir çoxları bu hərəkat zamanı imanları uğrunda qurban getdi.

Lüter həm alim, həm də fəal idi. 1520-ci ildə Martin kafir adı ilə damğalananda həmin rəsmi sənədi camaat qarşısında yandırdı. Növbəti ilin aprel ayında kilsədən ayrılmış Lüter Vorms şəhərində keçirilən reyxstaq iclasında məşhur "Mən fikrimdə qətiyəm" çıxışını etdi. Nəticədə Lüter qanuna zidd gedən şəxs, yazıları isə qeyri-qanuni hesab edildi. Saksoniyanın knyazı Fridrix Lüteri həmişə müdafiə etmiş və onun sayəsində islahatçı sağ qalmışdı.

Alman rahibin reformasiya hərəkatı başqa yerlərdə də oyanış yaratdı. Sürixdə insanlar arasında tanınmağa başlayan keşiş Ulrix Svinqli də Lüterin islahatlarını dəstəkləyirdi. O, Rəbbin Süfrəsində çörək və şərabın Məsihin bədəni və qanına çevrilməsinin ruhani mənada olduğunu deyirdi.

[1] İndulgensiyaların Gücü və Təsiri barədə Müzakirə

1536-cı ildə fransız hüquqşünas Jan Kalvin Cenevrədə "Məsihçi Əqidəsi üçün Təlimat" adlı əsərini çap etdirdi. Beləliklə, indiki dövrdə olan presviterianlar və reform kilsə ittifaqları üçün ilk ətraflı nəzəriyyəni təmin etdi.

XVI əsrdə anabaptistlər və mennonitlər[2] də radikal reformasiya aparmışdılar. Onlar uşaqların deyil, böyüklərin vəftiz olunması və əsasən pasifism[3] ideyasını irəli sürmüşdülər.

Əlbəttə, Reformasiya dini hərəkatdan daha böyük bir şey idi. Bu, iqtisadi mexanizmləri və siyasi hakimiyyət strukturlarını qorxudurdu. İnsanların iman barədə yeni tərzdə düşünmələri Müqəddəs Kitabın ana dillərinə tərcümə edilməsinə yol açdı. Elm inkişaf etdikcə insanlarda Allahın yaradılışına qarşı heyranlıq hissi baş qaldırdı.

Yeni fikirli kilsələrin meydana gəlməsində qan, alov və qılınc da öz əzablı rolunu oynamışdı. Biz — katolik, pravoslav və protestantlar, hamımız Allahın lütf və həqiqətinin aydın təsvirini gördüyümüz üçün şəhidlərə borcluyuq.

[2] Bu hərəkata holland keşiş Menno Simons rəhbərlik etmişdi.
[3] öz zərərinə olsa belə, müharibə və zorakılıq əleyhdarı olmaq

# Henri Voes, Cohan Ekk və Lampertus Torn

## (1523)

Hər hansı bir səhv kitabı oxumaq sizə öz həyatınız bahasına başa gələ bilər.

1521-ci ildən sonra Avropanın hər yerində Martin Lüterin hər hansı bir kitabını oxumaq cinayət hesab olundu. Lüter həmin il Vorms şəhərində öz ilahiyyatçı fikirlərini kilsə rəhbərlərinə çatdırmışdı. Onlar məşhur Vorms fərmanı ilə Lüterə cavab verərək yazılarını qadağan etmişdilər. Amma Martin avqustinçi rahib olduğu üçün onun işlərini avqustinçilər qəbul edib geniş yaymışdılar. Antverpendə avqustinçilər Lüterin öyrətdiyi kimi Müjdəni böyük həvəslə oxuyub vəz edirdilər.

Amma Antverpen şəhəri Löven Katolik Universitetinə yaxın idi. İlahiyyat üzrə doktorlar bu qeyri-qanuni ideyaları eşidəndə onlara öz münasibətlərini bildirdilər. 1552-ci ildə bütün avqustinçilər həbs edildi və onların binası təmirə yararsız bina kimi dağıdıldı, çünki ilahiyyatçıların fikrincə, bu yer ruhani təmirə yaramayan bir bina idi.

Avqustinçilərdən Ceyms Probst reydlər zamanı qaçıb canını qurtardı. Onun köməkçisi Melkiyor Miris isə öz düşüncə tərzindən dönüb İnkvizisiyaya qoşuldu. Digər rahiblərdən üç avqustinçi rahib öz düşüncə tərzindən dönməyib qətiyyət göstərdi. Onlar Kəlamda heç bir əsası olmayan papa hakimiyyətini, Rəbbin Süfrəsindəki çörək və şərabın Məsihin bədəninə və qanına çevrilməsi ideyasını və kilsənin başqa qaydalarını qəbul etmədikləri üçün ölənlər arasında birinci oldular. İmanda heç bir şübhə və ya tərəddüd etməyən Henri Voes və Cohann Ekk 1523-cü ilin iyulun 1-də edam olundu. Lampertus öz düşüncə tərzindən dönmək barədə götür-qoy etmək üçün vaxt istədi. Amma sonra o da Məsihə imanı uğrunda dünyasını dəyişdi.

Bu rahiblərin məhkəməsi başqa yerlərdəki məhkəmələrdən fərqli idi. Burada ittihamlar siyasi məsələ ilə deyil, daha çox ilahiyyat və təlimlə bağlı idi. Müstəntiqlər müttəhimlərdən öz "imanlarına" dönmələrini xahiş

etdilər. İttihamçılar bircə razılıq sözü ilə onları bağışlayacaqlarını vəd etdilər. Martinin onları iman yolundan uzaqlaşdırdığını rahiblərə söyləyəndə Henri Voes belə dedi: "Bəli, həvarilər Məsih vasitəsilə yollarından döndükləri kimi biz də Lüter vasitəsilə yolumuzdan dönmüşük". Onlardan papanın əmrlərini pozmaqdan qorxmadıqlarını soruşdular. Onlar cavab verdilər: "Biz insan müddəalarına deyil, xilas və ya ittiham edən Allahın əmrlərinə inanırıq". Belə cavablar quru çubuqlar üçün sanki qığılcımlar idi və axırda onların həyatlarına son qoydu.

Martin bu rahiblərin insanlar qarşısında əzablı tərzdə edam edilməsi xəbərindən çox kədərləndi. "Bizim gördüyümüz iş artıq adi oyun deyil, — o dedi — o, qan və həyat tələb edir". Sonra o, Löven Katolik Universitetində filosoflar tərəfindən yandırılmış iki məsihçi şəhid barədə mahnı yazdı:

Qoca düşmən bu məsihçiləri əsir edib hədə-qorxu gəldi.
Onlara kələk gəlib aldadaraq Allahın Kəlamından dönməyi söylədi.
Buna görə o, Lövenin bir çox filosoflarını topladı.
Lakin alimlər bütün fəndləri ilə gücsüz idilər. Allahın Ruhu onları axmaq kimi göstərdi.
Beləcə, onlar bu işdə uğursuzluğa düçar oldular.

Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin. Çünki bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm yaradır.

**Yaqub 1:2–3**

# Anabaptistlər

*Anabaptist* terminin mənası “yenidən vəftiz edənlər” deməkdir və XVI əsrin radikal islahatçılarını tənqid edənlər tərəfindən işlənirdi. Kilsələr körpələri vəftiz edirdi, amma anabaptistlərin fikrincə Müqəddəs Kitaba əsasən yalnız yetkinlik yaşına çatmış imanlı insan vəftiz olunmalı idi. Onlar kimisə ikinci dəfə vəftiz etmirdilər, çünki anabaptistlər körpələrin vəftiz olunmasını qeyri-qanuni hesab edirdi. Anabaptistlər sadəcə özlərini “imanlılar”, “qardaşlar” və ya “məsihçilər” adlandırırdılar. Bu islahatçılar lüteranlar kimi kilsə deyil, müxtəlif hərəkatlardan gələn imanlılardan bir cəmiyyət yaratdılar. Bu gün onlar amişlər, qutteritlər, mennonitlər, ingilis baptistləri kimi tanınırlar və onlar yalnız böyüklərin vəftiz olunmasına inanırlar. Birinci əsrdə bəzi məsihçilər bu qaydaya əməl etmişdilər. Amma anabaptist hərəkatının kökləri Reformasiyadan qaynaqlanırdı.

1525-ci ildə Sürix şəhərində üç nəfər — Konrad Qrebel, Feliks Manz və Corc Blaurok islahataları davam etdirmək üçün görüşdülər. Onlar düşünürdülər ki, Martin Lüter və Ulrix Svinqli güzəştlərə getdikləri üçün islahatlar dayandırılıb. Qrebel və onun yoldaşları kilsə və ora gedən həvəssiz adamlarla heç bir iş görmək istəmirdilər. Bu imanlı qardaşlar üçün Məsihin davamçısı olmaq təkcə iman etmək deyildi, eləcə də imana uyğun yaşamaq idi. Onların fikrincə, Məsihin kilsəsinə qoşulmağın əsas əlaməti vəftiz olunmaq idi və bu yalnız yetkin yaşlı insanlara şamil edilirdi. Ona görə də belə radikal imanlılar körpələrin vəftiz olunmasını inkar edirdilər.

İndiki əsrdə heç bir sivil hökumət vəftizi dövlət məsələsi hesab etməz və hər kəsin fikrincə, “insan öz həyatını istədiyi kimi yaşamalıdır”. Amma XVI əsrdə Sürixdə mülki və dini hakimiyyətlər bir-birindən fərqli sahələr deyildi. Rəhbərliklər qanuna əsasən şəhərdə yalnız bir ibadət növünü qəbul edirdilər. Ona görə də radikallar şəhərdə təfriqəçilik yaradırdı.

Məsələni müzakirə yolu ilə həll etmək təklif olundu. Radikallar Svinqlinin özü ilə birlikdə camaat qarşısında toplaşdıqdan sonra şəhər şurası məsələni həll etməli idi. Nəticədə, anabaptistlərə görüşmək, öyrətmək və ya bir yerdə yığışmaq qəti qadağan edildi. Görünür, bu qanunlar Qrebel və başqalarını vicdanlarına qarşı hərəkət etməyə vadar etdi.

Qanuna zidd olsa da, radikallar 1525-ci il yanvarın 21-də dua etmək üçün bir yerə toplaşdılar. Beləliklə, Reformasiyanın həmfikir yoldaşı kimi "İsveçrə Qardaşlığı" yarandı. Amma islahatçılar onları rədd etdilər. Anabaptistlərin sonrakı nəsillərinin bir hissəsi (amişlər) yaşadıqları mədəniyyətə qaynayıb qarışmadılar. Digər qismi isə pasifist mennonitlərə qoşuldular. Növbəti əsrlərdə dini hakimiyyət Qrebel və onun "İsveçrə Qardaşlığı"nı güclü təqib etdi. Qardaşlığın Avropadan XVII və XVIII əsrlərdə Amerikaya köçməsi sübut edir ki, onlar ibadət etmək və ailələrini qorumaq üçün təhlükəsiz yer axtarırdılar. Onların ideyalarının dəstəkləndiyi bəzi yerlərdə Qrebelin, Manzın və Blaurokun duaları bu gün də səslənməkdədir.

Əgər bütün var-dövlətimi paylayıb
yoxsulları doyduraramsa və
bədənimi oda təslim edərəmsə,
lakin məhəbbətim yoxdursa, bunun
mənə heç bir xeyri yoxdur.

**1 Korinflilərə 13:3**

# Feliks Manz

## (1527)

Müasir dünyada kilsədən narazı olan insan sadəcə ibadət etmək üçün başqa bir yer seçə bilər. Kilsələr çox və seçimlər sonsuzdur. Amma XVI əsrdə Avropada, hətta maariflənmiş, azacıq dövlət müstəqilliyi və düşüncə azadlığı əldə etmiş İsveçrədə də belə deyildi.

Nikahdan kənar doğulan Feliks Manz kahin oğlu idi. Onun uşaqlığı çətin keçsə də, böyüyüb zəkalı və savadlı bir gənc olmuşdu. 1519-cu ildə bu gənc Ulrix Svinqlinin təlimlərini oxuyub sevməyə başladı və onun islahatçılıq hərəkatına qoşuldu. Amma iki il sonra Feliksin fikrincə Svinqli irəliləməli olduğu vaxtda güzəştə gedərək geriyə çəkildi. Burada vəftiz mühüm bir məsələ idi. Svinqlinin təlimlərinə baxmayaraq Manz və onun yoldaşları Konrad Qrebel və Corc Blaurok Kəlamda körpələrin vəftizi barədə heç nə tapmadılar. Onlar düşünürdülər ki, Müqəddəs Kitabda olmayan hər hansı bir ideya, sadəcə insan ixtirasıdır və sağlam iman fərziyyə və ya təxəyyülə əsaslana bilməz. 1525-ci ilin yanvarın 17-də Sürix Şəhər Şurası Svinqlinin ideyalarını dəstəkləsə də, bu kiçik qrup açıq müzakirədən sonra onlarla razılaşmadı.

Dörd gün sonra Manz və yoldaşları dua etmək üçün toplaşdı. Onlar özlərinə sual verdilər: “Biz kimin ardınca getməliyik? İnsanın Allah ilə ünsiyyətini hansı qanun idarə edir?” Toplantıda[4] Qrebel Blauroku, Blaurok isə başqalarını vəftiz etdi. İmanlı qardaşların bu hərəkəti dövlətə qarşı cinayət idi.

Növbəti iki il ərzində bir neçə dəfə Manz həbs edildi. Nəhayət, səlahiyyətli şəxslər onun itaətsizliyinə dözmədilər. Feliks həbsxanaya salındı və “radikal” islahatlarına son qoymağı ona xəbərdarlıq etdilər. Əlbəttə, o öz imanından dönməyəcəkdi, ona görə də qanun öz işini gördü. 1527-ci ilin yanvarın 5-də onu Sürix gölünün yaxınlığındakı Limmat çayına gətirdilər və əllərini bağlayıb suya atdılar. Feliksin anası və qardaşları ona yalvardılar ki, buzlu suda boğulub ölərkən imanda möhkəm qalsın. İslahatçı Manz həbsxanada olarkən bu sözləri demişdi: “Ey göylərdə olan

---

4 Bu toplantı mennonit kilsəsinin bağlanğıcı kimi qeyd edilir.

Rəbb İsa, Səndə əbədi sevincim olsun deyə həyatım sona yetməzdən əvvəl qəm-qüssəmi götürdüyün üçün Səni izzətləndirirəm".

Otuz yaşına çatmamış Feliks digər islahatçılar tərəfindən öldürülən ilk radikal islahatçı oldu. Manz və onun qrupu sadəcə Qardaşlıq kimi tanınır. Bu gün onun mennonitlər kimi tanınan kilsəsi on ildən sonra yaranacaqdı. Bəziləri Qardaşlıq kimi tanınan məzhəbi anabaptistlər də adlandırırdılar, çünki onlar qanuna zidd gedərək böyükləri yenidən vəftiz edirdilər. Manz üçün kilsə islahatları bir yerdə qalmayıb irəliləməli idi, "çünki O bizi Öz ilahi lütfü ilə öyrədir və bütün insanlara məhəbbət göstərir".

"Qılınca yaxın olan Allaha da yaxındır; vəhşi heyvanlar arasında olan Allahla birgədir; amma bir şərtlə ki, qoy bunlar onun həyatında İsa Məsihin adı ilə olsun. Onunla birlikdə əzab çəkə bilməyim üçün bütün bunlara dözürəm, O məni daxilən gücləndirir".

**— Antakyalı İqnati**

# Maykl Settler

## (1495–1527)

1495-ci ildə doğulmuş Maykl Settler rahib idi. İslahatlar dövrünün bir çox rahibləri kimi o da öz cismani hisləri ilə Allaha olan sevgisi arasında mübarizə aparmışdı. Settler verdiyi daimi subaylıq əhdini Marqarita adlı bir qadına görə pozmuşdu. Marqarita da özü daimi nikahsızlıq əhdini pozmuş bir rahibə idi. Sonralar bu cütlük daha böyük bir məhəbbət uğrunda, Allaha olan əhdlərinə görə həlak olacaqdılar.

1526-cı ildə Settlerlər anabaptist hərəkatına yenidən qayıtdılar. Neçə illər əvvəl Maykl həbs olunmamaq üçün bu hərəkatdan üz döndərmişdi. İndi anabaptist əqidəsində möhkəmlənmiş Maykl öz həyatını kilsədə vəz etməyə həsr etmişdi. O, katoliklərin güclü təsiri olan ərazidə, Avstriyanın Horb şəhərində xidmət edirdi. 1527-ci ilin fevralın 4-ü kiçik alman şəhəri Şlaytxaymda anabaptistlər kilsəni və Müjdəni başa düşməyin yeni üsulunu dünyaya təqdim etdilər. Settlerlər “İmanın yeddi müddəası”nın hazırlanmasında iştirak etmək üçün Horb şəhərindən Almaniyaya yola düşdülər. Maykl Settler anabaptist hərəkatını təsis edən bu sənədi yazmaqda kömək etdi. Bu sənəd həm də “Qardaşlıq Birliyi” kimi tanınır.

Amma həmin görüşdən evə qayıdarkən Maykl və Marqarita Settler həbs edildi və müddəalar yazılmış sənədlər müsadirə olundu. Onlar anabaptist hərəkatının müdafiəçilərindən anabaptist şəhidlərinə çevrildilər. Kilsənin ona qarşı hərəkəti Mayklın təsəvvürünə belə gəlməzdi.

1527-ci ilin mayın 17-də Maykl, Marqarita, eləcə də digər doqquz kişi və səkkiz qadın həbs olundu. Onlar məhkəmə qarşısında doktrina və adət-ənənəyə zidd olan hərəkətlərə görə ittiham edildilər. Bunlara Rəbbin Süfrəsi, vəftiz, yağla məsh olunma və müqəddəslərə pərəstişə qarşı etdikləri hərəkətlər daxil idi.

Məhkəmə qərarında deyilirdi: “Maykl Settler cəllada tapşırılsın. O, meydana aparılsın, dili kəsilib çıxarılsın, sonra arabaya zəncirlə bağlansın. Orada qaynar maşa ilə bədənindən iki dəfə qoparılsın, edam yerinə aparılarkən bu hərəkət beş dəfə təkrarlasın və sonda qatı kafir kimi cəsədi yandırılıb külə döndərilsin”.

1527-ci ilin mayın 21-də "Əbədi olan Küll-İxtiyar Allah, Sən yol və həqiqətsən!" fəryadları içərisində edam hökmü icra edildi. Səkkiz gün sonra Marqarita da eyni tale ilə üzləşdi. O, Rottenburq şəhərində Qara Meşə yaxınlığında yandırıldı.

Rəbbin və həyat yoldaşının sevgisində tamlıq tapmış Settler anabaptist hərəkatının bütün xalqlara həqiqət işığı olması üçün özünü fəda etdi. Onların ölümündən dərhal sonra anabaptistlər "İmanın yeddi müddəası"nı həyata keçirməyə başladılar və artıq heç bir işgəncə təhlükəsi onları dayandıra bilməzdi. Anabaptistlərin ürəklərindəki alov onları öldürmək üçün olan alovdan daha güclü alışıb yanırdı. Bunu Maykl və Marqaritanın qəlbləri üçün də demək olar: onlar məhəbbət üçün yaşayıb Məhəbbət üçün öldülər.

Mənim sizə söylədiyim sözü yadınıza salın: "Qul ağasından üstün deyil". Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər, Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər.

**Yəhya 15:20**

# Corc Uaqner

## (1527)

XVI əsrdə Münhendə adi insanın həyatında bu üç şey onun üçün təhlükə yaradırdı. Bunlara görə insan həyatını itirə bilərdi. Birincisi, kahinin günahı bağışlamaq səlahiyyəti idi. İkincisi, Rəbbin süfrəsində çörək və şərabın möcüzəli surətdə Məsihin qanına və bədəninə dəyişilməsi və üçüncüsü, insanı Allahın mühakiməsindən azad edən su vəftizi idi. Corc Uaqner Reformasiyanın radikalları olan anabaptist hərəkatına qoşulmuşdu və bu doktrinaların heç birinə inanmırdı. Corc düşünürdü ki, Müqəddəs Kitabın öyrətmədiyi hər hansı bir şeyi insanın təhriki altında öyrənmək məcburiyyətində deyil.

İnadkarlığına görə Uaqneri həbs etdirən Bavariya şahzadəsi qaniçən insan deyildi və günahsız insanı öldürmək istəmirdi. Şahzadə sadəcə Corcun etiraf etməsini gözləyirdi və hətta nəzakətlə Corcdan xahiş edəndə o bunu etmək istəmədi. Corcun qarşısına həyat yoldaşı və övladını gətirdikdə belə o, fikrindən dönmədi. Adətən, istənilən insan doğmalarını görüb bəzi kilsə doktrinalarında səhv etdiyini boynuna ala bilərdi. Amma bu insan belə etmədi.

Anabaptist Corc Uaqner 1527-ci ilin fevralın 8-də kafirliyə görə yandırılmaqla edam olundu. O, edam yerinə gedərkən yolda bu sözləri dedi: “Bu gün mən bütün dünya qarşısında Allahımı iqrar edirəm”.

Elə həmin gecə Uaqneri edam edən şəxs yatağında öldü. Bəzilərinin fikrincə, bu Allahın qəzəbi idi. İctimaiyyətə xidmət edən bir insanın həyatı kədərli və dəhşətli bir sonluqla bitdi. Amma ölümə gedərkən Corcun çöhrəsində təbəssüm vardı. O, qeyri-adi, lakin xoşbəxt bir insan idi.

# Baltazar Habmayer

(1480–1528)

Anabaptistlərin alimi olan Baltazar Lüterdən lütf, Kalvindən Allahın şərtsiz seçimi və körpələrin vəftizi barədə fikirlərinə görə ayrılmışdı. Habmayer ilahiyyat üzrə doktorluq dərəcəsi əldə etmiş yeganə anabaptist rəhbər idi. Onun yazıları dünyada məsihçiləri hələ də ruhlandırmaqda davam edir.

Habmayer körpələrin vəftizinin tamamilə faydasız olduğunu öyrədirdi. O, Sürixdə Avstriyanın kralı Ferdinandın ordusundan qaçmağa çalışarkən həbs olundu. Özünü müdafiə etmək üçün o, dahi islahatçı Svinqlinin sözlərindən sitat gətirdi. Svinqli isə Habmayerin onu səhv başa düşdüyünü söylədi və Baltazar bundan çox təəccübləndi. Yanında heç bir tərəfdarı olmadığına görə o, utandırılmış halda fikrindən dönməyə razılaşdı. Amma ertəsi gün vicdan əzabı çəkdiyi üçün Habmayer sözünü geri götürdü. Bundan sonra onu həbsxanaya saldılar və işgəncə alətinin üzərinə qoydular. Düşünürdülər ki, o, işgəncələrin təsirindən ilahiyyat barədə nəzəriyyəsini dəyişəcək. Ağrılar həqiqətən də ona təsir etdi və Habmayer bundan sonra qərara gəldi ki, öz əqidəsindən dönsün. Onu həbsxanadan azad etdilər və anabaptist alim İsveçrəyə yollandı. Amma vicdanı əziyyət çəkirdi və ona görə də Baltazar 1526-cı ildə *Qısa Üzrxahlıq* yazdı: "Mən səhv edə bilərəm, mən insanam, amma kafir ola bilmərəm... Ay Allah, zəifliyimə görə məni bağışla".

Amma Habmayer təkcə qəlbindəki fikirləri araşdırmadı. O, yaşadığı Bavariyada vəz edir, öyrədir və bölgənin hər yerində böyükləri vəftiz edirdi. Radikal protestantların bu qeyri-qanuni hərəkətləri Avstriya imperiyasının, eləcə də kral Ferdinandın sülhünü pozmuşdu. Nəhayət, Habmayer öz baxışlarını kağız üzərinə köçürəndə Ferdinandın adamları onu həbs edib Vyanaya gətirdi. Səkkiz ay sonra 1528-ci il, martın 10-da dirəkdə yandırıldı. Edam zamanı həyat yoldaşı Elizabet ona möhkəm olmağı söylədi. Onun ölümündən üç gün sonra Elizabetin boynuna daş bağlayıb Dunay çayına atdılar.

Bu cütlüyün iman yolunda qoyduqlar irsə onların yazıları daxildir. Onlar Allahın bütün günahkarlara olan məhəbbəti, vəftizi və məsihçinin vəzifəsi olan pasifizm barədə öyrətdilər. Habmayer yazılarında qeyd edirdi ki, nə ateistə, nə də bütpərəstə işgəncə verilməməlidir. Əksinə belə insanlara bildirilməlidir ki, Allah onların iman etməsini səbirsizliklə gözləyir. Habmayer radikal islahata onun ən güclü ilahiyyatçı müddəasını bəxşiş etdi. Bu ona həyatı bahasına başa gəldi.

Cismim və ürəyim taqətdən
düşsə belə, daim, ey Allah,
qəlbimin qüvvəti, nəsibimsən.

**Zəbur 73:26**

# Corc Blaurok

(1491–1529)

İsveçrənin Qrizon kantonunun Bonaduz bələdiyyəsində doğulmuş Blaurok keşişlik üçün təhsil almış və bu işə təyin edilmişdi. Amma 1524-cü ildən əvvəl keşişlik əhdlərini pozaraq evlənmiş və islahatçıların hərəkatına qatılmışdı. Corc əsas doktrinal suallar barədə Svinqlinin müzakirəsini dinləmək üçün Sürixə gəlmişdi. Amma Svinqlinin islahatlarına deyil, anabaptistlər adlanan radikallardan ibarət kiçik qrupa qoşulmuşdu. Blaurok 1525-ci il yanvarın 21-də anabaptistlərin və ya Qardaşlığın ilk görüşündə vəftiz olunmuşdu. Sonra isə özü də yeni üzvləri vəftiz etmişdi.

Əlbəttə ki, qarşıda Corcu çətinliklər gözləyirdi. Feliks Manzın şəhid olduğu gün Sürix vətəndaşı olmayan Blaurok döyülərək oradan qovuldu. O, Bernə, Bilə, Qrizona və Appenzelə getdi və bu yerlərin hər birində həbs olundu. Həbsdən azad edildikdən sonra islahatçı İsveçrədən Tirola getdi və dirəkdə yandırılmış Maykl Kirşnerin pastorluq işini öz üzərinə götürdü. 1529-cu ildə Avstriyanın İnsbruk şəhərinin rəhbərliyi Blauroku həbs edib məhkəmə qarşısına çıxardı.

Radikal islahat hərəkatı barədə məlumat almaq üçün Corca işgəncə verildi və 1529-cu ilin sentyabrın 6-da o, pastor köməkçisi Hans Lanqeqqer ilə yanaşı dirəkdə yandırıldı.

Blaurokun yazılarından bizə gəlib çıxan bir məktub və iki himndir. “Allahım, Səni izzətləndirmək istəyirəm” himnində o öz qələbə sözlərini yazmışdı:

> Qoy Ruhun məni qorusun və öyrətsin ki, O böyük sıxıntılarda
> Sənin təsəllini ala bilim və bu döyüşdə qələbəni
> cəsarətlə qazana bilim.

# Patrik Hamilton (1527) və Henri Forest (1529)

Məhkəmənin çıxardığı hökmdən hələ heç kim şotlandiyalı Patrik Hamilton qədər təəccüblənməmişdi və heç kimə qarşı belə qəddarcasına rəftar edilməmişdi. Şotlandiyanın ilk şəhidlərindən olan Patirk kral ailəsinin üzvü və Stüartlar sülaləsindən kral V Ceymsin qohumu idi. Bu qohumluğun sayəsində o, Parisdə təhsil almış və Avropanın əsas alimlərindən biri olan Erasmus ilə tanış olmuşdu.

Martin Lüterin Vittenberqdə kilsənin qapısına "95 Tezis"ini yapışdırdığı il Hamilton Fernedə rahib vəzifəsinə təyin edilmişdi. Patrik alman islahatçı ilə görüşmüşdü. O həm də yazıları ilə Lüteran Reformasiyasını gücləndirən Filip Melanksonu şəxsən tanıyırdı. Patrik istedadlı musiqiçi olduğundan öz kilsəsində həm himnlər bəstələyir, həm də dirijorluq edirdi. Gələcəyə böyük ümidləri olan bu ağıllı və məntiqli gənc görünür ki, bir cəhətdə, təhlükəni əvvəlcədən hiss etməkdə axsayırdı.

1523-cü ilin yayında Hamilton Sent-Endryus Universitetinin fakültəsində işləmək üçün Avropadan qayıtdı. Avropada məsihçiliyin yeni baxışlarının təsirinə düşmüş Hamilton yenicə kəşf etdiyi Müqəddəs Kitabın həqiqətini öyrətmək istəyirdi. Patrik bu haqda müzakirə etmək üçün istənilən imkandan istifadə edirdi. O, indulgensiyalardan fərqli olan Allahın Məsihdə mərhəmətindən danışmağa hazır idi. Amma arxiyepiskop Ceyms Biton kənardan bu cavan alimə göz qoyurdu. Papa hakimiyyətinə tam sadiq olan arxiyepiskop əmin olmaq istəyirdi ki, Sent-Endryus Universitetində iman və lütf barədə olan təlim kilsəni məhv etməsin.

Hamiltonu işdən çıxarmaq asan qərar olsa da, bu çox vaxt tələb edirdi. 1527-ci ilin payızında Patrik toyundan dərhal sonra konfransda iştirak etməyə dəvət olundu. Burada kilsə rəhbərləri yığışacaqdı, belə görünürdü ki, "yeni doktrinalar" barədə müzakirə keçiriləcəkdi. Hamilton canlı müzakirənin olacağını düşünüb dərhal dəvəti qəbul etdi. Arxiyepiskop Biton isə qısa teoloji istintaq keçirib Hamiltonun həbs edilməsinə göstəriş verdi. Növbəti gün səhər gənc alim yepiskoplar tərəfindən sorğu-sual edilib on üç ittihamla kafirlikdə təqsirləndirildi və həmin günorta

öldürülməyə məhkum olundu. Ölüm hökmü cəld icra edilməli idi, yoxsa onun dostları kafirin kral ailəsinin qohumluğundan istifadə edib Patrikə bəraət qazandıraraq onu azadlığa çıxaracaqdılar. Hamilton ona qarşı edilən ittihamların hər biri ilə razılaşırdı. Gənc alim öyrətdiklərinə tam əmin idi və özünün, eləcə də hamının aydın bildiklərini inkar edə bilməzdi.

Sübhəsiz ki, hadisələrin belə tez cərəyan etməsindən heyrətlənmiş Hamilton edam yerinə dua edərək addımladı. Dirəyə bərkidildikdən sonra hər qolunun altına bir kisə barıt bağlandı. Sonra ətrafına bir topa hələ də yaşıl olan odun və alışqan qoydular. Barıt alovlansa da, partlamadı. Odunlar yansa da, onu öldürmək üçün kifayət qədər istilik vermədi. Odunlar közərir, Hamiltonun suluqlanmış yanmış bədəni ağrıdan qıvrılırdı. Ətrafına daha çox odun yığılarkən Patrik bu məşəqqətə son qoymalarını xahiş etdi. O, düz altı saat Sent Salvator Kollecinin önündə izdiham qarşısında əzab çəkdi. İztirablar içərisində qışqırarkən onun bu sözlərini hamı eştidi: “Ya Rəbb, ruhumu qəbul et. Nə vaxta qədər qaranlıq bu torpağı bürüyəcək?”

İki il sonra 1529-cu ildə benediktnçi rahib Henri Forest öz vəzlərində həqiqət uğrunda şəhid olmuş müəllim Patrik Hamiltondan danışmağa başladı. Arxiyepiskop Biton Hamiltonun təliminə əks çıxmışdı və indi Forestin inandırıcı təliminə də göz yuman deyildi. Amma Bitonun qarşısında kilsədəki sadiq imanlılar dururdu. Bu məsihçilər Patrikin yenicə qeyri-adi cəsarətinə şahid olmuşdular. Belə vəziyyətdə Biton açıq-aşkar başqa birini təqib etsəydi, ona pis münasibət bəsləyəcəkdilər.

Biton Forestlə üzləşmək istəmədi və ona görə də onun etirafını dinləmək üçün bir rahib göndərdi. Əslində günahkar insanların etirafı keşiş və Allah arasında olan məxfi məsələ idi. Amma bu halda etiraf məlumat toplamaq üçün bir bəhanə idi və Biton da niyyətinə nail olmaq üçün bu yoldan istifadə etdi. Bu dəfə Biton əmr verdi ki, kilsənin daxilində olan məxfi məsələ kimi Forest insanlardan uzaqda, yeraltı zindanda boğulub öldürülsün.

Şotland Reformasiyası inkişaf etdikcə bu iki qəhrəman şərəflə anıldı. Hamilton və Forestdən sonra şotlandların həyatlarının dəyişilməsində Con Noks Müjdəni vəz edib öyrətməklə böyük rol oynadı.

# Con Frit

## (1503–1533)

İngilis protestant keşişi Con Frit yer üzündə yalnız otuz il yaşadı.

Con 1503-cü ildə doğulmuş və İton Kollecində oxuduqdan sonra Kembric Kinqs Kollecində təhsilini başa vurmuşdu. 1525-ci ildə təhsilini bitirdikdən sonra Con kiçik keşiş kimi Oksford Volsi Kollecində işə başlamışdı. Sonra Əhdi-Cədidin ingilis dilinə tərcüməsində Uilyam Tindeylə kömək etmişdi, lakin bu işə görə o, üç il həbsxanada qalmışdı.

Con həbsdən azad edildikdən sonra Marburqa gedib Patrik Hamiltonun *Loci Communes* (İlahiyyatın əsas prinsipləri) kitabını tərcümə etdi. "Patrikin əsas prinsipləri" kimi tanınan bu əsər imanla bəraət qazanmağın təlimini və Müjdə ilə Qanun arasında ziddiyyəti izah edirdi. Gənc keşiş Frit həm də *Disputacion of Purgatorye* (Cənnətlə cəhənnəm arasındakı yer barədə müzakirə) kitabını yazdı.

Con 1532-ci ildə İngiltərəyə qayıdanda kafirliyə görə həbs olunub. O hətta London Qəsrində həbsdə olarkən dini ayinlər barədə protestant nəzəriyyələrini formalaşdırıb yazmaqda davam etdi.

Fritə ölüm hökmü verildi, amma ona təklif olundu ki, əgər cənnətlə cəhənnəm arasındakı yerə və Rəbbin Süfrəsində şərab və çörəyin möcüzəli surətdə dəyişilməsinə inandığını söyləsə o əfv olunacaq. (Roma Katolik kilsəsi öyrədirdi ki, Rəbbin Süfrəsi qəbul olunarkən çörək və şərab Məsihin həqiqi bədəninə və qanına çevrilir.) Con cavab verdi ki, bu təlimlərin heç biri Müqəddəs Yazılar tərəfindən təsdiqlənməyib.

Beləliklə, Con Frit 1533-cü ilin iyulun 4-də Londonun Smitfild ərazisində dirəkdə yandırıldı. Conun əsərləri 1573-cü ildə onun ölümündən qırx il sonra Con Foks tərəfindən nəşr etdirildi.

# Uilyam Tindeyl

(təxminən 1494–1536)

Həqiqəti bilmək həvəsimiz o qədər böyükdür ki, bu həqiqəti axtaranların bəziləri əsas bir şeyi bilmək naminə hər şeylərini, hətta öz canlarını da verəcəklər.

Uilyam Tindeyl çox savadlı bir alim idi və o, həqiqət mənbəyi olan Müqəddəs Kitabın ingilis dilində olmadığına görə narahat idi. Əvvəlcə Oksfordda, sonra isə Kembricdə təhsil alarkən Uilyam dil baryeri olduğuna görə əsəbiləşirdi və həm ağlını, həm də ürəyini qidalandırmaq istəyirdi. O deyirdi: “Universitetlərdə belə qayda var ki, səkkiz və ya doqquz il dinsiz təlimlə beyin doldurulana və yanlış prinsiplərlə silahlanana qədər heç kəs Kəlama baxmamalıdır”. Tindeylin həyatı isə bu maneələri aşmağa həsr olunacaqdı. Onun fikrincə insanlar Müqəddəs Kitabı öz dillərində oxuduqdan sonra kilsədəki mənəviyyat pozğunluğuna son qoyulacaqdı. İnsanların öz dillərində Müqəddəs Kitabının olması o demək idi ki, artıq heç bir təzyiq və keşişin müdaxiləsi olmadan hamı həqiqətin özündən qaynaqlana biləcəkdi.

Tindeyl təxminən 1494-cü ildə Uels sərhədinə yaxın İngiltərənin Qlouster şəhərində doğulmuşdu. Doxsan il əvvəl kilsə dünyada yeganə nüsxə olan ingilis dilində Müqəddəs Kitabı, Con Uikliffin əlyazmasını qadağan etmişdi. Bu, latın vulqataya əsaslanmış qüsurlu tərcümə olsa da, ingilis dilində danışan insanların əlində yeganə vəsait idi. Uiklifin əlyazmasına malik olmaq özü bir cinayət idi. Nəhayət, Tindeylin marağı onu yaşadığı əsrdə olduqca təhlükəli bir işlə məşğul olmağa gətirib çıxardı. Müqəddəs Kitabı yunan və ibrani mətnlərindən ingilis danışıq dilinə elə oxunaqlı və dəqiq tərcümə etmək lazım idi ki, ingilis dilli oxucu onu asanlıqla oxusun, öyrənsin və Allahı dərk etsin. Bütün bunlar çox dil bilən otuz yaşlı Tindeylə aydın idi.

Bu işi görmək üçün Tindeyl İngiltərəni tərk etməli idi. Bu sahədə heç bir yepiskop nə onu müdafiə edəcəkdi, nə də onun layihəsini dəstəkləyəcəkdi. Beləliklə, Tindeyl Almaniyaya yollandı və Əhdi-Cədidin tərcüməsini 1525-ci ildə tamamladı. Sonra o, Antverpenə getdi, orada




*Uilyam Tindeyl Müqəddəs Kitabı ingilis dilinə tərcümə etdiyi üçün dirəkdə yandırıldı.*

ingilis agentlərinin təhlükəsindən yayınaraq Əhdi-Ətiqin ilk beş kitabını tərcümə edib çapdan çıxardı. Uilyam Belçikada ingilis tacirləri ilə görüşdü. Casuslar onu hər yerdə axtarsalar da, burada Tindeyl özünü təhlükəsizlikdə hiss edib öz ehtiyatını əldən verdi. Onun ehtiyatlı olmaması faciəli sonluğa gətirib çıxaracaqdı.

Tindeyl orada Henri Filips ilə dostluq etməyə başladı. O, Tindeylin qəlbinə yol tapıb etimadını qazanmışdı. Filips Tindeylin ələ verilməsi üçün təklif edilən mükafatı əldə etmək istəyirdi və gizlicə plan cızırdı. Nəhayət, 1535-ci ilin mayında onun üçün tələ quruldu və Tindeyl tutularaq mühafizəçilərin nəzarəti ilə Brüsselin yaxınlığında Vilvordedə qəsrə aparıldı. O, burada rütubətli və soyuq bir yerdə qalaraq on səkkiz ay əzab çəkdi, sonra məhkəmə qarşısına çıxarıldı. Uilyamı “yalnız iman vasitəsilə

bəraət qazanılır, xilası əldə etmək üçün günahların bağışlanmasına inanmaq və Müjdənin təklif etdiyi mərhəməti qəbul etmək kifayətdir" sözlərinə görə ittiham etdilər. Bu siyahıya "bizlər tərəfindən nə bakirə Məryəmə, nə də müqəddəslərə dua olunmamalıdır" ittihamı da daxil idi.

Tindeyl bu məhkəmələrin necə aparıldığını yaxşı bilirdi. Onun özünü müdafiə etmək üçün heç bir şansı yox idi və ölüm yeganə həll yolu idi. Şəfqətli həbsxana rəisinin köməyi ilə o, soyuqdan bədəni titrəyərək, zəif işıqda Müqəddəs Kitabın ingilis dilinə tərcüməsini tamamlamağa çalışdı.

1536-cı ilin avqustunda Tindeyl kafir elan edildi və dövlət rəhbərliyinə təhvil verildi. O daha iki ay Vilvordedə saxlanıldı. Sonra oktyabrın əvvəlləri dan yeri yenicə sökülərkən onu zindandan çıxarıb edam yerinə apardılar. Qəbul olunmuş qaydaya görə Rəbbin Süfrəsinin elementləri olan çörək və şərab edam edilənin əllərinə qoyulmalı və sonra dərhal geri götürülməli idi. Kafir öz fikrindən döndüyü halda ölüm hökmü son dəqiqədə ləğv oluna bilərdi. Edam zamanı həmişə "kafirin" ölümünə tamaşa etmək üçün izdiham toplaşıb qışqırırdı.

Uilyam dirəyə bağlandıqdan sonra ətrafına budaqlar və odun yığıldı. Tindeylin belə dua etdiyi eşidildi: "Ya Rəbb, İngiltərə kralının gözlərini aç". Sonra edam edən Uilyamın boğazına bağlanmış ilgəyi tarımlamaq istəyəndə bərk dartdı və alov Tindeylin bədənini bürümüzdən əvvəl onu boğdu.

Tindeylin sonuncu duası kral VIII Henri üçün idi. Bu kral özünə kişi varis istədiyinə görə arvadları olan Anna Boleynin həyatını və Ketrinlə nikahını məhv etmişdi. Öz gücünə və şöhrətinə uymuş kral nə vaxtsa Tindeylin ingilis dilində Müqəddəs Kitabını dəyərləndirəcəkdimi?

Həqiqətən də bir müddət sonra Uilyamın duasına cavab gəldi. Tindeylin ölümündən iki il sonra kral Henri şəhid Uilyamın Matta Müjdəsinin paylanmasına icazə verdi. Sonra 1539-cu ildə kral tərəfindən bütün nəşriyyatlara və kitab satanlara əmr verildi ki, "öz ana — ingilis dilimizdə Müqəddəs Kitabın sərbəst və geniş tərzdə istifadəsi" təmin edilsin. Tindeylin arzusu və yer üzündəki sonuncu duası gerçəkləşdi.

# Con Lambert

## (1538)

Katolik Kilsəsi və kral VIII Henrinin İngiltərə Kilsəsi tərəfindən "kafir" kimi damğalanmış Con Lambert 1538-ci ilin noyabrın 22-də Londonun Smitfild ərazisində yandırılaraq öldürülmüşdü.

Lambert İngiltərənin Noric şəhərində "Con Nikolson" adı ilə doğulmuşdu. Gənc yaşlarında o, Kembric Universitetinin Kuins Kollecində təhsil almışdı. Təhsilini başa vurduqdan sonra Araqonlu Ketrin ona həmin nüfuzlu institutda elmi dərəcə verdi. Amma bəzi teoloji müzakirələrdən sonra Con adını dəyişib Antverpenə getdi və orada ingilis zəhmətkeşlərinə keşiş kimi xidmət etdi. Burada o, Con Frit və Uilyam Tindeyl ilə dostlaşdı və "Ağ Ev Yeməkxanası"nda müntəzəm olaraq görüşən ilahiyyatçılara qoşuldu. Bu qrupa gələcək lüteranlar Edvard Foks, Robert Barnz və qatı konservativ Stiven Qardiner daxil idi.

1531-ci ildə Con İngiltərəyə qayıtdı və dərhal arxiyepiskop Uilyam Varham ona göz qoymağa başladı. Amma onu heç nə də ittiham edə bilmədi, çünki arxiyepiskop özü 1532-ci ildə öldü. Norfolkun hersoqu 1536-cı ildə Lamberti kafirlikdə təqsirləndirdi, amma o, canını qurtarıb bir neçə il rəhbərliyin diqqətindən yayına bildi. 1538-ci ildə Con ələ keçdi və Rəbbin Süfrəsindəki çörək və şərabın möcüzəli surətdə dəyişilməsi ideyasını inkar etməkdə ittiham olundu. Beləliklə, o, təqsirkar hesab olunaraq dirəkdə yandırılmağa məhkum edildi.

Alovlar Conu bürüyərkən əllərini yuxarı qaldırıb dedi: "Məsihdən başqa heç kim! Məsihdən başqa heç kim!"

# Corc Uişart

## (1546)

Şotlandiyanın Aberdin şəhərində Kinqs Kollecində təhsil almış vaiz Uişart Reformasiyanın təliminə "yoluxmuşdu". Kafirlik barədə ittihamlar həyatını təhlükəyə saldıqdan sonra o, 1538-ci ildə sürgün edilmişdi. Corc 1544-cü ildə Şotlandiyaya qayıtdı.

Həmin il Uişart Dandi şəhərində epidemiyadan əziyyət çəkənlərə yardım edirdi. Uişart öz xidməti haqqında demişdi: "Onlar çətinlik içindədirlər və təsəlliyə ehtiyacları var". Amma bu vaxt ərzində Biton ona qəsd edəcək adamı hazırlayırdı. Bitonun göstərişi ilə keşiş Con Viton bürüncəyinin altında xəncər gizlədərək Dandi şəhərində Uişartın vəzini dinlədi. Vitonun silahını görüb niyyətini anlayan Uişart üzünü ona tutub dedi: "Dostum, sən nə etmək istəyərdin?" Sui-qəsd cəhdi puça çıxmış Viton qorxuya düşərək dizüstə ondan əfv etməsini istədi. Amma toplantıdakılar qışqırıb dedilər: "Satqını bizə ver, yoxsa biz güc tətbiq edəcəyik". Uişart onlara qadağan etdi. Vitonun əllərindən tutaraq Uişart dedi: "Onu incidən hər hansı bir şey məni incidəcək, çünki o mənə heç bir xətər yetirməyib, əksinə gələcəkdə daha ehtiyatlı olmağı öyrətməklə mənə yaxşılıq edib". Əfsuslar olsun ki, həmin vaxt Uişartın gözlədiyindən tez gəldi.

Nəhayət, kardinal Biton 1545-ci ilin dekabrında yenə də çirkin əməlinə əl atdı. Bu dəfə o, işi Botvelin qrafına tapşırmaqla Uişartı həbs etdirdi. Süni məhkəmədə Corc ittiham olundu. İttihamlara əsasən o, dini ayin kimi günahların keşişə etirafını qəbul etmirdi və sonsuz Allahın yalnız bir yerdə, yəni kahinin əlləri arasında olmadığını deyirdi. Uişartın fikrincə, əsl kilsə Məsihin Kəlamının həqiqətlə öyrədildiyi istənilən yerdə ola bilərdi.

Uişart öz həyatını Reformasiyanı Şotlandiyaya gətirməyə həsr etdi. Amma o, daha çox adi insanların, xəstələrin, kasıb və ümidsizlərin halına yanaraq Allahın lütfünün hamıya bərabər paylanmasına yardım göstərdi. Uişart dedi: "Mən sizə xilas Kəlamını təklif etdim. Həyatımda təhlükə olsa da, mən sizin yanınızda qaldım və indi Allahımın günahsızlığımı bəyan etməsini gözləyirəm". Hətta ölümündən bir neçə dəqiqə öncə Uişart dua edərkən ona ölüm arzulayanlar üçün belə dua etmişdi:

"Göylərdə olan Ata, Səndən rica edirəm ki, onları bağışlayasan. Onlar cahillikdən və ya şər düşüncələrdən mənim barəmdə yalanlar uydurdular. Mən onları bütün qəlbimlə bağışlayıram. Məsihə yalvarıram ki, məni kor-koranə ittiham edənləri bağışlasın".

Corc Uişart 1546-cı ilin martında Şotlandiyada Sent-Endryus Qəsrinin çölündə yandırıldı. Xəyanət edən kardinal Biton isə bütün bunların yaxşı olduğunu düşünərək qəsrin pəncərəsindən tamaşa edirdi.

---

"Vücudumuzdakı yaramıza, insanların çoxsaylı məhvinə görə ağlamağımızdan ötrü kədəri ifadə etmək üçün sözdən çox göz yaşı lazımdır".

**— Kiprianın imperator Desinin təqibləri azalandan sonra dediyi sözlər (b.e. 251-ci il)**

---

# Dörk Uillems

## (1569)

Dörk onu tutmaq üçün arxasınca qaçan insanı xilas etdi. Həmin insan isə onu şəhərin məmuruna təhvil verdi.

Dörk katolikliyin hakimlik etdiyi Hollandiyada bir protestant məsihçi idi. Amma onun imanı və işləri barədə dəqiq məlumatlar yoxdur. Mənbələrə əsasən, şəhərin rəhbərləri bu protestant məsihçinin həbsi barədə əmr verəndən sonra bir nəfər Uillemsin arxasınca düşür. Dörk qaçıb canını qurtarmaq üçün təhlükəli bir yol seçir və donmuş nazik buzun üstü ilə qaçaraq çayın o biri tərəfinə keçməyə müvəffəq olur. Amma onu tutmaq üçün arxasınca düşən adam donmuş çayın üstündən keçəndə buz qırılır və o, suya düşür. Bu zaman Dörk onun fəryadını eşidir. O başqalarını xilas etməyi öz həyatını xilas etməkdən daha üstün tutur. Uillems geri dönüb buzlu suyun içərisindən həmin adamı çıxarır. Həyatını xilas etdiyi üçün həmin adam Uillemsə imkan verir ki, qaçıb canını qurtarsın. Amma uzaqda, çayın sahilində durmuş şəhər məmuru sudan çıxmış adama əmr edir ki, öz işini axıra qədər görsün. Beləliklə, Uillems həbs olunur.

Dörk Uillemsin məhkəməsi və hökm cəzası barədə bizə gəlib çıxan məlumat bunlardır: "Ciddi rejimli həbsxana həyatından və uzun sürən məhkəmələrdən sonra böyük mətanətlə dözərək və imanını təsdiqləyərək o, qaniçən və yırtıcı canavarlar tərəfindən asta-asta yanan alovda öldürülür".

Dörk Uillemsin son sözlərindən heç biri qeyd olunmayıb. Yalnız onun sonuncu iki əməli — birinci, insanın həyatını xilas etməsi, ikincisi isə Allah uğrunda ləyaqətlə şəhid olması bizə gəlib çatıb.

# Naqasaki Şəhidləri

## (1597)

Yezuitlər[5] 1549-cu ildə Yaponiyaya gəlib çıxdılar. Dahi müjdəçi Müqəddəs Fransis Xavier adada yaşayan insanları Məsihlə tanış etmək üçün bu müjdəçilik səfərinə başçılıq edirdi. Onlarla birlikdə gələn tacirlərin mallarını yerli əhali çox bəyənmişdi. Amma camaat keşişlərin Allah barədə sözlərini hörmətlə qarşılasa da, böyük həvəs göstərməmişdilər. Buna baxmayaraq kiçik bir kilsə yarandı.

1597-ci ildə Yaponiyanın hökmdarı Toyotomi Hideyösi öz çətinliklərinin səbəbini xalqın vətənpərvərlik hissinin itməsində gördü. Ona görə də hökmdar həmin qeyri-qanuni məsihçi ibadətini ləğv etmək üçün əmr verdi və iyirmi altı məsihçi həbs olundu. Onlardan on doqquzu yapon idi. Məsihçilər Naqasakiyə gəlib çıxana qədər bir ay qarda yol getdilər. Sonra onları Nisidzaka Təpəsində hər birinin boyuna uyğun kəsilmiş çarmıxlarda çarmıxa çəkdilər. Deyilənə görə məhbuslar təpədə çarmıxlarını görəndə hər biri öz çarmıxını qucaqlamışdı və məçihçilərdən biri xahiş etmişdi ki, əllərini çarmıxın üfüqi taxtasına mıxlasınlar. Qalanlarını isə zəncirlər və dəmir halqalarla çarmıxda asılı halda saxlamışdılar və edam edənlər onları bir-bir nizə ilə sinələrinə saplayaraq öldürmüşdülər.

Müxətlif yaşlarda olan bu məsihçi şəhidlərin hər birinin öz keçmişi var idi. Cəmi on iki yaşlı Luis İbaraki öz çarmıxından göylərə uçduğunu görüntüdə görərək öldü. Qotolu Con on doqquz yaşında idi və məsihçi valideynlərinin istəyilə yezuitlər məktəbində təhsil almışdı. Həmin gün səhər o, ilk yezuit əhdini vermişdi. Samuray əsgərin oğlu otuz yaşlı Paul Miki vəz etmək üçün təyin edilməsə də, qrupda ən istedadlı vaiz idi. Paul çarmıxda əzab çəkərkən onlara tamaşa edənlərə demişdi: “İsa Məsihdən başqa heç kimdə xilas tapa bilməzsiniz. Mən heç bir cinayət etməmişəm. Rəbbimiz İsa Məsihin təlimini vəz etdiyimə görə məni öldürürlər. Belə bir məslək uğrunda ölməyə çox şadam”. Filip qardaş meksikalı idi. Çox-çox uzaqlarda anası onun ilk katolik ibadətini aparması üçün libaslar tikərkən Filip gözlərini dünyaya əbədi yumdu. On üç yaşlı Antoni qarşısındakı

---

[5] Roma-katolik kilsəsinin kişilərdən ibarət olan təriqəti

izdihamın içərisində yapon anasının ağlamağına baxdı. Hideyösinin cəlladları onları öldürənə qədər məsihçilər birlikdə dua edib ilahi oxudular.

200 ilə yaxın Yaponiyada məsihçilər gizli toplaşdılar. Nəhayət, 1850-ci illərdə fransız keşişlərinə Yaponiyaya gəlməyə icazə verildi və onlar bu toplantılardan xəbər tutdular. Bu gizli məsihçilərin Yaponiyada ilk dəfə göründükləri yerdə Naqasaki kilsəsi var idi. Kilsəni 1945-ci ildə atom bombası dağıtdığından indi onu 26 şəhidin məqbərəsi əvəz edir.

Canını qoruyan kəs onu itirəcək, Mənim uğrumda canını itirənsə onu qoruyacaq.

**Matta 10:39**

# XVI əsrdə İngiltərə və Avropada olan təqiblər

(1553–1595)

İngiltərənin kralı VIII Henri çox arvad aldı və ölkədəki kilsəsinin başçısı oldu. O, Roma hakimiyyəti ilə müharibədə qələbə qazandı. 1547-ci ildə Henri öləndə onun azyaşlı xəstə oğlu VI Eduard taxt-taca sahib oldu. Hakimiyyəti möhkəmlətmək üçün Somerset hersoqu kralın məsləhətçisi oldu. Amma o, zəngin torpaq sahibkarlarını çox narahat etdiyinə görə 1557-ci ildə edam edildi. Nortamberland hersoqu onun vəzifəsini əlinə götürdü və Eduard zəiflədikcə taxt-taca Ceyn Qreyi gətirməyi planlaşdırdı. Ceyni Nortamberlend hersoqu məcbur etdi ki, onun oğlu ilə evlənsin və bununla da krallıqda öz mövqeyini möhkəmlətsin.

Əlbəttə ki, bu gizli planlarda dünyəvi və dini məqsədlər bir-birilə birləşirdi. Kral VI Eduard inkişaf edən protestant hərəkatı ilə razılaşırdı. Ceyn də bu hərəkata qoşulmuşdu. Amma Eduarddan sonra taxt-taca qanuni vəliəhd onun ögey bacısı Araqonlu Ketrinin qızı I Mariya idi. O, Roma hakimiyyətinə böyük sadiqlik göstərirdi.

Ceyn Qreyin hakimiyyətinin doqquzuncu günündə I Mariyanın ordusu Londona gəlib çatdı və onu kraliça elan etdi. Nortamberlend hersoqu həyatı üçün nə qədər yalvarsa da, boynu vuruldu. Bir neçə islahata təkan vermiş və "Ümumi Dualar" kitabını yazmış arxiyepiskop Kranmer həbs olundu. Əvvəllər Ceyn Qreyə qarşı mərhəmətli olan yeni kraliça sonra fikrindən dönüb Ceynin əri ilə birlikdə onun boynunu vurdurdu.

1555-ci ildə parlament kafirlər üçün dirəkdə yandırılmanı edam üsulu olaraq yenidən qanuniləşdirdi. Bir neçə gündən sonra məsihçilər dirəkdə

yandırılaraq edam edildi. Bu dövrdə 300 nəfərə yaxın məsihçi şəhid edildi və beləliklə, I Mariya İngiltərənin ən qəddar monarxı kimi tarixə düşdü. Amma I Mariyanın hökmranlığı uğursuz oldu. O, imperator V Karlın oğlu Filiplə (İspaniya vəliəhdi) uğursuz evliliyinə görə ingilis rəhbərlərini qəzəbləndirdi. Kraliçanın nüfuzlu lordlarından çoxu düşünürdü ki, I Mariyanın Romaya sadiqliyi İngiltərənin müstəqilliyini məhv edəcək və ölkənin hakimiyyətini dəyişdirəcək. Əgər I Mariya cavan yaşlarında ölməsəydi (1558), çoxları güman edir ki, onun hakimiyyəti inqilabla devriləcəkdi.

Sonra gələn kraliça Elizabet I (1558–1603) İngiltərəyə sakitlik gətirdi. Onun 1559-cu ildə imzaladığı dini bəyanatı ingilis Reformasiyasının azadlığı üçün yeni qapı açdı. Lakin bu, puritanların təqibinə imkan yaratdı və onlar ibadət etmək üçün yeni yer axtardılar. Nəticədə, Şimali Amerika Avropanın dini qaçqınlarının məskunlaşdığı yer oldu.

Lakin bizi Sevənin vasitəsilə bütün bunlarda **tam qələbə qazanırıq.**

**Romalılara 8:37**

# Ceyn Qrey

## (1554)

1553-cü ilin iyulun 9-da səhər Ceyn Qrey üçün adi bir səhər kimi açıldı. Amma istəyinə zidd olsa da, həmin gün Ceyn kraliça təyin olunaraq başına tac qoyuldu. O günü valideynləri səbirsizliklə gözləyirdi. Amma Ceyn isə qohumu Mariyadan qorxurdu və bu günə nifrət edirdi.

Kral Eduard VI xəstə idi və altı gün əvvəl Ceynin qayınanası gəlninin taxt-taca vəliəhd seçildiyini söyləmək üçün gəlmişdi. Bu, Ceyn üçün çox gözlənilməz bir xəbər olmuşdu, çünki qohumluğa görə Mariya Ceyndən kral Eduarda daha yaxın idi. İyulun 6-da kral Eduard öldü. Amma katolik Mariyanın taxt-taca iddia etməməsi üçün ölüm xəbəri neçə gün gizli saxlanıldı. İyulun 9-da xəbər yayıldı və Mariya özünü kraliça elan etdi.

Elə həmin gün Ceyni qayınatasının evinə, Nortamberlend hersoqunun malikanəsinə gətirdilər. Dəhliz boyunca gedərkən ötüb keçdiyi hər bir insan onun qarşısında təzim edir və ya baş əyirdi. O, "Əlahəzrət" deyən pıçıltıları eşitdi və birdən nə baş verdiyini anlayaraq dayandı. Kimsə onu boş kraliça kürsüsü olan bir otağa yönəltdi. Ora yaxınlaşarkən Ceyn birdən yerə yıxıldı. Sonra o ağlayaraq dedi: "Tac qanuna əsasən mənim deyil və bu məni məmnun etmir. Qanuni vəliəhd Mariyadır". Ceyn bir az gücünü toplayıb düzgün qərar çıxarmaq barədə düşündü. Ailəsi onun tacı qəbul etməsində qətiyyətli olmasını istəyirdi və onu inandırmağa çalışırdı.

Ceyn özünəməxsus bir addım atdı. O, Allahdan məsləhət almaq üçün dua etdi. Bir neçə dəqiqədən sonra o qalxıb taxta oturdu. Oradakıların ona sadiqlik andını içməsinə icazə verdi. Ceyn Allahın izzəti, xidməti və krallığın rifahı naminə rəhbərlik edə bilməsi üçün Allahdan lütf istədi.

Amma Ceynin ən böyük çətinlikləri onu qarşıda gözləyirdi. Ceyn az sayda insanların alqışı ilə Londonda taxt-taca çıxdı. Lakin camaat Mariyanın tərəfində idi. Bir neçə gün Ceyn kraliça kimi yaşadı. Amma tezliklə onun qayınatası Nortamberlendin lordu ordu topladı. Ceynin qayınatası ordu ilə Londona təcavüz edən Mariyanın qarşısına çıxmaq üçün getdi. Bu vaxt krallığın şurası Mariya Tüdoru kraliça elan etdi. Əslində Ceyn özü də onun kraliça olmasını dəstəkləyirdi. Özünü xilas



*Ceyn Qrey*

etmək üçün çarəsiz qalan Ceynin atası əvvəlki hərəkətlərinə baxmayaraq Mariyaya sadiqlik andı içdi. Nortamberlendin lordu da dərhal öz mövqeyini dəyişdi, amma artıq gec idi.

Ceyn, əri, qayınatası və atası London Qəsrində ölüm cəzasına məhkum edildi. Ceynin atası bağışlandı (sonradan göründüyü kimi müvəqqəti), qayınatası isə avqust ayında edam olundu. Ceyn və həyat yoldaşı Gilford Mariyanın əfvini qazandı. Amma digər düşmənlərinin qiyamları Mariyanın ürəyini daşlaşdırdı və xüsusilə Ceyn katolikliyə qayıtmaq istəmədiyi üçün o, əfvini geri götürdü.

Ceyn və Gilford fevralın 11-də edam olundu. Ceyn 51-ci Zəburu söyləyərək cəllad kötüyünün yanına gətirildi və o xahiş etdi ki, bu işi cəld görsünlər. Onun son sözləri Rəbbin sözlərini əks etdirirdi: "Ata, ruhumu Sənin əllərinə tapşırıram". Sonda Ceyn imanına görə şəhid oldu. O öz ailəsinin arzuları ilə zərərinə olsa belə dinməz-söyləməz razılaşaraq siyasi bir oyuncağa çevrildi. Amma onun imanı Kəlamın həqiqətində möhkəm kök salmışdı. Ceyn Allahın ona verdiyi qüvvət və ləyaqətlə həyatdan köçdü.



*Con Bradford dirəkdə yandırıldı.*

# Con Bradford

(1510–1555)

Con insan həyatını xilas etmək üçün öz həyatını itirdi və öz sözünün üstündə durduğu üçün yalançı kimi ittiham oldundu. Təvazökar, bəzən cəsarətsiz bir insan olan bu şəhid indiki dövrdə ən çox işlətdiyimiz sitatlardan birini bizə bəxş edib. Amma onun barəsində az məlumatımız var.

XVI əsr İngiltərə tarixində dini baxımdan ən təhlükəli vaxtlar idi. İnsanın sağ qalması monarxın buqələmun kimi dəyişən əhval-ruhiyyəsindən asılı idi. Qəlbləri Müjdə ilə xilas olmuş insanlar nəyin bahasına olursa olsun, Allaha sadiq qalmağa hazır idilər. Con Bradford bunun üçün əvvəlcə öz hökumət işini, sonra isə həyatını qurban verməli olacaqdı.

Bradford zəngin ailədə dünyaya göz açmış, biznes və hüquq üzrə təhsil almışdı. Biliyi və bacarıqları onu məşhur kral VIII Henrinin hökumətində xidmət etməyə gətirib çıxarmışdı. Bu həmin kral idi ki, taxt-tacına sahib olacaq oğul arzusuna görə Roma-katolik kilsəsindən ayrılmış və oğul dünyaya gətirə bilməyən arvadlarının bəzisini öldürmüş və ya qovmuşdu.

Londonda hüquq üzrə təhsil alarkən Bradford Məsihə iman etmiş və bundan dərhal sonra Kembric Universitetində ilahiyyat üzrə təhsil almağa üz tutmuşdu. O, 1550-ci ildə protestant kral VI Eduardın qısa hakimiyyəti dövründə keşiş təyin edildi. Bir dəfə Bradford keşiş olarkən məhbuslardan ibarət dəstənin edam olunmağa aparıldığını görüb belə demişdi: “Mən Allahın lütfü ilə gəzirəm” (Allahın mənə olan lütfüdür ki, mən onların yerində deyiləm, yoxsa mən də onların vəziyyətində olardım). Con bu sözlərlə vaxtsız ölümünü qabaqcadan söyləmiş oldu.

1553-cü ildə kral Eduard öləndən sonra Mariya Tüdor taxt-taca sahib oldu. “Qanlı Mariya” kimi tanınan kraliça İngiltərəni katolik kilsəsinə qaytarmağa cəhd göstərərək 300-ə yaxın adamı şəhid etdi. Bu dövrdə vaizlər və ya yepiskoplar axının hansı tərəfə yönəldiyini görə bilirdi. Bir çoxları həmin axınla öz istiqamətlərini dəyişdilər. Amma Bradford öz əqidəsində möhkəm qaldı və Mariya da bunu onun əleyhinə istifadə etdi.

Mariyanın hakimiyyətinin birinci ilində isti avqust günü idi. Kraliçaya sadiq olan Batın yepiskopu bazar günü ibadətdə ölmüş kral barədə tənqidi vəz etdi. İzdiham əsəbiləşib onu hədələməyə başladı. Dinləyicilərdən biri yepiskopa bıçaq atdı və bıçaq ondan yan keçdi. Həmin gün orada olan Bradford izdihamı sakitləşdirdi. Sonra o öz həyatını təhlükə altına salaraq qorxuya düşmüş yepiskopu təhlükəsiz bir yerə apardı. Üç gündən sonra Bradford qiyama çağırışa görə həbs olundu.

İki il Bradford İngiltərənin rütubətli zindanlarında qaldı və vaxtını vəz edib yazmaqla keçirdi. Mühafizəçilər Cona o qədər etibar edirdilər ki, gecələr hərdənbir onu azadlığa buraxırdılar, çünki dan yeri sökülməzdən qabaq geri qayıdacağına tam arxayın idilər. O, həmişə geri qayıdırdı. Nəhayət, Conu təqsirləndirmək istəyən kilsə məhkəməsi istintaq zamanı ondan kraliçanın mərhəmətini qəbul edib-etmədiyini soruşdu. Bradford cavab verdi: “Mən kraliçanın mərhəmətini bir şərtlə qəbul edərəm ki, Allah qarşısında olan borcumla uyğunlaşsın. Tanrımın lütfü həyatdır, narazılığı isə fani insanın törətdiyi ölümdən qat-qat dəhşətlidir”.

Məşhur vaiz 1555-ci ilin iyulun 1-də edam olunmağa aparıldı. Ora çatanda kimin xətrinə dəyibsə, hamıdan üzr istədi, ətrafında olan əsgərləri bağışladı, sonra yaxınlıqda olan çubuğu əlinə götürüb öpdü. O özündən yaşca cavan olan bir məhbusla birgə dirəyə bağlandı. Sonra Con üzünü ona tərəf çevirib dedi: “Qardaşım, tam arxayın ol, çünki bu axşam Rəbb ilə şad-xürrəm şam yeməyi yeyəcəyik, orada bütün ağrılarımız sülh, mübarizəmiz isə sevinc nəğmələri ilə bitəcək”.

# Con Huper

## (1555)

Nyugeyt zindanında edam gününü gözləyən Con Huper divarda kömürlə bu sözləri yazdı: “Ölümdən qorxmayın, zəncirlərdən çəkinməyin. Yalnız Allaha bütünlüklə etibar edin. Ölüm ölüm deyil, bu həyata əlvida deməkdir”. Bir neçə gün əvvəl kraliça Mariyanın hakimi Huperi ittiham etmişdi. İndi Con bir vaxtlar vəz etdiyi kilsənin həbsxana kamerasında oturmuşdu. O, böyük cəsarətlə bəyan etdiyi Kəlama görə məhbus idi.

İngiltərənin Somerset qraflığında zəngin katolik ailəsində doğulmuş Huper 1515-ci ildə Oksford Universitetində təhsil almağa yollandı. Humanitar elmlər üzrə bakalavr dərəcəsi aldıqdan sonra Huper növbəti iyirmi ilini eyş-işrətdən ayrılıb nəfsə hakim olmaq üçün monastır həyatına həsr etdi. Sonra o, zəngin bir ailənin idarəçisi işləməyə başladı. Bəzi vaxtlar özünün etiraf etdiyi kimi “öz ehtiraslarına qul... vəhşi yırtıcı” olan Huper qərara gəldi ki, “kralın əhatəsində saray həyatı yaşamaq” onun çağırışı deyil. Puritan[1] Reformasiyasına qoşulmaqla Con Huper həyatda özünə böyük maraq tapdı.

Amma bu çətin vaxtlar idi. İngiltərədə milli həmrəyliyə böyük ehtiyac duyan kral VIII Henri öz tabeçiliyində olanlardan kilsə birliyini tələb edirdi. Puritanlar ya gizli toplanmalı, ya da kralın qəzəbi ilə üzləşməli idilər. Kral Henri 1547-ci ildə öləndən sonra Huper Somersetin birinci hersoqu Eduard Seymour üçün keşiş təyin olundu. Bu dövrdə Con İsveçrə Reformasiyasının doktrinalarını dəstəkləyirdi. Sonra İngiltərə krallığı radikal və açıq danışan puritan vaiz Con Huperə Qlouster şəhərində yepiskopluq vəzifəsi təklif etdi. Belə bir hörmətli vəzifə şübhəsiz ki, şöhrət gətirən uğurlu bir karyera idi. Bəs Huper nə cavab verdi? O bu təklifi qəbul etmədi.

Con bu vəzifəni qəbul etmək üçün biabırçı və səhv andı içməli və tələb olunan libasları geyinməli idi. Lakin o, bunları etmək istəmədiyi üçün vəzifədən imtina etdi. Huper bu vəzifənin bəzi məsuliyyətlərini güzəştə gedənə qədər bir neçə ayını Flit zindanında keçirdi. Nəhayət, 1551-ci ilin martında rəsmi olaraq Qlousterin yepiskopluğunu qəbul etdi.

---

[1] Rəsmi kilsənin səlahiyyətini qəbul etməyən ingilis protestantlar

İki ildən sonra 1553-cü ildə sərt katolik monarxı Mariya Tüdor İngiltərənin kraliçası oldu. Onun siyasətində heç kəsə güzəşt olunmurdu. 1554-cü ilin martında yepiskopluqdan çıxarılıb həbs olunmuş Huperə bir şans verildi. O, 1555-ci ilin yanvarında Yepiskoplar Şurasınının qarşısında öz əqidəsini inkar etməli idi. Huperin cavabı kraliçanın onun barədə verdiyi ittiham hökmü kimi aydın görünürdü: nə kraliça, nə də Con heç bir güzəştə getməyəcəkdi.

Huper papanı və bütün katolik kilsəsini Məsihin təlimlərinə qarşı getdikləri üçün ittiham etdi. Boşanma, nikah və Rəbbin Süfrəsi barədə öz əqidəsində möhkəm durmuş Huperə yanvarın 29-u ölüm cəzası verildi.

> 1-ci ittiham: "O (keşiş) özü evlənmişdi və açıq şəkildə din xadimləri üçün evlənməyin qanuni olduğunu öyrətmişdi".
>
> 2-ci ittiham: Onun təlimlərinə əsasən "evli insanlar zinaya görə bir-birindən boşana [bilər]".
>
> 3-cü ittiham: Huperin mövqeyinə əsasən Rəbbin Süfrəsindəki "çörək və şərab formasında olan elementlər Məsihin həqiqi bədəni və qanı deyildir".

Yepiskoplar Şurasının yazdığı ölüm hökmü sənədində qeyd edilirdi ki, Huper "ən inadkar, nifrətəlayiq kafirdir və o bizim dünyəvi hakimiyyətimizə təhvil verilib qanuna əsasən yandırılmalıdır". Fevralın 9-da həbsxanadan edam yerinə aparılan Huperə "öz dilindən həzz alan lovğa insan kimi" danışmaq qadağan edildi. Susmuş Con Huperi dirəyə bağladılar və qarşısına əfv barədə əmr olan qutunu qoydular. Fikrindən dönmək üçün ona axırıncı dəfə imkan verdilər. Danışmaq üçün qoyulmuş qadağa bir dəqiqəlik aradan götürüldü və o belə dedi: "Əgər mənim qəlbimi sevirsinizsə, əgər qəlbimi sevirsinizsə, onu qarşımdan rədd edin!"

# Con Rocers

## (təxminən 1500–1555)

Kembric Universitetinin məzunu və Londonda Müqəddəs Üçlük Kilsəsinin keşişi üçün həyat şan-şöhrət və uğurlardan ibarət idi. İngiltərə kralının ölümünə və kraliçanın hakimiyyətə gəlməsinə qədər Con üçün həyat belə davam etdi. Bundan sonra Conun əqidəsi onun üçün çətinliklər yaratdı. Xidmətçi, Müqəddəs Kitabın redaktoru və on bir uşaq atası olan Con Rocersin qismətinə Mariya Tüdorun ilk qurbanı olmaq düşdü.

1534-cü ildə Rocers Antverpendə ingilis tacirləri üçün keşiş vəzifəsini qəbul etdi. Orada gələcək həyat yoldaşı ilə tanış oldu və Uilyam Tindeyl ilə dostlaşdı. Tindeyl Rocersi inandırdı ki, Müqəddəs Kitabdakı həqiqətlər Allahın həqiqətinin ilk və yeganə təməlidir, çünki o, Allahın Sözüdür.

Con protestantlığı qəbul etdi və Mattanın Müjdəsini tərtib etməkdə Tindeylə kömək etdi. Bu, ingilis dilində ilk nəşr idi və kral VIII Henri özü onun paylanmasına icazə vermişdi. Rocers Antverpen şəhərindən Vittenberqə getdi, o burada kilsəyə pastorluq edib Avropanı çulğalayan doktrinal islahatları daha dərindən öyrəndi. 1548-ci ildə Rocers İngiltərəyə qayıtdı. Bu dövrdə kral VI Eduard islahatları qəbul etmişdi. Ridli və Kranmer kimi rəhbərlər isə məsihçi ibadət formasını planlaşdırıb hazırlayırdılar. Amma kral Eduardın vaxtsız ölümü və sonra Mariya Tüdorun hakimiyyətə gəlişi onların bu səylərinə son qoydu.

1553-cü ilin avqustunda Rocers artıq bilirdi ki, onun rəhbər və islahatçı kimi həyatı tezliklə dəyişiləcək. Həmin ayın əvvəli o, papalar hakimiyyətinin, bütpərəstliyin və mövhumatın ağılsızlıq olduğu barədə vəz etdi. Bu, Mariyanın İngiltərə kilsəsinin gələcəyi barədə olan fikirlərinə qarşı idi. Bu vəz Conun istintaq edilməsinə və ev dustağı olmasına gətirib çıxardı. Rocers dini rütbəsindən məhrum edildi və onun keşiş və pastor kimi fəaliyyətinə son qoyuldu.

Londonun yeni yepiskopu altı ay sonra Rocersi Nyugeyt zindanına köçürdü. Mariya öz sərt cəza tədbirləri barədə fərmanlar vemək üçün parlamenti hazırlayırdı. Bu müddət ərzində qanunları pozanlar siyahıya

alınırdı ki, qanunlar qüvvəyə minəndə onları cəzalandırsınlar və bu camaata yaxşı bir dərs olsun.

Rocers Nyugeyt zindanında məhkəməsiz bir il gözlədi. Sonra 1555-ci ilin yanvarında o, Mariyanın "baltaçı" adamı sayılan Uinçesterin yepiskopu Stiven Qardinerin qarşısına gətirildi. Con Rəbbin Süfrəsində çörək və şərabın möcüzəli surətdə dəyişilməsinə inanmadığı üçün Qardiner Rocersi kafirlikdə təqsirləndirdi. Parlament kafirlər barədə qərar qəbul etdiyindən Rocers dirəkdə yandırılmaqla ölüm cəzasına məhkum olundu.

Cona qarşı amansızcasına rəftar edildi. O, arvadı ilə görüşməyi xahiş etsə də, buna imkan vermədilər. Rocersə fikrindən dönmək təklif olundu, amma o öz əqidəsindən əl çəkməyəcəyini söylədi. Qısa bir müddətdən sonra fevralın 4-ü Rocers edam yerinə aparıldı. O, ölümə gedərkən uşaqları küçədə toplanmış izdihamın arasında dayanmışdı. Ən kiçik övladı anasının qucağında idi. Conun şeriflə son söhbəti belə yadda qaldı.

"Dini mərasimlər barədə şər düşüncələrindən üz döndərirsən?" — deyə şerif ondan soruşdu.

"Mən vəz etdiklərimi qanımla möhürləyəcəyəm," — deyə Rocers cavab verdi.

"Onda sən kafirsən," — deyə şerif elan etdi.

"Bu, axirət günündə məlum olacaq" — Rocers ona dedi.

"Mən heç vaxt sənin üçün dua etməyəcəyəm," — deyə şerif sözünü bitirdi.

"Amma mən sənin üçün dua edəcəyəm" — Rocers dedi və bir neçə saniyə sonra alovun dilləri yüksəlməyə başladı.

# Con Filpot

## (1555)

Condan əvvəl və sonra yaşamış bir çoxları kimi o da dəyişən dünyagörüşlərinin qısqaclarına ilişmişdi. Bir vaxtlar qəbul edilən ideyalar indi təhlükləli olmuşdu. İttiham kürsüsündə şöhrətpərəstlik və qorxu ilə idarə olunan insanlar oturmuşdular.

Filpotun atası cəngavər idi, özü isə Oksford kollecində təhsil almışdı. Zəkalı düşüncəsi onu möhkəm iradəli rəhbər və kilsə islahatçısı kimi püxtələşdirmişdi. O, başqa ölkələrə səyahətlər edir, İngiltərənin sahillərindən çox uzaqlarda tanınırdı. Con vətəninin çiçəklənən vaxtında öz ölkəsinə qayıtdı. Gənc kral VI Eduard Filpotun islahatçı fikirlərini alqışladı və o, Uinçesterin yeni baş dyakonu təyin edildi. Con üçün gələcək həyatı aydın, uğurlu və maraqlı görünürdü.

Lakin vəziyyət tezliklə dəyişdi. Kral Eduard öldü. Ceyn Qreyin qısa və uğursuz hakimiyyətindən sonra I Mariya taxt-tacı ələ keçirdi. Qatı katolik olan yeni kraliça protestant islahatçılarının əleyhinə idi. Mütəfəkkir bir insan olan Filpot qarşısına çıxan yeni çətinlikləri şübhəsiz ki, görürdü. Amma cəngavər oğlu, Oksford məzunu, kilsə rəhbəri olan Con sonu qabaqcadan necə görə bilərdi?

Kraliça Mariyanın törətdiyi qırğında Filpot vəzifəsindən azad edildi və öz baxışlarını müdafiə etmək üçün məhkəməyə çağırıldı. Con on üç məhkəmədə böyük qətiyyət və iti zəka ilə bunun öhdəsindən gələ bildi. Bu müddət ərzində isə o, pis şəraitli zindanlarda saxlanıldı. Həbsdə olarkən bəzən ona nə kitab, nə də qələm verilirdi, sanki düşüncə alətlərinin yoxluğu onu fikrindən dönməyə və kraliçanın katoliklər heyətinə qoşulmağa vadar edəcəkdi.

Əqlən məğlub edilmiş, amma siyasi baxımdan güclü olan İngiltərənin Gizli Şurası başabəla Filpotdan birdəfəlik canlarını qurtarmaq üçün on dördüncü məhkəməni çağırdılar. O, iyirmi aydan çox idi ki, müxtəlif həbsxanalarda qalmışdı.

Onun sonuncu istintaqı tamamilə sadə bir istintaq idi. Filpot nə qədər məntiqli dəlillər gətirsə də, məhkəmənin qərarı dəyişməyəcəkdi, ya Con




*Con Filpot şəhid olacağı yerdə dua edir*

fikrindən dönməli, ya da ölməli idi. Krallıq uzun-uzadı monoloqlara qulaq asıb məğlubiyyəti qəbul etmək istəmirdi. Ürəkləri və düşüncələri heç cür dəyişməyən məhkəmə hakimləri Filpotu dirəkdə yandırılmaqla ölüm cəzasına məhkum etdi.

1555-ci ilin dekabrın 18-də şerif palçıqlı yolla məhbusu edam yerinə aparırdı. O, Cona lütfkarlıq göstərərək palçığa batmaması üçün ona iki zabitin qollarında daşınmasını təklif etdi. Con kəskin tərzdə cavab verdi: “Siz məni papa etmək istəyirsiniz? Mən səyahətimi piyada getməklə başa vuracağam”.

Sonra edam yerində Filpot dedi: “Xilaskarım mənim üçün çarmıxda ən rəzil ölümlə əzab çəkməkdən imtina etmədisə, burada dirəkdə əzab çəkməyə niyə nifrət etməliyəm?”

Ayaqlarının altında alov artdıqca Filpot 107 və 108-ci Zəburu söylədi. Bir neçə dəqiqədən sonra krallığın iradəsi yerinə yetdi. Daha başqa bir səs susduruldu, daha başqa bir şəhidin tacı qazanıldı.

Ey Allah, göylər üzərində ucal!
Ehtişamın bütün yer üzərində olsun!

**Zəbur 108:5**

# Lorens Sanders

## (1555)

XVI əsrin ortalarında, qarmaqarışıq olan onillikdə İngiltərədə çoxlu qanlar axıdıldı. Alovlu iman və siyasət biri-birinə qarışmışdı və bu qarışığın gücü həm iman üçün şəhadətlik, həm də həyat üçün təhlükə idi.

Lorens Sanders istedadlı gənc oğlan idi. Kembricin İton kollecində təhsil aldıqdan sonra o, kral VI Eduardın qısa hakimiyyəti dövründə vəz etmək üçün icazə əldə etdi. Tennis və kef məclislərini sevən kral 1552–53-cü illərin qışında soyuqladı və iyulun 6-da vərəm xəstəliyindən öldü. Kral ölməzdən əvvəl məsləhətçiləri ilə planlaşdırdı ki, Ceyn Qrey onu əvəz etsin və beləliklə protestantlıq ölkədə üstünlük təşkil etsin. Amma camaat kral Henrinin qanuni varisini, Mariyanı istəyirdi. Beləliklə, Ceynin tələm-tələsik quraşdırılmış kraliçalığının doqquzuncu günündə Mariya at belində Londona gəldi və taxt-taca sahib oldu. Mariya Ceyn Qreyin kraliçalığa gətirilməsi planında əlbir olanların hamısını öldürməyi əmr etdi. Lakin öz ögey bacısı Elizabetə toxunmadı. Məgər bir nəfər kilsəni, imanı məhv edib yenidən onu Romaya tərəf yönəldə bilərdi? Mariya katolik vaizlərin məsləhətlərinə yaxşı qulaq asmalı idi.

1553-cü ilin oktyabrında Sanders protestant imanının təlimlərini aydınlaşdırmaq və Ceyn Qreyin yenidən kraliçalığa qayıtmaq imkanlarını artırmaq barədə bir vəz etdi. Vəz ilahiyyatçılıq baxımından məntiqi, siyasi cəhətdən isə mənasız idi. Kraliçanın tərəfdarları ya bilərəkdən, ya da təsadüfən Sandersin vəzinə qulaq asdılar. Beləliklə, Lorensi satqınlıqda ittiham etdilər və o, London yepiskopunun əmri ilə həbs olundu.

Leydi Ceyni yenidən kraliçalığa qaytarmaq planı bütünlüklə iflasa uğradı. Ceyn və əri, eləcə də bu işdə əli olan başqaları edam olundu. Parlamentdə kafirlərin dirəkdə yandırılmasını qanuniləşdirən əmrin verilməsinə qədər Sanders zindanda qaldı. 1555-ci ilin fevralın 8-də vaiz Lorens Sanders edam olunacağı yerə ayaqyalın addımladı. Onun son sözləri bu oldu: “Xoş gəldin, Məsihin çarmıxı! Xoş gəldin əbədi həyat!”

# Nikolas Ridli (1500–1555) və Hyu Latimer (1485–1555)

Nikolas və Hyunun həyatını söndürən alov ingilis torpağını satqın və kafirlərdən təmizləmək üçün alışdırılmışdı. Bu səbəbdən alimlər, kilsənin sadiq üzvləri və humanist insanlar susduruldu.

Hər iki pastor öz karyeralarında zirvəyə çatmışdılar. Ridli Londonun yepiskopu və arxiyepiskop Tomas Kranmerin yaxın sirdaşı idi. O, Kranmerin "Ümumi Dualar" kitabını yazmaqda ona təsir göstərmiş, Londonun mərkəzində kasıblar yaşayan ərazidə pastorluq işinə başlamış və xəstəxanalar, eləcə də məktəblər açmışdı.

Çox gözəl vaiz olan Latimer bir vaxtlar güclü katolik əqidəli idi və o, Tomas Bilninin etirafını eşidəndən sonra reformasiyanın imanını qəbul etmişdi. Tomasın Müqəddəs Kitabın Allahına olan imanı Latimerdə göz yaşları doğurmuşdu. Latimer nəfsinə hakim ola bilməyən kral VIII Henrinin məsləhətçisi idi və Henrinin vəliəhdi VI Eduardın hakimiyyəti dövründə də uğur qazanmışdı.

Amma kral Eduard öldü və Henrinin birinci arvadından olan qızı Mariya Tüdor taxt-taca sahib oldu. İndi İngiltərəni "üzdəniraq" islahatçılardan təmizləmək və ölkəni yenidən Roma katolikliyinə qaytarmaq vaxtı idi. "Qanlı Mariya" ləqəbi qazanmış yeni kraliça Ridli, Latimer və Kranmeri həbs etdirdi. Ümumilikdə 300-ə yaxın insan onun göstərişi ilə öldürüldü.

Kilsə və dini mərasimlər barədə əqidələrindən dönmədikləri üçün onlar hər ikisi dirəkdə yandırılmağa məhkum edildilər. Bununla camaata göstərəcəkdilər ki, kafir insanın nə boy-buxunu, nə də ki yaşı onu kraliçanın qəzəbindən xilas etməyəcək. Kraliça düşünürdü ki, bu, Allahın kafirlərə olan qəzəbidir. Məhkəmə ölüm hökmünü çıxarandan sonra əmr verildi ki, dərhal edam üçün hazırlaşsınlar. Dəmirçi Ridliyə yaxınlaşdı ki, onun belinə zəncir bağlasın. Vəzifəsini itirmiş yepiskop ona dedi: "Dostum, möhkəm bağla, onsuz da onlar öz istədiklərini həyata keçirəcəklər". Edam edənlər Ridlinin ayaqlarının yanına alışmış odunları qoyanda Latimer ona tərəf çevrilib dedi: "Dr. Ridli, qoy ürəyin narahat olmasın, özünü kişi kimi




*Yepiskoplar Ridli və Latimer birgə dirəkdə yandırıldılar.*

apar. Biz bu gün İngiltərədə Allahın lütfü ilə elə bir şam yandıracağıq ki, inanıram, o heç vaxt sönməyəcək".

Latimer dərhal dünyasını dəyişdi, amma Ridlinin alovu azaldı. Onun bədəninin aşağı hissələri yandı, amma alov bədəninin yuxarı hissəsinə az dəydi. O, ağrı içərisində nalə çəkdi: "Mən yana bilmirəm,... ya Rəbb, mənə mərhəmət et". Nəhayət, alov onun boynuna asılmış barıt kisəsini alışdırıb yandırdı və Ridli tezliklə əbədiyyətə qovuşdu.

Bu vaxt isə vəzifəsini itirmiş arxiyepiskop Tomas Kranmer ürəyində tərəddüd edərək və alovdan qorxaraq London Qəsrində, öz kamerasından dostlarının əzablı ölümünə baxırdı. Sonda o da dirəkdə yandırıldı.

Belə düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz.

**Romalılara 8:18**

# Roland Teylor

(1510–1555)

Roland Teylorun heç vaxt ağlına gəlməzdi ki, həyatının ən qaynar çağlarında amansızcasına öldürüləcək və uşaqları atasız qalacaq. Rolandın atası adlı-sanlı keşiş və dövlət qulluqçusu idi. Çox zəngin olmasa da, yaxşı əlaqələri olduğundan bir ailə başçısı kimi bacardığı qədər çalışırdı ki, övladları həyatda nailiyyətlər qazansın.

Roland şübhəsiz ki, həyatda uğur əldə etmişdi. Atası öləndə Rolandın iyirmi dörd yaşı var idi və o artıq Kembric Universitetini bitirmişdi. Teylor vəzi ilə insanlara təsir göstərərək həyatda öz yolunu tutmuşdu.

Amma Rolandın müəyyən ideyaları var idi və o dövr üçün belə fikirlər təhlükəli hesab olunurdu. Teylor təhsil alıb xidmət edərkən keşişlərin nikahda olmaması, Rəbbin Süfrəsində şərab və çörəyin möcüzəli surətdə dəyişilməsi kimi doktrinaları inkar etmişdi. Əslində Rolandın evliliyi də nəyəsə işarə verirdi. Çox güman edilir ki, onun sevimli həyat yoldaşı Marqaret 1536-cı ildə ingilis dilində Müqəddəs Kitabın tərcüməsinə görə dirəkdə yandırılan Uilyam Tindeylin bacısı idi.

Roland kilsədəki işlərindən zövq alır və arxiyepiskop Tomas Kranmerin keşiş köməkçisi kimi xidmət edərək onun evində qalırdı. O, Suffolk qraflığının Hedli şəhərində kiçik kilsəni idarə edir və pastorluq işinə görə çox sevilirdi.

Sonra hər şey birdən dəyişildi. Səmimi gənc protestant kral VI Eduard öldü. Ehtimal olunur ki, Ceyn Qrey Rolandın dəstəyi ilə taxt-tacı qəbul etdi. Lakin o, hakimiyyəti yalnız doqquz gün saxlaya bildi. Sonra Eduardın ögey bacısı Mariya kraliça oldu və krallığı Roma papalığına yenidən tabe etdirmək üçün öz yürüşünə başladı.

Con Avert Mariyanın tacqoyma mərasimindən cəmi bir neçə gün sonra Teylorun Hedlidəki kiçik yerli kilsəsinə “hücum etdi”. O, katolikliyə meyl göstərən qonşu keşiş idi. Avert silahlı mühafizəçilər tərəfindən müdafiə olunaraq orada katolik ibadəti keçirdi. Teylor buna etiraz etdikdə Avert onu kilsədən qovdu.

Bu söz-söhbət barədə Avertin tərəfdarları İngiltərənin Lord Kansleri, yepiskop Stiven Qardinerə çatdırdılar. Kraliça Mariya kilsə ilə bağlı öz planını həyata keçirməyi ona həvalə etmişdi. Qardinerin kimisə yanına çağırması ölüm hökmünə bərabər idi. Bu barədə xəbər Hedliyə gəlib çıxanda Teylorun kilsəsindəki bir çox adam ona yalvardı ki, onunla görüşə getməsin. Bəziləri Matta 10:23-cü ayəni sitat gətirib xahiş etdilər ki, tufan keçib gedənə qədər o özünü gələcək xidmətlər üçün qorusun. Teylor isə belə cavab verdi: “Siz qaçıb canınızı qoruyun və vicdanınıza uyğun hərəkət edin. Mənə gəldikdə isə qərarım budur ki, Allahın lütfü ilə yepiskopun yanına gedim və mənə qarşı etdiklərinin əhəmiyyətsiz olduğunu üzünə deyim. Məndən sonra Allah elə müəllimlər yetişdirəcək ki, onlar xalqı məndən daha böyük səylə öyrədəcək və bəhrə gətirəcəklər”.

Roland Londonda Qardiner ilə söhbətində cəsarətlə danışdı. O, yepiskopa yalvardı ki, kral Henri və Eduarda verdiyi andları həyata keçirsin. Kilsədə islahatlar aparmaq, İngiltərə Kilsəsi yaratmaq, “Ümumi Dualar” kitabında təyin edilmiş formaları dəstəkləmək barədə verdiyi andları yada salsın. Qardiner isə bu andları rədd etdi. Sonra o, vəziyyəti öz xeyrinə dəyişib Teyloru satqınlıqda və kafirlikdə təqsirləndirdi, çünki o, Hedlidəki kilsəsində katolik ibadətinə etiraz etmişdi.

Teylor cavab verdi: “Mənim lordum, mən Hedlinin keşişiyəm. Bütün hüquqlara, qanunlara və hətta vicdanıma da ziddir ki, kimsə kilsəmə gəlib mənə həvalə olunmuş sürünü yoluxdursun”. Bundan sonra Teylorun ünvanına ittihamlar söyləndi və həmişəki kimi belə mübahisələrdə kimin qalib çıxacağı artıq məlum idi.

Teylor 1555-ci ilin yanvarın 22-də rəsmi məhkəməyə qədər iki il həbsdə saxlanıldı. O, kafirlikdə və nifaq salmaqda ittiham olundu. Rolandın hökm cəzası parlamentdə iki gün əvvəl yenilənmiş kafirlərin yandırılması barədə qanuna əsaslandı. O, şerifin müşayiəti ilə fevralın 9-u Hedliyə, Aldam İcmasına gətirildi. Rolanda icazə verildi ki, sonuncu dəfə həyat yoldaşı Marqaret və uşaqları ilə görüşsün. Sonra onu zəncirlə dirəyə bağladılar. Teylor kiçik oğlu Tomasa ata xeyir-duası olaraq bu son sözləri söylədi:

> “Qoy Küll-İxtiyar Allah sənə Məsihin həqiqi xidmətçisi olmaq, Kəlamını öyrənmək və həyatın boyu daim Onun həqiqətində

qalmağın üçün xeyir-dua versin. Qoy Müqəddəs Ruhunu sənə bəxş etsin. Bir də oğlum, həmişə diqqət et ki, Allahdan qorxasan. Bütün günahlardan və şər həyat tərzindən uzaq qaç. Saleh ol, hər gün duada qalıb Allaha xidmət et. Çalış həmişə ananın sözünə qulaq asasan, onu sevib qulluğunda durasan. Zinakarlıqdan uzaq ol, yadda saxla ki, sənin atan mən müqəddəs nikahın müdafiəsi uğrunda ölürəm. Və bir gün Allah sənə xeyir-dua verəndə kasıbları sev və onlara qayğı göstər. Bil ki, sən var-dövlətindən çoxlu sədəqələr verməlisən. Anan qocalıb yaşa dolanda onu atıb getmə, amma gücün daxilində ona xidmət et. Belə etsən O sənə xeyir-dua və firavanlıq verər, yer üzündə uzun ömür sürərsən. Allahdan istədiyim budur".

Teylor kraliça Mariyanın qısa hakimiyyəti dövründə yandırılan yüzlərlə qurbandan üçüncüsü idi. Con Huper bu sırada dördüncü qurban oldu və az sonra həmin dirəkdə yandırıldı. Edam edənlər bu ölüm cəzasını icra etməyi yaxşı bacarmırdılar. Ona görə də alov artarkən şeriflərin biri alebarda (kəsici və deşici soyuq silah növü) ilə Teylorun başına vurdu və onu dərhal öldürdü. Bu gün həmin yerdə yonulmamış bir daş durur və üzərində belə yazılıb: "Dr. Teylor, bu yerdə yaxşı olanı qorumaq üçün öz qanını töküb".

# Uilyam Hanter

## (1555)

“Yetkin gənci istədiyi bütün şirnikləndirici şeylərlə təmin edin — bunlar yepiskopun taktikası idi. Oğlana ehtiyacı olanı şeyləri verin. Ona pul və şan-şöhrət təklif edin. İstənilən gənc üçün bu kifayətdir. O bunların hamısını qəbul edəcək”. Londonun yepiskopu Bonner özünə arxayın idi və şəhərdəki gənclərin ağlından keçənləri yaxşı bilirdi. Lakin yepiskop Uilyamı monarxın əmrinə itaət etdirməyə çalışarkən özünün və kraliçasının üzərinə tarixin hökmünü gətirdi.

Uilyam Hanter məsihçi ailəsində böyümüşdü və Müqəddəs Kitabı öyrənərək onu çox sevmişdi. O, Allaha güvənirdi, Roma qaydaları ilə təşkil olunmuş kilsəyə isə etibar etmirdi. Ona qarşı edilən ittiham aydın idi. Kraliça Mariya Londonda hər kəsin katolik ibadətində iştirak etməsini əmr vermişdi. Cavan Hanter isə bu ibadətlərə getməmişdi. Lakin o, böyük şəhərdə yaşasa belə, orada uzun müddət gizlənə bilməyəcəkdi.

Nəhayət, qanunu pozan bu adam yaxalandı. O, şerifə izah etdi ki, Müqəddəs Kitabı oxumaq artıq ibadət hesab olunur. Gənc oğlan əmrə itaət etmişdi, sadəcə kraliçanın tələb etdiyi qaydada onu həyata keçirməmişdi. Yepiskopun daha vacib işləri olsa da, bu məsələyə müdaxilə etdi. Bu cavan oğlan kimdir? Niyə belə şıltaqlıq edir? Pul ilə onu dilə tuta bilməyən Bonner Uilyamın ayaqlarını kündəyə (işgəncə aləti) saldı. Hanter iki gün yeməksiz və susuz çömbəlmiş vəziyyətdə işgəncə aləti olan taxta çərçivənin içərisində qaldı. “İndi sən kraliçaya tabe olacaqsan? Xeyr? Onda bu oğlanı Nyugeyt zindanına aparın. Orada sənə heç bir hörmət göstərilməyəcək”.

Növbəti doqquz ay ərzində Uilyam sadəcə Müqəddəs Kitabı oxuduğu, katolik ibadətində iştirak etmədiyi və kraliçanın verdiyi göstərişə məhəl qoymadığı üçün zəncirlərlə bağlanaraq qaranlıq zindanda var-gəl etdi. 1555-ci ilin fevralın 9-da yepiskop Bonner bu oğlanın əlindən artıq təngə gəldi. “Hələ də öz fikrindən dönmürsən? Onda kafir kimi yandırılmaq üçün Brentvuda, öz kəndinə qayıtmalı olacaqsan”.

Martın 26-da Müqəddəs Kitabı oxuyan on doqquz yaşlı Uilyam 51-ci Zəburu söyləyərək məhkəmə icraçısı Riçard Pondun alışdırdığı alovda yanaraq əbədiyyətə qovuşdu.

Odunlar alışdırılarkən Uilyamın qardaşı ona ucadan dedi: "Uilyam, Məsihin müqəddəs iztirablarını yada sal və ölümdən qorxma".

"Mən onsuz da qorxmuram," — deyə Uilyam cavab verdi. Sonra dedi: "Gözəl insanlar, mən ölənədək mənim üçün dua edin".

Şerif ona dedi: "Mən it üçün dua edərəm, amma sənin üçün dua etmərəm".

Bu gün Brentvudda abidənin üzərində bu sözlər həkk olunub:

Uilyam Hanter. Şəhid.
1555-ci il, martın 26-da alovda yandırıldı.
Ey məsihçi oxucu, əlində olan Müqəddəs Kitabı dəyərləndirmək üçün bu şəhiddən nümunə götür və diqqətli ol ki, Kəlamı oxuyub ona əməl edəsən.

Nəhayət, Rəbdə və Onun böyük qüvvəsində möhkəmlənin.

**Efeslilərə 6:10**

# Tomas Kranmer

(1489–1556)

Yaşlı Tomas Kranmerin ömrünün son günü yaxınlaşdıqca yalnız bir şeyi çatışmırdı. Ona edam olunan gün cəsarət gərək idi. Tomas İngiltərə kilsəsinin rəhbəri, kralların məsləhətçisi, çap olunmuş ən məşhur dini kitablardan birinin müəllifi və tərtibatçısı olmuşdu. Keçmiş arxiyepiskop çox yerlərə səyahət etmiş, iki dəfə evlənmiş və ölən monarxın əlindən tutmuşdu.

Qərbin məsihçi dünyasında məşhurlaşmış Tomas Kranmer sadə ailədə doğulub boya-başa çatmışdı. O, Kembric Universitetinin məzunu idi və keşiş dini rütbəsi əldə etmişdi. Gənc ikən belə qənaətə gəldi ki, Allah bütün dünyəvi hakimiyyəti suveren dövlət başçılarına verib. Onun yaşadığı dövrdə suveren rəhbər bədnam kral VIII Henri idi. Kral müntəzəm olaraq tabeçiliyində olanların sadiqliyinə qarşı çıxırdı və onlara soyuq münasibət bəsləyirdi. Əslində nəsə Henrinin xeyrinə idisə, o, arvadlarının və etibarlı dostlarının bir satqın kimi ölməsinə kənardan tamaşa edirdi. Beləliklə, Henri Kranmeri Kenterberinin arxiyepiskopu təyin edəndə güman edirdi ki, yeni yepiskop yalnız onun işində yararlı olduqda vəzifəsində qalacaq.

Əslində Kranmer öz işində krala faydalı olduğunu sübut etdi. Henri hər dəfə evlənmək istəyəndə Kranmer onu dəstəkləyirdi. Hər dəfə Henri boşanma tələb edəndə Kranmer onu qanuniləşdirirdi. Nəhayət, İngiltərədə kilsənin yeganə doktrinasını — kralın kilsə üzərində hökmranlığını başa düşən arxiyepiskop var idi.

Henrinin vəliəhdi VI Eduard İngiltərəni protestant imanına daha çox meyl etdirəndə Kranmer rəhbərlikdən və öz nüfuzundan zövq alırdı. O, gizlicə alman islahatçısı Andreas Oslanderin qızı ilə evlənmişdi. (Tomasa dini rütbə verilməzdən əvvəl birinci arvadı uşaq dünyaya gətirərkən ölmüşdü.) Kranmer anqlikan ibadətini təsvir edərək bu gün də istifadə olunan “Ümumi Dualar” kitabını tərtib etmişdi.

Amma tarix başqa yön aldı. Kral Eduard öldü. Cəsarətsiz arxiyepiskop kral VIII Henrinin bacısının nəvəsi Ceyn Qreyi dəstəklədi. O, kraliçalığı qəbul etsə də, yalnız doqquz gün vəzifədə qala bildi, çünki Henrinin birinci arvadı Araqonlu Ketrindən olan qızı, qatı katolik Mariya Tüdor at

üstündə Londona daxil oldu və kraliçalığı əlinə aldı. “Qanlı Mariyanın” hökmranlığı İngiltərənin kilsə tarixində qaranlıq dövrlər hesab olunur.

1553-cü ilin noyabrında Kranmer satqınlıqda ittiham olunaraq həbs edildi. O, Nikolas Ridli və Hyu Latimer kimi islahatçılar ilə süni məhkəmə qarşısına çıxarıldı. Sonra Toması məcbur etdilər ki, dostlarının dirəkdə yandırılmasına baxsın. Mariyanın tərəfdarları onun keşiş geyimini əynindən çıxarıb başını qırxdılar və neçə illər öncə dini rütbə verilərkən məsh olunmuş sağ əlindəki barmaqlarının uclarını qaşıyıb siyirdilər.

1556-cı ilin martın 20-si axşam zindanda Kranmer onu alçaldan bir addım atdı. Ertəsi gün dirəkdə yanmaq qorxusundan titrəyərək islahatçı əqidəsindən dönərək və Roma yepiskopunu Məsihin kilsəsinin həqiqi başçısı kimi təsdiqləyərək sənəd imzaladı. O özünü mənəvi olaraq bu qədər alçaltdığına görə peşman idi.

Ertəsi gün Kranmer son saatda əldə etdiyi təskinlik və cəsarətə görə özü də təəccüblənmişdi. Tomas xahiş etdi ki, həqiqi inanclarını ictimaiyyətə çatdırsınlar. Bir gün öncə imzaladığı sənəddəki fikirlərdən üz döndərdi və cəsarətlə öz imanını məsihçi əqidəsinin əsasları (Nikeya Kilsə Məsclisində qəbul edilmiş) ilə bəyan etdi. Sonra özünü Romadan tamamilə ayıraraq dedi ki, qorxaqlığı özündən təmizləmək üçün əvvəlcə alova sağ əlini salacaq.

Səhər saat 9-da o, polad məftillərlə dirəyə bərkidildi. “Bu əl günah işlədib” — deyə o, sağ əlini alova saldı. O nalə çəkdi: “Rəbb İsa, ruhumu qəbul et”. Sonra o, alovun içinə yıxıldı.

# Culius Palmer

## (1556)

Çox hörmətli alim və sadiq katolik olan Culius Palmer anlaya bilmirdi ki, protestant şəhidlər niyə belə sevinc və şövqlə əzablı ölümə getməyə hazırdırlar. Bu onu həm təəccübləndirir, həm də narahat edirdi. O, protestantların imanının saxta və əsassız olduğunu düşünürdü. Palmerin fikrincə, yanlış əqidədə olan bu insanların məsləkləri uğrunda əzab çəkmələrinə heç bir səbəb yox idi. Protestantların onları təqib edənlərə nifrət etməməsi, sülh içində əzablara dözməsi isə ümumiyyətlə, Culiusa mənasız görünürdü. Onlar dirəkdə yandırılarkən Palmer kənardan tamaşa etmişdi və bu onda narahatlıq yaratmışdı.

Culius Palmer Koventridə doğulmuşdu və atası həmin şəhərin meri idi. Oksford Universitetində ən yaxşı oxuyan tələbə olaraq o, latın və yunan dilləri üzrə alimlik dərəcəsi almışdı. Culius müzakirələrdə hamıdan fərqlənirdi və öyrənmək həvəsi o qədər güclü idi ki, araşdırma aparıb yazmaq üçün adətən o, səhər saat dörddə yuxudan dururdu. Palmer tezliklə Oksfordun Maqdalen Kollecində məntiqdən mühazirə deyən şəxs oldu. Bu gənc böyük elmi uğurlara doğru addımlayırdı.

Gənc protestant kral VI Eduardın qısa hakimiyyəti katolik alimlər, xüsusilə də cavan alimlərə əqidələrini yeridib öz yollarını öyrədən mübahisəçilər üçün asan olmadı. 1553-cü ilin əvvəllərində Culius Maqdalen Kollecində öz vəzifəsindən kənarlaşdırıldı. Özünə universitetlərdə iş tapa bilmədiyi üçün bir zəngin ailədə müəllimlik etməyə başladı. Xəstə kralın vaxtsız ölümündən sonra qatı katolik kraliça Mariyanın taxt-taca çıxana qədər o bu işində davam etdi. Sonra Palmer dərhal yenidən Maqdalen Kollecindəki vəzifəsinə qayıtdı.

Amma hər şey onun ürəyicə deyildi. Düşüncə və əməlində katolik olan Palmer əslində kraliçanın İngiltərə kilsəsini təmizləmək məqsədilə protestantları yandırması ona çox pis təsir edirdi. Bundan əlavə Culius öz əqidələrinə bu qədər əmin olan, hətta alov qarşısında düşüncələrindən dönməyən bu mətanətli "kafirlər" barədə öyrənməyə başlamışdı. Palmer bu insanları hərəkətə gətirən səbəbləri araşdırdı və onların məhkəmə

işlərini tədqiq etdi. Palmer 1555-ci ildə Latimer və Ridlinin dirəkdə yandırılmasına baxıb onların təsirli sözlərini dinlədi. O, protesantlar barədə öyrənərkən özü də dəyişilirdi.

Bu dəyişikliklərə görə Palmer Oksfordda ali təhsil məktəbindəki vəzifəsindən imtina etdi və Redinq şəhərində məktəb müəllimi kimi işləməyə başladı. Tezliklə onun protestantlara yazığı gələn bir insan olduğu aşkar edildi və yerli sakinlərdən biri Culiusun protestantlara meyl göstərdiyini ona bildirdi. Nəticədə, gənc müəllim oranı tərk etməli oldu. Pulsuz və işsiz qalmış Palmer atasının var-dövlətindən ona düşən mirası almaq üçün anasının yanına getdi. Anası ona cavab verdi: "Sənin atan kafirlər üçün heç bir miras qoymayıb".

Palmer özünə məxsus olan əşyaları götürmək üçün Redinqə qayıtdı. Əslində o, razılaşmanı pozub şəhərdən çıxmalı deyildi. Culius dərhal həbs olundu və rahat həyat üçün ona hər şey təklif edildi, bircə o öz yeni əqidəsindəki səhvlərdən üz döndərməli idi. Palmer ona təklif olunanları qəbul etmədi, çünki o, protestantların yolu ilə gedirdi. Beləliklə, Culiusu məhkəmədə ittiham etdilər və o, 1556-cı ilin iyulun 15-də başqa iki nəfərlə birlikdə dirəkdə yandırıldı. Bu rəşadətli şəhidlərin son sözləri 31-ci Zəburdan idi: "Ey Rəbbə ümid bağlayan bütün insanlar, möhkəm olun, qoy ürəyiniz cəsarətli olsun!"

Palmerin düşüncəsi sonra isə ürəyi onu həmin yerə gətirdi. Yəqin ki, özü də buna təəccüblənmişdi, amma həqiqətə inandığı üçün onun nəticələrini də qəbul etməyə hazır idi.

Palmeri mühakimə edən hakimlərdən biri ona ağıllı məsləhət vermək istədi: "Nə qədər gec deyil, qızıl kimi dəyərli illərinə və gözəl gəncliyinin könülaçan güllərinə heyfin gəlsin". Amma alim Palmer ona məcazla belə bir cavab verdi: "Cənab, mən heç vaxt solmayan güllərin arzusundayam".

# Hans Smit

## (1558)

Müqəddəs Ruh hərəkət edəndə və insanlar itaətkar olanda bunun nəticəsi yalnız Allaha məxsus olur.

Anabaptist olan Hans Smit beş kişi və altı qadınla birgə Niderlanddan Almaniyaya müjdəçilik xidmətinə göndərildi. Amma bu xidmət çox qısa oldu, onlar bir neçə gündən sonra 1558-ci ilin yanvarın 9-da Almaniyanın Aaxen şəhərində həbs edilib istintaqa cəlb olundular.

Hans qrupun rəhbəri idi. İstintaq zamanı katolik monarxların ənənəvi mövzularından ona suallar verildi. Bunlar vəftiz, dini ayinlər, xilas, hökm günü və anabaptistlərin Allah barədə öyrətmək üçün səlahiyyəti barədə idi. Smit hər bir suala öz əqidəsinə uyğun tərzdə, amma monarxın düşüncə tərzinə tamamilə zidd olan cavablar verdi. Bir çox hallarda işgəncə aləti insanların iradəsini qırırdı. Amma Smit işgəncələrə baxmayaraq öz fikrindən dönmədi. Hans müjdəçilik xidmətinə çıxanda yaxşı bilirdi ki, öyrətdiyi təlim onu bu yerə gətirib çıxara bilər. İşgəncə çəkərkən o, bu həqiqətlər barədə şübhələrə düşmədi.

Belə görünür ki, bu çağırılmamış qonaqları — anabaptisləri istintaq edən rəhbərlər onların qanlarına bais olmaq istəmirdilər. Smit onlara xəbərdarlıq edib demişdi ki, bu rəhbərlər yer üzündə insanlar üçün dar ağacı qura bilərlər. Amma onlar bir gün Məsihin ittiham kürsüsü qarşısında duracaqlar. Rəhbərlər bu araqarışdıranların əllərini və ayaqlarını işgəncə alətində bir az da dartdılar və sonra onları azad etdilər.

Əgər Smit şəhərdən sakitcə çıxıb getsəydi, hər şey başqa cür olardı. Əksinə o, ucadan dua edib Müjdə barədə danışmağa başladı. Rəhbərlik nə etməli idi? Hans başqaları ilə birlikdə yenidən həbs olundu.

Əgər hakimlər onlarla çox mülayim davransaydılar, kral onlara təzyiq göstərə bilərdi. Ona görə də bu dəfə hökm cəzasına əl atdılar. Smit isə bundan tam məmnun idi. Beləliklə, 1558-ci ilin oktyabrın 22-də Hans Smit asıldı və yandırıldı. Smit edam yerinə gedərkən belə demişdi: “Ah necə də gözəl ziyafət günümüz olacaq. Nə qədər insan hələ də ora gəlməkdədir”.

Üç gün sonra Hendrik Adams da asıldı və yandırıldı. Qrupdan olan digər üç kişiyə götür-qoy etmək üçün üç ay vaxt verildi. Sonra onlar 1559-cu ilin yanvarın 4-də edam olundular. Deyilənə görə yalnız bir nəfər işgəncə alətindən sonra fikrindən dönmüş və azadlığa buraxılmışdı. Bəs qadınlar? Onları çubuqla döyərək cəzalandırmışdılar. Bundan sonra qadınlar ilahi oxuya-oxuya evə qayıtmışdılar.

Hendrik Adams anabaptistlərin ölümünü istəyən qəddar bir rəhbərə peyğəmbərlik etmişdi: "Sən özün bu ölüm cəzasının icra edildiyini görməyəcəksən". Smitin edamından bir gün əvvəl axşam şuranın üzvü olan həmin qəddar adam ölümdən sonrakı həyat barədə öz-özünə danışır və ölüm qorxusu içində saqqalını dartırdı. Adams yandırılmazdan qabaq onun bədəni artıq buz kimi soyuq idi.

Ölüm yox edildi, onun üzərində qələbə çalındı!...Ey ölüm, qələbən hanı? Ey ölüm, neştərin hanı?

**1 Korinflilərə 15:54–55**

# Ualter Mill

## (1476–1558)

Dirəkdə yandırılmazdan qabaq Ualter Mill böyük əminliklə və cəsarətlə ucadan dedi:

> “Mən Allahın xidmətçilərini təqib edən siz ikiüzlülərin hiddətinə çox təəccüb edirəm! Mən səksən iki yaşlı bir insanam və çox yaşaya bilmərəm. Amma bilin ki, külümdən yüzlərlə insan ayağa qalxacaq və siz ikiüzlüləri, eləcə də Allahın xalqını təqib edənləri pərən-pərən salacaq. Özünüz haqqında çox yüksək fikirdə olan sizlərə isə belə şərəfli ölüm heç qismət olmayacaq. Allaha inanıram ki, mən vətən uğrunda bu cür ölümü dadacaq axırıncı insan olacağam!”

Ualterin sözləri peyğəmbərlik sözləri idi. Həqiqətən də, o, Şotlandiyada erkən reformasiyanın sonuncu şəhidi oldu.

1476-cı ildə doğulmuş Ualter Şotlandiyanın Anqus əyalətində keşiş təyin olunmuşdu. İslahatçıların təlimlərindən təsirlənmiş Ualter kilsə hakimiyyətini və ilahiyyatını şübhə altına alaraq katolik ibadətinə zidd getmişdi. Beləliklə, gənc ikən Ualter kilsəyə qarşı durduğuna görə ölüm cəzasına məhkum edilib 1538-ci ildə isə həbs olunmuşdu. Amma o, Almaniyaya qaçıb orada iyirmi il xidmət etmişdi.

Səksən iki yaşında Ualter protestant imanı barədə öyrətmək və ömrünün qalan hissəsini öz vətənində yaşamaq üçün geri qayıtdı. Yaşlı bir insan olaraq təhlükə törətməsə də, onu izləyib həbs etdilər. Mill Sent Endryus şəhərində kilsənin məhkəmə zalına daxil olarkən dizüstə çöküb dua etdi. Hakim, mühafizəçilər və auditoriya güman etdi ki, Mill həbsxanada qaldığı müddətdə zəifləyib və özünü müdafiə etmək üçün danışa bilməyəcək. Amma o, böyük qüdrətlə danışdı və kafirliyinə görə Ualterə edam hökmü verildi.

Dirəyə bağlanarkən Mill onu həbs edənlərə və ətrafa toplaşmış izdihama imanı barədə danışdı. Bir çoxları onun öz imanını belə cəsarətlə bəyan etməsinə heyran oldu. Bəziləri onu təqib edənlərin qəddarlığından

açıq-aşkar şikayətləndi. Ualter astaca qısa bir dua etdi. Sonra odunlar alışdırılarkən o, ucadan dedi: “Ya Rəbb, mənə mərhəmət et. Xeyirxah insanlar, vaxt var ikən dua edin, dua edin”. Sonra o, böyük ruh yüksəkliyində əbədiyyətə qovuşdu.

Con Noks yazırdı: “Məsihin bu xeyir-dualı şəhidi, Ualter Mill qoca vaxtında 1558-ci ilin aprelin 28-i amansızcasına öldürüldü”.

“Dünya bir müddət özünü aldadaraq qələbə qazandığını düşünəcək, amma sonra bunun əksini görəcək.”

**— Con Bradford bu sözləri həbsinin əvvəlində, 1554-cü ildə yazmışdı.**

# Peter Ramus

## (1515–1572)

Peter Ramusun üç güclü müsbət xüsusiyyəti var idi və bunlar onu sonda təhlükə qarşısına qoydu. Birincisi, bu gənc zəkalı bir insan idi. Ramus Fransanın Pikardiya vilayətində, Jan Kalvinin doğulduğu yerin yaxınlığında kasıb bir ailədə dünyaya göz açmışdı. Uşaq ikən atasını itirmiş Ramus həyatın çətinliklərinə qalib gəlmək üçün əvvəlcə əsgər, sonra xidmətçi, nəhayət, tələbə kimi məntiq və ritorikadan humanitar elmlər üzrə magistr dərəcəsi qazanaraq səylə çalışmışdı.

İkincisi, Ramus yaradacı bir insan idi. O, beynini müəllimlərin, kitab müəlliflərin və müqəddəs insanların öyrəndikləri ilə doldurmaq istəmirdi. Əslində Ramus gizli sirlərin və başqalarının ideyalarını öz biliklərinin süzgəcindən keçirirdi. Məsələn, Akvinalı Fomadan sonra kilsənin böyük hörmətlə qarşıladığı qədim yunan filosofu Aristotel Ramusun düşüncə çərçivəsindən heç cür keçmirdi. Peterin bu xasiyyəti onun üçün qarşıda əngəllər yaradacaqdı.

Üçüncüsü, Ramus söhbətcil idi və mübahisə etməyi sevirdi. Fransada müqayisə olunmaz bir sürətlə əllidən artıq bir neçə cilddə kitablar çap etdirdi. Avropada Peterin fikirləri heç kimdən gizli deyildi, çünki o öz dili və qələmi ilə düşüncələrini artıq insanlara bölüşmüşdü.

Ramusun həyatında başqa iki amil onun ömrünün qısa olacağına işarə verirdi. Birincisi, 1560-cı illərdə Peter iti zəkasına görə protestantlığı qəbul etmişdi. İkincisi isə o, kilsə islahatına inanan hugenot[2] olmuşdu. Buna görə Peter müəllimlik karyerasında əsas rolu olan Lotaringiya kardinalının dəstəyini itirdi. Nəticədə o, Parisi və universiteti tərk etməli oldu. İsveçrə və Almaniyada bir neçə il yaşayaraq bu gənc alim həmin ölkələrdə yayılan kalvinist və lüteran ilahiyyatından faydalandı.

Əgər onun sonuncu xüsusiyyəti belə qabarıq olmasaydı, Kalvin və Lüter kimi Ramus da eyni nüfuzu qazana bilərdi. Susmaq Ramusun coşqun təbiətinə xas deyildi. O həm də düşünürdü ki, gizlənmək, qorxaraq geri çəkilmək və ya qaçmaq axmaq bir adamın işidir. Ramus 1570-ci ildə

[2] Fransada XVI–XVIII əsrlərdə kalvinizm tərəfdarlarını "hugenot" adlandırırdılar.

Parisə qayıdanda mühazirə etmək üçün artıq icazəsi yox idi. Buna görə də o, əsərlərinin və təhsilinin qazandığı geniş dinləyici auditoriyasını özünə cəlb edə bilmədi. Hugenot Peter "Mənim fikrimcə, fəlsəfəni filosof Aristoteldən deyil, bilikli ilahiyyatçı Müjdədən öyrətməlidir" sözləri professorları və digər filosofları qəzəbləndirdi. Eləcə də həmin şəhərdə hugenot olmaq üçün yaxşı vaxt deyildi.

1572-ci ilin avqustun 24-də IX Karlın öz hakimiyyətində möhkəmlənməsi üçün siyasi bir alət kimi kütləvi qırğınlar başlandı. Müqəddəs Varfolomey Günü ərəfəsində Fransanın hər yerində soyqırımlar baş verdi. Nəticədə, minlərlə protestant qətlə yetirildi. IX Karl əmr verdi ki, Ramusa toxunmasınlar, amma heç kim Parisdəki izdihama nəzarət edə bilməzdi. Ramus *College de Presles*-də tədqiqat apararkən ələ keçirildi və oradaca öldürüldü. Sonra başı kəsilərək cəsədi Sena çayına atıldı.

Əgər Ramus aşağı zəkalı bir insan, öz əqidəsinin ardınca getməyən, az danışsan, hər şeylə razılaşan və cəsarətsiz məsihçi olsaydı, onda uzun ömürdən zövq alardı və acı sonluqdan canını qurtarardı. Ramus yaşadığı dövrdə və ölkədə bir hugenot kimi ölüb şəhidlik tacını qazandı.

# Edmund Kempion

(1540–1581)

Edmundun ən çox tanınmış "Gizli Şuraya Çağırış" əsəri bu gün də bəzi dairələrdə oxunur. Bu əsər gizli şəkildə kitabça kimi çap olunmuşdu. Amma Edmundun kitabı katolik imanı üçün əsaslı arqument idi və ritorik gücündə çox nəfis işlənmiş bir iş olduğundan tənqidçi və pərəstişkarlar onu "Kempionun Tərifi" adlandırmışdılar.

Edmund Kempion təhsilinə, mübahisə etməkdə mahir olduğuna və katolik əqidəsinə görə 1581-ci ildə İngiltərədə "ən çox axtarışda olan" adam idi. Katoliklər evlərində onun ibadət keçirməsini arzulayırdılar. Protestantlar və İngiltərənin protestant kraliçası I Elizabet isə düşmən kimi onu tutmaq istəyirdi. Bundan əlavə onun üçün İrlandiyada da axtarış verilmişdi və 1559-cu ildə Suprematiya haqqında qanun onu narahat edirdi. Bu qanun İngiltərə kilsələri üzərində monarxa ali səlahiyyət vermişdi. Qanuna əsasən bütün tabeçilikdə olanlar kraliçanı kilsənin ali hakimiyyəti kimi qəbul etməli idilər.

Kempion 1580-ci ildə gizlicə İngiltərəyə qayıtdı. Neçə illər öncə Edmund öz gənclik istedadı ilə kraliçanı elə heyrətləndirmişdi ki, tay-tuşları onun yüksək vəzifəyə sahib olacağına inanırdılar. Amma 1559-cu ildə Dublinə səfəri və onun "İrlandiyanın tarixi" kitabında yazdıqları aydın şəkildə göstərirdi ki, o, Mariya Tüdorun hakimiyyəti dövründən katolik inancında möhkəm qalıb. Beləliklə, parlament 1571-ci ildə anqlikan kilsəsinin 39 doktrinal əsasını qanuniləşdirəndə Kempion İngiltərəni tərk edib indi Fransaya aid olan Due şəhərinə getdi. O, katoliklərin yezuit dini cəmiyyətinə qoşuldu və 1578-ci ildə keşiş rütbəsi əldə etdi. İki il sonra rəhbərləri onu İngiltərəyə yollanan heyətə qoşdular. Orada katolik ailələr gizlicə ibadət edirdilər. Keşişlərdən ibarət kiçik qrup bir təhlükəsiz evdən o birinə gedərək katolik ibadəti keçirirdilər.

Amma Edmund İngiltərənin hakim qüvvələri tərəfindən "axtarışda" idi. Kempion Duvra çatanda az qala həbs olunacaqdı. Amma kiçik bir imkan nəticəsində o, aradan çıxıb Londonda gizlənmişdi. Onun "Gizli Şuraya Çağırış" kitabçası Gizli Şuranı çox utandırmışdı. Hələ



*Edmund Kempion İngiltərədə asıldı, sonra onu araba ilə dartıb sürüdülər və dörd yerə parçaladılar.*

bundan əlavə Edmundun “On Səbəb”[3] kitabçası Oksford universitetində iyunda buraxılış günü skamyalarda qoyulmuşdu. Sonra Kempionun İngiltərəyə yenidən gəlməsi papalığın hərbi qüvvələrinin İrlandiyanın Manster vilayətinə gəlişi ilə üst-üstə düşmüşdü. Bu da həmin ada üzərində Elizabetin hegemonluğu üçün böyük təhlükə idi. Ona görə də Edmund Kempion axtarılırdı.

Başı üçün pul qoyulmuş Kempion uzun müddət gizlənə bilmədi. Həmin mükafatı almaq üçün Edmundu axtaran dövlət agenti sadiq katolik kimi özünü göstərərək Londonun qərbində Layford Qrenc malikanəsində onu tapdı. Ev sahibi Kempionu və iki yoldaşını cəld ərzaq və su ilə təchiz edilmiş gizli otağa yerləşdirdi. Amma bu çox gizli qalmadı. Kempionun yeri aşkar edildi, o ələ keçdi və London Qəsrinə aparıldı. Orada işgəncələrə məruz qalmış məhbusa təklif olundu ki, Suprematiya haqqında qanunu qəbul etsin, itaətsizliyinə son qoysun, yəni kraliçaya qarşı danışmaqdan əl çəksin. Belə olan halda o, azadlığa buraxılacaqdı. Edmund isə cavab verdi: “Əgər bizim dinimiz satqınlar yetişdirirsə, onda biz ittiham olunmağa layiqik, əks halda biz kraliçanın hakimiyyəti dövründə həqiqi vətəndaşlar olmuşuq”.

Noyabrın 20-si məhkəmə Kempionu ittiham etdi və dekabrın 1-də o, düşünülüb hazırlanmış ən qəddar bir üsulla edam olundu: asıldı, sürüdüldü və dörd yerə parçalandı. Kempion İngiltərəyə və həyata bu son sözlərlə əlvida dedi:

> “Bizi mühakimə etməklə siz bizim əcdadlarımızı ittiham edirsiniz. Bütün qədim yepiskopları və kralları ittiham edirsiniz. Bir vaxtlar İngiltərənin izzəti olan hər şeyi ittiham edirsiniz”.

[3] Anqlikan kilsələrinin yaradılmasına qarşı arqumentlər

# Con Penri

## (1593)

Kraliça və arxiyepiskop öz istədiklərini etsəydilər, puritan[4] vaiz Con Penri sadəcə və səssizcə yer üzündən yoxa çıxardı. Nəyə görə o, qəfildən şam yeməyi vaxtı Köhnə Kent Yolunun yaxınlığındakı həbsxanadan çıxarılıb edam olunmaq üçün hazırlanmalı idi? Nəyə görə dar ağacı belə tez qurulmalı idi? Nəyə görə müttəhimlərə bir adət olaraq verilən lütfkarlıq icazəsini şerif rədd etməli idi? Adət üzrə məhbus öz günahsızlığını və sadiqliyini təsdiqləyən vidalaşma sözləri deməli idi. Niyə kiminsə kəskin nifrətindən ötrü dörd azyaşlı qızın atası heç vaxt çap olunmayan və ya ictimaiyyətə yayımlanmayan yazılarına görə xain bir insan kimi məhkum olunmalı idi?

Penri Uelsin, Lancammarc kəndinin yaxınlığında yerləşən Kefn Britz ferma evində dünyaya göz açmışdı. Erkən yaşlarında o, protestanlığı qəbul etmişdi. İngiltərədə yaxşı protestant olmaq üçün İngiltərə kilsəsinin üzvü olmaq tələb olunurdu, bu da kraliçanı kilsənin rəhbəri kimi tanımaq idi. Bunlara etiraz edən protestant isə azad kilsə hərəkatına qoşulurdu. Bu isə əlahəzrətə sədaqətsizliyə və gələcəkdə satqınlığa bərabər bir cinayət hesab edilirdi. Bu, siyasi düşmənlərin əlində güclü bir vasitə ola bilərdi. Kenterberinin arxiyepiskopu Con Vitqrift artıq Penrinin düşməni idi. Penri 1587-ci ildə "Təvazökar Yalvarış üçün Ədalət" adlı yazılarında dolayı yolla arxiyepiskopu tənqid etmiş və onun Uelsdə məsihçiliyin inkişafı üçün laqeydlik göstərdiyini bildirmişdi.

Arxiyepiskop bundan qəzəblənmiş və onu ittiham edən yazıları axtarmaq məqsədilə Penrinin evində axtarış aparmaq üçün Northempton şerifinə göstəriş vermişdi. Penrinin yazılarını nəşr edən lisenziyasız nəşriyyat, həm də məşhur olan Marpreleyt kitabçalarını çapdan çıxarmışdı. Bunlar İngiltərə kilsəsinin keşişlərini və bürokratiyanı tənqid hədəfinə tutan yeddi cildli satirik kitabçalar idi. Kraliça I Elizabetin Ulduz Palata məhkəməsi

4 XVI əsrin II yarısı — XVII əsrin I yarısında kalvinizm ardıcıllarına İngiltərə və Şotlandiyada verilən ad. Onlar ingilis protestantları idilər.

Marpreleyt məşhur satirik kitabçalarını tapıb məhv etmək istəyirdi. Yəqin ki, şerif bir güllə ilə iki quş vurmaq niyyətində idi.

Penri şerifdən yayınmaq üçün gizlicə Şotlandiyaya gəldi. Amma 1592-ci ildə yenicə həbs olunmuş (və sonra edam olunmuş) iki pastorun, Franses Conson və Con Qrinvudun yerinə puritan toplantı zalında vəz etmək üçün Londona qayıtdı. Növbəti ilin martında Penri öz gündəliyində kraliça Elizabet barədə kəskin tənqidi fikirlər yazdığı üçün həbs edildi. Çap olunmamış sadəcə bir gündəlikdə "İngiltərəni qiyama səsləmək məqsədilə yazılmış cinayət xarakterli sözlər" olduğuna görə o ittiham olunurdu. Uelsin pastorları üçün yalvaran şəxs indi öz həyatı üçün mərhəmət istəməli idi. Öz xatirinə olmasa da, heç olmasa dörd az yaşlı qızının xatirinə bunu etməli idi.

Amma ona mərhəmət göstərilmədi. Onun məhkəməsindən bir həftə sonra ittiham hökmü verildi. Dörd gün sonra qəfildən Penriyə əmr olundu ki, edam üçün hazırlaşsın. O, adları Xilas, Təsəlli, Əminlik və Ümid olan qızlarına bu sözləri yazdı: "Mən, sizin atanız, indi həyatımı verməyə hazırlaşıram... sizə tapşırıram ki,... mənim bu məsləhətimi qəbul edəsiniz... və övladlarınızı (əgər Rəbb sizə bəxş edərsə) səmavi səltənətə gedən bu həqiqi imanda və yolda böyüdəsiniz".

Penrini tələsik düzəldilmiş dar ağacına doğru apardılar. Şerif onun dar ağacında öldürülməsi barədə əmri əlində tutmuşdu. Əmri imzalayan şəxslərin içərisində arxiyepiskop Vitqriftin adı birinci idi. Vitqriftin Uels kilsələrinə qayğı göstərməməsi Penrini vadar etmişdi ki, ictimai surətdə tələb irəli sürsün. Dövlət nəzarəti olmayan ibadət üçün mübarizə aparan Penri incimiş protestantlar tərəfindən öldürülən protestant şəhid idi.

# Robert Soutvel

(1595)

Kraliça I Elizabetin dövründə belə bir əmr verildi. Bu əmrə əsasən katolik kilsəsində keşiş rütbəsi almış ingilis əsilli şəxs İngiltərədə qırx gündən artıq qala bilməzdi. Əslində, Roma katolik keşişliyinə aid olmaq böyük cinayətə çevrilmişdi. Bu qanun qəlbi katolik inancından bəhrələnən yezuit Robert Soutvel kimiləri İngiltərəyə qayıdıb müjdəçilik etməyə ruhlandırırdı. Keşişliyə təyin olunacağı gündən əvvəl Soutvel öz rəhbərinə yazdı: "Atam, ölüm astanasından sizə müraciət edirəm. Dualarınızla mənə kömək etməyiniz üçün sizə yalvarıram ki, ... gələcəkdə ya bədənimin ölümündən yan keçim, ya da ölümə cəsarətlə dözüm".

Robert katolik olaraq boya-başa çatmışdı. Erkən yaşlarında İngiltərəni tərk edərək Duedə təhsil almışdı. Onun gənc imanına tarixin dahi yezuitlərindən biri olan Leonard Lessius güclü təsir göstərmişdi. Tələbə olarkən Robert Londonda katoliklər üçün sığınacaq evini idarə edən Con Koton ilə də tanış oldu. Soutvel 1584-cü ildə keşişliyə təyin edildi.

İki il sonra Robert İngiltərədə təhlükəli olan müjdəçilik xidmətinə qoşulmaq istəmişdi. O dövrdə ingilis katoliklərinin əksəriyyəti kənd yerlərində yaşayırdı. Onlar etiraf etmək istəyən və ölüm ayağında olan adamlara görə keşişin gəlməsini gözləyirdi. Keşişlər bu kənd sakinləri üçün dini ayinləri yerinə yetirirdi. Soutvel gizlicə ora gəlib onlara xidmət və yardım göstərdi, həm də öz atası və qardaşından katolik etiqadına dönmələrini xahiş etdi.

1586-cı ildə Robert ev keşişi kimi Ann Houvard üçün işləməyə başladı. Annın əri Arundelin qrafı idi və həbsxanaya salınmışdı. Daha üç il (ümumilikdə altı il) Soutvel belə gizlicə xidmət etdi. Nəhayət, yaxın tanışlarından birinin qızı həbs olunub onu satdı. Elizabetin məşhur keşiş ovçularından biri Riçard Topklif Soutvelin xüsusi bir evdə katolik ibadəti keçirdiyi vaxtda onu yaxaladı.

Bütün keşiş libasları elə əynindəcə Soutvel Topklifin evinə aparıldı və həmkarlarının adlarını, eləcə də yerlərini açıqlamaq üçün aparılan sorğu-sual zamanı biləklərindən asıldı. Bütün məlumatlara görə, Robert

işgəncələrə dözdü. O yalnız bir yezuit olduğunu, kraliça üçün gündəlik dua etdiyini və katolik ibadətinə qoyduğu qadağadan başqa ona hörmətlə tabe olduğunu bildirdi. Onun iradəsini qıra bilməyən Topklif həddindən artıq döyülmüş Soutveli Vestminsterdəki Geythaus zindanına köçürdü. Bir ay sonra yoxlama zamanı onunla çox pis rəftar olunduğundan yaralarına bitlər yığıldığı aşkar edildi. Soutvelin ailəsi ədəb-ərkanla kraliçaya müraciət edib onunla bir centlmen kimi davranılmasını xahiş etdi. Mərhəmət göstərilərək Robert London Qəsrinə köçürüldü, paltarlarını dəyişməsinə, Müqəddəs Kitab və Müqəddəs Bernardın yazılarını əldə etməsinə icazə verildi. Onun həbsi üç il davam etdi və bu müddət ərzində Soutvel on üç dəfə işgəncə alətinə (əlləri və ayaqları dartan taxtadan olan işgəncə aləti) qoyuldu.

Nəhayət, 1595-ci ildə Gizli Şura Soutveli xəyanətdə təqsirləndirərək ittiham etdi. Onun iradəsini daha da qırmaq üçün Şura onu Limbo adlı bir yeraltı zindana köçürdü.

Üç gün sonra Robert məhkəmə qarşısına çıxarıldı. O heç bir xəyanətdə günahkar olmadığını və kilsə ibadətini istəyən katoliklərə xidmət edən bir keşiş olduğunu söylədi. Soutvel "Xilaskarımız" deyəndə məhkəmə ona qadağan etdi. Robert öz yaşının İsanın ittiham edilərkən yaşı ilə eyni olduğunu söyləyəndə onun "böyük qüruruna" dözmədilər. Sonra Soutvel özünü "torpaq qurdu" adlandıranda məhkəmə qərar çıxardı ki, növbəti gün, 1596-cı il, fevralın 20-də o sürüdülsün, asılsın və parçalansın (başı kəsilib bədəni dörd yerə parçalansın).

Dar ağacına gedərkən öz arabasından Soutvel Romalılara 14-cü fəsildən və sonra "Ruhumu Sənin əlinə verirəm, ya Rəbb" sözlərilə Zəburdan vəz etdi. Sonra o, bir katolik kimi şəhid oldu. Məhkəmənin niyyəti bu idi ki, Soutvel ölüm anına çatana qədər asılsın və sonra müxətlif işgəncələrə məruz qalsın. Lakin kənardan baxıb mərhəmət göstərmək istəyənlər son anda onun əzablarını qısaltmaq üçün dar ağacından asılarkən ayaqlarını dartdılar.

Soutvelin həbsxanada yazdığı şeirlər toplusu və kitabçaları bu gün də oxunmaqdadır. Onun "Allahın Sevgisi barədə Yüz Düşüncə" kitabı ilk dəfə 1873-cü ildə çap olunmuşdu. Məşhur ingilis dramaturqu və şairi Ben Conson demişdi ki, Soutvelin "Alovlanan Körpə" şeirini özününkü kimi iddia edə bilsəydi, öz şeirlərinin çoxunu könüllü şəkildə

məhv edərdi. Bu şeirdə şair Milad günü görüntüdə gördüyü əzab çəkən Məsihi təsvir etmişdi:

Əfsus ki, o dedi, qızmar alovda yenicə doğulmuş Mən yansam da,
Lakin Məndən başqa heç kim ürəklərini isitməyə və alovumu
hiss etməyə yaxınlaşmır.
Qüsursuz sinəm ocaqdır, yanacaq isə yaralayan tikanlar,
Eşq oddur, ahlar isə tüstü, kül isə rüsvayçılıq və nifrətdir.

"Ah, necə də gözəl ziyafət günümüz olacaq. Nə qədər insan hələ də ora gəlməkdədir".

**— Hans Smit**

Bundan əlavə, Rəbbim Məsih İsanı tanımağın ali dəyərinin yanında hər şeyi ziyan hesab edirəm. Onun uğrunda var-yoxumu atıb tullantı sayıram ki, Məsihi qazanıb Onda hesab olunum.

**Filipililərə 3:8–9**

# Maarifçilik dövrü

(1645–1789)

On səkkizinci əsrdə Fransız filosofu Deni Didro və digər filosoflar dini inanclardan və onun idarəçiliyindən artıq bezmişdilər. Avropanın hər yerində yeni günəş doğurdu. Yaşadıqları bu dünyadakı etibarlı dəlillər şüurlu əqidənin standartı kimi dini doktrinanı əvəz edirdi. Ziyalı rəhbərlər din xadimlərinin elmi sıxışdırmasından və müqəddəs yazıların tətbiqi üzərində hökmranlığından bezmişdilər.

Fəlsəfə kilsənin ticarət, siyasət, incəsənət və dünya bazarı üzərində nəzarəti üçün çətinliklər ortaya çıxarırdı. Bir alman filosofu qərbdəki insanların mənəvi düşünmə tərzini və onların ideyalar dünyasını necə başa düşməsini kökündən dəyişdi. İmmanuel Kant əql mühakimələri üçün əsas yaratdı. O, Allah və ölümdən sonrakı həyat barədə bütün fikirlərin mənşəyi üçün humanist bir bünövrə qoydu.

Eyni zamanda, "təbii hüquqlar" (bəşəri təbiətinə görə bütün insanların istifadə etdiyi hüquqlar) ideyası iman və ya tövbə ilə verilən hüquqlara qarşı çıxdı. Təbii qanunlar da ilahi qanunların səlahiyyətini sual altına qoyurdu. Elmi kəşflər böyük kainatın tədqiq edilməmiş sahələrindən olan xəstəliklər, mexanika və yer kürəsi haqqında bilikləri genişləndirdi. Amma imandan fəlsəfəyə keçidin yaranmasına baxmayaraq hələ də Məsihin davamçıları Onu tanıdıqlarına görə şəhid olurdular.

Allah isə müdrikləri utandırmaq
üçün dünyanın ağılsız saydığı,
güclüləri utandırmaq üçün dünyanın
zəif saydığı kəsləri seçdi.

**1 Korinflilərə 1:27**

# Meri Dayer

## (təxminən 1611–1660)

Massaçusets Koloniyası kvakerlərin[1] müstəmləkədən qovulması üçün qanun vermişdi. Meri Dayer bu ədalətsiz fərmanın Allahın qanununa zidd olduğuna inanırdı və ona görə də sakit qala bilməzdi. Meri protestant kvaker hərəkatının üzvü idi. Kvakerlər inanırdılar ki, Allah insanla birbaşa ünsiyyət qurub onu xilasla təmin edə bilər. Lakin Massaçusetsdə puritanlar bu anlayışı küfr hesab etdiyi üçün Merini müstəmləkədən qovdular.

Meri inadla bu qanuna qarşı etiraz etdi və nəticədə hakimiyyət orqanları ciddi bir qərar çıxardı. Onlar ya Dayer ilə razılaşıb müstəmləkənin ictimai quruluşunu dəyişdirməli, ya da bu kvaker qadını susdurmalı idilər. Meri kvaker əqidəsini təqib edən hakimiyyətə qarşı öz mövqeyini dəyişmədiyini bildirdi. Beləliklə, 1660-cı ilin iyunun 1-də o, dar ağacında edam edildi. Ölməzdən əvvəl Dayer demişdi: “Xeyr, cənab, mən indi tövbə edən deyiləm”.

Meri başqa imkanlardan istifadə edə bilərdi. Birincisi, o, hörmətli müstəmləkə məmuru Uilyam Dayerin həyat yoldaşı idi. Əri öz siyasi əlaqələri sayəsində Merini dəfələrlə Massaçusets zindanından azad etmişdi. Uilyam kvaker əqidəli olsa da, Meri kimi mübariz deyildi. Bu qadın dini azadlıq uğrunda mübarizədə heç vaxt özünü kənara çəkmirdi. Xüsusilə də, qəlbində Allahın danışan səsi ona hakim qüvvələr ilə üzləşməyi söyləyəndə özünə daha çox əmin olurdu.

Meri Massaçusetsin qubernatoru Con Endikotu da əsəbiləşdirmişdi. Merinin kvaker dostları “qanunu pozanlar” — Uilyam Robinson və Maramdyuk Stivenson 1658-ci ildə dar ağacından asılanda Meri düz onların arxasında durmuşdu və eyni tale onu da gözləyirdi. Lakin onun gözlədiyinin tam əksi olaraq, sonuncu dəqiqədə Merinin ölüm hökmü təxirə salındı və əmr verildi ki, müstəmləkədən çıxıb getsin və daha geriyə qayıtmasın. Əri onun Massaçusetsdən qovulma göstərişinə əməl edəcəyini vəd etdi və Meri mühafizəçinin nəzarəti altında oradan çıxıb getdi.

Sonra Meri Şelter-Aylenddə Amerika hindularına xidmət etməyə başladı. Bu qadın onlara kvaker əqidəsindən öyrədirdi. Əgər o yalnız

[1] XVII əsrin ortalarında İngiltərədə və Uelsdə başlamış protestant hərəkatı



*Meri Dayer Massaçusetsdə puritanlar tərəfindən kafirliyə görə dar ağacından asıldı.*

öz xidməti ilə kifayətlənib qanuna tabe olsaydı, səkkiz övladından sonuncusunun yetkinlik yaşına çatdığını görərdi. Ancaq Meri bununla kifayətlənmədi və qanuna tabe olmadı.

1660-cı ilin aprelində Meri öz düşüncəsinə uyğun hərəkət edərək və onu gözləyən təhlükədən tam agah olaraq Bostona qayıtdı. O, qayıtmağını əri Uilyama demədi. Amma əri buna baxmayaraq köçmək barədə qubernator Endikota məktub yazaraq qətiyyətli arvadına qarşı mərhəmət göstərməsini ondan xahiş etdi. Amma bu dəfə təhlükə böyük idi.

Məsələ təkcə kvakerlərin qaydalara zidd getməsində deyildi. Amerikada yaşamaq üçün köçkünlər güclü icmalar qurmağı öyrənmişdilər. Ərzaq ehtiyatı, hava şəraiti, meşələr, xəstəliklər və düşmən hindular az imiş kimi sərt xasiyyətli Londonun iş adamları müstəmləkələrdən imtina etmişdilər. Bunun da nəticəsində mühacirlər öz düşüncələrinə uyğun hərəkət etməyə məcbur olurdular. Dini qaydalara əməl etməmək isə rəhbərlik üçün başqa bir gərginlik yaradırdı və qanuna tabe olmamaq ölüm cəzasına bərabər idi. Meri dini azadlıq istəyirdi, amma Massaçusets rəhbərliyi isə nizam-intizam və insanların yaşayıb sağ qalması üçün çalışırdı. Rod-Aylenddə Rocer Uilyams kimi rəhbərlər qərara gəlib Providens şəhərində və ətrafında yaşayanlara daha böyük söz azadlığı verdilər. Meri və əri bir müddət orada yaşadı. Amma bu cəsarətli qadın sığınacaq tapıb orada qalmayacaqdı.

Beləliklə, 1660-cı ilin mayın 31-də Meri Dayeri Massaçusetsin Ümumi Məhkəməsi çağırdı və oradan qovulmaq barədə ona verilən qərarı bilərəkdən pozmaqda təqsirləndirildi. Meri cavab verdi: "Mən Allahın iradəsinə tabe olaraq qayıtdım. Şər qanunlarınızı ləğv etməyinizi istəyirəm və bu, mənim işim və ciddi xahişimdir".

Ertəsi gün səhər Meri edam olunmaq üçün dar ağacına aparıldı. Oraya toplaşan izdihama vəz etməsin deyə bu kvaker qadın bir dəstə təbilçi dəstəsi ilə müşayiət olundu. Merinin həbsxana divarında yazdığı bu sözlər həkk olunaraq qaldı: "Həqiqətin Azadlığı ilə müqayisədə mənim həyatım əhəmiyyətli deyil".

1959-cu ildə, Merinin ölüm hökmünün 300-cü ildönümündə, Massaçusetsin Ümumi Məhkəməsi Meri Dayerin "ciddi xahişinin" ictimai dəyərini qiymətləndirərək Bostondakı Dövlət Evinin ərazisində onun bürünc heykəlinin qoyulmasına qərar verdi.

# Şotland Kovenanterlər

XVI əsrin sonu və XVII əsrin əvvəlləri İngiltərə və Şotlandiya üçün çox böyük dini və siyasi çaxnaşmalar dövrü oldu. Siyasi baxımdan ingilis kralları Şotlandiyanı vahid bir ingilis dövlətinə çevirməyə çalışırdılar.

Şotland kovenanterlər XVI əsrin sonu və XVII əsrin əvvəllərində, presviterian doktrinasını Şotlandiyanın yeganə dini olaraq saxlayan bir sıra sazişlərə görə belə adlandırılmışdı. Əvvəlcə, kovenanterlər İngiltərə monarxının bəyəndiyi yepiskopluqdan fərqli olan xalqın üstünlük verdiyi kilsə rəhbərliyi formasını, presviterianizmi təbliğ edirdilər. Sonra isə onlar Şotlandiyanın tam müstəqilliyi uğrunda canlarından keçməyə hazır olan kovenanterlər kimi çıxış etməyə başladılar.

Birinci saziş katolik inancına zidd olaraq 1557-ci ildə katolik kraliça-regent Mariya de Giz Şotlandiyanı idarə etdiyi zaman imzalanmışdı. Mariya həbs edildikdən sonra və kral I Ceyms taxt-taca çıxdıqda nisbətən dinc bir dövr başladı. O, dini baxımdan daha tolerant idi və 1581-ci ildə Kral Sazişini imzaladı. Bu da İngiltərə və Şotlandiyada katolikliyi, Şotlandiyada kalvinizmi (şotland kovenanterlər onlara qoşulmuşdular) davam etdirməyə və İngiltərədə puritanlığın inkişafına imkan verdi.

Kovenanterlər üçün problemlər 1600-cü illərin əvvəllərində, I Ceyms Şotlandiyadakı kilsə üzərində öz yepiskoplarını təyin edərək "yüksək kilsə"[2]protestantlığı ilə Şotlandiya və İngiltərəni birləşdirməyə çalışdığı zaman başladı. Daha sonra Ceymsin oğlu I Karl daha az tolerant olduğundan İngiltərəni yüksək kilsə formasına yönəltməyə və kalvinizmdən uzaqlaşdırmağa çalışdı. Üsyançılar və fəallar olan şotland kovenanterlər papanı və kral yepiskoplarının bütün hökmranlığını tənqid edərək 1638-ci ildə Milli Saziş imzaladılar. I Karl və onun oğlu II Karl bunu kral hakimiyyətinə qarşı birbaşa təhlükə kimi gördü. Hər ikisi də "üsyanı" yatırmağa çalışdı. 1679–1688-ci illər arasında "Qətl vaxtı" adlandırılan bir dövr oldu. Bu illərdə ələ keçən əksər kovenanterlər asılaraq edam edilirdi və hamıya dərs olsun deyə cidanın üstünə əlləri və başları taxılaraq

---

[2] dini mərasimlər baxımından daha çox katolik ibadət formasına meyl edən anqlikan kilsələri

camaata göstərilirdi. Hətta bir neçəsinə Amerikanın əkin sahələrində kölə kimi işləmək cəzası verilmişdi.

Bununla belə, şotland kovenanterlər öz əqidələrindən dönmədilər. Üsyançı xidmətçilər sonrakı sərt təqiblərə baxmayaraq gizli toplantılarda vəz edirdilər. Kovenanterlərlə əlaqəsi olan hər bir kəs həbs olunub edam edilməli idi. Böyük təzyiqlərə və olduqca qərəzli məhkəmələrə görə kovenanterlər nəhayət, silahlanmağı və döyüşməyi qərara aldılar. Təəssüf ki, kovenanterlər ingilis qüvvələrinin qarşısında tab gətirə bilmədilər və onların qiyamları yatırıldı. Əvvəlcə 1679-cu ildə Dramkloq Döyüşündə, bir il sonra isə Botuvel Döyüşündə onlar məğlub oldular.

Məsihin məhəbbətindən bizi kim ayıra bilər? Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı?

**Romalılara 8:35**

# Ceyms Qutri

(1612–1661)

Qutri 1612-ci ildə zəngin bir Şotlandiya ailəsində anadan olmuşdu. Bu dövrdə hakim qüvvələr dəyişildiyi üçün insanlara etibar etmək təhlükəyə səbəb ola bilərdi.

Qutri Sent-Endryus Universitetində təhsil alarkən hörmətli ilahiyyatçı Samuel Ruterford ilə tanış olmuşdu. Qısa bir zamanda bu ilahiyyatçının isalahatçı əqidəsi gənc tələbənin ürəyini və ruhunu fəth etmişdi. Nəticədə Ceyms presviterian xidmətçisi olmaq qərarına gəlmişdi.

İngiltərə kralı I Karl öz yepiskoplarını Şotlandiya kilsəsinə təyin etməyə çalışarkən Qutri bir çox həmyerlisi ilə birlikdə buna qarşı çıxdı. Ceyms siyasi üsyan hesab edilən bir sənədi, Milli Sazişi imzaladı. Bu sazişə əsasən kilsə dövlətdən kənar və yalnız Məsihin idarə etdiyi Allah evi olmalıdır. Bu Milli Sazişi imzalayanlar "kovenanterlər" (sazişçilər) kimi tanınırdılar. XVII əsrdə hökmranlıq barədə anlayışları və kral Karlın xasiyyətini nəzərə almaqla, yalnız kafirlər və ya satqınlar monarxdan asılı olmayan bir kilsə istəyə bilərdi.

Pastor Qutri puritan inqilabı dövründə öz kilsəsinə rəhbərlik etdi. Bu inqilabın nəticəsində 1649-cu ildə kral I Karlın boynu vuruldu və Oliver Kromvel hakimiyyətə gəldi. Ancaq 1660-cı ildə monarxiya yenidən bərpa olundu. Bu vaxt I Karlın oğlu II Karl taxt-taca çıxdı. Onun əmrinə əsasən kilsələr krallığa tabe olmalı və orada yalnız kralın yepiskopları rəhbərlik etməli idi.

Qutri II Karla etibar etmişdi. Hələ Kromvelin hakimiyyəti dövründə vəliəhd olan indiki kral Şotlandiyada təhlükəsizlikdə olarkən and içmişdi ki, Milli Saziş qorunacaq və presviterian hökumətini irəliyə çəkəcək. Amma həmin adam atasının taxtında oturandan sonra Şotlandiya kilsəsinin anqlikan olmasını tələb etdi. Şotlandiya torpağında olarkən həmin kral söz vermişdi, elə deyilmi? On iki şotland pastorundan ibarət bir qrup II Karldan Milli Sazişin qorunması üçün ərizə yazdılar. Qutri də o pastorlardan biri idi. Hakimiyyət isə öz məqsədini güdürdü. Şotland kovenanterlərindən ibarət bu qrup həbs olundu.

Qırx doqquz yaşında olan Qutri dar ağacından asılmağa məhkum olundu. İctimaiyyət qarşısında onu alçaltmaq üçün kəsilmiş başı dirəyə bərkidildi və əşyaları müsadirə edildi. Bu kovenanterin krala etibarı faciəvi sonluqla bitdi. Qutri 1661-ci ilin iyunun 1-də izdiham qarşısında bu son sözləri söylədi:

> “Allah şahidimdir ki, mən bu edam kürsüsünü İngiltərədə ən böyük yepiskopun baş geyiminə və sarayına dəyişmərəm. Mənim kimi miskin insana mərhəmət göstərmiş və mənə Öz Oğlunu izhar etmiş Allaha şükür olsun... İsa Məsih mənim Həyatım, Nurum, Salehliyim, Gücüm, Xilasım və bütün arzularımdır. Ona, ah yalnız Ona, qəlbimin bütün gücü ilə valeh oluram. Ey canım, indidən sonsuza qədər Onu izzətləndir! Ya Rəbb, indi isə qulunu rahatlıqla yola sal, çünki gözlərim Sənin qurtuluşunu gördü”.

Otuz ilə yaxın Ceyms Qutrinin kəsilmiş başı Edinburqdakı Neterbou Limanının üzərində cidada bərkidilmiş halda qaldı. Amma Karl deyil, Qutri güvəndiyi Şəxsi tanıyıb qətiyyətlə və ümid içində əbədiyyətə qovuşdu.

# Hyu MakKeyl

(1666)

O, gənc və cəsur bir şotland idi. Hyu inanırdı ki, Məsihin kilsəsinin başçısı hansısa bir insan, kəndli və ya kral deyil, yalnız Məsihdir. Bazar günü Hyu MakKeyl sonuncu vəzində bütün presviterian kovenanterlər qarşısında bunu söylədi və beləliklə, o, II Karlın yepiskopluğunun əleyhinə çıxdı. O günkü sözləri insanlar üçün qida, dövlət üçün isə bir zəhər idi. Bundan sonra gənc pastor Hyu təhlükəsiz yerə, Avropaya qaçdı.

Hyunun doğulduğu və böyüdüyü illər barədə demək olar ki, heç bir məlumat yoxdur. MakKeyl iyirmi yaşında Edinburq Universitetində təhsil aldı. Oliver Kromvelin xalq hakimiyyətindəki uğursuzluğundan və onun ardınca II Karlın monarxiyanı bərpa etməsindən bir il sonra cavan kovenanter pastor təyin olundu.

Gənc Hyu Şotlandiya kilsəsinə olan çağırışını rədd etmədi. Onun üçün dörd il gizlənmək kifayət idi. Kovenanter yoldaşları britaniyalılara qarşı qılınc və toppuzlar qaldırdığı bir vaxtda Hyu öz evində sakit otura bilməzdi.

MakKeylin döyüşçü olması dəqiq məlum deyil. Amma şübhəsiz ki, o, kovenanterlərin rəhbərlərini tanıyırdı və onlarla birlikdə səyahət etmişdi. 1666-cı ilin noyabrında Hyu həbs olundu və məlumat əldə etmək üçün o, işgəncələrə məruz qaldı. Amma belə görünür ki, metal bir pazın ayağına vurulmasına və sümüyünün parçalanmasına baxmayaraq o heç bir məlumat verməmişdi.

Bir ay sonra dekabrın 18-də MakKeyl digər məhbuslarla birlikdə asılmağa məhkum olundu. Növbəti dörd gün ərzində o, ölümə hazırlaşdı. Bu müddət ərzində cavan pastor dar ağacı qarşısında bəlağətli vida sözləri düşünüb yazdı. Edam olunmazdan əvvəl Hyu atası ilə birlikdə yediyi son şam yeməyi zamanı ondan xahiş etdi: “Mən istəyirəm ki, mənə göstərəcəyin ən yaxşı və sonuncu xidmət kimi öz otağına gedib ürəkdən dua edəsən. Allaha yalvarasan ki, edam kürsüsündə mənimlə olsun və sona qədər dözə bilim, çünki buna görə narahatam”. Sonra atasından getməsini rica etdi, yoxsa ertəsi gün Hyunu məqsədindən yayındıran hislər onda baş qaldıra bilərdi.

MakKeyl edam kürsüsündə izdihama üzünü tutub ömrü qısa olduğu kimi dəyərli sözlərlə qısa çıxış etdi:

> "İndi isə yaratdığın varlıqlarla danışmaqdan uzaqlaşıb nitqimi Sənə yönəldirəm, ya Rəbb! Mən Allahla heç vaxt qırılmayacaq ünsiyyətə başlayıram. Ata, ana, dostlar və tanışlar əlvida! Dünya və onun bütün ləzzətləri əlvida! Ət və içki əlvida! Günəş, ay və ulduzlar əlvida! Salam, ey Ata Allah! Salam, yeni əhdin vasitəçisi olan şirin Rəbb İsa! Salam, xeyir-dualı lütf Ruhu! Salam, hər cür təsəlli verən Allah! Salam, izzət! Xoş gəlmisən əbədi həyat! Xoş gəlmisən ölüm!"

Sonra o, nərdivanla dar ağacından asılmış kəndirin yanına qalxdı. Hyu əbədiyyətə qovuşmazdan əvvəl bir qədər dua etdi.

Deyilənə görə II Karl ölüm hökmünün təxirə salınması barədə Qlazqonun arxiyepiskopu Börnetə məktub göndəribmiş. Amma arxiyepiskop məktubu gizlədibmiş ki, MakKeyl və digər kovenanterlər edam olunsunlar. Şotlandiyada azad kilsənin üzvü üçün həmin onillik təhlükəli bir dövr idi.

# Riçard Kameron

## (1680)

Qeyrət onun əlamətdar cəhəti, şövq onun qalxanı və peyğəmbərlik hissi isə onun xüsusi ənamı idi. Şotlandiyada kiçik bir dükançının üç oğlundan ən böyüyü olan Riçard gənc yaşlarında kovenanterlərə qoşuldu. Tezliklə, bu hərəkatın rəhbərləri onun necə istedadlı bir vaiz olduğunu gördülər və Riçarddan xahiş etdilər ki, məktəbdə dərs keçməyi dayandırıb toplantılarında vəz etsin. Ancaq bu qərara görə peşman oldular, çünki Kameron ondan əvvəlki bütün kovenanterlərdən daha çox radikal idi. Riçard ətrafındakı kovenanterlərin uzaqgörən olmadığını və doktrinalarının nəticələrindən qorxduqlarını hiss etdi. Bu, 1677-ci ildə Edinburqdakı presviterian rəhbərlərinin onu töhmətləndirilməsi ilə nəticələndi. Yaranmış vəziyyət Kameronu ruhdan saldı, çünki onun çoxlu ənamları və kilsəni azad görmək üçün böyük istəyi var idi. Sonra bir müddət əhvalını dəyişmək üçün o, Hollandiyaya getdi.

Hollandiyada Kameron müstəqil kilsə xidmətçilərinin diqqətini özünə çəkdi. Bu xidmətçilər Riçardın üzərinə əl qoyub dua edərək onu müjdəçilik işinə təyin etdilər. Kameron ruhani cəhətdən özünü yaxşı hiss etdikdən sonra 1680-ci ilin əvvəllərində Şotlandiyaya qayıtdı və dərhal vəz etməyə başladı. Onun vəzlərini dinləmək üçün tarlalara böyük izdiham toplaşırdı. O deyirdi:

"Siz Onu qəbul edəcəksiniz? Seçiminiz barədə bizə deyin! Ətrafımızdakı təpələr və dağlar bizə şahiddir ki, bu gün Rəbbi sizə təqdim etdik. Bu xilas təklifi mələklər üçün də çox maraqlıdır. Onlar Rəbbimizin bu gün sizə verdiyi təklifinə heyranlıqla tamaşa edir və hər kəsin seçimini bildirmək üçün göylərə, Allahın taxt-tacına qalxacaqlar".

Kameron İngiltərə kralı II Karla qarşı qiyam planları ilə də məşğul idi və bu Karla üsyan kimi görünürdü. Kralın ibadətə qoyduğu əlavə məhdudiyyətlərə görə bir çox məsihçilər müqavimət göstərməkdən daha çox əziyyət çəkməyə hazır idilər. Riçard Kameron krala təslim olmaqdan imtina etdi. Kameron və davamçıları 12 iyun tarixində Senkar şəhərciyində görüşüb bəyan etdilər ki, Karl Şotlandiyada hakimiyyət

hüququ olmayan zalım bir kraldır. Krala artıq başqa bir sübut lazım deyildi. Bu kovenanterlərin başları üçün pul təklif edərək dərhal həbs olunmaları barədə əmr verdi və Kameron gizlənmək üçün dağlara qaçdı.

1680-ci ilin iyunun 20-də Riçard Kameron qardaşı Maykl və digər iyirmi nəfərlə birlikdə Uilyam Mitçelin sahibi olduğu Midouhed fermasında çadır qurdular. Həmin səhər Riçard daş əlüzyuyanda əllərini yaxşı-yaxşı yuyub cənab Mitçelə dedi: "Axırıncı dəfə əlimizi yuyuruq. Mən onları (əllərimi) təmizləməliyəm, çünki çoxları onları görəcək". Həmin gün saat dörddə Brus Orlşelin rəhbərlik etdiyi dəstə fermada peyda oldu. Kameron cəld öz dəstəsini hazır vəziyyətə gətirdi və uca səslə Allaha "Yaşıla toxunma və yetişmişi götür" deyə yalvardı. Kovenanterlərin sayı az olduğu üçün onların qarşısında məğlub oldular. Kameron və qardaşı öldürüldü. Altı nəfər qaçıb canını qurtardı. Qalanları isə əsir götürülərək Edinburqda asıldı.

Riçard Kameronun başı və əlləri Edinburqa aparıldı və padşaha qarşı çıxmağın dəhşətli nəticəsi hamıya bir dərs olsun deyə onlar Neterbou Darvazasının üstünə qoyuldu. Bundan əvvəl şerif başqa bir məhbusun, Riçardın atası yaşlı Alan Kameronun qarşısında onun oğlunun başını çantadan çıxarıb ələ salaraq onu tanıyıb-tanımadığını soruşdu. "Bilirəm, bilirəm. O mənim oğlumun, öz əziz oğlumun başıdır. Bu Rəbdir. Xeyirxahlığı və mərhəməti bütün ömrümüz boyu bizi izləyən Rəbbin iradəsi yaxşıdır".

Kameronun əlləri başının yanlarında barmaqları yuxarıya doğru bağlanmışdı, sanki dua edirdi. Bu sərgi onun zəifliyinin, hətta etirazlarının faydasızlığını göstərmək üçün qoyulmuşdu. Ancaq Riçard Kameron tarixə "Saziş Aslanı" adı ilə düşdü. Kral II Karl isə Stüartlar nəslindən olan biri kimi tarixdə öz titulundan başqa heç nəylə yadda qalmadı.

# Donald Kargil

(1681)

Kilsəni kim idarə etməlidir? Monarxın təyin etdiyi yepiskoplar, yoxsa Allahın çağırdığı və kilsə tərəfindən seçilən rəhbərlər və dyakonlar? Kilsənin başçısı kimdir? Məsih, yoxsa kral? Bunlar, eləcə də Müqəddəs Yazıların rolu və xilas barədə olan suallar Reformasiya dövründə həlledici məsələlər idi. Onların uğrunda mübahisə və qılıncla mübarizə aparılırdı.

Mübariz bir şotland, vaiz və döyüşçü olan Donald seçilmiş Aberdin və Sent-Endryus universitetlərində təhsil almışdı. O, 1655-ci ildə Qlazqodakı Baroni kilsəsinə xidmətçi təyin edilmişdi. Kovenanter olan Kargil qasırğanın sakit vaxtında xidmətinə başladı. Coşqun dəli küləklər onu tezliklə sürgünə aparacaq və nəticədə onun həyatına son qoyacaqdı.

Şotland kovenanterlər ağsaqqalların idarə etdiyi kilsə rəhbərliyinə tabe olan presviterianlar idi. Beləliklə, onlar dini səlahiyyəti olan yepiskoplar vasitəsilə idarə olunan kilsəyə tamamilə zidd gedirdilər, çünki yepiskopları ingilis krallığı idarə edirdi. 1625-ci ildən bəri İngiltərə kralı I Karl Şotlandiyada anqlikan kilsəsini tətbiq etməyə çalışmışdı. Ancaq I Karl 1649-cu ildə Kromvelin ordusunun əli ilə həyatını itirdi. Kargil vəz etməyə başlayanda İngiltərədə heç bir kral hökmranlıq etmirdi. Lakin qarşıda hələ Şanlı İnqilab baş verəcəkdi və II Karl 1660-cı ildə taxt-taca çıxacaqdı. Beləliklə, Kargilin beş il sülhdə yaşamaq imkanı var idi.

II Karl ərazidə hökmranlığı bərpa etməli və öz imperiyasını ələ almalı idi. O, şotlandlara təzyiq göstərmək və şotland kilsələri üzərində öz yepiskoplarını rəhbər qoymaq istəyirdi. Kral ağsaqalların idarə etdiyi kilsələr və onların pastorlarından təngə gəlmişdi. Karlın fikrincə, kovenanterlərin öyrətdiyi xilas barədə qarışıq təlimlər onun hakimiyyətinə qarşı təhlükə yaradırdı. II Karl kovenanterləri xain, onların kilsələrini qanunsuz və özünü isə kilsənin yeni rəhbəri — dövlətin və kilsənin ali hökmdarı elan etdi.

Kargil kralı və onun yepiskoplarını “kilsədən ayırmaqla” belə cavab verdi: “Kilsə Məsihə aid olmayan insanları tanımadığını elan etməlidir”. Belə cəsarətlə danışan Kargilin ələ keçirilməsi üçün mükafat təklif olundu.

Kargildən xahiş edildi ki, kralın müttəfiqləri az olan Şotlandiyanın aran bölgələrində özünə sığınacaq tapsın.

Buna baxmayaraq Kargil vəz edib öyrətməkdə davam etdi və şerifdən, eləcə də onu axtaranlardan yayındı. Nəhayət, 1662-ci ildə Kargil İngiltərənin şimalına, təhlükədən uzaq bir yerə qaçıb getdi.

Amma o, uzaq yerdə çox qala bilməzdi. Kargil insanları bu sözlərlə ruhlandırmışdı: "Əgər İsaya iman edənlər Məsih onları sevdiyi kimi Onu sevsəydilər, onda Rəblə görüşməyə tələsərdilər".

Kargil vicdanın səsinə qulaq asıb tezliklə geri döndü. Qaçaq kimi yenidən Şotlandiyaya qayıdıb yaxın dostlarının əhatəsində öz səyyar xidmətinə davam etdi. Donald iki dəfə tutulmaqdan canını qurtardı, bir dəfə qaçan vaxt yaralandı. 1679-cu ildə o, kovenanterlərin amansızcasına məğlub edildiyi Botuvel Körpüsündə qızğın döyüşə qoşuldu. O, yenə də qaçdı, amma bu dəfə vaiz Hollandiyaya üz tutdu.

Bir neçə ayın içində Donald geri dönüb II Karla qarşı daha bir plan cızdı. Kargil və kovenanter yoldaşı Riçard Kameron Senkar Bəyannaməsini imzaladılar. Bununla da onlar insanları II Karla qarşı müharibəyə və taxt-taca varis qardaşı II Ceymsə müqavimət göstərməyə səslədilər.

1681-ci ilin iyulun 10-da Donald kovenanterlərin ingilis qüvvələrinə məğlub olduğu döyüş yerində, Şotlandiyanın cənubundakı Lanarkşir qraflığında ruhlandırıcı bir vəz etdi. Ertəsi gün səhər günəş çıxmazdan əvvəl onu tutub Qlazqoya apardılar. Kargil və bir neçə kovenanter ölüm cəzasına məhkum olundu.

Kargil iyulun 27-də edam kürsüsünə qalxanda dedi: "Rəbb bilir ki, vəz etmək üçün kafedraya qalxdığımdan daha az qorxu və narahatlıq içində bu nərdivanla çıxıram. Əlvida, Məsihdəki bütün dostlar və tanışlar! Əlvida, bütün dünyəvi ləzzətlər, didərginliklər və əzablar! ... Xoş gəldin, sözlə izah olunmaz və izzət dolu sevinc!" Bir dəqiqə sonra cəlladın baltası onun başını üzdü. Kargil yenə də öz sevimli Şotlandiyasını tərk etdi, lakin bu dəfə göylərdəki evinə, sevimli Xilaskarının yanına getdi.

# İzabel Alison və Mariyon Harvi

(1681)

İki gənc şotland qadın İngiltərədəki dini müharibələr zamanı ələ keçdi. Onlar kovenanterlərin küçə toplantılarında iştirak etdiklərinə görə edam olundular. Hər iki qadın təhsilsiz idi. Mariyon Harvi zəngin ailədə qulluqçu işləyirdi, İzabel Alison barədə isə çox az məlumat var. Onun Pert şəhərində yaşadığı qeyd edilir. Bu gənc qadınların ölümü ingilis taxt-tacı üçün nə zəfər, nə də şotlandların əzmini qırmaq üçün döyüşdə qələbə deyildi. Toplantıda sakitcə oturub vəzi dinləyən bir məsihçi kimi onlar həbs olundular və mahnı oxuyaraq dar ağacına yollandılar.

İlk şotland kovenanter dəstələri 1557-ci ildə meydana çıxdı və bir əsr boyunca bu dini müxalifət qrupları Müjdəni aydın tərzdə yaydılar. Eyni zamanda onlar İngiltərədən müstəqillik əldə etmək üçün hərbi əməliyyatlar keçirdilər. 1679-cu ildə kralın arxiyepiskopu Ceyms Şarpın öldürülməsindən sonra "Qətl vaxtı" adlanan bir dövr başladı. II Karl 1662-ci ildə İngiltərədəki monarxiyanı bərpa etdi və o, I Karlın boynunun vurulmasına gətirib çıxarmış daha bir üsyana yol verməyəcəkdi. Beləliklə, 1680-ci ilin sonunda monarxiyanın agentləri Donald Kargil və ya Riçard Kameron kimilərlə əlaqəsi olan sadə insanları tutmaq qərarına gəldilər.

İzabeli Pertdəki evində, Mariyonu isə Bones şəhərində həbs etdilər. Hər biri Senkar Bəyannaməsi, kovenanter əqidəsi, eləcə də digər doktrina və qaydalarla əlaqədar sorğu-sual olundular. Qadınlar bu mövzular barədə az bilirdilər. Ancaq onlar günahlarının İsa Məsihə imanla bağışlandığını qətiyyətlə təsdiqlədilər. Məhkəmə onları qeyri-adi zəkalı və ağıllı kimi alqışlasa da, onlar xain və üsyançı kimi ittiham olundular. Daha sonra kralın kilsə xadimlərinin qaydası ilə onları cəhənnəmə məhkum etdilər.

1681-ci ilin yanvarın 26-da İzabel, Mariyon və daha beş cinayətkar qadın Edinburqun Qrassmarket Meydanına aparıldı. İzabel dedi: "Mən Öz göylərdəki evində azad padşah olan İsa Məsihi qəbul etdiyim və Ona sadiq qaldığım üçün canımı qoyuram. Məni çağırdığına görə Onu

izzətləndirirəm". Mariyon edam edilməzdən əvvəl yazmışdı: "Mən axmaq və ya şər iş görən, ya da digər insanların işinə burnunu soxan biri kimi ölmürəm. Mən İsa Məsihə sadiq qaldığım və Onun Öz kilsəsinin başçısı olduğunu qəbul etdiyim üçün ölürəm".

Onlar birlikdə edam kürsüsündə 84-cü Zəburu oxudular. Qış küləyi onların səslərini göylərə apararkən edam edən onların həyatına son qoydu. Qrassmarket Meydanında qısa bir sükut çökdü, lakin onlar öz səsləri ilə göylərdəki mələk xoruna qoşuldular.

"Öz əzablarından yaranmış sevinci yayanlar nə bəxtiyardır. Özünü başqaları üçün inkar edən Məsihə bürünür".

**— Zindana salınmış Qika kral ailəsinin knyazı Vladimir**

# Con Dik

## (1684)

İngiltərə kralı II Karl hakimiyyətdə olduğu dövrdə şotland kovenanterləri ziyanvericilər hesab edirdi. Onun süvari qoşunları kovenanterlərin qeyri-nizami qoşunları ilə neçə illər dağlıq ərazilərdə siçan-pişik oyunu oynadılar. Ancaq 1679-cu ildə Botuvel Körpüsündə qızğın döyüşlərdən sonra kovenanterlər ağır itkilər verərək məğlub oldular. Bir il sonra Riçard Kameron və başqaları Senkar Bəyannaməsini imzaladılar. Bu bəyannamə İngiltərədən müstəqillik əldə etmək üçün iki iddiaya əsaslanmışdı. Birincisi, kilsənin rəhbəri yalnız Məsihdir. İkincisi, Karl bu vəzifəni qeyri-qanuni ələ keçirib və artıq Şotlandiyanın rəhbəri deyil. Kral bunu xəyanət hesab etdi və ordusunu kovenanterlərin rəhbərlərini tapmaq üçün göndərdi.

Con Dik Botuvel döyüşünün veteranlarından idi. O, digərləri ilə birgə 1683-cü ilin sentyabrında Kanonqeyt Tolbut binasınının iki kamerasına salınmışdı. Məhbuslar edam olunana qədər günəş işığı görməyəcəkdilər. Lakin kameraların birində kişilər dəmir barmaqlıqları kəsmək üçün haradansa yeyə və mişar əldə etdilər. Onlar gizlicə, yavaş-yavaş metal barmaqlığı kəsdilər. Sonra kəsilmiş barmaqlığı təzədən öz yerinə qoyaraq təyin olunmuş günü gözlədilər. Həmin gün gəlib çatanda iyirmi beş kişinin hamısı qaçdı.

Beləcə Con Dik altı ay azadlıqdan zövq aldı. Nəhayət, bir kəndli qadın monarxın təklif etdiyi mükafatı əldə etmək üçün onu satdı. Qaçan məhbuslardan yalnız Dik tutuldu. Bir neçə gündən sonra Conu edam kürsüsünə apardılar və bu sadiq kovenanter orada izdihama üzünü tutub dedi:

> "Bu gün buraya gəlmişəm və payıma düşəni dünyada heç nəyə dəyişmərəm. Mən Məsih və Onun işi uğrunda həyatımı könüllü olaraq böyük məmnuniyyətlə qurban verirəm. Bütün düşmənlərimi ürəkdən bağışlayıram. Mənə hökm verənləri, əsasən də ələ verəni və arxamda olanı [edam edəni] bağışlayıram. Mən Rəbbin xalqı olan sizlərə tövsiyə edirəm ki, Allah yolunda səmimi olasınız. Hələ

Rəbbi tanımayan və ya az tanıyan sizlərə isə Allahın yanına gəlib Ona etibar etməyi məsləhət görürəm. O sizi peşman etməyəcək. Sizə deyirəm, Rəbbə güvənin və qarşılaşacağınız hər cür çətinlikdə və sıxıntıda O sizi dəstəkləyəcək və gücləndirəcək. İndi isə Rəbbə izzət olsun. Budur qurban və könüllü təqdim! Əlvida, bütün dostlar!”

Məsih İsada möminliyə yaraşan
bir həyat sürmək istəyənlərin
hamısı təqibə məruz qalacaq.

**2 Timoteyə 3:12**

# Con Peyton

(1684)

Əfsanəvi şotland əsgər və kovenanter olan kapitan Con Peyton 1684-cü ilin mayın 9-da edam kürsüsündə söylədiyi təsirli sözlərlə məşhurdur. O, Almaniyada II Qustav Adolf üçün və kovenanter qardaşlığının 1644-cü ildə İngiltərə krallığına qarşı döyüşlərində cəsarətlə vuruşmuşdu. Kapitan Peytonun imanı barədə dediyi sonuncu sözləri tarixə bir hədiyyə oldu:

> “Hörmətli dostlar və tamaşaçılar!
>
> Siz ölməkdə olan bir insana baxmaq üçün buraya yığışmısınız ... Mən miskin bir günahkaram və qəzəbdən savayı heç nəyə layiq deyiləm. Mənim öz salehliyim yoxdur, hamısı Məsihindir və yalnız Ona məxsusdur. Mən İsa Məsihə iman edərək Rəbbin salehliyini və əzablarını mənimsəmişəm. İttiham vasitəsilə onları qazanmışam, çünki Onun təklifini Öz şərtləri ilə qəbul etmişəm. And içib özümü Rəbbin ixtiyarına vermişəm ki, istər təklikdə, istərsə də cəmiyyətdə məndən istifadə etsin. İndi yer üzündə etdiklərimin hamısını göydə təsdiqləməyi gözləyirəm. Bütün nöqsanlarımı və uğursuzluqlarımı aradan qaldırmağı Ona tapşırıram, qoy ürəyim Rəblə olsun. Mən yalnız Məsihə məxsus olan taxt-tac səlahiyyətindən sui-istifadə edən krala qarşı danışdığım üçün ölürəm... Ata kilsəsinin başçısı olmağı Oğula həvalə edib... Ah! Allahın taxtına tez-tez yaxınlaşın və Ona rahatlıq verməyin. Ruhunuzun qayğısına qalın. Birbaşa özünüz üçün Rəbdən əfv istəyin və O sizə sülh verəcək. Bütünlüklə Allahın Ruhunun lütfünü, məhəbbət lütfünü, müqəddəs qorxu və təvazökarlıq lütfünü axtarın...
>
> İndi mən Rəbb İsa Məsihdə olan əziz dostlarımı — məhbus, sürgün edilmiş, dul, atasız, Məsih uğrunda qovulmuş və didərgin düşmüş sizləri salamlayıram. Məsihin əzablarının xeyir-duaları hamınızla olsun. Qoy O sizi möhkəmləndirsin, bərpa etsin, dəstəkləsin və sakitləşdirsin... İndi isə mənim dul qalacaq zavallı həyat yoldaşımı və yetim qalacaq altı azyaşlı uşaqlarımı Küll-İxtiyar

Ataya, Oğula və Müqəddəs Ruha tapşırıram. O, yetimlərə ata, dul arvada ər olacağını vəd edib. Ya Rəbb... Onlar üçün bu dediklərimin hər biri ol... ...Əlvida, həyat yoldaşım və övladlarım! Əlvida, bütün dostlar və tanışlar! Əlvida, bütün dünyəvi ləzzətlər! Əlvida, şirin Müqəddəs Yazılar, vəz, dua, ilahilər və bütün xidmətlər!... Ata, Oğul və Müqəddəs Ruh sizi salamlayıram. Ruhumu bütünlüklə Sənə tapşırıram. Rəbb, ruhumu qəbul et".

İsa onlara dedi: "Sizə doğrusunu deyirəm: Allahın Padşahlığı uğrunda ya evini ya arvadını ya bacı-qardaşlarını ya ata-anasını və yaxud uşaqlarını atan elə bir kəs yoxdur ki, bu dövrdə bundan neçə qat artıq, gələcək dövrdə isə əbədi həyat almasın".

**Luka 18:29–30**

# Marqaret Uilson və Marqaret MakLaklan

(1686)

On səkkiz yaşlı gənc Marqaret Uilson gördü ki, yaşlı qadın Marqaret MakLaklan kəndirlə dirəyə bağlanıb və ləpələr onun üstünü örtür. Bu edam üsulu yavaş-yavaş boğulmaqla icra edilirdi. Viqtoun məhkəməsi I Karla və onun kilsəsinə sadiqlik andını içmək istəməyənləri bu yolla öldürürdü. Gənc qız Uilson da andı rədd etmişdi, amma onun dirəyi qəsdən sahilə daha yaxın qoyulmuşdu ki, o digər qadının ölüm əzablarını görsün. Nəticədə, yaxşı düşünüb öz kovenanter əqidəsindən dönsün və həyatını xilas etsin.

Yaşlı qadın Marqaret Şotlandiyanın kiçik kəndi Viqtounun yaxınlığında kəndlilərə verilmiş yararsız torpağı əkib-becərirdi. Bu dul qadın təhsilsiz olsa da, hikmətli idi. Presviterian vaiz Ceyms Renvik onu inandırmışdı ki, İngiltərə kilsəsi öz bütövlüyünü mənəviyyatı pozulmuş ingilis kralına təslim edib. Bu kilsə Stüartlar sülaləsinə sadiq olan yolunu azmış bir kilsə idi və onu Məsihin həqiqi kilsəsi ilə qarışdırmaq olmazdı. Həm ənənəyə, həm də qanuna zidd olaraq, MakLaklan İngiltərə kilsəsində ibadətlərə qoşulmadı, lakin öz evində kovenanterlərlə görüşdü. Buna görə o, hədəfə alındı.

Yeniyetmə Marqaret Viqtonun kəndi yaxınlığında yaşayan Cilbert Uilson adlı zəngin bir fermerin üç övladından böyüyü idi. Gənc qızın atası kralın tələbinə uyğun formada ibadət edirdi. Lakin fermerin iki qızı və oğlu həmin ibadətə qarşı çıxmışdılar. Uşaqlar bazar günü kilsədə çox vaxt iştirak etmədikləri üçün məmurlar onlara hədə-qorxu gəlmişdilər və uşaqlar təhlükəsizlikləri üçün yaxınlıqdakı dağlara qaçmışdılar. Fermerin oğlu Tomas barədə tarixdə heç bir məlumat yoxdur. Amma gənc Marqaretlə bacısı ac və soyuqdan titrəyə-titrəyə yaşlı kovenanter Marqaret MakMaklanın evində sığınacaq tapdılar. Lakin tezliklə hər üçü qonşular tərəfindən ələ verilib həbs olundular.

Onların məhkəməsi ədalət məhkəməsi deyildi. Üç cinayətkardan tələb olundu ki, kameronçulardan (Riçard Kameronun davamçıları) imtina edən

andı imzalasınlar. Kameronçular II Karlın siyasətinə və onun kilsənin rəhbəri olmasına qarşı durmuşdular. Əslində bu and krala sadiq olmaq barədə bir and idi. Amma qadınların üçü də bu anddan imtina etdi.

Qorxudan əl-ayağa düşmüş Cilbert Uilson kiçik qızını azadlığa çıxarmaq üçün kifayət qədər pul topladı, amma Marqaret 1685-ci ilin üçün aprelin 13-də "Blednox sularında axının hündür yerində quraşdırılmış dirəklərə bağlanıb... boğulmağa" məhkum edildi. Marqaret MakLaklana gəlincə, hakimiyyət ondan canını qurtardığına görə sadəcə sevindi. Bir ittihamçı dedi: "O qoca, lənətə gəlmiş köpəkdən danışma. Qoy cəhənnəmə getsin".

Mayın 11-də iki qadın — cavan və yaşlı Marqaret suyun aşağı çəkilmiş yerində hər biri öz dirəyinə bərkidildi. Həbsxanada artıq zəifləmiş MakLaklan sahildən ən uzaq yerə qoyuldu. Yaşlı Marqaret həyatı uğrunda qısa bir mübarizə apararaq öldü. Gənc Marqaret sahilə çırpılan dalğalar içərisində bir müddət qaldıqdan sonra mühafizəçilər onu dənizdən çıxardılar. Yenidən qızdan kral hakimiyyətinə sadiqlik andını içməsini tələb etdilər. Gənc Marqaret "Əgər Allah istəyirsə, yaşasın kral" cavabını verdi.

Sonra mühafizəçilər yenidən onu dirəyinə bağlayaraq dalğaların qarşısına qoydular. Gənc Marqaret Uilson Zəbur söyləyərək əbədiyyətə qovuşdu:

Gənclikdə günahkar, üsyankar oldum, Bunları yadına salma. Məni məhəbbətin naminə, Ya Rəbb, xeyirxahlığına görə yada sal!

**Zəbur 25:7**

# Con Nesbit

(1685)

Con Nesbit qitədə gedən otuz illik müharibədə bir əsgər və şotland kovenanterlər arasında mübariz insan idi. Lakin onun bədənindən daha çox qəlbi ağır yaralanmışdı. İstintaq edilərkən o artıq yer üzündə gördüyü mübarizələrdən əl çəkib cənnətə qovuşmaq istəyirdi.

Nesbit Avropadakı müharibədən qayıtdıqda, kral II Karl Şotlandiyada kovenanterlərin müstəqil kilsəsinə qarşı mübarizəyə başlamışdı. Kovenanterlər kilsənin başçısı krala və vasitəçiləri olan keşişlərə qarşı müqavimət göstərirdilər. Bu məsihçilər yalnız Məsihin kilsə rəhbəri olduğuna və bu cür ibadət etmək istəyənlərin silahlı mübarizə aparmasına inanırdılar. Kovenanterlər döyüşmədən Karlın qarşısında əyilən deyildilər.

Nesbit Marqaret Lau ilə evlənmişdi. Onun ulu babası XIV əsrdə Con Uikliffin İngiltərəyə göndərdiyi ayaqyalın vaizlərdən biri idi. Nesbit ulu babasının əl ilə yazılmış Əhdi-Cədid kitabını yadigar saxlayırdı. O, Kəlamı oxuyub öyrənir, dua edir, işləyir və Karlın atlı əsgərlərindən gizlənirdi.

Ancaq Con daim gizlənə bilməzdi. Rullian Qrin düzənliyində olan döyüşdə o, ağır yaralanmışdı və öləcəyini düşünərək onu meydanda qoyub getmişdilər. Lakin Con oradan qaçıb canını qurtarmış və sağalmışdı. Sonra Nesbit Dramkloq və Botuvel Körpüsü döyüşlərində iştirak etmişdi. Hər iki döyüş fəlakətlə qurtarsa da, Nesbit cəsarətlə vuruşub sağ qalmışdı. Artıq o vaxtlar Con axtarışda olan biri idi və onun başı üçün pul qoyulmuşdu.

Nesbitin gizləndiyi yeri tapmaq üçün kral qoşunları onun həyat yoldaşı Marqaret və uşaqlarını evlərindən zorla çıxartmışdılar. Həmin qış mövsümündə özlərinə sığınacaq tapa bilməyən qadın soyuqda qaldığı üçün ölmüşdü. Qızı və bir oğlu da eyni tale ilə üzləşmişdi. Nesbit onları taparkən qızını dəfnə hazırlayırdılar. Sağ qalan oğlu sonradan bu barədə belə yazmışdı:

> "Dostları onun balaca qızını kobud bir tabutun içərisinə qoydular. Con əyilib yavaşca qızını öpərək dedi: 'Din bizi xəstəliklərdən kənarlaşdırmır. Amma biz əmin olmalıyıq ki, həyatlarımız Allahın

iradəsinə tabe olaraq müqəddəs itaət yolundan keçir'. O, çevrilib küncdə uzanmış hərarətdən bədənləri od kimi yanan iki oğluna baxdı. Uşaqları ilə danışsa da, onlar atalarını tanımadılar. Sonra Con nalə çəkərək dedi: 'Bu dünyaya çılpaq gəldim, çılpaq da getməliyəm. Rəbb yolumu asanlaşdırır'".

Con ailəsini basdırdı və dərhal yenidən gizləndi. Onun başı üçün qoyulan məbləğ artsa da, iki il Nesbiti tapa bilmədilər. Sonra bir gün Con üç nəfərlə birlikdə olarkən əmisi oğlu kapitan Robertin rəhbərlik etdiyi atlı dəstə onları mühasirəyə aldı. Qısa bir döyüş getdi. Nesbitin üç yoldaşı yaralandı, sonra edam edildi. Amma Conu isə ölü yox, diri tutmaq istəyirdilər. Onu Edinburqa apardılar. Con onu həbs edənlərə demişdi ki, ölməkdən daha çox yalan danışmaqdan qorxur. Onu öldürməzdən qabaq artıq öz həyatını verməyə hazır idi.

Tezliklə Con dar ağacından asılmağa məhkum edildi. Ölümündən bir neçə gün əvvəl dua edərək ucadan dedi: "Ah cümə günü! Ah cümə günü! Ya Rəbb, təyin etdiyin vaxtı gözləmək üçün mənə səbir ver". O, həbsxanada son sözlərini yazdı:

> "Onun şirin, sevimli və arzu olunan çarmıxından qorxmayın. Yaralarıma görə nə başımı qaldırıb, nə də yerə qoya bilməsəm də, həyatım boyu heç vaxt belə yaxşı vəziyyətdə olmamışam. O, əsrarəngiz bir tərzdə qurtaran, gücləndirən, kömək edən, dəstəkləyən, dözən, bağışlayan, barışdıran sevgisi, lütfü və mərhəməti ilə üzərimə nur saçdı. Onun Padşah Sarayına qaça bilməyim üçün ruhum bədən zəifliyindən və fani cismimdən azad olmağa can atır".

O, dar ağacında Romalılara səkkizinci fəsildən sitat gətirdi və sonra əbədiyyətə qovuşdu. Döyüşçünün qəlbi nəhayət ki, öz göylərdəki evində idi.

# Con Braun

## (1685)

Con Braun Ayrşir qraflığından, lollardların vətənindən olan Məsih üçün qızğın həvəsli bir şotland idi. İslahat və müstəqil kilsə əqidəsində yetişdirilmiş Braun "Saziş Aslanı" adlanan Riçard Kameronun və "Saziş Peyğəmbəri" adlanan Aleksandr Pedenin yaxın dostu idi. 1685-ci ildə Conun toyunda Peden xanım Brauna dedi: "Ərin olmaq üçün yaxşı bir oğlan seçmisən, amma ondan çox zövq almayacaqsan. Conla keçirəcəyin hər bir məqamı əziz tut və yanında həmişə onu sarımaq üçün mələfə saxla, çünki mələfə sənə axtarmadığın bir vaxtda gərək olacaq və o, qanlı olacaq".

Nitq qüsuru Braunu vaiz olmaqdan saxlasa da, o, kasıb kottecində gənclərə Müqəddəs Kitabdan dərs keçməyə başladı. Bu, yəqin ki, uşaqlar və gənclər üçün bazar günü dərsləri idi.

1685-ci il dəhşətli əsrin ən pis qətl dövrü adlandırıldı. Tarixçi Lord MakKauli və müəllif Daniel Defo tərəfindən qeyd edildiyi kimi, şotland kovenanterlər amansızcasına təzyiqlərə və təqiblərə məruz qalaraq öldürüldü. Kralın göndərdiyi bir dəstə həmin il Con Braunun qapısına gələndə onlar Aleksandr Pedeni axtardıqlarını və onun yaxınlıqda olduğunu söylədilər. Onlar Braunun kottecini qarət edib bir neçə vərəq tapdılar. Dəstənin adamları bu yazılar və Pedenin harada olduğu barədə Braundan məlumat almaq istədilər. Braun isə onlar üçün dua edib Kəlamdan danışmağa başladı. Komandir onu susdurub əmr verdi ki, əsgərlər onu güllələmək üçün sıraya düzülsünlər.

Braun həyat yoldaşına tərəf dönüb dedi: "İzabel, indi həmin gün gəlib çatdı".

O isə ərinə cavab verdi: "Con, mən səndən məmnuniyyətlə ayrıla bilərəm".

Con dedi: "Arzum da elə budur. Mənim artıq ölməkdən savayı başqa bir işim yoxdur". O, həyat yoldaşını və uşağını öpüb Müjdənin vəd etdiyi xeyir-duaları onlar üçün arzuladı.

Braunu güllələmək əmri alan altı əsgər şahidləri olduqları mənzərədən və onun kralın qanununa məhəl qoymamasından təsirləndilər. Silahlarını

aşağı salıb atəş açmaqdan imtina etdilər. Onların komandiri özü bu sadiq kovenanterin başına tapançasını sıxdı və kottecinin həyətində Braunun həyatına son qoydu.

İzabel uşağını yerə qoyub mələfəni götürdü və ərinin cəsədini ona bükdü. Qonşuları bu hadisədən xəbər tutanadək qadın hönkür-hönkür ağladı. Sonra onun dərdinə şərik olmaq və həmin dəhşətli ildə öz itkilərini xatırlamaq üçün onlar başına yığışdılar. Şotlandiya öz müstəqilliyi və azad kilsə uğrunda mübarizə aparırdı. Braunun qətli sadəcə bir qəddarlıq idi.

Sınağa dözən adam nə bəxtiyardır!
Çünki sınaqdan keçəndən sonra
Rəbbin Onu sevənlərə vəd
etdiyi həyat tacını alacaq.

**Yaqub 1:12**

# Ceyms Renvik

(1662–1688)

Şəhidlərdən sonra adətən onların davamçıları yaranır. Kaş ki İngiltərə şotland kovenanter rəhbərlərin ölümlərinin hərəkat üçün nə edəcəyini, bu cəsarətli kişi və qadınların gələcək nəsillər üçün iman alovunu alışdıracağını biləydi. Bu gələcək nəsillərdən biri kasıb ailədən çıxmış Edinburq Universitetinin məzunu olan on doqquz yaşlı Ceyms Renvik idi. Bu gənc Donald Kargilin edamına baxmışdı və onun təsirli son sözlərini eşitmişdi. Şəhidin başının və əllərinin Neterbou Darvazasının üstündə qoyulduğunu görmüşdü və həmin gün Renvik kovenanter vaiz olmağa qərar vermişdi.

Ceyms çox yaxşı bir vaiz oldu. O, aydın, səmimi və qızğın həvəslə danışırdı. Dağ yamaclarında və vadilərdə keçirdiyi toplantılarda Ceyms yüzlərlə insana Müjdəni vəz edirdi. İnsanlar kral nəzarətindən azad bir kilsə və Xilaskarına etibar edənlər üçün Allahın sevinci haqqında eşidirdilər. Əgər Kargil Ceymsi dinləsəydi və dəfələrlə ələ keçməkdən yayındığını görsəydi, onunla qürur hissi duyardı.

Bir dəfə Renvik açıq havada keçirilən gizli və qeyri-qanuni toplantılarda iştirak etmək üçün Nyuton Stüarta səyahət etdi. O, şəhərin mehmanxanasında qalarkən kral ordusunun bir zabiti də həmin gecə orada qaldı. Tezliklə onlar danışmağa başladılar və hər ikisi bütün gecəni qəlbaçan söhbətlər etdilər. Ertəsi gün səhər zabit yeni dostu ilə maraqlandıqda ona dedilər ki, Ceyms Renvik adlı şəxs ələ keçməmək üçün səhər tezdən çıxıb gedib. Məəttəl qalmış zabit öz kazarmasına qayıtdı və əmin oldu ki, Renvik kimi valehedici və zərərsiz bir gənc həbs edilməyə layiq deyil.

Bir dəfə Ceyms ucadan mahnı səsləri gələn bir çobanın evində özünə sığınacaq tapmaq istədi. O, gur mahnı sədalarına görə evin kovenanterlərə məxsus olduğunu düşündü. Amma bu çoban sadəcə sərxoş və sadə bir adam idi. Buna baxmayaraq Renvik gecəni orada keçirdi. Səhər hələ öz paltarları qurumaqda ikən Renvik ev yiyəsinin köhnə şotland milli geyimini geyinib vadidə dua etməyə getdi. Qəfildən yolda qarşısına bir

əsgər dəstəsi çıxdı. Onlar şotlandka geyinmiş Ceymsi saxlayıb ondan axtardıqları vaizin harada olduğunu soruşdular. Sərgərdan gəzən şotlandın məzlumuğunu görüb əsgərlər yollarına davam etdilər. Renvik yenə də canını qurtara bildi.

Nəhayət, 1684-cü ildə əsəbiləşmiş Gizli Şura Ceyms Renviki və ona yardım edənlərin hamısını dövlət düşməni adlandıraraq bir fərman verdi. Ceymsi gizlətmək onun cinayətlərində əlbir olmaqla bərabər idi. Bundan sonra üç il keçdi.

1687-ci ilin dekabrında bir zabit Edinburqda kiminsə evdə ucadan dua etdiyini eşitdi və Renvikin səsini tanıyaraq onu tutdu. Ceymsə qarşı üç ittiham irəli sürüldü. Birincisi, kralın səlahiyyətini qəbul etməmək, ikincisi, vergini ödəməkdən imtina etmək, üçüncüsü isə açıq iclaslara dinləyicilərin silahlı gəlmələrini məsləhət görmək idi. Renvik hər üç ittihama görə təqsirləndirildi və əfv təklifini rədd etdi. 1688-ci ilin fevralın 17-də bu sadiq vaiz Edinburqdakı Qrassmarket Meydanında dar ağacında edam edildi, başı və əlləri isə Neterbou Darvazasında asıldı.

Qrassmarket Meydanında o gün kimlər bu səhnəyə tamaşa edirdi? Gənc məsihçilər onun bu sözlərini eşidəndə necə də ruhlanmışdılar: “Bu gün mən sizin Allahınızın və mənim Tanrımın yanına gedirəm. Mənim fikrimcə, ölüm yorğunlar üçün yataqdır. İndi isə narahat olmayın. Rəbb Öz işini davam etdirəcək və Öz xalqına sahiblik edəcək. İzzətini Şotlandiyada da göstərəcək. Əlvida!”

# Fransız Hugenotlar

XVI əsrdə Fransda hakimiyyət kimin əlində olacaqdı və xalq necə ibadət edəcəkdi? Nəhayət, bu suallar bir əsrlik müharibə və təqiblərdən sonra həll olundu. Lakin bu işdə əsrin əvvəllərində sürgün edilmiş fransız Jan Kalvinin böyük təsiri var idi və o, bir qrup müjdəçi yetişdirərək yenidən Fransaya göndərmişdi. Bu fransız protestantları hugenotlar kimi tanınmışdılar. Onlar protestant hərəkatını yaratmışdılar və kral hakimiyyəti uğrunda vuruşan siyasi qüvvələri cəlb etmişdilər.

Burbonlar sülaləsi islahatçılara üstünlük verdi. Şatilyonlar ailəsi, xüsusilə də tanınmış Qaspar de II Kolini hugenotlarla güclərini birləşdirdi və fransız mədəniyyətini dini mənsubiyyətə görə parçaladı. Bu vətəndaş müharibəsi ilə nəticələndi. Hələ dini islahat hərəkatı olan hugenotlar hakimiyyətə meylli dünyəvi şahzadələr tərəfindən daha çox idarə olunmağa başladı. 1560-cı ildən 1589-cu ildə IV Henri taxta çıxana qədər güc işlətmək hərəkatın bir hissəsi oldu. Henri hugenotları dəstəkləyən biri idi, ancaq 1593-cü ildə katolikliyi qəbul etdi. O, 1598-ci ildə katolikliyi Fransanın rəsmi dini elan edərək Nant razılaşmasını imzaladı. Amma hugenotlara ibadət azadlığı və möhkəmləndirilmiş şəhərləri olan La Roşeldə özünümüdafiə üçün qeyri-nizami qoşun saxlama hüququ verdi.

Ancaq 1685-ci ildə XIV Lüdovik Nant razılaşmasını ləğv etdi. Protestantizm indi Fransada qeyri-qanuni idi. Dörd yüz min hugenot təqiblərdən qaçmaq üçün Prussiya, Hollandiya, Britaniya, İsveçrə və Şimali Amerikada özlərinə sığınacaq tapdılar.

Daha sonra Böyük Fransa inqilabı katolik kilsəsini Fransada siyasi bir güc olaraq məhv etdi. Nəhayət, tam dini azadlıq 1802-ci ildə Napoleon kodu ilə təmin edildi.

Çünki əminəm ki, nə ölüm, nə həyat,
nə mələklər, nə başçılar, nə indiki,
nə də gələcək şeylər, nə qüvvələr,
nə ucalıq, nə dərinlik, nə də başqa
bir məxluq bizi Rəbbimiz Məsih
İsada olan Allah məhəbbətindən
ayırmağa qadir olmayacaq.

**Romalılara 8:38–39**



*Teofan Venar həbs edildi və Tonkində (Vyetnamda) boynu vuruldu.*

# Sənaye inqilabı dövründə təqiblər

(1790–1902)

Rabitə və nəqliyyat texnologiyaları dünyanı kiçiltməyə başladıqca, katoliklər və əksər protestant hərəkatları Şimali və Cənubi Amerikada, malyariyadan əziyyət çəkən Afrika qitəsində, eləcə də Hindistan-Cənubi Asiya yarımqitəsində müjdəçilik işi ilə məşğul oldular. Fərqli hərəkatlardan olan müjdəçilər xidmət etdikləri bölgələrdə bir-birləri ilə rastlaşsalar da, bu ərazilərin genişliyi müjdəçilər göndərən təşkilatlar və kilsələr üçün sonsuz imkanlar yaradırdı.

Əlbəttə ki, bu ərazilərdə çoxlu maneələr var idi. Müjdəçilər çox vaxt müstəmləkəyə çevirən orduların yolu ilə gedirdilər və tez-tez yerli qəbilələr tərəfindən amansız təzyiqlərə məruz qalırdılar. Şəhərlərdə yoxsul fəhlələr sənaye fabriklərində bütün günü işləyirdilər və bu da kilsələrin inkişafına təsir edirdi. Dövrün güclü zəkalı nəhəngləri — Karl Marks, Çarlz Darvin ve Ziqmund Freyd — hər biri məsihçi əqidəsini hədəfə aldı. Onlar mətbəx döşəməsinin toz və qırıntılardan təmizləndiyi kimi iman dövrünün də artıq geridə qaldığını düşünürdülər.

Qərbdə olan məsihçilikdə şəhidlik dövrü bitmişdi. Demokratik idarəetmə hər cür dini fikrə və təlimə yol verməsə də, hakimiyyət fərqli dini düşüncəsi olanları öldürməyə son qoymuşdu. Şübhəsiz ki, bu dövrdə bəzi məzhəblər təqiblərlə üzləşmidilər. Belə ki, Namuqonqo şəhidləri Şərqi Afrikadakı Buqanda kralının əmri ilə öldürülmüşdü. Müjdəni cənubi yarımkürəyə aparan məsihçilərin çoxu oradakı xəstəliklərdən həyatlarını

dəyişmişdilər. Köləliyi qadağan edən hərəkatda sadiq şagirdlik uğrunda ölənləri də burada qeyd etməliyik.

Sənaye inqilabı qərbin dini fikirlərini dünya müjdəçiliyindən zənginliyə, qurbandan səmərəlilik rejiminə, coğrafi kilsələrdən geniş yayılmış anlayışa — yeni maşınların vəd etdiyi məhsulları və tərəqqini əldə etmək üçün müxtəlif dinlərdən olan insanların birlikdə yaşayıb işləməsi anlayışına yönəltdi.

"Düşmənlərinizi sevin ... sizdən məkrli tərzdə istifadə edənlər və təqib edənlər üçün dua edin".

**— Yepiskop Hanninqtonun Müjdəni bölüşdüyü Uqandada adamyeyənlər tərəfindən öldürülərkən dediyi son sözləri**

# Con Smit

(1790–1824)

Britaniya Qvianasının (indiki Qayana) Karib müstəmləkəsində Demerara üç əyalətdən biri idi. Demerarada quldarlıq şəkər qamışı iqtisadiyyatı üçün mühərrik idi. Orada nə baş verirsə versin, köləlik barədə heç vaxt sual verilməməli idi. Bunu edənlərin içərisində ən çox cəzalananlar müjdəçilər idi.

London Müjdəçi Cəmiyyəti (LMC) Con Smiti 1817-ci ilin martında Britaniya Qvianasına göndərdi. O, qonşu Berbis əyalətinə köçürülmüş möhtərəm Con Reyin Demeraradakı vəzifəsini öz üzərinə götürdü. Belə etməklə müjdəçi vaizlə kölə əhali arasındakı əlaqələr uzun müddətli olmurdu. Kölə əhalinin halına acımaq iqtisadiyyat üçün təhlükəli idi.

Qubernator Mörri açıq şəkildə Smit ilə ilk söhbətində ona fikrini bildirdi. Afrika kölələrinə oxumağı öyrətmək qadağan idi. Müjdəçilik məntəqəsinin işi kölələri savadlandırmaq və onları ağalarına qarşı zərər verəcək bir hərəkətə səsləmək deyil, onlara hər şeyə görə minnətdarlıq bildirməyi öyrətmək idi. Britaniya Qvianasında şəkər qamışı iqtisadiyyatı oranın lordu və kralı idi.

Beləliklə, hörmətli keşiş Con Smit öz ingilis vətənindən çox uzaqlarda, dünyanın ən nankor, rütubətli və zülmkar müjdəçilik ərazisində xidmətinə başladı. Uilyam Vilberfors və digər məsihçi rəhbərlər artıq bu yerdə köləliyin təməlini dağıtmaq və onun qanuni olaraq ləğvi üçün plan işləyib hazırlayırdılar.

Smit öz işini çox yaxşı görürdü. O, toplantısına gələnlər üçün yalnız vaiz deyil, həm də dost və məsləhətçi olmuşdu. LMC-nin ibadət və öyrənmək üçün göndərdiyi kitabları paylamışdı. Amma bu kitabları oxuya bilmirdilərsə, onları paylamağın da heç bir faydası yox idi. Kilsə rəhbərlərinə oxumağı öyrətmək onlara məsihçiliyi öyrətməkdən daha vacib idi.

Beləcə bu işində beş il çalışan Smit böhranla üzləşdi, bunu özü və başqaları da əvvəlcədən görürdülər. Oxumağı öyrənən və Britaniyanın köləliyə qarşı hərəkatından agah olan bəzi qullar anladılar ki, plantasiya

sahibkarları və müstəmləkə hakimiyyəti onların azad edilmələri barədə artıq əmr alsalar da, hələ də onları köləlikdə saxlayırlar. Bu ədalətsizliyə görə bir kölə qiyamı planlaşdırıldı. Sonra Smitin kilsəsində dyakon olan Kvamina adlı qoca bir qul qanlı üsyandansa iş tətili keçirməyi məsləhət gördü. Kvamina və başqaları silah götürməzdən əvvəl vaizdən məsləhət almaq istədilər.

Smit onlara səbr etməyi və yeni qanunları gözləməyi məsləhət gördü. Hətta qubernator özü də Parlament Qanunlarını icra etmək məcburiyyətində qalacaqdı. Axı İngiltərə mədəni bir ölkə idi. Ancaq azadlığın ab-havasının duyulduğu bir şəraitdə qullar üçün səbirli olmaq məsləhəti uğursuz idi. 1823-cü ilin avqustun 20-də Demeraradakı 74000 kölədən 13000-i plantasiya rəhbərlərinin evlərini dövrəyə alaraq onları ev məhbusu etdi. Lakin qurbernator qeyri-nizami qoşununu topladı. O, kölələrə lazımi dərsi vermək üçün çoxlu insan itkisi ilə cəld qeyri-mütəşəkkil üsyanı yatızdırdı. Kvaminanı güdüb öldürdülər və plantasiya rəhbərlərinin göstərişi ilə Smit həbs olundu. Onlar Smitin bu barədə qabaqcadan bildiyini və qubernatoru vaxtında xəbərdar etmədiyini öyrəndilər. Beləliklə, Smit plantasiya rəhbərlərinin gözündə silah və ya dəyənək daşıyan afrikalı kölə kimi təqsirkar sui-qəsdçi oldu.

Smit hərbi məhkəmə tərəfindən mühakimə olundu. Onlar Smiti dar ağacından asılmaqla ölüm cəzasına məhkum etdilər.

İngilis müjdəçinin İngiltərə ərazisindəki saxta məhkəmədən sonra ingilis hərbçiləri tərəfindən edam olunacağını eşidən LMC təşkilatı və başqaları onu xilas etməyə çalışdılar. Lakin cəzanı yumşaltmaq barədə vətəndən qubernator Mörriyə göstəriş gəlməzdən əvvəl Smit dünyasını dəyişdi. Londondan cavab gözləyən bu vaiz üfunətli Qayana həbsxanasında sətəlcəmin qurbanı oldu.

Smit öz gündəliyində "günahlarını" etiraf edir:

> "Məsihçi kitablarını kölələrə paylamaqda təqsirkaram: 'Müqəddəs Kitab Cəmiyyətindən göndərilmiş Əhdi-Ətiq və Əhdi-Cədidlərin paylanması mənim ixtiyarıma verildi'".
>
> "Qullar ilə dostlaşmaqda təqsirkaram: 'Heç bir müjdəçi xidmət etdiyi insanlarla yaxın ünsiyyət qurmadan vəzifəsini lazımınca yerinə yetirə bilməz'".

“Bazar günü sahələrdə işləməməyi məsləhət gördüyümə görə təqsirkaram: ‘Hansı cinayəti törətmişəm? Onların ağaları Allahdan böyükdürmü?’”

“Müjdə uğrunda xidmət etməkdə və özünü qurban verməkdə təqsirkaram.”

Ölümündən sonra afrikalı işçilər onu Demerara Şəhidi adlandırdılar. Parlament 1807-ci ildə İngiltərənin qul alverini dayandırdı. İmperiyadakı bütün afrikalı qullara 1833-cü ildə azadlıq verildi.

# Henri Layman

## (1809–1834)

Henri Laymanın həyatı dramatik surətdə dəyişildi. Amherst Kollecinin bir məzunu onu "Allahın hakimiyyətinə qarşı çıxan və şər əməllərdə cəsarətli olan pis bir insan" kimi təsvir etmişdi. Amma Məsihi qəbul etdikdən sonra Henri dəyişilərək "Rəbb üçün cəsarətli və alovlu bir insan" olmuşdu.

Henri Bostondakı Andover Seminariyasında ilahiyyat və tibb elmləri üzrə təhsil aldı. Sonra "Xarici Xidmətlər üzrə Amerika Nümayəndələr Şurası" onu ilk müjdəçilər sırasında İndoneziyaya göndərdi. Xidmətinin bir ili tamam olmamış Henri və yoldaşı Samuel Manson Sumatranın şimalındakı Tapahuli yaxınlığında bir neçə batak döyüşçü ilə tanış oldular. Müjdəçilərlə birlikdə İndoneziyaya gedən xidmətçilər Henri və yoldaşının nizə ilə öldürüldüyünü və bataklar tərəfindən yeyildiyini bildirdilər.

Laymanın qızğın, qısa, lakin dramatik həyatı amansızlıqla sona yetdi, lakin bataklar arasında iş davam etdi. Bu gün bataklar Məsihin yolu ilə gedirlər və bölgədəki müjdəçilik xidmətləri üçün başqalarını öyrədirlər.

# Con Uilyams

(1796–1839)

Con Uilyams inanılmaz bir müjdəçi idi. O, London yaxınlığında böyüyüb boya-başa çatmışdı və mömin valideynləri ona iman yolunu öyrətmişdilər. Dəmir məmulatları satıcısının yanında şagirdlik etmiş Con bu yoldan bir müddət uzaqlaşmışdı. Amma on səkkiz yaşında Con böyük həvəslə öz iman yoluna qayıtmış və yer üzünün ucqar nöqtələrinə getməyi qərara almışdı. London Müjdəçi Cəmiyyəti onun ora yollanmasına razılıq vermişdi. Conun ilahiyyat təhsili olmasa da, onun uzaq tayfaları axtarmaq üçün böyük həvəsi var idi.

Con yaxşı mexanik idi və bundan başqa problemləri də asanlıqla həll edə bilirdi. Həm də onun dilləri öyrənmək və vəz etmək bacarığı var idi. O, komanda qurmaq işində uğur qazanır və öyrətdiyi yerli adamlar onun təşəbbüslərini davam etdirirdilər. Con Raiatea adasında xidmət etməyə başladıqdan sonra Hervi adalarına (indiki Kuk adalarına) məsihçiliyi gətirdi. Gənc müjdəçi Rurutu və Rimatara adalarında da Müjdəni bölüşdü. Onun pulu qurtardıqda *Təşəbbüs* adlı öz yelkənli gəmisini satdı və özünün *Sülh Carçısı* adlı gəmisini tikdi. Sonra Con Samoa və Tonqa adalarına səyahət etdi, oradan Raiateaya və Rarotonqaya qayıdıb Əhdi-Cədidin tərcüməsini yoxladı.

On səkkiz illik müjdəçilik xidmətindən sonra Con və həyat yoldaşı Meri 1834-cü ildə iki oğlu ilə birlikdə İngiltərəyə qayıtdılar. Bu müjdəçilərin görüşləri insanlarda geniş maraq doğurdu. Tezliklə onlar üçün *Kamden* adlı başqa bir gəmi alındı və təchiz olundu. Bu müddət ərzində Con “Cənub Dəniz Adalarında Müjdəçilik Fəaliyyətləri Hekayəsi” adlı əsərini yazdı. Həmin kitab o ərazilər barədə ən tanınmış əsərlərdən biri idi. O, 3600 kilomterlik ərazidə yerləşən adaların sakinlərinin Müjdəni qəbul etdiyini söylədi.

Con və Meri 1837-ci ildə Polineziyaya qayıtdı. İki il sonra Con tacirlərin yerli sakinləri istismar etdiyi Yeni Hebridlər adasına araşdırma aparmaq üçün yola düşdü. Con sahilə yan alanda fəlakət başının üstünü

aldı. Eromanqada Con və yoldaşı Ceyms Harrisə hücum olundu və onları öldürdülər, cəsədləri isə ada sakinləri tərəfindən yeyildi.

Onun ölüm xəbəri imanlıları Müjdəni bölüşmək üçün səyahətə çıxmağa ruhlandırdı. Conun qətlindən sonra ora gələn müjdəçilərdən şotlandiyalı Ceyms Çalmerz və kanadalı Qordonlar cütlüyünü buna misal göstərmək olar. Çalmerz də Con kimi eyni tale ilə üzləşdi. Qordonlar da şəhid oldular. Nəhayət, Müjdəni yaymaq uğrunda canlarını qurban vermiş polineziyalı pastorlar və müəllimlər də daxil olmaqla bir çoxunun xatirəsini əbədiləşdirmək üçün Eromanqada Şəhidlər Kilsəsi inşa edildi.

Məndə sülhünüz olsun deyə
bunları sizə söylədim. Dünyada
əziyyətiniz var, amma cəsarətli
olun! Mən dünyaya qalib gəldim.

**Yəhya 16:33**

# Endryu Kim De Qon

(1820–1846)

Kim De Qon ilk koreyalı katolik keşiş idi. Adət-ənənələrə təsir edən xarici müdaxilələrdən Koreyanı təmizləmək üçün təqiblər başladı. Kim bu təqiblər dalğasında həyatını itirdi.

Valideynləri məsihçi olan Endryu Kim De Qon on beş yaşında vəftiz edildi. Koreya kilsəsində işləmək qərarına gələn bu oğlan Çinin Makao şəhərindəki seminariyada oxumaq üçün 2000 kilometr yol qət etdi və Şanxayda keşişlik rütbəsi qazandı. O, 1845-ci ildə gizlicə yenidən Koreyaya qayıtdı.

Doqquz aydan sonra Endryu tutuldu, üç ay həbsxanada saxlanıldı və sonra Seul yaxınlığındakı Han çayı sahilində boynu vuruldu. Onun atası da illər əvvəl şəhid olmuşdu.

Gənc keşiş edam olunmasını gözləyərkən öz kilsəsinə bu məktubu göndərdi:

> “Əziz bacı və qardaşlarım, bunu bilin: Rəbbimiz İsa Məsih dünyamıza gələndə saysız-hesabsız əzablar çəkdi və iztirabları ilə Müqəddəs Kilsəsini tikdi... Sizin imanda addımlamağınız üçün dua edirəm ki, cənnətə daxil olanda bir-birimizi salamlaya bilək. Sevgi öpüşümü sizlər üçün qoyub gedirəm”.

---

“Sevgi öpüşümü sizlər üçün qoyub gedirəm”.

**— Endryu Kim De Qon**

---



*Allen Qardiner Tierra del Fueqoda (Odlu Torpaq arxipelaqı) ac saxlanılaraq öldürüldü.*

# Allen Qardiner

## (1794–1851)

Anası bilirdi ki, cavan Alleni heç kim dayandıra bilməz. O, həmişə dənizlərdə macəralar barədə düşünürdü. Ancaq bu işlər üçün on dörd yaşlı oğlan çox gənc görünürdü. Anası dualarına baxmayaraq oğlunun qəlbinin Allahdan döndüyünü bilirdi.

Allen hələ yeniyetmə ikən evdən çıxıb getdi, amma ürəyində səyahət etmək üçün böyük arzusu olan bu oğlan Portsmutda Britaniyanın Dənizçilik Kollecini uğurla bitirdi. Sonra bu gənc Çinə və Cənubi Amerikaya aparan uzun müddətli bir karyeraya başladı.

Bu səyahətlər zamanı Allen Qardiner tədqiqatlar aparıb üç şeyi kəşf etdi. Birincisi, ilahi varlığı buddizm yolu ilə axtarmaq cəhdi mənasız idi. İkincisi, Allah onu həqiqətən də sevirdi. Üçüncüsü, o, Kral Donanmasında gəmi kapitanından dünyanın ən ucqar tayfaları üçün müjdəçiyə çevriləcəkdi. Gənclik enerjisi ilə dolu olan Qardiner heç bir müjdəçinin uğur qazanmadığı yerlərə Allahın kəlamını çatdırmaq üçün yola çıxdı.

1838-ci ildə Allen qatır belində And dağlarını keçərək Müjdəni eşidə biləcək insanları axtardı. Nəticəsi? Heç kim imana gəlmədi. O, cənubi Afrikadakı zulu xalqına Müjdəni bölüşmək üçün ora getdi (burada o, Durban şəhərini saldı). Sonra İndoneziyaya səyahətə yola düşdü, ancaq düşmən olaraq rədd edildi.

1850-ci ildə Qardiner diqqətini Pataqoniyanın yaqan xalqına yönəltdi. Çarlz Darvin bu xalqın nə vaxtsa mədəni olmayacağını söyləmiş və onları vəhşi qəbilə qrupu adlandırmışdı. Qardiner öz heyətinə qoşulmaq üçün bir həkim, bir müjdəçi və korn etnik qrupundan olan dörd cəsarətli dənizçi götürdü. İyirmi ay yaqan xalqı ilə ünsiyyət qurmağa çalışdılar. Ancaq yaqanlar onları sahillərindən qovdular, bütün ərzaqlarını oğurladılar və gəmilərini uçurulmuş bir halda qoyub getdilər. Qardinerin gəmi heyəti Tierra del Fueqodan (Odlu Torpaq axipelaqı) kənarda, Pikton Adasındakı İspan Limanında qışı qarşıladı. Onlar sinqa xəstəliyindən və aclıqdan öldülər. Nəticədə, yaqanlar ilə heç bir ünsiyyət qura bilmədilər və heç kim imana gəlmədi.

Həmin heyətdən sonuncu ölən şəxs Allen idi və gündəliyində sonuncu qeydləri özü yazmışdı. Onun belə vəziyyətdə ruh düşkünlüyündə olduğunu güman etmək olardı. Ancaq Allen sona qədər növbəti səyahətini düşünmüşdü. Öz gündəliyində xahiş edirdi ki, "Pataqoniya Müjdəçilik Cəmiyyəti"nin adı dəyişilib "Cənubi Amerika Müjdəçilik Cəmiyyəti" adlansın. Elə də oldu. Bir də istəyirdi ki, bu xalqlara Müjdəni çatdırmaq üçün Britaniyadan məsihçilər gəlsin. Onlar gəldilər və daha çox müjdəçi orada öldü. Bir yaqanın imana gəlməsinə qədər ümumilikdə, on dörd müjdəçi həyatını qurban verdi.

Hər ikisi üçün yemək axtaran Con Meydmentin ölümündən sonra Qardiner tükənən son gücü ilə yazdı:

> "Rəbb, təvazökarlıqla sənin ayaqlarına düşürəm. Əlimdəki hər şeyi, Sənin sevginin tələb etdiyi hər şeyi Sənə verirəm. Bu sınaq vaxtında mənim qayğıma qal. Qoyma məndə şikayətçi düşüncələri olsun. Mənə həyat verən gücünü hiss etdir və mən səni izzətləndirməyi öyrənəcəyəm... Mən günahkara ecazkar lütf və məhəbbət göstər".

Qardiner 1851-ci ilin avqust ayında əlli yeddi yaşında *Spidvell* adlı gəmisinin yanında aclıqdan öldü. İngilis gəmisi *Dido* 1852-ci ilin yanvarında onun düşərgəsini aşkar etdi. Anqlikan kilsələr bu müqəddəsləri və iman qəhrəmanlarını xatırlayaraq sentyabrın 6-nı Allen Qardiner Günü kimi qeyd edirlər.

# Con Matzukkoni

## (1826–1855)

XIX əsrin əvvəllərində Sakit okeanın cənub ərazilərinə səyahət edən müjdəçilər vidalaşarkən geri qayıtmayacaqlarını yaxşı bilirdilər. Gəmi ilə uzun səyahət, adaların şübhəli sakinləri və tropik xəstəliklər təhlükə üçün mühit yaradırdı. Ata Matzukkoninin vidalaşmasına başqa bir yük də əlavə olundu. Atası onun evdə qalmasını və doğma Milan şəhərinin yaxınlığında xidmət etməsini xahiş etdi. Qoca atası artıq üç uşağını körpə vaxtında itirmişdi. Qalan altı övladı isə dini həyata qədəm qoymuşdu. Niyə Con Allaha xidmət etmək üçün bu qədər uzağa getməli idi?

Ancaq Con atası Cakomonu inandırdı ki, risk mükafatla müqayisə olunmaz. Matzukkoni indiki Papua-Yeni Qvineyanın ətrafındakı ucqar adalara Müjdəni çatdırmaq arzusunda idi. Ora qərbdən çox az müjdəçi getmək istəyərdi. Con düşünürdü ki, Allahın seçilmiş xidmətçiləri Müjdəni onlara bölüşməsə, ada sakinləri cənnətə gedən yolu necə tapacaqlar?

Con 1850-ci ildə yaradılan Papanın Xarici Xidmətlər üzrə İnstitutunu bitirdi. O, başqa dörd keşiş və iki qardaşla birlikdə səyahət edəcəkdi. Yeddi il əvvəl on üç keşiş və qardaşlar Melaneziyaya yola düşmüşdü. Malyariya xəstəliyi ilə üzləşən həmin birinci qrupu ada sakinləri döyüb kötəkləmişdi. Con indi ikinci qrupla ora getmək istəyirdi. Qoy Allahın iradəsi yerinə yetsin. Nəhayət, atası razı oldu.

1852-ci ilin yayında yeni müjdəçilər Sidneyə, daha sonra Ruk adasına gəldilər. Con orada ilk gecəsində malyariya xəstəliyinə tutuldu. Tezliklə Rukdakı bütün müjdəçilər xəstələndilər.

1855-ci ilin martında malyariya ilk müjdəçilərdən birinin həyatına son qoydu. Görünür ki, Con ilk səfərdə bu xəstəlikdən sağalmışdı, amma sonra malyariyanın ən ağır forması onu yatağa salmışdı. Conun rəhbəri onun Sidneyə qayıtmasını əmr etmişdi və orada səhhəti yaxşılaşdıqdan sonra xidmət üçün təchizat almışdı.

Çox keçmədən yerli rəhbərlərin ailələrində ölüm hadisələri baş verdi. Ada sakinləri bunun səbəbi kimi ağ dərili adamların onların “ruhlarını” qəzəbləndirdiyini düşündülər. Müjdəçilərdən canlarını qurtarmaq üçün onları

adadan qovdular. Bu vaxt Con Sidneydən gəmi ilə ora qayıdırdı. Yəqin ki, onun gəmisi qaçıb gedən yoldaşlarının gəmisinin yanından ötüb keçmişdi.

Beləliklə, 1855-ci ilin sentyabrın 25-də müjdəçiləri sevməyən bir adamın rəhbərliyi ilə yerli sakinlərin bir dəstəsi Vudlark Körfəzində *Qazelle* gəmisinin qarşısına çıxdı. Onlara yol göstərmək və yüklərini boşaltmaq üçün köməklərini təklif etdilər. Dəstənin adamları paltarlarının altında bıçaq və baltalar gizlətmişdilər. Qara libaslı Matzukkoni onların ilk hədəfi oldu. Bir balta zərbəsi ilə onun baş sümüyü parçalandı. Bütün gəmi heyətinin aqibəti acı sonluqla bitdi.

Ada sakinlərinin bu hərəkəti Cənubi Sakit Okeanda Müjdənin çatdırılmasına mane oldumu? Əlbəttə. Milanda bir ata kədərləndimi? Bəli. Ancaq bu gün Papua-Yeni Qvineya əhalisinin üçdə ikisi məsihçidir. Con Matzukkoni müjdəçilik səyahətinə yola düşməzdən əvvəl jurnalında yazarkən bu xeyir-duanı xəyalına belə gətirmirdi:

> “Sabah yola düşəcəyim səyahətdə Allahın mənim üçün nə hazırladığını bilmirəm. Yalnız bir şeyi bilirəm — əgər O yaxşıdırsa və məni hədsiz sevirsə, qalan hər şey, sakitlik və ya fırtına, təhlükə və ya əmin-amanlıq, həyat və ya ölüm əbədi sevginin sadəcə ötüb-keçən ifadələridir”.

# Teofan Venar

## (1829–1861)

Gənc fransız oğlan evinin yaxınlığındakı bir yamacda atasının keçilərinin otlamasını seyr edirdi. O, küləyin ağacları, otları titrətdiyini və buludların topalaşıb hərəkətə gəldiyini izləyirdi. Bu gənc "İman barədə Baxışın İnkişafı" adlı müjdəçi jurnalından bir il əvvəl uzaq Tonkində (Vyetnam) şəhid olmuş fransız keşiş Korney Atanın hekayəsini oxuyurdu. Sonra elə həmin yamacda doqquz yaşlı Teofan öz-özünə belə demişdi: "Mən Tonkinə getmək istəyirəm. Mən də şəhid olmaq istəyirəm".

Bu cür uşaqlıq arzuları çox nadir hallarda həyata keçirdi, lakin Teofan bunu səmimi qəlbdən demişdi və buna nail olmaq üçün oxumağa başladı. O həm də ailəsini, xüsusilə də atasını inandırmalı idi. Atası ilk övladını Fransadan çox uzaq bir yerə xidmətə göndərmək istəməzdi. Bunun üçün Teofan əvvəlcə Monmoriyondakı kiçik bir seminariyada, daha sonra Puatyedəki böyük bir seminariyada oxudu. Sonra fikrində qəti olduğunu ailəsinə bildirdi. 1851-ci ilin fevralın 27-də ailəsi ilə son şam yeməyində atasından ona xeyir-dua verməsini istədi. Qoca kişi göz yaşları içində astaca dedi: "Əziz oğlum, səni Rəbbə qurban verən atanın bu xeyir-duasını al. Ata, Oğul və Müqəddəs Ruh adı ilə sonsuza qədər xeyir-dualı ol".

Teofanın bədəni zəif olsa da, iradəsi və məqsədi güclü idi. O, əvvəlcə tif qızdırmasından, dəniz xəstəliyindən, daha sonra sətəlcəm və astmadan əziyyət çəkmişdi. Amma onun ətrafındakı insanlar bu gəncin daxilindəki böyük sevinci görürdülər. Teofan sevinc içində ailəsi və Fransa ilə sağollaşıb Honq Konq limanına, daha sonra Tonkinə yola düşdü.

Beləliklə, Tonkinin yamacdakı xəyalı gerçəkləşməyə başladı. Amma 1837-ci ildə Korney Atanın qarşılaşdığı həmin təhlükələr 1854-cü ildə hələ də müjdəçiləri gözləyirdi. Bəzi yerlərdə məsihçilər və fəaliyyət göstərən kilsələr olsa da, siyasi cəhətdən vəziyyət təhlükəli idi. 1859-cu ildə imperator Nquen-Zık-tonq qərara gəldi ki, "İsanın dini" və onunla əlaqəli olan insanlar aradan götürülməlidir. Onun fərmanına əsasən məsihçilər və onlara kömək edənlər öldürülməli, onlar barədə xəbər verənlər və satqınlar isə mükafatlandırılmalı idi. Teofan məsihçi dul qadının evində

gizləndi, amma qadının qohumu rəhbərliyə xəbər çatdırdı. 1860-ci ilin noyabrın 30-da onlar Teofanı tutub dar və qısa bir taxta qəfəsə saldılar.

Sonra istintaq və məhkəmə zamanı Teofan hətta imperatorun mühafizəçiləri arasında da pərəstişkarlar qazandı. Allahın mərhəməti sayəsində ona evə məktub yazmaq üçün kağız, bir az daha böyük bir qəfəs və ağcaqanad toru verildi. Hərdən kiminsə ona baş çəkməsi və kahinə gizli etiraf etməsi üçün də imkan yaradıldı.

Nəhayət, 1861-ci ilin fevralın 2-də Nquen Zık-tonq ölüm əmrini imzaladı. Teofanın həmin gün boynu vuruldu. Edam yerində cəllad onun niyə belə tez öldürülməsinin səbəbini soruşdu. Cəllad bilmirdi ki, bir neçə saniyədən sonra keşişin uşaqlıq arzusu həyata keçəcək, o, göylərdə sevimli anası və atası ilə görüşəcək və yer üzündəki xidməti sona yetəcək. Teofan öz yepiskopuna yazmışdı: “Ürəyim sakit bir gölə bənzəyir”. Beləliklə, yarı sərxoş cəllad ağır qılıncını yellədėrkən Teofan bakirə Məryəmin ilahisini oxudu.

# Corc və Ellen Qordon (1861)
# Ceyms Qordon (1872)

Cənubi Sakit Okeanının adalarına xidmətə gələnlər xəstəlikdən, adamyeyənlərdən və tənhalıqdan sağ çıxsalar da, sonralar həyatlarını Müjdə uğrunda qurban verdilər. Əfsanəvi kəşfiyyatçı Kapitan Kuk ada sakinlərinin nə qədər vəhşiləşdiyini və Müjdənin orada qəbul olunma ehtimalının az olduğunu qeyd etdi. Onun sözləri ən cəsarətli məsihçilərdə həvəs oyatdı. Beləliklə, onlar Müjdəni bölüşmək üçün Eromanqa adasına gəldilər.

İlk şəhid olan Uilyams və Harris neçə illər eromanqalıları satan, aldadan və istismar edən ağ dərili qul alverçilərinə qarşı intiqamın qurbanı oldular. Bu iki məsihçi kilsə tikməyə gəlmişdi və onların qətli yerli rəhbərləri razı salmışdı. Lakin onların ölümü qonşu adalardan qırxa yaxın yerli məsihçini ora gəlməyə ruhlandırmışdı. Qəhvəyi dərili məsihçilər ümid edirdilər ki, ağ dərili məsihçilərdən fəqli olaraq onlar nifrətlə qarşılanmazlar. Ancaq bu insanların əksəriyyəti ya acından ölmüş, ya da qətlə yetirilmişdi.

Sonra bir kanadalı dilçi və həkim Corc Qordon həyat yoldaşı Ellen ilə 1857-ci ildə Eromanqaya yola düşdülər. Onlar gəmidən sahilə çıxmaq üçün yolda adanın dörd dilində bacardıqları qədər sadə ifadələr və salamlaşmaları öyrəndilər. Dörd il ərzində onlar Eromanqada qalıb Müqəddəs Kəlamı öyrətdilər və xəstələrə qulluq etdilər. Sonra 1861-ci ilin yazında qızılca xəstəliyi Qordonun himayəsində olan iki uşağın — qəbilə başçısının iki övladının həyatına son qoydu. Mayın 20-də Corc və Ellen toppuzla döyülərək öldürüldü.

Corcun kiçik qardaşı Ceyms Kanadada bu xəbəri eşidəndə qardaşının yerini tutmalı olduğunu hiss etdi. 1864-cü ildə o, Halifaksda ilahiyyat təhsilini bitirdi. Sonra qardaşı ilə arvadının xidmət etdiyi və həlak olduğu qəribə, ekzotik və xəyanətkar adaya yola düşdü. Ceyms Eromanqada bir kilsə tapdığına çox təəccübləndi.

Kiçik də olsa, Qordonların qətlindən üç il sonra Eromanqada bir kilsə yaradılmışdı. Beləliklə, Ceyms məsihçilər tərəfindən yaxşı qarşılandı. Subay və xidmətə böyük həvəsi olan Ceyms çox yerlərə gedib Müqəddəs

Kitabı adanın iki dilinə tərcümə etdi. Sonra adanın mədəniyyəti və tarixi barədə ətraflı məlumat vermək üçün Kanadaya qayıtdı.

On bir il ərzində Ceyms ağlını və ürəyini Eromanqa adasınının sakinlərinə həsr etdi. 1872-ci ilin martın 7-də o, Həvarilərin İşləri 7:60-cı ayəni, Stefanın sözlərini tərcümə edərkən naməlum səbəblərdən bir daş baltanın zərbəsi ilə öldürüldü: "Ya Rəbb, bunu onlara günah sayma".

Səkkiz il sonra Dillar Körfəzindəki bir kilsə binasına Şəhid Kilsəsi adı verildi. Əsrin sonunda adanın hər iyirmi sakinindən on doqquzu məsihçi olduğunu bildirdi. Kapitan Kuk Allahın Müjdəsinin Cənubi Sakit Okeanın adalarında kök salması və böyüməsi gücünü səhv hesablamışdı.

İman olmadan Allahı razı salmaq qeyri-mümkündür. Çünki Allaha yaxınlaşan şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir.

**İbranilərə 11:6**

# Con Klayn

(1797–1864)

Amerika Vətəndaş Müharibəsi ailələri parçalamağa və fermerlərdən əsgər hazırlamağa başladı. Klayn Qardaş həyatda öz rolunu barışdırıcı, şəfa verən, sülh yaradan və pastor kimi gördü. O, cəbhə xətlərini keçərək həm şimal, həm də cənub ordusunun əsgərlərinə tibbi yardım göstərir və pastor məsləhəti verirdi. Zorakılığa qarşı vəz edən sülhsevər insanın xidməti Sülh Hökmdarının sözünü yaymaq, eləcə də ağrıya və itkiyə qarşı məlhəm olmaq idi. Nəhayət, iyirmi doqquz il at üstündə səyyar xidmət etdikdən və Amerikanın ən amansız münaqişəsi zamanı dörd il çalışdıqdan sonra güllələr onun həyatına son qoydu.

Con Klayn 1797-ci ildə Pensilvaniya ştatının Dofen əyalətində anadan olmuşdu. O, alman baptist qardaşlığı, "sadə insanlar" tərəfindən imanda böyümüşdü. Bu qardaşlar Reformasiyada ümumi mirası bölüşdükləri amiş və mennonitlər kimi idilər.

1811-ci ildə Klaynın ailəsi onun on dörd yaşı olanda Virciniya ştatına köçdü. Bu da onu yetkin yaşında çətin qərarlar verməyə hazırladı. O, ittifaq və köləlik arasında seçim etməli və müharibə zamanı imanın nə tələb etdiyini bilməli idi.

1827-ci ildə Linvil Krik icması tərəfindən dyakonluq işi üçün seçilən Klayn 1830-cu ildə vaizlik xidmətinə təyin edildi. Qardaşlıq məzhəbindən olanlar adətən kilsə tikmirdilər, onlar əkin sahələri boyunca tikilmiş evlərində görüşürdülər. Beləliklə, Klaynın atı onun gündəlik yoldaşı oldu. O, at belində təxminən 160.000 km-dən çox məsafə qət edərək bölgədəki Qardaşlıq icmalarına Kəlamdan öyrədir və ilkin tibbi yardım göstərirdi. Klayn hər gün səyahətlərini və qeydlərini kiçik bir gündəlikdə yazırdı. Bu, ölümündən illər sonra qeyri-adi tarixi hesabat kimi nəşr olundu.

Klayn Qardaşlıq icmasında rəhbərliyə yüksəldi. Vətəndaş müharibəsi illərində o, illik iclasa sədrlik etdi. Məsihçi icmalarının şimal və cənub arasında bölündüyü bir vaxtda o, qardaşlıq icmasını həmrəylikdə saxladı. Klayn həm də qardaşlıq icmalarının əsas doktrinası olan sülhsevərliyi bir daha təsdiqlədi. 1864-cü ildə keçirilən illik iclasın hesabatında onun bu

sözləri yer alır: "Biz qardaşlıqda olan məsihçiləri imanda möhkəm olmağa çağırırıq. Belə vaxtlar bizdən tələb edir ki, bütün qaydaları, xüsusən də müqavimət göstərməmək qaydasını, Sülh Hökmdarının əsas prinsipini ciddi şəkildə yerinə yetirək... və müharibəni heç bir şəkildə təşviq etməyək".

Klayn millətin mübarizəsinə biganə qalmadı və köləliyə qarşı çıxaraq Məsihin Müjdəsinə uyğun tərzdə insanları öyrətdi. Evinin yaxınlığında keçirilən Qrantın Səhra Əməliyyatı zamanı o, tibbi yardım və mənəvi dəstək göstərmək üçün hər iki tərəfin komandirlərindən icazə aldı. Pastorluq işlərini görüb evə qayıdarkən bir gecə evinin yaxınlığında pusquya düşdü. Güllələnmiş cəsədi ertəsi gün tapıldı. Məlumatlara əsasən deyilir ki, Klaynın köləliyə qarşı baxışları cənubda köləliyin tərəfdarlarının xoşuna gəlməmişdi. Bir neçə ay sonra Şenandoa Vadisi boyunca Şeridanın məşəllə yandırma kampaniyası keçirildi və Klayının qonşuları olan Qardaşlıq icmaları təsərrüfatlarını və evlərini itirdilər.

Con Klayn üçün Allaha etibar etmək imanı sınaqdan keçirən çətinliklərə dözmək idi. Klayn 45-ci Zəburdan sitat gətirərək demişdi: "Qanunsuzluq indiki dövrdə hökm sürsə də, Allah pisliyə nifrət edir. Allah dünyada edilən haqsızlıq və şər əməllərlə razılaşmır. Biz onlardan xilas oluruq".

# Robert Tomas

(1839–1865)

1865-ci ilin sentyabrında amerikalı sahibkar və uelsli müjdəçi Müqəddəs Kitablar ilə təchiz olunaraq Asiyaya yollanmışdı. Amma gəmidə olan insanlar müjdəçi-tərcüməçi Robert Tomas da daxil olmaqla hamısı həlak oldu. O, Koreyada xidmət edib şəhid olan ilk protestant idi.

Robert Tomas 1839-cu ildə Uelsdə müstəqil kilsə xidmətçisinin ailəsində göz açmışdı. O, London Universitetində təhsil aldıqdan sonra həyat yoldaşı Karolin ilə "London Müjdəçi Cəmiyyəti" tərəfindən Asiyaya göndərildi. Beş ay davam edən səyahət gənc müjdəçiləri Şanxaya gətirib çıxardı və burada Robert tez bir zamanda mandarin dilini öyrəndi. O, Pekində məktəb müəllimi təyin edildi. Ancaq həmin vaxtlar Robertin arzusu təcrid olunmuş dövlətə, Koreyaya Müjdəni bölüşmək idi.

Nəhayət, Robert ora bir yol tapdı. 1864-cü ildə və ya 1865-ci ilin əvvəlində o, Koreyaya gizlicə daxil ola bildi. Camaata paylamaq üçün Robert çin tanışlarından koreya dilində Müqəddəs Kitablar toplamışdı. O, "Şotlandiya Milli Müqəddəs Kitab Cəmiyyəti"nin göndərdiyi çin dilində Müqəddəs Kitabları da özü ilə götürmüşdü. Müjdəçi orada dörd ay qalıb gizlicə vəz edərək səyahət etdi. Bir il əvvəl Koreya kralı məsihçilərə qarşı çıxaraq ölkəni "xarici dinlərdən" təmizləmək üçün 8000-ə yaxın Roma katolikini öldürmüşdü. Robertin uğurları ona sevinc gətirdi, lakin arvadı Karolinin qəfildən xəstələnərək ölməsi isə onu kədərləndirdi.

1865-ci ilin yayında amerikalı sahibkar V. B. Preston ingilis firmasının köməyi ilə Pxenyanda ticarət əlaqələri qurmaq üçün ora yola düşdü. Onlar Amerikanın hərbi dəniz donanmasının keçmiş gəmisini *General Şerman* adlandıraraq səyahət üçün təchiz etdilər. Tomas gəmi heyəti üçün tərcüməçi olacaqdı. O, bu ciddi nəzarət altında olan dövlətə ikinci səfəri üçün Müqəddəs Kitabları topladı.

Koreya rəhbərliyi gəmiyə geri dönmək əmri verdi, amma sahibkar Preston gəmi kapitanına təzyiq göstərdi. Onu məcbur etdi ki, bu əmrə məhəl qoymasın və irəli getsin. *General Şerman* gəmisi tündxasiyyət Li Ha Ina birbaşa təhlükə kimi göründü. O düşündü ki, katoliklər öz

xidmətlərini yenidən Koreyada bərpa etmək istəyir. Beləliklə, gəmi heyətini öldürmək orduya əmr olundu.

Qumlu dayaz yerə ilişib qalan *General Şerman* gəmisinin top və tüfəngləri olsa da, çay kənarında toplanan koreyalıların daha çox üstünlüyü var idi. Kapitan Peyc hətta danışıqlar aparan koreyalılardan birini girov götürdü, lakin nəticəsi olmadı. İki həftə davam edən atışmadan sonra Koreya qoşunları Amerika gəmisinə qarşı yanan sallar göndərdi. Gəmi heyətinin üzvləri alovla mübarizə apardılar, ancaq onun qarşısını ala bilmədilər və özlərini suya ataraq koreyalıların qılınclarına tuş gəldilər. Bəzi məlumatlara əsasən deyilir ki, Tomas Müqəddəs Kitablar ilə sahilə gəlib çıxıbmış və onu öldürən əsgərə kitab təklif edibmiş.

*General Şerman* gəmisi çayda batdı, yalnız onun dəmir gövdəsi və lövbərləri qaldı. Toması öldürən adam həqiqətən ona təklif olunan Müqəddəs Kitabı götürdü və evi üçün divar kağızı kimi istifadə etdi. Evə gələn qonaqlar divara yapışdırılmış vərəqlərdəki yazıları oxudular. Həmin əsgərin qardaşı oğlu Məsihi qəbul edib pastor oldu.

Bu gün Cənubi Koreyanın 40%-i məsihçidir. Lakin Pxenyandakı kilsə haqqında az məlumat var. Şimali Koreya Robert Tomasın dövründə olduğu kimi təcrid olunmuş və kütləvi ibadət üçün qapalıdır. Ancaq bu da dəyişəcək. Onda Pxenyan şəhidlərinin hekayələrini ilk dəfə eşidəcəyik. Tomasın fədakarlığı — Müqəddəs Kitabı təqdim etmək üçün sahildə diz çökməsi — böyük minnətdarlıqla xatırlanan və yadda saxlanılan iman hekayələri arasında olacaq.

# Cast de Bretenires

## (1838–1866)

Hələ yeniyetmə yaşlarında Cast uzaq ölkələr və Allaha xidmət barədə arzu edirdi. O, Fransanın Burqundi rayonunda fədakar bir katolik ailəsində anadan olmuşdu. Altı yaşlı Cast bir dəfə özündən kiçik qardaşı ilə torpaqda oyuqlar qazaraq oynayırdı. Birdən Cast qışdırdı: "Sakit olun, mən çin xalqından olan adamların səsini eşidirəm və onları görürəm. Bu insanlar məni çağırırlar. Mən onları xilas etmək üçün getməliyəm". Cast bu hadisəni heç vaxt unutmadı və imanda böyüdükcə hiss etdi ki, əcnəbi insanlara Allahın xilasını çatdırmaq üçün öz həyatını verməlidir.

Hələ iyirmi yaşı tamam olmamış Cast Parisdə yerləşən kiçik seminariyada, sonra isə Xarici Xidmətlər Seminariyasında oxudu. Bəlkə də Castı bura gətirib çıxaran onun uşaqlıq arzuları idi. Amma onun xəyalları hələ inkişaf etməli, güclənməli və püxtələşməli idi. 1861-ci ildə o öz valideynlərinə belə yazdı: "Mən hiss edirəm ki, gedəcəyim yol həddindən artıq kələ-kötür və çətin bir yoldur. Bu yolda maneələr, əzablar və təhlükələrlə üzləşəcəyimi bilirəm. Amma özümü tamamilə Allahın əllərinə verirəm".

Seminariyanı bitirən məzunlara haraya göndəriləcəkləri heç vaxt deyilmirdi. Keşiş verilən tapşırığı qəbul edib qaydaları yerinə yetirməli idi. Cast bilirdi ki, xarici ölkəyə xidmətə gedənlər üçün adətən "bir tərəfli" bilet alınırdı və onları çox yerlərdə pis qarşılayırdılar. O, Koreyaya gedəcəyini eşidəndə Allahın çağırışı ilə macəra sevən gənclik hissləri üst-üstə düşdü. Cast bu sözləri yazdı: "Mən inanıram ki, Rəbbimiz mənə ən yaxşı payı verib. Koreya şəhidlər torpağıdır".

Cast de Bretenires 1864-cü il iyulun 19-da Marseldən gəmi ilə yola düşdü. 1865-ci il mayın 29-da sahilə çıxaraq gizlicə paytaxt Seul şəhərinə daxil oldu. Həmin vaxtlarda Koreyada hakimiyyət kilsələrə qarşı mübarizə apardığını elan etmişdi.

Cast dili və mədəniyyəti öyrənib məxfi işləməyə başladı. Əsasən gecələr fəaliyyət göstərərək o, məsihçilərin etiraflarını dinlədi, nikahlara xeyir-dua verdi və dəfn mərasimlərini həyata keçirdi. 1866-cı ilin fevral



*Cast Koreyada işgəncələrə məruz qaldı və sonra boynu vuruldu.*

ayında bu fransız keşiş qırxa yaxın yeni məsihçini vəftiz etdi. Sonra yepiskopun qulluqçuları onu və yepsikopu ələ verdi. Cast katolik ibadəti keçirən zaman həbs olundu və ciddi cinayətin rəmzi olaraq əl-qolu qırmızı iplə bağlanmış halda məhkəməyə gətirildi.

Həmin dövrdə hakimiyyət ölkəni əcnəbi təsirlərdən təmizləməyi qərara almışdı. Castın kahin və müjdəçi olması cinayət hesab olunurdu. O özünü müdafiə edərək dedi: "Mən Koreyaya qəlbləri xilas etmək üçün gəlmişəm". Bu sözlərlə keşiş sanki öz təqsirini təsdiqlədi və bu da məhkəmənin tez qərar çıxarmasına imkan yaratdı. İki həftə keçirilən məhkəmələrdən və gündəlik işgəncələrdən sonra Cast, onun yepiskopu və başqaları qumlu sahilə aparıldı. Onları stullara bağlamışdılar, çünki piyada getməyə gücləri yox idi.

Keşişlər edam yerinə gəlib çatanadək Məsihdən danışdı. Məhbusları qollarının altından keçirilmiş payalarla tutaraq camaat qarşısına gətirdilər. Sonra edam edənlər qılınclarını oynadaraq ölüm rəqsləri ifa etdilər. Məhkum olunmuşların paltarları çıxarıldı və diz çökməyə məcbur edildi. Sonra havada oynayan qılınclar sürətlə aşağı endi və məhbusların boynu vuruldu. Castın cəmi iyirmi səkkiz yaşı var idi.

Bu xəbəri eşidəndə Castın atası ağladı, anası isə gözlərini göylərə qaldırdı. Uşaqlıqda Allahdan müjdəçiliyə çağırışını eşidən oğlanın həyatı bir kişi, keşiş və şəhid kimi sona çatdı.



*Con Petteson balta ilə vurularaq qətlə yetirildi.*

# Con Kolric Patteson

(1827–1871)

Con Patteson müjdəçi olmağın təhlükəli bir iş olduğunu bilirdi. O başa düşürdü ki, Allaha etibar etmədən heç nə əldə etmək olmaz. Patteson ədaləti və planlaşdırmağı sevən bir vaiz və müjdəçi idi. Con Melaneziyada kilsə və məktəblərin açılması üçün sona qədər çalışdı. Lakin Nukapu adasının sakinləri onu qəddarcasına öldürdülər. Bununla da yerli adamlar onları oğurlayıb qul edən ağ dərili insanlardan qisas aldıqlarını düşündülər.

Oksfordda İton və Balliol kolleclərində təhsil almış Patteson 1853-cü ildə keşişliyə təyin olundu. Onun İton kollecindəki müəllimi Corc Selvin Yeni Zelandiyanın ilk yepiskopu oldu və Pattesonu Cənubi Sakit okeanın adalarında müjdəçilik işinə həvəsləndirdi. Con Petteson 1855-ci ildən ölümünə qədər Melaneziya adalarına *Cənubi Çarmıx* adlanan gəmi ilə səhayət edib öz şəxsi maliyyəsi hesabına məktəblər açdı. 1867-ci ildə o, Norfolk adasında Melaneziya Xidmətini təsis etdi və baş qərargahı orada yerləşdirdi. Burada iqlim şəraiti qış aylarında dərslər keçməyə və bütün il boyu əkinçilik etməyə imkan verirdi. Con səyahətlər edərkən iyirmi üç yerli dil öyrəndi və bu qrupdan olan dilləri daha aydın başa düşdükcə onların ilk qrammatikasını hazırladı. 1861-ci ildə Patteson Melaneziyanın ilk yepiskopu oldu.

Xəstəliklər, dəniz səyahətlərində təhlükələr və kəskin mədəniyyət fərqindən əlavə Petteson həm də qul alveri olan bir əyalətdə işləyirdi. Bu alver həm gəlirli, həm də qeyri-qanuni bir iş idi. Bəzi adaların sakinləri o qədər azalmışdı ki, artıq orada yaşamaq çox çətinləşmişdi. Qadınları və uşaqları oğurlayan ağ dərili adamlardan özlərini qorumaq üçün sakinlər sadə döyüş alətlərinə əl atırdılar. Petteson bu ərazilərdə tanınmış adam olsa da, qul alveri edən adamlara oxşar cəhəti ağ dərili olması idi.

O, ölümündən dörd gün əvvəl Nukapuya gedərkən yolda bu sözləri yazdı:

> “Allaha dua edirəm ki, əgər Onun iradəsi və təyin etdiyi vaxtdırsa, qoy Öz yolu ilə bu vəhşi, amma güclü ada sakinləri

arasında kiçik bir iş görməyim üçün imkan yaratsın. Mən burada baş vermiş zorakılıqlardan tam xəbərdaram... Özümüzü böyük təhlükə qarşısına qoyduğumuzu da bilirəm... Amma qorxu üçün bir səbəb görmürəm".

Sentyabrın 20-də o, Nukapuya tək ayaq basdı və toppuzla döyülüb öldürüldü. Onun cəsədini gəmiyə gətirəndə sinəsində beş balta kəsiyi aşkar edildi. Kəsiklərin sayı adadan oğurlanmış sakinlərin sayına uyğun idi. İngiltərə əhalisi onun ölüm xəbərini eşidəndə çox sarsıldı. Nəhayət, Parlament 1872 və 1875-ci illərdə insan oğurluğuna qarşı qanunlar qəbul etdi. Petteson ölümünə səbəb olmuş qul alveri qadağan olundu.

Pettesonun yetişdirdiyi melaneziyalı məsihçi öz müəlliminin xatirəsini bu xoş sözlərlə xatırladı: "O, Kəlamı öyrədərkən bizə öz həyatı ilə yaxşı nümunə oldu. Onun xasiyyəti və davranışı mömin insana xas idi. O, hər bir işi can-dildən görürdü. İstər ağ, istərsə də qara dərili insan olsun, hamını eyni cür sevirdi".

# Ceyms Haninqton

(1847–1885)

Kampalanın şəhər mərkəzinin qərbindəki bir təpədə, Uqandanın izdihamlı paytaxtında bürünc xaçı ilə aydın görünən günbəzli Namirembe kafedralı durur. Bu kafedral Uqandada yerləşən iki anqlikan kafedralından biridir. Anqlikan məzhəbi şərqi Afrikada ən güclü məsihçi hərəkatlarındandır. Kilsənin yanında kiçik bir qəbirstanlıq yerləşir və darvazadan içəridə yepiskop Haninqtonun məzarını işarə edən sadə başdaşı durur. Məzar daşında onun bu axırınıcı sözləri yazılıb: “Kabakaya[1]deyin ki, mən Uqanda uğrunda ölürəm”.

Ceyms İngiltərənin Sasseks qraflığının yaxınlığında Horstpirpoint şəhərində dünyaya göz açmışdı. O yaşına görə erkən inkişaf etmiş və macəra sevən bir uşaq idi. (Bir dəfə o uşaqlıqda dəcəllik edərək barıt partlatmaqla baş barmağını zədələmişdi.) Oksfordda təhsil aldıqdan sonra işləmiş, sonra isə Britaniya ordusuna qoşulmuşdu. Otuz üç yaşında olarkən Kilsə Mujdəçilik Birliyi Ceymsi Uqandaya göndərdi. O, şərqi Afrikaya gedən protestant müjdəçilərinin ilk səyahətinə rəhbərlik etməli idi. Amma o heç vaxt Uqandaya gedib çatmadı, çünki malyariya və dizenteriya xəstəlikləri onu geriyə, Londona dönməyə məcbur etdi.

1884-cü ildə o, Şərqi Ekvatorial Afrikanın ilk yepiskopu kimi oraya yollandı. Bu dəfə onun məqsədi Buqanda krallığına, iki il öncə britaniyalı tədqiqatçı Con Spikin kəşf etdiyi böyük Nil çayının qərb mənbəyinə getmək idi. Bu dəfə Haninqton uzun səfəri başa vura bilərdi. Lakin Buqanda kralına (Kabaka Mvanqa) şayiələr çataraq xəbərdarlıq olundu ki, şərqdən yaxınlaşan ağ dərili adamlardan ehtiyatlı olsun. Onlar taxt-tacı ələ keçirmək niyyətində olan təcavüzkarlardır.

İyulun axırında Cinca şəhəri yaxınlığında Haninqtonun səyahətinə son qoyuldu. Buqanda krallığının döyüşçüləri yepiskopu tutdular. Onlar ağ dərili adamları ələ keçirdikləri barədə Kampala şəhərinə xəbər göndərdilər. Haninqton iyulun 22-də öz gündəliyində yazmışdı:

---

[1] Buqanda monarxının titulu



*Ceyms Haninqton neçə ay həbsdə qaldıqdan sonra nizə ilə öldürüldü.*

"Aclıq, tənhalıq, xainlik və bir neçə başqa kabuslar ruh kimi başımızın üstündə dolaşır. Yalvarıram, bir anlıq olsa belə, mənim üçün dua edin. Siz əllərimi qaldırmalısınız, yoxsa onlar aşağı enər. Əgər bu yer üzündəki tariximin son fəslidirsə, onda bundan sonra səmavi tariximin ilk səhifəsi açılacaq — artıq heç bir təhqir, rüsvayçılıq və ya cəfəngiyyat deyil, Quzunun hüzurunda şirin söhbət olacaq".

Oktyabrın sonunda Kabakanın əmri gəldi: "Onu öldürün". Bu gün luqanda dilində "onu azad edin" və ya "onu öldürün" sözləri bir-birinə çox oxşar səslənir, amma 1885-ci ildə Haninqtonu həbsdə saxlayan döyüşçülər Kabakanı düzgün başa düşüb-düşmədikləri barədə narahat deyildilər. Oktyabrın 29-da Haninqton 30-cu Zəburu oxudu və öz gündəliyində məzmurun ona boyük qüvvət verdiyini qeyd etdi. Həmin gün onu nizə ilə öldürdülər.

Haninqtonun ölüm xəbərindən sonra İngiltərədən Uqandaya müjdəçilər axışıb gəlməyə başladı. Bir il ərzində kilsə böyüdü və Kabaka öz sarayına bir neçə cavan məsihçini işə götürdü. Kabaka yenə qan tökdükdən sonra (Namuqonqo şəhidləri barədə oxuyun) yepiskop Haninqtonu Afrikaya gətirən Rəbbə iman etdi. Bu gün Uqandanın hər yerində məsihçilər mövcuddur. Amma müharibədən əziyyət çəkmiş şimal vilayətlərində hələ də şəhidlik hekayəsi yazılır.

# Cozef Mukosa Balikuddembe

(1885)

Katolik və protestant müjdəçilər müasir Uqandaya Kabaka I Mutesanın (Buqanda kralı) hökm sürdüyü dövrdə gəldilər. Mutesa öz xalqına rəqabət aparan müjdəçi məzhəblərini, hətta islamı seçmək üçün azadlıq verdi. Özü isə adət-ənənəsinə axıra qədər sadiq qaldı. 1884-cü ildə o öz hakimiyyətini kiçik və daha az fərasətli oğlu II Mvanqaya verərək öldü.

Uqandadakı məsihçilik hərəkatı Afrikanın ənənəvi dinindən ciddi bir dönüş tələb edirdi. İmana gələnlərə yeni davranışlar (məsələn, çoxarvadlılıq qadağan edildi) və yeni sadiqlik (Allahı birinci yerə qoymaq) öyrədildi. Amma bunlar Kabakanın ənənəvi dini baxışlarına uyğun gəlmirdi. Mvanqa şahzadə olduğu müddətdə avropalıların imanına müəyyən bir heyranlıq göstərdi. Ancaq o, atasının taxt-tacına sahib olandan sonra onların təlimlərini təxribatçı hesab etdi.

Şübhəsiz ki, müjdəçilərin təlimi Mvanqanın ehtirasları üçün təxribatçı idi, çünki o, gənc kişi qulluqçuları ilə cinsi əxlaqsızlıq etmək istəyirdi. Amma Allaha sadiq olan məsihçilər bundan açıq şəkildə imtina etdilər. Buqanda xalqı arasında homoseksuallıq iyrənc hesab olunsa da, Kabakanın tabeçiliyində olanlar heç vaxt onun sözündən çıxmamışdı.

Mvanqa kral olduqdan bir il sonra öz həyatında ilk dəfə Buqanda şəhidlərini edam etdirdi. Yeddi il sonra anqlikan yepiskopu Ceyms Haninqton Buqanda krallığına yaxınlaşarkən Mvanqanın əmrinə əsasən nizə ilə öldürüldü.

Mvanqanın müşaviri, katolikliyi qəbul etmiş Cozef Mukosa Balikuddembe Haninqtonun öldürülməsi barədə kralın əmrini tənqid etdi. Mukosa bildirdi ki, adətən məhkum edilmiş bir insanın özünü müdafiə etməsinə imkan verilməlidir. Britaniyalı bu səyyah — titulu və tapşırığı olan nüfuzlu bir insan şayiələrin əsasında krallığın xaricində edam edilmişdi.

Mukosanın ikinci adı Balikuddembe, yəni “sülh adamı” adlanırdı. O, Kabakanın həyatdan ürəyi istədiyi kimi zövq alıb yaşamağını tənqid

etdi. Müşavir Cozef sarayda gənc məsihçiləri imanda ruhlandırır, onları düşmənlərə qarşı vicdanla hərəkət etməyə, nahaq yerə qan tökməməyə və Mvanqanın cinsi əxlaqsızlıqlarına qarşı durmağa çağırırdı. Mukosa on dörd yaşından bəri kral sarayında xidmətçi idi. O vaxtdan bəri sadiq bir qulluqçu olmasına baxmayaraq Cozefin imanı yeni kral üçün bir təhlükə yaradırdı.

Mukoza on beş yaşında vəftiz olunmuşdu və katolik müjdəçi idi. Onun müəllimləri Viktoriya gölünün cənub tərəfinə köçdükdə Mukosa digər katolik xidmətçi oğlanlara rəhbərlik və müəllimlik etdi. O, eyni zamanda, Mutesanın ən etibarlı köməkçisi idi.

Mvanqa taxt-taca sahib olduqdan sonra Mukosa müşavir təyin edildi və kralı yersiz davranışına görə danlamaq icazəsi ona verildi. O, kralın məsləhətçisi və tərbiyəçisi oldu. Bu vəzifədə hiylə işlətmək və həqiqəti deməkdən yayınmaq imkanı çox idi. Amma bu iş nə qədər təhlükəli olsa da, Mukosa öz imanı ilə onun öhdəsindən gəlirdi.

Haninqtonun ölümü və Mukosanın tənqidindən sonra Mvanqa xəstələndi. Mukoza ona bir dərman məsləhət gördü, yəqin ki, bu tiryək idi. Mvanqa tiryəkin əks təsirlərini hiss etdi və Mukosanı onu zəhərləmək cəhdində günahlandırdı.

1885-ci il oktyabrın sonunda Mukosa təxribat və xəyanət ittihamları ilə mühakimə olundu. O belə dedi: "Mən Allah üçün öləcəyəm". Yandırılmağa məhkum olunmuş Mukosa dirəyə bağlanmaqdan imtina etdi. "Niyə məni bağlayırsınız? Qaçacağımı düşünürsünüz? Allahdan hara qaçacağam?" Cozef noyabrın 15-də Nakasero təpələri yaxınlığında Nakivubo çayının sahilinə aparıldı. Edam edənlər Mukosanı çox sevdiklərindən alov qalanmazdan əvvəl onun boynunu vurdular. Ölümündən əvvəl Mukosa kralı və digər düşmənlərini bağışladı.

Mvanqanın dövründə gənc xidmətçilər də daxil olmaqla bir çox məsihçi şəhid oldu. Deyilənlərə əsasən Mvanqa həyatının sonrakı dövrlərində kilsə ilə barışdı, hətta öldürdüyü adamların imanını qəbul etdi.

"Bu dünyada bir çox fırtınalara düşdüm, amma tezliklə gəmim göylərdəki sahilə yan alacaq... İsa, Sənə inanıram".

**— Kembric Universitetinin hüquq professoru, "kafirliyə" görə həbs olunub yandırılan Tomas Bilninin son sözləri**

# Namuqonqo Şəhidləri

(1886)

Uqanda şəhidləri Kabakanın (Buqanda kralı) xidmətinə cəlb edilmiş gənc oğlanlar idilər. Onlar kral sarayında yaşayan katolik ataları və protestant müjdəçiləri vasitəsilə məsihçi imanını qəbul etmişdilər.

1875-ci ildə məşhur macəra sevən jurnalist Henri Morton Stenli *London Teleqrafında* yazaraq müjdəçilərin Uqandaya gəlməsini xahiş etdi. Bu, Kabaka I Mutesanın xahişi idi. 1877 və 1879-cu illərdə müjdəçilər Uqandaya gələndə ilk imana gətirdikləri insanlardan bəziləri kralın xidmətində olan bu gənclər idi. Onlar məsihçi imanını qəbul etdikdə Allahın ali hökmran olduğunu bildirdilər. Kabakanın bütün hakimiyyəti əlində saxladığı Buqanda krallığında belə sözlər xəyanət idi. Kral bu gənclərə qarşı homoseksual əxlaqsızlıq təklif etdikdə onlar bundan imtina etdilər. Bu cür itaətsizliyi kral öz hakimiyyəti üçün bir təhlükə kimi gördü.

Katolik və protestantları döydülər, sonra tezalışan yarpaqlara sıx bükərək tonqalın üstünə qoydular. On iki yaşından başlayaraq 45 nəfər Kampala yaxınlığındakı Namuqonqo adlı yerdə yandırıldı. Bir çoxları isə Buseqa, Nakivubo, Munyonyo, Lubova, Menqo, Köhnə Kampala, Mityana və Takayunqa qəsəbələrində qətlə yetirildi.

Bu şəhidlərdən biri edam edən şəxsin qardaşı oğlu idi. Neçə illər sonra həmin adam özü məsihçiliyi qəbul etdi. O, yalnız kralın əmrini yerinə yetirdiyini söyləyərək etdiyi hərəkətləri izah etməyə çalışdı. Yerli bir atalar sözündə deyilir: “Qarışqa yuvasındakı ana qarışqa elə öz qarışqalarını yeməklə qidalanır”. Kabaka Mvanqa bu imanlıları ona deyil, Allaha sadiq olduqlarına görə edam etdirdi.

Allah üçün canlarını qurban verən bu gənclərin xatirəsinə 1969-cu ildə edam olunduqları yerdə bir ziyarətgah tikildi. Bu gün bu tikinti Bazilikadır. Katoliklərin ərazisinin yaxınlığında bir protestant seminariyası yerləşir, orada alovla yandırılma səhnəsini təsvir edən heykəllər qoyulub və gənc imanın odla yandırılarkən sönmədiyini bildirir. Uqandada iyunun 3-ü milli bayram kimi qeyd olunur və hər il Namuqonqoda minlərlə adam buraya toplaşır.



*Bernard Mizeki Rodeziya (Zimbabvedə) nizə ilə öldürüldü.*

# Bernard Mizeki

## (1896)

Müjdəçilik bütpərəstlik olan yerlərdə həmişə qarşıdurmalar və zorakılıqla üzləşirdi. Belə ərazilərdə öz təhlükəsizliklərini qurban verən müqəddəslər bütpərəst ruhları rədd edir və Məsihin qanı vasitəsilə həmin yerləri Müjdə üçün tələb edərək Allahın gücünü göstərirdilər.

Bernard təxminən 1861-ci ildə Mamiyeri Mitseka Qvambe adı ilə Portuqaliyanın müstəmləkəsi olan Mozambikdə anadan olmuşdu. Yeniyetmə yaşına çatmamış iş və təhsil axtarmaq üçün o, cənubi Afrikanın Keyptaun şəhərinə yollanmışdı. Anqlikan məzhəbindən olan Müqəddəs Yəhya Cəmiyyətinin idarə etdiyi məktəbdə təhsil almışdı. 1886-cı ilin martında Mizeki Bernard adını qəbul edərək vəftiz olunmuşdu. Mizeki beş il tərcümələr edərək və digər xidmətlər göstərərək adi bir rəhbər kimi çalışmışdı. Sonra cənubi Rodeziyada (indiki Zimbabve) xidmət etmək üçün yepiskop Nayt-Qrinə qoşulmuşdu.

Növbəti bir neçə il ərzində Mizeki məktəblər açmaqda, tərcümələrə başlamaqda və ibadət aparmaqda yepiskopa kömək etdi. Dillərdə istedadlı olan Bernard şona dili ilə yanaşı bir neçə dil öyrəndi. 1891-ci ildə yepiskop Mizekini Nhomaya göndərdi. Manqvenda sülaləsinin başçısı bu kənddə yaşayırdı və o, Bernarda icazə verdi ki, müqəddəs ağaclar olan meşəliyin yanında xidmət üçün kompleks tiksin. Mizeki binanı tikmək üçün bu ağacların bəzilərini kəsdi və digərlərini çarmıx işarəsi ilə nişanlayaraq Məsihə məxsus olduğunu bəyan etdi. Bernardın bu müqəddəs ağaclara hörmət göstərməməsi yerli cadugər həkimləri qəzəbləndirdi.

Bernard yaxşı bilirdi ki, Afrikanın ənənəvi dininə müdaxilə etmək sanki əsəbi öküzə qırmızı bir parça yelləməkdir. Cadugər həkimlərin fikrincə, bu hərəkət təkcə insanları deyil, həm də onların inanclarına qarşı çıxaraq ruhları narahat edirdi. Bernard düşmənlə qarşılaşaraq ruhani döyüşə girişdi.

Bu müddət ərzində başqa bir döyüş yavaş-yavaş alovlanaraq 1896-cı ildə partladı. Müstəmləkə ağalarına qarşı yaranmış üsyan təhlükə yaratdığı üçün Şona ərazisindəki qərblilər cənubi Afrikada

özlərinə sığınacaq tapdılar. Ancaq Bernard həyatı ilə bağlı təhlükəyə baxmayaraq orada qaldı.

1896-cı ilin iyunun 18-də qapı bərkdən döyüldü və eşikdə olan düşmənlərin səsi eşidildi. Onlar Mizekini çölə çıxardılar və nizə ilə öldürdülər. Bernardın ilk övladına hamilə olan gənc arvadı yerdə uzanmış ağır yaralı, lakin hələ sağ olan ərinin yanına qaçdı. Sonra o, Mizekinin bədəninin üstündə parlaq bir işıq gördüyünü dedi. Amma qadın geri qayıdanda cəsəd orada yox idi. Onun qatilləri cəsədi gizlətmişdi? Yoxsa bir möcüzə baş vermişdi? Bernardın cəsədi heç vaxt tapılmadı, lakin öyrətdiyi iman həyatı şona sakinlərinin xatirəsində yaşadı.

Bu gün onun xatirəsini ucaldan bir abidənin yanında Bernard Mizeki Kolleci yerləşir. Pretoria, Botsvana, Keyptaun və Svazilenddəki kilsələr onun adını daşıyır. Ölümündən sonra doğulan qızına Masiva, yəni "atasız" adını qoydular, daha sonra o, Bernardina adı ilə vəftiz olundu.

Beləliklə, ey sevimli qardaşlarım, Rəbdə çəkdiyiniz zəhmətin boşa çıxmayacağını bilərək möhkəm durun, sarsılmayın, hər zaman Rəbbin işində səylə çalışın.

**1 Korinflilərə 15:58**

# Çində boksçu üsyanı
## (1900)

Avropa hakimiyyəti on il əvvəl Afrikanın böyük səhrasının cənubunda etdikləri kimi, Çini də ticarət bölgələrinə bölürdülər. 1898-ci ildə Amerika Birləşmiş Ştatları Filippini əldə edəndə prezident Mak-Kinli və dövlət katibi Con Hey Avropa planına alternativ olan "Açıq Qapı" adlı siyasət planını düşünüb hazırladı. Bu siyasət planına əsasən ABŞ bütün ticarət edən xalqların Çin bazarlarına rahat daxil olmasına zəmanət verirdi. Dul imperatriçə olan Tsısi bunu öz Tsin Mancur sülaləsi üçün açıq təhlükə kimi gördü. O, qeyri-rəsmi bir münasibət göstərərək bütün Çin əyalətlərinə belə bir xəbər göndərdi: "Müxtəlif dövlətlər bir-birini itələyərək daxili ərazilərimizi birinci ələ keçirmək üçün pələng kimi acgözlüklə üstümüzə atılıblar... Əgər milyonlarla xalqımız ... vətənə sadiqliyi və sevgisini göstərsə, onda heç bir işğalçıdan qorxumuz olmaz".

Quraqlıqdan əziyyət çəkən Şantun əyalətində "Saleh Həmrəyliyin Yumruqları" adlı gizli cəmiyyət minlərlə yeni üzvlər topladı. Cəmiyyətin üzvləri şərq döyüş növü ilə məşğul olduqları üçün əcnəbilər onları "Boksçular" adlandırdılar. Bu döyüşkən hərbi cəmiyyət üzvlərinə öyərdirdi ki, minlərlə ölmüş əsgərlərin "ruhu" dirilərək döyüşmək üçün onlara qoşulacaq.

İmperatriçə Tsısinin öz imperiyasında birlik yaratmaq təklifi Çini bütün "yad şeytanlar"dan qurtarmaq idi. Diplomatlar Pekindəki Yasaq şəhər (və ya Ququn imperator sarayı) adlanan saray kompleksinə qaçdılar. Başqa vilayətlərdə yaşayan müjdəçilərin qaçmaq üçün imkanları az idi. Bir çox arvadlar ərlərinin, uşaqlar isə analarının başının kəsildiyini gördülər. Boksçular katoliklərin, pravoslavların və protestantların, eləcə də onların uşaqlarının həyatlarına son qoydular. Pekindəki saray kompleksinə çatan diplomatların və digərlərinin artıq yemək və güllə ehtiyatları sona çatmaq üzrə idi. Amerika hərbi dəniz donanması və dənizçiləri onları xilas etmək üçün Şanxaydan döyüşərək gəlib ora çıxdılar.

İmperatriçə özünü bir kəndli kimi göstərərək şəhərdən qaçıb gizləndi. Bir il sonra geri qayıtdı, lakin o heç vaxt Tsin Mancur sülaləsinin hakimiyyətini bərpa edə bilmədi. İkinci Dünya Müharibəsində yaponlar

Çini işğal edənədək Con Heyin "Açıq Qapı" siyasəti Çin bazarını başqa ölkələr üçün açıq saxladı.

# İya Uanq

Pekindəki 1000 pravoslav məsihçidən təxminən 300 nəfərin həyatına son qoyuldu. 1900-cü ilin iyunun 11-də axşam küçələrin divarlarına məsihçiləri və onlara sığınacaq verənləri öldürmək barədə vərəqələr vuruldu. O gecə əllərində məşəl ilə boksçu dəstələri məsihçilərin evlərinə soxuldular və Məsihdən dönməyi onlardan tələb etdilər. Məsihə sadiq qalanların bağırsaqları çıxarıldı, sonra başları kəsildi və ya diri-diri yandırıldı. Bir pravoslav məktəbinin müəllimi İya Uanqı boksçular qılınclayıb dayaz bir qəbirdə basdırdılar. Ancaq onun iniltiləri yaxınlıqdakı terrorçuları ayıltdı. Boksçular qəbri qazıb onu çıxardılar və yenidən işgəncə verdilər. Uanqın ölümünə şahid olanlar bildirdilər ki, o, Məsihi iqrar edərək əbədiyyətə qovuşdu.

# Cənab Farsinq

İngilis baptist müjdəçisi olan Farsinqi evdən çıxardılar. Onun həyat yoldaşı ərini qucaqladı, amma o, arvadını özündən kənara çəkdi. Farsinq əsgərlərin qarşısında diz çökdü və bir qılıncla boynu vuruldu. Onun ardınca Hodl, Beynan, Lovit və Uilsonun hər birinin başı kəsildi. Sonra isə Stokes, Simpson və Uaythaus beləcə öldürüldü. Kişilər qətlə yetirildikdən sonra qadınları öldürməyə başladılar. Farsinqin arvadı balaca uşaqlarının əllərindən tutmaq istədi, lakin əsgərlər onları ayıraraq əvvəlcə ananın, sonra isə bütün uşaqların boyunlarını vurdular. Eynək taxmış Lovitin arvadı kiçik oğlunun əlindən tutmuşdu. Boksçu silahlı onun eynəyini dartıb çıxartdı və boynunu vuraraq öldürdü.

Bütün protestantları qətlə yetirdikdən sonra boksçular roma-katoliklərini öldürməyə başladılar. Yepiskop qubernatordan nəyə görə

bu qırğınları törətdiyini soruşdu. Məmur cavab vermədən qılıncını çəkib yepiskopun üzünü yardı. Onun ardınca keşişlər və rahibələr də öldürüldü. Çinlilər də daxil olmaqla qırx beş məsihçinin cəsədi həmin gecə küçədə saxlanıldı ki, camaat paltarlarını, üzüklərini və saatlarını qarət etsinlər.

# Con və Sara Yanq

Con və Sara Yanqa oradan qaçmaq barədə xəbər gələndə onlar on beş ay idi ki, evlənmişdilər. Cütlük canlarını xilas etmək üçün qaçan adamlara qoşuldular. Yolda Çin əsgərləri bu müjdəçilərlə rastlaşdı. Onlara təklif olundu ki, yad dinlərini təbliğ etməyi dayandırsalar, həyatları qorunacaq. Müjdəçilər bununla razılaşmadılar, çünki onlar Allahın Müjdəsini hamı ilə bölüşməyə çağırılmışdılar. Əsgərlər onları dərhal öldürdülər.

# Karl Landberq

Kiçik bir məsihçi qrupu və Müjdəçi İttifaqının xidmətçiləri Çinin ucqar şimal-qərbində öz işlərinə davam edirdilər. Lakin boksçuların hücüm xəbərini eşidəndə onlar Monqolustana qaçmağa cəhd etdilər. Quldurlar onları tutaraq paltarlarını və təchizatlarını oğurladılar. Onlar iki həftə ərzində bitki köklərini yeyərək sağ qaldılar və sonra bir neçə katolik keşiş onları xilas etmək üçün gəldi. Ancaq artıq çox gec idi. Boksçu ordusu onlara yaxınlaşmışdı. Müjdəçi Karl Landberq yazırdı:

> Çinə gəldiyim üçün peşman deyiləm. Rəbb məni çağırdı və mənim üçüm Onun lütfü yetər. Onun seçdiyi yol mənim üçün ən yaxşı yoldur. Xəttimə görə məni bağışlayın, çünki əlim titrəyir.

Boksçular onların hər birini öldürdülər.

# Horeys Treysi Pitkin

(1869–1900)

Amerikanın şərq sahilində yaşayan Horeys Pitkin kübar bir ailədə doğulmuşdu. Onun uzaq qohumu Konnektikutun müstəmləkə dövründə baş prokuror olmuşdu. Eləcə də o, Yel Universitetinin təsisçisi Eliaxu Yel ilə qohum idi. Pitkin Amerikanın Qızılı əsrində, 1892-ci ildə həmin universiteti bitirmişdi. Bu dövr həm də "güclü məsihçilik" dövrü hesab olunurdu, çünki imanlılar Müjdəni bütün dünyaya yayacaqlarını düşünürdülər.

Yel universitetinin məzunu Pitkin güclü, xarizmatik və istedadlı bir insan kimi bütün bu yaxşı xüsusiyyətlərini Çində sınaqdan keçirəcəkdi. Beləliklə, Horeys xarici xidmətlər üçün Yel universitetinin ilk "Tələbə Könüllülər Qrupu"nu təşkil etdi. Daha sonra o, Nyu-Yorkdakı İttifaq Seminariyasında təhsil alıb Letitia Tomas ilə evləndi. Sonra onlar gəmi ilə mərkəzi Çinin Xunan əyalətinə yollandılar.

Horeys təşkilatçı olsa da, təhlükələrə də göz yummurdu. O, Xunanda "Xarici Xidmətlər üçün Amerika Nümayəndələr Heyəti"nin məntəqəsinə rəhbərlik edirdi. Boksçuların təcavüzü barədə Pekindən xəbər çatan kimi, Pitkin həyat yoldaşını və övladını ABŞ-a geri göndərdi.

1900-cü ilin iyunun 30-da şənbə günü boksçular Baodin şəhərinin şimalındakı presviterian kompleksinə hücum etdilər. Müjdəçi cərrah Q.B. Teylor məsihçilərin xoş niyyətli olduqlarını bildirmək üçün onların qarşısına çıxdı. Onu dərhal öldürdülər və kəsilmiş başını nümayiş etdirmək üçün yaxınlıqdakı bir məbəddə qoydular. Qalan presviterian məsihçilər isə evlərdən birinin içərisində yandırıldı.

Şəhərin cənubuna xəbərlər sürətlə yayılsa da, Pitkin və orada işləyən iki qadın idarədən qaçıb çıxa bilmədi. Səhər saat 9-da boksçular "Xarici Xidmətlər üçün Amerika Nümayəndələr Heyəti"nin idarəsinə gəlib çıxdılar. Horeys digərlərini müdafiə etməyə çalışarkən qətlə yetirildi.

Yel universitetində dörd dost 1901-ci ildə bir müjdəçi cəmiyyəti yaratdılar (bu gün də həmin cəmiyyət mövcuddur). Onlar Pitkin və başqalarının şərəfinə Xunan əyalətində xəstəxana və məktəb açdılar. Bura həm də sonradan bu işlərin çoxunu ləğv edəcək bir adamın — başçı Maonun yaşadığı vilayət idi.

# Lizi Atvater

## (1900)

1900-cü ilin iyun ayında Çində müjdəçilərə və kilsələrə qarşı sərt millətçi hərəkatı 32 mindən çox insanın həyatına son qoydu. Ən dəhşətli qırğınlar Şansi bölgəsinin şimalında baş verdi. Hamilə Lizi altı nəfərlə birlikdə şəhid olmazdan əvvəl evinə unudulmaz bir məktub yazdı:

> "Əzizlərim, sizin doğma üzlərinizi görməyi arzulayıram, amma qorxuram ki, yer üzündə bir daha görüşməyək. Həyatımın sonuna çox sakit və rahat bir tərzdə hazırlaşıram. Rəbb olduqca yaxındır və məni tərk etməz. Yaşamaq imkanı var ikən çox narahat və həyəcanlı idim. Amma Allah bu hissi məndən götürdü və indi yalnız dəhşətli sonu cəsarətlə qarşılamaq üçün Ondan lütf diləyirəm. Ağrı tezliklə bitəcək və cənnətə qovuşmağın ləzzətini dadacağam! Balaca körpəm mənimlə gedəcək. Onu mənə Allah göylərdə verəcək və əziz anam bizi görməyə çox şad olacaq. Xilaskarın məni necə qarşılayacağını təsəvvürümə gətirə bilmirəm. Bu gərgin günləri o gözəl anlar əvəz edəcək. Əzizlərim, Allaha yaxınlaşın və bu dünyadan az yapışın. Allahdan gələn və ağlımızdan üstün olan sülhü əldə etməyimiz üçün başqa bir yol yoxdur. Bu saatlarda mən sakit və rahat qalmalıyam. Çinə gəldiyim üçün peşman deyiləm".

1900-cü ilin avqustun 15-də əsgərlər Lizi və digər on nəfəri yaxınlıqdakı şəhərdən uzağa apardılar və qılınc ilə öldürüb cəsədlərini çuxura atdılar.



*Ceyms Çalmers Papua-Yeni Qvineyada adamyeyənlər tərəfindən öldürüldü.*

# Ceyms Çalmers

## (1841–1901)

Bu inadkar şotlandiyalı oğlan dənizi sevirdi. O, Ardreşeq adlı balıqçı kəndində dünyaya göz açmışdı və dostları əsasən balıqçılar idi. Gənc Çalmersin xasiyyəti təlatümlü dəniz kimi çılğın görünürdü. O, dərindən nəfəs alaraq dənizin havasından ciyərlərinə doldurdu. Kükrəyən dalğalardan lap uzaqlarda yerləşən dünya barədə maraq onu bürüdü. Ceyms qəlbində Allahın müjdəçilik xidmətinə çağırışını hiss etdi. Sonralar Allahın xilasını heç vaxt eşitməmiş insanları axtarmaq üçün o, dənizdə təhlükəli günlər keçirəcəkdi.

Çalmers İrlandiyadan gəlmiş iki vaizin keçirdiyi müjdəçilik toplantısında Məsihə iman etmişdi. Həmin vaxt onun on səkkiz yaşı var idi. Əslində Çalmers dostları ilə toplantını dağıtmaq, imanlılara lağ etmək və dində sülh axtaran qorxaqları ələ salmaq üçün ora gəlmişdi. Lakin Çalmers vəzə diqqətlə qulas asdı. Toplantıda Vəhy kitabı 22:17-ci ayədən danışılırdı: “Ruh da, gəlin də deyir: ‘Gəl!’” Bu ayədəki çağırış Çalmersə təsir etdiyindən o, sevinclə İsaya ürəyini verdi. Sonra Ceyms imana gəlməyi barədə belə demişdi: “Mən susadım və gəldim”.

Bir neçə il sonra Ceyms pastor təhsili aldı və “London Müjdəçi Cəmiyyəti” onu Sakit okeanın adalarında xidmət etməyə göndərdi. Beləcə, Çalmers və həyat yoldaşı Ceyn Herkus Papua-Yeni Qvineyanın sahillərinə gəlib çatdılar. Gəmidən torpağa ayaq basanda qəfildən onları bədənləri rənglənmiş bir dəstə döyüşçü əhatəyə aldı. Bu qəribə ada sakinləri yeni “qonaqlar”dan hədiyyə və silah tələb etdilər.

Çalmers təhlükəni hiss edirdi, çünki o, dünyanın elə bir yerinə gəlmişdi ki, burada adam öldürmək üçün mükafat verilirdi. Döyüşçülər qələbə əlaməti olaraq əsir tutduqları insanların burnunu dişləyərək qoparırdı. Burada insan əti yemək adi hal idi. Bu təhlükələr kifayət deyilmiş kimi, sularda ilanlar və timsahlar da qaynaşırdı, eləcə də bütün ərazidə malyariya və qızdırma xəstəlikləri yayılmışdı.

“Bizə balta, bıçaq və muncuqlar verin, yoxsa sizi və sizinlə gələnləri öldürəcəyik,” — deyə daş toppuzu ilə hazır vəziyyətdə dayanmış başçı tələb etdi.

Çalmers ona cavab verdi: “Bizi hədələyən adamlara heç vaxt hədiyyə vermirik. Siz bizi öldürə bilərsiniz. Lakin unutmayın ki, biz sizə yalnız yaxşılıq etmək üçün gəlmişik”.

Döyüşçü dəstəsi sübh çağı qayıdacağını söyləyərək onları hədələyib çıxıb getdi. Papua-Yeni Qvineyaya gələn bu müjdəçilərin duası sağ qalıb insanlara həqiqəti bölüşmək idi. Amma həmin gecə dan yeri sökülənədək onlar yalnız sağ qalmaları üçün dua etdilər.

Çalmers qrupdan soruşdu: “Nə edək? Kişilər qalsın, qadınlarsa çıxıb getsin? Qayıq hamımız üçün çox kiçikdir”. Ceyn cavab verdi: “Biz buraya Müjdəni təbliğ etmək üçün gəlmişik və hamımız bir yerdə qalacağıq”. Müəllimlərin arvadları da razılaşdılar: “Biz ya birlikdə yaşayacağıq, ya da birlikdə öləcəyik”. Onlar dua etdilər və sonra yavaş-yavaş yuxuya getdilər. Çalmers həmin gecə gündəliyində yazdı: “Ruh və gəlin deyir: ‘Gəl!’ Biz Sənin çağırışınla bura gəlmişik. Bu miskin insanları təmizləyən, təravətləndirən və şəfa verən Bulağa (İsaya) tərəf yönəltmək istəyirik. Sənin tapşırığını yerinə yetirməyimiz üçün bizi qoru”. Allah onları həqiqətən də qorudu.

Ceyms və Ceyn on il ərzində Rarotonqadakı kilsənin inşa edilməsində kömək etdilər. Pastorlar və müəllimlər yetişdirdilər. Onlar kilsə və məktəblərin hüdudlarından kənarda hələ Məsih barədə eşitməyən insanlara Müjdəni bölüşmək istəyirdilər.

1877-ci ilin payızında onlar Papua-Yeni Qvineyaya köçdülər və burada kəndlərin xəstəlik, cadugərlik, çirkab, xəyanət və silahlarla dolu olduğunu aşkar etdilər. Onlar səbrlə Müjdə barədə insanlara danışaraq Allahın xilasını aydın şəkildə çatdırdılar. Cütlük adətən qonaq kimi *dubuda* — insan kəllələrinin qənimət kimi saxlandığı kəndin qonaq otağında yatırdılar. Görüşdükləri insanların çoxu heç vaxt ağ dərili adam görməmişdi. Çalmers qara çəkmələrini çıxarıb ağ qollarını və sinəsini onlara göstərməklə özünü təqdim edirdi. Bu bəzilərinin gülüşünə, digərlərinin isə bərkdən qışqırığına səbəb olurdu. Yerli sakinlər Çalmersin adını deyə bilmədikləri üçün onu *Tamate* deyə çağırırdılar. Tamate hara getsə də, təhlükə onu tərk etmirdi.

Ceyn 1878-ci ildə xəstələndi və Avstraliyaya müalicə almağa yollandı. Beş aydan sonra o öldü. Bu xəbər Papua-Yeni Qvineyada olan Ceymsi çox sarsıtdı. O, gündəliyində yazırdı: “Ah, Rəbbin çarmıxı barədə düşünüb

şəfqəti ilə dolaraq Onun işlərini görmək necə də gözəldir! Allahsız insanların Məsihi əldə etməsini istəyirəm!"

1886-cı ildə Çalmers iyirmi il ərzində baş verənlər barədə danışmaq üçün İngiltərəyə qayıtdı. Orada Sara Harrison ilə evləndi. Bu həyat yoldaşı da Sakit okean adalarında əlamətdar və cəsarətli bir xidmətdən sonra qızdırmadan dünyasını dəyişdi. Ceymsə müjdəçi-diplomat kimi təhlükəsizliyini təmin edəcək dövlət vəzifəsi təklif olundu, lakin o bundan imtina etdi. Öz mövqeyini bildirərək dedi: "Müjdə və ticarət, yaxşı fikirdir. Ancaq yadda saxlayın ki, Müjdə birinci olmalıdır".

Çalmers 1887-ci ilin payızında Papua-Yeni Qvineyaya qayıtdı. Ceyms təkcə müjdəçilik məntəqəsini idarə etməklə kifayətlənmədi. O, yeni əlaqələr yaratmaq üçün xəritədə olmayan ucqar yerlərə, cığırlarla daha dərinliklərə getmək istəyirdi. Saranın ölümündən bir il sonra belə səyahətlərin birində Çalmers sahilə yaxınlaşanda silahlı quldurlar onun qayığını mühasirəyə aldılar. Adəti üzrə, quldur dəstəsindən qaçmaq üçün o, yerli rəhbərlə görüşməyi tələb etdi. Gənc həmkarı Oliver Tomkins altmış yaşlı Ceymslə birgə getdi.

Onlar məsləhət almaq və yemək əldə etmək ümidilə kənd *dubuna* (qonaq otağına) yaxınlaşdılar. Amma içəriyə girən kimi daş toppuzlarla onların üstünə düşdülər. Bu qəribə adamların başları kəsildi, cəsədləri saqo ilə qarışdırılıb bişirildi və yeyildi. Həmin gün 1901-ci ilin aprelin 8-i idi.

Çalmers, onun iki arvadı, bir çox iş yoldaşları və ailələri Sakit okean adalarında yaşayan xalqlara Müjdəni çatdırmaq üçün öz canlarından keçdilər. Onlar Vəhy kitabında yazıldığı kimi Ruhun və gəlinin çağırışına cavab verdilər. Çalmerz bu ayələri öz kitabında qeyd etmişdi: "Susayan qoy gəlsin, arzu edən həyat suyunu müftə götürsün" (Vəhy 22:17).

# Con Kensit

(1902)

Con Kensit həqiqət və reformasiya təhlükə altında olduğu bir vaxtda sakit otura bilməzdi.

Kensiti mömin və dua edən anası böyütmüşdü və uşaqlıqdan onun diqqətini "İmanlının Səyahəti", "Ümumi Dualar Kitabı" və Müqəddəs Kitaba yönəltmişdi. Sonra iki qəribə hadisə onun həyatında fikir ayrılığına gətirib çıxarmışdı. Bunlar Kensitin fədakarlıqla anqlikan kilsəsində reformasiya yaratmasına səbəb olmuşdu.

Birinci hadisə Müqəddəs Etelburq kilsəsində olmuşdu. O, xorda oxumağa hazırlaşarkən ibadətin açıq-aşkar protestantlıqdan daha çox katolikliyə meyilli olduğunu gördü. Eyni zamanda yaxınlıqda bir müjdəçi keşiş reformasiya doktrinalarını təbliğ etməyə başladı. Con bu toplantılarda iştirak etdi. Bundan sonra o əmin oldu ki, Allahın Kəlamı yalnız Müqəddəs Kitabdır və günahların bağışlanması üçün İsanın qurbanı kifayətdir.

İkinci hadisə isə italyan millətçi Cüzeppe Qaribaldinin 1859-cu ildə Londona səfəri zamanı oldu. Cüzeppe keşişlərin rəhbərlik etdiyi teokratiyanı[2]deyil, vətəndaşların idarə etdiyi respublika sistemini üstün sayırdı. Əməldə sözünü deyən və münaqişədən qaçmayan Qaribaldi gənc Conda unudulmaz bir təəssürat yaratdı.

1898-ci ilə qədər Con kitab satmaqla və bazar günü kilsədə dərslər keçməklə məşğul oldu. Bu müddət ərzində o, anqlikan kilsələrində əsl imanın köklərini axtardı. Ancaq həmin il Kensit bir hərəkəti ilə məşhurlaşdı. Müqəddəs Katbert kilsəsində Məsihin çarmıxa çəkildiyi cümə günü ibadət keçirilirdi. Kensit isə sözün əsl mənasında ibadəti pozdu. O, insanların öpüb büt kimi davrandıqları çarmıxı onların əlindən alaraq dedi: "Allahın adı ilə bu bütpərəstliyi inkar edirəm. Ay Allah, mənə kömək et". Camaat Conu möhkəm döydükdən sonra o həbs olundu. Həmin andan etibarən sakit mübarizə aparan Kensit kilsə reformasiyası uğrunda camaat qarşısında mübahisələr etməyə başladı. Bəzilərinin

---

[2] dini strukturların və din xadimlərinin dövlət siyasətinə ciddi təsir etdiyi siyasi sistem

fikrincə, o, ictimaiyyətin zəhləsini tökən bir adama çevrildi. Con əlinə düşən hər bir fürsətdən istifadə edir və cəsarətlə kilsə rəhbərləri ilə üzləşirdi. Onlara Ridli, Latimer və digər ingilis islahatçılarının inancına qayıtmalarını söyləyirdi.

Kensit "Protestant Həqiqəti Cəmiyyəti"ni təsis etdi. O, insanlarda Müqəddəs Kitaba iman oyatmaq üçün Viklif Vaizləri adlandırdığı müjdəçilərdən ibarət bir qrupu şəhər və kəndlərə göndərdi. Con katolik fikirlərinə üstünlük verilən kiçik kilsələrdə tez-tez ictimai görüşlər keçirirdi. Onun son görüşü 1902-ci ilin sentyabrın 25-də Börkenheddəki Klauton musiqi zalında heç bir hadisə baş vermədən keçdi. Amma sonra o, gəmiyə tərəf gedərkən bir gənc Kensitə və onun qrupuna ağır metal iskənə atdı. O, Kensitin qaşını zədələdi. Con təcili xəstəxanaya çatdırıldı və sağalmağa doğru getdiyi hiss olunsa da, sətəlcəm xəstəliyinə tutuldu və oktyabrın 8-də öldü.

Bəzilərinin fikrincə, Kensitin reformasiyalar üçün etdiyi işlər anqlikan kilsələrində heç vaxt gerçəkləşmədi. Amma buna baxmayaraq Con İngiltərədəki son şəhidlərdən biri kimi öz reformasiya əqidəsinə görə öldü.

"Qardaşlarım, ruhlanın və ürəklərinizi Allaha tərəf yönəldin, çünki bu xoşagəlməz səhər yeməyindən sonra Rəbbimiz və Xilaskarımız Məsihin padşahlığında yaxşı bir şam yeməyi yeyəcəyik. ... Bu, Allahın zirehidir və indi mən döyüş üçün hazırlanmış bir məsihçi əsgərəm".

**— Antoni Parsons, dirəkdə yandırılan ingilis keşişi**




*Çet Bitermanın Kolumbiyadakı məzarı*

# İyirminci əsrdə təqiblər

(1914–1999)

"Məsihçi əsri" olacağına ümid edilən əsrin 1914-cü ilində qanlı I Dünya Müharibəsi başladı. Bir çox insanlar "İndi Allah haradadır?" sualını verdilər. Dünyanın hər yerində püskürən imperializm, faşizm, üsyanlar, qırğınlar və tar-mar edən müharibələrin milyonlarla qurbanları arasında tanınmış şəhidlər də var idi.

Amma I və II Dünya Müharibəsinin səngərlərində, Holokostda (yəhudi soyqırımı), cənub-şərqi Asiyadakı qırğınlar və Çin Mədəni İnqilabının arxasında dominant dünyəvi idealogiyalar dururdu. Bu idealogiyalar bir vaxtlar kilsənin möhkəm olduğu yerlərdə məsihçi ideyalarını əvəz etdilər. Praqmatizm[1], ekzistensializm[2] və postmodernizm[3] əhval-ruhiyyəsi bir vaxtlar Avropanın müqəddəsliyə meylli mühitini məsihçi əlaqələrindən qətiyyətlə uzaqlaşdırdı. Həqiqətən, Avropa Birliyinin konstitusiyasında nə Allaha, nə də kilsəyə heç bir istinad edilmir.

Amerikada ticarət və dini tolerantlığa artan ehtiyac məsihçi əqidəsini zəiflətdi. Bir çox məsihçi nəyə görə iman uğrunda öz həyatlarını qurban

---

[1] biliyin əhəmiyyətini onun praktiki nəticələri ilə müəyyənləşdirən fəlsəfi cərəyan

[2] yeni dünyagörüşü yaratmaq cəhdi kimi meydana gəlmiş irrasionalist, subyektiv idealist fəlsəfi cərəyan

[3] XX yüzilliyin ikinci yarısında fəlsəfədə, incəsənətdə və ədəbiyyatda bütün formaları, qaydaları, ehkamları inkar edən, onları sintetik və qarışıq şəkildə təqdim edən cərəyandır.

verməlidirlər deyə düşünürdü və bu onları çaşqınlığa salırdı. Şübhəsiz ki, şəhidlik hələ də davam edirdi. Hutu xalqından olan bir çox məsihçilər Ruanda soyqırımında tutsi xalqından olan qonşularını xilas edərkən həyatlarını itirdilər. Yaxın şərqdəki kilsələrin bombalanması təhlükə altında ibadət edən cəsarətli imanlıların həyatına son qoydu. Əfqanıstanda məsihçiliyi qəbul edənlər dərhal ölüm hökmünə məhkum olunurdu.

Məsihçilik Latın Amerikasına, Afrikaya, eləcə də sürətlə Asiyaya doğru irəliləyirdi. Ditrix Bonhüfer, Maksimilian Kolbe, Canani Luvum və başqalarının həyat hekayələri bizə nümunə oldu. Bu hekayələr Allahın bütün yaraları sağaltmaq və bütün göz yaşlarını silmək vədlərini bizə hələ də xatırladır.

"Onunla, mənim sevimli Ustadımla, mənim üçün hər yerdə yaxşıdır. Onunla qaranlıq zindanda işığım var. Ondan xahiş etdim ki, mən zahiri insan üçün daha yaxşı olan yerdə deyil, mənə ehtiyac olan və bəhrə gətirə biləcəyim yerdə olum".

**— Beşinci dəfə həbs edildikdən sonra rus pastoru P. Rumatçikin yazdığı məktubdan**

# Xrizostom

(1922)

Yepiskop Xrizostom XX əsrin əvvəllərində Kiçik Asiyada bir soyqırım dövründə yaşamışdı. O, diplomatlara və yüksək rütbəli şəxslərə təklif olunan təhlükəsizliyi rədd etdi.

1894–1923-cü illərdə kiçik Asiyada türk millətçiləri "əsil soy-kök" adlı yürüşü ilə kiçik xalqları, eləcə də məsihçiləri məhv etdilər. On il sonra faşistlər də bunu təkrarladılar. 1922-ci ildə Pontus bölgəsinin (Şimali Anadolu) ən böyük şəhəri olan Smirnada (indiki İzmir) soyqırım baş verdi. Bu şəhərdə təhsili və zəhməti sayəsində tərəqqi edən orta təbəqəli yunanlar yaşayırdı. Xrizostom Smirna mitropoliti (yepiskopu) idi və orada yaşayan minlərlə yunan pravoslav məsihçilərinə xidmət edirdi. Türk silahlı qüvvələri şəhərə yaxınlaşdığı üçün dostları ondan xahiş etdilər ki, şəhərdən çıxıb getsin. Amma o, əksinə sadiq imanlıları ibadət üçün topladı və son vəzində belə dedi:

> "Allah bu anda imanımızı, cəsarətimizi və səbrimizi sınayır. Ancaq Allah heç vaxt məsihçiləri tərk etməyəcək. Yaxşı dənizçi təlatümlü dənizlərdə öz cəsarətini göstərdiyi kimi, yaxşı məsihçi də çətin vəziyyətlərdə görünür. Dua edin və bunlar keçib gedəcək. Biz yenidən xoşbəxt günlər görəcəyik və Rəbbə həmd edəcəyik. Əsl məsihçi kimi cəsarətli olun".

İbadətin sonunda bir polis məmuru Xrizostoma türk qarnizonuna çağrıldığını bildirdi. O gecə ölüm yavaş-yavaş gəldi. Türklər onun əvvəlcə gözlərini çıxartdılar, sonra kor yepiskopun saqqalından və saçlarından sürüyərək türk məhəlləsindən keçirdilər. Burada o, izdihamın təhqirlərinə və daha sonra isə əsgərlərin qəddarlığına dözdü. Bir ay sonra oradakı dəstələrdən bir nəfər etiraf edərək dedi:

> "Biz onu döydük, söydük və dərisini parça-parça kəsdik. Bütün işgəncələrə dözərkən o nə yalvardı, nə qışqırdı, nə də söydü. Qanla

örtülmüş solğun üzünü səmaya tərəf tutaraq anlaya bilmədiyim və çətinliklə eşidilən sözləri öz-özünə durmadan deyirdi. Hərdənbir əllərini qaldırıb onu təqib edənlərə xeyir-dua verirdi. Dəstədən bir nəfər o qədər qəzəbləndi ki, qılıncını çəkib yepiskopun əlini kəsdi. Sonra bu adama o qədər yazığım gəldi ki, onun əzabını bitirmək üçün başından iki güllə vurdum".

Təqsir hissini yüngülləşdirmək üçün həmin türk əsgəri Yunanıstan universitetin müəllimini və tələbələrini gizlicə təhlükəsiz yerə çıxartdı. O bunu etməklə öz vicdanını təmizləməyə çalışdı. Xrizostom onun əli ilə öldü, digərləri isə yaşayacaqdı.

1997-ci ildə Yunanıstanın 105-ci Konqresi Smirnanın yandırılmasının 75-ci ildönümündə soyqırımı anmaq üçün qətnamə qəbul etdi. Xrizostomun şəhidliyi və kilsəyə qarşı edilən digər təqiblər burada qeyd olundu.

İnsanlar ona şəhərdən qaçıb getməyi təklif edəndə Xrizostom belə dedi: "Kahinin öz xalqı ilə birgə qalması onun borcudur". Həmin gün Xrizostom son ümid yeri olan xilasedici gəmiyə minmədi. Gəmi lövbərlərini yığıb dənizə yola düşərkən yepiskop gəmidəkilər ilə sağollaşdı. O, vəzifəsini yerinə yetirmək üçün geri qayıtdı.

# Mançe Massemola

## (1913–1928)

Cənubi Afrika yepiskopluğunun (anqlikan) kilsəsi Mançenin ölümündən qısa müddət sonra onu şəhid elan etməsəydi, bu gənc afrikalı qızın həyatı və ölümü tamamilə unudulacaqdı.

Gənc qız Mançe əmisi qızı ilə vəftizə hazırlıq dərslərinə getdiyi üçün ailəsi tərəfindən döyülüb ələ salındı. Mançenin imkanlı bir adama ərə getməsi ailəsinə xeyli gəlir gətirmiş olardı. Ancaq qızın məsihçi həyatı yaşaması ailənin bu niyyətinə uyğun gəlmədi. Gənc qızın bədəni döyülməyə tab gətirmədi. Məsihə sadiq qalan Mançe ən yaxın adamı, öz doğma anasının əli ilə öldü.

Şəhidlik Məsihə sadiqliyə görə həyatı itirməkdir. Əksər hallarda, məsihçi amansız gücə qarşı durur və imanına görə güzəştə getməyib ölümü seçir. Mançe üçün də belə oldu. Onun gənc dünyası kiçik olsa da, Mançenin qatili evinin içində idi.

# Con və Betti Stem

(1934)

Betti körpəni qucağında tutub ona yavaşca mahnı oxuyurdu. Cütlük bu gecənin uşaqları ilə keçirdikləri sonuncu gecə olduğunu bilirdi. Çarpayıya bağlanmış əri Con da yata bilmədi. Cəmi iki həftə əvvəl onlar böyük ümid içində üç aylıq körpələri Helen Priskilla ilə birgə müjdəçilik xidmətinə gəlmişdilər. Fəqət bu qış gecəsində onların sakit laylaları kədərli bir vidalaşmaya çevrilmişdi, çünki onlar sabah öləcəkdilər.

Betti Skot Çində müjdəçilk edən presviterian bir məsihçinin qızı idi və 1931-ci ildə Mudi Müqəddəs Kitab İnstitutunu bitirmişdi. O, "Çin Daxili Xidməti"ndə işləmək üçün Allahın çağırışını qəbul etmişdi. Betti Çin üçün bir dua toplantısında Con ilə tanış olmuşdu və dünyada təhlükəli vətəndaş müharibəsi gedirdi. Amma bütün bunlar onu xidmət etmək fikrindən daşındırmadı və o, Çinə yola düşdü. Betti yazırdı: "Özümüzü Allaha həsr etdiyimiz zaman böyük bir qurban verdiyimizi və Onun üçün çox şey etdiyimizi düşünürük. Əslində biz əlimizdə saxladığımız bəzi xırda şeyləri buraxmış oluruq və əllərimiz boş olanda Allah onları cəvahiratlarla doldurur".

Con Stem 1932-ci ildə Mudi Müqəddəs Kitab İnstitutunda təhsilini başa vurdu. Həmin il o, məktəbi bitirəndə belə dedi: "Çıxılmaz vəziyyətlərdə Allahın əmri ilə irəliləməyə cəsarət edirikmi?" Sonra payızda gəmi ilə Şanxaya yola düşdü. Ora çatanda kommunistlərin üstünlük qazandığını, müjdəçilərin köçdüyünü və ən çox təəccübləndiyi isə xəstəlikdən yaxşılaşan sevimli Bettinin Şanxayda olduğunu gördü. Tezliklə onlar evləndilər və 1934-cü ilin sentyabrında qızları Helen Priskilla dünyaya gəldi. Gənc ailə Anhoy əyaləti yaxınlığında yerləşən Çinqte şəhərinə köçdü. Yerli rəhbər onların təhlükəsizliyini təmin etdi.

Üç ay sonra şəhər hakimi kommunist qoşunlarının yaxınlaşması barədə xəbər verəndə onlar üçün gözlənilməz oldu, amma artıq gec idi. Stem ailəsi qaçıb getməzdən əvvəl qoşunlar şəhərə girdi. Conun əl-qolunu bağlayıb apararkən arvadının və uşağının təhlükəsizliyi üçün onlara yalvardı. Tezliklə dəstə Conun arvadı və uşağı üçün geri döndülər. O gecə

həbsxanada qalarkən körpə ağladı. Mühafizəçilər körpəni öldürəcəklərini deyəndə bir qoca çinli məhbus söhbətə müdaxilə etdi. Mühafizəçilər ona əcnəbi körpə uğrunda ölməyi təklif edəndə məhbus kişi razılaşdı. Həmin məhbus yerindəcə öldürüldü.

O gecə Cona əmr olundu ki, müjdəçilik xidmətinin rəhbərlərinə məktub yazıb onlardan satın alınmaları üçün 20.000 ABŞ dolları tələb etsin. Con satın alınma üçün pulun heç vaxt ödənilməyəcəyindən yaxşı agah idi. O, məktubunu belə tamamladı: "Rəbb sizə xeyir-dua versin və yol göstərsin. Bizə gəlincə, qoy Allah istər həyatımız, istərsə də ölümümüz vasitəsilə izzətlənsin".

Ertəsi gün əsgərlər cavan ailəni yaxınlıqdakı Miaoşeo qəsəbəsinə apardılar. Burada onları yerli poçt müdirinin idarəsinə yerləşdirdilər. Poçt müdiri cütlükdən hara getdiklərini soruşdu. Əsgərlərin niyyətini bilən Con belə cavab verdi: "Onların hara getdiklərini bilmirəm, amma biz cənnətə gedirik".

Səhər Con və Betti edam olunmağa aparıldı. Yerli bir məsihçi həkim əsgərlərdən müjdəçilər üçün mərhəmət istədi. Onu hədələdilər və Con həkim üçün onlara yalvardı. Kommunist rəhbər artıq kifayət qədər eşitmişdi. O, Cona diz çökməsini əmr etdi və qılıncın bir zərbəsi ilə gənc müjdəçinin başını üzdü. Betti ərinin cəsədinin üstünə yıxıldı və qılınc yenidən yuxarı qalxıb sürətlə aşağı endi, beləcə onun da həyatına son qoyuldu.

Bəs körpə Helen necə oldu? Çinli müjdəçi həkim Lo körpəni tapdı. Uşaq yorğana bükülmüşdü, dəyişmək üçün paltar və pul uşağın bezinə sancaqla bağlanmışdı. Ötən gecə yuxusuz qalan Betti körpəsinin tək qalacağını bilərək uşağının qayğısına qalıb əlindən gələni etmişdi. Nəhayət, Lo uşağı bir düyü səbətində gizlədərək hələ də Çində xidmət edən nənə və babasının yanına gətirdi. Helen böyüyüb müəllim oldu və ABŞ-ın şərqində ailə qurub yaşadı. O, həyatı barədə hər şeyi məxfi saxladı və heç bir müsahibə və ya ictimai açıqlama vermədi.

Çindəki kilsə necə oldu? Stemlərin ölümündən sonra bir neçə yüz yeni müjdəçi könüllü olaraq xidmətə getdi. Çin kilsəsi uzun illər gizli qaldı. Bu gün məlum olur ki, Çin kilsələri hamının gözlədiyindən, hətta Mao qüvvələrindən də güclüdür.



*1941-ci ildə avqustun 14-də Maksimilian Kolbe iynə ilə vurulmuş ölümcül karbol turşusundan öldü.*

# Maksimilian Kolbe

## (1894–1941)

1941-ci ilin isti yay günü idi. Auşvitz məhvetmə düşərgəsində SS komandiri “Qəssab” Freş bir cəza elan etdi: “Hər qaçan adam üçün on Polşa donuzu öləcək”. Sonra alman zabiti on nəfər məhkumun adını çəkdi. Bütün məhbuslar susuzluqdan və zəiflikdən haldan düşmüşdülər. Onlar bütün günü yeməksiz və susuz günəşin altında durub qaçan adamın yaxalanmasını gözləməli idilər. Heç kim ölmək istəmirdi. Onlardan biri Polşa çavuşu Fransis Qayovniçek gənc arvadı, övladı və özü üçün mərhəmət istəyərək ağladı. Məhbusların belə yalvarışlarından SS komandiri həzz alırdı. Sonra məhbusların sırasında kimsə hərəkət edərək danışdı, halbuki belə hallar düşərgədə qadağan olunmuşdu.

“Sən kimsən?” — deyə Freş soruşdu.

“Mən katolik keşişiyəm və o kişinin yerinə ölmək istəyirəm”.

Freş tərəddüd etdi. Düşərgədə qəhrəman var imiş? Bu cür qəhrəmanlardan can qurtarmaq daha yaxşıdır. Zabitin fikrincə, bu məhbuslar onsuz da çox yaşamayacaqdı. Freş axmaq hesab etdiyi keşişin təklif ilə razılaşdı və ata Maksimilian məhbus Qayovniçekin yerinə keçdi. Keşiş də daxil olmaqla on nəfəri düşərgənin aclıq kameralarına apardılar.

Raymond Kolbe 1894-cü ilin yanvarın 8-də Pabyanitse yaxınlığında millətpərəsət fəhlə ailəsində anadan olmuşdu. Sonralar atası bölünmüş Polşanın müstəqilliyi uğrunda mübarizə apardığı üçün ruslar tərəfindən edam edilmişdi. Raymondun mömin katolik anası oğlunun on iki yaşı olanda onun üçün etdiyi duaların cavabını gördü. Həmin il oğlanın “dəliqanlı gəncliyi” ömürlük məsihçi fədakarlığı ilə əvəz olundu. Gənc Raymond görüntüdə iki tac görmüşdü, onlardan birini seçməli idi. Ağ tac paklıq, qırmızı tac isə şəhidlik mənasını verirdi. Gənc Raymond hər iki tacı istədi. Həmin gündən etibarən o, həyatını təhsilə, müjdəçilik xidmətinə və məzlumların qayğısına qalmağa həsr etdi və gördüyü hər bir işdə uğur qazandı.

On üç yaşında Raymond və qardaşı Fransis Lvovdakı fransiskanlara[4] qoşulmaq üçün Rusiya-Avstriya-Macarıstan sərhədini qanunsuz olaraq

[4] Yoxsulluq həyatı sürməyə and içmiş rahiblərdən ibarət katolik təriqəti

keçdi. On yeddi yaşında o, ilk əhdlərini bəyan etdi, iyirmi yaşında isə son əhdlərini verdi. Raymond bakirə Məryəmə ehtiram olaraq özünə Maksimilian Maria adını götürdü. O, təhsildə uğur qazandı, iyirmi bir yaşında Qriqori Universitetində fəlsəfə doktoru, iyirmi dörd yaşında isə ilahiyyat doktoru dərəcəsini aldı. Onun digər nailiyyətləri arasında Yaponiyada müjdəçilik xidməti də var. Maksimilian Varşava yaxınlığında bir seminariya açdı, radio stansiyası, qəzetlər və jurnallar təşkil etdi. *Militia of the Immaculata* (Pak olanın dəstəsi) katolik müjdəçilik hərəkatını yaratdı. Sonra Maksimilianın rəhbərliyi altında 650 nəfər rahib hazırlandı. Bununla da həmin hərəkat dünyanın ən böyük katolik dini cərəyanına çevrildi.

Şən və coşqun bir rəhbər olan Maksimilian üçün 1939-cu ildə Polşada rəhbər olmaq təhlükəli və çətin bir iş idi. O, fırtınanın başlandığını əvvəlcədən hiss edirdi. Maksimilianın mətbuat və media xidməti Almaniyanın hərb siyasətinin təhlükələrindən danışmağa başladı və onun monastırı yəhudi qaçqınlarına sığınacaq verdi. Gestapo tərəfindən həbs olunmazdan əvvəl Maksimilian təxminən 1500 yəhudini öz təhlükəsizliyi altında saxladı.

1941-ci ilin fevralın 17-də onu yaxaladılar. Maksimilian nəyə inandığını bilirdi. Məşhur bir açıqlamasında belə demişdi: "Heç kim həqiqəti dəyişdirə bilməz. Biz həqiqəti axtarmalıyıq və tapdıqda ona xidmət etməliyik... Hər qəlbin dərinliyində iki barışmaz düşmən var: yaxşı və pis, günah və məhəbbət. Əgər daxilimizdə gedən döyüşdə məğlub oluruqsa, onda döyüş meydanındakı qələbələrin nə faydası var?" Maksimilian may ayında Auşvitzə göndəriləndə öz daxili döyüşünə hazır idi.

Faşist gözətçi qeyd edirdi ki, Maksimilian aclıq kamerasında olduğu iki həftə ərzində vaxtını dualarda və ilahi oxumaqda keçirdi. Çox zəifləyib danışa bilməyəndə o bunları pıçıltı ilə etdi. Maksimilan və digər üç nəfər bu iki həftə aclıqdan sağ çıxdı, lakin faşistlərə kamera digər pis əməlləri üçün lazım idi. Beləliklə, 1941-ci ilin avqustun 14-də ona iynə ilə ölümcül karbol turşusu vuruldu və keşişin həyatına son qoyuldu. "Qaçan məhbus"un cəsədi daha sonra boğulmuş halda Auşvitzin tualetində tapıldı. Fransis Qayovniçek isə qoca yaşına qədər Polşada yaşadı və 1997-ci ildə vəfat etdi.

Maksimilian Məsihə sadiq bir insan kimi pisliyə qarşı durub məhkum edilmiş bir insanın yerini tutdu. Məsihlə olan ünsiyyətləri barədə o

belə yazırdı: "Sən mənim yanıma gəlirsən və bir qida [Rəbbin Süfrəsi] formasında mənimlə birləşirsən. Sənin Qanın artıq mənim qanımla birgə axır. Bədən almış Allah, Sənin Qəlbin qəlbimə nüfüz edərək mənə cəsarət və dəstək verir. Necə də böyük möcüzədir! Kimsə beləsini təsəvvür edibmi?!"

# Con Uilfinger

(1942)

1942-ci ilin yayında Yaponiya imperiyası öz adalarından cənuba, Avstraliyaya qədər uzanan müdafiə cinahını və neft ehtiyatlarını ələ keçirməyi planlaşdırdı. Borneo (Kalimantan) strateji işğal bölgəsi olmalı idi və orada fəaliyyət göstərən xaricilər, xüsusən şimali amerikalılar tutulmalı idi.

Mujdəçi Con Uilfinger və onun Müqəddəs Kitab tərcüməçiləri olan Lenhamlar cütlüyü təhlükəni hiss etdilər. Lakin onlar çox vacib bir işlə məşğul olurdular, murut dilində Əhdi-Cədidi hazırlayırdılar. 1942-ci ilin iyulunda onlar öyrəndilər ki, yapon qoşunları cənubdakı müjdəçiləri artıq əsir götürüb. Beləliklə onlar şimala, Murutun sıx cəngəlliklərinə və təcrid olunmuş kəndlərinə köçdülər. Lakin bu məsihçilər yaponların inadkarlığını az qiymətləndirdilər.

Sentyabrın 19-da murut xalqından olan bir nəfər üç müjdəçinin gizləndiyi kəndə gəldi. Onun gətirdiyi xəbər müjdəçiləri çox narahat etdi. Yaponlar hər üç müjdəçinin adını "ən çox axtarılanlar" siyahısına salmışdılar. Bu üç nəfərə sığınacaq verən və ya onlara kömək edən hər kəs ciddi cəzalanacaqdı.

Murut xalqı müjdəçiləri gizlədə biləcəklərinə inanırdılar. Avropalı məsihçilərin yəhudiləri almanlardan gizlətdiyi kimi onlar da hiylədən istifadə etməli idilər. Lakin Lenhamlar cütlüyü və Uilfinger murut dostlarının bu hiylələrə əl atmasını istəmədilər. Əksinə, onlar hər şey üçün Allaha etibar edərək özlərini yaponlara təslim etmək qərarına gəldilər.

Lenhamlar ən yaxın yapon düşərgəsinə getdilər. Onlar murut dilində tərcümə olunmuş Əhdi-Cədidin nüsxələrini müharibə dövründə saxlamağı bacardılar. Uilfinger bu hadisələrdən əvvəl nişanlısı ilə görüşmək həvəsində idi. Amma özünü yaponlara təslim etməzdən əvvəl o, Borneonun şərqindəki bir neçə qəbilə kilsəsinə baş çəkmək istədi. Onun nə qədər məsafə getdiyi məlum deyil, amma hardasa yaponlarla qarşılaşdı və Miladdan üç gün sonra edam edildi. Sakit okean qarşıdurmasının sonunda Uilfingerin cəsədi və Müqəddəs Kitabı tapıldı. Con kitabın iç qabığında bu şeiri yazmışdı:

Tanıdığım Məsih adi insan deyil,
Çox əzəmətlidir, yerdəki insana tay deyil.
Hər gün Onun sevgisi məni əhatə edir
Hər gün Onun gücü məni hifz edir.
Bütün bunları Allah,
Nazaretli İsa edir.
Adi insan mənə güc verib dayaq ola bilməz
və bütün qorxu və ağrıları qova bilməz.
Ölümlə üz-üzə dayananda
Saxlayır məni qucağında
Bütün bunları Allah,
Gözə-görünməz Məsih edir.

Şeirin altında o öz şərhlərini yazmışdı: "Halleluya, bu gerçəkdir."

İnsanlar qarşısında Məni iqrar edən
hər kəsi Mən də göylərdə olan
Atamın qarşısında iqrar edəcəyəm.

**Matta 10:32**

# Ditrix Bonhüfer

(1906–1945)

Ditrix öz ölkəsindən kənarda yaşayıb faşistlərin toruna düşməyə bilərdi. Amma o, ölkəsinin iğtişaşlı vaxtlarında ora qayıtmağı qərara aldı. Nyu-Yorkda qalmaq öz xidmətini tərk etmək demək idi. Bu xidmətinə görə o qurban getdi.

Ditrix Bonhüfer Berlində tanınmış bir ailədə anadan olmuşdu. Atası Karl adlı-sanlı bir psixiatr və nevroloq idi. İstedadlı bir uşaq olan Ditrix pianoda gözəl çaldığına görə valideynləri onun peşəkar musiqiçi olacağını düşünürdülər. On dörd yaşında Ditrix ziyalı ailəsini təəccübləndirərək ilahiyyatçı olmaq istədiyini açıqladı. İyirmi bir yaşında o, Berlin Universitetində ilahiyyat doktoru dərəcəsini əldə etdi.

Amma Ditrix alim olmaqla yanaşı, həm də pastor idi. 1932-ci ildə Bonhüfer Berlinin kasıb məhəllələrindən birində gənclərə katexizmi[5] öyrətdi. O, əslində bəzi oğlanlarla daha çox vaxt keçirmək üçün oraya köçdü. İspaniyada o, almandilli bir kilsədə pastor işlədi. Daha sonra Londonda II Dünya Müharibəsinə son qoymaq üçün əhəmiyyətli rol oynayacaq beynəlxalq bir baza qurmağa kömək etdi.

Amma 1939-cu ildə Nyu-York şəhərində o, vicdan əzabı ilə qarşılaşdı. Bonhüferin dostları ona faşistlərdən qaçıb gizlənmək üçün sığınacaq yeri təklif etdi. Səfərinin ilk ayında Ditrix bildi ki, alman kilsəsi ilə birlikdə insanlığa, xüsusən də yəhudilərə qarşı düşmənçilik edən faşistlərə qarşı mübarizə aparmalıdır. Bonhüfer artıq "gizli" seminariyaya (Gestaponun bağladığı) rəhbərlik edirdi və Hitleri devirmək üçün *Abverdə* (alman kəşfiyyatı) qurulan planlardan xəbərdar idi. Əslində ilahiyyatçı bu işin özü, ailəsi və dostları üçün təhlükəli olduğunu bilirdi. Amma o, bütün bunlara baxmayaraq "etiraf edən kilsə" ilə birgə işləmək üçün geriyə, Almaniyaya qayıtmağa tələsdi. "Etiraf edən kilsə" İsanı yeganə Rəbb kimi qəbul edir, Hitlerə sadiqliyi isə bütpərəstlik sayırdı.

---

[5] məsihçilərin təlimatı üçün istifadə olunan sual və cavab şəklində məsihçi dininin əsasları

Almaniyaya qayıdan Bonhüferə icazəsiz dərs keçmək, vəz və ya nəşr etmək qadağan olundu. Ona mütəmadi olaraq polis məmurlarına məlumat vermək əmr edildi. Lakin qəribə bir tapşırıq ona faşist nəzarətindən rahatlıq verdi. O, *Abverə* işə qəbul olundu. Pastor Bonhüferin İngiltərə və Amerika əlaqələri olduğuna görə Hitler üçün casus olmalı idi. Ən azından onun əmrlərində belə yazılmışdı. Əslində isə *Abverin* başçısı admiral Kanaris Hitlerə qarşı sui-qəsd planı hazırlamışdı. Sui-qəsdçilər Bonhüferi də bu işə cəlb etmişdilər. Pastorun işi ölkənin qərbə təslim şərtlərini müzakirə etmək idi. Əlbəttə ki, bu təhlükəli ikili agentlik Almaniyanın rəhbərliyindən gizli qalmalı idi.

1943-cü ilin aprelin 5-də Gestapo Kanarisin sui-qəsd planını aşkara çıxardı və ikili agentləri həbs olundu. Bonhüfer Berlində Tegel həbsxanasına göndərildi. Orada pastor yazmaqla məşğul oldu və mühafizəçilərə, məhbuslara vəz etdi. İki il sonra ittifaq qoşunları Almaniyaya yaxınlaşmağa başladı. Bu vaxt 1945-ci ilin aprelin 9-da Bonhüfer uduzmaq üzrə olan Hitlerin birbaşa əmri ilə asıldı. Ölməzdən qabaq o, həbsxanada ibadət mərasimi keçirdi. Pastor bu son sözləri dedi: "Bu mənim üçün sondur, amma yeni həyatın başlanğıcıdır".

Bonhüferin yazıları bu gün də kilsəni ruhlandırmaqda davam edir. Onun "ucuz lütf", "şagirdliyin dəyəri", cəmiyyətdə insan həyatı, radikal məsihçinin ictimai məsuliyyəti barədə anlayışları hələ də aktualdır. Bunlar hələ də dərindən tədqiq olunmaqdadır. O, həyatında şəxsi mübarizələr və imanda çətinliklərlə üzləşmişdi. Bu çətinliklərə insan həyatına son qoymaq, təzyiq altında olarkən sülhdə qalmaq və nakam məhəbbət aid idi. Belə ki, Hitlerin həyatına iki uğursuz sui-qəsd cəhdində o kömək etmişdi. Eləcə də Bonhüfer Maria van Vedemeyer üçün təhlükəli olduğuna görə onunla nişanlanmağı təxirə salmışdı.

Bonhüfer faşist Almaniyasına qarşı satqın bir insan kimi öldü. Edamın şahidi olan düşərgə həkimi qeyd edirdi: "Allahın iradəsinə tamamilə tabe olan belə bir insanın ölümünə heç vaxt şahid olmamışdım". Üç həftə sonra Hitler Berlindəki bunkerdə intihar etdi. Bir aydan az müddətdə Avropa müharibəsi bitdi.

# Mauris Torney

(1910–1946)

Mauris İsveçrə dağlarında, Vale bölgəsinin yaxınlığında yaşayan katolik ailənin səkkiz uşağından yeddincisi idi. Mauris anasının ocaq kənarında oturub bakir, şəhid Müqəddəs Aqnesin hekayəsini danışdığını xatırlayırdı. Ana uşaqlarına dedi: "Siz bakirsiniz, amma şəhid olmaq daha çətindir. Allahı hər şeydən çox sevməlisiniz. Rəbbin uğrunda canınızı verməyə və son damla qanınızı tökməyə hazır olmalısınız". Gənc Mauris anasının keçdiyi bu dərsi heç vaxt unutmadı.

Orta məktəbdən sonra Mauris "Böyük Müqəddəs Bernardın Kanonu"na (din xadimləri üçün olan kateqoriya) qoşuldu. Bu qrupun üzvləri Alp dağlarında xilasetmə işləri, eləcə də yetişdirdikləri və təlim keçdikləri "köməkçi" Müqəddəs Bernard cinsli köpəkləri ilə tanınırdılar. Kilsə bu qrupun üzvlərindən xahiş etdi ki, Himalay dağlarında müjdəçilik etmək üçün xidmətçilər göndərsin. Həmin ərazilərə yüksəklikdə yaşamağa öyrəşmiş müjdəçilər getməli idi. Mauris könüllü olaraq bu xidmətə qoşuldu, lakin xora xəstəliyinə görə əməliyyat edilib sağalana qədər gözləməli oldu. Nəhayət, o, 1936-cı ildə Tibet sərhədi yaxınlığındakı Veysi əyalətinə gəlib çıxdı. Burada o, ilahiyyat dərslərini bitirdi, çin dilini öyrəndi və keşiş təyin edildi. Mauris yazırdı: "İndi demək olar ki, bütün dünyaya səyahət etdim. Hər yerdə insanların xoşbəxt olmadığını gördüm və əsl xoşbəxtliyin Allaha xidmət etməkdə olduğunu anladım. Həqiqətən, başqa heç nəyin mənası yoxdur. Heç nəyin, heç nəyin".

Çin-Tibet sərhədində xidmət etmək hər gün çətin olsa da, 1939-cu ildə yapon qoşunlarının işğalı bunu daha da təhlükəli etdi. Oğlanlar məktəbinin idarəçiliyi Torneyə həvalə olunmuşdu. İnsanların həyatda yaşaması üçün lazım olan ərzaq, geyim, istilik təchizatı çox kasad idi. Bundan əlavə yerli buddist keşişlər, xüsusən də Qun-Akhio müjdəçilər ilə ədavət aparırdı. O, müjdəçilərin buddanın güc mənbəyini məhv edəcəyini düşünürdü. Qun-Akhio əcnəbiləri hədələməyi və onlara güc tətbiq etməyi dəstəkləyirdi.

1946-cı ildə Torney Tibetin cənub şərqindəki Yerkalo kəndində kilsənin keşişi təyin olundu. Bir neçə gündən sonra qırx yerli buddist keşiş onun

yaşadığı evə girib oranı qarət etdi. Torneyi tüfənglə hədələyərək kənddən məcburi çıxartdılar. O, Çinin Yunnan əyalətindəki Pame kəndinə yollandı və oradakı camaata yardım göstərdi. Onlar üçün dua etdi, məktub yazdı və yanına gələn xəstələrin qayğısına qaldı. May ayında təhlükənin azaldığını hiss edib geri qayıtdı. O dedi: "Bir kilsə keşişsiz qalarsa... onda insanlar heyvanlara ibadət edəcəklər".

Yerkalo kəndində Qun-Akhionun adamları katolik keşişin qayıdacağını gözləyirdi və onu öz kilsəsinə gəlməyə qoymadılar. Bu dəfə Torney başqa bir plan cızdı. O, dini tolerantlıq üçün buddist keşiş Dalay Lamaya birbaşa müraciət edəcəkdi. Lhasa şəhərinə gedib çıxmaq üçün iki ay vaxt lazım idi. Beləliklə, Torney Tibetin paytaxtına getmək üçün yola düşdü.

Ancaq Qun-Akhionun adamları hər yerdə var idi və Torneyin hər bir hərəkətinə göz qoyurdular. Buddist keşişləri Torneyin karvanını ələ keçirərək onu geri qayıtmağa məcbur etdilər. Avqustun 11-də Çin sərhədi yaxınlığında yerləşən Çoula dərəsində Torney pusquya düşdü və yoldaşları ilə birlikdə güllələndi. Nəhayət, Çin hakimiyyəti bu qətli törətdiklərinə görə Karmda budda monastırının üzvlərini təqsirləndirdi.

Mauris Torney yeniyetmə ikən yazmışdı: "Ölüm həyatımızın ən xoşbəxt günüdür. Bunun üçün hər şeydən çox sevinməliyik, çünki o gün biz əsl vətənimizə gəlib çatırıq". Həmişə çətinliklər içərisində xidmət edən keşiş Torney indi əsl vətənində idi.

# Cim Elliot, Pit Fleminq, Ed MakKulli, Neyt Sent, Rocer Yuderian

(1956)

Yeni xəbər dünyanı həyəcanlandırdı: "Aka bölgəsində beş kişi itkin düşmüşdü". 1956-cı ilin yanvarın 9-u, bazar ertəsi idi. Müjdəçi qrupu Ekvadordakı bir hindu qəbiləsi ilə sülhsevər ünsiyyət qurmağa çalışırdı. Onlar həmin gün radio ilə zəng etməli idilər. Amma müjdəçilərin Kuraray çayı kənarında yerləşən *Palm Biç* düşərgələrindən bütün gün ərzində heç bir xəbər gəlmədi. Sonra həmin ərazidə hərlənən təyyarənin pilotu düşərgədə zədələnmiş təyyarənin olduğunu bildirdi. Bunun ardınca yanvarın 11-də çərşənbə günü dəhşətli bir xəbər — ilk cəsədin çayda görünməsi xəbəri gəldi. Axtarış və xilasetmə qrupu təşkil olundu və tez bir zamanda başqa cəsədlər də tapıldı.

Cümə gününə qədər xilasetmə heyəti tələsik cəsədlərin dördünü dəfn etdi. Müjdəçilər dəfələrlə vəhşicəsinə vurulan nizə yaralarından və uzun bıçaq kəsiklərindən ölmüşdülər. Beşinci cəsədin (Ed MakKulli) çayın kənarında olduğu təyyarədən görünmüşdü, lakin çayın axarı onu apardığından heç vaxt tapılmadı. Beş dul qadın və səkkiz yetim uşaq ölənlər üçün kədərlənərək Allahdan təsəlli və hikmət istədi. Dünya heyrət içində buna şahid oldu.

Bu beş cavan insanın ölümü minlərlə məsihçinin qəlbinə toxundu. Cim Elliotun dul arvadı Elizabet ərinin ölümündən bir il sonra "Əzəmətin Darvazalarından Keçərkən" adlı kitab yazdı. Bu kitabda həyatın faciəli hadisəsinin əlamətdar nəticələri təsvir olunmuşdu. Şəhid olmuş müjdəçilərin xidmətlərini onların fədakar qurbanlarından ruhlanmış başqa gənc imanlılar davam etdirdi. Əlli il sonra bu fədakarlıq nümunəsinin təsirləri hələ də hiss olunmaqdadır.

Hadisədən iki il sonra Cim Elliotun dul arvadı və Neyt Sentin bacısı vaodani qəbiləsi ilə uzun sürən dostluq əlaqəsi yarada bildi. Müqəddəs

Kitabın vaodani dilinə tərcüməsi başlandı. Məsihçiləri öldürən kişilər onlara xilası çatdırmaq üçün gəlmiş müjdəçilərin Rəbbinə iman etdilər. Stiv Sent uşaqlığının çox hissəsini vaodanilərin arasında keçirdi. Atasını öldürdüklərinə baxmayaraq Stiv qəbilənin övladlığa götürülmüş oğlu oldu və sonralar öz ailəsini bir müddət onlar arasında yaşamaq üçün oraya apardı. Müjdənin bu qəddar insanlar arasına ağrılı-acılı gəlişi onlarda möcüzəli bir dönüş yaratdı.

Şəhidlik həmişə ruhani aləmdə xeyirlə şər arasında olan böyük döyüşün bir hissəsidir. Məsihçiləri öldürmək onları susdurmaq deyil. Ekvadorda ölən beş nəfər neçə ay ərzində vaodani qəbiləsi ilə ünsiyyət qurmağa çalışmışdı. Komandanın pilotu Neyt Sent bir ideya düşünüb hazırlamışdı. Onlar vedrələri təyyarədən aşağı sallamaqla hədiyyələri mübadilə etmişdilər. Bu qəbilə yad adamlara qarşı əvvəllər də zorakılıq törətmişdi. Amma müjdəçilər qəbilələnin gözündə etibar qazandıqlarını düşünüb onlarla birbaşa əlaqə yaratmaq istəmişdilər. Bundan əvvəl vaodani qəbiləsindən üç nəfər onların yanına gəlib yaxşı ünsiyyət qurmuşdu və heç bir hadisə baş verməmişdi. Cavan məsihçilər bundan sonra qəbilə ilə dostlaşacaqlarına ümid edirdilər, lakin qəbilədaxili çəkişmələrdən xəbərsiz idilər.

Hücum edən dəstə beş kişini nə şəxsi məsələyə, nə də ağ dərili insanlara qarşı münasibətə görə öldürməmişdi. Bu hadisə vaodani qəbiləsindəki daxili münaqişələr zəminində yaranmışdı. *Palm Biç* düşərgəsinə gələn üç qəbilə üzvündən ikisi müjdəçilərin onlarla pis rəftar etdiklərini söylədi. Üçüncü şəxs isə onlarla razılaşmayıb mübahisə etdi. Qəbilənin digər üzvləri müjdəçilərə qarşı deyilənlərin yalan olduğunu bilirdilər. Amma daxili məsələləri həll etməkdənsə müjdəçiləri aradan götürmək onlara daha asan görünürdü. Beləliklə, müjdəçiləri öldürmək üçün plan qurdular. Onlar ağ adamların silahlı olduqlarından xəbərdar idilər, lakin silahdan istifadə etməyəcəklərini düşünmürdülər. Vaodani qəbiləsindən bir neçə nəfər bildirdi ki, müjdəçilərə hücum edəndə qəribə fövqəltəbii səslər eşitmiş və göydə hərəkət edən işıqlar görmüşdülər. Sanki Allah vəfalı xidmətçilərinin sadiqliyini və səmavi evlərinə gəlişini qeyd etmək üçün bir mələk xoru göndərmişdi.

Vaodani xalqı nəsillər boyu dəhşətli əlbəyaxa döyüşlərdə püxtələşmişdi. Şifahi mədəniyyəti təsvir etmək üçün onlar iti yaddaşa

malik idilər və döyüşlərin xırdalıqlarını dəqiqliklə xatırlayırdılar. Vaodani qəbilə üzvlərinin çox vaxt söhbətləri nizə və bıçaq çapıqlarını göstərməkdən və düşmənlərinin dəhşətli ölümlərini təsvir etməkdən ibarətdir. Onlar məsihçilərin başına gələn hadisəni neçə illər sonra danışacaqdılar. Neytin bacısı Reyçl Sent Allahın Kəlamını vaodani qəbiləsinə çatdırmaq üçün onların arasında yaşamağa gəldi. Reyçlın ölümündən sonra Stiv Sent hücumun necə baş verdiyi barədə bütün təfərrüatları eşitdi. Gecə tonqalın yanında oturan yaşlanmış döyüşçülər hadisənin necə olduğunu danışdılar, onlar hələ də ağdərili kişilərin özlərini müdafiə etmək üçün heç nə etmədiklərinə heyrətlənirdilər. Stivə məlum oldu ki, o vaxtdan bəri onun üçün ata olan Minkey atasına ölüm zərbəsini endirən şəxs imiş. Stiv bunu biləndə onun üçün heç bir əhəmiyyət daşımadı. İndi əsas odur ki, Allah vaodani qəbiləsini uzun müddət əsir saxlamış qorxu və zorakılığın əsarətindən azad etmək üçün beş xidmətçisinin şəhidliyindən istifadə etmişdi.

Stiv "Nizədən iti" kitabında atasının qatillərini bağışlamaq barədə ona suallar verildiyini qeyd edir və cavabında bağışlamağın onun üçün çətin olmadığını deyir. Stiv hələ beş yaşında olarkən atasının ölümünün Allahın planının bir hissəsi olduğunu düşünürdü. Əgər hansısa bir hərəkətə görə insanı ittiham etmirsinizsə, onda onu bağışlamağınıza da ehtiyac yoxdur.

Biz vaodani qəbiləsində olan bu hadisədə səhnə arxasında Yaradanı və Onun yollarını görürük. Bir vaxtlar əlçatmaz olan bu qəbilə üzvləri indi özləri başqalarına Müjdəni bölüşürlər. Vaodani qəbiləsindən olan imanlılar Məsih uğrunda əzab çəkmiş və hətta bir nəfər iman uğrunda şəhid olmuşdu. Allahın daha dərin məqsədlərinin aşkar edilməsi vaxt tələb edir. Bəzən diqqət yetirənlər bu məqsədlərin həyata keçdiyini görüb heyran olurlar.

"Bizi güllələməzdən əvvəl bizim üçün
nə qədər dəyərli olduğunuza görə
sizə ürəkdən təşəkkürümüzü bildiririk.
Siz bizi vəftiz etdiniz, bizə əbədi
həyat yolunu öyrətdiniz, indi silah
tutduğunuz həmin əlinizlə bizə Rəbbin
Süfrəsini verdiniz... Qoy Allah sizə
xeyir-dua versin və unutmayın ki, sizin
uğursuzluğunuza qarşı qəzəblənmirik.
Hər kəs qaranlıq vaxtlardan keçir.
Biz minnətdarlıq içərisində ölürük".

**—İki məsihçi qız, Çiu-Çin-Hsiu və Ho-Hsiu-Tzu pastorları tərəfindən öldürülmüşdü. Pastora qızları güllələsə, gözətçilər tərəfindən azad olunacağı vəd edilmişdi.**

# Ester Con

(1929–1960)

Ester Con ingilislərin tabeliyində olan Hindistanda Qəmər Ziya hind adı ilə anadan olmuşdu. O, məsihçi məktəbində təhsil alarkən Müqəddəs Kitabla tanış oldu. Beləliklə, müəllimlərinin canlı imanı onun gənc yaşlarında Məsihə iman etməsinə gətirib çıxardı. Qəmər ürəyini Məsihə verəndən sonra xidmət etməyə və imanda böyüməyə başladı.

Hindistan bölünəndə Qəmər ailəsi ilə birlikdə Pakistana köçdü. Ailəsi onun bir müsəlmana ərə verilməsi barədə qərar çıxardı. Bununla razılaşmayan Qəmər Kəraçiyə qaçdı və orada müjdəçi Marian Lauqesen ilə tanış oldu. Marian gənc qıza Müqəddəs Kitab verdi, onu ruhlandırdı və uşaq evində işlə təmin etdi. Burada Qəmər Ester Con adını özünə götürdü.

Ailəsi Esterə hələ də ərə getmək üçün təzyiq etdiyindən o, Sahivala köçdü. Burada gənc qız Pakistanın ilk anqlikan yepiskopu Çandu Rayın himayəsi altında müjdəçilik xidmətinin təşkil etdiyi xəstəxanada yaşayıb işlədi. 1956-cı ildə Ester Birləşmiş Müqəddəs Kitab Tədris Mərkəzinə qəbul olundu. Tədris kursunu başa vurduqdan sonra Ester Sahivaldan 48 kilometr qərbdə yerləşən Çiçavatni şəhərinə köçdü. Ester amerikalı presviterian müjdəçiləri ilə birlikdə yaşadı və kənd qadınları arasında müjdəçiliklə məşğul oldu. Qadınlara Müqəddəs Yazıları öyrətdi və sahələrdə onlarla yanaşı işlədi. Lakin Ester Müjdəni yaymaqla həyatını ikinci bir təhlükəyə atmışdı.

1960-cı ilin fevralın 2-də Ester Çiçavatnidə öz yatağında vəhşicəsinə öldürüldü. Heç bir istintaq aparılmadı və onun qətlinə görə heç kim cinayət məsuliyyətinə cəlb olunmadı. Ester Sahivalda bir məsihçi qəbiristanlığında dəfn edildi. Bu cəsur qadına hörmət olaraq çalışdığı xəstəxananın ərazisində onun adını daşıyan bir ibadətgah tikildi. Qəflətən həyatını itirsə də, işlədiyi və yaşadığı məsihçi cəmiyyətinə hələ də təsir edir və bu gün də Məsihə sadiqliyinə görə xatırlanır.

# Paul Karlson

(1928–1964)

Müjdəçi Əhd Kilsəsindən olan həkim Paul bir il idi ki, Kaliforniyadan köçüb ailəsi ilə birgə Konqoda yaşayırdı. Konqoda çaxnaşmalar başlayanda bu müjdəçi həkim arvadı Luis və iki uşağını Ubangi çayının əks tərəfinə, Mərkəzi Afrika Respublikasına köçürdü. Paul onlardan ayrılıb Konqoya qayıdarkən ailəsini əmin etdi ki, qaçmaq üçün bir neçə yol planlaşdırıb. Əgər Simba üsyançıları Konqonun dərinliyində olan Vasolo xəstəxanasına yaxınlaşsaydılar, Paul oradan qaça biləcəkdi. Tezliklə Paul həyat yoldaşı ilə bir radio əlaqəsi quraraq xəbər verdi: “Bu axşam buranı tərk etməliyəm”. Amma artıq gec idi.

1960-cı ildə qəfildən Belçika almazla zəngin müstəmləkəsinə, Konqoya müstəqillik verdi. Oranın ərazisinə və qəbilələrinə heç bir hökumət nəzarət edə bilməmişdi. İndi 1964-cü ilin payızında Simba adlı bir üsyançı hərəkat Stenlivil (Kinşasa) şəhərini ələ keçirdi və zəbt etdikləri torpaqları birləşdirmək üçün irəlilədi. Karlson “dünyanın kənarında”, bu cəngəllik şəhərində ailəsi və səksən çarpayılıq xəstəxanada müalicə alan xəstələrinin təhlükəsizliyi üçün narahat idi.

Paul Karlson bir qəhrəman obrazına uyğun gəlmirdi. İnsanlara şəfa verməyə özünü həsr etmiş bu sakit təbiətli insan Stanford Universitetinin Şimali Park Kollecinin və Corc Vaşinqton Universitetinin tibb fakültəsini bitirmişdi. Sonra 1961-ci ildə Paul Konqoda altı ay müddətinə xidmət etmək üçün Məsihçi Tibb və Stomatologiya Cəmiyyətinə qoşulmuşdu. Afrikada xidmət etmək onun xoşuna gəlsə də, cavan ailəsi var idi və özünə karyera qurmağı planlaşdırmışdı. Beləliklə, Paul həkimlik işinə başlamaq üçün Kaliforniyaya, Redondo Biçə qayıtmışdı.

Amma tezliklə cavan həkim qəlbinin harada olmaq istədiyini anladı. O, bir dostuna belə demişdi: “Bu yırtıqları və babasilləri müalicə etmək artıq məni bezdirib”. Beləliklə, Paul 1963-cü ildə ailəsilə birgə Konqoya qayıtdı. Onlar 100,000 nəfər yerli xalqa qulluq etmək və kilsənin inşasına kömək etmək üçün Vasolo şəhərində məskunlaşdılar.



*Paul Karlson Konqoda güllə ilə öldürüldü.*

Bir il sonra 1964-cü ilin sentyabrın 9-da Paul Simba üsyançıları tərəfindən həbs olundu. O, casus olmaqda günahlandırıldı. Üsyançılar Paulun azad olması üçün danışıqlar apardığı vaxtda onu 480 km uzaqda yerləşən Stenlivil şəhərinə apardılar. Bir neçə həftə ərzində üsyançılar əcnəbiləri ələ salaraq öldürdülər. Mütəmadi olaraq Paulu güllələyən dəstənin yanına gətirir, onun gözlərini bağlayıb təpikləyir, döyür, amma sonra güllələmirdilər. Onun azad olunması üçün tələb olunan pul ödənilməmişdi. Gərginlik artırdı. Nəhayət, noyabr ayının ortalarında diplomatları və qapalı saxlanılan yüzlərlə xarici vətəndaşı xilas etmək üçün Amerikanın dəstəklədiyi Belçika paraşütçüləri cəsarətlə şəhərin kənarına düşdülər.

O səhər Paula və Viktoriya otelində qalan girov yoldaşlarına cəld küçəyə çıxmaq əmri verildi. Gənc Simba əsgərləri gözlərini qaldırıb yuxarıdan aşağı enən xilasedicilərі gördülər. Onlar silahlarını toplaşmış əcnəbilərə tərəf tuşladılar. Qorxu və qəzəb içində heç bir kəsə fərq qoymadan küçədə olan yüzlərlə insana atəş açdılar.

Uşaqlar yerə yıxıldı, qadınlar körpələrinin üstünə uzanaraq onları örtdü və kişilər qan itirərək öldülər. İzdihamın arxasından Karlson da daxil olmaqla kiçik bir qrup qaçmaq imkanını gördü. Onlar iki metrlik sement divarı olan evə tərəf qaçdılar. Paul Karlson ora birinci gəlib çatdı və müjdəçi Çarlz Devisə divarın üstündən aşmaq üçün kömək etdi. Sonra Paul özünü yuxarı çəkmək üçün Çarlzın əlindən tutdu, lakin bir Simba pulemyotçusu ona güllə yağdırdı. Paul yerə yıxılıb öldü.

Bir neçə dəqiqə sonra desant paraşütçülər müjdəçilərin sığındıqları evin təhlükəsizliyini təmin etdilər. Fotoqraflar Paul Karlsonun küçədə, yerdə uzanıqlı halda güllələrdən dəlik-deşik olmuş cəsədinin şəkillərini çəkib sənədləşdirdilər. *Time* və *Life* jurnallarında özünü xilas etməyə az qalmış bir anda canını qurban verən həkimin həyat hekayəsi dərc olundu. Lakin Paul əsl sığınacağın harada olduğunu yaxşı bilirdi. Ölümündən əvvəl o öz Əhdi-Cədid kitabında “24 Noyabr” tarixini və “sülh” sözünü nişanlamışdı.

“Paul Karlson Həmkarlığı” təşkilatı vasolo xalqına kömək etməkdə davam edir. Onun xatirəsinə Çikaqodakı Şimali Park Universitetində bir memorial ucaldılıb. Bu abidə “Monqonqa Paul” kimi tanınan müjdəçi həkimin xatirəsini yad edir. O, qısa karyerasında ruhdan düşməyən və Rəbbinə etibar edən sakit qəhrəman idi.

# Yona Kanamuzeyi

(1964)

1990-cı illərin dəhşətli soyqırımı dünyanın diqqətini Ruandaya yönəltdi. Amma bu, hutu ilə tutsi xalqları arasındakı düşmənçiliyin və zorakılığın başlanğıcı deyildi. Bu xalqlar arasındakı ədavət on illər idi ki, davam edib yavaş-yavaş artırdı. 1960-cı ildə Ruanda hökuməti qəbilə zorakılığı nəticəsində evsiz qalan insanları Ruandanın cənubundakı Nyamata bölgəsinə köçürdü. Bu ərazidə bataqlıqlar və çaylar timsahlarla dolu olduğundan az adam yaşayırdı. Buna görə də köçkünləri yerləşdirmək üçün kifayət qədər yer var idi.

Yona Kanamuzeyi oradakı köçkünlərə xidmət etməyi Allahdan bir çağırış kimi hiss etdi. O bunun asan bir tapşırıq olmayacağını bilirdi.

Onun doğulması və erkən yaşları barədə heç bir məlumat yoxdur. Adətən kəndli afrikalılar üçün doğum tarixləri ilin fəsillərilə müəyyənləşdirilirdi və həyatları yalnız şifahi tarixlə qeyd olunurdu.

Valideynləri hutu və tutsi xalqından olan Yona məsihçi imanında böyümüşdü. Sonra o, Ruandanın Nyamata bölgəsində pastor kimi xidmət etməyə başlamışdı. Yona ümumi sayı 6000 nəfər olan iyirmi dörd kilsəyə cavabdeh idi.

Pastorluq işi ilə yanaşı, Yona köçkünlərə yardım paylamaqda kömək edirdi. Pastor məsihçi qaçqınlarla ilk dəfə görüşəndə onlar böyük bir ağacın kölgəsində toplaşdılar. Yona köçkünlərə Müqəddəs Kitabdan ayələr oxuyub Rəbbin onların sığınacağı və kölgəsi olduğunu xatırlatdı.

Yona əvvəlcə özü həmin əraziyə köçdü və ev tapdıqdan sonra həyat yoldaşı Meri və uşaqları da oraya gətirdi. Qonşular bu cütlüyün bir-birlərinə göstərdikləri sevgiyə heyran qalırdılar. Qadınlar Meridən soruşurdular: "Heç ərin səni döymür və ya söymür?" Meri də cavabında deyərdi: "Ərim məni nə döyür, nə də söyür. Amma bəzən məndən onu bağışlamağımı istəyir və mən də ondan məni bağışlamağını xahiş edirəm. İsa bizi bağışlayır və biz birlikdə dua edirik". Həmin ərazidə bu cür məhəbbət göstərən bir ərə çox nadir hallarda rast gəlmək olardı.

1960-cı illərin əvvəllərində tutsi xalqından ətraf ölkələrə qaçanlar Ruandadakı hutu xalqına qarşı mübarizə aparmaq üçün terror taktikalarından istifadə etməyə başladılar.

Terroristlər *inyenzi* və ya tarakanlar adlanırdı. Terror artdıqca insanlar tutsi xalqından olan hər bir şəxsin terrorçu olmasından şübhələnə bilərdi.

1963-cü ilin sonlarında Nyamata ətrafında terrorçuların Ruandaya cənubdan hücum edəcəyi barədə şayiələr yayıldı. Artıq onlar iki dəfə hücum etmişdilər, ancaq *inyenzilər* Ruanda ordusu tərəfindən dəf olunmuşdu. O vaxtdan bəri ordu terrorçularla əlaqədə şübhəli görünən hər kəsi həbs edirdi. Bəziləri edam olunurdu, digərləri isə həbsxanaya salınırdı. Həbsxana dolu olduğundan məhbusların çoxu bu səbəbdən və tibbi yardım çatışmazlığından ölürdü.

Bütün bu qarışıqlıq və çətinliklər içərisində Yona öz xidmətinə davam edirdi. O, bir gecə komendant saatında həyətdə güllələnmiş məsihçinin cəsədini basdırmaq üçün küçəyə çıxmışdı. Bundan əlavə, pastor komendant saatı olmasına baxmayaraq məsihçiləri gecə dua toplantıları üçün öz evinə dəvət etmişdi.

1964-cü ilin yanvarında bir dostu pastorun öldürüləcəyini ona xəbərdarlıq etdi. Yona bunun səbəbini soruşanda dostu ona demişdi: “Səni Allah Kəlamına inandığına və hər kəsi sevdiyinə görə öldürəcəklər”.

Yona isə dostuna belə cavab vermişdi: “Mən iki şey — Allahın Kəlamı və məhəbbəti olmadan yaşaya bilmərəm”.

O, həyat yoldaşı Meriyə təhlükə barədə bölüşdü və onlar birlikdə bunun üçün dua etdilər. Yona duada belə dedi: “Ey Allahım, məni çağırdın və bura gətirdin. Sən mənim ömrümün qalan günlərinin sayını bilirsən. Əgər məni evə çağırmağın Sənin iradəndirsə, mən hazıram”.

Yanvarın 23-də axşam beş Ruanda əsgəri üstüaçıq bir ciplə Yonanın evinə gəldi. Sorğu-sual olunmaq üçün pastorun onlarla getməsini tələb etdilər. Yona və Meri bilirdilər ki, əsgərlər gecə kimisə aparanda o adam artıq geri qayıtmırdı.

Digər iki nəfəri də cipə minməyə məcbur etdilər. Əsgərlər şimala doğru gedərək Nyaboronqo çayı üzərindəki körpüyə çatdılar. Məhbuslara əmr etdilər ki, cipdən düşüb onlara məxsus əşyalarını bir kənara qoysunlar. Gündəliyini kənara qoymazdan əvvəl Yona “Cənnətə gedirik” sözlərini yazdı.

Yona digər iki məhbusla xilasları barədə danışdı, sonra birlikdə mahnı oxumağa başladılar: “Xoşbəxt bir yurd var... orada müqəddəslər izzətə bürünüblər”.

Yona çavuşdan gündəliyini və pulunu arvadına çatdırmasını xahiş etdi. Kişi ona cavab verdi: “Yaxşı olar ki, sən Allahına dua edəsən”. Yona duasında bu sözləri dedi: “Rəbb Allah, bilirsən ki, biz hökumətə qarşı günah işlətməmişik və indi Sənə yalvarıram ki, mərhəmətinlə həyatımızı qəbul edəsən. Günahsız qanımızın intiqamını alasan, nə etdiklərini bilməyən bu əsgərlərə yolunu göstərəsən”.

Yonanın əl-qolu bağlandı və körpüyə tərəf aparıldı. O, yol gedərkən mahnı oxudu: “Daha ədalətli bir vətən var və biz imanla bunu uzaqdan görə bilirik. Ata həmin yerdə yolun üstündə durub bizi gözləyir və orada yaşamağımız üçün yer hazırlayıb”.

Əsgər atəş səsi ilə mahnı səslərini kəsdi. Yonanın cəsədi çaya atıldı.

Əl-qolu bağlı və güllələnməyə hazır olan Yonanın dostu Endryu Kayumbanı isə evinə qaytardılar. Ona ciddi xəbərdarlıq olundu ki, pastor Yonanın öldürülməsi barədə heç kəsə danışmasın. Kayumba Ruandadan qaçıb getdi. Pastor Yona onu öldürən şəxs üçün dua edib ölümünə qədər mahnı oxumuşdu. Bunları görən dostu Endryu sonralar yoldaşının cəsarəti haqqında insanlara danışdı.

“Həbsxanadan əvvəl Allah haqqında eşitmişdik. Amma həbsxanada biz Allahın hüzurunu hiss etdik”.

**— İmanına görə həbs olunan çinli ev kilsə rəhbəri pastor Zi**

# Uatçmen Ni

(1903–1972)

Uatçmen Ni bənzərsiz, sadiq və işini bilən bir şəxsiyyət idi. Onun fikirləri, öyrətdiyi təlimlər və ənənəviliyi ilə bağlı mübahisələr var. Buna baxmayaraq onun 1920-ci illərdə yaratdığı "Kiçik Sürü" adlı ruhani hərəkatı Maonun hakmiyyəti illərində və sonralar Çində məsihçiliyin möhkəmlənməsinə kömək etdi.

Ni 1903-cü ildə müəllim və müjdəçi ailəsində anadan olmuşdu. Anası ona Şi-Tsu adını vermişdi, amma sonralar o, adını dəyişib "zəng çalan" və ya Uatçmen adlandırmışdı. Bu, Ninin gələcəkdə görəcəyi xidmətə bir işarə idi. Onun öyrətdiyi təlimlər Əllincilər və Plimus Qardaşlıq hərəkatından bəhrələnirdi. Ninin fikirləri, eləcə də ingilis pastoru Robert Qovett və Londonun *Honor Oak* kilsəsindən olan Teodor Austinin təlimlərinə əsaslanırdı.

Ni on yeddi yaşında Məsihə iman etdi. Sonra o, kilsələrin coğrafi baxımdan hər şəhərdə düzgün təşkil edilməsini öyrətdi. Nəticədə, Ni 700-ə yaxın kilsəyə pastorluq və müəllimlik etdi. Uatçmen qeyd edirdi ki, Allah hər insana onun təbii hisləri ilə danışır. O, dünyanın sonu, xüsusən də kilsənin göyə qalxmasından[6] danışırdı. Onun fikrincə, dünyanın sonu gələndə yetkin məsihçilər göyə qaldırılacaq. Lakin hələ də ruhani inkişafa ehtiyacı olan imanlılar isə Müqəddəs Kitabda qeyd olunan "Böyük Əziyyət"ə dözməlidirlər. Uatçmenin ideyalarında bu fikirlər əsas yer tuturdu. Onun bu təlimlərini hələ də dünyada tanınmaqda olan "Normal Məsihçi Həyatı" və "Otur, Gəz, Dayan" kitablarından oxuya bilərik.

1942-ci ildə Ni qardaşının kimyəvi maddələr fabrikinin rəhbəri vəzifəsini üzərinə götürdü. Sonra o, "Kiçik Sürü" hərəkatının üzvlərini işə cəlb etməklə fabrikin gəlirini bu cərəyanın inkişafına tərəf yönəltdi. Uatçmen 1947-ci ildə yeni kilsələr yaratmaqla və məsihçiləri öyrətməklə məşğul oldu. Ni Yerusəlimdəki kilsəni (Həvarilərin İşləri 8) əsas götürərək Müjdənin başqa yerlərə yayılmasında iştirak etdi. Onun əməyi sayəsində

6 Bu, Con Darbinin Plimus Qardaşlığı təlimində vurğulanmışdı.

Çinin hər yerində yüzlərlə ev kilsələri yarandı. Ni çalışırdı ki, hər şəhər və kənddə olan kilsə özü-özünü yetişdirib dəstəkləsin və idarə etsin.

Fədakar, idealist və çalışqan insan olan Uatçmen Çin millətçiliyinə qoşulmaq istəmədi. 1949-cu ildə Mao Çində hakimiyyətə gələndə Nini bir imperialist kimi həbs etdi. O, uydurulmuş casusluq, əxlaqsızlıq və kilsə fondunu oğurlamaqda ittiham olundu. Ölümündən bir az əvvəl rəhbərlik məsuliyyət daşımamaq üçün onu azadlığa buraxdı.

Pastor Ninin və davamçılarının (xüsusən Şahid Li) yazdıqlarını araşdıran şərhçilər fikir ayrılığına görə bölündülər. Şərhçilər Ninin strategiyası, Müqəddəs Kitab izahatı və onun ruhani inkişaf barədə müxtəlif mənbələrinə görə bir-birindən fərqlənirdilər. Amma heç kim Ninin Məsihə sadiqliyinə və iyirmi ildən artıq Maonun təqibləri qarşısında göstərdiyi cəsarətinə şübhə etmədi.

Allah otuz beş ildən artıq bir müddətdə Çində artan gizli kilsələr yaratmaq üçün Uatçmen Ninin qabiliyyətindən istifadə etdi. Uatçmen Ninin xidməti vasitəsi ilə 150 mindən çox insan Məsihin şagirdi oldu. Bu rəqəm onun “Kiçik Sürü” adlı xidməti sayəsində hələ də artmaqda davam edir.

"Siz nədən əziyyət çəkmisinizsə, başqalarına da həmin sahədə kömək edə biləcəksiniz. Verdiyiniz qurbanlar nə qədər böyükdürsə, başqalarına da bir o qədər çox kömək edəcəksiniz. Alovlu sınaqlardan, çətinliklərdən, əziyyətlərdən, təqiblərdən və münaqişələrdən keçərkən sizdən Məsihin həyatı başqalarına axacaq".

**— İmanına görə Çində həbs olunan Uatçmen Ni**

# Uanq Çiminq

(1907–1973)

Uanq Çiminq Mədəni İnqilab dövründə kommunistlər tərəfindən edam edilmişdi. O, Çində şərəfinə abidə ucaldılan yeganə məsihçi idi. Bundan əlavə, Londonda Vestminster abbatlığının divarında olan on şəhid heykəlindən biri ona məxsusdur.

Yunnan bölgəsinə müjdəçilərin gəlişindən bir il sonra Uanq Vudinq əyalətində doğulmuşdu. O, məsihçi məktəbində müəllimlik etmişdi. Çinin ən çətin onilliklərindən birində 2800 məsihçinin pastoru olmuşdu. Mədəni İnqilabın məqsədi qədim və ənənəvi hər şeyi kənara atıb Çini müasir bir dövlətə çevirmək idi. Uanq "Üçlü idarəçilik islahatı"na qoşulmuşdu. Bu, Çində xarici təsirlərdən uzaq vətənpərvər bir kilsə strategiyası idi. Lakin Uanq ictimai ifşa etmə toplantılarında xarici müjdəçiləri ittiham etmək istəməmişdi. Uanq onları vəftiz edən xariciləri incitməməli və alçaltmamalı olduğunu söyləmişdi.

1969-cu ilin mayında inqilab zamanı Uanq və ailəsinin üzvləri həbs olundu. "Qırmızı keşikçilər" (gənclər dəstəsi) Çiminqin onları tənqid etdiyini bilirdi. Uanqın "xarici bir dinə" rəhbərlik etməsi camaata məlum olduğundan təhlükəli bir iş idi. O, hökm cəzası çıxarılana qədər dörd il həbsdə gözləməli oldu. 1973-cü ilin dekabrın 29-da Uanq stadionda 10 min tamaşaçı qarşısında edam edildi. Pastor Uanq bu son sözləri dedi: "Siz göylərdən gələn sözlərə əməl edib tövbə etməlisiniz". (Hər şeydən üstün olan Allahın ardınca gedin).

Uanqın arvadı üç il, oğullarından ikisi isə doqquz il həbsxanada qaldı. Üçüncü oğlu isə həbsdə olarkən öldü. Nəhayət, Çin hökuməti Uanq Çiminqə qarşı edilən haqsızlığı başa düşdü və ailəsinə 250 ABŞ dolları təzminat ödədi. Bu cüzi məbləğ bir insanın dəyərini ödəmək üçün verildi. Həmin vaxt ərzində Vudinq bölgəsindəki kilsə Uanqın istədiyi kimi on dəfə böyüdü.

# Minka Hanskemp və Marqaret Morqan

(1974)

Biri Uelsdən, digəri isə Hollandiyadan olan iki tibb bacısı Tailandda cüzam klinikasına rəhbərlik edirdi. 1974-cü ildə siyasi vəziyyət pisləşdi. Onlar partizanlar tərəfindən oğurlanaraq pul almaq üçün girov saxlanıldı. Partizanlar tibb bacılarının azad olunması üçün Xarici Müjdəçi Cəmiyyətindən 500 min ABŞ dolları və eləcə də Fələstin hüquqlarını dəstəkləmək üçün İsrail hökumətinə bir məktub yazmağı tələb etdilər.

Minka İndoneziyada böyüyən Hollandiya vətəndaşı idi. II Dünya Müharibəsi ərəfəsində 1939-cu ildə Yaponiyanın İndoneziyaya hücumundan sonra ailəsindən ayrılaraq həbs düşərgəsinə göndərilmişdi. Minka düşərgədə tibb bacısı olaraq bir çox insanın həyatını xilas etmiş və azadlığa buraxıldıqdan sonra ailəsinə qovuşmuşdu. Sonra Yeni Zelandiyaya yollanaraq Müqəddəs Kitab Kollecində təhsil almışdı. Tailandda Xarici Müjdəçi Cəmiyyətində (XMC) xidmətə başladıqda həm mamaça, həm də ucqar cüzam klinikasında işləmişdi.

Marqaret Allahın çağırışını hiss edəndə artıq tibb bacısı idi və Hermon Dağı Müjdəçilik Kollecində müjdəçilik təhsili almışdı. Sonra o, Uelsin Port şəhərində yerləşən *Tabernacle* baptist kilsəsinin dəstəyi ilə Tailanda yollanmışdı.

Minka və Marqaret on bir ay itkin düşdü. Onların Tailandda Pujud əyaləti yaxınlığında saxlanıldığı ehtimal olundu. 1975-ci ilin martında BBC radiosu cəngəllikdə iki cəsədin tapıldığını xəbər verdi. Onlardan biri Marqaretin idi və beş ay əvvəl güllə ilə qətlə yetirilmişdi. Malayziyalı bir şəxs bu iki qadını öldürdüyünü boynuna aldı. Keçmiş üsyançı olan bu adam dedi ki, qadınlar güllələnəcəklərini biləndə belə xahiş etmişdilər: “Bizə oxumaq və dua etmək üçün bir az vaxt verin”.

# Canani Luvum

## (1922–1977)

1977-ci ilin fevralın 16-da Uqanda Respublikasının prezidenti İdi Amin tərəfindən Canani Luvumun həyatına son qoyuldu. Həmin il Uqandadakı məsihçi kilsəsi 100 illiyini qeyd etdi.

Şimali Uqandada anadan olmuş Canani Luvum 1956-cı ildə orada anqlikan kilsəsində xidmətinə başladı. Daha sonra o, Kanterberidəki Müqəddəs Avqustin Kollecində və Birləşmiş Krallıqdakı London İlahiyyat Kollecində təhsil aldı. Beləliklə, Canani rahiblikdən arxiyepiskop rütbəsinə kimi yüksəldi. 1948-ci ildən bəri Şərqi Afrika Dirçəliş Cəmiyyətinin fəal üzvü olmuş Canani həmişə deyirdi: "Tanrının nəvəsi yoxdur. Yalnız oğulları və qızları var". O, insanları valideynlərinin imanından asılı olmayaraq İsa vasitəsilə Allah ilə canlı və şəxsi ünsiyyət qurmağa səsləyirdi. Luvum həqiqətən inanırdı ki, həyat nə qədər çətin olsa da, Allah insanı heç vaxt tərk etmir. Luvum hakimiyyət tərəfindən xəyanətdə ittiham olundu və bunun ölümlə nəticələnəcəyi hamıya məlum idi. Canani prezident Aminə belə cavab verdi: "Biz bu işdə Allahın əlini görməliyik".

Luvum 1974-cü ildə Uqanda, Ruanda, Burundi və Boqa-Zairin anqlikan kilsəsinin baş yepiskopu oldu. Prezident Aminin rejimi dövründə ictimaiyyət qarşısında edamlar edilir, insanlar tez-tez itkin düşür və ölkədən qovulurdu. İnsan hüquqlarının kobud şəkildə pozulduğunu görən Luvum bu kafedradan açıq şəkildə qanunsuzluğu tənqid etməyə başladı. İnsanlara malik olan əmlak qeyri-qanuni olaraq müsadirə edilirdi. Uqanda prezidenti İdi Aminin səkkiz illik terror hakimiyyəti dövründə çox az tənqidçi sağ qalardı.

Luvum öldürüldükdən sonra ailəsi və anqlikan kilsəsinin bəzi yepiskopları ölkədən qaçıb getdilər. Lakin onun ölümü Aminin qəddarlığına qarşı müqaviməti gücləndirdi. 1979-cu ilin aprelində Uqanda üsyançıları və Tanzaniya qoşunlarının birgə səyi nəticəsində Aminin rejimi dağıdıldı. Kilsə isə bu vaxt ciddi təqib altında olsa da, işini davam etdirdi.

Uqanda prezidenti İdi Amin üçün insan həyatı çox ucuz idi. İnsanlar bahalı avtomobilə və ya gözəl həyat yoldaşına görə həyatlarını itirə

bilərdi. Luvum bunların Allahın iradəsinə zidd olduğunu cəsarətlə söylədi. Çoxlarının danışmağa cürət etmədiyi bir zamanda Luvum sanki səhrada nalə çəkən bir səs oldu. Hər il fevralın 17-si onun anım günü kimi xatırlanır. Anqlikan kilsəsi Luvumu iyirminci əsrin şəhidi kimi tanıyır və Londonda Vestminster abbatlığının ön divarında onun şərəfinə heykəl qoyulub. Kampalada bir küçə onun adını daşıyır.

"Ey Məsih, Səni daha çox məhəbbətlə sevək. Daha çox məhəbbətlə".

**— Valideynlər Məsihi inkar etmədikləri üçün şimali koreyalı məsihçilərin övladları kommunistlər tərəfindən asıldığı zaman oxunulmuşdu.**

# Çester A. "Çet" Bitterman III

(1952–1981)

Çet Bitterman Müjdəni bölüşməyin baha başa gələcəyini bilirdi. Lakin buna baxmayaraq o, Müjdəni çatdırmaq üçün böyük həvəslə Kolumbiyaya yollandı. Çet həyat yoldaşı Brenda ilə Kolumbiyaya getməzdən əvvəl bu sözləri gündəliyinə yazmışdı: "Ağlıma tez-tez belə fikir gəlir ki, deyəsən Allah məni Kolumbiyadakı xidmətində Onun uğrunda şəhid olmağa çağırır. Mən hazıram". Çetin bu qeydində Xilaskarına sadiqliyi açıq-aşkar görünürdü.

Silahlı adamlar 1981-ci il yanvarın 19-da səhər Kolumbiyanın Boqota şəhərindəki Uiklif Müqəddəs Kitab Tərcüməçilərinin qonaq evinə soxuldular. Onlar xidmətin rəhbərini, daha yüksək vəzifəli bir insanı girov götürmək istəyirdilər. Bunun əvəzinə onlar Çesteri tutdular, dostları onu qısaca "Çet" deyə çağırırdılar. Ertəsi gün prezident Ronald Reyqan and içərək vəzifəyə gəldi və amerikalı girovlar 444 günlük əsirlikdən sonra İranı tərk etdilər. Onların işgəncəli sınaqları bitdi, amma Çet və Brenda üçün əzablı günlər yenicə başlayırdı.

Çet ilə Brenda bir müddət idi ki, Kolumbiyada yaşayırdılar, onların qarşısında xidmətləri və tərcümə işləri dururdu. Cütlük dil öyrənərək Uiklif təşkilatının müxtəlif tapşırıqlarında kömək etmişdi. Onlar həm də qonaq evini idarə etməklə, işçilər üçün əşyalar almaqla və hətta radio operatoru olmaqla öz köməklərini əsirgəməmişdilər. Nəhayət, Allahın onlar üçün qapı açdığını hiss edərək cəngəlliyə köçmüşdülər. Orada Karicona hindu qəbiləsi ilə birlikdə yaşamağı, dil öyrənməyi və nəticədə tərcümə işinə başlamağı planlaşdırırdılar. M-19 terrorçuları onu oğurlamazdan bir neçə gün əvvəl Çet inşaat malları mağazalarını gəzərək kariconalıların yanına köçmək üçün materiallar alırdı.

Terrorçuların birinci tələbi onların fikirlərinin dünyanın bir sıra aparıcı qəzetlərində çap olunması idi. İkinci tələb isə bütün Uiklif təşkilatının

işçilərinin otuz gün ərzində Kolumbiyadan çıxıb getməsi idi, əks təqdirdə Çeti öldürəcəkdilər.

Uiklif təşkilatının mövqeyi aydın idi. Onlar Kolumbiya üçün olan Allahın çağırışını hələ tam həyata keçirməmişdilər. Çəkdikləri zəhmətləri yarıda qoyub gedə bilməzdilər. Çet də istəməzdi ki, onlar bu qədər insanı qoyub getsinlər, çünki bu xalqlar Allahın Kəlamını ürəklərinə yaxın olan ana dilində hələ oxuya bilmirdilər.

Brenda və Çetin iki azyaşlı qızları var idi. Qızlarından biri hələ güclə gəzməyə başlayırdı. Brenda dua edirdi ki, Çet sədaqətlə əzbərlədiyi Müqəddəs Yazıları xatırlasın. Partizanlar Uiklif təşkilatının çıxıb getməsi barədə fikirlərini dəyişmədilər. Uiklif təşkilatı isə hələ on il davam edəcək tərcümələri bitəndən sonra gedəcəyini bildirdi.

Çetdən bir məktub gəldi. Onun sözlərində heç bir ruh düşkünlüyü və narahatlıq deyil, əksinə ümid hisləri duyulurdu:

> "Rəbb 2 Korinflilərə 2:14-cü ayəni mənə xatırlatdı:
>
> 'Bizi həmişə Məsihin zəfər təntənəsində addımladan, Onu tanımaqdan yaranan ətri bizim vasitəmizlə hər tərəfə yayan Allaha şükür olsun!' Romalılar 'zəfər' sözündən əsgərlər uğurlu döyüşdən qələbə ilə qayıdarkən istifadə edirdilər... Mənim burada Danielin üç dostu, Paul və Silanın Filipidə həbsdə olarkən yaşadıqları barədə düşünməyim üçün vaxtım çoxdur.
>
> Allah Danielin dostları üçün qeyri-adi bir möcüzə etdi ki, insanlar hər bir şeydə Onu tanıya bilsinlər və səhv düşüncələrini dəyişsinlər. Bu möcüzənin nəticəsində hamı Allahın kim olduğunu dərk etdi. Paul və ona nəzarət edən əsgəri yadına sal. Mənim üçün bunu fikrində saxla. Belə bir şey baş verərsə, gözəl olmazdımı?"

Brenda dualarının qəbul olunduğunu görəndə çox sevindi. Çet Müqəddəs Yazıları xatırlayırdı.

Çetin girov saxlanıldığı müddətdə Rəbb Öz işini həyata keçirdi. Kolumbiya mediası Müjdədən sitat gətirərək Uiklifin işləri barədə xəbər verdi və məsihçilərin əməyini müsbət qiymətləndirdi. Çetin öz

məktubunda qeyd etdiyi ayələr Kolumbiya qəzetlərində çap olundu. Beləcə, Allahın Kəlamı yayıldı.

Çetin oğurlanmasından 48 gün sonra martın 7-si səhər sinəsinə vurulan bir güllə ilə onun həyatına son qoyuldu. Onun cəsədi bir avtobusda tapıldı. Qanında yuxugətirici maddə aşkarlandığı üçün güman edilir ki, Çet heç bir ağrı hiss etmədən qətlə yetirilmişdi.

Onun ölümü barədə xəbər hər yerə yayıldı. Çetin valideynləri ilə olan bir radio müsahibəsi ölkə daxilində dəfələrlə yayımlandı. Çetin atası dedi: “Çeti bu həyatda bir daha görməyəcəyimə çox üzülürəm, lakin bilirəm ki, onu yenidən cənnətdə görəcəyəm”. O, Çetin Kolumbiya xalqını nə qədər sevdiyini söylədi. Anası oğlunun Kolumbiyada öldürülməsinə baxmayaraq hələ də oradakı xalqa məhəbbət bəslədiyini bildirdi: “Partizanların bir gün Allahı tanıyacaqlarına ümid edirəm”.

Çet yaşadığı və işlədiyi Uiklif təşkilatının məntəqəsi olan Lomalinda əyalətində dəfn olundu. Onun Kolumbiya torpağında dəfn edilməsi bu məsihçinin ölkəyə və insanlara olan sevgisini təcəssüm etdirir.

Dünyanın başqa yerlərində keçirilən Çetin anım mərasimlərində bir çoxları Alahın xidmətinə qoşuldu. Onlar müjdəçilik işinin təhlükəli olduğu ön cəbhələrə üz tutdular. Çetin ölümündən sonrakı aylarda xidmət etmək üçün Uiklif təşkilatına müraciət edənlərin sayı artdı.

“*Belə bir şey baş verərsə, gözəl olmazdımı?*”

Çetin sözləri peyğəmbərlik sözləri idi. Allahın Kəlamı yayılmağa başladı və insanların ürəyinə toxundu. Xilaskarına görə canını fəda edən bir adamın sayəsində bir çoxlarının həyatları dəyişildi. Bunlar şəhidin iki sözü ilə başladı: “Mən hazıram”.

# Pastor Mehr və Mehdi Dibaj

(1994)

1994-cü ilin yanvarın 19-da pastor Mehr bir dostunu qarşılamaq üçün Tehranın Mehrabad hava limanına gedərkən yolda oğurlandı. Arvadı Takuş dörd övladı ilə birlikdə on gün ərzində əri barədə bir xəbər gözləyirdi. Onlar Mehrin məsihçi imanına görə oğurlandığına və bəlkə də öldürüldüyünə şübhə etmirdilər.

"Assemblies of God" kilsəsinin baş rəhbəri və İranın "Protestant Xidmətçiləri Şurası"nın sədri olan Mehr hörmətli və nüfuzlu bir müjdəçi idi. O, İrandakı müsəlmanlara Müjdəni bölüşmək istəyirdi və hökumətin ibadəti ilə əlaqədar qoyduğu qadağalara əməl etmirdi. Bu məhdudiyyətlərə əsasən ibadətlərin rəsmi fars dilində keçirilməsi və müsəlmanların orada iştirak etməsi qadağan olunurdu. Qəlbini Məsihə vermiş müsəlmanlar da bu siyahıya aid idi. Pastor Mehr din azadlığı, məsihçilərə qarşı ayrıseçkilik və onların təqiblərinə qarşı açıq şəkildə danışırdı. Bu fəal pastor İranda məsihçilərin dini azadlığı barədə olan saxta bəyannaməni imzalamaqdan imtina etmişdi. Bu bəyannaməyə əsasən İranda məsihçilərin dini azadlığı üçün bütün hüquqlar təmin olunurdu. Mehr həm də musiqiçi idi və fars dilində kilsə üçün bir neçə mahnı, eləcə də himnlər bəstələmişdi.

Pastor Mehrin itkin düşməsində şübhəli bir cəhət var idi. Bu hadisə tanınmış iranlı pastorun həbsdən azad olunmasından üç gün sonra baş vermişdi. Pastor Mehdi satqınlığa görə ittiham edilərək ölüm cəzasına məhkum olunmuşdu. Mehr isə beynəlxalq diqqəti Mehdinin haqsız olaraq on ilə yaxın həbs cəzasına tərəf yönəltmişdi.

Gənc yaşlarında məsihçiliyi qəbul edən iranlı müsəlman Mehdi Dibaj Allahın Kəlamına böyük həvəs göstərmiş və onu başqaları ilə bölüşmək istəmişdi. O, pastor və müjdəçi olmaq üçün İrandakı "Assemblies of God" kilsəsinə qoşulmuşdu. 1983-cü ildə Mehdi imanına görə həbs olunaraq 9 ilini İranın şimalında yerləşən Sarı Həbsxanasında keçirmişdi. Bu müddət ərzində o, işgəncələrə məruz qalmış, döyülmüş və təkadamlıq

kamerada saxlanılmışdı. Onun arvadını ərindən boşanıb müsəlman bir kişi ilə evlənməyə məcbur etmişdilər. Buna baxmayaraq Mehdi həbsxanada olduğu müddətdə Allahın ilahi planına və müdafiəsinə inanmış, heyrətamiz bir cəsarət və iman nümayiş etdirmişdi. Sonra o, həbsxana təəssüratları barədə bölüşərkən belə demişdi: "Əyyubun Allahı səbrimi və Ona sadiqliyimi artırmaq üçün imanımı və etibarımı sınadı. Bu doqquz il ərzində O məni bütün cavabdehliklərimdən azad etdi ki... vaxtımı duaya və Onun Kəlamını öyrənməyə sərf edim... və Rəbbimi daha dərindən dərk edim. Bu misilsiz fürsət üçün Rəbbə minnətdaram"

Nəhayət, 1993-cü ilin dekabrında Dibaj islam məhkəməsində mühakimə olundu, dininə dönük çıxdığına və ya islam inancından üz döndərdiyinə görə ölüm hökmü ilə cəzalandı. Həmin vaxt Dibaj artıq qırx beş il idi ki, məsihçi idi. Onun edam günü növbəti aya təyin edilmişdi. Dibajın ölüm hökmü barədə eşidən Mehr pastoru azad etmək üçün bir kampaniyaya rəhbərlik etdi. O, ədalətsiz məhkəmə qərarına qarşı çıxış etməklə, baş verənləri ictimaiyyətə çatdırmaqla beynəlxalq diqqəti Dibajın acınacaqlı vəziyyətinə yönəltdi. Qərbdəki və BMT-dəki insan haqları üzrə qrupların artan təzyiqləri nəticəsində İran hakimiyyəti Dibajı 1994-cü ilin yanvarın 16-da həbsdən azad etdi. Lakin bundan üç gün sonra pastor Mehr yoxa çıxdı.

On bir gün ərzində Mehrin ailəsi onun vəziyyəti ilə bağlı həyəcan içində qaldı. Nəhayət, yanvarın 30-da pastorun ölümü barədə ailəsinə xəbər verildi. O, bıçaqlanaraq öldürülmüşdü və sonra bir müsəlman qəbiristanlığında dəfn edilmişdi. Takuş və övladları cəsədin çıxarılması və məsihçi qəbiristanlığında yenidən dəfn olunması üçün icazə aldılar. Mehrin ölümü ailəsi üçün dəhşətli bir hadisə idi. Onlar bilirdilər ki, İrana həqiqət və ümid gətirmək istəyən bu insan hər gün təhlükə ilə qarşılaşırdı. Oğurlanmasından bir gün əvvəl pastor məktubunda bu sözləri yazmışdı: "Mən insanların sülhdə və qorxusuz ibadət etmələri üçün kilsə uğrunda ölməyə hazıram".

Mehrin böyük səyləri nəticəsində on ilə yaxın həbsdə olan Mehdi Dibaj nəhayət, azadlığa çıxdı. Ancaq tezliklə o da belə bir tale ilə üzləşəcəkdi. Həbsdən buraxıldıqdan beş ay sonra 1994-cü ilin iyunun 24-də Dibaj da müəmmalı tərzdə oğurlandı. O, Kərəcdə keçirilən bir məsihçi toplantısında iştirak etmişdi və qızının on altı yaşını qeyd etmək

üçün Tehrana evə qayıdanda yoxa çıxmışdı. İyulun 5-də onun cəsədi Tehrandakı bir parkda tapıldı. O, bıçaqlanaraq öldürülmüş və boynunda kəndir izləri aşkar edilmişdi. Bu vaxta qədər heç kim onun ölümünə cavabdeh olduğunu söyləməyib.

Bu şəhidlər İranda Məsihə iman etdiklərinə görə eyni cür təqib olunub öldürülən bir çox məsihçilərdən yalnız ikisidir. Məsihçilər İranda yaşayan əhalinin cüzi bir hissəsini, 1%-dən də az hissəsini təşkil edirlər. 1979-cu ildə baş verən İran inqilabından sonra məsihçilərə qarşı təqiblər və ayrı-seçkiliklər daha da artdı. Buraya xarici müjdəçilərin ölkədən çıxarılması, kilsələrin və 1980-ci illərdə İran Müqəddəs Kitab Cəmiyyətinin bağlanması və Kəlamın, eləcə də məsihçiliyə aid digər kitabların nəşrinin qadağan edilməsi aiddir. Buraya kilsə binalarında müntəzəm polis yoxlamaları, hökumətin ibadətlərə qoyduğu məhdudiyyətlər, habelə İran hakimiyyəti tərəfindən hədə-qorxular və təhdidləri də daxil etmək olar. Məsihçiliyi qəbul edən müsəlmanlar bu hədə-qorxularla daha çox üzləşirlər.

Yepiskop Mehr və Mehdi Dibaj Müjdəni İrana gətirmək üçün hər gün təhlükə ilə üzləşsələr də, fəal surətdə xidmət etdilər. Onlar həyatlarını Allaha qurban verərək ölənədək Ona sadiq qaldılar. Pastor Dibaj məhkəmə zamanı demişdi: “Mənim üçün həyat Ona xidmət üçün bir imkandır, ölüm isə Məsihlə birlikdə olmaq üçün daha yaxşı bir fürsətdir. Ona görə də Rəbbin müqəddəs adı uğrunda təkcə həbsxanada qalmağımdan məmnun deyiləm, həm də Rəbbim İsa uğrunda canımı verməyə və Onun səltənətinə, Allahın seçilmişlərinin yanına, əbədiyyətə tezliklə daxil olmağa hazıram”.

# Abram Yak Denq

(1998)

Onun Müqəddəs Kitabı balaca idi və vərəqləri tökülürdü. Lakin Abram Allahın Kəlamını vəz edərək onu təsirli surətdə insanlara çatdırırdı. Onun ruhani təhsili çox olmasa da, böyük bir kilsəyə sədaqətlə xidmət edirdi. Abramın kilsəsi Sudanın Bəhr əl-Qəzəl əyalətində yerləşən Turaley şəhərinin yaxınlığında yerləşirdi. 400 sudanlıdan ibarət olan bu toplantıda yalnız Abramın Müqəddəs Kitabı var idi. O bu kitabdan hamıya dərs keçirdi. Kilsəyə gələnlər yazıb oxumağı bacarmırdılar və pastor kişi, qadın və uşaqlara yazıb-oxumağı öyrətmək istəyirdi. Bir məsihçi xidməti kilsəyə yüzlərlə Müqəddəs Kitab gətirdi. Bu, Abramı çox sevindirdi, çünki hər kəs Kəlamı oxuya biləcəkdi.

Müqəddəs Kitabları aldıqdan dörd gün sonra radikal islamçılar kəndə hücum etdilər. Abram yaxın məsafədən başından güllə ilə vuruldu və yerindəcə həyatını itirdi. Kilsəyə od vuruldu, amma bir çoxları vaxtında oradan çıxıb qaça bildi. Həmin gün yüzə yaxın kəndli qətlə yetirildi və bir çox insan oğurlanaraq qul kimi işləməyə məcbur edildi. Onlara ümid və sevinc gətirən Müqəddəs Kitablar alovda yandırıldı.

Abramın ən sevimli ayələrindən biri Romalılara 6:23-cü ayə idi: "Çünki günahın əvəzi ölümdür, Allahın hədiyyəsi isə Rəbbimiz İsa Məsih vasitəsilə əbədi həyatdır". Bu gün Abram əbədiyyətdə bu təmənnasız hədiyyəni əldə edir.

Qərbin standartlarına görə sudanlı bir ailənin əmlakı çox az və primitiv hesab oluna bilər. Yaşadıqları samandan damı olan evdə, *tukeldə* demək olar ki, heç bir dəyərli şey yoxdur. Amma bu bacı-qardaşlar yerdəki əmlakları üçün deyil, göylərdə sahib olacaqları əmlak üçün böyük fədakarlıq göstərməyə hazırdırlar. Onlar İbranilərə 10:34-cü ayədəki vədi bir gün təcrübədən keçirəcəklər: "Həm də siz məhbusların çəkdiyi əzablara şərik oldunuz, özünüzün daha yaxşı və daimi malınız olduğunu bilərək əmlakınızın talan edilməsini sevinclə qəbul etdiniz". Sudan məsihçiləri böyük qurbanlar versələr də, göylərdə alacaqları mükafat daha möhtəşəm olacaq.

# Antonio Revas

(1998)

1998-ci ilin yanvarın 23-də səhər saatlarında silahlardan açılan güllə səsləri Revas ailəsini yuxudan oyatdı. Tapancalar, Uzi avtomatik silahlar və AK-47 tüfəngləri ilə yaraqlanmış *FARK*[7]-ın kiçik partizan dəstəsi qapıdan içəri soxuldu. Onlar hərbi forma geyinmiş və sombrero papaqları taxmışdılar. Partizanlar tələb etdilər ki, pastor Antonio və onun iyirmi iki yaşlı ən böyük oğlu Roberto onlarla getsin. Onları yerli *FARK* komandirlərindən biri ilə görüşməyə aparırdılar. Pastor Revas və oğlu Roberto ailə üzvləri ilə son dəfə öpüşüb qucaqlaşaraq vidalaşdılar.

O vaxt Revasın arvadı Rosa narahat deyildi və qorxmurdu, çünki bu cür adamlar oğullarının üsyançı hərəkata qoşulmasını tələb edərək əvvəllər də evlərinə gəlmişdilər. Rosa gələn adamlarla danışmağa başladı və getməzdən əvvəl oğlu Robertonu geyindirməli olduğunu söylədi. Rosa yan otağa keçərək şübhələrini sakitcə Robertoya pıçıldadı. Oğlu anasına hər şeyin qaydasında olacağını və Allahın onları tərk etməyəcəyini xatırlatdı.

Rosa gəlni və ailəsi ilə birlikdə bütün gecəni Antonio və Robertonun qayıtmasını gözlədi. Bu iki kişi hələ də qayıtmadığı üçün səhər açılanda Rozanın gəlni və iki nəvəsi onları axtarmağa getdilər. Çox keçmədən qışqıraraq geri döndülər: “Ana, bizə mələfə lazımdır! Bizə bir neçə ədəd mələfə lazımdır! Onları güllələyiblər!”

Evlərindən yalnız bir məhəllə uzaqda Antonio və Roberto güllə ilə vurularaq öldürülmüşdü. Bir güllə Robertonun başının arxasından dəyərək dəlib keçmişdi. Pastor Antonio isə boynunun arxasından və alnından güllələnmişdi.

Nə üçün *FARK* partizanları Antonio və Roberto Revası hədəf almışdı? Ailə bir çox hallarda partizanlara qarşı çıxmışdı. Partizanlar onların evlərinə gələrək oğullarından marksist hərəkatına qoşulmalarını tələb etdikdə Antonio və Rosa bundan imtina etmişdi. Onlar Məsihin davamçısı olduqlarını və marksist ideologiyasını dəstəkləmədiklərini söyləmişdilər.

---

[7] Kolumbiyanın İnqilabi Silahlı Qüvvələri

*FARK* partizanları bütün fermerlərdən ödəniş istəyirdilər. Pastor Antonio isə bunu ödəməkdən imtina etmişdi. O, Malaki 3:8-ci ayədən sitat gətirərək bildirmişdi ki, imanlı kimi ondabir hissəni üsyançılara deyil, Rəbbin evinə verməlidir.

Bu ölüm hadisəsindən sonra *FARK* partizanları Revas ailəsindən əl çəkmədi. Pastor Antonio və oğlu Roberto öldürüldükdən bir müddət sonra onlar Revasın fermasını və bütün kənd təsərrüfatı məhsullarını ələ keçirdilər. Marksist partizanlar Rosanın kiçik oğlu Xuanı oğurladılar. Xuan bir neçə həftə ərzində evə qayıtmadı, buna görə Rosa *FARK*-ın tanınmış rəhbəri ilə görüşmək üçün şəhərə getdi.

Kişi tapançasını çıxarıb qəzəblə Rozanın gözünün içinə baxaraq dedi: "Oğlunu soruşmağa ehtiyac yoxdur. Onun harada olduğunu heç kimə deməməlisən. Əgər oğlunun bizimlə olduğunu kiməsə desən, nəticədə sən özün əzab çəkəcəksən".

Nəhayət, Rosa və ailəsi öz torpaqlarından qovuldu. İndi onlar dədə-baba yurdundan uzaqda, başqa bir kənddə, kiçik bir evdə yaşayırlar.

Revas ailəsi Rəbdə möhkəm durdu. Pastor Antonio və oğlu Roberto Məsih uğrunda əzab çəkərək canlarından keçdilər. Onların iman həyatları hələ də Kolumbiya və dünyadakı insanları ruhlandırır.

Çünki bizim heç birimiz özümüz üçün yaşamırıq və özümüz üçün ölmürük. Yaşayırıqsa, Rəbb üçün yaşayırıq, ölürüksə, Rəbb üçün ölürük. Buna görə yaşasaq da, ölsək də Rəbbə məxsusuq.

**Romalılara 14:7–8**

# Qraham, Timotey və Filip Steins

(1941–1999)

Avstraliyanın Kvinslend əyalətində böyümüş Qraham Steins öz tibbi bacarıqlarını Hindistanın Orissa ştatında yerləşən cüzam xəstəxanasında istifadə edirdi. Həyat yoldaşı tibb bacısı idi, onların bir qızı və iki oğlu var idi. Tibb işi ilə yanaşı, Qraham müjdəçilik xidməti ilə də məşğul olurdu. O, yaşadıqları hindu bölgəsində "İsa" filmini nümayiş etdirərək Müjdəni yayırdı.

1999-cu ilin yanvarında Steins Orissada açıq havada beş günlük müjdəçilik toplantısı keçirdi. Oğulları Timotey (doqquz yaşında) və Filip (yeddi yaşında) onunla idi. Bir neçə gündən sonra (yanvarın 23-ü) Qraham oğulları ilə birgə öz furqonlu maşınında gecələmək üçün dayandı. Bu vaxt bir qrup döyüşkən hindu dəyənəklərlə onlara hücum edib maşını yandırdılar. Müjdəçi Qraham izdihamla əhatə olunmuş maşının içində oğullarını qucaqlayaraq onlarla birlikdə öldü. Bu vaxt onları xilas etmək istəyənlərə izdiham hədə-qorxu gələrək oradan uzaqlaşdırdı.

Təxminən dörd il sonra məsihçilərə nifrəti ilə məşhur olan esktremist hindu rəhbəri və digər on iki nəfər Hindistan məhkəməsində mühakimə olundu. 2005-ci ilin mayında rəhbərin edam hökmü ömürlük cəzaya dəyişdirildi, digərləri isə bəraət qazandı.

Qraham Steins otuz dörd il idi ki, Hindistanda xidmət edirdi. Hindistan prezidenti K. R. Narayanan Steinsin və oğullarının "vəhşicəsinə öldürülməsini" pislədi. Steinsin işlədiyi cüzam xəstəxanasındakı xəstələr bu hadisədən iki gün sonra onları dəfn etdi. Qrahamın dul qalmış arvadı Qladis və qızı Ester dəfn mərasimində toplaşanlara Allaha güvənməyi söyləyib birlikdə belə oxudular:

İsa kimi heç bir təvazökar dost ola bilməz.
Heç kim, heç kim.
Qəlbimizin xəstəliklərini Ondan başqa heç kim sağalda bilməz,



*Qraham Steins və oğulları Timotey və Filip*

Heç kim, heç kim.
Heç elə bir an varmı ki, O bizimlə olmasın.
Heç elə bir qaranlıq gecə varmı ki, Onun məhəbbəti bizi sevindirməsin.
Heç bir, heç bir.

Daha sonra Qladis dostlarına və jurnalistlərə qətl hadisəsindən on gün əvvəl duada keçirdiyi hisləri bölüşmüşdü. O, qəlbində hiss etmişdi ki, ona məxsus olan hər şeyi İsaya verməlidir. Qladis çox düşündükdən sonra göz yaşları içində belə dua etmişdi: "Bəli, Rəbb İsa, mənə məxsus olan hər şeyi Sənə verməyə hazıram. Onların hamısını Sənə təslim edirəm".

Qladis 2004-cü ildə qızı Esterin təhsilinə görə Avstraliyaya qayıdana qədər Hindistanda cüzam xəstəxanasında kömək etdi. Ana ilə qızı bir-birləri ilə Orissanın yerli dili olan oriya dilində danışırlar. Qladis rəfiqələrinin əksəriyyətinin hindu olduğunu deyirdi. Müjdəçi Xidməti Cəmiyyəti 1897-ci ildən bəri yaradılan leprozoriyanı (cüzamlıların yaşadığı yer) idarə etməkdədir. 2005-ci ildə Qladis Hindistan Hökuməti tərəfindən mülki bir mükafata layiq görüldü və bu da ölkədəki sağçı təşkilatlarının etirazına səbəb oldu.

Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün biz hər bir yükü və bizi asanlıqla çaşdıran günahı tərk edib qarşımızdakı yarışda dözümlə qaçaq.

**İbranilərə 12:1**

“Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir. Öz canını sevən kəs onu itirər, bu dünyada canı üçün qayğı çəkməyənsə onu əbədi həyat üçün qoruyar”.

**Yəhya 12:24–25**

ÜÇÜNCÜ HİSSƏ

# İyirmi birinci əsrdə müasir şəhidlər

XX əsrin sonunda Sovet İttifaqında və Şərqi Avropada kommunizmin süqutuna görə bir çoxları sevindiyi halda, XXI əsrin əvvəllərində islamçı ekstremistlərinin terror hücumları əhəmiyyətli dərəcədə artdı. Bu vaxt islam ekstremizmi qlobal bir hərəkata çevrildi və 2001-ci ilin sentyabrın 11-də terrorçuların ABŞ-da göyədələnlərə hücumlarından sonra Taliban, Əl-Qaidə və Üsamə bin Laden məşhurlaşdı. Ekstremist qruplar öz məqsədlərinə nail olmaq üçün kütləvi informasiya vasitələrindən istifadə edərək öz terror aktlarını bütün dünyaya yaydılar. Bu zaman Yaxın şərqdə məsihçilərin və digər qeyri-müsəlmanların əsrlər boyu islamın təsiri altında yaşadıqları məşəqqətlər və zorakılıqlar dünyanın diqqətini cəlb etdi.

2002-ci ildə şərqi Afrika ölkəsi Nigeriyada "Boko Haram" adlı islamçı ekstremist qruplaşması yarandı və ölkənin şimal hissəsində məsihçilərə qarşı olan təqibləri daha da artırdı. Bir neçə il sonra Somalidə "Əş-Şəbab" adlı terror təşkilatı "islam düşmənlərinə" qarşı cihad və ya "müqəddəs müharibə" aparmağa başladı. Bu terror qrupu ölkədəki bütün məsihçiləri məhv etməyə çalışır və hətta məsihçiləri hədəfə almaq üçün Somalinin sərhədlərini keçərək Keniyaya daxil olub.

Yaxın şərqdə özünü islam dövləti elan edən İŞİD 2014-cü ildə İraqın Mosul şəhərini işğal etməklə dünyada pis əməlləri ilə tanındı. Orada İŞİD döyüşçüləri qapı-qapı gəzərək məsihçilərin evlərini tapdılar və üzərlərinə qırmızı rənglə ərəbcə "N" hərfi yazdılar. "N" (və ya ərəb dilində deyildiyi kimi nun) nəsrani deməkdir. Bu, Quranda məsihçiləri — Nazaretli İsanın davamçılarını müəyyən etmək üçün istifadə olunan bir termindir. İŞİD Mosuldakı məsihçilərə belə ultimatum verdi: "İslamı qəbul edin, cizyə adlı böyük vergini ödəyin, evlərinizi və mülklərinizi tərk edib Mosuldan qaçın, yoxsa öldürüləcəksiniz". Demək olar ki, çoxları şəhəri tərk etdi, lakin bəziləri, məsələn, səyahət edə bilməyənlər öldürüldü.

İŞİD terrorçu təsirini Suriyaya qədər genişləndirdi, məsihçiləri şəhərlərdən çıxarmağa məcbur etdi və özünün ekstremist şəriət formasını və ya islam qanunlarını tətbiq etdi. Qlobal islam ekstremizminin artmasına baxmayaraq, XXI əsr tarixdə çoxlu sayda müsəlmanın İsa Məsihə iman etdiyi bir dövr oldu.

Hindistandakı hindular hinduizmin minlərlə yalançı allahlarından üz döndərib Məsihə qəlblərini verdilər və burada yeni məsihçilərə qarşı təqiblər artmağa başladı. 2018-ci ildə Hindistandakı məsihçilər orta

hesabla hər 24 saatdan bir hücuma məruz qaldılar, belə ki bu da son illər ərzində kəskin artımdır. Ölkənin baş naziri Narendra Modinin rəhbərliyi altında Raştriya Svayamsevak Sanqh (RSS) hindu millətçi təşkilatının üzvləri sayca 20 faiz artıb. Cəsarətlənmiş bu təşkilat indi Hindistanda hindu kimliyini ölkənin müxtəlif dilli, mədəniyyətli və dinli insanları arasında daha da gücləndirməyə ümid edir.

Keçən əsrin təqiblərində diqqət kommunistlərdən bu əsrdə Yaxın Şərq və Cənubi Asiyaya yönəlsə də, bir neçə kommunist hakimiyyəti hələ də öz fəaliyyətini davam etdirir. Çin, Vyetnam, Laos, Şimali Koreya və Kubadakı kommunist hökumətlər hələ də məsihçiləri fəal şəkildə təqib edir; 2018-ci ildə Çin hökuməti pastorların həbsi və kilsələrin bağlanması ilə nəticələnən yeni məhdudiyyətlər tətbiq etdi.

Ekstremist zorakılığının artdığı bir dövrdə biz hindistanlı pastor Gideon Periyasvami, çinli Li Zinhen və Lu Linq Lina, nigeriyalı Terri Tumba və Liviyada İŞİD-in edam etdiyi iyirmi bir məsihçi şəhiddən ilham alırıq. Onların hər biri sona qədər Məsihə sadiq qalıb saysız-hesabsız şəhidlər arasında öz yerlərini tutdu.

# 2000–2006

# Yesu Dasu

## (11 sentyabr 2000-ci il)

Hindistanın yüksək kastasına[1] mənsub olan insanlar dalitlərdən kənar gəzirdilər. "Toxunulmazlar" adlanan dalitlər (pariyalar) hindu mədəniyyətində ən aşağı kast hesab olunur. Dalit olmaq gələcəyə ümidsiz olmaq deməkdir.

Yesu Dasu "toxunulmazları" sevdiyindən onlarla dostlaşaraq işlərində kömək edirdi. Başqaları dalitlərdən uzaq duranda Yesu onlara yaxınlaşdı. Onlara bir şəxsiyyət kimi kimliklərini qaytardı. Əlli iki yaşlı vaiz Məsihin sevgisini göstərərək dalitlərin qəlblərinə şəfa vermək üçün gəlmişdi.

Çöldə motosiklet mühərrikinin gurultusu şam edən ailənin rahatlığını pozdu. Yesu qalxıb pəncərədən baxanda iki kişi qapını bərk-bərk döyməyə başladı. Onlar uca səslə dedilər: "Yesu Dasu! Qapını aç! Bir nəfər səninlə danışmaq istəyir. Bizimlə getməlisən".

Yesu yavaş-yavaş qapını açıb kişilərdən soruşdu: "O adam kimdir?"

"Danışmağa vaxt yoxdur. İndi bizimlə getməlisən" — deyə kişilər cavab verdilər və onun qolundan tutub motosikletə tərəf apardılar. Motosiklet çıxıb gedərkən Yesunun arvadı və uşaqları pəncərədən baxdılar. Uşaqları yatağına qoyduqdan sonra Yesunun arvadı səbrlə ərinin yolunu gözlədi. Oturub Müqəddəs Kitabı oxudu və sonra yuxuya getdi.

Pəncərədən boylanan səhər günəşi onu yuxudan oyatdı. O, ötən gecə baş verən hadisələri və niyə stulda yatdığını xatırlamağa çalışdı. Ürəyini qorxu bürüdü, Yesunun gecə evə qayıtmadığını anladı. Övladlarını oyadaraq onları geyindirdi və birlikdə kənddə atalarını axtarmağa başladılar.

Birdən Yesunun arvadı kiminsə onu çağırdığını eşitdi və dönüb baxanda qonşulardan birinin ona tərəf tələsərək gəldiyini gördü. Həmin qonşu qollarını açıb onu qucaqlayıb dedi: "Çox üzr istəyirəm. Ərinin cəsədini tapdılar. O ölüb".

Şəhərin kənarındakı mal-qara tövləsinin yaxınlığında, Yesunun başı və digər hissələri bədənindən ayrılmış halda qan gölündə üzürdü. Radikal

---

[1] Hindistanda təbəqələşmə sistemi.

hindu qrupundan dörd nəfər Yesunun əllərini bağlayıb balta ilə onu doğrayaraq öldürmüşdülər.

Radikal hindu qrupu Yesunu dəfələrlə hədələmiş və orada Müjdə barədə danışmağı ona qadağan etmişdi. Lakin Yesu təhdidlərə məhəl qoymamışdı. Allah bu müjdəçini həqiqəti bölüşməyə çağırmışdı və o da bu çağırışa cavab vermişdi.

Yesu cəmiyyətə xidmət edən, kəndlilərin hörmətini qazanmış sadə və təvazökar bir insan idi. O, "toxunulmazlara" — dalitlərə toxundu. Bu xidməti ilə Yesu Allahın bütün insanlara əl uzatmaq istəyini göstərdi. Yesu təkcə Məsihin həqiqətini insanlara bölüşmədi, həm də imanını həyatda tətbiq edərək yaşadı. Onun həyatı və əməlləri sayəsində bir çoxları Allahın həqiqətini tanıdılar. İndi Yesunun imana gətirdiyi insanlar başqalarına xidmət edirlər. Yesu öz mənafeyini düşünmədən ətrafındakı əhəmiyyətsiz hesab olunan insanlara Allahın sevgisini bölüşdü. Bununla o ən yüksək şərəfə — şəhid tacına layiq görüldü.

"İsa".

**— Müqəddəs Kitab düşərgəsində iştirak edən 15 yaşlı oğlan, Roy Pontonun İndoneziyada müsəlman dəstənin hücumuna məruz qalarkən dediyi son söz. Roy qılıncla öldürüldü.**

# Leu Heytonq

## (16 oktyabr 2000-ci il)

Çinin Pekin şəhərində işləyən vəzifəli bir şəxs sakitcə dedi: “Hökumət insanların şəhid olmasını istəmir. Şəhidlərə görə dini idarə etmək olmur”. Bəlkə də ölkənin daxilində kilsəni zəifləmək istəyən bu hökumət məmuru Allahın Padşahlığı uğrunda əzabın və şəhidliyin təsirindən agah idi. Çünki bunlar Allahın Səltənətini genişləndirirdi.

O, yəqin ki, on doqquz yaşlı Leu Heytonqdan danışırdı.

Leu Henan əyalətinin Czyaotzo şəhərində gizli protestant kilsəsinin üzvü idi. Henanda ev kilsələri artdığına görə hökumət qeydiyyata alınmamış kilsə qruplarını hədəfə almışdı.

Polislər 2000-ci ilin sentyabrın 4-də bir evdə toplaşmış gizli kilsəni aşkar edib qəfildən içəri girdilər. Leu Məsihə olan sadə imanına görə həbs olunub döyüldü.

Bir gizli ev kilsəsinin rəhbəri dedi: “Yəqin ki, hər dəqiqə imanına görə tutulan və rəhmsiz polislər tərəfindən vəhşicəsinə döyülən yüzdən çox məsihçi var”.

Leu ac qaldı və ona gigiyenik vasitələr verilmədi. Bir neçə gün ərzində o qusmağa başladı və hərarəti qalxdı, lakin həbsxana işçiləri ona tibbi yardım göstərməkdən imtina etdilər. Oktyabrın 16-da Leu döyülərkən aldığı xəsarətlərdən və baxımsızlıqdan öldü.

Məsihçiliyi boğmaq istəyən dövlət məmurlarının dediyinə görə Leu Heytonqun ölümü “kobud bir səhv” idi. Leu və onun kimi sadiq məsihçilərin imanına görə Allahın Padşahlığı bütün ölkədə meşə yanğını kimi yayılmağa başladı. Bundan qorxanlar üçün yanğının qarşısını almaq və onu söndürmək qeyri-mümkün idi.

# Çjun Cu Yu

## (3 avqust 2001)

Həbsdə olan məsihçi Çjunun ailə üzvləri Çinin Çjunsyan şəhərindəki İctimai Təhlükəsizlik Bürosu (İTB) tərəfindən bir restorana dəvət olunmuşdu. Neçə ay idi ki, Çjunun ailəsi onun vəziyyəti ilə əlaqədar bir xəbər gözləyirdi, amma onlara heç bir məlumat verilmirdi. Onlar bu görüşdən doğmaları barədə heç olmasa bir xəbər eşitmək ümidində idilər.

Restorana gələndə Çjunun ailə üzvlərinin hər birinin hisləri qarışıq idi. Görəsən onu azadlığa buraxacaqlar? Yoxsa artıq onu öldürmüşdülər? Kilsənin digər üzvləri kimi ona da ölüm hökmü veriləcəkmi? 2001-ci ilin mayında gizli kilsə toplanarkən Çjunu həbs edənlər indi nə xəbər verəcəkdi?

İTB işçiləri restoranda ailəyə 8000 ABŞ dolları məbləğində pul verib Çjunun vəziyyəti barədə acı sonluğu açıqladılar. O, dünyasını dəyişmişdi. Bu xəbərin yayılması barədə ailəsinə hədə-qorxu gəldilər. Çjunun ölümü barədə xəbəri paylaşan hər kəs onun kimi həbs ediləcəkdi.

Çjun gizli kilsədə Məsihə iman etdiyi üçün toplantılara gedirdi. İmanlılar ilə ünsiyyət qurmaq və “iman uğrunda mübarizə aparmaq” (Yəhuda 1:3) onun üçün o qədər vacib idi ki, hətta həbs və ölüm təhlükəsi ilə üzləşməkdən qorxmurdu. Onun imanlılar ilə ünsiyyəti ölümü ilə bitmədi. İndi Çjun göylərdə böyük şahidlər buludu ilə əhatə olunan digər müqəddəslərlə ünsiyyətə qoşulur (İbranilərə 12:1) və iman yarışında qaçdığımız üçün bizi alqışlayır.

# Ceyms Əbdülkərim Yahaya

## (6 avqust 2001)

Ceyms əhalisinin 50%-nin islama inandığı Nigeriya ölkəsində müsəlman bir ailədə böyümüşdü. O, ölümündən bir neçə il əvvəl Məsihə ürəyini vermişdi.

Pastor Ceyms bəlkə də K. S. Lyuisin kitablarını oxumamışdı. Lakin yazıçının təsvir etdiyi "böyük bir sevginin əsiri olmağı" həyatda yaşamışdı. Pastor əvvəllər müsəlman olarkən belə bir məhəbbəti heç vaxt hiss etməmişdi. İndi isə o, Məsihin məhəbbətinin əsiri olmuşdu. Rəbbi axtarmaq və Ona xidmət etmək onun ürəyinin ən böyük arzusu idi. Amma imanını gizli saxlaya bilməzdi. Ceyms səyyar vaiz olub bütün ölkəni gəzərək Müjdəni və "Onu tanımaqdan yaranan ətri" (2 Korinflilərə 2:14) vəz edirdi. Pastor gördüyü bu işə görə bir çox dost və düşmən qazanmışdı. Əlbəttə, Ceyms bəziləri üçün ətir, digərləri üçün isə ölüm qoxusu idi. Müsəlmanların üstünlük təşkil etdiyi bir ölkədə islamı tərk edib Məsihin davamçısı olmaq imanlı üçün təhlükə yaradırdı. Məsihçiliyi qəbul etmək ailə və cəmiyyət tərəfindən rədd edilməkdir. Ceyms üçün bu həm də onun keçmiş dininin radikal üzvləri ilə açıq düşmənçilik demək idi, çünki şəriət qanunu islamdan dönən hər kəsin öldürülməli olduğunu bildirir.

2001-ci ilin avqustun 6-da Ceyms gecə Nigeriyanın paytaxtı Abucadakı mənzilində yatağında yatmışdı. Pastorun otaq qonşusunun dediyi kimi, dözülməz istilər və havalandırma zəif olduğu üçün mənzilin qapısını açıq qoymaq adi hal idi. Güclü yaraqlanmış dörd silahlı müjdəçinin mənzilinə soxularaq onu yatağında güllələdilər.

Ölkə daxilindəki məsihçi rəhbərlər və dostlar Ceymsin ölümündən kədərləndilər. Lakin onun Allah üçün coşqun məhəbbətlə yaşadığını və həmin böyük sevgini başqalarına da tanıtmaq arzusunu xatırladılar. Ceymsin Allaha olan məhəbbəti Onu tanımaqdan yaranan xoş ətir kimi hələ də ətrafa yayılır.

# Emmanuel Allah Atta

## (28 oktyabr 2001)

2001-ci ilin oktyabrın 28-i səhər 9:00 radələrində Müqəddəs Dominik kilsəsində izzət ilahiləri ətrafa yayılırdı. Katoliklər binanı Pakistan kilsəsi ilə bölüşürdülər. Protestant ibadəti hələ də davam edirdi, ona görə də, katolik xidməti gec başlayacaqdı.

Pastor Emmanuel Pakistan məsihçilərinin üzləşdiyi çətin dövrlərdə duanın əhəmiyyətindən danışırdı. O, vəzini yekunlaşdırarkən üç terrorçu zorla kilsəyə soxuldu. Qara geyimli terrorçuların əllərində AK-47 avtomat silahları var idi.

Silahlılardan biri kafedraya doğru irəliləyib pastor Emmanuelə Müqəddəs Kitabı yerə atmağı əmr etdi. Pastor Emmanuel ona cavab verdi: "Atmayacağam!" O, Müqəddəs Kitabını ürəyinə sıxaraq terrorçudan uzaqlaşdı. Silahlı şəxs "Allahu Əkbər!" — deyə qışqırdı və pastor Emmanuelə atəş açdı. O, pastoru arxadan vurdu, güllə ürəyini dəlib keçdi. Pastor yerə yıxılarkən sevimli dörd yaşlı qızı Kinzanın badamı gözlərinə son dəfə nəzər saldı.

Radikal müsəlman terrorçular camaata altı dəqiqə atəş açaraq 500-dən çox gülləni boşaltdılar. İbadətə gələn yetmiş beş nəfərdən on beşi, həmçinin kilsə qapısında dayanan müsəlman təhlükəsizlik işçisi hücum zamanı həlak oldu. İki yaşlı qız uşağının cəsədi qırx güllə ilə deşik-deşik edildi. Bir imanlı qadın qoluna və qarnına girmiş on üç güllədən möcüzəli şəkildə sağaldı.

Hücumdan bir müddət sonra pastor Emmanuelin həyat yoldaşı Sarafin camaat qarşısında təcavüzkarları bağışlamasından danışdı. Ərinin İsa üçün şəhid seçilməsinin bir şərəf olduğunu bildirdi. Atasının ölümünə şahid olan balaca Kinza, sadəcə atasının cənnətə getdiyini söylədi.

# U Maanq Tan

## (Mart 2002)

“Sən bizim qanımızdansan, əgər adət-ənənələrimizə qayıtmasan, onda mən səni öldürəcəyəm!” — deyə U Maanqın əmisi qışqırdı.

Tan öz ailəsinin ənənəvi dinindən dönüb Məsihə ürəyini verdi. Qohumları buna görə onu hədəfə aldılar. Tezliklə o, vətəni Myanmada saxta ittihamlarla həbs olundu. Hərbi diktatura Tanın əmisinin nifrətindən istifadə edərək U Maanqı ölüm cəzasına məhkum etdi.

2002-ci ilin mart ayında Tanın iki məsihçi dostu — Maanq Maanq və Kam Lian Ceu dostlarının həbsxanada olduğunu bilmədən ona baş çəkməyə gəldilər. Maanq və Kam dostlarının işinin ciddiliyindən və ona qarşı olan böyük nifrətdən agah oldular. Onlar iki gün ərzində Tanı həbsxanada ziyarət etmək üçün icazə istədilər, lakin çox çalışsalar da, buna nail ola bilmədilər. Nəhayət, üçüncü gün hərbi polislər dostlara Tanı görməyə icazə verdilər, amma onunla danışmaq qadağan olunmuşdu.

Tan polislərin müşayiəti ilə yaxınlıqdakı meşəliyə aparıldı. Dostlarına Tan ilə danışmağa icazə veriləndə onlar təəccübləndilər. Birinci Tan danışmağa başlayıb dostlarından xahiş etdi: “Yanıma gəldiyiniz üçün çox şadam. Xahiş edirəm, mənim yaşadığım yerə gedib Müjdəni bölüşəsiniz. Biz Müjdəni bütün ətraf ərazilərə bölüşməliyik. Siz ölənədək sadiq qalmalısınız”.

Birdən polislərdən biri Tanın üstünə qışqırdı: “Sən çox danışdın!” Tapançasını çıxarıb Tanın başına güllə ilə vurdu. İki məsihçi dost şahid olduqları bu dəhşətli mənzərədən böyük sarsıntı keçirdilər. Məsihdəki əziz qardaşlarının qan içində olan bədəninə baxanda göz yaşları sel kimi axmağa başladı. Tanın dostlarına ciddi surətdə xəbərdarlıq edildi ki, əgər imanlarından dönməsələr, onları da eyni tale gözləyir.

Tan şəhid olmazdan əvvəl dostlarına imanlarında ölənədək sadiq qalmağı söylədi. O, bu xahişini fədakarlığı ilə sübut etdi.

# Məhəmməd Səid

## (İyun 2002)

Məhəmməd ailəsinin islam etiqadından kənarda həqiqəti axtarmağa başlayanda iyirmi yeddi yaşı var idi. Beləcə o, bir gün xəstə dostu ilə vətəni Pakistanın Bail Ahata kəndi yaxınlığında keçirilən müjdə və şəfa toplantısına getdi.

Məhəmməd heç vaxt məsihçi toplantısında olmamışdı və oradakı böyük ruh yüksəkliyinə və möcüzəli surətdə baş verən şəfalara heyran qalmışdı. Toplantıda Məhəmmədin xəstə dostu üçün dua etdilər. Bir neçə gündən sonra məlum oldu ki, dostu xərçəng xəstəliyindən sağalıb. Məhəmməd dostunu sağaltmış bu İsa haqqında daha çox öyrənmək istədi. Tezliklə o, Məsihə ürəyini verib vəftiz olundu və mütəmadi olaraq kilsəyə getməyə başladı. Nəhayət, Məhəmməd islamda heç vaxt tapa bilmədiyi sevinci və məmnunluğu əldə etdi.

Məhəmməd imanında böyüyərək daha cəsarətlə Müjdəni başqaları ilə bölüşürdü. O, qonşularının qapılarını döyür və qarşılaşdığı adamlar üçün dua edirdi. Ancaq onun yeni imanını ailəsi, dostları və qonşuları çox pis qarşıladı, hətta onun təhlükəsizliyi üçün bəzi kilsə üzvləri də narahat idi. Müsəlmanlar Məhəmmədə kafir kimi baxırdı. Ona görə də çalışdığı restoranda iş yoldaşları və müştərilər onun bişirdiyi, hətta toxunduğu yeməklərdən imtina edirdilər. Məhəmmədin valideynləri və qohumları ona yemək vermirdilər. Onun mətbəxdəki əşyalara belə toxunmasını istəmirdilər. Beləliklə, Məhəmməd işini itirdi. Arvadı isə iki oğlunu özü ilə götürüb valideynlərinin yanına köçdü.

2002-ci ilin iyun ayında Məhəmmədin Məsihi qəbul etməsindən dörd il sonra bir müsəlman qohumu ondan dükanına gəlməsini xahiş etdi. Qohumu Məhəmmədi İsa haqqında ona danışmaq üçün dükanına çağırmışdı. Məhəmməd qucağında doqquz aylıq oğlu ilə birlikdə qohumunun dükanına getdi. Qohum qapını bağlayıb Məhəmmədi islama dönməyə məcbur etdi, əks təqdirdə onu öldürəcəyini bildirdi. Məhəmməd Məsihdən imtina etməyəcəyini, lazım gələrsə, İsa uğrunda canını verəcəyini söylədi. Qohumu bıçaq çıxarıb Məhəmmədi qarın nahiyəsindən bıçaqladı, eləcə də

boğazını, dodaqlarını və dilini kəsdi. Sonra Məhəmmədin körpə oğlunu şəhid atasının cəsədinin yanında, qan gölməçəsində tapdılar.

İsa dedi: "Siz düşünürsünüz ki, Mən yer üzünə sülh gətirməyə gəlmişəm? Xeyr, sizə deyirəm ki, Mən ayrılıq gətirməyə gəlmişəm! Çünki bundan sonra bir evdə yaşayan beş nəfər bir-birindən ayrılaraq üç nəfərə qarşı iki nəfər, iki nəfərə qarşı üç nəfər olacaq. Çünki ata oğlundan, oğul atasından, ana qızından, qız anasından, qayınana gəlinindən, gəlin də qayınanasından ayrılacaq" (Luka 12:51–53). Məhəmməd bu sözləri ən dəhşətli bir şəkildə həyatında yaşadı. O həm də İsanın bu vədinə sadiq qaldı: "Axıracan dözən xilas olacaq" (Matta 10:22).

"Biz dünyada əzabın deyil, itaətsizliyin ən pis şey olduğunu öyrəndik..."

**— İmanına görə həbs olunan vyetnamlı bir pastor**

# Martin Rey Bornham

## (7 iyun 2002)

"Əgər şəhid olmalıyamsa, Rəbdə möhkəm dayanaraq ölmək istəyirəm". Bunlar qırx iki yaşlı Martin Bornhamın öldürülməzdən əvvəl söylədiyi sözlər idi.

Onlar Filippinin qərbində bir çimərlik kurortunda toylarının on səkkizinci ildönümünü qeyd edirdilər. Cütlük üçün rahat və romantik olan bir vaxt tezliklə dəhşətə çevrildi. Əbu Səyyaf adlı müsəlman ekstremist qrupu kurorta hücum edərək qonaqları oğurladı. Girovların içərisində *Nyu Traybs* xidmətinin müjdəçiləri olan Martin və Qrasiya Bornham da var idi. Ekstremistlər Filippin ordusundan gizlənmək üçün girovları isti və rütubətli cəngəlliklərdən keçməyə məcbur etdilər. Girovlar neçə ay cəngəlliklər ilə yol getdilər. Bu müddət ərzində Martinin çəkmələri cırıldı və tez-tez sürüşməyə başladı. Belə vəziyyətdə Martin ekstremistlər tərəfindən yağışın altında düyü torbaları daşımağa vadar olundu. Bütün bunlara baxmayaraq yol getmək üçün o, gücünü toplayır və hətta başqalarına da köməyini əsirgəmirdi.

Martin və həyat yoldaşı Qrasiya ümidsizliyə düşmədilər. Cütlük Rəbb uğrunda əzab çəkməyə və girovlara xidmət etməyə görə Allaha şükür edirdi. Onlar ruhlandırıcı mahnılar oxuyurdular, hətta Martin Müjdəni partizanlara da danışmağa çalışırdı. Martin Məsihə xidmət edərək başqalarına kömək etmək üçün həyatını riskə atdı.

Filippin ordusu adamların girov götürüldüyünü eşidəndə partizanların axtarışını gücləndirdi. Ordunun yaxınlaşdığını görən ekstremistlərin başçısı Əbu Səbaya tabeliyində olanlara belə əmr verdi: "Filippin əsgərləri çox yaxınlaşsa, Amerika müjdəçilərini öldürün". Filippin ordusu ilə partizanlar arasında atışma baş verdi. Tüstü keçib gedəndə Martin və filippinli tibb bacısı Ediborah Yapın öldüyü aşkar edildi. Qrasiya Bornham budundan güllə yarası aldı.

Martin ölməkdən qorxmurdu. Əsirlikdə olduğu müddətdə girovlar üçün dua edib onları ruhlandırdı. Martin hər vəziyyətdə Rəbbə şükür etməyi



*Martin Bornham Müjdəni onu öldürən adamlar ilə bölüşür.*

bacarırdı. Girovluqda keçirdikləri çətinliklərə baxmayaraq Bornhamlar imanlarında sadiq qaldılar.

Ölümündən bir neçə gün əvvəl Martin üç övladı — Ceffri (o vaxt on beş yaşında), Melinda (on iki yaşında) və Zekeriyə (on bir yaşında) bir məktub yazdı. Uşaqlarını nə qədər sevdiyini və onlarla fəxr etdiyini məktubunda bildirdi. Onlardan xahiş etdi ki, istənilən vəziyyətdə imanda möhkəm qalsınlar. Martin məktubu Qrasiyaya versə də, atışma zamanı itdi. Lakin sonra onu axtarmağa qayıdan bir dəstə tərəfindən tapıldı.

Martin səxavət, sevgi və iman nümunəsi idi. Müjdəni nəyin bahasına olursa olsun bölüşmək üçün ömrünü mərd-mərdanə yaşadı. Onun ölüm xəbəri və həyatının hekayəsi dünyanın hər yerinə yayıldı. Martinin imanı məsihçiləri Xilaskarın qurtuluş hədiyyəsini başqalarına bölüşməyə ruhlandırdı. Qrasiya ərinin xidmətini davam edərək kitablar yazır və minlərlə insan qarşısında həqiqət yolunda keçirdiklərindən danışır. Əbu Səyyaf ekstremistlərinin Məsihi şəxsən tanıması üçün Qrasiya öz ailəsi ilə birgə dua edir. O, məsihçiləri müsəlmanların xilası üçün dizüstə duada mübarizə aparmağa, ərinin yaşayıb və uğrunda öldüyü işi davam etdirməyə səsləyir.

# Kornelio Tovar

## (17 avqust 2002)

Kolumbiyanın bir çox ucqar kəndlərində şənbə gecəsi "qətl gecəsi" kimi yadda qaldı. Həmin gecə *FARK* marksist üsyançı qrupu ona qarşı çıxanları öldürəcəyini xəbərdarlıq etmişdi. Ancaq kilsə üzvləri partizan təhdidlərindən qorxub gizlənmədilər. O gün Məsihçi və Müjdəçi İttifaqı Kilsəsində 300 nəfərə yaxın imanlı toplaşdı və pastor Tovar diqqəti İsaya yönəltməkdən danışdı. O, imanlıları şirnikləndirici, yayındırıcı şeylərdən uzaq durmağa və Məsihdə möhkəm qalmağa çağırdı. Həyatları üçün təhlükələrə baxmayaraq imanlılar ibadət vaxtı ruhlanaraq Müqəddəs Ruhdan qətiyyət əldə etdilər. Heç kim narahat deyildi, çünki *FARK* partizanları pastor Kornelioya və ya kilsəsinin rəhbərlərinə heç bir hədə-qorxu gəlməmişdilər.

Kolumbiyanın Alxeseris şəhərində isti bir gecə idi. Pastor Tovar həyat yoldaşı və beş məsihçi ilə birgə axşam ibadətindən böyük sevinc ilə evə qayıdırdı. Onlar Məsihi Rəbb və Xilaskar kimi qəbul edənlər haqqında maraqla söhbət edirdilər. Pastorun evinə beş məhəllə qalmış iki kişi qaranlıqdan qəfil çıxaraq və atəş açmağa başladı.

İnsanlar qaçıb gizlənməyə çalışarkən ətrafda çaxnaşma düşdü. Atışma qurtardıqdan sonra imanlılar ayağa qalxanda pastor Tovarın həyat yoldaşı Nelli ərini qan içində yerdə uzanmış gördü. O, nalə çəkib qışqıraraq ölməkdə olan ərinin yanına qaçdı.

Maska taxmış iki silahlı şəxs qaçarkən Nelli gözlərini yumdu və ərinə amansızcasına hücum edənlərə xeyir-dua dilədi. Sonra həkimlər təcili yardım otağında onun ərini həyata qaytarmağa çalışarkən Nelli gözlərini göyə qaldırıb dedi: "Niyə bu mənim başıma gəlir? Xahiş edirəm, qoyma bu baş versin!" Nelli də İsa kimi Allahdan xahiş etdi: "Qoy bu kasa Məndən yan keçsin" (Matta 26:39). O, xəstəxanada Allahla mübarizə apardı. Amma Allaha təslim olaraq "Mənim yox, qoy Sənin iradən olsun" dedi. Nəhayət, onun ürəyinə sülh gəldi.

Nelli hislərini və ümidlərini Allahın iradəsinə təslim etdi. Rəbb ona Müjdənin yayılması üçün bir toxumun torpağa düşüb bəhrə verməsini

xatırlatdı. Nelli bilirdi ki, əri toxum kimi canını Müjdə uğrunda qurban verməyə hazır idi. Pastor Kornelionun həyat yoldaşı ürəyində qərara gəldi ki, ümidini itirməyib bol məhsul biçmək üçün çalışacaq.

Nelli bəlkə də III əsr alimi Tertullianın məşhur sözlərini eşitməmişdi. Amma həmin alimin sözləri bu gün də öz qüvvəsində qalır: "Şəhidlərin qanı kilsənin toxumudur".

Ölüm bahasına olsa da, sadiq qal,
Mən sənə həyat tacını verəcəyəm.

**Vəhy 2:10**

# Bonni Uiterall

## (21 noyabr 2002)

2002-ci ilin noyabrın 21-i "Operation Mobilisation" təşkilatının müjdəçisi Bonni Uiterall həmin səhər tezdən durdu. O, bacardığı qədər səssiz hərəkət etdi ki, ərini yuxudan oyatmasın. Bonni klinikada könüllü işləyirdi və hər səhər çay və qəlyanaltı hazırlamaq üçün sübh tezdən işə yollanırdı. Bonni getdikdən bir müddət sonra Geri arası kəsilməyən telefon zənglərindən oyandı.

Geri təşviş içində deyilən sözləri anlamasa da, dəhşətli nəyinsə baş verdiyini anladı və özünü dərhal klinikaya çatdırdı.

Geri klinikanın pilləkənlərinə yaxınlaşıb giriş qapısından içəri girdi. Ancaq iki əsgər onu saxladı və yerə sərilmiş cəsəddən onu kənara çəkərək ayrı bir otağa keçməsini xahiş etdi. O, cəsədə baxanda sevimli arvadını tanıdı. Qəhər onu boğdu və nə baş verdiyini dərk etdikcə titrəməyə başladı — Bonnini öldürmüşdülər.

Bonni klinikada müsəlman bir ekstremist ilə qarşılaşmışdı. O, yaxın məsafədən onun başına amansızcasına üç dəfə atəş açmışdı. Qəlbi nifrətlə dolu bir insan ölkəsinə məhəbbət və bağışlanma haqqında danışmaq üçün gəlmiş həlim məsihçi qadını öldürmüşdü.

Geri Bonni ilə altı il idi ki, evlənmişdi. İndi Geri dərin iztirablar içində, üzündən damla-damla axan göz yaşları ilə ən yaxşı dostu və həyat yoldaşını xatırlayırdı. O, ürəyini sanki sinəsindən qopmuş kimi hiss edirdi.

Geri öz fikrində Bonninin xoş təbəssümünü və nur saçan gözlərini canlandırmağa çalışdı. O, Bonninin kilinikada insanlara sevgi və şəfqətlə xidmət etdiyini, ərəb qaçqın qadınlara doğuşdan əvvəl və sonra qayğı göstərdiyini xatırladı. Geri həyat yoldaşının ərəb dilini öyrənmək üçün nə qədər səylə çalışdığını, ancaq hələ də bəzi sözlərdə çətinlik çəkdiyini və xəstələrin ona zarafatyana sataşdığını yadına saldı. Bonni dinin əsarətində olan bu qadınlar üçün bir çox gecələrini göz yaşları içində keçirmişdi. Geri və Bonni klinikanın təkcə fiziki ehtiyacları üçün deyil, həm də həqiqət yolunu tanımayan və əziyyət çəkən ərəb qadınlarının Məsihi tanıması

üçün dua etmişdilər. Bonninin yeganə istəyi onlara əbədi həyat, sevgi və ümid xəbərini çatdırmaq idi.

Bir il yarım əvvəl Bonni və Geri Livanın Sidon şəhərində Rəbbə xidmət etməyə başlamışdılar. Geri Bonni üçün mükəmməl bir həmkar olmaqla yanaşı, həm də sakit və həyatsevər bir insan idi. Cəsarətli və bacarıqlı müjdəçi olan Geri səs-küylü və basabas şəhərin küçələrində müsəlmanlarla ünsiyyət qurmağa çalışırdı. O hər fürsətdən istifadə edərək mərhəmət və sevgi ilə dolu olan Allahdan danışırdı.

Keçmişin xatirələri onun xəyalında canlandıqca Gerinin yadına bir ilahi düşdü. Bonni ilə o, bu ilahini tez-tez oxuyardılar.

Mən təslim oluram
Bütünlüklə Sənə, bütünlüklə Sənə.
Mən təslim oluram
Bütünlüklə Sənə, bütünlüklə Sənə...

Həmin anda Rəbbin bu sözləri Geriyə təsəlli verdi: “Bu gün sənin ürəyinə bir toxum əkildi. Bu toxum sənin qəlbində ya qəzəbdən nifrətə, ya da bağışlamadan sevgiyə çevriləcək. Sən seçim etməlisən”.

Geri dərhal qərar çıxardı ki, düşmənlərini bağışlayacaq və arvadının qatilindən intiqam almayacaq. Bunun əvəzinə Allah ona gözəl bir fürsət verdi. Geri Livanda televiziyada canlı olaraq çıxış edəndə qatili bağışladığını söylədi. O həm də Allahdan həyat yoldaşının qatilini bağışlamasını istədi.

Bonninin dəfn mərasimində Geri toplaşanlara müraciət etdi: “Bilirəm ki, hamımız çox kədərliyik və Bonni üçün darıxırıq. Ancaq Bonni tabutda deyil! O indi sevdiyi və uğrunda xidmət edərək öldüyü Tanrının hüzurundadır. O artıq kədərlənmir, qorxmur və ya əzab çəkmir. Bonni cənnətdə rəqs edib sevinir. Biz də onun üçün sevinməliyik!”

Geri kilsənin ön hissəsindəki nəhəng pərdələri açdı. Pərdələr geri çəkildikcə otaq işıqlandı. Pəncərədən başı qarla örtülü və günəş işığında göz qamaşdıran Beyker dağının möhtəşəm bir mənzərəsi göründü. Mərasim kədərli bir əhval-ruhiyyədə başlasa da, Bonninin indi Rəbbin hüzurunda olduğu xatırlandıqca kədər sevinclə əvəz olundu.

Geri qalın tünd pərdədən o taya baxmağı və ruhani aləmin əzəmətli gözəlliyini seyr etməyi qərara aldı. Məsihin əzablarına şərik olub Onun uğrunda döyülməyə, həbs olunmağa və ya öldürülməyə layiq görülmək bir faciə, cəza yaxud qəza hesab olunmur. Əksinə, bu, Məsihin davamçısının nail olduğu ən böyük şərəfdir. Belə qurban Allahın gözündə dəyərlidir və əbədiyyətdə əzəmətli həyat tacı ilə mükafatlandırılır!

"Kilsə təqib olunub və həmişə təqib olunacaq. Hamı bizə göz qoyur. Əgər biz imanda, ümiddə və məhəbbətdə ölsək, bu, xalqların tarixini dəyişə bilər".

**— Çin və Şimali Koreyada xidmət edən müjdəçi**

# Bitrus Mencenq

## (Dekabr 2002)

Hər tərəfdən aramsız atəş səsləri eşidilirdi. Qadın qorxu və çaşqınlıq içərisində gizlənməyə yer axtardı. Onun göz yaşları sel kimi yanaqlarından axırdı. Qapının arxasına qısılaraq özünün də öləcəyini düşündü. Qadın küçədən gələn qışqırıq səslərini eşitməmək üçün qulaqlarını örtdü və "Rəbb İsa, bizə kömək et" — deyə dua etdi.

Nəhayət, sakitlik çökdü. Qaros Mencenq yavaş-yavaş gizləndiyi yerdən çıxdı və giriş qapısına doğru yollandı. O, son dəfə ərini burada görmüşdü. Qapını açanda Qaros dağıntılarla qarşılaşdı. İnsanlar təşviş içində küçədə o tərəfə bu tərəfə qaçırdı. Bir çox evlər dağılmışdı, yerdə cəsədlər və yaralanmış adamlar var idi. Pilləkənlərdən aşağı baxarkən ərinin hərəkətsiz bir halda uzandığını gördü. Altmış doqquz yaşlı Bitrus Mencenq öz avtomobilinin yanında yerə yıxılmışdı. Bu gördüyü dəhşətli səhnədən Qarosun başı gicəlləndi və o, cəld yerə oturdu.

Bitrus Nigeriyada üç milyon üzvü olan "Məsih Kilsəsi"nin baş pastoru olmuşdu. O, beş il əvvəl təqaüdə çıxmışdı və tanınmış bir kilsə rəhbəri idi. Bacarıqlı müjdəçi olan pastor Müqəddəs Kitabın Nigeriyanın bir neçə qəbilə dillərinə tərcüməsində iştirak etmişdi. Təqaüdə çıxsa da, hələ də kilsənin işləri ilə fəal məşğul olur və çoxsaylı görüşlərə qoşulurdu.

Həmin gün pastor Mencenq təxminən qırx səkkiz kilometr uzaqlıqda olan bir neçə kilsə görüşündə iştirak etmişdi. Sonra o, üzündə böyük bir təbəssümlə evə gəlib sevimli həyat yoldaşını qucaqlayıb öpmüşdü. Pastor bəzi materialları maşında qoyduğuna görə geri qayıtmışdı.

Qaros fulani[2] müsəlmanlarından ibarət bir dəstənin ərinə yaxınlaşıb atəş açdığını dəhşətlə izləmişdi. Avtomobilə sıçrayan qanı və yerə yıxılan ərini görən Qaros öz həyatı üçün qorxaraq gizlənmişdi.

İslamçı ekstremistlərin kəndə basqını zamanı on doqquz nəfər həlak oldu, on səkkiz nəfər isə yaralandı. Yüz iyirmi altı ev dağıdılsa da, insanların imanını məhv edə bilmədilər. Bu qədər itkilərə baxmayaraq kilsə daha da möhkəmləndi.

---

2 Qərbi Afrikada yaşayan böyük müsəlman etnik qruplardan biri



*Bitrus Menceng müsəlmanlar tərəfindən güllələndi.*

Qaros və digər məsihçilər ekstremistlərə və hətta Allaha qarşı qəzəblənə bilərdilər. Lakin İsa onu bağışladığı kimi, Qaros da ərinin qatillərini bağışladı. İslamçı ekstremistlər belə etməklə öz allahlarına xidmət etdiklərini düşünürdülər, çünki onlar nə Atanı, nə də Oğulu tanımırdılar. Qaros onların Məsihlə tanış olması üçün dua etdi.

Həmin gün pastorun ailəsi və dostları onun təqaüdə çıxmasının beşinci ildönümünü qeyd etmək üçün bir qonaqlıq hazırlayırdı. Amma sonra onlar matəm gününü deyil, pastorun yer üzündəki xidmətinin sonunu və İsa ilə birlikdə yeni həyatını sevinclə qeyd etdilər.

"Ölsəm, çox xoşbəxt olacağam, çünki özümdən sonra başqa məsihçilər üçün bir nümunə qoyacağam".

**— əllərinə turşu tökərkən müsəlman mühafizəçilərin qarşısında dayanan gənclər pastoru sudanlı Kuva Başir**

# Möhtərəm Hose Huan Lozada Korteza

(27 yanvar 2003)

2001-ci ildə Kolumbiyanın *FARK* partizan komandiri Mono Jojoy elan etdi ki, ölkədəki bütün müjdəçi xidmətçilər onların hərəkatına və ideologiyasına qarşı çıxdıqları üçün hədəfə alınacaqlar. Jojoyun elanından sonra beş il ərzində 100-dən çox pastorun həyatına son qoyuldu. Kolumbiyada pastorlar *FARK*, Milli Qurtuluş Ordusu və Kolumbiyanın Birləşmiş Özünümüdafiə Qüvvələri kimi hərbi qruplaşmaların təzyiqi altında yaşayıb xidmət edirlər.

Hose Huan Rəbbin işini təhlükəli bir şəraitdə həyata keçirdiyini yaxşı anlayırdı. Pastor müharibədən əzab çəkmiş, çaşqınlıq və şübhə içində yaşayan imanlılara rəhbərlik edirdi. Onun kilsəsi "Müjdəçi Məsihçi Kilsə"si adlanırdı və Kolumbiyanın mərkəzi Tolima ərazisindəki kiçik San Antonio qəsəbəsində yerləşirdi.

2003-cü ilin yanvarın 27-də pastor San Antoniodakı evindən çıxıb ictimai avtobusla Çaparral şəhərinə gedirdi. FARK-ın üzvləri güman edilən hərbi geyimli kişilər avtobusu saxladıb mindilər. Onlar sərnişinlərin üzlərinə diqqətlə baxaraq, pastorun və onunla birlikdə kilsəyə gedən başqa bir imanlının qarşısında durdular və onları avtobusdan zorla düşürdülər.

Avtobusun içərisindəki sərnişinlər silahlı şəxslərin hər iki kişinin başından güllə ilə vurduqlarını dəhşətlə izlədilər.

Möhtərəm Hose Huan pastor olaraq *FARK*-ın korrupsiya və şantaj ideologiyasına qarşı çıxmışdı. O həm də Allahın həyat və güc mənbəyi olduğunu öyrətdiyi üçün partizanlar tərəfindən hədəfə alınmışdı. *FARK* partizanları bilirdi ki, sevgi və barışıq haqqında Müjdəni eşidən gənclər onların zorakı fəaliyyətlərinə qoşulmayacaqlar. Beləcə, üsyankar qrupun üzvləri Məsihin şahidlərinin hamısını susdurmaq üçün amansızcasına hərəkət etdilər. Lakin pastorun çatdırmaq istədiyi Müjdəni susdura bilmədilər. Onun iman həyatı bir çoxları üçün nümunə oldu.

# Sandey Madumer

## (22 aprel 2003)

Nigeriya kilsəsinin yepiskopu Nyam dedi: "Bu hadisə bizi heç təəccübləndirmir. Biz bilirdik ki, bu baş verəcək".

Bir sakit aprel gecəsi idi. Pastor Sandey və ailəsi birdən tüstü qoxusundan yuxudan oyandılar. Pastor otaqda ətrafa baxdı, ancaq bir şey görə bilmədi. Yerə əyilib arvadına tərəf sürünərkən gözləri tüstüdən yaşla doldu. Onun nəfəsi ağırlaşdı, görməsi bulanıqlaşdı və sonra yerə yıxıldı.

Pastor Sandey Nigeriyada güclü bir vaiz idi və onun təsirli xidməti çox vaxt müsəlman ekstremistlərini qəzəbləndirirdi. Onun vəzləri sayəsində bir çox müsəlman Məsihə iman etmişdi. Ekstremistlər isə ondan qisas almaq üçün yollar axtarırdılar.

Madumer və ailəsinin çox üzvləri evdəki yanğında həyatlarını itirdi. Yeganə oğlu Daniel alovdan xilas ola bildi. O sağ qalsa da, ağır xəsarət aldı. Yanğından mühafizə xidməti iki saat çalışdıqdan sonra yanğını söndürdülər.

Buna bənzər hadisələr Nigeriyanın şimal hissəsində də baş verdi. Burada müsəlman ekstremistlər çoxlu sayda məsihçini və kilsə rəhbərini qətlə yetirdilər. Bir neçə il əvvəl ekstremistlər məsihçi Gideon Akalukanın da həyatına son qoymuşdular və onun kəsilmiş başını küçələrdə gəzdirmişdilər. Belə görünür ki, hökumət bunlara qarşı tədbir görə bilmir, ya da tədbir görmək istəmir.

Nigeriyalı məsihçilər gündəlik qarşılaşdıqları təhlükələrdən agahdırlar. Məsih uğrunda şəhid olanların sayı artsa da, sağ qalan məsihçilərin də imanı artır. Padşahları uğrunda həyatlarını qurban verənlərin qoyduqları nümunə bu məsihçiləri cəsarətləndirir.

# Redoy Roy

## (23 aprel 2003)

Onun məqsədi bacardığı qədər çox insanı Məsihlə tanış etmək — onları Xilaskara yönəltmək idi. Allah onu bu işə çağırmışdı və nə olursa olsun sona qədər işinə sadiq qalacaqdı. Beləliklə, o, doğma vətəni Banqladeşdə “Campus Crusade for Christ” təşkilatında xidmət etməyə başladı.

2003-cü ilin aprelin 23-də axşam Redoy rikşadan[3] düşüb pilləkənlərlə evinə qalxırdı. Gözəl bir axşam idi. Həmin gün 200-ə yaxın kəndli “İsa” filmini izləmişdi. O, filmə baxan insanların simasında bir ümid yarandığını görmüşdü. Filmdən sonra kəndlilərdən bəziləri qəlblərini yeni tanış olduqları Dosta və Xilaskar — İsaya vermişdilər və bu da onun ürəyinə böyük sevinc gətirmişdi.

Redoy kirayə qaldığı evin qapısını itələyib içəri girdi. Qaranlıq otaqda işığı yandırmaq istəyəndə kimsə onun üzündən vurub yerə yıxdı. Qəzəbli radikal müsəlmanlar onu tutub yatağına sürüdülər. Bir neçəsi onun əllərini və ayaqlarını çarpayının kənarlarına bağlayıb döyməyə başladı. Redoy isə ağrıdan qışqırırdı. Sonra təcavüzkarlar bıçaqlarını çıxardılar. Redoy son duasını edib Xilaskarı ilə birgə olmaq üçün əbədiyyətə qovuşdu.

Qışqırıqları eşidən qonşular hadisə yerinə polis çağırdılar. Polis dərhal gəlib çıxdı və üç nəfəri həbs etdi. Həbs olunanlardan ikisi həmin axşam filmin göstərildiyi evdə yaşayan məsihçilər, digəri isə Redoyu filmdən sonra evə aparan rikşa sürücüsü idi. Əslində bu insanların heç biri qətldə iştirak etməmişdi. Ancaq polisin gözündə bu, istintaqda “irəliləyiş” kimi göründü.

Bu qətl hadisəsi bölgədəki məsihçilər üçün gözlənilməz deyildi. Bir neçə dəfə Redoya hədə-qorxu gəlmişdilər və “İsa” filminin nümayişini dayandırmasını əmr etmişdilər. O isə buna məhəl qoymamışdı. Məsihin bu sadiq xidmətçisi Müjdəni kəndlilərə çatdırmaq üçün öz həyatından keçməyə belə hazır idi.

Allah bu hadisədən məsihçiləri imanlarında gücləndirmək üçün istifadə etdi. Onlar da Redoy kimi, nəyin bahasına olursa olsun, Məsihin

---

[3] kiçik ikitəkərli arabaya qoşulub minik və yük daşıyan adam

çağırışına sadiq qalmağa qərar verdilər və xidmət hədsiz dərəcədə böyüdü. Bir çox müsəlmanlar bu hadisə barədə eşidəndə həyatını qurban vermiş insanın göstərdiyi filmə baxmaq istədilər və İsanın Müjdəsi ilə daha çox maraqlandılar. Allah Redoyun bu faciəli ölümündən istifadə edərək Öz Kəlamını yaydı.

Redoy və iş yoldaşları təqiblərin itib getməsi üçün deyil, Allaha sadiq qalmaları üçün dua etdilər. Redoy son sınaqdan keçdi və başqaları üçün bir nümunə oldu.

Çünki mən aranızda olanda
İsa Məsihdən, yəni çarmıxa
çəkilmiş Şəxsdən başqa heç bir
şey bilməməyi qərara aldım.

**1 Korinflilərə 2:2**

# Cəmil Əhməd əl-Rifai

## (6 may 2003)

Cəmil İncili başqalarına payladığına görə ürəyində bir sevinc, üzündə isə təbəssüm var idi. O, kitabları verdiyi adamlar üçün adları ilə dua etməyə çalışırdı.

Son on gün bir duman kimi gəlib keçdi. Livanda Məsih haqqında eşitməyə ehtiyacı olan çox insan var idi. Cəmil Müjdəni bölüşdüyü insanların sayını biləndə çox sevindi. O, 3000-ə yaxın insana İncil paylamışdı! Cəmil dedi: "Allahın mənim üçün etdikləri ilə müqayisədə bu çox kiçik bir şeydir". Bu müjdəçinin ümdə məsələsi başqalarına Məsih haqqında danışmaq idi. O, "Campus Crusade for Christ" təşkilatında, çoxsaylı Müqəddəs Kitab dərslərində və müjdəçilikdə fəal iştirak edirdi. "Son bir neçə ildə Allah mənə həqiqətən xeyir-dua verib və məni təmin edib" — o düşündü.

Cəmil İordaniyanın yüksək təbəqəli müsəlman ailəsində böyümüşdü. Bir neçə il əvvəl o, "Trans Dünya Radiosu"nun xidməti vasitəsilə İsanı tanımışdı. Bundan xəbər tutan Cəmilin ailəsi qəzəblənərək onu evdən qovmuşdu. O isə Məsihin ardınca getməyə qərar vermişdi. Cəmil neçə dəfə ora-bura köçdükdən sonra üç övladı olan bir ailə onu qəbul etmişdi. Bu ailə Frank və Anna Marsdenlər idi.

Marsden ailəsi ilə yaşamaq Cəmili inanılmaz dərəcədə ruhlandırmışdı. Frank məsh olunmuş bir müjdəçi kimi qonşularına və Rəbbin şəhərdə qarşısına çıxardığı insanlara Müjdəni çatdırırdı. Anna isə səylə dua edən bir qadın idi. O, ailəsinin və uşaqlarının qayğısına qalır və daim fürsətdən istifadə edərək yaşadığı ölkə və insanlar üçün dua edirdi. İyirmi doqquz yaşlı Cəmil özünə yaşamaq üçün yer axtararkən Marsdenlər ailəsi ilə rastlaşmışdı və onu qəbul edən ailənin bir üzvünə çevrilmişdi.

Cəmil sərgidə İncil kitablarını payladıqdan iki gün sonra Frank və Anna qonaq otağında oturub kitab oxuyurdular. Anna kitabından başını qaldırıb saata baxanda 23:30 idi və ayağa durub yatmağa hazırlaşdı. Adəti üzrə otağına gedən yolda uşaqlara baş çəkdi. Uşaqlardan ikisi valideynlərinin yataq otağında yatmışdı, Anna yorğanı onların üstünə

çəkdi. Otaqdan çıxanda onun diqqətini pəncərədən bayırda nəsə cəlb etdi. Çölə baxanda, o, evin yanından keçən bir kişini gördü. Anna evin arxasına keçən həmin adamın nə edəcəyini bilmək istədi.

Qadın cəld qonaq otağına qaçaraq ərini xəbərdar etdi. Frank da tez bu vəziyyəti araşdırmaq üçün mətbəxə keçdi. Pərdəni qaldırarkən o, arxası qapıya doğru əyilmiş adamı gördü. Kişi qapını zorla açmağa çalışdı, amma Frank dərhal qapını açarladı. Sonra o, tez Cəmili köməyə çağırdı.

Cəmil və Frank mətbəxə qayıdıb qapını açdılar. Həyətdə qapıdan bir metr aralıda bomba var idi. Frank əlləri ilə fitili söndürməyə cəhd etdi və sonra Cəmil ilə birgə bombanı evdən uzaqlaşdırmağa çalışdı. Onlar onu şüşəbəndin o biri başına, ilkin olduğu yerdən təxminən iki metr uzaq məsafəyə keçirə bildilər.

Təhlükənin sovuşduğunu düşünən Frank və Cəmil cəld o naməlum şəxsi axtarmağa başladılar. Ancaq həmin şəxsdən əsər-əlamət yox idi. Frank evə qayıdıb dəhlizə girərək Annaya dedi: “Biz polis çağırmalıyıq”. Onun ağzında sözü bitər-bitməz böyük bir partlayış evi silkələdi. Əgər onlar bu vaxt mətbəxdə olsaydılar, Frank və Anna yəqin ki, partlayışdan sağ çıxmayacaqdı.

Onlar cəld uşaqların otaqlarına qaçaraq hər üçünün təhlükəsiz olduğunu görəndə sakitləşdilər. Ailə üzvlərinin hamısı bir yerdə dərhal evdən çıxdılar, bu vaxt artıq bayırda camaat toplaşmışdı. Polis gələn kimi axtarış aparmağa başladı. Bəs Cəmil harada idi?

Onlar gecənin qalan hissəsini polis bölməsində keçirdilər və baş verənləri dəfələrlə danışdılar. Sonra Marsdenlər ailəsi bağda bir cəsədin tapıldığını eşitdi. Onlar dəhşətli gerçəkliklə üzləşərək ölən adamın Cəmil olduğunu bildilər.

Onun necə öldüyü heç kimə məlum deyildi. Bəlkə də Cəmil sadəcə Frankın ardınca evə girməkdə bir az gecikmişdi. Ya da o, fitili söndürməyə müvəffəq olmadıqlarını düşünüb yenidən onu söndürməyə çalışmışdı və bu zaman bomba partlamışdı. Bir holland müjdəçi bu təcavüzün dini zəmində baş verdiyini söylədi. O, bütünlüklə əmin idi ki, qəzəbli bir müsəlman Müjdəni paylayan insandan qisas almaq istəmişdi. Frank və Anna bu hadisədən çox kədərlənsələr də, bunun Allahı təəccübləndirmədiyini başa düşürdülər. Cəmilin ölümündən 2–3 həftə əvvəl bir neçə məsihçi onun barədə peyğəmbərlik yuxuları və görüntüləri görmüşdülər.

Cəmilin bir dostu görüntü zamanı onu əbədiyyətdə görmüşdü. Partlayışdan bir neçə həftə əvvəl o, Cəmilə bu barədə demişdi: “Cəmil, səni Rəbbin hüzurunda gördüm. Sən əbədiyyətdə idin! Əgər bu baş versə və Rəbbin yanına getsən, bizə son məsləhətin nə olardı? Bizim üçün hansı sözləri qoyub gedərdin?”

Cəmil Əhməd əl-Rifainin cavabı onun məzar daşının üzərində həkk olundu: “Başladığım yarışda qaçın və yarışı bitirin”.

# Möhtərəm Vau

## (9 iyun 2003)

İndoneziyada yaşayan müsəlmanlar Vauya kilsə ibadətlərini dayandırmağı söylədilər. Əks təqdirdə onu təhlükə gözləyirdi. Ancaq Vau onların sözlərinə məhəl qoymadı və Məsihə olan imanından utanmadı.

Adi günlərdən biri idi. Möhtərəm Vau bazar günü ibadətlərinə rəhbərlik edərək imanlıları həqiqət yolunda ruhlandırdı. Bundan sonra günorta ailəsi ilə birlikdə evdə istirahət etdi.

Saat 17:00 radələrində bir nəfər qapını döydü. Gələn adam çox danışmadı, pastorun onunla qısa müddətə harasa getməsini xahiş etdi. Pastor Vau Müqəddəs Kitabını götürüb kişi ilə birgə getdi və bir neçə saat ərzində evə qayıtmadı. Həyat yoldaşı ərinin həyatı üçün təhlükələr olduğundan xəbərdar idi və tanımadığı bir adamla harasa getməsi onu narahat etməyə başladı.

Qadın qonşusu ilə birlikdə ətrafdakı məhəllələrdə ərini axtardıqdan sonra evinə yollandı. Evə yaxınlaşdıqda xanım Vau həyətlərinin qarşısında nəyinsə yerdə olduğunu gördü. Pastorun həyat yoldaşı bunun ərinin cəsədi olduğunu başa düşəndə qışqırmağa başladı. Möhtərəm Vaunun bədəni qançırlarla örtülmüşdü və boynundakı dərin yaralar boğulduğunu göstərirdi.

Möhtərəm Vau öz iman yolunun təhlükələrindən ağah idi, lakin cəsarətlə Sumatra xalqına Müjdəni bölüşdü. O hər gününü insanlara Məsih barədə danışmaq üçün bir imkan hesab edirdi. Pastorun həyatda yaşadığı sonuncu günü ən əla gün idi, çünki həmin gün Rəbb onu təntənəli surətdə salamlayacaqdı: “Afərin, yaxşı və sadiq qulum”.

# Pastor Mariano Diaz Mendez və Pastor Hairo Solis Lopez

(Oktyabr 2003)

Pastor Mariano Meksikanın Çyapas bölgəsinin San Huan Çamula qəsəbəsində yaşayırdı. O, yerli "Tzotzil Müjdəçi kilsəsi"nin xidmətçisi idi. 2003-cü ilin oktyabrın 24-də günorta pastor Botatulan kəndi yaxınlığından keçərkən silahlı bir qrup onun avtomobilini saxladı. Mariano yaşadığı ərazidə tez-tez baş verən çaxnaşmalardan, həyatına olan təhlükələrdən və *kasiklərin* (yerli qoçular) müjdəçilərə qarşı artan hücumlarından yaxşı xəbərdar idi.

1960-cı illərdə məsihçiliyin Çyapas dağlıq ərazilərinə yayıldığı vaxtdan bəri onun qarşısını almaq üçün *kasiklər* amansız taktikalardan istifadə etmişdilər. Onlar maya dini ilə Roma katolik inanclarının qarışığı olan yarı bütpərəst "ənənəvi" dinə inanırdılar və çoxlu sayda müjdəçiləri qətlə yetirib yüzlərlə insanı yaralamışdılar.

Pastor Mariano maşından düşüb ona hücum edənlərdən qaçmaq istədi, ancaq silahlı dəstənin atdığı güllələr pastorun bədənini dəlib keçdi və o, yerə yıxıldı. Təcavüzkarlar Marianonun həyatına son qoydular.

Pastor Marianonun ölümündən düz bir həftə sonra Mapastepek şəhərində başqa bir pastor Hairo Solis Lopez də kasiklər tərəfindən qətlə yetirildi.

Həm pastor Mariano, həm də pastor Hairo Çyapas kimi təhlükəli bir yerdə Məsihə xidmət etdilər. Onların hər ikisi "hətta ölümlə üzbəüz olanda da Öz canlarını sevmədilər", lakin "Quzunun qanı və öz şəhadət sözləri vasitəsilə ona qalib gəldilər" (Vəhy 12:11).

# Canq Honqmey

## (3 oktyabr 2003)

Çində yaşayan xanım Canq otuz üç yaşında idi. O, imanına və "qanunsuz dini fəaliyyətlərinə" görə Donq Maio Donq kəndində yerli polis tərəfindən həbs olunmuşdu.

Oktyabrın 29-da günorta həbs olunduqdan sonra polis onun ailəsindən Canqı azadlığa buraxmaq üçün 3000 RMB (təxminən 400 ABŞ dolları) rüşvət istədi. Ailə bu məbləği toplaya bilmədi. Həmin gün Canqın qardaşı və əri Hsu Fenq-hai onun azadlığa çıxarılmasını xahiş etmək üçün polis bölməsinə getdi. Orada gördükləri gerçəklik onları sarsıtdı.

Canq ağır zəncirlərlə bir skamyaya bağlanmışdı. O, ağır yaralanmışdı və danışa bilmirdi. Canqın vəziyyəti ağırlaşsa da, polis onu azadlığa buraxmadı. Əri və qardaşı çarəsiz halda evə qayıtdılar.

Ertəsi gün ailəsi yenidən polis bölməsinə getdi. Bu dəfə onlara deyildi ki, Canq günorta dünyasını dəyişib. Tibbi ekspertizanın nəticələrinə əsasən o, sərt döyülmə zamanı aldığı daxili xəsarətlərdən ölmüşdü.

Ertəsi gün 1000-dən çox insan şəhər idarələrinin önündə Canqın ölümünə qarşı etiraz aksiyası keçirdi.

Canq Honqmey Məsihi inkar etməkdənsə ölməyə hazır idi. O, sağlığında bir çoxlarının həyatına toxundu. Ölümü ilə dünyadakı imanlıları ruhlandırdı və onlar üçün bir nümunə qoydu.

# Muxtar Masih

## (5 yanvar 2004)

Pərvin ərinin həyatının son günlərindən danışarkən yanaqlarından göz yaşları süzülürdü. O, ərinin Müqəddəs Kitabını qucağında sıxaraq pastorun Rəbbi necə sevdiyindən və onu dinləyən hər bir kəsə Müjdəni bölüşmək istəyindən danışdı.

Pastor Muxtar öz vətəni Pakistanda on yeddi illik xidməti zamanı 200-dən çox insanı Məsihlə tanış etmişdi və 2000-ci ildə bir kilsə yaratmışdı. O hər gün səhər dua xidməti keçirməklə əlli nəfərdən ibarət olan kilsəsinin böyüyəcəyinə inanırdı. Xidmətlər kilsə damındakı bir neçə səsgücləndirici ilə əsasən məsihçilərin yaşadığı məhəlləyə yayımlanırdı. Müsəlmanlar azanlarını gündə beş dəfə Xaneval küçələrində gur səslə yaydıqları üçün Muxtar da məsihçilərin belə etməli olduğunu düşündü.

Əlli yaşlı pastor Quranı yaxşı bilirdi, iman və dini doktrinaları müsəlman alimləri ilə müzakirə etməyə hazır idi. O, təsirli bir natiq olmaqla həm də inandırıcı mübahisələr edirdi. Müsəlman rəhbərlər Muxtarın məsihçilər və qeyri-məsihçilər arasında artan nüfuzunu görüb qəzəbləndilər.

Bir gün kilsədə uşaqlara dərslər keçirilərkən bir məscid rəhbəri ora daxil oldu. O, dərsləri və səsgücləndiricilərlə yayımı dərhal dayandırmağı tələb etdi və səs-küyün müsəlmanların dualarına mane olduğunu bildirdi. Kilsə üzvləri kişini sakitləşdirməyə çalışsalar da, o heç kəsə məhəl qoymayıb hirslə qışqırmaqda davam etdi.

Sonra müsəlmanlar kilsəyə qarşı rəsmi formada şikayət etdikləri üçün pastor Muxtar polis bölməsinə çağırıldı. Ona səsgücləndiricilərin səsinin çox yüksək olduğunu söylədilər. Pastor Muxtar üzr istədi və səsgücləndiricilərin səsini aşağı saldı. Bir neçə gündən sonra iki-üç yaşlı müsəlman kişi kilsəyə gələrək Muxtara xəbərdarlıq etdi. Əgər səsgücləndiricilərlə müjdəçilik işini davam etdirsə, onun həyatına son qoyacaqlarını bildirdilər. Muxtar ölümdən qorxmurdu, ona görə də yayımlarına davam etdi.

2004-cü ilin yanvarın 5-də səhər 4:00-də pastor Muxtar ayağa durdu və Lahor şəhərinə gedən qatara minmək üçün evdən çıxdı. Böyük qızı

Ester Milad bayramında valideynlərinə baş çəkə bilmədiyindən Muxtar onu və nəvələrini görmək üçün Lahora gələcəyini bildirmişdi. Səhərin havası soyuq və nəm idi. Ətrafa qalın bir duman çökdüyündən yolu görmək çətinləşirdi. Muxtar hava şəraitinə baxmayaraq yavaş-yavaş qatar stansiyasına gedən dolanbac yollarla irəliləyirdi.

Hücum edənlər pastora yaxınlaşanda o, qatar stansiyasına çatmağa az qalmışdı. Həmin səhər duman çəkildikdən sonra pastor Muxtarın cəsədi qan içində tapıldı. Onun yanında içərisində paltarları, bir neçə əşyası və Müqəddəs Kitabı olan səyahət çantası var idi.

Pastorun ölümündən bir gün əvvəl 2004-cü ilin yanvarın 4-ü o, kilsədə sonuncu dəfə vəz etdi. Muxtar imanlıları bir-birlərini sevməyə, müntəzəm olaraq dua etməyə və həmrəy olmağa çağırdı: “Ola bilsin ki, mən həmişə sizinlə olmayım. Ona görə də birləşin və sadiq imanlılar cəmiyyəti olun”. Pastor öz kilsəsini ruhlandırdı ki, onlar da erkən dövrün imanlı cəmiyyəti kimi Müjdəni yaysınlar. İlk imanlılar cəmiyyətinə belə deyilmişdi:

> “Mənim sizə söylədiyim sözü yadınıza salın: ‘Qul ağasından üstün deyil’. Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər, Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər” (Yəhya 15:20).

Məsihin ardınca gedənlər üçün əbədi sözlər.

# Sergey Bessarab

## (12 yanvar 2004)

2004-cü ilin yanvarın 12-si axşam atəş səsləri eşidildi və pastor Sergeyin otağının pəncərə şüşələri sındı. İlk güllə Allaha ilahi oxuyaraq gitarasını dınqıldadan Sergeyin əlinə dəydi. İkinci güllə onun ayağına, üçüncüsü isə sinəsinə dəyərək onun həyatına son qoydu.

Pastor Bessarabın həyat yoldaşı Tamara güllə səslərini eşidib çaşqınlıq içində otağa qaçdı. O, qarşısındakı mənzərəyə — qırılan şüşələrə, qan çilənmiş stula, xalçaya və ərinin gitarasına baxarkən gözlərinə inanmadı. O, yenə güllə atılacağından qorxaraq aşağı əyildi və ərinin cəsədinin yanında uzanıb ağlamağa başladı.

Qəzəbi sönməyən silahlı şəxs evə və Sergeyin avtomobilinə atəş açdı. Hər tərəfə kəskin barıt qoxusu yayıldı. Silahlı adam tapşırığını qurtardıqdan sonra dönüb evin arxasındakı dar, tozlu dalandan qaçaraq qaranlıqda itdi.

Sergey Bessarab üçün əzablar yeni bir şey deyildi və o, Məsih üçün ölməyə hazır idi. Amma beş il əvvəl onun üçün bu fikir ağlasığmaz görünə bilərdi. Bessarab Tacikistanın cinayətkarlıq aləmində başçı olduğuna görə beş dəfə həbsxanada olmuşdu. Məsihi tanıyan bir məhbus yoldaşı Bessaraba Məsih barədə danışmağa başlamışdı. Bu dostu məsihçilərin həbsxana xidməti vasitəsilə Məsihi tanımışdı və Sergeyin İsaya ürəyini verməsi üçün durmadan dua etmişdi.

"Başqası üçün dua et, mənim üçün vaxtını itirmə" — deyə Sergey onun üstünə çımxırırdı. Lakin kişi israrla hər gün onun Xilaskarı tanıyacağına inanaraq dua etdi. Nəhayət, üç il sonra 2000-ci ilin avqustunda onun dualarına cavab gəldi. Sergey Bessarab Rəbbə həyatını verib həbsxanada Müqəddəs Kitabı öyrənməyə başladı. 2001-ci ilin noyabr ayında azadlığa buraxıldıqdan sonra Məsihin Müjdəsini köhnə həbsxana yoldaşlarına çatdırmaq üçün tez-tez geri döndü.

Sergey ölkənin hər yerinə səyahət edirdi. O, insanlara böyük sevgisi olan alovlu bir vaiz idi və heç bir məsihçi olmayan, güclü, radikal müsəlmanlar olan Tacikistanın İsfərə şəhərində bir kilsə yaratdı. Sergey

ibadət keçirmək üçün həyat yoldaşı Tamara ilə birgə İsfərəyə gedərdi. 2003-cü ilin əvvələrində onlar həmin şəhərə köçdülər. Kilsə böyüməyə başladı və yeni insanlar Məsihi qəbul etdilər, lakin onların xidmətləri Müjdənin düşmənlərinin diqqətindən kənar qalmadı. Sergeyin ölümündən bir həftə əvvəl yerli qəzetdə belə bir başlıq dərc olunmuşdu: "Sergey Bessarabla bağlı nə ediləcək?"

Sergeyin Məsih üçün həyatı partlayan bir ulduza bənzəyirdi, o, çox sürətlə alovlu bir tərzdə yanaraq ətrafa işıq saçırdı. Bessarabın ölümündən sonra da Tamara Tacikistanın bir çox yerlərində olan məhbuslardan çoxsaylı məktublar alırdı. Onlar Sergeyin Məsih barədə danışdıqlarını və Rəbbin onun həyatını necə əlamətdar tərzdə dəyişdirdiyini eşitmişdilər və indi bu məhbuslar da Allahı daha çox tanımaq və Ona etibar etmək istəyirdilər.

Pastor Sergey dua edən bir adam idi, Rəbb ilə səhər-axşam gündəlik dörd saat vaxt keçirirdi. O, Müqəddəs Kitabını oxuyur, dua edir və gitarasını dınqıldadaraq ilahilərlə Allahı izzətləndirirdi. Onun ən sevimli ayəsi Yəhya 12:24-cü ayə idi: "Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir".

Bu dörd saatlıq dua Sergeyin Allaha olan ruhani yanğısının mənbəyi idi. Əslində ölümündən bir neçə həftə əvvəl o, Rəbbə belə bir dua etmişdi. O, Allaha demişdi ki, İsa ilə yaxından ünsiyyət qurmaq üçün ona günorta da iki saat dua etməyə imkan yaratsın. Allah onun duasına heç kimin gözləmədiyi bir tərzdə — daha iki saat deyil, Məsihlə sonsuz bir ünsiyyət şəklində cavab verdi.

Sergey əvvəlcə Tamara ilə, sonra isə Tacikistandakı kiçik imanlı qrupu ilə birgə İsfərə üçün dua edirdilər. Onların arzusu bu idi ki, Allah bu şəhər üçün dizləri üstə dua edən bir ordu hazırlasın. Allah Sergey və Tamaranın duasına cavab verdi. Rəbb duada döyüşən bu əsgərin ölümündən toxum kimi istifadə etdi və dünyanın hər yerində İsfərə üçün çoxlu dualar olundu.

# Əhməd Əl-Axval

## (21 yanvar 2004)

Fələstinli Əhmədin həyatı barədə danışarkən İordan çayının qərb sahilində yaşayan bir müjdəçi belə demişdi: "Əgər insanların imanı həqiqidirsə və əzablarının Tanrının nəzərindən gizli olmadığını anlayırlarsa, onda onlar Allahın padşahlığının inkişafı üçün iş gördüklərini dərk edirlər. Beləliklə, onların cəsarəti artır... və xidmət davam edir".

Yerusəlimdə qəlyanaltı köşkündə aşpaz işləyən və səkkiz uşaq atası olan Əhməd Əl-Axval müsəlman ailəsində dünyaya göz açmışdı. Fələstində kimsə müsəlman olaraq doğulursa, müsəlman olaraq qalmalıdır, əks təqdirdə nəticə acınacaqlı ola bilər.

Fələstin Rəhbərliyi Əhmədi oğurlanmış qızıl alverində ittiham etmişdi və o, həbsxanada olarkən Məsihə ürəyini vermişdi. Daha sonra Əhməd bütün ittihamlardan bəraət qazandı və onun Məsihə olan yeni imanı barədə xəbər sürətlə yayıldı. Ancaq islama arxa çevirmək və qonşu Bet-Lexemdə doğulmuş Rəbbi qəbul etmək ona həyatı bahasına başa gələcəkdi.

Əhməd dəfələrlə təqiblərə və təcavüzə məruz qaldı. Fələstin İdarəetmə təhlükəsizlik qüvvələri onun evində axtarış apardı və bütün Müqəddəs Kitablar, eləcə də məsihçiliyə aid kitablar müsadirə olundu. Günlərlə sorğu-sual olunduqdan sonra ona islama qayıtmaq təklif edildi. Bunun müqabilində o, işlə təmin olunacaqdı, həm də arvadı və səkkiz övladına maddi yardım veriləcəkdi. Əhməd bu təklifi rədd etdi və ona qarşı təqiblər daha da artdı.

Əhməd dəfələrlə döyüldü, o və ailəsi hədələndi. Fələstin İdarəetmə təhlükəsizlik qüvvələri ilə əlaqəsi olan adamlar onun evini yandırmağa çalışdılar. Sonra icarəyə götürdüyü qəlyanaltı köşkünün sahibi kirayə müqaviləsini yeniləməkdən imtina etdi. Beləliklə, Əhmədin ailəsini dolandırmaq üçün imkanları məhdudlaşdı. Ona görə də o, Yerusəlimdən uzaqda işləməyə məcbur oldu.

Döyülmələr, itkilər, həbslər və hədə-qorxulara baxmayaraq Əhməd Məsihə olan imanında möhkəm qaldı. Onun evi qeyri-rəsmi bir məsihçi

mərkəzinə çevrildi. O burada Müqəddəs Kitabdan dərslər keçir, məsihçiliyə aid kitablar paylayır və Müjdəni başqalarına bölüşürdü.

Əhməd bədənində İsanın yara izlərini daşıyırdı (Qalatiyalılara 6:17). Oddan çıxarılmış isti metal lövhələr ilə dərisinə vurulmuş yanıqlar bütün bədənini örtürdü. Müsəlmanların onun Müjdəni yaymasına qəzəblənərək başqa yola əl atdılar.

2004-cü ilin yanvarın 21-də Əhməd qapısının döyüldüyünü eşitdi. Qonağını qarşılamaq üçün qapını açanda güllələr yağış kimi onun üzərinə yağdı.

Fələstinli məsihçilərə qarşı təqiblər artıb. Bir çox məsihçilər siyasi təhlükələr, iqtisadi çətinliklər və insan haqlarının pozulmasına görə İordaniya çayının qərb sahilindən və Orta Şərqdən qaçıb gediblər. 1914-cü ildə İsrail, Suriya, Livan, İordaniya və Fələstin İdarəetməsində məsihçilər 26,4%; 2006-cı ildə isə 10% idi. İslamçılar Fələstin İdarəetməsində rəhbərlik etdikləri üçün məsihçilərlə Müqəddəs Torpaqda ikinci dərəcəli vətəndaşlar kimi davranırlar. Hamı kimi məsihçilərdən də islam qanunlarına və təliminə tabe olmaq tələb olunur.

Lakin bir çox məsihçilər bu təlatümlü və qeyri-müəyyən dövrdə Müqəddəs Torpaqdan heç yerə köçmürlər. Amma orada qalıb yaşamaq həyatın bahasına başa gələ bilər. Əhmədin həyatı buna bir misaldır. İordaniya çayının qərb sahilində çalışan bir müjdəçi demişdi: “Bu cəsur imanlılar bilirlər ki, Allah onların əzablarından xəbərdardır. O, görən Allahdır” (Yaradılış 16:13). Onlar Rəbbin yara izlərini daşımağı sevinc və şərəf hesab edirlər.



*Pastor Corc Masih müsəlmanlar tərəfindən güllələndi.*

# Pastor Corc Masih

## (2 aprel 2004)

Pastor Corc neçə illər Lahor şəhərində yerləşən "Pakistan kilsəsi"ndə rəhbər idi. Həyat yoldaşı Aniata və o, kilsə yaratmaq üçün əhalisinin əksəriyyəti müsəlmanlar olan kiçik Manavala kəndinə köçməyi ürəklərində hiss etdilər.

İki il ərzində Corc evində yerləşən kilsənin pastoru oldu. Rəbbin sevgisi ilə dolmuş pastor evdən-evə gəzərək xidmət edir, qonşularının qayğısına qalır və xəstələr, hətta müsəlmanlar üçün dua edirdi. Həyat yoldaşı və pastor evlərindən ətrafa yayılan ibadət mahnılarına görə kənddə tanınırdılar. Onların arzuları Allah ilə daha dərindən ünsiyyət qurmaq və yaşadıqları kəndin camaatına İsanın Müjdəsini çatdırmaq idi.

Onların bu xidməti Şokat Əli adlı bir müsəlman qonşularını bərk qəzəbləndirdi. Şokat ev sahibini məcbur etdi ki, Corcun ailəsini qonşuluqdan qovsun. Bu qonşu dəfələrlə pastora vəz etməməyi demişdi, əks təqdirdə onu öldürəcəyini xəbərdarlıq etmişdi.

Lakin Corc öz fikrindən dönmədi. 2004-cü ilin aprelin 2-də cümə günü günorta pastor həyat yoldaşı və dörd övladı ilə birgə evlərində "İsa" filminə baxırdılar. Film bitdikdən sonra Aniata qapıdan bayıra çıxanda iki maskalı təcavüzkar içəri girdi. Onlardan biri Aniatanı tutub ağzını örtdü və kömək üçün qışqırmağa çalışacağı təqdirdə onu ölümlə hədələdi. Digər təcavüzkar isə ov tüfəngi ilə yaxın məsafədən Corcun üzünə atəş açdı. Pastor son nəfəsini alarkən qatil tüfənginin arxası ilə onun başına zərbə endirdi və beləcə Corcun həyatına son qoydu. Sonra Aniatanı tutan adam onu yerə yıxaraq oradan qaçıb getdi. Qorxu və çaşqınlıq içində olan Aniatanın ağladığını eşidən qonşular evə axışdılar. Kömək etmək üçün gəlməyən qonşulardan biri Şokat Əli idi.

Corc Masihin ürəyində Rəbb Allah üçün hədsiz bir yanğı, insanlar üçün isə böyük mərhəmət hissi var idi. Pastorun dəfn mərasiminə toplaşanlar onun cəmiyyətdə böyük iz qoyduğunu göstərdi. Təxminən 300 nəfərə yaxın adam, onun xidməti tərəfindən xeyir-dua alan bir çox müsəlmanlar da daxil olmaqla Corcun qardaşının evinə toplaşaraq mərhumu dərin

hüznlə yad etdilər. Bir vaxtlar Corca İsanın həqiqətini bölüşən pastor Muxtar belə dedi: “O, həqiqi və alovlu bir imanlı idi və həmişə vəz edərək insanların qəlbini Məsih üçün qazanmağa çalışırdı”.

“Daha çox təqib... daha çox artım!”

**— Pastor Samuel Lemb, 20 ilini imanına görə həbsxanada keçirən Çin ev-kilsəsinin pastoru**

# Samuel Masih

## (28 may 2004)

Pakistan qəzetlərindən birinin baş məqaləsində belə yazılmışdı: "Küfr qanunlarının hal-hazırkı forması ədalətdən daha çox qan davası və təqib alətinə çevrilib". Küfr müqəddəs bir şeyə qarşı son dərəcədə hörmətsizlik deməkdir və əsrlər boyu məsihçilər islama qarşı küfr etməkdə günahlandırılıblar. Pakistanda çox vaxt yalan şahidlər imanlılara qarşı danışaraq onları saxta ittihamlarla həbsxanaya və hətta ölümə göndəriblər. Samuel Masih ilə də belə rəftar etmişdilər. Onu tapanda cəsədi qan içində idi, bədəni çox döyülmüşdü və kəllə sümüyü sınmışdı.

Samuel divarları əhəngləyən bir rəngsaz idi. O, işini yenicə sona çatdırmışdı və ayaqyolundan istifadə etmək üçün yerli məscidə girdi. Məsciddən bayıra çıxanda ətrafdakılar onu tutub üzərinə ittihamlar yağdırdılar. Samuelin ittihamçıları onun məsihçi olduğunu bilə-bilə məscidin divarlarına tüpürdüyünü iddia etdilər və iki yalan şahid bu saxta iddianı təsdiqlədi. Samuel dərhal tutuldu və məhkəməyə verildi.

Samuel Pakistanın cəza məcəlləsinin 295-ci maddəsinə əsasən "dini (islamı) təhqir etmək məqsədi ilə ibadət yerini murdarlamaqda" ittiham olunsaydı, o iki il müddətinə həbs edilib cərimə oluna bilərdi.

Çirkli həbsxananı sidik və tərin üfunətli qoxusu bürümüşdü. Öskürək və tələsik ora-bura gedənlərin ayaq səsləri divarlarda əks-səda verirdi. Dəhlizin o başında uzanan Samuel aramsız olaraq qanlı öskürür və çətinliklə nəfəs alırdı. Həbsxana rəisi məsihçi məhbusa qarşı qəzəbli olsa da, Samuelin kəskinləşən vərəm xəstəliyini müalicə etmək üçün onu xəstəxanaya göndərmişdi.

Xəstəxanada qaldığı müddətdə yatağının yanında bir polis keşik çəkirdi. Samuel təhlükəsiz bir yerdə qalıb sağalacaqdı, lakin dəhşətli bir cinayət baş verdi.

Bir səhər tezdən polis konstebli (aşağı polis rütbəsi) Samuelin otağına girdi və çəkiclə onun başına vurdu. Çəkic yaralarından çox qan itirən Samuel komaya düşdü və təcili neyrocərrahiyyə şöbəsinə aparıldı və bir neçə gün sonra orada dünyasını dəyişdi. Samuel Masihin həyatını əlindən

almış Pakistan polis konstebli belə dedi: "Onu öldürərək cənnətdə bir yer qazanmaq istədim".

"Daily Times" qəzetinin redaktoru Samuelin ölümündən bir gün sonra öz rəyini belə bildirmişdi: "Bu, qanunların [küfr] dövlətdə və cəmiyyətdə aşıladığı saysız ziddiyyətləri ortaya çıxaran bir cinayət işidir. Bunun həm ideya, həm də praktiki cəhətdən pis qanun olduğu bir faktdır, çünki qanunvericilik özbaşına davranışları ruhlandıran bir şüur yaradır".

Samuel heç vaxt etmədiyi bir cinayətə görə həbs edildi. Onun yeganə "günahı" həqiqi Xilaskarının çağırışına uyğun yaşaması idi. Samuelin qatili onu öldürməklə cənnətdə bir yer qazanacağını düşünürdü. Ancaq Samuel İsanın vasitəsilə cənnətə getməyin ən doğru yolunu bilirdi və indi o, Xilaskarının hüzurundan zövq alır.

"Bütün dünya mənə qarşı olsa da,
təki Küll-İxtiyar Tanrı mənimlə olsun!"

**— Mehdi Dibaj, 1993-cü ildə İran məhkəməsində kafirliyə görə təqsirləndirilib ölüm cəzasına məhkum edildikdə özünün müdafiəsi üçün dediyi sözlər**

# Ciyanq Zonqzi

## (18 iyun 2004)

Ciyanq bir kənd bazarında məsihçiliyə aid kitabları payladığı üçün həbs edildi. Otuz dörd yaşlı Ciyanq böyük Çin xalqı üçün təhlükəli adam olmasa da, daha heç vaxt azadlığı dadmayacaqdı və ölənə qədər döyüləcəkdi. Bu hadisə doğulduğu şəhərin qonşuluğundakı Quyçjou bölgəsinin Tuntszi əyalətinin İctimai Təhlükəsizlik Bürosunun (İTB) idarəsində baş verdi.

Bir gün Ciyanq bacı qayınanası xanım Tan Dovey ilə Tuntszi əyalətinin Pusdu qəsəbəsinin bazarına getdilər. Qadınlar ev-kilsələrində on il idi ki, fəal iştirak edirdilər və küçələrdə Müqəddəs Kitabları, eləcə də digər Müjdə haqda kitabçaları paylayırdılar. Yerli İTB onların əllərini bir dəst qandala salaraq həbs etdi. Qayınanası Doveyi dindirmə zamanı dəfələrlə təpiklədilər. O, Ciyanqla daha pis rəftar olunduğunu gördü. Onlar Ciyanqın ayaqqabılarını çıxarıb döydülər və xanım Doveyə dedilər ki, əgər onlara tabe olmasa onu da döyəcəklər.

Həm Ciyanq, həm də xanım Dovey İTB tərəfindən şayiələr yaymaqda və "ictimai nizam-intizamı pozmaqda" günahlandırıldı və on beş günlük "inzibati həbs" cəzasına məhkum edildilər. Polis hesabatında onların "bazarda insanlara məsihçi kitabları paylayaraq ictimai nizam-intizamı ciddi şəkildə pozduqları" təsvir olunurdu.

İyunun 18-də səhər tezdən bu iki məsihçi qadını Tuntszi təcridxanasına apardılar. Polis onların barmaq izlərini götürərək ayrı kameralara saldı. Xanım Dovey heç bir qanunu pozmadıqlarına və qanunsuz olaraq tutulduqlarına etiraz etdi, amma ona heç kim əhəmiyyəti vermədi. Qayınanası qarşı kamerada yataqda uzanan bir insanın ayaqlarını gördü və sonra mühafizəçilər gəlib şəkil çəkdilər. O, mühafizəçidən nə baş verdiyini soruşanda bu işin ona aid olmadığını söylədi.

Sonra xanım Dovey gəlni ilə görüşməyi xahiş etdi, lakin Ciyanqın istirahət etdiyini ona dedilər. Qadın bu barədə yenə soruşanda gəlninin çox ağır xəstə olduğunu söylədilər. Xanım Dovey elə hey onunla görüşməyi xahiş etsə də, mühafizəçilər bundan imtina edərək onu söydülər. Sonra bildiriş və izahat vermədən onu azadlığa buraxdılar. Qayınanası yenə

də gəlni barədə maraqlandı, lakin xanım Doveyi məcburi olaraq qatara mindirib kəndinə yola saldılar. O, Ciyanqın ölümünü evə gəldikdən sonra bildi. Təcridxanada niyə şəkil çəkdiklərini və niyə onu belə tez buraxdıqlarını anladı.

Ailə tibbi ekspertizanın nəticələrini həmin ayın sonunda əldə etdi. Orada Ciyanqın təbii səbəblərdən, ürək çatışmazlığından öldüyü qeyd edilmişdi. Döyülərkən aldığı yaralardan, din azadlığı olduğunu iddia edən bir hökumətin törətdiyi vəhşicəsinə rəftardan heç bir söz yazılmamışdı. Ailə ikinci dəfə meyitin yarılmasını tələb etdi, lakin onların xahişləri rədd olundu. Ciyanqın döyülərək öldürüldüyünü təsdiqləmək üçün yerli məhkəmələrə müraciət etsələr də, xahişləri cavabsız qaldı. Daha sonra İTB-nin səlahiyyətli şəxsləri Ciyanqın qətlinə dair sübutları məhv etmək istədilər və cəsədini yandırmaq üçün ailəyə təzyiq göstərdilər.

Ciyanqın ailə üzvləri təbii olaraq ədalət axtarırdılar. Onlar İsanın Müjdəsini bölüşdükləri üçün vətəndaşlarını təqib edən bir hökumətdən qorxmadılar. Sevən bir həyat yoldaşı və ana olan Ciyanqın həyatına edilmiş təcavüzdən və onun ölümündən yaxınları çox sarsıldılar.

Ciyanq imanını başqaları ilə paylaşərkən yaxalandı və İTB onu öldürdü. Gənc kəndli bir qadın Çinin "ictimai nizam-intizamı" üçün necə təhlükə yarada bilərdi? Onun sadə bir hərəkəti — məsihçiliyə aid kitabları paylamağı vəhşicəsinə ölümlə nəticələndi.

Ciyanqın baldızı onun cəsədinin şəkillərini çəkmək üçün icazə istədi, lakin onun xahişi rədd edildi. Beləliklə o, bir fotoaparat icarəyə götürüb gizlicə cəsədin olduğu otağa girdi. Baldızın çəkdiyi şəkillərdən Ciyanqın bədənindəki döyülməkdən yaranmış yaraları və boynundakı çapıqları asanlıqla görmək olurdu. İTB mühafizəçilərindən biri Ciyanqın ailəsinə gizlicə demişdi ki, yenidən meyitin yarılmasına ehtiyac yoxdur, çünki onun döyülərək öldürüldüyünü görmək çox asan idi.

Ciyanqın ailəsi bu həyatda göstərilməyəcək bir ədaləti axtarırdı. Bu imanlı bacı indi Vəhy kitabında yazılmış şəhidlərə qoşulub və ailəsi "Nə vaxta kimi?" deyə soruşur.

> Quzu beşinci möhürü açanda qurbangahın altında Allahın kəlamına və etdikləri şəhadətə görə kəsilən canları gördüm. Onlar uca səslə fəryad edirdi: "Ey müqəddəs və haqq olan Pərvərdigar,

nə vaxta kimi mühakimə etməyib yer üzündə yaşayanlardan qanımızın qisasını almayacaqsan?" Onda hər birinə ağ xalat verilib deyildi ki, özləri ilə birgə qulluq edən, onlar kimi öldürüləcək bacı-qardaşlarının sayı tamam olana qədər bir az vaxt da rahat olsunlar (Vəhy 6:9–11).

Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum? Rəbdir ömrümün qalası, mən kimdən vahimələnim? Ətimi yemək üçün hücum edən şər adamlar — yağılarım, düşmənlərim büdrəyərək yıxılarlar. Bir ordu qarşımda düzülsə belə, ürəyim qorxmaz, mənimlə döyüşsələr də, arxayınam.

**Zəbur 27:1–3**

# Molla Əsəd Ullah

## (1 iyul 2004)

Əfqanıstanın Qəzni əyalətində bazar piştaxtalarındakı yetişmiş meyvələrin üzərinə günəş şüaları düşürdü. Molla Əsəd Ullah bu gözəl gün üçün Allaha şükür etdi və yetişmiş tər meyvə-tərəvəzlərdən alıb bazarın içindən keçdi. Əsəd bazarda insanlarla söhbət etməyi xoşlayırdı. Bu söhbətlərin bəzilərində o artıq Məhəmmədin deyil, İsa Məsihin davamçısı olduğunu sakitcə bölüşür və iman haqda müzakirələr edirdi.

Əsəd növbəti piştaxtanın qarşısında dayanıb bir az meyvə almaq üçün əlini irəli uzadanda arxadan kimsə ona toxundu. Dönüb baxanda ona təcavüz edən adamları gördü. Bu təcavüzkarlar dərhal Əsədin boğazını bıçaqla kəsərək həyatına son qoydular.

Taliban döyüşçüləri Əsədin cansız cəsədini bazar küçələrində sürüdükcə camaat qışqırmağa başladı. "İnsanları aldadan məsihçilərin və onların təlimlərinə qulaq asanların başına belə işlər gəlir. Müsəlmanları məsihçiliyə döndərən insanların aqibəti bax belə olacaq" — deyə qatillər xəbərdarlıq edərək qışqırdılar. Taliban hətta kütləvi informasiya vasitələrinə də zəng etmişdi ki, Əsədi öldürdüklərinə görə onları tərifləsinlər.

Əsədin insanlara Müjdəni bölüşməyə böyük həvəsi var idi. O, yeni insanlarla tanış olmağı xoşlayırdı və Allahın sevgisini əks etdirən bir həyat yaşayırdı. Əsəd öz ailəsini də çox sevirdi. O, həyat yoldaşını və o vaxtlar yeddidən on dörd yaşlarına qədər olan dörd qızını Məsihlə tanış etdi.

Əsəd keçmiş molla olaraq islam qanunlarını bilirdi. Onun müjdəçiliyini daha da təsirli edən Quran və Məhəmmədin təlimləri haqqında izahlı danışmağı idi. Əsəd ölümündən beş il əvvəl İncili əldə etdikdən sonra İsanı Rəbb Xilaskarı kimi tanımışdı və iki il yarım sonra Taliban rejiminin qəddar rəhbərliyi dövründə gizli vəftiz olunmuşdu.

Əsədin qətlindən bir müddət sonra başqa məsihçilərin də həyatına soy qoyldu. Onların da külfəti başsız qaldı. Bu şəhidlər qorxu içində yaşamamışdılar və hədər yerə həyatlarını itirməmişdilər. Onlar Məsihə iman edənlərin az olduğu bir ölkədə cəsarətlə Məsihin qüdrətini nümayiş etdirmişdilər.

Bu insanlar Müqəddəs Kitabı öyrəndikləri, İsanın adı ilə dua etdikləri və insanları məsihçiliyə döndərdikləri üçün günahlandırıldılar. Məsihin davamçısı üçün bu ittihamlarla "təqsirkar" hesab edilməkdən yaxşı heç nə ola bilməz.

Hər tərəfdən əziyyət çəkirik, amma əzilmirik. Çaşqınlıq içindəyik, lakin çarəsiz deyilik. Təqib olunuruq, amma tərk edilmirik. Yıxıdılırıq, amma yox olmuruq. İsanın ölümünü bədənimizdə həmişə daşıyırıq ki, Onun həyatı bədənimizdə aydın görünsün.

**2 Korinflilərə 4:8–10**

# Susianti Tinulele

## (18 iyul 2004)

İyirmi altı yaşlı Susianti İndoneziyada yerləşən "Mərkəzi Sulavesi Presviterian Məsihçi Kilsəsi"ndə ən gənc rəhbərlərdən biri idi. O, iki həftə idi ki, seçilmişdi, amma hələ daimi pastorluğa təyin edilməmişdi. Artıq bu müddət ərzində Susianti yaxşı vaiz və həqiqəti məhəbbətdə söyləyən biri kimi nüfuz qazanmışdı.

Dostları onu Susi deyə çağırırdılar. O, iyul ayında bazar günü axşam Efatah kilsəsində danışmağa dəvət edilmişdi. Bu vəzin Susiantinin son vəzi olacağını heç kim bilmirdi. Üzlərində qara cihad maskaları və əllərində avtomat silahlar olan radikal müsəlmanlar içəri girəndə Susi vəzini bitirmək üzrə idi. Onlardan biri kafedrada duran Susiantinin başına arxadan güllə ilə vurdu. İbadətə gələn digər dörd nəfər də bu hücum zamanı yaralandı. Sonra silahlılar motosikletlərə və avtomobilə minib qaçdılar.

Bu hadisədən iki gün əvvəl Susianti həbsdə olan bir pastora yemək aparmış və onu imanında ruhlandırmışdı. Susi bölgədə ədalətin tərəfdarı idi. O, məsihçiləri ruhlandırırdı ki, yerli orqanların onlarla ədalətlə rəftarı olunmasını və onları da müdafiə etməsini tələb etsinlər.

Onun xidməti və həyatı yenicə başlamış kimi görünürdü, lakin indi hər ikisinə son qoyuldu. Bir neçə həftədən sonra o, ailə qurmağa hazırlaşırdı.

Pastor Susianti bilirdi ki, müsəlmanların üstünlük təşkil etdiyi İndoneziyada ədalətin tərəfini tutmaq onu hədəfə çevirəcək. Onun ölümündən bir gün əvvəl yaxınlıqda yaşayan məsihçi qadın həyətində bıçaqlanaraq qətlə yetirilmişdi. Həmin cinayət kilsəyə soxulub pastor Susiantini öldürən cihad banditlərinin törətdiyi cinayətə çox oxşayırdı.

Pastor Susinin xidməti insan gözündə qısa görünsə də, Allahın nəzərində bu, tam bir xidmət idi. Dünya yaranmamışdan əvvəl onun günləri sayılmışdı. Bu həyatda vacib olan nə qədər yaşamağımız deyil, bu həyatdan necə istifadə etməyimizdir. Pastor Susi dünyadakı qısa ömrünü əbədiyyət üçün dəyərli olan böyük məqsədlərə sərf etdi.

# Cozef Mondol

## (18 sentyabr 2004)

Bütün günü aptekdə işləmiş Dr. Cozef Mondol küçəyə çıxdı, həmin axşam sərin bir meh əsirdi və qarşıda onu uzun yol gözləyirdi. Dr. Mondol adətən piyada yol gedərkən vaxtını duada keçirərdi. Bəlkə də təcavüzkarlar yaxınlaşanda o, dərin düşüncələrə qərq olmuşdu.

Vaxtilə müsəlman olan banqladeşli əczaçı Dr. Cozef iyirmi il əvvəl Məsihlə tanış olmuşdu. Qəlbini İsaya verdikdən sonra böyük bir sevinc əldə etmiş və həyatında Onu izzətləndirmək istəmişdi. Cozef kənddə Məsihin sadiq davamçısı kimi tanınırdı və tez-tez kasıb ailələrə pulsuz olaraq dərman verirdi. Bu yolla Cozef Tanrının şəfqətini və sevgisini insanlara göstərirdi.

Hələ də keçmiş müsəlman adı “Dr. Qoni” ilə tanınan Cozef hökumətin səhiyyə şöbəsində işə qəbul edildi. Onun şəxsi kiçik apteki də var idi. O, “Banqladeş Baptist Cəmiyyəti”ndə (BBC) rəhbər vəzifəsinə yüksəldi və BBC-nin şöbələrindən birinin katibi təyin olundu. Cozef on altı kilsəyə cavabdehlik daşıyırdı və həmin kilsələrin üzvlərinin əksəriyyəti Məsihə iman edən keçmiş müsəlmanlar idi.

2004-cü ilin sentyabrın 18-i saat 21:30-da Dr. Cozef aptekdən evə gedərkən banyan ağacının altında dörd radikal müsəlman ona hücum etdi. İslamı tərk etmiş müsəlmanları necə cəzalandırmağa dair Quranda verilən qaydaya əsasən onun boğazını bir tərəfdən o biri tərəfə kəsərək demək olar ki, başını bədənindən ayırdılar. Sonra onun cəsədini yol kənarına atıb getdilər. Radikal müsəlmanlar Müjdəni yayan bu insanı susdurduqlarını düşündülər.

Müsəlman rəhbərlər kəndlərinin yaxınlığında məsihçi şəhidin basdırılmasına razı olmadılar. Buna baxmayaraq ertəsi gün Dr. Cozefin həyat yoldaşı Tereza ərini kənddə dəfn etdi. Tereza istəyirdi ki, ərinin məzarı kənddəki məsihçilərə imanda sadiq olmağı xatırlatsın və onlar Müjdəni bölüşməkdən qorxmasınlar. Həyat yoldaşı ümid edirdi ki, ərinin məzarı kənddəki məsihçilərə Rəbbin bu sözlərini xatırladacaq: “Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni cəhənnəmdə məhv edə bilən Allahdan qorxun” (Matta 10:28).

# Fransisko Montoya

## (8 dekabr 2004)

Küçədə uşaqların gülüş səsləri ətrafa yayılırdı. Ata Fransisko da onlarla birgə gülürdü. Yerli keşiş uşaqlar üçün illüziyalar göstərirdi və bu da onların üzündə böyük təbəssüm yaradırdı. Bu, Montoya üçün günün ən sevimli vaxtı idi.

Ata Fransisko klarnetini çıxarıb uşaqlardan oturmağı xahiş etdi. Gözəl musiqinin sədaları ətrafa yayıldıqca uşaqlar səssizcə oturub onu dinləyirdilər. Böyüklər də ora toplaşıb musiqiyə qulaq asaraq sanki öz dərd-sərlərini bir anlıq belə olsa, unutmaq istəyirdilər.

Ata Fransisko klarneti yerə qoyub İsa Məsihin hekayəsini onlara danışmağa başladı. Kolumbiyanın Kibdo şəhərinin əhalisi musiqidən daha çox Müjdəni eşitməli idi. Allah insanları Özünə yaxınlaşdırmaq və ürəklərinə yol açmaq üçün musiqidən istifadə etdi. Montoya artıq Xoş Xəbəri onlarla bölüşməyə hazır idi.

Ertəsi gün Ata Fransisko ibadətə getmək üçün erkən yuxudan qalxdı. O, Kibdodan (Çoko departamentinin paytaxtı) piyada Novita kəndinə yola düşdü. Adətən Ata Farnsisko bütün lazımi əşyalarını bir səbətə qoyaraq bütün bölgələri gəzirdi.

Qəflətən bir nəfər ona tərəf qaçdı və sağ qolundan tutdu. Montoya özünü kənara çəksə də, çox keçmədən başqa birisi yaxınlaşıb onun digər qolundan tutdu. Sonra başqaları da ortalığa çıxdılar və Montoyanın qaçmağa artıq heç bir imkanı olmadı.

Onun getdiyi ərazi *FARK* partizanlarının nəzarəti altında idi və Ata Fransisko bölgəyə onların icazəsi ilə daxil olmuşdu. Partizanlar onun dinlə məşğul olduğundan xəbərdar idilər, eyni zamanda onun bir hərbi agent olmasından da şübhələnirdilər. Müxtəlif ərazilərdən keçərək partizanlar Montoyanı şəhərdən-şəhərə və nəhayət, ölkənin başqa bir dağlıq bölgəsinə gətirdilər. Onu diz çökməyə məcbur edən kişilər silahı ona tuşlayaraq saxta ittihamlar və təhqirlər yağdırdılar. Casus olduğunu iddia edərək heç bir sübut və istintaq olmadan başına bir güllə vurulmaqla Montoyanı öldürdülər.

Neçə gün sonra ondan heç bir xəbər eşitməyən kilsədəki imanlılar narahat oldular. Kilsədən bir qrup onu axtarmağa başladı və Ata Fransiskonu güllələdiklərini etiraf edən *FARK* partizanları ilə qarşılaşdı. Partizanlar keşişin cəsədini dağlarda basdırmışdılar. Onun qəbrini görməyə heç kimə icazə vermədilər.

*FARK* partizanları təşkil olunmuş kilsə xidmətlərinə icazə vermirdilər. Bir çox kilsə rəhbərləri partizanlarla danışmağa çalışmışdılar və problem yaratmaq niyyətində olmadıqlarını, sadəcə insanlara xidmət etmək istədiklərini söyləmişdilər. Amma məsihçilərin yalvarışlarını kar qulaqlar eşitmək istəməmişdi.

Montoya bu ərazilərdə xidmət etməyin təhlükəli olduğunu bilsə də, kilsədən ora göndərilməsini xahiş etmişdi. Onun fikrincə, insanların bu yerlərdə Müjdəni eşitməsinə böyük ehtiyac var idi. O, şəhərdə təhlükəsiz həyatını qoyub qətiyyətlə silahlanaraq partizanların nəzarəti altında olan kəndlərə yollanmışdı. Fransisko Montoya insanlara məhəbbət göstərdi və iman qorxuya qalib gəldi.



*Sandey Naçe Açi müsəlmanlar tərəfindən boğularaq öldürüldü.*

# Sandey Naçe Açi

## (9 dekabr 2004)

Nigeriyalı məsihçi Sandey səmimi, sadiq və sevgi dolu bir insan idi. Abubakar Tafava Baleva Universitetinin şəhərciyində Müjdənin yayılması çox pis qarşılanırdı. Ancaq Sandey açıqcasına, böyük bir həvəslə öz imanını digər tələbələrə bölüşürdü. Sandey universitetdə memarlıq üzrə təhsil alırdı. O, "Qərbi Afrika Müjdəçi Kilsəsi"nin universitet şəhərciyi üzrə xidmətinin prezidenti idi. Oxuduğu təhsil ocağında müsəlman və məsihçi tələbələr arasında gərginlik yaranmışdı. Lakin buna baxmayaraq Sandey Müqəddəs Kitab dərslərini davam etdirirdi, çünki tələbələr İsanın Müjdəsini eşitməli idilər.

Bir gün Sandeyi axtarmaq üçün iki-üç nəfər onun yataqxanadakı otağına gəldi. Lakin bu vaxt o başqa yerdə toplantı keçirirdi. Toplantıya gələnlərin bəziləri yeni tələbələr idi və hər kəs Müjdəni eşitməyə can atırdı. Qrupun üzvlərindən üç nəfər İsanın təlimlərini islam inancları ilə müqayisə edən vərəqlər payladıqlarına görə bu yaxınlarda məktəbdən qovulmuşdular. Amma bu tələbələr Sandeyin dərslərinə hələ də gəlirdilər. Sandey tələbə yataqxanasındakı otağına gələn adamlardan xəbərsiz idi. Toplantı bitəndən sonra o, başını aşağı salıb qrup üçün dua etdi.

Sandeyin otaq yoldaşı İdakvo Ako Paul sabahkı imtahanına hazırlaşmalı idi. Amma hal-hazırda o, başqaları ilə birlikdə toplantıda olmaq istəyirdi. Birdən qapı taybatay açıldı və Paul stuldan kənara sıçradı. Cihad geyimli üç müsəlman tələbə otağa soxularaq tələb etdi: "Məsihçi rəhbər haradadır? Sandey haradadır?"

Paul onlara cavab verdi: "Bilmirəm, haradadır". Onlar qəzəblə otaqdan çıxdılar və Sandeyi axtarmağa getdilər.

Bir neçə saatdan sonra Sandey yataqxanadakı otağına qayıtdı və Paul baş verənləri ona söylədi. Sandey həyatının təhlükə altında olduğunu anlasa da, narahat olmadı və bu xəbəri çatdırdığına görə Paula gülümsəyərək təşəkkür etdi. Sonra Sandey ertəsi gün çertyojlar üzərində işləmək üçün rəsmxətt lövhəsinin qarşısında oturdu. Paul isə yatağına uzanıb yatdı.

"Oyan, Paul! Ayağa dur!" — deyə Sandey qışqırdı. Paul çarpayıdan atıldı və maskalı müsəlmanların Sandeyi otaqdan darta-darta çıxardığını gördü. Paul qapıya tərəf qaçdı, amma təcavüzkarlardan biri tapançanı ona tuşlayaraq otaqda qalmağa məcbur etdi və qapını açarlayıb getdi. Paul qışqıra-qışqıra qapını döyəcləyərək köməyə adam çağırdı. Onların yataqxanalarında olan müsəlmanlar öz otaqlarından bayıra çıxmadılar. Paul çox qışqırdığı üçün taqətdən düşüb yerə yıxıldı. Amma heç kim köməyə gəlmədi.

Ertəsi gün səhər məsihçi tələbələrdən biri qapını açarkən Paul oyandı. O, gələn tələbəyə Sandeyin başına gələnlər barədə danışdı. Onlar cəld digər məsihçilərə də xəbərdarlıq etmək üçün otaqdan çıxdılar. Pilləkənlərlə aşağı qaçarkən bir məsihçi qardaşla rastlaşdılar və o, Sandeyin başına gələnləri onlara danışdı.

"Sandey ölüb" — həmin məsihçi qardaş göz yaşları içində dedi. Sandeyin cəsədi universitetin rektorunun evinin yaxınlığındakı məscidin yanında tapılmışdı. Məsihçi qardaş bu sözləri deyəndən sonra huşunu itirib onların qucağına yıxıldı. Boğulmaqdan Sandeyin boynu sınmışdı və bədəni qançırlarla örtülmüşdü. Oğlanlar güclü, cəsur və sadiq bir dostlarını itirdiklərinə görə hönkür-hönkür ağladılar.

Təqiblər Sandeyin ölümü ilə sona çatmayıb daha da artdı. "Nigeriya Müjdəçi Tələbələr Birliyi"nin idarələri yandırıldı və fəaliyyətlərinə son qoyuldu.

Universitetin məsihçi tələbələrindən biri çox gözəl fikir söylədi:

> "Biz müjdəçilik uğrunda ölməyə hazır olmalıyıq. Mən Müqəddəs Kitabda Müjdə uğrunda canlarından keçməli olan bir çox insanın nümunələrini görürəm. Bəs mən niyə onlardan biri olmayım ki?"

# Dulal Sərkər

## (8 mart 2005)

Otuz beş yaşlı Dulal "Banqladeş Azad Baptist Kilsəsi"nin yerli şöbəsinin pastoru və müjdəçisi idi. Kilsə Xulna əyalətinin cənub-qərb bölgəsindəki Cəlalpur kəndində yerləşirdi. Bir imanlı kimi o, təkcə kilsəsinə qayğı göstərməklə kifayətlənmirdi, həm də başqa ərazilərdə kilsələr yaratmaq istəyirdi. Onun məqsədi bütün Banqladeş xalqına xidmət etmək idi.

2005-ci il martın 8-i idi və Dulal yavaş-yavaş evinə doğru addımlayırdı. Allah ona insanlara qarşı böyük bir sevgi bəxş etmişdi və pastor boş vaxtlarını onlar üçün dua etməklə keçirirdi. Dulal həyat yoldaşı Aruna və beş övladını görmək üçün evə tələsirdi. "Rəbb Allah, ailəm üçün Sənə təşəkkür edirəm. Mən çox xeyir-dualıyam" — deyə Dulal gündəlik dua edirdi.

Həmin gün Dulal bir çox kəndlilərə öz imanından danışmışdı. Bir həftə əvvəl isə pastor öz imanı barədə kənddə bir neçə müsəlmana bölüşmüşdü və onlar ürəklərini Məsihə vermişdilər. O, yeni imanlıların Kəlamı öyrənib imanda böyüməsi üçün onları kilsəyə dəvət etmişdi.

Birdən bıçaqlarla silahlanmış on müsəlman ekstremist yerli müjdəçini mühasirəyə alıb hədələdi. "Biz bilirik ki, sən bir çox insanı Məsihin yoluna gətirmisən. Təbliğ etməyi dayandırmasan, səni öldürəcəyik" — deyə kişilər xəbərdarlıq etdilər. Lakin Dulal onların qarşısında möhkəm durdu və "Mən Allahın xidmətini yerinə yetirəcəyəm, çünki O məni bu işi görmək üçün çağırıb" — deyə cavab verdi. Bunu eşidən kişilər hiddətlənib Dulalın boğazını elə dərindən kəsdilər ki, başı bədənindən ayrıldı.

Pastor Dulalın arvadı dərhal polisə xəbər verdi və on təcavüzkardan yalnız üçü həbs olundu. Yerli məsihçilər bildirdilər ki, "Camaati-İslami" siyasi partiyası ilə əlaqəsi olan qalan yeddi nəfər üç dostunu azad etmək üçün polisə rüşvət təklif ediblər. Polisə hesabat verdiyinə görə islamçı ekstremistlər pastorun həyat yoldaşı Arunanı da hədələdilər. O özünü və övladlarını qorumaq üçün dəfələrlə köçməyə məcbur oldu.

Dulal Sərkər ailəsinə və kilsə üzvlərinə miras qoydu. Sadə bir pastor səlahiyyətinə malik olmaqla o, quzular uğrunda canını fəda edən yaxşı bir çoban kimi ən yüksək vəzifəni icra etdi.

# Tapon Roy və Liplal Marandi

## (28 iyul 2005)

Dəhlizdə qışqırıqlar əks-səda verdi və qonşular yuxudan oyandı. Yaxın qonşular nə baş verdiyini görmək üçün tələsik evlərindən bayıra çıxmağa çalışdılar, lakin giriş qapıları zəncirlə bağlanmışdı. Bir az uzaqdakı qonşular evlərindən çıxaraq qışqırıqlara tərəf qaçdılar, amma qətlin qarşısını almaqda gecikdilər.

2005-ci il iyulun 28-i idi, Tapon və Liplal gecənin sakitliyində dərin yuxuda idilər. Səkkiz radikal müsəlman qapını sındırıb içəri soxulanda onlar yuxudan oyandı. Silahlıllar Tapon və Liplalı yerə yıxıb əl-qollarını mələfələrdən cırdıqları uzun parçalarla bağladılar. Sonra onları amansızcasına bıçaqladılar.

Tezliklə qonşuların ayaq səsləri və hay-küyləri çöldə eşidildi. Təcavüzkarlar Liplala on dörd, Tapona isə on iki bıçaq zərbəsi endirdikdən sonra cəld hadisə yerindən qaçdılar. Qonşular ağır yaralanmış iki kişini mikroavtobusla yaxınlıqdakı Boalmari Sağlamlıq Kompleksinə çatdırdılar. Tapon yolda ikən həyatını itirdi, Liplal isə xəstəxanaya çatdıqdan dərhal sonra dünyasını dəyişdi.

Tapon və Liplal 2005-ci ilin aprelində Dopaparada xidmətə qoşulmuşdular. Onlar birlikdə qalmaq üçün kiçik bir otaq kirayəyə götürüb yerli camaata "İsa" filmini göstərirdilər. Yerli müsəlmanlar onlara filmin nümayişini dayandırmağı bir neçə dəfə xəbərdarlıq etmişdilər. Tapon və Liplal isə Allahın istənilən hədə-qorxudan daha böyük olduğunu bilərək filmi göstərməkdə davam etmişdilər.

Onların ölümündən iki-üç gün əvvəl günorta bir dəstə adam evlərinə girib müjdəçilərin Dopapara kəndindən dərhal çıxıb getmələrini tələb etmişdi: "Əgər bizim sözümüzə qulaq asmasanız, onda sizi həmişəlik yox edəcəyik və bircə 'İsa' filminiz qalacaq". Müjdəçilər Allahın çağırışından dönməyib kənddə qalmışdılar. Onlar qarşılaşdıqları təhlükəni yaxşı dərk edirdilər və əgər Allahın iradəsinə uyğun olarsa, müjdəçilər ölümə də

getməyə hazır idilər. Tapon və Liplal özlərindən sonra təkcə film qoyub getmədilər. Onlar özlərindən sonra arxada hər kəsin xilas ola bilməsi üçün iman yolunun nümunəsini qoydular.

# İzzət Həbib

## (24 oktyabr 2005)

Pastor İzzət, oğlu İbram və onun dostu Qahirədə küçəni keçərkən bir taksi sürətlə şütüyüb onları qəfildən vurdu. Maşının təkərlərinin səsi ətrafa yayıldı. Qəza zamanı maşın onları küçənin o biri başına vurub atdı, taksi sürücüsü isə hadisə yerindən qaçıb getdi.

Camaat cəld hadisə yerinə tələsdilər. İzzəti tez xəstəxanaya çatdırdılar, onun kəllə sümüyü sınmışdı və daxili qanaxması var idi. Əməliyyat olunsa da, ertəsi gün o, dünyasını dəyişdi. Hadisə nəticəsində oğlunun dostunun ayağı sınmışdı, İbramın isə ayaqlarında güclü göyərmələr var idi və beli şiddətlə ağrıyırdı.

Atası xəstəxanaya gətirildikdən sonra hələ də çaşqınlıq və sarsıntı içərisində olan İbrama hadisə barədə hesabatı imzalatdırdılar. Həmin vaxt İbram diqqətlə oxumayıb onu imzaladı. Sonra hesabatın əslində baş verənlərdən tamamilə fərqli olduğunu gördü. Taksi sürücüsü cəzasız qaldı.

Bu təsadüfi deyildi. İzzətin ailəsi tez-tez təhdid olunmuşdu. Onlar qonşuların və Misirin milli təhlükəsizlik polisinin fiziki zorakılığına məruz qalmışdılar. 2003-cü ilin iyun ayında pastor İzzət “məhəlləni narahat etdiyinə” görə həbs edilmişdi. O, oturmaq belə mümkün olmayan dar bir yeraltı kameraya salınmışdı. Polis əməkdaşları tərəfindən fiziki və cinsi zorakılığa məruz qalsa da, Rəbb İsa Məsihi inkar etməmişdi.

Beş gün həbsxanada qaldıqdan sonra bir polis İzzətin gözlərini sarğı ilə örtüb əllərini zəncirlə bağlayaraq onu dindirmişdi. Ətrafında dayanmış polis məmurları onu təpiklə vuraraq arvadını söymüşdülər. Onlar pastor İzzətə məsihçi toplantılarını keçirməsini və qeyri-məsihçilərin oraya gəlməsini qadağan etmişdilər. Bu işgəncələrin səbəbi bəlli idi: Polis pastor İzzətin müsəlmanlara Müjdəni bölüşdüyünü, onları islamdan dönməyə və İsanın ardınca getməyə təşviq etdiyini bilirdi. Onlar isə buna yol verməyəcəkdilər.

Təkrarlanan təhdidlərə baxmayaraq İzzətin toplantısı görüşməyə davam etdi. Daha sonra iki ağac İzzətin mənzilinin pəncərələrini sındırıb içəri düşdü. Bu vaxt həyətdə bir nəfər balta ilə ağacları kəsirdi. Həmin

adam iddia etdi ki, bir polis məmuru ağacları kəsməsini ona tapşırıb. Sonra telefon xətti kəsildi və giriş qapısı çöldən bağlandı.

Polis İzzətə dedi: "Mən sənə yığıncaqları dayandırmağı söyləmədimmi? İndi görərsən başına nə gələcək!"

Polisin və qonşularının hədələrinə baxmayaraq pastorun oğlu İbram və ailəsi ev toplantılarını dayandırmadı. Onlar İzzətin ölümə qədər imanda möhkəm dayandığını gördülər və onun kimi qətiyyətli olmağı seçdilər.

Yaydığım Müjdədə açıqlandığı kimi, Davudun nəslindən olub ölülər arasından dirilən İsa Məsihi yadında saxla. Bu Müjdə naminə zəncirə vurulmuş bir cinayətkar kimi əzaba qatlaşıram. Amma Allahın kəlamı zəncirlənməmişdir.

**2 Timoteyə 2:8–9**

# Tereziya, Alfita və Yarni

(29 oktyabr 2005)

Dörd yeniyetmə qız Poso məsihçi məktəbinə gedən yolla addımlayırdı. Buludsuz bir səmada günəş şəfəq saçırdı və qızlar yeni dərs gününü böyük səbirsizliklə gözləyirdilər. Bölgədəki islam məktəbləri Ramazan bayramını qeyd edirdi. Dörd qızın oxuduğu məsihçi məktəbində isə həmin gün dərs günü idi. Şənbə günü səhər ətrafda bir sakitlik hökm sürürdü. Yolda söhbət edə-edə gedən bu gənc qızların çöhrəsində bir təbəssüm var idi.

Qara geyimli və üzlərini örtüklə örtmüş altı nəfər kolların arasından sıçrayıb onlara tərəf qaçarkən ətrafdakı sükut pozuldu. Qızlar qaçmağa macal tapmamış adamlar gənc qızları mühasirəyə aldılar və uzun bıçaqlarını çıxarıb onlara hücum etdilər. Kömək üçün qışqıran qızlar həyatları üçün mübarizə apardılar. Yalnız onlardan Noviyana Maleva qaçıb canını qurtara bildi. Üzündə çoxlu kəsiklər olan bu qız büsbütün qan içində qaçıb köməyə adam axtardı. Tereziya Moranqkir (on beş yaş), Alfita Polivo (on yeddi) və Yarni Sambuenin (on beş) cəsədləri isə yerdə qalmışdı, başları bədənlərindən ayrılmışdı və orada yox idi.

Yaxınlıqda bazara gedən bir neçə qadın qızların kömək üçün qışqırdıqlarını eşitmişdilər. Onlar qorxu içində eşitdiklərini xəbər vermək üçün hərbi posta tərəf qaçmışdılar. İndoneziya əsgərləri qışqırıqların haradan gəldiyini axtararaq başları kəsilmiş üç gənc qızın cəsədini tapmışdılar.

Qatillər qızların başlarını kisəyə qoyub bölgənin müxtəlif ərazilərinə atmışdılar. Başlardan ikisi polis postunun yanında, üçüncüsü isə yerli kilsənin kənarında aşkar edilmişdi.

Radikalların kilsələrə və ya məsihçi rəhbərlərə hücum etməsi onlar üçün kifayət deyildi. Onlar Ramazan bayramını qəbul etməyən gənc məsihçi qızları qəsdən hədəfə aldılar. Bu qızları heç vaxt müsəlmanla evlənməyə məcbur edə bilməyəcəkdilər. Qızların başlarını götürüb polis bölməsi və kilsənin yanına qoymaqla məqsədli bir açıqlama verdilər. Radikal müsəlmanların bu təcavüzlərinin mənası aydın idi: Nə kilsə, nə də hökumət bölgədəki gənc qızlara edilən hücumları dayandıra bilməz.

Bu yeniyetmə qızlar bölgədəki imanlıların hansı təhlükələrlə üzləşdiyini bilsələr də, hər gün sevinclə məsihçi məktəbinə piyada gedirdilər. Onlar qorxu və təhlükəyə üstün gəldilər. Şənbə günü səhər gənc qızların həyatlarına amansızcasına son qoyulsa da, onların imanı hələ də yaşayır. Bu gənc qızların iman hekayəsi dünya miqyasında yayıldı. Onların şəhidliyi mənəviyyatı pozulmuş bu dünyada yalnız qonaq olduğumuzu hamımıza ciddi bir şəkildə xatırlatdı.

Ölüm kölgəsinin dərəsində gəzsəm belə, Şərdən qorxmaram, çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.

**Zəbur 23:4**

# Kolin Li

## (5 noyabr 2005)

Cip maşınını alovlar bürüdükcə tüstü göyə qalxmağa başladı. Hedviqin üzü təkcə alovun istisindən deyil, həm də yaralı əri Kolini fəlakətdən uzaqlaşdırmağa çalışdığı üçün qızardı. Onlar "Beynəlxalq Yardım Xidmətləri" (BYX) təşkilatında çalışan bir cütlük idi. Həmin gün onlar üçün qorxu və təşviş ilə başladı.

Sürücü Karaba Cuma bu cütlüyü Sudanın Yey şəhərinə aparırdı. Onlar Uqandanın sərhədi boyunca olan yolla gedirdilər və birdən yolda çəkilmiş sədlərlə rastlaşdılar. Sürücü Karaba "Lord's Resistance Army"nin iyirmiyə yaxın qəddar döyüşçüsünü gördü. O, cəld cipi geriyə döndərib sədlərdən uzaqlaşmağa çalışdı. Amma artıq gec idi. Güllələr onların maşının üstünə yağış kimi yağdı və qarşıda oturan Kolinin sinəsinə və boynuna dəydi.

Hedviq yaralansa da, qan itirən ərini tərk etmək istəmədi. Silahlılara yalvardı ki, maşını yandırmazdan əvvəl ərini oradan çıxarmaq üçün ona icazə versinlər. Hedviq göz yaşları içində ərinin təhlükəsizlik kəmərini çətinliklə açaraq birtəhər Kolini maşından çıxardı. Otuz beş yaşlı hamilə qadın ərinin qollarını öz boynuna salaraq yaxınlıqdakı kəndə bir saat piyada yol getdi.

Hedviqin yüngül yaraları sarıldı və Kolin dərhal Yey xəstəxanasına aparıldı. Həkimlər onun həyatını xilas etməyə çalışsalar da, bu mümkün olmadı. Atışmadan altı saat sonra Kolin dünyasını dəyişdi.

Kolin bir neçə il əvvəl Somali, Sudan, Efiopiya və Uqandada müharibə ağrı-acısı yaşamış insanlar üçün BYX təşkilatında travma konsultasiyası işinə başlamışdı. O bunu Allahdan bir çağırış kimi hiss etdiyi üçün BYX təşkilatında işləyən arvadına qoşulmuşdu. Cütlük müharibə görmüş insanlara məsləhət vermək və İsanın Müjdəsini bölüşmək üçün səylə çalışmışdılar.

Uqanda və ətraf ölkələrdə bir milyondan çox insan "Lord's Resistance Army"nin hücumlarından zərər çəkmişdi. Uşaqlar bu radikal ordu tərəfindən oğurlanıb əsgər, nökər, habelə cinsi kölə kimi istifadə olunmuşdu. Çoxları təhlükəsiz bir yer tapıb yatmaq üçün hər gün on altı

kilometrə yaxın məsafəni qət etmişdilər. Uqandanın kənd əhalisinin böyük bir hissəsi evlərini tərk edərək böyük şəhərlərdə sığınacaq tapmışdılar.

Kolin və Hedviq hiss etmişdilər ki, Allah onları belə bir şəraitdə xidmət etməyə çağırıb. Kolin öz maraqlarını və təhlükəsizliyini arxada qoyaraq, bu əziyyət çəkən insanlara kömək etmək üçün can-dildən çalışmışdı. Hedviq bu xidmətdə əri ilə çiyin-çiyinə iş görmüşdü. Kolin öz xidməti vasitəsilə yüzlərlə insanın həyatına toxunmuşdu. Kolinin Tanrının çağırışına cavab verib Onu izzətləndirdiyi üçün nə qədər insanın Müjdəni eşitdiyini və Onu tanıdığını yalnız Allah bilir.

İndi sizin üçün əzab çəkdiyimə sevinirəm və Məsihin Öz bədəni olan imanlılar cəmiyyəti uğrunda çəkdiyi əziyyətlərin qalanını canıma cəfa verərək tamamlayıram.

**Kolosselilərə 1:24**



*Qurban Dordi Turani İranda müsəlmanlar tərəfindən bıçaqlandı.*

# Qurban Dordi Turani

## (22 noyabr 2005)

Noyabr ayının sonu idi. Telefon zəng çaldı, dəstəyi götürəndə naməlum bir şəxs danışmağa başladı: "Qurban, mən keçən həftə toplantıda sizi dinlədim və Məsihə olan imanınız mənə çox təsir etdi. İsa barədə daha çox eşitmək istərdim. Başqaları məni görməsin deyə evinizdən kənarda görüşsək, daha yaxşı olar. Məsihçilik haqqında daha ətraflı danışmaq üçün şəhərdəki bir parkda mənimlə görüşə bilərsiniz?"

Pastor Qurban böyük həvəslə zəng edən şəxsin təklifini qəbul etdi və tez evdən çıxıb parka getdi. Axı kimsə İsa haqqında bilmək istəyirdi!

Bir həftə əvvəl İranın şimal bölgəsində yaşayan dini rəhbərlərdən biri Qurban ilə əlaqə saxlamışdı. Onu bölgədəki türkmən islamçı rəhbərlərin təşkil etdiyi bir görüşə dəvət etmişdi. Görüşdə məqsəd onların iman ilə əlaqədar suallarına cavab vermək idi. Qurban bu görüşün Müjdəni islamçı rəhbərlər ilə bölüşmək üçün bir fürsət olduğunu düşünmüşdü.

Lakin görüşə gələndə onların niyyətlərinin sual-cavab və açıq müzakirə olmadığını anladı. İslamçı rəhbərlərin məqsədləri tam aydın oldu. Onlar Qurbanın islama qayıtmasını tələb etdilər və bu barədə ciddi düşünməsini ona tapşırdılar.

Onlar Qurbana dedilər: "Biz sənin əcdadlarının və valideynlərinin islamın sadiq davamçıları olduğunu yaxşı bilirik. Sən də sadiq bir müsəlman olmalısan. Niyə məsihçiliyə üz tutdun? Məsihçi imanından inkar edib islama qayıtmaq üçün sənə bir daha şans veririk".

"Mən İsanı inkar etməyəcəyəm".

Həmin görüşdən bir həftə sonra Qurban parka tələsirdi. O, bölüşdüyü Müjdənin kiminsə ürəyinə toxunduğunu düşünərək sevinirdi. Bu görüşün onun üçün bir tələ ola biləcəyini də yaxşı anlayırdı. Amma zəng edən səmimi bir insan ola bilərdi və Qurban Məsih haqqında danışmaq fürsətini əldən vermək istəmirdi. O, parkda bir müddət gözlədi, amma heç kim gəlib çıxmadı və zəng edənin qorxduğunu düşünərək geriyə, evinə yollandı. Qurban evinin yaxınlığında içərisində üç nəfər adam olan bir maşın gördü.

Maşından bir nəfər düşüb Qurbanı səslədi. O, tərəddüd içində həmin adama yaxınlaşdı və həmin şəxs cəld bıçağı çıxarıb Qurbanın qarnına vurdu. Avtomobildən çıxan ikinci şəxs ona arxadan bıçaqla hücum etdi. Üçüncüsü isə pastorun boğazını kəsdi.

Öldürülən pastorun cəsədinin yanında dayanan qatillər uca səslə qışqırdılar: "İslamı tərk edən kafirin cəzası budur".

Qurban yaxşı bir iş tapmaq üçün 1983-cü ildə ailəsi ilə birlikdə İrandan Türkmənistana köçmüşdü. Bu, onun üçün həqiqi Allaha aparan yolun başlanğıcı olmuşdu. Orada işləri planlaşdırdığı kimi həyata keçməmişdi və qızğın mübahisəyə girişərək bıçaqla birini öldürmüşdü. Buna görə cinayət məsuliyyətinə cəlb olunub on beş il həbs cəzasına məhkum edilmişdi. O, həbsxanada çətin vaxtlar keçirmiş və tezliklə pis məhbus kimi tanınmışdı.

İmanına görə həbsxanaya düşmüş bir rus məsihçi Qurbanın kamerasına köçürülmüşdü. O, burada "pis" məhbusla dostluq etməyə başlamış və Müjdəni ona bölüşmüşdü. Uzun müddət Qurban kamera yoldaşının danışıqlarına qarşı çıxmışdı, ancaq yeni dostunu tanıdıqca məsihçi sevgisi və sülhü onda böyük təəssürat yaratmışdı.

Qurban həqiqəti dərk etdikdə həyatını Məsihə verdi. Bir müddətdən sonra o, müjdəçilik məqsədilə görüşlər keçirmək üçün həbsxana rəisindən icazə istədi. Qurbanın həyatındakı dəyişikliyə heyrətlənən həbsxana rəisi möcüzəli surətdə ona razılıq verdi. "İbadət etdiyin Allah həyatını bu qədər dramatik bir şəkildə dəyişdirdiyinə görə həbsxanada görüşməyinizə icazə verəcəyəm".

Nəhayət, Qurban həbsxanadan çıxdı. O, yenidən İrana və şəhəri Günbədkavusa qayıtdı. Qurban ailəsinə, dostlarına və yaxınlarına öz həyatını dəyişdirən imanı barədə danışdı. Bundan əlavə, öyrəndiyi məsihçi təlimlərini və həbsxanada Kəlamı öyrənərkən Müqəddəs Ruhun ona verdiyi açıqlamaları onlarla bölüşdü. İmana gəldiyi iki il ərzində Qurban on iki etnik türkməni İsa ilə tanış etdi. Daha sonra o, İranda başqa böyük şəhərə köçdü, çünki bu yeni imana gələnləri daha yaxşı öyrətmək üçün əlavə təlimlərə ehtiyacı var idi. Nəhayət, Qurban türkmənlərə xidmətində ona kömək etmək istəyən bir rəhbərlə tanış oldu.

Qurban öz pastorluq və müəllimlik xidmətində təkmilləşmək üçün Müqəddəs Kitabın təlim proqramına qoşuldu. Növbəti yeddi il ərzində

Allahın türkmən xalqı arasındakı gördüyü işlər artdı və pastor Qurbanın xidməti sayəsində otuz beş türkmən məsihçi oldu.

Qurban cəsur məsihçi rəhbər idi, küçələrdə, dükanlarda və bazarlarda İsa haqqında qorxmadan danışırdı. O düşünürdü ki, Məsihə olan həqiqi imanı barədə susmamalıdır və getdiyi hər yerdə insanlara Müjdəni bölüşürdü.

Yerli müsəlman dini rəhbərlər bir-neçə dəfə Qurbana hədə-qorxu gəldi. Məsih barədə insanlara danışdığına görə Qurbanın qardaşı bıçaqla onun üzünü kəsdi. Bu qarşıdurmalara baxmayaraq o, nəyin bahasına olursa olsun İsa haqqında danışmağa davam etdi.

Qurbanın arvadı Aful Açikə də ərindən cəsarətli olmağı öyrənmişdi. O, Qurbanı küçədə ölü tapdıqdan sonra ərinin cəsədinin ətrafında toplaşanlara uca səslə dedi: "Ey insanlar, unutmayın ki, Qurban həyatını Məsih uğrunda fəda etmiş bir məsihçi şəhiddir!"

Qətl hadisəsindən sonra gizli polis Qurbanın bütün ailə üzvlərini və digər imanlıları dindirdi. Onlara çoxlu suallar verdilər və Qurbanı öldürən üç qatilin kimliyini müəyyənləşdirməyə çalışdıqlarını söylədilər. Eləcə də bütün məsihçi materiallarını (kitablar, videolar, Müqəddəs Kitablar və s.) müsadirə etdilər.

Qurbanın qardaşları Afula və övladlarına böyük təzyiq göstərdi və onları yenidən islama dönməyə məcbur etdilər. Ancaq Qurbanın ailəsi Məsihə imanlarında möhkəm durdular və nəyin bahasına olursa olsun İsanın ardınca gedəcəklərini bildirdilər.

Qurban Dordi Turani Məsihlə görüşməzdən əvvəl qəzəbli, zorakılığı sevən, qatil və məhbus idi. Ancaq qəzəb və zorakılıq onunla birlikdə ölmədi, pastor Qurban həm daxilən, həm də zahirən dəyişərək sülhpərvər bir insan oldu. Allah qatili şəhidə çevirdi.

Bizi həmişə Məsihin zəfər təntənəsində addımladan, Onu tanımaqdan yaranan ətri bizim vasitəmizlə hər tərəfə yayan Allaha şükür olsun! Çünki biz həm xilas, həm də həlak olanlar arasında Allaha xoş olan Məsih ətriyik. Həlak olanlar üçün ölümə aparan ölüm qoxusu, xilas olanlar üçünsə həyata aparan həyat ətriyik...

**2 Korinflilərə 2:14–16**

# Arun Voraforn

## (Dekabr 2005)

Metta ürəyində böyük bir təlaş ilə qapını açdı. O, ərinin dostlarının nə deyəcəyini sanki bilirdi. Gözlərində kədər və təəssüf hissi olan bu adamlar onun ən çox qorxduğu iki kəlməni, "O ölüb" söylədilər.

Bu dostlar Aruna baş çəkməyə gələndə artıq iki gün idi ki, o itkin düşmüşdü. Onlar Arunla birgə Laosun Bolikxamsay əyalətində keçirilən Milad mərasiminə gedəcəkdilər. Metta baş verənləri Arunun dostlarına danışdı. Qadın düşünürdü ki, bəlkə kimsə ərini başqa bir kilsədə vəz etmək üçün çağırıb, o da həmin toplantıya gedib. Amma axırıncı dəfə əri ilə telefonla danışığından xeyli vaxt keçmişdi və ondan heç bir xəbər yox idi. Metta son vaxtlar baş vermiş qəribə hadisələrə görə əri üçün narahat idi və bunu həmin dostlara bölüşdü.

Arunun itkin düşməsindən bir gün əvvəl üç naməlum kişi onun evinə gəlmişdi. Metta o kişiləri əvvəllər heç vaxt görməmişdi və nə üçün gəldiklərini də bilmirdi. Amma onların İsa və ya kilsə haqqında öyrənmək istədiyini güman edirdi. Ertəsi gün Arun doxsan kilometr cənubda yerləşən bir kilsənin Milad ibadətində vəz etməyə getmişdi. Sonra həmin üç kişi ibadət bitdikdən sonra kilsəyə gəlmişdi. Arun onları kilsənin pastoru ilə tanış edib kişilərdən ikisinin onun qohumu olduğunu söyləmişdi. Birlikdə yemək yedikdən sonra Arun və kişilər pastora təşəkkür edib getmişdilər. Metta həmin gün günorta əri ilə telefonda danışmışdı. O, evə qayıdarkən yolüstü kiçik qızının ad günü üçün tort alacağını və buna görə gec gələcəyini söyləmişdi. Bu Mettanın həyat yoldaşı ilə son danışığı olmuşdu və əri bir daha geri qayıtmamışdı.

Mettanı dinlədikdən sonra Arunun dostları evdən çıxıb onu axtarmağa başladılar. Yolüstü onlar Arunun bir neçə gün əvvəl vəz etdiyi kilsəyə baş çəkib oradakı pastordan dostları barədə soruşdular. Pastorun heç bir məlumatı yox idi. Kişilər onunla sağollaşıb cəngəlliklərdən keçən yolla getməyə başladılar. Bir az yol getdikdən sonra meşənin təxminən iyirmi metr dərinliyində dostlar bir yerə toplaşmış polisləri gördülər. Onlar oraya

yaxınlaşanda cəsədi görərkən bu səhnədən dəhşətə gəldilər. Bu onların dostu Arun Voraforn idi.

Kişilər özlərini ələ almaq üçün kənara çəkildilər, sonra cəsədə yaxınlaşdılar. Cəsəd qan içində idi və tanınmaz hala salınmışdı, amma dostlar bu sülhpərvər insanın simasını istənilən vəziyyətdə tanıyardılar. Arunun əlləri arxasından möhkəm bağlanmış və dəfələrlə bıçaqlanmışdı. Cəsədinin yanında atılıb qalmış daş onun başını əzmək üçün istifadə edilmişdi və boğazı kəsilmişdi.

İki dostu Arunun cəsədini aparmaq üçün polisdən icazə istədi və onlar razılıq verdilər. Arunun dostları cəsədi Vyentyanda öz kilsələrinə apardılar.

Arun Voraforn ətrafındakı təhlükədən hər zaman agah olaraq qorxmadan Müjdəni təbliğ edirdi. Cəsədi tapıldıqdan bir gün sonra dəfn mərasimində həyat yoldaşı Metta Laosdakı məsihçiləri qorxmadan Müjdəni bölüşməyə səslədi.

1975-ci ildə Laos kommunist respublikası olduqdan sonra hökumət məsihçilərin fəaliyyətini ciddi şəkildə məhdudlaşdırdı. Pastorlar, müjdəçilər və kilsə ilə əlaqəli olan hər bir kəs tez-tez polis və yerli məmurlar tərəfindən təqib olunub döyülürdü. Məsihçilər imanlarından dönmək üçün olan sənədləri imzalamadıqlarına görə işgəncələrə məruz qalıb həbs olunurdular. Ölümündən on il əvvəl Arun özü də imanına görə həbs edilmişdi.

Arun Voraforn əbədiyyətdə imanının mükafatlanacağını bilirdi. O, həyatda imanına görə nə ilə üzləşəcəyindən agah olsa da, Məsihin ardınca getməyi seçdi. Milad ərəfəsində təşkil olunan dəfn mərasimində həyat yoldaşı Metta məsihçilərdən xahiş etdi ki, əri kimi onlar da cəsarətlə Müjdəni yaysınlar.

"Biz İsanın daha yaxşı şagirdi olmağımız üçün dua etmirik, Allahın istədiyi növdə məsihçilər — Məsihəbənzər imanlılar, yəni Allahın izzəti üçün könüllü olaraq çarmıxı daşıyacaq Məsihin davamçıları ola bilməyimiz üçün dua edirik".

**— Kommunist dövründə Rumıniyadakı gizli kilsədə deyilmiş sözlər**

# Pastor Cimendra Nayak (Mantu)

## (1 yanvar 2006)

Otuz beş yaşlı pastor Cimendra öz hindu qonşularına Məsih barədə danışdığına görə dəfələrlə hədələnmişdi. Amma o artıq bu hədə-qorxulara alışmışdı. Cimendra Hindistanın şimalındakı "Hind Kilsə Cəmiyyəti"nin pastoru idi. Bu kilsə Kandhamal bölgəsinin Baliquda kəndində yerləşirdi. Pastorun Məsihin həqiqətini yayması radikal hinduların qəzəbinə səbəb olmuşdu. Onlar pastoru susdurmaq istəyirdilər. Ancaq Cimendranın Məsihə məhəbbəti o qədər böyük idi ki, Müjdəni kənd camaatına bölüşməkdə davam edirdi.

Xidmətinə sadiq olan pastor Cimendra Yeni il günü ibadət üçün yaxınlıqdakı Beradakiya kilsəsinə getmişdi. O, imanlıların Allahla daha dərin ünsiyyət yaratmasını istəyirdi. Cimendra Romalılara məktubdan oxudu və Paulun imanlılara öyrətdiyi kimi Rəbbə iman edib Onu çağırmaq (Romalılara 10:13–14) barədə danışdı. Pastor vəzə hazırlaşarkən bunun son vəzi olacağını bilmirdi.

Cimendra kilsədən evə qayıdarkən artıq axşam düşmüşdü. O, həmişəki kimi avto rikşa taksisi çağırıb ona mindi. Lakin pastorun rikşa taksisindən düşməsini heç kim görmədi. Sonra onun cəsədi rikşanın kabinəsindən tapıldı. Pastorun başına ağır bir zərbə endirilmişdi və bununla da o, həyatını itirmişdi.

Polis pastorun bir avtomobil qəzasında öldüyünü iddia etdi, lakin onun müəmmalı ölümü bir neçə böyük ziddiyyətdən xəbər verirdi. Çox güman ki, pastor Cimendra Müjdəni bölüşdüyünə görə ona qarşı çıxanlar tərəfindən öldürülmüşdü.

Pastor Cimendra güclü bir istəklə Allahın Padşahlığını axtaran və Onun nurunu başqaları ilə bölüşməyə can atanlardan idi. Onun vasitəsi ilə Allahın padşahlığı genişləndi. Cimendra öz işini tamamladı, yarışını qaçdı. İndi başqaları məşəli götürərək Müjdənin nurunu Cimendra Nayakın yaşadığı ərazidə həqiqəti tanımayanlara bir mayak kimi göstərirlər.

# Andrea Santoro

## (5 fevral 2006)

Günəş rəngli pəncərə şüşələrindən süzülərək kilsədəki oturacaqların üstünə düşürdü. Bu dinc sükutu yalnız pıçıltı ilə edilən dualar pozurdu. Türkiyədəki "Santa Mariya kilsəsi"nin səhər ibadətinə gələnlər artıq çıxıb getmişdilər. İndi Ata Andrea Allah ilə təklikdə dua edirdi.

Birdən kilsənin arxa qapısı açıldı və o geriyə çevrilməyə macal tapmamış ürəyinə və qaraciyərinə iki güllə dəydi. Bir anın içində Ata Andrea Allahla yer üzündə sadə söhbətdən əbədi ünsiyyətə keçdi.

Müsəlman təcavüzkar "Allahu Əkbər!" deyə qışqıraraq kilsədən qaçıb gözdən itdi. Ərəb dilində olan bu ifadəni islamçı ekstremistlər çağırış şüarı kimi istifadə edirdilər. Polis böyük axtarışa başladı və qatilin şəhər mərkəzinin yaxınlığında yaşayan bir qohumunun evində gizləndiyi aşkar edildi. Onun cəmi on altı yaşı var idi, amma Allah qarşısında savab iş gördüyünə inanaraq soyuqqanlılıqla günahsız bir keşişi öldürmək üçün artıq ürəyi nifrət və yalan ilə dolmuşdu.

İslamçı radikallar Ata Andreanı müsəlmanlara Məsihdən danışdığına görə hədələmişdilər. Keşiş polisdən heç vaxt onu qorumasını xahiş etməmişdi. O istəmirdi ki, polisin onu qoruması xidmətinə mane olsun.

Ata Andreanın qətli barədə çox sayda fərziyyələr var. Amma bunların hamısı bir mövzu ətrafında cəmlənir ki, bu da onun məsihçi — imanını müsəlmanlar ilə bölüşməyə cəsarət edən biri olması idi. Əgər o, xidmətini ancaq kilsə ilə məhdudlaşdırsaydı, bəlkə də bu təcavüzlə üzləşməzdi.

"Santa Maria kilsəsi" XIX əsrin ikinci yarısında şəhərə gələn xarici məsihçilərə xidmət etmək üçün tikilmişdi. Ata Andrea İtaliyada katolik dini icması olan "İlahi Qüvvənin Oğulları" cəmiyyətinin üzvü idi. O, 2000-ci ildə Türkiyəyə yaşamaq və işləmək üçün gəldi. Lakin Müjdəni kilsədən kənarda bölüşdüyünə görə həyatını qurban verdi.



*Andrea Santoro səhər duası vaxtı güllələndi.*

# Yusebio Ferrao

## (18 mart 2006)

Kilsənin qarşısında otların üzərində sınmış bir çarmıxın taxtaları var idi. Taxta parçalardan birinin üzərində açıq şəkildə "Şri Pardesi" (Cənab Xarici) sözləri yazılmışdı. Hindistanda radikal hindular məsihçilərə sevilməyən əcnəbilər kimi baxırdılar. Çarmıxı sındırılmış başqa bir kilsənin yaxınlığındakı parkda ağacdan ağcaqanad toru ilə örtülmüş keşiş geyimi asılmışdı.

Bir neçə həftə sonra təhdidlər reallığa çevrildi. Makazanada "Müqəddəs Fransis Xavier kilsəsi"nin adamları 6:30 radələrində səhər xidmətinə gəldilər. Kilsədə qəribə bir sakitlik hökm sürürdü və onların keşişi Ata Yusebio Ferrao orada deyildi. O, adətən qapıda durub adamları qarşılayırdı. Həmin gün kilsəyə tez gələnlər sakitcə kilsənin yuxarı başına keçdilər və ora çatanda onların qışqırıq səsləri sükutu pozdu. Kilsənin adamları sevimli keşişlərinin cəsədini yerdə qan gölməçəsində gördülər. Ata Yusebionun cəsədinə baxarkən bəziləri yerə yıxılıb onun üçün ağlamağa başladı. Onu döyüb, bıçaqlayıb boğmuşdular.

Tezliklə hadisə yerinə gələn polis camaatı kilsədən çıxardı və Ata Yusebionun qətlinə dair dəlilləri axtarmağa başladı. Kilsədən heç nə götürülməmişdi, deməli qətlin məqsədi oğurluq deyildi. Bu cinayəti kilsəyə qarşı çox qəzəbli olan bir insan törətmişdi. Bu hadisədən bir gün əvvəl Ata Yusebio iki gənclə nahar etmişdi. Polis onların qatil olmasından şübhələnirdi.

Hindu ekstremistləri hindular, müsəlmanlar və məsihçilər arasında gərginlik yaratmışdılar. "Raştriya Svayamsevak Sanqh" (RSS, milliyətçi hindu təşkilatı) ekstremist qrupu Hindistanın hər yerində yürüşlər keçirdiyinə görə ittiham olunurdu. Məsihçilərin sıx yaşadığı bölgələr ekstremistlərin hədəfinə çevrilmişdi. Hindularla müsəlmanlar arasında baş vermiş iğtişaşlar nəticəsində iki polis və iki mülki şəxs ağır yaralanmışdı. Bundan əlavə, iğtişaşçılar həm də on səkkiz dükanı və bir yanacaqdoldurma məntəqəsini qarət etmişdilər, eləcə də müsəlmanlara məxsus iyirmi dörd maşına ziyan vurmuşdular. Ölümündən təxminən bir ay əvvəl Ata Yusebio

iki yerli qəzet üçün son iğtişaşlar barədə bir məqalə yazmışdı. Millətin ehtiyaclarını həll etməkdən çəkinməyən və açıq danışan Ata Yusebio ekstremistlərin hədəfinə çevrildi. O, Müjdəni bölüşməyin həyatı üçün təhlükə yaratdığını bilsə də, həqiqəti insanlara çatdırmaq istəyirdi. Ata Yusebio həyatı üçün qorxmadan təkcə öz imanını deyil, həm də bütün həmvətənləri üçün insan haqlarını müdafiə etdi.

Ata Yusebio Ferrao özü üçün təhlükəsiz və sakit bir həyat seçə bilərdi. Lakin o, danışmağa üstünlük verdi və bununla da yer üzündəki xidməti sona yetdi.

Amma sən hər vəziyyətdə ayıq ol. Əzaba qatlaş, müjdəçilik işini yerinə yetir, öz xidmətinə tam əməl et. Çünki qanım artıq içmə təqdimi kimi tökülmək üzrədir. Artıq ayrılma zamanım gəldi. Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım, imanı saxladım.

**2 Timoteyə 4:5–7**

# Prem Kumar

## (8 iyun 2006)

Allah Musaya On Əmri verəndə belə dedi: "Çünki Mən sizin qarşınızdan millətləri qovub sərhədlərinizi elə genişləndirəcəyəm ki,...". (Çıxış 34:24). Altmış yeddi yaşlı pastor Premin xidməti də belə idi. O, təkcə Hindistanın Nizamabad şəhərində yerləşən kilsəyə pastorluq etmirdi, eləcə də dua toplantılarında, gizli görüşlərdə və konfranslarda Kəlamı öyrədirdi. Lakin pastorun Allahın padşahlığını genişləndirmək üçün gördüyü bu məhsuldar iş başqalarının diqqətindən yayınmadı.

2006-cı il iyunun 8-də cümə axşamı pastor Prem Kotagiri şəhərində yerləşən yerli kilsənin dua toplantısına getdi. O çıxıb gedəndən sonra yaxşı geyimli naməlum bir şəxs Premin qapısını döyüb arvadından oranın həqiqətən pastorun evi olub-olmadığını soruşdu. Həmin kişi Nizamabaddan gəldiyini və orada ibadət keçirmək üçün Premi özü ilə aparmaq istədiyini dedi. Pastor evdə olmadığı üçün həmin adam Premin telefon nömrəsini götürüb getdi.

Günortadan sonra saat üç radələrində pastor Prem oğlu Sunilə zəng etdi. Pastor dedi ki, Kotagiri Mandalda yerləşən Rampur Tanda kəndində bir dua toplantısına rəhbərlik edəcək və hal-hazırda bir nəfərlə motosikletində həmin kəndə gedir.

Həmin axşam saat 9 radələrində Prem yenidən oğluna zəng vurdu. Bu dəfə Bodhan avtobus dayanacağında olduğunu və dörd naməlum şəxslə başqa dua toplantısına getdiyini söylədi. Ancaq pastor onlarla getməkdən qorxduğunu bildirdi və oğlu Sunildən hər yarım saatdan bir ona zəng etməsini xahiş etdi. Prem otuz dəqiqəyə Kotagiriyə çatmalı idi.

Bir az sonra Sunil atasına zəng etməyə çalışdı, amma atasının mobil telefonu şəbəkə daxilində olmadığı üçün ona zəng çatmadı. Oğlu atası ilə yenə əlaqə yaratmaq istədi, lakin atası bu dəfə də cavab vermədi. Bundan sonra ailə üzvləri təşvişə düşdülər.

Pastor Premin oğulları Sunil və Sudhir atalarını axtarmq üçün cəld Kotagiridəki dostlarına zəng etdilər. Onlar pastor Premi görməmişdilər, buna görə də oğulları dərhal Kotagiriyə yola düşdülər.

Həmin axşam onlar çox axtarsalar da, heç bir məlumat əldə edə bilmədilər və səhər tezdən yenidən axtarışlara davam etdilər. Oğulları bir çoxlarından ataları barədə soruşdular. Bir nəfər yaxınlıqdakı açıq yerdə cəsəd və motosiklet gördüyünü söylədi. Onlar cəld həmin yerə qaçdılar və orada eynək, ev çəkələyi, motosiklet və bir Müqəddəs Kitab tapdılar. Onlar böyük dəhşət içində atalarının cəsədini qan gölməçəsində tapdılar. Pastor Prem Nizamudin rayonunun Kotagiri Mandalda yerləşən Rampart kəndi yaxınlığında təpələrdə qətlə yetirilmişdi. Cəsəd o qədər tanınmaz hala salınmışdı ki, Kotagiri polis müfəttişi pastor Premi yalnız geyimindən müəyyən edə bildi.

Ailəsi onun cəsədini evinə apardı və həmin gecə saat 10-da ailəsi dəfn mərasimində Premlə vidalaşdı.

Bu amansız qətl hadisəsində təxminən 100 hektar ərazisi olan iki sahibkardan şübhələnmək olardı. Sahibkar və kəndlilər çox əsəbiləşmişdilər, çünki Premin ailə üzvlərindən biri məsihçi imanını sahibkarın ailəsi ilə bölüşmüşdü. O təkcə onlara deyil, başqalarına da Məsihə iman etmək barədə danışmışdı. Bir polis məmuru Premin qətlinin daha çox şəxsi rəqabət zəminində baş verdiyini söyləmişdi. “Burada qəti olaraq dini məqsəd yoxdur” — deyə o israr etmişdi. Bu hadisədə Premin özünün təqsirkar olduğunu və mərhumun qohumlarının qətldə iştirak etdiyini bildirmişdi. O həm də iddia etmişdi ki, bir müddət əvvəl Kumarın oğlu bir qadının oğurlanmasında kömək edib və oğurlanmış qadın azad olunduqdan sonra Kumarın oğluna hədə-qorxu gəlib.

Lakin Kumarın oğullarından biri atasının heç bir düşməni olmadığını və bu işdə daha çox hindu ekstremistlərindən şübhələndiyini söylədi. O həm də bildirdi ki, atasını Rampur Tandaya dua toplantısına dəvət edən şəxsin qətldə əli var.

Hindu radikallarının təqib və təhdidləri qarşısında məsihçilər imanda möhkəm durub Rəbbin sevgisi barədə danışmaqda davam edirlər. Allah Prem Kumarın həyatında etdiyi kimi onların da təsir dairələrini genişləndirir və beləcə, hər gün daha çox insanı Öz səltənətinə toplayır.

# Nigeriyalı Qadın

## (28 iyun 2006)

“Onu bizə verin!”

“Onu verməsəniz, binanı yandıracağıq!”

“O ölümə layiqdir!”

Camaat polis bölməsini tamamilə mühasirəyə aldı və zabitlərdən qadını onlara təhvil verməsini tələb etdi. Onların qışqırıqları qulaqları batırırdı. Bir neçəsi əlinə daş götürüb qadını — kafiri görən kimi ona atmağa hazır idilər, bəziləri isə əlində dəyənək və çubuqlarla dayanmışdı.

Polis cəmi bir neçə dəqiqə əvvəl bədəni qan içində və qançırla dolu qadını tapmışdı və onu dəyənəklər və yumruqlarla döyən müsəlman ekstremistərin əlindən alıb bölməyə gətirmişdi.

Həmin gün bu naməlum qadın Nigeriyanın İzom kəndinin küçələrində müjdəçilik edirdi. Qadın bəzi müsəlman gənclərlə söhbətə başlamış, Müjdəni bölüşmüş və oxumaq üçün bir neçə məsihçi kitabları paylamışdı. Qadın çıxıb getsə də, onun bu hərəkətləri diqqətdən kənarda qalmamışdı.

Yaxınlıqda dayanan müsəlman ağsaqqallar onun gənclərlə söhbətini görmüşdülər və gənclərə yaxınlaşıb qadının nədən danışdığını öyrənmişdilər. Həmin qadının Müjdəni gənclərlə bölüşdüyünü eşidəndə kişilər əsəbiləşmişdilər. Onun islam peyğəmbəri Məhəmmədi təhqir etdiyini söyləyib qadını öldürməyi qərara gəlmişdilər. Beləliklə, yüzlərlə qəzəbli müsəlman bu qadını tapmaq üçün küçələrə axışmışdı və nəhayət, onu Qurara çayı yaxınlığında tapıb döyməyə başlamışdılar.

Bu zaman polis müdaxilə edərək qadını ekstremistlərdən qorumaq üçün onu İzomdakı polis bölməsinə gətirmişdi.

Camaat şəriətə və islam qanunlarına uyğun olaraq qadının daşqalaq edilməsini istəyirdi. Onlar polis bölməsinə cumub qadının polis bölməsindən çıxarılmasını tələb etdilər. İslam hüquq sistemi 2000-ci ildə Nigeriyanın bir çox əyalətində tətbiq olunmuşdu. Bu sistemə əsasən Allaha və ya Məhəmməd peyğəmbərə qarşı danışmaq qanunazidd sayılırdı.

Polis onu təhvil verməkdən qəti imtina etmişdi və izdihamın polis bölməsini yandırmaq təhlükəsi ilə üzləşmişdi. Qadını qorumaq və

təhlükəsiz bir yerə aparmaq üçün polis onu arxa qapıdan qaçırmağa çalışmışdı. Lakin qəzəbli müsəlmanlar bütün çıxış yollarını bağlamışdılar. Canları üçün qorxub qaçan polislər qadını qapıda qoyub getmişdilər və izdiham onu döyərək öldürmüşdü.

Qorxu və çaxnaşma içərisində olan polis qadının kimliyini müəyyənləşdirməyə imkan tapmadı. Həmin gənc qadın barədə yalnız bu məlum idi ki, o cəsarətlə Məsihin Xoş Xəbərini insanlara çatdırmışdı. Adı məlum olmayan bu qadın utanmadan bütün adlardan üstün olan İsa Məsihdən danışmışdı. Şübhəsiz ki, Rəbb də əbədi olaraq onu öz adı ilə qarşılamışdı.

"Şəhidləri olmayan kilsə
ölməkdə olan kilsədir."

**— Origen, b. e. 254-cü ilində şəhid olub.**

# Y Nqo Adronq

## (13 iyul 2006)

Qırx doqquz yaşlı məsihçi Y Nqo Vyetnamda yaşayan *montanard deqar*[4] idi. O, Dak Lak əyalətinin Ea H'leo bölgəsində yerləşən polis instintaq otağında işgəncə ilə öldürüldü.

2006-cı il noyabrın 13-də Y Nqo polis bölməsinə çağırıldı və burada polis məmurları tərəfindən ev kilsəsi fəaliyyətləri ilə əlaqədar sorğu-sual olundu.

Səhər saat 11 radələrində Ea H'leo bölgəsindən olan polislər Y Nqonun yaşadığı Buon Le kəndinə gəldilər. Ailəsinə Y Nqonun polis bölməsində özünü asdığını söylədilər. 2006-cı ilin iyulun 14-də onun cəsədi meyitxanaya köçürüldü. Sonra qohumlarından biri Y Nqonun cəsədini doğulduğu Buon Blek kəndinə apardı.

Ancaq Y Nqonun ailəsinin kədəri onun müəmmalı ölümü ilə bitmədi. Sayca on nəfərdən artıq polis kəndi mühasirəyə aldı və camaatın dəfn mərasimində iştirak etməsinə mane oldu. Polis Y Nqonun cəsədinin yoxlanması və paltarının çıxarılmasına icazə vermədi. Ailə üzvləri onun ölümünün səbəbini bilmək üçün yaralarını görmək istəsələr də, polis mərhumun yaxınlarını cəsədə yaxınlaşmağa qoymadı.

Y Nqonun cəsədinin yoxlanılmasına və dəfn mərasiminə qoyulan məhdudiyyətlərdən başqa polis onun ailəsinə on beş milyon Vyetnam donqu təzminat verdi. Polislər onu öldürməkdə səhv etdiklərini boyunlarına aldılar. Ancaq polislər istintaq otağında baş verənləri danışmaq istəmədilər.

Y Nqo kimi *montanard deqar* məsihçilər Vyetnamda Müjdəni bölüşərək xidmətlərini davam etdirirlər. Onlar üzləşdikləri təhlükələrdən — həbs və hətta ölüm risklərindən yaxşı xəbərdardırlar. Lakin bölüşdükləri Müjdə bu məsihçilər üçün o qədər dəyərlidir ki, onu paylaşmaq üçün hər şeyə hazırdırlar.

---

[4] "Montanard" fransızca "dağ sakini" və ya "dağ adamları" deməkdir. Vyetnamdakı montanard etnik qrupları özlərini "deqar" adlandırırlar.

# Pastor İriyanto Konqkoli

## (16 oktyabr 2006)

Rita Arianti Kopa dərindən köksünü ötürüb dedi: “Bu Allahın iradəsidir. O, həyat verir”.

Rita yaddaşında ərinin həyatının son anlarını canlandırdı. Bazar ertəsi səhər cütlük beş yaşlı qızı ilə birgə keramik plitələr almaq üçün İndoneziyanın Mərkəzi Sulavesi əyalətindəki inşaat malları mağazasına getmişdilər. Bu onlar üçün adi bir gün idi. Onların hər ikisi zorakılıq çox olan belə bir ərazidə imanlı həyatı yaşamağın təhlükələrindən agah idilər.

İriyanto və Rita bəzi plitələrin qiymətini soruşdular və dükandan çıxdılar. Onlar öz maşınlarına qayıdarkən İriyanto mağazanın həyətində nümunə üçün qoyulmuş bir neçə fərqli plitə gördü. Onlara baxmaq üçün dükana tərəf getməyə başladı. Bu zaman iki maskalı şəxs İriyantoya yaxınlaşdı və başının arxasından onu güllə ilə vurdu. Sonra onlar motosikletə minib qaçdılar.

Rita yerə yıxılmış ərinin yanına qaçdı və gözlərinə inana bilmədi. Rita özü Şərq Palu polis qüvvələrinin bir üzvü idi və belə hadisələr qarşısında nə etmək lazım olduğunu yaxşı bilirdi. Amma ərini bu dəhşətli vəziyyətdə görmək onu çox sarsıtdı. İriyanto təcili olaraq xəstəxanaya çatdırıldı. Həkimlər onun həyatını xilas etmək üçün mübarizə apardılar, lakin İriyanto ağır yaralandığına görə çox keçmədən dünyasını dəyişdi.

Pastor İriyanto qısa bir müddət idi ki, Rinaldi Damanikin işini — Mərkəzi Sulavesideki Protestant kilsəsinin rəhbəri vəzifəsini icra edirdi. Bu təhlükəli bir iş idi. Pastor Damanik iki il əvvəl saxta ittihamlarla iyirmi üç ay həbsdə qaldıqdan sonra azadlığa buraxılmışdı.

1990-cı illərin sonlarında İndoneziyada çaxnaşmalar başladı. Pastor Damanik bunun korrupsiya və tərəfkeşlik zəminində yarandığını bildirdi. Bu zorakılıq barədə danışarkən o belə dedi: “Bu dini bir qarşıdurma deyil. Onun əsl səbəbi cəmiyyətimizdə olan haqsızlıqlardır”.

Pastor İriyanto ədalət və korrupsiyaya son qoymaq üçün mübarizə apardı. O, Məsihin iman yolu vasitəsilə əziyyət çəkənlərə ədalət və

azadlıq təklif edirdi. İriyanto həm də bölgədə baş verən zorakı hadisələri lazımınca araşdırmayan idarəetmə orqanlarına qarşı danışırdı.

Pastor Damanik və İriyanto zorakılığın qurbanlarını onların etnik mənsubiyyətlərinə və ya dinlərinə baxmadan müdafiə etmək istəyirdilər. Zorakılığın qurbanı olan bir müsəlman qaçqın onların insanlara olan məhəbbətinə heyran olmuşdu. Böhran Mərkəzlərindən birinə evakuasiya olunaraq ona yardım göstərilmişdi. Həmin qaçqın öz məktubunda onlar barədə belə yazmışdı: "Dində fərqimiz olsa da, onların ürəkləri qeyri-adi idi".

Pastor İriyanto Konqkolinin bir çox vəzifələri olsa da, həyatda ata, ər, keşiş, sevimli dost, məzlumların müdafiəçisi və haqsızlıqla üzləşənlərə ədalət səsi idi.

"Bir köpəyin kölgəsi səni dişləyə bilməz və ölüm kölgəsi səni öldürə bilməz. Bizi həbsxanaya sala və ya öldürə bilərsiniz, ancaq bizə xətər yetirə bilməzsiniz".

**— Özü, arvadı və altı balaca uşağı ilə birgə 23-cü Zəburu oxuyub bitirərkən evinə soxulan polis tərəfindən həbs və işgəncə təhdidi ilə qarşılaşan pastor.**

# İmmanuel Andegeresq və Kibrom Fayermişel

## (17 oktyabr 2006)

İmmanuel və Kibrom səssizcə qapını bağlayıb evdən çıxarkən artıq gecə düşmüşdü. Onlar bir anlıq dayanıb ehtiyatla küçənin hər iki tərəfinə baxdılar. Ətrafda heç kimin olmadığını görüb yavaş-yavaş toplantı keçirilən istiqamətə doğru addımladılar.

Toplantı keçirilən evə çatanda imanlı bacı-qardaşlar onları böyük sevinclə qarşıladı. Onlar üçün bu yer imanlılarla ünsiyyət qurmaq və birlikdə Xilaskarları Məsihə ibadət etmək üçün yeganə yer idi. Bu məsihçilər Eritreyada açıq ibadəti qadağan edən qanunlara artıq alışmışdılar və onlar bir-birinə etibar edərək bura yığışmışdılar. Birlikdə ibadət etməyə və bölüşməyə başlayanda onların qorxu və tərəddüd hissi yox oldu.

Onlar həmd ilahisi oxuyurdular və birdən qapı bərkdən döyüldü. İmanlılar bir-birilərinə təəccüblə baxdılar və işin nə yerdə olduğunu dərhal anladılar. Onların gizli görüş yeri aşkar edilmişdi və qanunu pozduqları üçün həbs olunub işgəncələrə məruz qalacaqdılar.

2002-ci ildən bəri Eritreyada islamla yanaşı pravoslav, Roma katolik və lüteran kilsələrinin fəaliyyəti qəbul olunmuşdu. Məmurlar protestant müjdəçi məsihçilərini “yeni din” ardınca gedənlər kimi tanıyırdılar və buna görə onları həbs edirdilər. O vaxtdan bəri minlərlə məsihçi şəraiti pis olan həbsxanalara salınırdı. Bəziləri isə 37–38 °C-dən yuxarı isti və ya 0°C-dən aşağı soyuq temperaturlarda metal daşınma qablarında saxlanılırdı.

Az sonra qapı zorla açıldı və bir neçə təhlükəsizlik polisi içəri daxil oldu. Onlar bu “ruhaniləri” kökündən kəsmək üçün yaradılmış xüsusi təyinatlı qüvvələr idi.

İyirmi üç yaşlı İmmanuel, otuz yaşlı Kibrom və onlarla birgə səkkiz nəfər həbs edilərək hərbi həbsxanaya aparıldı. Orada olan imanlılardan birinin dediyinə görə onlar amansız işgəncələrə məruz qaldılar. İki gündən sonra İmmanuel və Kibrom susuzluqdan və işgəncələrdən həyatlarını itirdilər.

Bu iki imanlı qardaş təhlükələrdən yaxşı agah idilər. Amma onlar təhlükələrdən qorxmayıb qardaşlıq məhəbbəti ilə bir-birilərinə bağlı olmağı daha üstün hesab etdilər.

Buna görə Rəbbimiz barədə şəhadət
etməkdən və Onun uğrunda
məhbus olan məndən utanma.
Allahın gücü ilə Müjdə uğrunda
mənimlə birlikdə əzaba qatlaş.

**2 Timoteyə 1:8**

# 2007–2011

# Kristiyana Oluvatoyin Olusase

## (21 mart 2007)

Həmin gün Kristiyana üçün adi bir gün kimi başladı. Bu məsihçi qadın əksəriyyəti müsəlman olan Şimali Nigeriyada orta məktəbdə müəllim işləyirdi. Kristiyana gündəlik həyatına qarşı olan təhlükədən yaxşı ağah idi, amma nəyinsə baş verəcəyini düşünmürdü. Kristiyana işinə ciddi yanaşırdı və imanı barədə açıq danışdığından məsihçi olduğu sirr deyildi.

Kristiyana Nigeriyanın Qombe şəhərindəki "Hökumət Günü" adlı orta məktəbində çalışırdı. Həmin gün məktəbdə islam dini bilikləri üzrə imtahan keçirilirdi. Həmişəki kimi imtahan vaxtı şagirdlər çantalarını, kitablarını və dəftərlərini yığıb kənara qoydular. Sonra Kristiyana imtahan vərəqlərini payladı. Bu zaman qızlardan biri çox əsəbiləşdi və digər şagirdlərə bildirdi ki, onun çantasında Quran kitabı var imiş və müəllim kitaba toxunubmuş. Qızın fikrincə, Kristiyana məsihçi olduğu üçün Qurana toxunaraq kitabı murdarlamışdı və buna görə də qız müəllimi günahlandırdı.

Hamısı qızlardan ibarət olan sinifdəki digər şagirdlər də onunla razılaşdılar və "Allahu Əkbər" şüarları səsləndirməyə başladılar. Bir anda sinif otağında çaxnaşma yarandı və qızlar ayağa durub müəllimlərinin üstünə hücum çəkdilər. Çöldən ona daş atdılar, ağır əşyalarla onu döyüb öldürdülər. Sonra qızlar Kristiyananın cəsədini sinif otağından bayıra sürüyərək yandırdılar.

Kristiyananın belə ölümü qeyri-adi bir hadisə deyildi. Buna bənzər bir hadisə 2006-cı ilin fevralında qonşu Bauçi əyalətində də baş vermişdi. Deyilənə görə orta məktəbdə işləyən məsihçi müəllim bir şagirdin əlindən Quranı almışdı. Bu müəllimi də Quranı təhqir etdiyinə görə günahlandırmışdılar. Nəticədə, beş nəfər öldürülmüş və bir neçə kilsə yandırılmışdı. Müsəlmanlar və məsihçilər arasında bölünmüş bir ölkə daxilində müsəlmanlar məsihçiləri döyür, oğurlayır, hədələyir və hətta öldürürlər. İslamın bir barışıq dini olduğu iddia olunsa da, hər gün Şimali Nigeriyada həqiqi sülh və sevgi Müjdəsini yayan məsihçilər

təhlükə ilə qarşılaşırlar. Ancaq Kristiyananın həyatında gördüyümüz kimi təhlükə sayəsində iman və qurtuluş toxumu əkiləcək və əbədi bir mükafat biçiləcək. Kristiyana Nigeriyadakı məsihçilərin hansı təqiblərlə üzləşdiyindən xəbərdar idi və hər gün öz həyatına olan təhlükəni anlayırdı. Lakin bunlara baxmayaraq Kristiyana çəkinmədən öz imanını insanlara göstərdi.

Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın.

**Matta 10:28**



*Uğur Yüksəl, Necati Aydın və Tilman Geske Türkiyədə şəhid oldular.*

# Necati Aydın, Tilmann Geske və Uğur Yüksəl

## (18 aprel 2007)

2007-ci ilin aprelin 18-i səhər idi. İki türk müsəlman gənc Emre Günaydın və Abuzər Yıldırım məsihçi "Zirvə Nəşriyyatı"nın ofisinə gəldilər. Bu nəşriyyat Türkiyənin şərqində məsihçiliyə aid kitabları paylayırdı. Gələn gənc oğlanlar guya məsihçi imanı haqqında daha çox şey öyrənmək istəyirdilər. Onlar əvvəlki həftələrdə bu barədə söhbət etmişdilər.

Malatyadakı protestant kilsəsinin pastoru Necati Aydın həyat yoldaşı Semseyə bu gənc oğlanların Məsihə marağının həqiqi olmadığını söyləmişdi. Amma pastor fürsətdən istifadə edib yenə də gənclərə İsa haqqında danışmaq istəyirdi. Necati bu dəfə onların özləri ilə iki bıçaq və bir boş tapança gətirdiklərini bilmirdi.

Necatidən başqa Tilman Geskedə ofisdə idi. Uzun müddət Türkiyədə yaşayan qırx altı yaşlı bu alman məsihçi ingilis dili müəllimi işləyirdi. Bundan başqa, o, Necatinin rəhbərlik etdiyi kilsədə kömək edirdi. Az keçmədən Uğur Yüksəl də ofisə gəldi. Yaxınlıqdakı Elazığ şəhərindən olan otuz iki yaşlı bu məsihçi təxminən bir il idi ki, "Zirvə Nəşriyyatı"nda çalışırdı.

Türk qonaqpərvərliyinə uyğun olaraq gələn qonaqlara çay verildi. Qısa söhbətdən sonra qapı zəngi çalındı. Emre üç başqa dostunun da bu müzakirədə iştirak etmək istədiyini söylədi. Sonra Hamit Ceker, Cuma Özdemir və Salih Gürler içəri girdi və onlar da söhbətə qoşuldular.

Gənclər özləri ilə daha üç böyük bıçaq, paltar asmaq üçün işlənən iplər və plastik əlcəklər gətirmişdilər. Onlar bu əşyaların hamısını plastik torbalarda gizlətmişdilər. Bundan əlavə, onlarda iki boş tapança da var idi. Mütəxəssislər həmin tapancaları ilk baxışdan həqiqi silahdan ayırd edə bilməzdi.

Sonradan baş verən hadisələrin dəqiq ardıcıllığı tamamilə izah olunmadı. Daha sonra məhkəmədə qatillər bir-birini ittiham etməyə çalışdılar və ziddiyyətli ifadələr verdilər. Cinayətin təxmini icmalı belə görünür: Gənclər

Necati, Uğur və Tilmanı tapança və bıçaqla hədələmişdilər. Sonra hər üç məsihçinin əlləri və ayaqlarını bağlayıb üzü üstə yerə yıxmışdılar. Üç məsihçi sözlə təhqir edilmişdi və çox güman ki, onlardan imanlarından dönmələri tələb olunmuşdu.

Hakim daha sonra qatillərdən məsihçilərin nə cavab verdiklərini soruşmuşdu. Onların ifadəsinə görə məsihçilərin hər üçü ölüm qarşısında böyük sülh içində olmuşdular. İfadələrdə qeyd edilir ki, imanlı qardaşları öldürülərkən Uğur Məsihi çağırmışdı.

Qatillərdən biri Necatini paltar asmaq üçün olan iplə boğmağa çalışmışdı. Daha sonra Semse bu barədə eşidəndə dəhşətə gəlmişdi, çünki ərinin ən böyük qorxularından biri dar yerdə olmaq və nəfəs ala bilməmək idi.

Hər üç məsihçi işgəncələrə məruz qaldı, bədənlərinin hər yerindən təpikləndi və bıçaqlandı. Tibbi ekspertizanın hesabatında qeyd olunurdu ki, Necatinin bədənində boğma izləri, altı bıçaqlanma və ya kəsilmiş yara izləri, Tilmanın bədənində on altı bıçaqlanma və kəsilmiş yara izləri, Uğurun isə bədənində on dörd bıçaq və ya kəsilmiş yara izləri aşkar edilmişdi.

Qatillər onların bellərində diz çöküb karotid (yuxu) arteriyalarını (başa qan aparan əsas damarlar) kəsmişdilər və nəticədə onlar qan itirərək dünyalarını dəyişmişdilər.

Malatya kilsəsinin işçisi olan Gökhan və həyat yoldaşı Özge günorta 13:00-dan bir az əvvəl nəşriyyata gəldilər. Gökhan ofis qapısının kilidli olduğunu və onun içəridən bağlandığını anladıqdan sonra cib telefonu ilə imanlı qardaşlarına zəng etdi. Necati və Tilman telefon zənginə cavab vermədilər, çünki onlar artıq həyatlarını itirmişdilər.

Qatillər Uğuru telefonda danışmağa məcbur etdilər: “Biz ‘Qızıl Ərik’ otelində görüşə gəlmişik. Sən də bura gələ bilərsən”. On gün əvvəl onlar həmin oteldə, kirayəyə götürdükləri bir otaqda Pasxa bayramını keçirmişdilər. Amma bu vaxt onlar orada nə edirdilər? Uğurun səsi qeyri-adi, ağrılı və narahat səsləndi və Gökhan polisi çağırdı.

Polis hadisə yerinə yaxınlaşarkən Uğurun boğazı kəsildi. 50 vahid qan köçürülməsinə baxmayaraq o aldığı yaralardan həmin axşam saat 6:30-da dünyasını dəyişdi.

Konstitusiyasında din azadlığını iddia edən Türkiyədə məsihçilər 70 milyon əhalinin 1%-dən az hissəsini təşkil edir. Əhalinin əksəriyyəti müsəlmandır. Məsihçilər mediada mənfi şəkildə təsvir olunurlar və son illərdə onlara qarşı təqiblər (ayrıseçkilik, ölüm təhdidi və vandalizm daxil olmaqla) artmaqdadır. Məsihçi müjdəçi qruplar Əl-Qaidə kimi terror qrupları ilə eyni səviyyədə təqdim olunmuşdu. Türkiyə Milli Təhlükəsizlik Şurası müjdəçi məsihçilərin ölkənin təhlükəsizliyi üçün bir risk yaratdığını iddia etmişdi.

Tarix boyu təqiblər məsihçiliyi məhv etməyə çalışsa da, əksinə onun artmasına səbəb olub. Rəbb şagirdlərini hazırlayarkən onlara belə dedi: "Əgər dünya sizə nifrət edərsə, onda yada salın ki, sizdən əvvəl Mənə nifrət edib... Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər... Lakin bunların hamısını sizə Mənim adıma görə edəcəklər, çünki Məni Göndərəni tanımırlar... Hətta o zaman gəlir ki, sizi öldürən hər kəs Allaha xidmət etdiyini zənn edəcək... Dünyada əziyyətiniz var, amma cəsarətli olun! Mən dünyaya qalib gəldim" (Yəhya 15:18,20,21; 16:2,33).

Tilmanın həyat yoldaşı Suzandan qatillərlə bağlı fikrini soruşanda o, Məsihin sözlərindən sitat gətirmişdi: "Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər". Necatinin həyat yoldaşı Semse də Türkiyənin milli televiziyasında ərinin qatillərini bağışladığını söyləmişdi. Bu qadınların qatilləri bağışlaması bütün tanınmış qəzetlərin ilk səhifələrində dərc olunmuş və milli TV-də canlı yayımlanmışdı. Allah Öz məhəbbətini insanlara göstərmək üçün Məsihə sadiq olanların hətta ölümündən belə istifadə etmişdi.

Hətta müsəlmanlar belə dul qadınların qatilləri bağışlamasının millətə necə təsir etdiyini görmüşdülər. Bir neçə gün sonra məşhur türk qəzetinin redaktoru bu barədə belə qeyd etmişdi: "Qatillər müjdəçilərin fəaliyyətinə mane olmaq istədi. Ancaq bu qadınlar dedikləri sözlərlə əsrlər boyu minlərlə müjdəçinin edə bilmədiyi bir işi gördü".

"Həmçinin qardaşlardan əksəriyyəti mənim həbsimdən ötrü Rəbbə güvənərək kəlamı qorxmadan bəyan etmək üçün daha çox cəsarət göstərdi".

**Filipililərə 1:14**

# Nigisti Heyl

## (5 sentyabr 2007)

Otuz üç yaşlı Nigisti Məsihə imanında qətiyyətli bir qadın idi. Afrikanın şimal-şərq ölkəsi olan Eritreyada o, bir məsihçi kimi imanına görə hər gün təhlükə və hədə-qorxu ilə qarşılaşırdı. 2002-ci ildə hakimiyyət rəsmi dövlət dinləri kimi islamı, eləcə də pravoslav, lüteran və katolik məsihçiliyini qəbul etmişdi. Lakin bütün müstəqil protestant toplantılarının qeyri-qanuni olduğunu bildirmişdi. Buna baxmayaraq Nigisti müstəqil protestant toplantılarına müntəzəm olaraq gedirdi. Bu məsihçi qadın orta məktəbin yuxarı sinfində təhsil almaqla yanaşı, həm də bir qohumu üçün səylə işləyirdi. O, həyatını məqsədlə yaşayır, çox çalışır və bacardığı hər şeyi öyrənirdi. Nigisti Məsihin həqiqəti üzərində düşünməyi və onları həyatı boyu bölüşməyi çox xoşlayırdı. O qarşılaşacağı sınaqdan üzüağ çıxmaq üçün Məsihin həqiqətində güc və cəsarət toplayırdı.

Bir gün Nigisti Keren kəndində ibadət üçün imanlılarla bir yerə yığışdılar. Bu vaxt səlahiyyətli şəxslər içəri girib toplantını dağıtdı və onunla birgə digər doqquz subay qadını tutub apardılar. Qeydiyyatsız yığışdıqlarına görə onlar həbs olundular və bir neçə ay Vai Hərbi Təlim Mərkəzində saxlanıldılar. Bu müddət ərzində Nigisti işgəncəyə məruz qaldı. Ondan tələb olundu ki, imanından imtina etmək üçün bir sənədi imzalasın. O, şəraiti pis olan həbsxanada amansız rəftarla üzləşdi və ona heç bir tibbi yardım göstərilmədi. Nigisti məcburi əməyə cəlb olundu. Bütün bunlara baxmayaraq o, Məsihə imanında möhkəm durdu. Ondan Rəbbi inkar etməyi tələb etdilər, amma o, fikrini dəyişmədi. Nigisti İsanın Matta 10:32,33-də dediyi sözləri düşündü: “İnsanlar qarşısında Məni iqrar edən hər kəsi Mən də göylərdə olan Atamın qarşısında iqrar edəcəyəm. Amma kim insanlar qarşısında Məni inkar etsə, Mən də onu göylərdə olan Atamın qarşısında inkar edəcəyəm”.

Həbsxana mühafizəçiləri ona işgəncə verməkdə davam etdilər. Onlar güman edirdilər ki, ağrı və ölüm hədə-qorxusu onun Məsihə olan imanına üstün gələcək. Ancaq belə olmadı və aylarla davam edən təzyiqlərdən sonra 2007-ci ilin sentyabrın 5-də Nigisti işgəncə ilə öldürüldü. Bu

məsihçinin belə ölümü il ərzində artıq dördüncü hadisə idi. 2006-cı il üç başqa məsihçi də qanunsuz ibadət etdiyinə görə həbs olunmuşdu. Onlar işgəncə yaralarından, sətəlcəm və susuzluqdan dünyalarını dəyişmişdilər.

Hal-hazırda imanlarına görə 2800 eritreyalı məsihçi Nigisti kimi ittiham olunmadan həbsdə saxlanılır. Nigisti üçün heç bir hüquqi vəkil təyin edilmədi və heç bir məhkəmə də keçirilmədi. O, imanının "odla təmizlənsə belə, fani qızıldan daha çox dəyərli" olduğunu və "İsa Məsihin zühurunda... tərif, izzət və şərəf gətirəcəyini" (1 Peter 1:7) bildiyindən Rəbbə sadiq qaldı.

"Mənim üçün zindan sanki bir saraya çevrildi, ona görə də orada olmağı başqa yerdə olmaqdan üstün tutdum".

**— Perpetuya, b.e 203-cü ilində şəhid olub.**

# Rami Əyyad

## (6 oktyabr 2007)

Rami Əyyad axşamüstü Qəzza şəhərindəki məsihçi kitab mağazasını bağlamaq üçün bayıra çıxdı. Bu vaxt bir maşın qarşısında dayandı və üç naməlum şəxs onu tutmaq üçün maşından düşdü. Onlardan maska taxmış iki nəfər Ramini maşının arxa oturacağına güclə itələyib saldı və cəld maşın oradan uzaqlaşdı. Bu hücum onu təəccübləndirsə də, lakin gözlənilməz deyildi, çünki əvvəllər də dövlət nömrə nişanı olmayan bir avtomobilin onu izlədiyini görmüşdü. Qəzzanın yeganə məsihçi kitab mağazasının meneceri olaraq, Rami işlədiyi müddət ərzində bir neçə dəfə ölümlə hədələnmişdi. Öz işinin riskli olduğunu bilsə də, "Müəllimin Kitab Mağazası"nı idarə etməkdə davam etmişdi.

Fələstin Müqəddəs Kitab Cəmiyyətinə məxsus olan və onun idarə etdiyi "Müəllimin Kitab Mağaza"sı təkcə Müqəddəs Kitab və başqa məsihçi vəsaitlərinin satışı ilə məşğul deyildi. Raminin oradakı xidmətinə başqa işlər də daxil idi. O, təhsili və işi olmayan yoxsul Qəzza vətəndaşlarını kompüter dərsləri ilə təmin edirdi. Bir neçə ay əvvəl kiçik bomba partlayışı nəticəsində mağaza müvəqqəti bağlanmışdı. Amma bu kitab mağazası o qədər sevilirdi ki, insanlar onun açılması üçün nümayiş keçirmişdilər və nəticədə mağaza yenidən açılmışdı. Müqəddəs Kitab Cəmiyyəti üçün işləməklə yanaşı Rami həm də "Avanas" klubunun və öz kilsəsində yay uşaq düşərgəsinin rəhbəri idi.

Rami bu xidmətin vacibliyini anlayırdı və buna görə də silahlı islamçı qrupların hədə-qorxularına baxmayaraq fəaliyyətinə davam etmişdi. 2007-ci il oktyabrın 6-da axşam bu təhdidlər onun üçün bir reallığa çevrildi. Rami onu oğurlayanların avtomobilinə oturanda həyat yoldaşı Polinə zəng etdi və onu ruhlandırmağa çalışaraq dedi: "Bəzi gənc adamlarla bir yerə gedirəm, amma tezliklə evdə olacağam". Onun sakit səsi qorxulu vəziyyət qarşısında Rəbbə güvəndiyini ifadə edirdi. O, sonra anasına da zəng vuraraq dedi ki, bir-iki saat "bəzi adamlarla" birlikdə olmalıdır, əgər tez geri qayıtmasa, onda uzun müddət geri dönməyəcək.

Rami sorğu-sual və işgəncə üçün mağazasından bir neçə məhəllə uzağa aparıldı. Təcavüzkarlar onu məsihçiliyi yaymaqda günahlandıraraq dəyənək və silahların taxta arxası ilə döydülər. Çox güman ki, onu islama dönməyə məcbur etmişdilər, lakin Rami imanında möhkəm qalmışdı. Pis niyyətli bu insanlar onu döyüb bıçaqlamışdılar və işgəncələrin əhəmiyyətsiz olduğunu görüb nəhayət, imanında qətiyyətli olan bu məsihçini güllələmişdilər. Cəsədi ertəsi gün səhər tezdən tapıldı. Onun qatilləri heç vaxt müəyyənləşdirilmədi.

Raminin hamilə arvadı və iki övladı hədə-qorxularla üzləşdi və nəticədə Qəzza zolağından İsrail ərazisinə köçdülər.

İslamın hökm sürdüyü yerlərdə məsihçilərə daim təzyiqlər edilir. Onların təhlükəsiz həyat yaşamaları üçün islamı qəbul etmək təklif olunur. Amma Rami Əyyad bununla razılaşmamışdı. Bu sadiq imanlı öz həyatı üçün qorxmayıb Rəbbin işini görməkdən, insanlara qayğı göstərməkdən və Müjdəni yaymaqdan çəkinməmişdi. Onun həyatı və ölümü dünyadakı məsihçiləri imanda möhkəm durmaqda ruhlandıracaq. Qəzzadakı bir məsihçi Raminin ölümündən sonra belə demişdi: “Hər şey bizim xeyrimizədir. Bu hadisənin baş verməsində Allahın bir məqsədi var və kilsəni heç kim susdura bilməyəcək”.

# Tulu Mosisa

## (2 mart 2008)

Rəbbi sevən Tulu sadə bir kənd təsərrüfatı işçisi idi. O, başqa bir kənddə yaşayan arvadı və beş uşağını dolandırmaq üçün Efiopiyanın cənubundakı ucqar Nensebo Çebi kəndində işləyirdi. Bu sadə məsihçi orada "Kale Hivot" protestant baptist kilsəsində ibadət edirdi.

Bir bazar günü səhər Tulu və məsihçi bacı-qardaşlar kilsədə dua edərkən uzun bıçaqlarla silahlanmış adamlar ora soxuldular. Həmin vaxt təxminən yarım saatlıq məsafədə yerləşən "Birheyn Vongel" baptist kilsəsinə də silahlılar hücum etdilər. Onlar müsəlmanların üstünlük təşkil etdiyi bölgəni məsihçilərdən təmizləmək istəyən qatı müsəlmanlar idilər.

Tulu həmin səhər kilsəyə tək gəlmişdi, ailəsi onun yanında deyildi. Toplantıda qadınlar və uşaqlar da daxil olmaqla hər yaşdan ibarət adamlar var idi. Təcavüzkarlar kilsənin bütün qapılarını və pəncərələrini bağladılar.

"Allahu Əkbər!" deyib təcavüzkarlar uzun bıçaqlarını yellədərək qışqırdılar və müdafiəsiz camaatın üstünə hücum çəkdilər. Kilsədəki imanlılar böyük təlaş içində ora-bura qaçmağa başladılar. Hər iki kilsədən ən azı iyirmi üç nəfər yaralandı, iki nəfər hətta əllərini itirdi. Tulunun başını uzun bıçaqla kəsməklə onu öldürdülər. Yerli polis gəlib qatı müsəlmanları qovduqdan sonra bu zorakılığa nəhayət ki, son qoyuldu. Bir neçə şübhəli şəxs həbs olundu, lakin təcavüzkarların heç biri rəsmi olaraq müəyyənləşdirilmədi.

Hücum zamanı Efiopiya əhalisinin 45%-nin müsəlman olduğu bildirilir. Burada onlar islamın başqa dinlərə hörmət edən bir növünə sitayiş edirlər. Amma Efiopiya İslam İşləri Ali Şurasına əsasən ölkə müsəlmanlarına vəhhabi islamı getdikcə daha çox təsir göstərməyə başlayır. Vəhhabilik islamın ifratçı bir təriqətidir və on səkkizinci əsrdə yaşamış Məhəmməd əl-Vəhhabın təlimlərinə əsaslanır. Bu təriqət Məhəmməd peyğəmbərin orijinal təlimlərinə tam sadiq qalmaq istəyir. Onlar saf və tarixi bir islamı bərpa etməyə çalışır. Beləliklə, vəhhabilik Quranın yeni şərhi də daxil olmaqla müasir və dünyəvi olan hər şeyi rədd edir. Bu təriqət islam qanunlarını Qərb standartlarına yaxınlaşdırmaq üçün bəzi hissələri

yenidən şərh edən XIX–XX əsrlərdəki müsəlman islahatlarına qarşı çıxır. Vəhhabi müsəlmanların fikrincə, onların inandıqları islam yeganə həqiqi İslamdır. Bu inancın hər hansı başqa forması saxtadır və islamın başqa formalarına iman edənlər həqiqi müsəlmanlar deyillər.

Hər gün son gün ola biləcəyini düşünərək yaşamaq bizdən güc və cəsarət, eləcə də Rəbbə sarsılmaz iman və ümid tələb edir. Tulu Mosisanın imanda sadiq qalması həyatında aydın göründü və ölümü ilə qoyduğu nümunə ailəsini də imanda möhkəm saxladı. Hadisədən sonra bir məsihçi təşkilatının işçiləri Tulunun həyat yoldaşına baş çəkdi. Çaltu Vaqa onları təbəssüm və böyük sevinclə qarşıladı.

O, yerli dildə dedi: "Allah böyükdür". Ərinin ölümündən çox üzülsə də, məsihçi dostlarının ziyarətlərindən çox ruhlandığını bildirdi. O, əri haqqında dedi: "Ağrılı olsa da, imanına görə şəhid olduğunu başa düşürəm".

İsa dedi: "Mənim adıma görə hamı sizə nifrət edəcək" (Mark 13:13). Bəzən bu nifrət imanlının cismani ölümü ilə özünü göstərir. Tulu Mosisa ölümdən qorxmurdu. O, həyatı bahasına başa gəlsə də, imanlılarla müntəzəm olaraq görüşürdü, çünki Rəbbin "axıracan dözən xilas olacaq" (Mark 13:13) vədini yaxşı bilirdi.

# Orissa Hücumları

## (Avqust 2008)

Hindistanın Orissa əyaləti hindu fundamentalistlərinin məsihçilərə qarşı təcavüzünün daim qaynar nöqtəsi olub. 2008-ci ilin avqust ayında soyqırım baş verdi. Hindular öz sevimli dini rəhbərləri olan Laxmanananda Sarasvati və onun dörd davamçısının qətlinə görə qisas almaq üçün məsihçilərə hücum etdilər. 2008-ci il avqustun 23-də Sarasvati öldürüldü. "Dünya Hindu Şurası" (DHŞ) başda olmaqla hindu ekstremist qrupları bu qətldə yerli məsihçiləri günahlandırdı. Belə zənn edilir ki, Orissa əyalətində məsihçilərə qarşı təcavüzün arxasında DHŞ durur.

Sarasvatinin qətlinin ertəsi günü əyalətdəki hakim hindu millətçi partiyası (Hindistan Xalq Partiyası) DHŞ ilə birlikdə hindu rəhbərlərinin qətlinə etiraz olaraq Orissada on iki saatlıq bütün işlərin dayandırılmasını tələb etdi. Polis qətlin maoist üsyançıları ilə əlaqəsi olduğunu sübutla göstərsə də, hindular onun ölümündə məsihçiləri təqsirləndirdilər. Daha sonra Sarasvatinin cənazəsini yaxın kəndlərin küçələrindən nizamla addımlayaraq keçirdilər və camaatda məsihçilərə qarşı pis fikirlər oyatdılar. Hindu rəhbərin qətlinə görə onları intiqam almağa səslədilər.

Hindular "Məsihçiləri öldürün və təşkilatlarını məhv edin" şüarları ilə qışqırırdılar.

Komendant saatına və bölgədəki digər qadağalara məhəl qoymadan yüzlərlə qəzəbli hindu bir yerə toplaşdı. Orissa əyalətinin hər yerində məsihçilərə qarşı hücumlar başlandı, pastorlar və məsihçi rəhbərlər hədəfə alınaraq öldürüldü. Məsihçilərin evləri və kilsələri yandırıldı, təşkilatları və mağazaları isə talan edilib dağıdıldı. Bir müjdəçinin idarə etdiyi uşaq evi yandırıldı. Kəndlilər evlərindən çıxarılıb döyülərək öldürüldü və qadınlar zorlandı. 300 kənddə minlərlə məsihçi təcavüzə məruz qaldı və evlərindən didərgin düşərək qaçıb gizlənməyə məcbur oldular. Bir çoxu ətrafdakı meşələrdə və cəngəlliklərdə sığınacaq tapsalar da, pis hava şəraiti və aclıqla üzləşdilər. Sentyabr ayına qədər bu təcavüz davam edərək bir qədər səngisə də, sonra ətraf əyalətlərə yayıldı. Amma buna baxmayaraq

kilsələr yandırıldı, pastorlar öldürülməklə hədələndilər və məsihçiləri hinduizmi qəbul etməyə məcbur etdilər.

Əyalətin on dörd bölgəsində, əsasən Kandhamal bölgəsi daxilində təxminən 92 təcavüz hadisəsi qeydə alındı. 4000-ə yaxın ev, 115 kilsə yandırıldı və ya məhv edildi. Ölənlərin sayına dair verilən məlumatlar fərqli olsa da, ümumilikdə 500-dən çox məsihçinin qətlə yetirildiyi zənn edilir. Ölənlərin çoxu Hindistanın kasta sisteminin ən aşağı təbəqəsindəki *dalitlər* və ya "toxunulmazlar" idi. Hindistan əhalisinn 60%-ni təşkil edən *dalitlər* Məsihə iman etmişdilər. Bu da onları Hindistanın ənənəvi dini və mədəni köklərini qorumaq istəyən hindu ekstremistləri üçün hədəfə çevirmişdi.

Orissadakı səlahiyyətli şəxslər və media təcavüzə əhəmiyyət vermədi. Bu hadisələri təşkil olunmuş bir hücum kimi görməkdən imtina etdi, halbuki Orissa əyalətində belə kütləvi təcavüz hadisəsi ikinci dəfə baş verirdi. Birinci dəfə belə bir təcavüz 2007-ci ilin dekabrında Fulbani bölgəsindəki Brahmaniqanda hindu radikalları tərəfindən baş vermişdi. Məsihçilər əvvəlcədən icazə alsalar da, hindu radikallar Milad mərasimi üçün tağlı keçid və çadır qurulmasına etiraz etmişdilər. Bundan sonra qiyam başlamış və on iki məsihçi qətlə yetirilmişdi. Bu zaman 2000-ə yaxın ev dağıdılmış, məsihçi dükanları talan olunub məhv edilmişdi. "Gospel for Asia" təşkilatının dörd kilsəsinə ziyan dəymişdi.

Məsihçilər Hindistanın ölkə əhalisinin yalnız 2,3 %-ni təşkil etsə də, Orissa əyalətində və ətrafında yaşayan məsihçilərə qarşı təcavüz hələ də davam edir. Təkcə məsihçilər təqib edilmir, eləcə də kilsələr və məsihçi təşkilatları talan edilir, dağıdılır və yandırılır. Bunların hamısı imanlıların ürəyinə qorxu salmaq məqsədi daşıyır.

Ancaq bütün bu qarşıdurmalara baxmayaraq cəsarət və ümid sarsılmaz qalır. "Gospel for Asia" təşkilatının təsisçisi Dr.K.P.Yohannan Orissa hücumları haqqında belə demişdi: "Bizi təqib edənlər üçün dua etməyə çağırılmışıq. Allahdan xahiş edirik ki, bu hücümları törədənlər belə zorakılıqla qarşı durduqları Rəbbi tanıyıb bağışlanma və həqiqi sülhü əldə etsinlər".

# Geyl Uilyams

(20 oktyabr 2008)

Həmin gün səhər Geyl böyük həvəslə işə gedirdi. Saat səkkizə az qalırdı. O hərdən təhlükəsizlik məqsədilə və fərqli yerləri görmək üçün yolunu dəyişirdi. Bu gün o həmin tanıdığı yolların biri ilə addımlayırdı. Əslində bu məsihçi qadın nəyinsə baş verəcəyini gözləmirdi. Kabil paytaxt olduğu üçün nisbətən təhlükəsiz bir şəhər idi. Geyl "SERVE Afghanistan" məsihçi xeyriyyə təşkilatında iki il yarım heç bir problem olmadan çalışmışdı. Qısa bir müddət ərzində o, ölkənin cənubundakı Qəndəhar şəhərində yaşamışdı. Lakin Taliban qiyamçılarının ora gəlməsi xəbərini eşidəndən sonra orada qalmaq təhlükəli olduğundan o, yenidən Kabilə köçmüşdü.

Onun çalışdığı təşkilat ölkədəki məsihçi humanitar təşkilatlarından biri idi. Geyl Allaha xidmət etməyi çox sevirdi. Onun Əfqanıstandakı kasıblara, köməksizlərə və təcrid olunmuş insanlara yardım etmək üçün ürəyində böyük istək var idi. Geyl əsasən əlillərin evlərində işləyir, onların sağlamlığını bərpa etməyə çalışırdı. Fiziki çatışmazlığı olan insanların təhsil alması və həyatda daha yaxşı imkanlar qazanması üçün o, layihələrə rəhbərlik edirdi. Bundan əlavə Geyl əlillik barədə maariflənmə aparır və əfqan işçilərinə fiziki çatışmazlığı olan xəstələrlə necə işləməyi öyrədirdi.

Geyl yolla gedərkən küçədə özünə tərəf gələn motosikletin gurultulusu onun diqqətini çəkdi. Çevrilib baxanda motosikletdə iki kişinin ona yaxınlaşdığını gördü. Onlar gözlərini Geylə zilləmişdilər. Birdən motosiklet onun qarşısında dayandı və kişilərdən biri tapançasını çıxarıb Geylə tuşladı və bir neçə dəfə atəş açdı. Güllələr onun bədəninə və ayağına dəydi və Geyl yerindəcə dünyasını dəyişdi.

Geyl məsihçiliyi təbliğ edən bir təşkilatda işlədiyi üçün Taliban onu hədəfə almışdı və qətlə görə məsuliyyəti açıq şəkildə öz üzərinə götürmüşdü. Lakin "SERVE Afghanistan" təşkilatı ölkədəki digər məsihçi humanitar təşkilatlar kimi əsasən təbliğlə deyil, yardım və xidmətlə məşğul olur. Geyl yəqin ki, Əfqanıstanda kiminsə dinini dəyişdirməyə cəhd etməyin qanunazidd olduğunu bilirdi. O, Əfqanıstan xalqının

ehtiyaclarına yardım etməklə onlara Məsihin sevgisini maddi və əməli şəkildə göstərməyə gəlmişdi. Bu məsihçi qadın İsanın sevgisini sözlərlə deyil, öz əməlləri ilə göstərmişdi.

Humanitar yardım işçisi olan otuz dörd yaşlı ingilis Geyl gənc yaşlarından əlillərlə işləmək həvəsini inkişaf etdirmişdi. O, “SERVE Afghanistan” məsihçi xeyriyyə təşkilatına könüllü qoşulmuşdu. Geyl həm Britaniyada, həm də Cənubi Afrikada (ikili vətəndaşlıqla) məktəbə getdikdən sonra idman üzrə elmi dərəcə almış, fitness təlimatçısı kimi ixtisaslaşmış və Londonda xüsusi ehtiyacı olan şagirdlərlə işləmişdi. Geyl əlillərlə işləmək üçün yaxşı xidmətçi və çox fəal atletik bir insan idi. Həyatı, təhsili və maraqları hamısı onun xidmətə olan həvəsi ilə uyğunlaşırdı. Ölümündən sonra anası onun haqqında demişdi: “Geyl sevdiyi bir xalqa qulluq edirdi və belə bir vaxtda orada olmağı Allahın bir çağırışı kimi qəlbində duymuşdu. O, xeyir-dualı bir həyat yaşadı. Biz bilirik ki, o, ətrafında olan insanlar üçün bir bəxşiş idi. Bu xidməti Allah onun ürəyinə qoymuşdu və o bu işləri yerinə yetirərkən dünyasını dəyişdi. Biz əminik ki, indi o, Məsihin yanındadır”.

Bundan sonra mən gördüm ki,
hər millətdən, hər tayfadan,
hər xalqdan və hər dildən olan,
heç kəsin saya bilməyəcəyi böyük
bir kütlə taxtın və Quzunun önündə
dayanıb. Onlar ağ xalat geyinib,
əllərində xurma budaqları tutublar.

**Vəhy 7:9**

# Dora Lilia və Ferli Saavedra

## (18 noyabr 2008)

Kolumbiyanın Santana Ramos kəndindəki bir otaqlı məktəbə gələn uşaqların sayı az olsa da, onlar müəllimləri Doranı çox sevirdilər. Dora müəllim hər gün şagirdləri ilə birlikdə dua edir və onlara İsa haqqında danışırdı. O, bəzən heç bir müəllimin olmadığı uzaq kəndlərə saatlarla yol gedib oradakı uşaqlara dərs keçirdi. Dora uşaqlarla olmağı çox xoşlayırdı və yaxşı bir müəllim idi. Ancaq bir gün hərbi geyimli və silahlı iki nəfər kənd məktəbinə daxil oldu və uşaqlara oradan çıxıb getməyi əmr etdi.

Onlar uşaqlara kobudcasına dedilər: "Bu gün daha dərs olmayacaq. Evə gedin, sabah qayıdarsınız".

Uşaqlar cəld əşyalarını yığdılar və nə baş verəcəyini bilmədən məktəbdən çıxıb getdilər.

Məktəbdə dərs keçən Dora və əri Ferli nə baş verəcəyini bilirdilər və ona hazır idilər. Bu silahlılar təhdidlər və təcavüzlər ilə xarakterizə olunan marksist hərəkatın, Kolumbiya İnqilabi Silahlı Qüvvələrinin (*FARK*) partizan əsgərləri idi. Bu hərəkat neçə illər idi ki, xüsusilə məsihçiləri hədəfə alaraq kolumbiyalıları qorxuya salmışdı. Onlar deyirdilər: "Məsihçilər təhlükəlidir. Onlar yalan danışa bilməzlər. Əgər ordu onlardan bizim haqqımızda soruşsa, həqiqəti deyəcəklər!" Məsihçilər partizanların zorakılığına qarşı idilər, bu isə təcavüzkarların xoşuna gəlmirdi. Partizan ömrü qısa olduğundan onlar gənc üzvlər toplayırdılar və kiminsə onların qarşısında durmasını və ya işlərinə əngəl törətməsini istəmirdilər. Dora və Ferli uşaqlara dərs keçdikləri üçün partizanların yolunda maneə yaradırdılar. Uşaqlar İsaya qəlblərini verib Onun sevgisini dərk edəndən sonra partizan dəstəsinə qoşulmayacaqdılar.

Dora dərs keçmək üçün Santana Ramosa qayıdanda təhlükələrdən yaxşı agah idi. Kənd təsərrüfatı ilə məşğul olan bu yoxsul kənd Doranın öz ana yurdu idi. Santana Ramos kəndi *FARK*-ın partizanları ilə Kolumbiya hökuməti arasında baş verən qarşıdurmalar ilə tanınmışdı. Doranın



*Dora Lilia və Ferli Saavedra Kolumbiyada güllələnərək qətlə yetirildilər.*

müəllimliyə böyük həvəsi var idi və İsanın nurunu ora gətirəcəyinə ümid edirdi. Cütlük həm uşaqlara dərs keçir, həm də Müjdəni yayırdılar və buna görə də həyatlarını təhlükə altına atmışdılar. Qonşusu Doraya cütlüyün ertəsi gün öldürüləcəyi barədə xəbərdarlıq edib kənddən uzaqlaşmalarını məsləhət görmüşdü. Amma Dora ailəsini götürüb kənddən qaçmağı ağlına belə gətirməmişdi.

Qonşunun sözlərindən qorxuya düşmək əvəzinə onun ürəyinə rahatlıq gəlmişdi. Bir az əvvəl bu adam Doraya qardaşının öldürüləcəyini söyləmişdi. İndi isə qonşu öz ifadəsini düzəldərək demişdi: "Səhv etmişəm. Sabah qardaşını deyil... ərini və səni öldürmək istəyirlər".

Dora cavabında ona demişdi: "Bu daha yaxşıdır, çünki qardaşım Rəbb ilə görüşməyə hazır deyil. Ancaq ərim və mən hazırıq".

Dora ürəyində qorxuya yer vermədi, əksinə o gün ailəsi ilə birgə ruhani vaxt keçirdi. Həmin axşam cütlük uşaqları ilə birgə Kəlamdan oxuyub dua etdilər.

Dora böyük qızına dedi: "Anan ola bilsin ki, sabah daha çox yatsın".

Uşaqlar yataqlarına uzandıqdan sonra cütlük gecənin çox hissəsini dua edib oruc tutdu. Onlar İsanın Atası ilə Getsemani bağında "Mənim yox, Sənin iradən olsun" (Luka 22:42) duasını xatırladılar. Səhər açılanda Dora və Ferli həm özlərinin, həm də övladlarının həyatının Rəbbin əlində olduğunu bilərək həmişəki kimi məktəbə yollandılar.

Partizanlar şagirdləri yola saldıqdan sonra cütlüyə öz uşaqları ilə vidalaşmağı söylədilər. Sonra daha bir neçə partizan içəri girdi və taxta döşəmənin üzərində ağır yerişlə onlara yaxınlaşdılar. Silahlılardan biri Dora və Ferlinin böyük övladları olan Marsellaya işarə edərək qışqırdı: "Biz əvvəlcə onu öldürəcəyik!"

Dora qızını həmin partizandan qorumaq üçün özünü qabağa verərək yalvardı: "Xahiş edirəm, onu öldürməyin. Siz məni istəyirdiniz. Bu da mən. Qoy o burada qalsın, məni aparın".

Uşaqlar arxada ağlaya-ağlaya qaldılar. Dora və Ferlini isə məktəbdən çıxarıb tarladan keçirərək təxminən 300 metr aralıdakı bir çaya tərəf apardılar. Partizanlar cütlüyə üzüstə yerə uzanmağı əmr etdilər və sonra hər birini güllələyərək öldürdülər.

Dora və Ferli hər gün Məsihin sevgisini insanlara göstərmişdilər. Həyatları o qədər təsirli idi ki, ölümlərindən bir neçə ay sonra on iki yaşlı

qızları Marsella belə demişdi: “Valideynlərimi öldürən adamları görsəydim, onları bağışlayardım. Bunun çətin olacağını yaxşı başa düşürəm, amma bilirəm ki, Allah onları bağışlayır. Deməli mən də bağışlamalıyam”. Ata-anasının qoyduğu nümunə ilə bu qız nifrət və kin əvəzinə sevməyi və bağışlamağı öyrəndi. Yəqin ki, başqa uşaqlar da belə edəcəkdilər. İki müəllim öz həyatını təhlükəyə ataraq Məsihin məhəbbətini və həqiqətini böyük ehtiyac olan yerə gətirmişdilər. Yəqin ki, onların şagirdləri də müəllimlərindən aldıqları həmin sevgini başqaları ilə paylaşacaqdılar.

Ümidinizlə sevinin. Əziyyətdə dözümlü olun. Dayanmadan dua edin. Sizi təqib edənlərə xeyir-dua verin; lənət yox, xeyir-dua verin.

**Romalılara 12:12, 14**

# Fatimə Əl-Muteyri

## (Dekabr 2008)

Fatiməni otağına salıb qapısını arxadan kilidləmişdilər. İyirmi altı yaşlı bir qız artıq uşaq olmasa da, qardaşı onu “itaətsizliyinə” görə cəzalandırmaq üçün otağa salmışdı. Gənc qız Məsihi qəbul etməsi barədə ailəsinə yenicə xəbər vermişdi. Bunun ölümlə nəticələnəcəyini bilsə də, Fatimə qərarında möhkəm durub imanını gizli saxlamadı. Ümumiyyətlə, onun yaşadığı Səudiyyə Ərəbistanında müsəlmanının öz imanından imtina etməsi edam cəzasına bərabər idi. Fatimə yataq otağına qayıdanda qardaşının onun kompüterinin qarşısında oturduğunu gördü. Gənc qız orada gündəliyində imana gəlməsindən və yeni ruhani həyatından yazmışdı. Fatimənin yeni imanını sübut etmək üçün qardaşı ona qarşı bir dəlil axtarırdı. Qardaşı həm din xadimi, həm də şəriət qaydalarının icrasına nəzarət edən komitənin[1]üzvü idi. Fatimə onun öz doğma bacısı olsa da, o sadəcə öz vəzifə borcunu yerinə yetirdiyini iddia edə bilərdi. Bacısı haqqında bu yeni xəbəri eşidərək əsəbiləşmiş qardaşı Fatiməni otağında tək qoyub qapısını kilidlədi.

Fatimə bu otaqda nə qədər qalacağını və başına nə gələcəyini bilmirdi. Amma vaxtının məhdud olduğundan ağah idi. O öz səsini eşitdirə biləcəyi bir yerə, kompüterinə doğru getdi. Onun başqa imanlılar ilə ünsiyyətinin çoxu internet forumlarında var idi. Burada Fatimə Məsihin həqiqətlərini öyrənərək ruhani qida əldə edirdi. Sərt və ənənəvi bir müsəlman bölgəsindən olmasına baxmayaraq o öz ölkəsini və xalqını sevirdi. Fatimə həyatını işıqlandıran həmin Nurun Səudiyyə Ərəbistanına da şəfəq saçmasını istəyirdi. Ölənə qədər Məsihin həqiqətini qəlbində gizli saxlamaq əvəzinə, o bunu kompüterində başqaları ilə bölüşdü. O, Zəbur 27:1-ci ayə barədə düşündü: “Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum? Rəbdir ömrümün qalası, mən kimdən vahimələnim?” Fatimə son məktubunu yazarkən bu sözlərdən təsəlli tapdı. Daha sonra bir şeir yazdı və internetdə paylaşdı.

---

[1] Səudiyyə Ərəbistanında dini qaydaların təşviqi və onların pozulmasının qarşısının alınması üzrə komitə

Fatimə belə yazmışdı: "Rəbb İsa sizə rəhbərlik etsin, ey müsəlmanlar! Qoy Rəbb başqalarını sevə bilməyiniz üçün qəlblərinizi işıqlandırsın". Fatimə cəsarətlə İsa Məsihi peyğəmbərlərin Əfəndisi[2], Aydın Həqiqət və Aləmlərin Rəbbi[3]adlandırdı. O, Səudiyyə məsihçilərinin vətənlərinə olan məhəbbətini və bu ölkənin vətəndaşı olduqlarına görə qürur duyduqlarını təsvir etdi. Fatimə ölkəsindəki məsihçilərə qarşı olan qəddar rəftara görə öz kədərini dilə gətirdi.

*"Ah, məsihçilər üçün ürəyim necə kədərlidir,*
*yanağımdan göz yaşları süzülür.*
*Axı niyə siz məsihçilərə qarşı qəddarsınız!*
*Məsih deyir: 'Nə bəxtiyardır...təqib olunanlar!'*
*Biz Məsih naminə hər şeyə dözürük.*
*Bizim kafir olmağımızın sizə nə dəxli var?*
*Sanki bizimlə birlikdə dəfn olunurmuş kimi qəbirlərimizə girmirsiniz ki.*
*Yetər! Nə sizin qılınclarınız, nə pisliyiniz, nə də rüsvayçılığınız məni narahat etmir.*
*Təhdidləriniz məni təşvişə salmır və biz qorxmuruq.*
*And olsun Allaha, mən ölənəcən məsihçi olacağam, bu həqiqi sözümdür ...*
*Biz məsihçiyik, Məsihin yolunda addımlayırıq.*
*Bu sözümə yaxşıca diqqət yetirin.*
*İsa mənim Rəbbimdir və O ən yaxşı Müdafiəçidir.*
*Tövsiyə edirəm ki, özünüzə yazığınız gəlsin, yas içində əllərinizi çırpın.*
*Öz çirkin nifrət dolu baxışlarınıza nəzər salın.*
*Ey oxumuşlar, insan insana qardaşdır.*
*Bəs insanlıq, sevgi haradadır, deyin siz haradasınız?"*

Nəhayət, Fatimə kompüterinin qarşısında oturub şeirinin son sözlərini yazdı və müsəlman həmyerlilərindən xahiş etdi ki, qəlblərini Məsihə versinlər.

---

2 İslamda Məhəmməd üçün təyin edilmiş bir ad

3 Ərəb dilində *Rəbbul aləmin* ifadəsidir və islamda Allah üçün təyin olunan termindir.

*"Son sözlərimə gəldikdə isə ey müsəlmanlar,*
*Aləmlərin Rəbbinə, Aydın Haqq yolunun Nuruna,*
*İsa Məsihə dua edirəm ki, baxışlarınızı dəyişdirsin,*
*ədalət tərəzisini düzəltsin və aranızda Sevgisini yaysın*".

Fatimənin qardaşı onu dörd saat otağında qapalı saxladı. Sonra bu gənc qız İsa Məsihə iman etdiyinə görə öldürüldü. Ölüm qarşısında onun göstərdiyi şücaət və paylaşdığı sözlər dünyanın hər yerində imanlılar üçün bir şəhadətlik olacaq və onları ruhlandıracaq.

Onlar daşqalaq edildilər, mişarlanıb bölündülər, qılıncdan keçirilib öldürüldülər. Bəziləri isə qoyun dərisinə və keçi gönünə bürünərək gəzib-dolaşdılar, yoxsulluğa, əzab-əziyyətə məruz qaldılar. Dünya onlara layiq deyildi. Onlar səhralarda, dağlarda, mağaralarda və yeraltı oyuqlarda dolaşıb gəzdilər.

**İbranilərə 11:37–38**

# Nepalda kilsədə partlayış

(23 may 2009)

Nepalın Katmandu şəhərində ibadətə gələn camaat öz yerlərini rahatlayarkən səhərin günəş şüaları kilsə pəncərələrindən içəri süzülürdü. Gözəl bəzədilmiş kilsədə təxminən 250—300 nəfər insan ibadət edə bilirdi. Həmin səhər imanlılar dua edib Allahın Kəlamını dinləmək, ünsiyyət qurmaq və ruhlanmaq üçün toplaşmışdılar. Pastor kafedraya çıxıb vəz etdi və sonra imanlılar başlarını aşağı salaraq dua etməyə başladılar.

Bir qadın üzündə ciddi ifadə olan gənc oğlanla birgə klsənin arxa qapısından içəri girdi. Qadın əlində böyük bir qara çanta ilə sakitcə gəlib kilsə üzvlərinin yanında əyləşdi. O, əl çantasını yanındakı oturacağın üstünə qoyub pastora baxaraq hərdənbir ətrafa boylanırdı. Bir neçə dəqiqədən sonra yanında oturan orta yaşlı cütlüyə tərəf dönüb soruşdu:

— Ayaqyolu haradadır?

Cütlük ona cavab verdi:

— Arxa qapının yanında.

Qadın oturacağın üstünə qoyduğu əl çantasını götürmədən ayağa qalxdı və cəld gənc oğlan ilə birlikdə binadan çıxdı. Kilsə adamlarından bəziləri çantaya maraqla baxdılar. Digərləri isə heç nə düşünmədən başlarını aşağı salaraq gözlərini yumub sakitcə dualarına davam etdilər.

Bir neçə dəqiqədən sonra bomba partlayaraq zalı lərzəyə gətirdi. Partlayışdan kilsənin şüşələri sındı və ibadət edənlər oturacaqlarından kənara atıldı. Qəlpələr havada uçaraq insanların bədənlərinə girib onları yaraladı. Kilsəni alov və tüstü bürüdü. Qadınlar qışqırır, uşaqlarsa ağlayırdılar. Camaat çıxış qapısını tapmaq üçün ora-bura qaçdıqca bir anın içində kilsənin dinc mühiti qarmaqarışıqlığa çevrildi. Bir neçə yaralı insan qan gölməçəsində uzanıb qalmışdı. On beş yaşlı Seleste Cozefin cansız cəsədi də onların arasında idi. Qız partlayış nəticəsində yerindəcə həyatını itirmişdi. Anası Buddha Laxmi Cozef də az sonra qanitirmədən öldü. Ailəsini ziyarət etmək üçün Hindistandan Nepala gələn yenicə ərə getmiş otuz yaşlı Dipa Patrik xəstəxanaya aparılarkən yolda dünyasını dəyişdi. Polis və təcili yardım maşınları hadisə yerinə gəldikdə, ikinci bir

bomba aşkar edilərək zərərsizləşdirildi. Hər yerə səpələnmiş qəlpələr və dağıntılar arasında Nepal Müdafiə Ordusu (NMO) adlı ekstremist hindu təşkilatının bir neçə yaşıl kitabçaları var idi. Bu təşkilatın rəhbəri bomba partlayışından bir gün sonra Nepalda yerləşən Protestant İmanlıları Kilsəsinin yepiskopu Narayan Şarmaya zəng etdi. Yepiskopla danışığında rəhbər günahsız insanların ölümünə kədərləndiyini dilə gətirsə də, təşkilatının hinduizmi dövlət dini olaraq bərpa etmək istədiyini bildirdi.

Nepalın əhalisinin əksəriyyəti hindu olmasına baxmayaraq ölkə respublika sistemini üstün tutaraq bir əsr davam edən hindu monarxiyasını ləğv etdi. 2006-cı ildə Nepal dünyəvi bir dövlət kimi hakimiyyət tərəfindən elan olundu. Nepaldakı məsihçilər (və hətta müsəlmanlar) iki əsas təriqətin təqibinə məruz qaldılar. Onlardan biri keçmişdəki monarxiya hökumətini bərpa etmək və ya Nepalı bütünlüklə hindu dövlətinə qaytarmaq istəyən ekstremist hindu qrupları idi. İkincisi isə ateist kommunist rejimini tətbiq etmək istəyən maoist qrupları idi. Məsihçiliyi qəbul edən hindular dinlərindən döndüklərinə və hindu dini mərasimlərində iştirak etmədiklərinə görə ailələri və ya öz kəndliləri tərəfindən hədələnib pis rəftarla üzləşə bilərdilər.

Amma Nepaldakı az sayda olan məsihçilər təqib və ölümdən qorxmayaraq imanda böyüməkdə davam edirlər. Onlar Məsihin məhəbbətinin və sülhünün təcavüzkarların nifrətinə və zorakılığına qalib gələcəyinə inanırlar. Partlayışdan bir həftə sonra təşkil edilmiş ümummilli sülh mitinqi keçirildi. Partlayış günü həmin kilsədə ibadətə rəhbərlik etmiş pastor Silas Boqati öz çıxışında dedi: “Biz həmrəyliyimizi və dini tolerantlığımızı göstərmək üçün dua edirik ... Bəzi silahlı qruplar Nepalda dini ahəngi pozmağa çalışsalar da, işlərində heç vaxt uğur qazanmayacaqlar”.



*Müsəlmanlardan ibarət izdiham Qocradakı məsihçilərə hücum etdi.*

# Qocra Hücumu

## (İyul/Avqust 2009)

2009-cu ilin avqustun 1-də qadağan edilmiş terror qruplarının üzvləri də daxil olmaqla minlərlə müsəlman supremasistlər[4] Pakistanın şimal-şərqindəki Qocra şəhərində nümayiş keçirdilər. Onlar məsihçiləri Quranı təhqir etməkdə günahlandırdılar. Müsəlmanlar əllərində dəyənəklər, odlu silahlar, daşlar, kərpiclər və alışdırıcı maddələrlə bir məsihçi məhəlləsinə axışıb sakinlərə hücum etdilər. Etiraz nümayişi qiyama çevrildi. Müsəlmanlar məsihçilərin evlərini və əmlaklarını qarət edib yandırdılar. Bir kilsə binasına od vurub külə döndərdilər. Üsyançılar yanğınsöndürmə dəstəsinin qarşısını kəsmək üçün əsas yolları və dəmir yollarını mühasirəyə aldılar. Yerli məscidlərin rəhbərləri səsgücləndiricilər vasitəsilə camata müraciət etdilər: "Ey, Məhəmmədi və islamı sevənlər dinimiz təhlükədə olduğu üçün onun müdafiəsi uğrunda bir yerə toplaşın".

Qiyam getdikcə artdı. Evlər yandırılarkən qadınlar və uşaqlar yaralandı, lakin yollar bağlı olduğundan təcili tibbi yardım almaq üçün bir çoxlarını xəstəxanalara çatdırmaq mümkün olmadı. Bu qiyamın nəticəsində yüzə yaxın ev talan edildi, əlli ev yandırıldı, bir kilsə dağıdıldı, on dörd nəfər həyatını itirdi və on doqquz nəfər yaralandı. Hücumlardan əvvəl polis təhlükəsizlik tədbirləri görsə də, onun təsiri az oldu. Sağ qalan məsihçilər etiraz olaraq mərhumların cəsədlərini dəmir yolu boyunca düzdülər. Nəhayət, hakimiyyət cinayətkarlara qarşı rəsmi akt tərtib etdi.

Bundan bir neçə gün əvvəl iyulun 30-da Qocradan on bir kilometr aralıda yerləşən Korian kəndi də hücuma məruz qalmışdı. Kəndin məsihçi sakinlərinin əksəriyyəti təhlükəsiz yerlərə qaçmışdılar. Kənddə altmış ev talan edilib yandırılmışdı.

Korian və Qocraya edilən hücumlar iyulun 25-də baş verən bir hadisədən qaynaqlanırdı. Deyilənlərə görə, adət-ənənəyə uyğun olaraq bir məsihçinin toyunda qonaqlar dəmir və kağız pulları uşaqlar üçün havaya atmışdılar. Toydan musiqi, gülüş və şənlik səsləri ətrafa yayılmışdı. Həmin vaxt yaxınlıqda bir müsəlmanın dəfn mərasimi keçirilirdi və görünür

[4] müsəlmanların başqalarından daha üstün olduğunu düşünənlər

ki, toydan gələn səs-küy dəfn mərasiminə mane olmuşdu. Ertəsi gün bəzi müsəlmanlar gəlnin valideynlərinin yanına gəlib iddia etmişdilər ki, oğulları Qurandan vərəqlər kəsib çıxararaq toyda pul kimi havaya tullayıb. (Deyilənlərə görə bəlkə də uşaqlar səhifələrində Quran ayələri olduğunu bilmədən köhnə məktəb kitabından vərəqlər kəsib çıxarmışdılar.) Gəlnin atası Talib Masih müsəlmanları əmin edibmiş ki, belə bir hadisə baş verməyib. Əgər oğulları belə bir təhqiramiz hərəkət edibsə, üzr istəyəcəklərini onlara söz vermişdi. Daha sonra müsəlmanlar kişinin üstünə hücum edib onu huşsuz hala salana qədər döymüşdülər. Bir neçə gün sonra müsəlman din xadimləri "kafir məsihçiləri" Qurani-Kərimə küfr etməkdə günahlandırmışdılar və səsgücləndiricilərlə onlara xəbərdarlıq etmişdilər. Məsihçilərdən kim ölmək istəmirdisə, həmin bölgəni tərk etməli idi. Bundan sonra Korian və Qocra hücumları başlanmışdı. Bu hücumlar Pakistanda məsihçilərə qarşı olan ən pis təqiblərdən biri idi.

Əksəriyyəti müsəlman olan 175 milyonluq Pakistanda məsihçilər ümumi əhalinin 5%-ni təşkil edir. Pakistanın anqlikan kilsəsinin mərkəzi Pəncab əyalətindəki Qocra şəhərində yerləşir. Ölkədəki məsihçilərin əksəriyyəti bu əyalətdə yaşayır. Bura həm də Taliban və Əl-Qaidə ilə əlaqəsi olan qırxa yaxın silahlı islamçı qruplaşmaların yeridir. Ölkədə eləcə də köhnəlmiş küfr qanunları mövcuddur. Müsəlmanlar da bu qanunlardan məsihçilərə qarşı öz təcavüzkar niyyətlərini həyata keçirmək üçün dəfələrlə sui-istifadə edirlər.

Rəbb İsa uğrunda hər gün ölümlə üzləşən məsihçinin imanı heyrətamiz bir imandır. İsa dedi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin" (Matta 16:24). Pakistanlı məsihçilər bu tapşırığı sözün əsl mənasında ölümə qədər yerinə yetirirlər. Onlar Xilaskarın adını ucaltmaq və məsihçi adını daşımaq uğrunda həyatlarını itirirlər. "Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənə görə canını itirirsə, onu qoruyacaq" (Matta 16:25).

# Manuel Kamaço

## (21 sentyabr 2009)

Manuel, həyat yoldaşı və uşaqları *FARK* partizanlarının cəngəllikdən çıxıb onların evlərinə doğru gəldiyini gördülər. Pastor Manuel güman edirdi ki, silahlılar orada kilsənin açılması barədə xahişini müzakirə etməyə gəlirlər. O, təxminən doqquz il Kolumbiyanın San Xose del Quavyare bölgəsindəki ucqar Çopal kəndində insanlara xidmət etmişdi. Amma bu illər ərzində *FARK* bir neçə kilsəni bağlamış və pastor Manueli hədələmişdi. Pastor ümid edirdi ki, bu dəfə rəsmi kilsəni idarə etmək üçün onlardan icazə ala biləcək.

Manuel bilirdi ki, *FARK* Kolumbiyanın bəzi yerlərində kilsələrin fəaliyyətinə icazə versə də, onların nəzarəti altında olan əksər bölgələrdə məsihçilər təqiblər, hədə-qorxular, vandalizm, döyülmə və hətta ölümlə üzləşirlər. 1960-cı illərdən bəri *FARK* Kolumbiya hökumətinə qarşı inqilab edirdi və məsihçilik onun təcavüzkar siyasi rejimi üçün təhlükə yaradırdı.

Bütün bunlara baxmayaraq pastor Manuel bilirdi ki, *FARK* partizanları da daxil olmaqla Kolumbiya xalqı üçün Allah ondan istifadə edir. Beş ay əvvəl müjdəçilik tədbirində üç partizan və yeddi hərbi milis işçisi Məsihə iman etmişdi və bu işdə pastor böyük rol oynamışdı. O, hətta ən daşlaşmış ürəklərdə belə Allahın möcüzələr göstərə biləcəyinə inanırdı. Pastor ümid edirdi ki, partizanlarla bu görüşdən Rəbb Öz məqsədi üçün istifadə edəcək.

*FARK*-ın partizanları həmişə silahla gəzirdilər. Manuel onlarla danışmaq üçün çölə çıxanda ailəsi həyəcanla onun ardınca baxırdı. Partizanlardan biri evə tərəf addımlayanda Qloriya narahat olmağa başladı. Tezliklə partizan onun və qızının olduğu otağa girdi. Bu adam onunla söhbət etmək üçün əyləşəndə qadın çaşqınlığa düşdü və birdən bayırdan atəş səsləri ətrafa yayıldı. Qadın dərhal vəziyyəti anladı. Partizanlar bu adamı ona görə göndərmişdilər ki, Manueli öldürərkən arvadı və qızı onlara mane olmasın.

Qloriya beş atəş səsini eşidəndə ürəyi bu dəhşətdən parçalandı və çölə nəzər salarkən ərinin boynunun qıpqırmızı olduğunu gördü. Beşinci atəşdən sonra evdəki əsgər “Köpəyin öldüyünə əmin olun!”

deyərək onlara səsləndi. Sonra altıncı atəş səsi gəldi və sükut çökdü. Qloriyanın gözlərindən damla-damla göz yaşları axırdı və bu qorxunc hadisədən bütün bədəni titrəyirdi. Nəhayət, evdəki partizan çölə çıxdı və yoldaşlarına qoşulub getdi.

Həmin əsgər ətrafdakılara dedi: "Bu da müjdəçinin sonu. Bizə qarşı çıxan hər kəsin taleyi belə olacaq. Onun fikirləri bizimki ilə uyğunlaşmadığı üçün onu öldürdük". Bu xəbərdarlıq sözləri ilə kişilər oradan çıxıb getdilər.

Qloriya çölə qaçdı və ərinin cəsədinin qarşısında diz çökdü. Onu üzündən və boynundan güllələmişdilər. Əski ilə ərinin üzünü qandan təmizləməyə başladı. Övladlarının köməyi ilə cəsədini yolun ortasından götürüb sürüyərək bir ağacın kölgəsinin altına gətirdi. Ətrafa yığışmış adamları görəndə Qloriya evə qaçıb Müqəddəs Kitabı götürdü və ağlaya-ağlaya geri döndü. Özünü bir az toplayıb oraya toplaşmış insanlara Yəhyanın Müjdəsindən oxudu. O, Manuelin ölümündən qorxub sarsılmadı, əksinə imanda möhkəmlənərək ərinin işini davam etdirdi.

Qloriya belə dedi: "Bu, ərimin inandığı həqiqətdir. O heç bir səhv iş görməmişdi, amma imanı uğrunda həmişə canını verməyə hazır idi. Bu gün buradakı döyüşdə şeytan deyil, Allah qalib gəldi".

Anasının kədər içində oturduğunu görən Qloriyanın on yaşlı oğlu ona dedi: "Ana, narahat olma. Atam Məsih üçün şəhid oldu və indi Məsihin yanındadır. Mən də böyüyəndə atam kimi pastor olacağam".

Pastor Manuel ailəsi üçün imanını miras olaraq qoyub getdi, indi onlar məhəbbətdə bu irsi davam etdirirlər. Kolumbiyada məsihçilər hər gün ölümlə üzləşsələr də, Manuel Kamaço kimi insanların fədakarlıq nümunəsindən öyrənərək imanda möhkəm dayanır, ruhlanır və güclənirlər.

# Məryəm Muhina Hüseyn

(28 sentyabr 2009)

Məryəm bazar günü günorta bantu qəbiləsindən olan yerlisinə Müqəddəs Kitabdan oxuyurdu. O qadın məsihçilik haqqında daha çox öyrənmək məqsədilə Somalinin Marerey kəndinə, Məryəmin evinə gəlmişdi. Qırx altı yaşlı Məryəm başqalarına İsa haqqında danışıb Allahın Kəlamını paylaşmağı çox sevirdi. O, evində bir neçə Müqəddəs Kitab gizlətmişdi. Belə imkanlar yarananda onları insanlara verirdi. Məryəm Allahın məhəbbəti və lütfü barədə danışmaq üçün ona verilən fürsətə görə minnətdar idi.

O, qonağının yaxşı başa düşməsi üçün Müqəddəs Kitabda etdiyi qeydləri və şərhləri oxudu. Qadın isə bu vaxt sakitcə ona qulaq asır və kitabdakı sözləri nəzərdən keçirirdi. Vaxt tez ötüb keçdi və getmək vaxtı gələndə qadın əli ilə Müqəddəs Kitaba toxunub ayağa qalxdı. O, Məryəmdən soruşdu:

— Bunu özümlə apara bilərəm?

Məryəmin üzündəki təbəssümü itdi və tərəddüd içində dedi:

— Üzr istəyirəm, axı bu sizin üçün təhlükəli ola bilər. Amma istəsəniz, Kəlamı oxumaq və müzakirə etmək üçün yanıma gələ bilərsiniz.

— Onda tezliklə mən yenə gələcəyəm.

Sonra qadın sağollaşıb getdi.

Ertəsi gün günorta Məryəmin qapısı döyüldü. Qapını açanda orada bir neçə kişinin dayandığını gördü. Onlardan biri özünü Şeyx Ərböv kimi təqdim etdi və bir gün əvvəl təşrif buyurmuş qadının əri olduğunu bildirdi. Onun Müqəddəs Kitabdan hansısa sualı var idi və Məryəmin ona kömək edəcəyinə ümid edirdi. Məryəm onları evə dəvət etdi və Müqəddəs Kitablarından birini götürmək üçün otağa keçdi. O, kitabı gətirib Ərbövə uzadanda kişinin üzündə qəzəbli bir ifadə yarandı. Kişi sərt baxışlarla Məryəmə gözlərini dikəndə saxta dostluq siması bir andaca əriyib getdi.

Şeyx Ərböv dedi: “Biz islam dinini murdarlayan məsihçiləri axtarırıq. Evində başqa Müqəddəs Kitabların da olduğunu bilirik. Get onları gətir!”

Məryəmin ürəyi çox şiddətlə döyünməyə başladı. O, kitabları gətirməli idi, çünki başqa seçimi yox idi. Məryəm bilirdi ki, bu onun həyatı bahasına

başa gələ bilər. Ona görə də onların dediyi kimi etdi. Bu kişilər Əş-Şəbab adlı silahlı islamçı qruplaşmasının üzvləri idi. Bir neçə həftə əvvəl onlar Somalidə tanınmış məsihçi rəhbər olan altmış doqquz yaşlı Ömər Xələfəni öldürmüşdülər. Onlar həm də bir çox Somali məsihçilərinin qətlinə cavabdeh idilər. Əş-Şəbab Somalinin mərkəzi və cənub bölgələrinin böyük ərazilərinə nəzarət edir və Moqadişoda Müvəqqəti Federal Hökumətə qarşı işləyir. Onlar Somalinin hər yerində islam qanunlarının tətbiq edilməsinə çalışırlar. Silahlı qruplaşma Müjdəni, xüsusilə də müsəlmanlara bölüşməyi qəti qadağan edir. Məsihçilərin çoxu həyatlarını qorumaq üçün qaçaraq qonşu Keniyada sığınacaq tapırlar.

Məryəm Hüseyn kişilərin qarşısında cəsarətlə durdu. O, Müqəddəs Kitabların altısını da Ərbövə verdi. Ərböv gizlətdiyi silahı çıxarıb Məryəmə tərəf tuşladı. Üç dəfə atəş açaraq onun həyatına son qoydu.

Müqəddəs Kitabları ələ keçirib Məryəmin həyatına son qoyulsa da, Allahın Kəlamı Somalidə yayılmaqda davam edəcək. Yeşaya 55:10–11-də deyilir: “Yağış və qar necə göylərdən yağıb oraya qayıtmırsa, ancaq torpağı sulayıb yeri məhsuldar edirsə, əkinçiyə toxum, yeyənə çörək verirsə, ağzımdan çıxan kəlmə də belədir: Boş yerə yanıma qayıtmaz, ancaq istədiyimi yerinə yetirər, onu göndərdiyim iş icra olunsun deyə həyata keçirər”. Təqiblər, zorakılıqlar və müharibənin acı fəsadları olan Somalidə Məryəm sona qədər həqiqətə sadiq qaldı. Onun tökülən qanı sanki quraq torpağa su kimi töküldü. Beləcə torpaq canlanacaq, bir vaxtlar quru və daşlaşmış qəlblərdə çiçəklər boy atacaq.

# Naq-Hammadi Hücumu

## (6 yanvar 2010)

Misirin Naq-Hammadi şəhərində "Müqəddəs Yəhyanın Kopt Pravoslav Kilsəsi" yerləşir. Koptlar Misirdə ilk məsihçilərin nəslindən hesab olunurlar. O gün Milad ərəfəsində keçirilən ibadət öz vaxtından əvvəl səhər 11:00 radələrində qurtardı. Yepiskop Kirilosun məqsədi kilsənin təhlükəsizliyini təmin etmək idi. Kilsəyə gələnlərin bəzilərinə hədələyici zənglər edilmişdi. Onlara deyilmişdi ki, guya bir məsihçi oğlan bir gənc müsəlman qadına qarşı cinayət törədib. Ona görə də qisas almaq üçün müsəlmanlar Milad ərəfəsində kilsəyə hücum edəcəklərini bildirmişdilər. Yepiskop hədələyici telefon danışıqları barədə polisə xəbərdarlıq etmişdi. Lakin polis ibadətin təhlükəsizliyi üçün heç bir tədbir görməmişdi. Yepiskop Kirilos təhdidlərin hansısa bir şəkildə həyata keçiriləcəyini gözləyirdi və bunun baş verməməsi üçün imanla dua edirdi.

Beləliklə, o, toplaşanların evə sağ-salamat gedib çıxması və hər hansı bir təhlükədən uzaqlaşması üçün ibadəti tez bitirdi. Yanvarın 6-sı saat səhər 11:00 radələrində camaat kilsədən çıxmağa başladı. Birdən yoldan keçən bir maşın sürətini azaltdı və içərisindəki adamlar pəncərədən bayıra avtomat silahlarını tuşlayıb kilsə camaatına güllələr yağdırdılar. Nəticədə, yeddi məsihçi həyatını itirdi və doqquz nəfər isə yaralandı. Daha sonra silahlı şəxslər digər kopt məsihçilərə və bir monastıra atəş açaraq şəhərin başqa bölgələrində öz məkrli niyyətlərini davam etdilər.

Bir vaxtlar Misirin ən böyük dini qrupu olan kopt məsihçilər hal-hazırda ölkənin 80 milyon əhalisindən 10%-ni təşkil edir. Misir konstitusiyasında din azadlığı vəd olunsa da, islam rəsmi dövlət dinidir. Pravoslav kopt kilsəsinin məsihçilərinə qarşı təcavüz həmişə davam edir. Müsəlman ekstremistlər əksər hallarda məsihçiləri səbəbsiz hücumlarla hədəfə alır və bunlar da hakimiyyət tərəfindən çox vaxt cəzasız qalır. Koptlar təcavüzə qarşı müdafiə olunmalarına və hökumətin onlarla haqsız rəftarına, o cümlədən müsəlmanlara üstünlük verən qanunlara görə əvvəllər etiraz etmişdilər. Məsihçilər saxta ittihamlarla və ya heç bir ittiham olmadan həbs olunurlar. Onlara özlərini siyasətdə təmsil etmək və işlə təmin

olunmaq üçün bərabər hüquq verilmir. Kopt məsihçiləri imandan dönməyə məcbur edirlər, onlar hədə-qorxu və hətta ölümlə üzləşirlər. Məsihçi qızların zorlandığı və daha sonra müsəlmanla evlənməyə vadar olunduğu hallar da mövcüddur.

Misirdə məsihçilər iman uğrunda əzab və təqiblərlə üzləşməkdə Allahdan cəsarət istəyirlər. Onlar bilirlər ki, "əziyyətdən dözüm, dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır" (Romalılara 5:3,4). Ümid isə məyus etmir.

"Mən kommunist sisteminə nifrət edirəm, amma insanları sevirəm. Günaha nifrət edirəm, amma günahkarı sevirəm. Bütün qəlbimlə kommunistləri sevirəm. Onlar məsihçilərin həyatına son qoya bilərlər, ancaq onları öldürənlərə olan sevgilərinə son qoya bilməzlər".

**— 14 il kommunist həbsxanasında həbsdə olan Riçard Vurmbrand**

# Doqo Nahava Hücumu

## (7 mart 2010)

Nigeriyanın Doqo Nahava kəndinin sakinləri çöldə açılan atəş səslərindən hövlnak yuxudan oyandılar. Martın 7-si bazar günü gecə yarısı idi. Atəş səsləri pusqunun qurulduğuna bir xəbərdarlıq idi. Bütün kəndi təşviş və vahimə bürüdü. Yüzlərlə fulani müsəlmanlar əllərində uzun bıçaqları havada yelləyərək kənd daxmalarına girib insanları qətlə yetirdilər. Onlar hərbi kamuflyaj geyinmişdilər və tanınmamaları üçün başlarını örtmüşdülər. Onlar bu şüarları səsləndirdilər:

"Allahu Əkbər! Vaxt gəlib çatdı! İndi sizə göstərəcəyik! Sizi məhv edəcəyik!"

Qadınların və uşaqların fəryadı göyə yüksəldi. Sadə fermerlərdən və onların ailələrindən ibarət olan kəndlilər canlarını qurtarmaq üçün ora-bura qaçdılar. Hücum edənlər gecənin qaranlıq və səssiz vaxtında camaat üçün tələ qurmuşdular. Evdən bayıra qaçanlar ağcaqanad torlarına və heyvan tələlərinə düşdülər. Bəzi kəndlilər kolların arxasında gizlənərək və ya tələsik ağaclara dırmaşaraq gizlənə bildilər. Bir çox qadınlar qaçmayıb evlərinin içində gizlənərək övladlarını bədənləri ilə qorumağa çalışdılar. Onların həyatlarına vəhşicəsinə son qoydular. İnsanlar da heyvan kimi tələyə düşdülər və amansızcasına qətlə yetirildilər. Daha sonra onların evləri, mülkləri və cəsədləri də yandırıldı.

Dövlət paytaxtı Cosun cənubunda Ratsat və Zot kəndləri yaxınlığında eyni vaxtda iki hücum baş verdi. Nəticədə, əksəriyyəti qadınlar və uşaqlar olan 500 nəfər həyatını itirdi.

Doqo Nahava, Ratsat və Zot kəndləri əsasən etnik birom xalqından ibarət olan məsihçilərdir. Bu kəndlər Nigeriyanın müsəlmanlar yaşayan şimal bölgəsi ilə əsasən məsihçilər yaşayan cənub bölgəsi arasında yerləşir. Bu ərazilər Plato ştatına aiddir və əhalisinin əksəriyyəti məsihçilərdən ibarətdir. Burada kəskin siyasi və dini gərginlik var. Cənubda azlıq təşkil edən müsəlmanlar ştatın idarəçiliyini ələ keçirməyə çalışır. Mal-qarası əkin sahələrində otlayan müsəlman fulani çobanları ilə məsihçi birom fermerləri arasında qarşıdurmalar baş verir. Ştatın paytaxtında və ətraf



*Nigeriyanın məsihçi Doqo Nahava kəndində fulani müsəlmanlarının hücumu zamanı həyatını itirən 500 sakinə görə onların ailə üzvləri kədərlənirlər.*

ərazilərdə islamçı ekstremistlər məsihçilərə və kilsələrə tez-tez hücum edirlər. 2010-cu ilin yanvarında Plato ştatında üsyanların alovlanması nəticəsində yüzlərlə məsihçi həyatını itirdi. Digərləri sığınacaq üçün yaxınlıqdakı Bauçi ştatına qaçmağa məcbur oldu. 2010-cu ilin martın 17-də Doqo Nahava hücumundan bir neçə gün sonra Plato ştatında daha iki məsihçi kəndinə — Bayay və Batenə hücum edildi. Nəticədə, on üç nəfər qətlə yetirildi. 2010-cu ilin Milad ərəfəsində Cos şəhəri və ətraf bölgələrdə baş verən hücumlar zamanı otuz bir məsihçinin həyatına son qoyuldu və yetmişdən çoxu xəsarət aldı.

Bəzi hallarda qarşıdurmalar mülk və ya etnik münaqişələr əsasında baş versə də, bu hücumların müsəlmanların araqarışdırmaları nəticəsində baş verdiyi güman edilir. Bunlar müqəddəs müharibənin, yəni məqsədi "kafirləri" məhv etmək olan islam cihadının əsas xüsusiyyətidir. Bu cür hücumları həyata keçirənlər nadir hallarda həbs olunurlar. Həbs edildikdə isə sübut olmadığına görə adətən onlara cəza verilmir. Çox vaxt ailə üzvünü itirmiş insanları sakitləşdirmək məqsədilə hökumət guya bu işlə məşğul olduğunu göstərmək üçün hücumlarda iştirak etməyən şəxsləri həbs edir.

Nigeriyadakı məsihçilər dinc yaşamaq, eləcə də sərbəst ibadət etmək hüquqları uğrunda mübarizəyə davam edirlər. Onların gücü tükənsə də, imanda sadiq qalırlar. Bu cəsarətli məsihçilər bilirlər ki, keçirdikləri əziyyətləri Allah görür. Plato ştatının qubernatoru Cona Canq hücumlardan sonra belə söyləmişdi: "Mən Allahın övladı olduğum üçün Ona bütün qəlbimlə inanıram və əminəm ki, Tanrı öz uşaqlarının başına gələn hər bir şeydən xəbərdardır".

# İşaku və Selina Kadah

(13 aprel 2010)

Bazar ertəsi səhər kəndə hücum ediləcəyi barədə camaata xəbər gəldi. Amma Pastor İşaku və həyat yoldaşı Selina bu xəbəri eşidəndə narahat olmadılar. Nigeriyanın əsasən müsəlmanlar yaşayan şimal bölgəsində məsihçilər tez-tez təqib edilir, hədələnir və həyatlarına son qoyulurdu. Boto kəndində bəziləri qorxuya düşərək qaçıb getdilər, lakin pastor İşaku və Selina oranı tərk etmədilər. Onların Bauçi ştatında pastorluq etdikləri "Məsihin Kilsəsi"adlı imanlı cəmiyyəti öz evlərində toplaşırdı. Yayılan xəbərlərə baxmayaraq cütlük evlərini və xidmət etdikləri insanları atıb getməyəcəkdilər. Pastor İşaku və həyat yoldaşı Selina hətta ölmək lazım gəlsə belə, imanlarında möhkəm duracaqdılar. Onlar əvvəllər də imanlarına görə təqib olunmuşdular.

İki-üç ay əvvəl qonşu Plato ştatınının Cos şəhəri və onun ətraf bölgələrində qəfil hücum zamanı bir neçə məsihçi qətlə yetirilmişdi. Sağ qalanlar həyatlarını xilas etmək üçün Bauçi ştatına qaçmışdılar. Pastor İşaku və Selina onlara kilsələrində sığınacaq vermişdi. Bir neçə gün sonra isə şübhəli ekstremistlər kilsə binasını yandırmışdılar. Buna görə Kadahlar cütlüyü ölkənin belə bir ədavətli bölgəsində məsihçi olmağın nə qədər təhlükəli olduğunu çox yaxşı anlayırdılar.

Kəndə ediləcək hücum barədə şayiələr heç vaxt həyata keçmədi. Amma aprelin 13-ü, çərşənbə axşamı naməlum şəxslər Kadahların evlərinə gələrək cütlüyü zorla sürüyüb apardılar. Ertəsi gün axşam onların yanmış cəsədləri evlərinin yaxınlığında, kolların arasında tapıldı.

Afrikanın ən çox əhalisi olan ölkəsində, müsəlmanlarla məsihçilər arasında bərabər bölünmüş Nigeriyada radikal islamçılar məsihçiliyi ləğv etmək istəyirlər. Pastor İşaku və həyat yoldaşı Selina bu bölgədə Məsihin adını bəyan etməyi qərara almışdılar. Onlar yaxşı bilirdilər ki, Nigeriya xalqının Rəbbin ümidinə, həqiqətinə və sevgisinə böyük ehtiyacı var. Yaqub 1:12-ci ayədəki vəd indi onların həyatında yerinə yetir. "Sınağa dözən adam nə bəxtiyardır! Çünki sınaqdan keçəndən sonra Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaq".

"Mən qaçmayıb öz mövqeyimdə möhkəm duracağam".

**— Bazar günü kilsədə dərs keçən və bu uşaqları sevən subay 35 yaşlı Saratu Turundu. O, Məsihə olan imanına görə Nigeriyadakı ekstremist müsəlman dəstəsi tərəfindən öldürüldü.**

# Yusif Əli Nur

## (4 may 2010)

Səhər saat 10:30-da Somalinin Harardhere şəhərində bir neçə silahlı kişi Yusifin evinə soxuldu. Bu silahlılar son iki saat ərzində orada rəqib üsyançı qrupa qarşı döyüşən Əş-Şəbab islamçı ekstremist qruplaşmasının üzvləri idilər. Onlar Harardhere şəhərini rəqiblərin əlindən alaraq nəzarəti öz əllərinə keçirmişdilər və indi ərazini düşmən əsgərlərindən təmizləyirdilər. Yerli camaatın həmin əsgərləri gizlədə biləcəklərini düşünərək bütün evlərdə axtarış aparırdılar.

Yusif evində əsgər deyil, öz məsihçi imanını gizlədirdi. Əlli yeddi yaşlı bu imanlı Somalidəki gizli kilsə hərəkatının rəhbəri idi. Əş-Şəbab hər zaman hökumətlə müharibə aparır və nəzarətdə saxladığı bölgələrdə sərt islam qanunlarını tətbiq edir. Məsihçilər çox vaxt bu qrupun qurbanları olur. Terrorist Əl-Qaidə qrupu ilə əlaqəsi olan bu qruplaşma ölkədə məsihçiliyi ləğv edəcəyinə söz verib. Buna görə Somali məsihçiləri daim ölüm təhlükəsi ilə üzləşirlər. Hətta Prezident Şeyx Şərif Şeyx Əhmədin Somaliyə rəhbərlik etdiyi Müvəqqəti Federal Hökumət dövründə də islamdan dönən müsəlmanlar üçün şəriət qanunu var idi. Bu qanuna əsasən onlara ölüm hökmü verilirdi.

Yusif belə bir ölüm təhlükəsindən xəbərdar olsa da, ölkəni tərk etmədi. 2009-cu ildə Harardherenin ekstremistlərin nəzarətində olan bölgəsinə köçdü. O, əvvəllər Cövhər şəhərində kənd təsərrüfatı işi ilə məşğul olmuşdu. Həmin vaxtdan bəri Əş-Şəbab ekstremist qruplaşması Yusifin məsihçi olduğundan şübhələnərək ona göz qoyurdu. Harardhereyə köçdükdən sonra o, Qanani ibtidai məktəbində fərdi müəllim kimi işləmişdi. Əş-Şəbab qruplaşması ənənəvi ərəb dilinə üstünlük verirdi və ingilis dilinin istifadəsinə etiraz edirdi. Amma buna baxmayaraq Yusif ingilis dilini öyrədirdi. Əş-Şəbab tərəfindən radio stansiyalarının musiqi səsləndirməsi və məktəb zənglərinin çalınması (kilsə zənginə bənzədiyi üçün) qadağan olunmuşdu. Təcavüzlər artsa da Yusif imanında möhkəm qalaraq işinə davam etmişdi.

Həmin səhər Əş-Şəbabın üzvləri evinə soxulanda Yusif ölümün yaxın olduğunu hiss etdi. Silahlılardan biri onu dərhal tanıyib dedi: "Bax! Bu axtardığımız Yusifdir!"

Sonra kişilər silahlarını Yusifə tərəf çevirib yaxın məsafədən onun üstünə güllələr yağdırdılar. O, yerə yıxılıb dünyasını dəyişdi. Həyat yoldaşı və üç uşağı gözüyaşlı arxada qaldı.

Yusif Əli Nur öz məmləkətində azlıq təşkil edən bir qrupun üzvü — səkkiz milyonluq islam ölkəsində fəaliyyət göstərən min məsihçidən biri idi. Bu sadiq imanlı təqiblər güclü olan bir bölgədə yaşadı. Somalinin qaranlığında İsanın nuru olmaq üçün Yusif təvazökarlıqla yaşayıb bacardığı qədər başqalarına xidmət etdi. Cəsarətli məsihçi kimi gündəlik həyatımızı yaşayarkən ruhani döyüşdə olduğumuzu başa düşürdü. O bilirdi ki, bu döyüş qaranlıq dünyanın hökmranlarının və ruhani şər qüvvələrin (Efeslilərə 6:12) Məsihin nurunu söndürməyə, imanlıları ruhdan salmağa, eləcə də Allahın sevgisi və qüdrətini unutdurmağa çalışdığı bir müharibədir. Yusif döyüşlər gedən bir ərazidə yaşadığı üçün ruhani döyüşü başqalarından daha yaxşı anlayırdı. Paulun Timoteyə dediyi kimi Yusif də "Məsih İsanın yaxşı əsgəri kimi... əzaba qatlaşmağa" (2 Timoteyə 2:3) hazır idi və heç bir silahı olmadan vuruşdu. O, imanında sadiq qalaraq Məsihin təqdim etdiyi məhəbbət və sülhü göstərmək üçün mübarizə apardı.

# Artur Süleymanov

(15 iyul 2010)

Artur Süleymanov fəal bir məsihçi kimi imanlıları öyrədərək xidmət göstərirdi. O, Rusiyanın Dağıstan respublikasında ən böyük protestant kilsəsinin pastoru vəzifəsində çalışırdı. Artur böyük həvəslə müsəlman soydaşlarına İsanın Müjdəsini çatdırmaq istəyirdi. Kilsəsindəki məsihçilərin əksəriyyəti keçmiş müsəlmanlar idi. 1994-cü ildə o, Mahaçqala şəhərində məsihçilik fəaliyyətinə kiçik bir dua qrupu ilə başladı. Sonra çox keçmədən Artur "Hosanna" adlı 1000 nəfərlik bir kilsəyə pastorluq etdi. Yoxsulluqdan əziyyət çəkən Dağıstan xalqına ümid və həqiqəti paylaşmaq üçün kilsə ölkənin hər yerində kiçik filiallar yaratdı. Əsas kilsənin daxilində rəsmi Müqəddəs Kitab təlimləri mərkəzi təşkil edildi. Onlar Müjdəni yaymağa başlayıb kasıb insanlara ərzaq və yardım paylayır, həbsxanalarda xidmət edir və narkomaniyadan əziyyət çəkənlərlə məşğul olurdular.

Müsəlmanlar pastor Arturu islama qarşı çıxan kafir hesab edirdilər. Keçmiş müsəlman olan etnik dağıstanlı pastor müsəlmanları sevir və onların qəlbində yalnız Məsihin doldura biləcəyi boşluğu yaxşı anlayırdı. Pastor Artur camaat arasında hörmətli və sevilən bir şəxs idi. Çoxları onun gördüyü işləri bəyənir və müsbət qarşılayırdı.

Ancaq vəziyyət yavaş-yavaş dəyişməyə başladı. Moskvada "Müqəddəs Tomas rus pravoslav kilsəsi"nin keşişi qətlə yetirildi. Bu keşiş də Artur kimi müsəlmanlara xidmət etməklə tanınırdı. Sonra Mahaçqalanın səlahiyyətli şəxsləri "Hosanna" kilsəsinin həbsxana xidməti üçün aldığı beş illik icazəsini ləğv etdilər. Elə həmin vaxtlarda camaat arasında kilsənin narkomaniyadan əziyyət çəkənlərlə apardığı işinə qarşı mənfi fikirlər yayıldı. Kütləvi informasiya vasitələri Arturun gördüyü işlər ilə öldürülən keşişin xidmətinin eyni olduğunu bildirdi. Onlar pastor Arturu müsəlmanları məsihçiliyə döndərməkdə günahlandırır və ona qarşı bir tədbir görməyə çağırırdılar. Lakin pastor bu təhdidlərdən qorxmadı. İstər həyatı, istərsə də ölümü vasitəsilə Allahın onun həyatında izzətlənəcəyinə inandı.

İyulun 15-də cümə günü pastor Süleymanov axşamüstü öz kilsəsindən çıxıb küçə ilə addımlayırdı. Birdən iki nəfər ona yaxınlaşıb tapançalarını çıxartdı. Onlar pastoru güllələyib öldürdülər və cəld oradan qaçıb getdilər.

Korinflilərə yazdığı məktubda Paul belə demişdi: "Beləliklə, ey sevimli qardaşlarım, Rəbdə çəkdiyiniz zəhmətin boşa çıxmayacağını bilərək möhkəm durun, sarsılmayın, hər zaman Rəbbin işində səylə çalışın" (1 Korinflilərə 15:58). Artur Süleymanov ən təhlükəli xidmət növlərindən biri ilə — müsəlmanlara Məsihin Müjdəsini çatdırmaqla məşğul idi. O, Allah üçün xidmətinin boş yerə olmayacağını bilərək can-dildən çalışdı. Onun ölümü digər dağıstanlı məsihçilər üçün iman və cəsarət nümunəsini qoydu. Xidmətçi Sergey Ryaxovski demişdi: "Məsihçiləri ölümlə qorxuda bilməzsiniz. İmanlılar üçün Məsih uğrunda ölmək şərəfdir".

Amma Rəbb mənə qala oldu, Allahım mənə sığınacaq bir qaya oldu!

**Zəbur 94:22**



*Rəşid və Səcid qardaşları Pakistanda küfrdə günahlandırılaraq güllələndilər.*

# Rəşid və Səcid Emmanuel

(19 iyul 2010)

Otuz iki yaşlı Rəşid telefonda danışıb zəng edən şəxslə dəmir yol vağzalında görüşməyi qərara almışdı. Özünü məktəb müəllimi kimi qələmə vermiş həmin adam ikinci dəfə idi ki, zəng edib Rəşidlə şəxsən görüşmək istəmişdi. Rəşid Pakistanın Feysəlabad şəhərinin Dəmir Yolu Qəsəbəsində dua xidmətinə rəhbərlik etdiyi üçün onunla görüşə bilməmişdi. Ancaq təkid edən həmin adam dua xidməti bitəndən sonra yenidən zəng etmişdi. Bir pastor kimi Rəşid kiməsə kömək etmək fürsətini itirmək istəmirdi. O, zəng edən naməlum şəxslə dəmir yol vağzalında görüşmək üçün bir məsihçi dostunu da özü ilə aparırdı.

Təyin edilmiş görüş yerinə çatanda Rəşid ətrafa nəzər saldı. Amma o, düşündüyündən tamam başqa bir mənzərə ilə qarşılaşdı. Bir dəstə polis onu və dostunu mühasirəyə aldı. Onlar Rəşidi və kiçik qardaşını Məhəmməd peyğəmbərə küfr etməkdə günahlandırdılar. Bundan başqa polis qardaşların Məhəmməd peyğəmbəri alçaldan vərəqlər payladığını iddia edərək onları təqsirləndirdi. Qardaşların adları, telefon nömrələri və imzaları da kağızlarda qeyd olunmuşdu, lakin onlar belə bir iş görməmişdilər. Dostu ilə birgə onu həbs edib polis bölməsinə apardılar.

Həmin gün məsihçi dostu azad olundu. Bir neçə gün sonra Rəşidin qardaşı otuz yaşlı Səcid də həbsxanaya salındı. Səcid biznes üzrə aspirant idi və qardaşı ilə birlikdə “Pakistanın Birləşmiş Xidmətləri” təşkilatını idarə edirdi. Bu təşkilatla bir neçə kilsənin, məktəbin, uşaq evinin və qadınlar üçün proqramın əlaqəsi var idi. Allahın Kəlamını bölüşməyə özlərini həsr etmiş sadiq imanlılardan ibarə olan bu qrup bölgədəki kasıblara və məzlumlara yardım göstərirdi.

Qardaşlar Məsihə imanlarına görə həbs olundular. Pakistanda ekstremist müsəlmanlar hökumətin sərt küfr qanunlarını məsihçilərin əleyhinə işlədərək şəxsi münaqişələrə görə onları haqsız yerə təqsirləndirirlər. Küfr qanunlarına əsasən onlara işgəncə verir və öldürürlər. Silahlı islamçı qruplar çox vaxt cümə günü axşamlar məsciddə görüşüb məsihçiliyə qarşı çıxış edirlər.

Məhkəmə işlərinin araşdırıldığı gündən bəri onlar həbsdə qaldılar və bu müddət ərzində pis rəftarla qarşılaşdılar.

Məsihçilərin yaşadığı ərazidə qardaşların saxlandığı həbsxananın qarşısına yüzlərlə müsəlman toplaşaraq etiraz səslərini ucaltdılar: "Küfr edənləri dərhal asın!" İslamçı ekstremistlərin rəhbərliyi altında olan bir dəstə qonşuluqdakı kilsənin giriş qapısına kərpic, daş və şüşələr atdı. İzdiham üsyan qaldıracağını söyləyəndə bölgədəki məsihçilər qapılarını bağlayıb oranı tərk etdilər. Rəşid və Səcid həbsdə bir neçə həftə qaldıqdan sonra əlyazma üzrə mütəxəssislər paylanan vərəqlərdəki əl yazılarının qardaşlara məxsus olmadığını bildirdilər. Onların işini dinləmək üçün məhkəmə iclası təyin olundu və qarşdaşlar tezliklə azad olunacaqlarını düşündülər.

İyulun 19-u, bazar ertəsi qardaşlar Feysəlabadda məhkəmə qarşısına çıxarıldı. Rəşid və Səcid polislərin müşayiəti ilə məhkəmə binasından yenidən həbsxanaya aparılarkən maska taxmış beş silahlı şəxs izdihamın arasından irəliyə çıxdı. Silahlılar polislərə öz həyatlarını qorumaq üçün qardaşlardan uzaqlaşmağı xəbərdarlıq etdilər. Sonra onlar Rəşid və Səcidə atəş açdılar. Güllə Səcidin düz ürəyinə dəydi və o, bir andaca həyatını itirdi. Rəşid sinəsindən güllə yarası aldı və bir müddət sonra o da dünyasını dəyişdi. Mərhumların bədənində aşkar olunan kəsiklər və digər yara izləri qardaşların polis nəzarətində olarkən işgəncələrə məruz qaldığını göstərdi.

Məsihin adını bəyan etmək və Pakistanın ehtiyac içində olan insanlarını sevmək uğrunda bu iki qardaş amansızcasına qətlə yetirildi. Onların xidmətləri təhlükəli olsa da, heç nədən qorxmadılar.

"Əgər yaxşılıq etməyə səy göstərsəniz, sizə kim pislik edər? Amma salehlik uğrunda əzab çəksəniz belə, siz bəxtiyarsınız. İnsanların hədə-qorxu gəlməsindən qorxmayın və lərzəyə düşməyin. Lakin Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun" (1 Peter 3:13–15). Rəşid və Səcid qardaşları ölənə qədər Müjdə uğrunda mübarizə apardılar.

Öz əllərimizlə işləyib zəhmət çəkirik.
Bizə böhtan atanda xeyir-dua veririk,
təqib olunanda dözürük, təhqir
olunanda mülayim cavab veririk.
Biz bu anadək dünyanın zibili,
hamının tullantısı kimi olmuşuq.

**1 Korinflilərə 4:12–13**

# Şeril Bekett

## (5 avqust 2010)

Şeril böyük həvəslə Əfqanıstanın ucqar kəndinə yollanan həkim qrupuna qoşulmuşdu. Kabil şəhərində yaşadığı altı il ərzində o, başqa bir neçə bölgəyə də səyahət etmişdi. Lakin indi gedəcəyi ərazidə heç vaxt olmamışdı. Bu yer Şerilin ən çox sevdiyi hekayələrdən biri olan Redyard Kiplinqin "Kral Olmaq istəyən Adam" hekayəsində təsvir olunmuşdu. Həmin ərazinin təhlükəli bir məkan olduğunu anlasa da, Şeril unudulmaz və həyatı dəyişdirən bir səfərin olacağına inanırdı. Otuz iki yaşlı humanitar yardım işçisi olan Şerilın heç ağlına da gəlməzdi ki, bu səfər onun yer üzündəki sonuncu səfəridir. Bundan sonra onun göylərdə yeni həyatı başlayacaqdı.

Əfqanıstanda yaşamaq təhlükəli olsa da, Şeril ürəyində hiss etmişdi ki, Rəbb onu burada xidmət etməyə çağırıb. Bu çağırış vasitəsilə o, cəmiyyətin inkişafı layihələrində xidmət etmək üçün Kabil şəhərinə gəlmişdi. Şeril kəndlilərə bostançılığı öyrədirdi ki, onlar özlərini ərzaqla təmin etsinlər. Bundan başqa o, qadın klinikalarında işləyərək analara və uşaqlara sağlamlıq barədə dərslər keçirdi. Fürsət düşdükdə isə Şeril Məsihə olan imanı haqqında danışırdı. "Beynəlxalq Yardım Xidmətləri" ilə bu yeni səyahət onu Nuristan, yəni "İşıq diyarı" vilayətinə aparacaqdı. Hamilə qadınlara məsləhət vermək, dişlərin və gözlərin müalicəsini təmin etməklə Şeril və onun komanda yoldaşları əfqan xalqına Həyat İşığını gətirəcəkdi. Şeril ümid edirdi ki, oradakı uşaqlar üçün şarlardan heyvan düzəltməklə onları əyləndirəcək. O, səfərin təhlükəli olduğunu bilirdi. Şeril bir vaxtlar dostuna demişdi: "Mən bu ölkədə imanla gəzmək istəyirəm. Bizə təhlükəsizlik vəd edilmir ... amma bilirəm ki, Allaha itaət edərək yaşamaq gözəldir və bu bəhrə verəcək".

Şeril komanda yoldaşları ilə birgə Əfqanıstanın şimalına səfər edərkən əsasən piyada yol getdilər. Onlar bəzən hündür dağlardan, yağışdan daşmış çaylardan və kələ-kötür ərazilərdən keçməli oldular. Kəndlilərin əksəriyyətinin tibbi yardıma ehtiyacları olduğundan komanda hər gün onlara xidmət etdi. Komanda üzvləri xeyirxahlıqları və xidmətləri ilə

insanlara Məsihin sevgisini göstərdilər. Onları dinləyib təsəlli verdilər. Üç həftədən sonra komanda Kabilə qayıtmaq üçün yola düşdü. Dağlarla geri qayıdarkən qəfildən bir qrup silahlı taliban üsyançıları onları mühasirəyə aldı və onları meşəyə apararaq sıraya düzüb güllələdilər. Taliban bu humanitar yardım qrupunu məsihçiliyi yayan casuslar olmaqda günahlandırdı.

İsa dedi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin" (Luka 9:23). On şəhid bu tapşırığı ölənədək həyata keçirdi. Onların hamısı Məsih üçün humanitar yardım işçiləri kimi xidmət etdi. Qrupun üzvləri bu məqsədlə öz ölkələrində olan uğurlu işlərini, ailələrini və dostlarını qoyub Əfqanıstana gəlmişdilər. Komanda bir məqsəd uğrunda birləşərək özünəməxsus bacarıqları ilə həm bir-birilərinə, həm də başqalarına yardım göstərdilər.

Altmış bir yaşlı Tom Litl qrupun rəhbəri idi. O, 1970-ci ildən bəri həyat yoldaşı ilə birlikdə Əfqanıstanda göz həkimi kimi xidmət etmiş, ehtiyacı olan hər kəsin, hətta Taliban əsgərlərinin də gözlərini müalicə etmişdi. Hər üç qızı Əfqanıstanda boya-başa çatmışdı.

O biri veteran humanitar yardım işçisi isə 1970-ci illərdə Əfqanıstana gəlmiş altmış dörd yaşlı Dan Terri idi. O, "Global Ministries" təşkilatında işləmişdi. Sülhpərvər insan kimi tanınan Dan kasıblara, cəmiyyətin əhəmiyyətsiz və zəif hesab etdiyi insanlara böyük həvəslə xidmət etmişdi. O, Əfqanıstanda olan dillərlə və onun mədəniyyəti ilə çox maraqlanırdı.

Həkim Tomas L. Qrams 2007-ci ildə "Global Dental Relief" təşkilatında xidmət etmək üçün Koloradoda uğurlu işindən imtina etmişdi. Xidməti onu nəinki Əfqanıstana, həm də Everest dağındakı ucqar kəndlərə aparıb çıxarmışdı. Orada o, diş avadanlıqlarını yakla (tibet öküzü) daşımalı olmuşdu.

Britaniyalı həkim Keren Vu Cənubi Afrika, Avstraliya, Papua-Yeni Qvineya, Trinidad və Tobaqoda xidmət etmişdi. O, Kabildə olan dostunu ziyarət etdikdən sonra Britaniyadakı yüksək maaşlı cərrah işini qoyub daimi yaşamaq üçün Əfqanıstana köçmüşdü. O, xeyriyyə təşkilatları üçün ianə toplamaqla məşğul idi və Əfqanıstanda qadın hüquqlarının inkişafına böyük ümid bəsləyirdi.

Utancaq alman qadın olan Daniela Beyer Məsihə xidmət edən bir cütlüyün qızı idi və imanını hər şeydən üstün tuturdu. O, dərsliklərin əfqan dillərinə tərcüməsi üzərində işləyirdi.

Pensilvaniya ştatından olan Qlen D. Lapp göz xəstəlikləri üzrə ixtisaslaşmış tibb bacısı idi. O öz peşəsi ilə Əfqanıstanda xidmət edərkən Məsihin məhəbbətini göstərmək istəyirdi.

Qrupda ən cavan adam iyirmi beş yaşlı Brayn Karderelli Virciniya ştatından olan videoqraf idi. O, əfqan xalqının və ölkənin gözəlliyini görmüşdü. Brayn bütün bunları videoya çəkib "Təkcə müharibə deyil" adı ilə dünyaya paylaşmaq həvəsində idi.

Humanitar yardım işinə dəstək olaraq gələn komandanın iki əfqan üzvü — aşpaz və sürücü də qətlə yetirildi.

İsa yer üzündə yaşayarkən yalnız insanların mənəvi ehtiyaclarını deyil, fiziki ehtiyaclarını da təmin edirdi. Bütün günu dağın ətəyində oturaraq Onun vəzinə qulaq asmış minlərlə ac insanı doyuzdurdu. Kor olanlara görmə qabiliyyəti verdi, gəzə bilməyənlərin ayaqlarını sağaltdı. Yer üzündəki sonuncu şam yeməyində İsa şagirdləri qarşısında təvazökarlıqla diz çökdü. Onların çirkli ayaqlarını yuyub söylədi ki, Onun göstərdiyi məhəbbət və xidmət nümunəsi kimi şagirdlər də belə etsinlər.

Şeril və onun yoldaşları Əfqanıstanın ucqar kəndlərində tibbi xidmətlər üçün özlərini təhlükəyə ataraq İsanın tapşırığını həyata keçirmişdilər. Məhəbbətlə xidmət edərək Məsihi insanlara tanıtmaq bu şəhidlərin əsas amalı idi və onlar bununla xatırlanacaqlar.

# Rosio Pino

## (6 mart 2011-ci il)

Gecə Ceyms və arvadı Rosio yenicə yataqlarına uzanmışdılar ki, birdən giriş qapısının döyüldüyünü eşitdilər. Ceyms qapını açanda iki kişini gördü, onlar motosikletləri düzəltmək üçün ondan kömək istəyirdilər. O kömək etmək üçün bayıra çıxdı, kişilərdən biri isə qapıda durdu. Bu vaxt Rosio da qapıda dayanıb ərinin dalınca baxırdı.

"Adınız Mariyadır?" — deyə kişi qadından soruşdu.

"Xeyr, mən Rosio Pinoyam" — deyə o cavab verdi.

Qəfildən üç güllə səsi gecənin sükutunu pozdu və Ceyms çevrilib baxanda arvadının yerə yıxıldığını gördü. Hücum edənlər cəld motosikletlərinə minərək oradan uzaqlaşdılar.

Pino ailəsi Kolumbiyanın qırmızı zonalarından birində, Kolumbiyanın İnqilabi Silahlı Qüvvələrinin (FARK) nəzarətində olan ərazilərdə yaşadıqları üçün heç bir təcili yardım xidməti köməyə gəlmədi. Onların kəndinə gedən yol minalanmışdı və *FARK*-ın silahlı partizanları oraya nəzarət etdiyindən Ceyms və qızları Rosionun qapının ağzında necə can verdiyinə baxa-baxa qaldılar.

Rosio görüşdüyü hər kəslə, xüsusən də partizan döyüşçüləri ilə Müjdəni bölüşürdü. O deyirdi: "Bura gələnlərin hamısı Məsih haqqında eşidəcək". Sonralar Ceyms öyrəndi ki, Rosio bir neçə həftə əvvəl evlərinin yanında dayanmış qadın partizana Müjdə haqda danışdığına görə ondan qisas almışdılar. Rosio qadına İncili uzadaraq demişdi: "Rəbb səni gözləyir".

Ceyms qatilləri tanıyırdı. Onlar iki həftə əvvəl qonşuluğa gəlmişdilər və özlərini *FARK*-ın üzvləri kimi təqdim etmişdilər. Bölgədəki bir çox digər partizanlar kimi, onlar da bəzən Ceymslə söhbət etmək üçün dayanırdılar. İndi Ceyms üçün qatilləri bağışlamaq asan deyil. "Arvadıma hücum edənləri görəndə 'mən sizi bağışlayıram' demək çox çətindir, çünki onların vurduğu yaranın çapıqları heç vaxt itməyəcək" — o dedi. Hücumdan sonra Ceyms və qızları daha təhlükəsiz bir əraziyə köçdülər.

"Allahın işini görmək təhlükəlidirsə,
onu yarımçıq qoymaq
daha da təhlükəlidir."

**— Sabina Vurmbrand**

# Yunis Masih və Cəmil Masih

(21 mart 2011)

Pakistanın Heydərabad şəhərində Hur Düşərgəsi adlı bir rayon yerləşir. Buranın sakinləri kilsənin ildönümü münasibətilə bir yerə toplaşmışdılar. Onlar təbəssüm içində bir-birini təbrik edir və deyib-gülürdülər. Hur Düşərgəsində işçi təbəqədən ibarət məsihçilər yaşayırdı və "Qurtuluş Ordusu Kilsəsi" otuz il idi ki, orada fəaliyyət göstərirdi. İndi kilsənin ildönümünü qeyd etmək üçün xüsusi bir mərasim təşkil edilmişdi.

Palari qəbiləsindən olan bir neçə pakistanlı müsəlman gənc yaxınlıqda oturub məsihçilərin toplaşmasına tamaşa edirdilər. Onlar yoldan keçərək xidmətə tələsən qadınlara söz atıb bir-birləri ilə zarafatlaşırdılar. Sonra gənclər cib telefonlarında uca səslə musiqiyə qulaq asmağa başladılar və bu da kilsədə keçirilən ibadətə mane oldu.

Qırx yeddi yaşlı Yunis Masih və iyirmi iki yaşlı Cəmil Masih, həmçinin kilsədən olan iki kişi müsəlman gənclərə yaxınlaşdı.

Onlar dedilər: "Xahiş edirik, yüksək səsli musiqinizi dayandırın. Zəhmət olmazsa, məsihçi qadınlara və kilsənin müqəddəsliyinə hörmət edin".

Gənclər məsihçi kişilərlə mübahisəyə başladılar. Az sonra onlar əsəbiləşərək çıxıb getdilər və dörd məsihçi kilsəyə qayıtdı. Camaat ilahi oxumaqla, dua edib Allaha minnətdarlıq bildirməklə kilsənin ildönümünü qeyd etməkdə davam etdi. Mərasim sona çatanda insanlar evlərinə qayıtmağa hazırlaşarkən müsəlman gənclər bu dəfə əllərində silahla geri döndülər. Onlar toplantıdan çıxan insanlara atəş açdılar. Məsihçilər güllələrdən yayınmaq üçün ora-bura qaçdılar. Atəşə tutulan Yunis və Cəmil dərhal dünyasını dəyişdi. Gənclərlə danışan digər iki nəfər isə ağır yaralandı. Yaralanmış bu iki məsihçinin fikrincə, müsəlman gənclər mübahisəyə görə qisas almışdılar. Yunisin dörd övladı və həyat yoldaşı ailə başçısını itirdi. Bir ay əvvəl evlənmiş Cəmilin həyat yoldaşı isə ərsiz qaldı.

Pakistan məsihçilər üçün ən təhlükəli yerlərdən biri hesab olunur. Ölkədə sui-istifadə edilən sərt küfr qanunları ucbatından məsihçilər

daim təhlükə ilə üzləşirlər. Məsihçilərin istənilən hərəkəti müsəlmanlar tərəfindən islamı təhqir etmək kimi qəbul olunur.

Yunis və Cəmil mübahisəni sülh yolu ilə həll etməyə çalışsalar da buna görə həyatlarını itirdilər. Bu məsihçilər ölkələrinə və xalqlarına Allahın dönüş gətirəcəyinə inanaraq Onun yaxşı işlərinə görə bayram keçirdilər. Romalılara 12:17–18-ci ayələrdə yazılanlar onların həyatlarını əks etdirir: "Heç kimə pislik əvəzinə pislik etməyin. Hamının gözündə yaxşı olan işlər görməyə diqqət yetirin. İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində yaşayın". Onların imanda göstərdikləri fədakarlıq Pakistanda Məsihin məhəbbəti və sülhü üçün yol açacaq.

# Klarito dela Kruz

## (26 iyul 2011)

Klarito pastor və ya müjdəçi olmasa da, Məsihdə sadiq bir xidmətçi idi. Filippinli bu məsihçi valideynlərinin nəzarət etdiyi kilsənin müjdəçilik proqramında iştirak edirdi. Əksəriyyəti müsəlman olan Mindanao bölgəsində Müjdəni bölüşmək böyük təhlükə daşıyırdı. Orada məsihçilər təqib olunur, oğurlanır, döyülür və işgəncələrə məruz qalırdılar. Onlar evlərini, eləcə də mal-qaralarını və bir çox hallarda həyatlarını itirirdilər.

Kilsədə xidmət etməyən vaxtlarda Klarito gündəlik işi ilə məşğul olub iman həyatı yaşayırdı. O, sürücülüklə pul qazanaraq hamilə gənc həyat yoldaşına, üç yaşlı uşağına və qayınatasına kömək edirdi. 2011-ci il iyulun 26-da özünü ər-arvad kimi təqdim edən bir cütlük Klaritodan xahiş etdilər ki, onları Linamon şəhəri yaxınlığındakı ucqar bir kəndə aparsın. Onları aparmaq üçün Klarito qayınatasının motosikletini götürdü. Təyin etdikləri yerə çatdıqda, cütlük onlarla əlbir olan bir adamla görüşdü. Məlum oldu ki, bu adamlar müsəlman ekstremistlərdir. Klaritonun məsihçi olduğunu onlar hardansa öyrənmişdilər və esktremistlər ona işgəncə verib elektrik naqili ilə boğmağa çalışmışdılar. Ola bilsin ki, Klaritonu islama dönməyə məcbur etmişdilər, çünki əvvəllər də kilsə üzvləri müsəlmanların bu hərəkətləri ilə qarşılaşmışdılar. İşgəncə heç bir nəticə vermədikdə təcavüzkarlar iki dəfə atəş açaraq onu öldürmüş və motosikletini oğurlayaraq oradan qaçıb getmişdilər.

Filippinlilər məsihçi xalq hesab olunsa da, azlıq təşkil edən müsəlmanlar əsasən ölkənin cənub hissəsindəki Mindanao adasında yaşayırlar. Əl-Qaidə ilə əlaqəli olan müsəlman ekstremist qruplaşmaları islam dövləti qurmaq üçün adada məskunlaşıb oranı nəzarətdə saxlayır. Mindanaodakı filippinli məsihçilər həmişə həyatları üçün təhlükələrlə qarşılaşırlar. Bütün bunlara baxmayaraq onlar imanda möhkəm durub Müjdəni bölüşürlər. Onlar inanırlar ki, Məsih üçün gördükləri bu xidmətlərlə iman toxumu səpirlər və vaxtı gələndə Allah Özü bu səpilmiş toxumları böyüdəcək (1 Korinflilərə 3:6).

# Mario Asidre

## (27 avqust 2011)

Silahlı şəxs tapançanı pastor Marioya tuşlayıb ona səkkiz dəfə atəş açdı. Atəş səsləri evin hər tərəfində eşidildi və yataq otağında oturmuş həyat yoldaşı Cumu dəhşətə gətirdi. O, qorxu və sarsıntıdan yerindəcə donub qalmışdı və otaqdan çıxıb baş verənləri görməyə cürət etmirdi.

Pastor Mario Filippinin cənubunda yerləşən Sulu əyalətinin Jolo şəhərində yaşayırdı. Hücum baş verən gün adi günlərdən biri idi. Silahlı şəxs pastorun artıq öldüyünü düşünüb çıxıb getdi. Lakin bədənini qan aparan Mario arvadının olduğu yataq otağına birtəhər özünü sala bildi. Baş verənlərdən heyrətlənən Cum ərini xəstəxanaya çatdırmaq üçün gücünü topladı. On dörd saatdan sonra pastora qan köçürülməsinə baxmayaraq Marionun böyrəkləri sıradan çıxdı və o, dünyasını dəyişdi.

Mario belə bir hücumun nə vaxtsa baş verəcəyini düşünürdü, çünki o, əvvələr də məsihçi xidmətinə görə hədələnmişdi. Həmin gün səhər bir-neçə müsəlman satıcı pastora xüsusi amuletlər satmaq istəmişdilər. Bu amuletlərin onu güllələrdən qoruyacağını iddia etmişdilər. Onu ya həmin satıcılar hədəfə almışdılar, ya da onlar pastoru öldürmək istəyən ekstremistləri tanıyırdılar. Ürəyində qorxuya yol vermədən o, amuletlərə inanmadığını söyləyərək onları almaqdan imtina etmişdi.

Ölümündən bir gün əvvəl Mario bölgədə imanlı xidmətçilərin təhlükəsizliyi üçün dua etmişdi. Bu dua Filippinin cənubunda yaşayan məsihçi üçün çox adi və tipik bir dua idi, çünki orada məsihçi istənilən an ölümlə üzləşə bilərdi. Həmin ərazini Əl-Qaidə ilə əlaqəsi olan müsəlman silahlı qruplaşmaları idarə edirdi və onlar müstəqil islam dövləti qurmaq istəyirdilər.

Mario filippinlilərə Allahın Kəlamında olan həqiqəti çatdırmaq üçün hər gün həyatını təhlükəyə atırdı. Keçmiş bir müsəlman olan Mario Məsihin məhəbbəti ilə dolub Xoş Xəbəri müsəlman yaxınlarına və qonşularına böyük həvəslə bölüşürdü. O öz evində açıq şəkildə Müqəddəs Kitab dərsləri keçirirdi və bunun nəticəsində “Jolo Müjdəçi İttifaqı Kilsəsi” adlı ev toplantısı yaranmışdı.

Mario bu işin təhlükəli olduğunu anlayaraq bir neçə dəfə həyat yoldaşı Cuma demişdi: “Rəbbin işi üçün hər zaman ölümlə üzləşməyə hazır olmalıyıq”.

Bir kilsə rəhbəri və sülh tərəfdarı olaraq Mario Asidre cəsarətlə və açıq şəkildə həqiqəti elan etdi və bunun üçün həyatını itirdi. Marionun qətlindən sonra digər kilsə rəhbərləri də hədələndi, öldürüldü və bəzi kilsələr bağlanmağa məcbur oldu. Amma buna baxmayaraq Filippinin cənubundakı məsihçilər heç də geri çəkilmədi. Bir çox məsihçilər şəhərdə hələ də fəaliyyət göstərən yeganə kilsədə ibadət üçün toplaşdılar. Marionun ölümündən neçə ay sonra Cum imansız qohumlarına həqiqəti çatdırmaq üçün xidmətinə davam etdi.

Filippinin “Məsihçi və Müjdəçi İttifaqı”kilsələrinin pastoru Edilberto Biranın həyatı üçün təhlükələr olsa da, Marionun ölümündən sonra oradan qaçıb getmədi. O, daha qətiyyətli olub müsəlmanların üstünlük təşkil etdiyi bölgədə kilsənin çiçəklənəcəyinə ümid etdi. Edilberto Marionun qoyduğu nümunədən güc əldə edib ruhlandı.

Edilberto Marionun qətlindən sonra belə demişdi: “İnsanların Rəbdə böyüməsi üçün biz yalnız onlara kömək edə bilərik. Bizi [öldürsələr] də, Rəbbin işinin davam edəcəyinə əminik, çünki Rəbb vəd etmişdir: ‘Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək’” (Matta 16:18).

"İztirablı düşüncələrə və xatirələrə baxmayaraq nifrət üçün vaxtım yoxdur. Həyatım xoşbəxtlik, insanları sevmək və onların qayğısına qalmaqla o qədər doludur ki, kin xərçənginin həyatımı məhv etməsinə yol verə bilmərəm. Mən sevinirəm. Oxuyuram. Gülürəm. Bayram edirəm. Çünki bilirəm ki, Allahım bütün şər qüvvələr və şeytanın düşünüb hazırladığı istənilən dağıdıcı niyyəti üzərində hökmranlıq edir. Ən əsası isə Tanrım qəlbimdə hökm sürür!"

**— 22 il Kubada həbsdə olan pastor Nobel Aleksandr**

# 2012–2018

# Afrika Daxili Kilsəsinə Hücum

(İyul 2012-ci il)

O gün dörd yaşlı Melisa və anası Sandra üçün adi bir bazar günü idi. Onlar səhər kilsəyə getməyə hazırlaşdılar və Keniyanın Qarissa şəhərindəki Afrika Daxili Kilsəsinə yollandılar. Sandra kilsədə ibadətə qoşulmazdan əvvəl qızı Melisanı uşaqlar üçün olan bazar günü dərslərinə göndərdi.

Amma həmin səhər kilsədəki ibadət tamamilə fərqli oldu. İbadət zamanı təcavüzkarlar kilsənin içinə qumbaralar atdılar. Camaat həyəcan içində çıxış qapılarına doğru qaçmağa başladılar, lakin kilsənin içindəki partlayışdan qaçmağa çalışan insanlar çöldə avtomat atəşlərinə tuş gəldilər. Bazar günü dərslərində iştirtak edən Melisa və başqa uşaqlar otağın bir küncünə sığışıb hücumun bitməsini gözlədilər.

Atışma sona çatdıqda məlum oldu ki, on beş nəfər həyatını itirmiş, əllidən çox insan yaralanmışdı. Son illərdə Keniyanın məruz qaldığı dəhşətli terror aktlarına "Əş-Şəbab" silahlı islam qruplaşması cavabdeh olduğunu bildirib.

2006-cı ildə Əş-Şəbab islam düşmənlərinə qarşı "müqəddəs müharibə"yə başladı və o vaxtdan bəri Keniyadakı məsihçilər hədəfə çevrildilər. Ərəbcə "Gənclər" mənasını verən bu terror qrupu əvvəlcə Somalidə yaranmış, sonra isə Keniyaya yayılmışdı. Keniya hərbi qüvvələri Somalini işğal etdikdən sonra Keniyada gərginlik artdı və Əş-Şəbab qruplaşması Keniya xalqından qisas alacağına söz verdi.

O səhər Sandra uşaqlar üçün olan bazar günü dərslərindən qızı Melisanı götürmədi. Sandranın dostu Melisanı evə aparmağa gəldi, qıza anasının güllələndiyini və xəstəxanada olduğunu söylədi. Ertəsi gün Sandra aldığı güllə yaralarından həyatını itirdi. Melisa hücumda yetim qalan on iki uşaqdan biri idi.

Həmin gün şəhərin o biri tayında olan katolik kilsəsi də hücuma məruz qaldı; Keniya təhlükəsizlik qüvvələri hücumların bir-birilə əlaqəsi olduğuna əmin idi.

Məsihçilər hücumda həlak olanlar üçün kədərlənsələr də, onlar əbədi həqiqət olan Allahın Kəlamına etibar etdilər. Bir dul qadın ərinin məzarının üzərində Yəhya 3:16-cı ayənin həkk olunmasın xahiş etdi, çünki o, Allahın məhəbbətinin hətta hücum edənlərə də aid olduğunu bilirdi. Keniyalı məsihçilər Əş-Şəbab tərəfindən təqiblərə məruz qalsalar da, inanırlar ki, Rəbb onları çətin anlarında tərk etməyəcək.

Mən sənə deyirəm ki, sən Petersən və Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək.

**Matta 16:18**

# Matayo Kaçili

## (Fevral 2013-cü il)

Cenerosa əri Matayo Kaçili ilə sağollaşdıqdan sonra mətbəxə qayıtdı ki, on iki uşağı üçün düyüdən bişirdiyi səhər yeməyini qarışdırsın. Cenerosa ocağın üstündəki düyünü qarışdırarkən kürəyinə bağladığı dörd aylıq körpəsi qığıldadı.

Pastor Kaçili Tanzaniyanın şimal-qərbində yerləşən və böyüməkdə olan kilsədə xidmət edirdi, bir çox çətinliklərlə üzləşsə də, Allah onu və ailəsini həmişə təmin edirdi. 2013-cü ilin fevralı ayı idi. Kaçili həmin səhər başqa ölkədən gəlmiş pastor dostunu yola salacaqdı, amma Cenerosa ərinə görə nə üçünsə narahat idi.

Bu yaxınlarda müsəlmanlar və məsihçilər arasında mal-qara kəsimi ilə əlaqədar mübahisədən sonra şəhərdə gərginlik artmışdı. Tanzaniyada konstitusiya mal-qara kəsməyi məsihçilərə qadağan etməsə də, bu iş ənənəvi olaraq müsəlmanlara verilirdi; əgər müsəlman bu işi görərdisə, kəsilən mal-qaranın əti "halal" və ya islam şəriətinə əsasən icazə verilən hesab olunurdu.

Bir neçə gün əvvəl Kaçili məsihçilərin mal-qara kəsmək, ət satmaq hüquqlarından danışmışdı və Cenerosa narahat idi ki, bu sözlərə görə qəzəbli müsəlmanlar ərini hədəfə çevirərlər. Həmin gün müsəlmanların qəssab dükanında saldığı qarışıqlıqdan Cenerosanın xəbəri var idi. Lakin Kaçili arvadını əmin etdi ki, Buseresere şəhərindəki camaat onun heç kimə zərər vurmadığını bilirlər.

Pastor dostu ilə sağollaşmağa gedərkən küçədə dörd silahlı müsəlman Kaçilinin qarşısını kəsdi. "Bax budur, məsihçi pastor!" — deyə Kaçilinin qonşusu olan kişilərdən biri qışqırdı. Onlar pastoru tutub çınqıllı küçə ilə sürüdülər, sonra onu mühasirəyə alaraq böyük bıçaqlarla üstünə hücum etdilər. Biri onun başını kəsməyə çalışdı, lakin bıçaq yan keçərək Kaçilinin sinəsinə dəydi. Bıçaqla vurulan zərbələrdən başını və boynunu qorumaq üçün onun sağ əli az qala dibindən kəsilmişdi.

Kişilər çıxıb getdikdən sonra kilsə üzvlərindən biri Kaçilini küçədə tapdı. Pastor çox söz deyə bilməsə də, özündə bir az güc tapıb hücum

edənlərdən birinin adını söylədi: "Mənə tanıdığım insanlar hücum etdilər, onlardan biri Abdulla idi". Bir vaxtlar Məsihi qəbul edən, lakin sonralar islama dönən Abdulla bir az əvvəl əlində böyük bıçaqla qəssab dükanında olmuşdu.

Hücumdan az sonra qonşu Cenerosanın evinə qaçdı və hönkürtü ilə ağlayaraq Kaçilinin başına gələnləri ona çatdırdı: "Bazara gedərkən xəstəxanının önündə camaatın toplaşdığını gördüm. Həkimlər Kaçilinin yaralarınını sarıyırdılar!"

Cenerosa xəstəxanaya gəlib çatanda Kaçili xərəkdə huşsuz vəziyyətdə uzanmışdı və o, tezliklə dünyasını dəyişdi.

Cenerosa ərini itirdiyinə görə böyük kədər içində olsa da, Abdullanı və ərini öldürən digər adamları bağışladı. "Onlar nə etdiklərini bilmirdilər. Biz Müqəddəs Yazılarda oxuyuruq ki, Allah bizi incidənləri bağışlamağımızı istəyir".

Tanzaniyada olan məsihçilər azad şəkildə ibadət edə bilsələr də, əsasən müsəlmanların yaşadığı ərazilərdə təzyiq və təqiblərə məruz qalırlar. Buraya ailələrə təzyiqlər, kilsələrin və evlərin yandırılması kimi hədələr aid idi. Radikal müsəlmanlar ümid edirlər ki, bu təqiblər Məsihin davamçılarını qorxuya salacaq və Müjdənin yayılmasını dayandıracaq. Lakin onlar buna müvəffəq ola bilmədilər, əksinə Müjdə yayılmaqda davam etdi.

Bütün bunlara baxmayaraq Tanzaniyada yerli kilsələr çətin və əlçatmaz ərazilərdə Allahın Padşahlığı genişləndirirlər. Bir çox yerli məsihçilər kimi, Cenerosa da təqiblərin kilsəyə böyük birlik gətirdiyinə inanır. O əmindir ki, ərinin şəhid olmasına "Rəbb Öz Padşahlığına məhsul gətirmək" üçün yol verdi.

# Bütün Müqəddəslər kilsəsinin bombalanması

## (22 sentyabr 2013-cü il)

Pakistanın Pişəvər şəhərində yaşayan Xalid bir neçə ay idi ki, xəstə idi. Lakin o, şənbə günü gecə yatmazdan əvvəl həyat yoldaşına kilsəyə getmək üçün özünü yaxşı hiss etdiyini söylədi: "Sabah bazar günüdür, ona görə də mən Rəbbə şükür etmək üçün kilsəyə gedəcəyəm". Pişəvərin başqa yerində yaşayan Sambl və Saba bacıları da Bütün Müqəddəslər kilsəsində səhər ibadətinə getmək üçün erkən yatdılar.

Ertəsi gün səhər Xalid, Sambl və Səba yüzlərlə digər məsihçi kimi kilsəyə yollandılar. O səhər oxuduqları ilahilərdən birinin sözləri belə idi: "Onu sevənlər sevinclə şəhidlik qədəhindən içərlər... Onlar təqibləri öz bədənlərində hiss edərlər". İbadətdən sonra camaat kilsənin həyətində birgə nahar etməyə başladılar.

Pakistanın talibançıları ilə əlaqəsi olan Cundullah terror qruplaşmasının iki silahlı üzvü də həmin səhər əyinlərində sui-qəsd jiletləri geyinmiş halda kilsəyə gəlmişdilər. Məsihçilər ünsiyyət qurub yemək yeyərkən silahlılar partlayıcıları işə saldılar. Bir-birinin ardınca iki partlayış baş verdi. Bir neçə saniyə ərzində 80-dən çox məsihçi həyatını itirdi və 150 nəfər yaralandı. Böyük kədər və sarsıntı içində olan kilsə üzvləri dağılmış kilsə binasının qarşısında ağır yaralanmış dost və qohumlarına kömək etməyə çalışdılar. Bu partlayış tarixdə pakistanlı məsihçilərə qarşı olan ən dəhşətli hücum idi.

Partlayışdan sağ çıxan Sambl bacısının ölümünü öz gözləri ilə gördü. Xalid də xəstəxanaya çatmamış aldığı yaralardan dünyasını dəyişdi. Hücum zamanı yaralanan başqa bir məsihçi qadın Xalidə Məryəm həmin vaxt səkkiz aylıq hamilə idi. Partlayış zamanı qəlpələr onun hər iki ayağını və qolunu sındırdı, qarnına dəyərək bətnindəki körpəsini öldürdü. Məryəmi xəstəxanaya apardılar və orada ayaqlarına mil qoydular. Onun qolunu da müalicə etdilər və bətnindəki ölmüş körpəsini çıxarmaq üçün əməliyyat olundu. Sonralar Məryəm aldığı fiziki xəsarətlərdən sağaldı.

Pişəvərdəki partlayışın qurbanlarına yardım göstərmək üçün Pakistanın digər bölgələrindən olan məsihçilər birlikdə çalışdılar. Onlar bununla dünyadakı imanlılara Məsihin bədənində birliyi nümunə olaraq göstərdilər. Şəhid olmuş sadiq imanlıların mirası, hücum edənlərin cəmiyyətdə yaratdığı qorxudan daha uzunömürlü olacaqdı. Xalidin arvadı belə demişdi: “Xalid şəhid oldu və bütün dünya onu xatırlayacaq”.

Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir.

**1 Korinflilərə 12:26**

# Ehab Qattas

## (31 dekabr 2013-cü il)

Qahirədəki San Corc kilsəsində məsihçilərlə birlikdə Ehab Qattas da yeni ili səbirsizliklə gözləyirdi. O, axşam ibadəti üçün kilsəyə gəlib oturdu. Bir az sonra "Müsəlman qardaşlar" adlı ekstremist qrupu kilsəyə molotov kokteyli (kustar üsullarla hazırlanmış partlayıcı yanar şüşə butulka) atıb binaya atəş açdılar. Ehab və bir neçə gənc məsihçi dərhal ibadət edənləri qorumağa çalışdılar. Lakin güllə Qattasa dəydi və onu xəstəxanaya apardılar.

Üç xəstəxana onu qəbul etmədi. Nəhayət, bir xəsətəxana onu qəbul etdi, lakin artıq çox gec idi. Ehabın vəziyyəti daha da pisləşdi və az sonra o, dünyasını dəyişdi.

İnstitut tələbəsi olan Qattas Misirin şərqi ənənəvi Kopt məsihçi cəmiyyətinin bir üzvü idi. Misir Yaxın Şərqdə məsihçi azlıqlarına görə birinci yerdədir və "Müsəlman qardaşlar" kimi tanınan islamçı ekstremist qrupları, xüsusilə məsihçiləri hədəfə alır, onların qızlarını qaçırır, oğullarını öldürür, evlərini və iş yerlərini yandırır, talayır və kilsələrinə bomba atırlar. 2013-cü ildə ekstremist qrupun siyasi namizədi olan Məhəmməd Mürsi prezident vəzifəsindən kənarlaşdırıldıqdan sonra "Müsəlman qardaşlar"ın məsihçilərə qarşı hücumları artmağa başlayıb.

Misirdəki məsihçilər yaxşı anlayırlar ki, hər an hücuma məruz qala bilərlər. Lakin onlar qəlblərində qorxuya yer verməyərək islamın hökmranlıq etdiyi bir xalq arasında ibadət etmək üçün toplaşırlar.

# Dayk Oça

## (4 fevral 2014-cü il)

Pastor Dayk Oça evinin yaxınlığındakı binada balaca bir qızın cəsədini aşkar edəndə dərhal polisə müraciət etdi. Altı yaşlı uşaq dörd gün idi ki, itkin düşmüşdü və Nigeriyanın Katsina əyalətindəki Kankia qəsəbəsinin əhalisi bu dəhşətli hadisəni eşidəndə qorxmuşdular. Lakin Oçanın polisə müraciət etməsi onu asanlıqla qəzəbli kəndlilərin hədəfinə çevirdi.

Qızın ölümündə Oçanın günahkar olması barədə yalan şayiələr sürətlə kəndə yayıldı. Tezliklə iki min gəncdən ibarət izdiham Oçanın evinə hücum edərək onun və kənddəki digər məsihçilərin ölümünü tələb etdi. Onlardan bəziləri Oçanı tutub küçəyə apararaq orada amansızcasına döydülər.

Oçanı xəstəxanaya apararkən izdiham onun arxasınca düşdü. Xəstəxanada otağını tapıb onu küçəyə çıxardılar, yandıraraq öldürdülər. Hücum edənlər pastorun evini və yerli kilsəni də yandırdılar. Bir neçə başqa məsihçinin evi qarət edildi və dağıdıldı. Məsihçi ailələr qorxu içində qəsəbəni tərk etməyə məcbur oldular. Hər şeyini itirən və uşaqlarının həyatı üçün qorxan Oçanın arvadı da iki övladını götürüb oranı tərk etdi.

Yerli polis komissarı daha sonra müəyyən etdi ki, qızın ölümü ilə Oçanın heç bir əlaqəsi yoxdur.

Dağıdılmış kilsənin üzvləri növbəti bazar günü ibadət etmək üçün bir evdə toplaşdılar, sonra kilsə binasının qalıqlarına baxmaq üçün oraya yollandılar.

İslam qanunları ilə idarə olunan ayrıca bir ölkə yaratmaq istəyən qatı müsəlmanlar Nigeriyanın şimalında yaşayan məsihçiləri daim təqib etsələr də, Katsina əyalətində vəziyyət sakitdir. Amma bölgədəki məsihçilər anlayırlar ki, islamçılar və ya hətta öz qonşuları tərəfindən hər an təqiblərə məruz qalıb evlərindən və ailələrindən məhrum ola bilərlər. Bütün bunlara baxmayaraq Nigeriyanın şimalında yaşayan bir çox məsihçilər qonşularına cəsarətlə Müjdəni bölüşürlər.

# Samirə

## (25 iyun 2014-cü il)

2001-ci ilin sentyabrın 11-də səhər saatlarında Xalid (təhlükəsizlik məqsədilə adı dəyişdirilib) Yəməndəki öz yerli məscidində azan oxudu. O, bütün həyatı boyu müsəlman olmuşdu və hətta orta məktəbdə islamdan dərs keçmişdi. Lakin bu yaxınlarda qohumlarından birinin kitabxanasında tapdığı Matta İncilini oxuduqdan sonra öz dinini şübhə altına almağa başlamışdı.

Həmin gün Xalid xəbərlərə baxanda və Allahın adı ilə edilən pisliyi görəndə islamdan uzaqlaşmaq qərarına gəldi. "Üç min adam öldürüldü. Bu necə dindir?" — deyə o düşündü.

Şagirdlərindən biri ona məsihçi radio proqramı haqqında danışdıqdan sonra Xalid verilişi gizlicə dinləmək qərarına gəldi. Tezliklə o, proqramın aparıcıları ilə danışmaq üçün zəng etməyə başladı və bir gecə onlarla söhbət edərkən Məsihi ürəyinə qəbul etdi.

Xalid üçün islamı tərk etmək böyük risk idi. Yəməndə Məsihi qəbul edən müsəlmanlar təhdid, döyülmə, bəzən də ölümlə üzləşirdilər. Məsihçilər ölkədəki əhalinin 1%-dən az hissəsini təşkil edir və ölkə qanunlarına əsasən islamı tərk edənlərin öldürülməsinə icazə verilir. Ailə üzvünün məsihçi olması böyük rüsvayçılıq hesab olunur və Yəməndəki kilsə əsasən gizli fəaliyyət göstərir. Xalid tezliklə öz yeni qərarının nəticələri ilə üzləşəcəyindən xəbərdar idi.

Xalidin ailəsi də onun davranışındakı dəyişikliyi hiss etdi. Həyat yoldaşı Samirə (təhlükəsizlik məqsədilə adı dəyişdirilib) ərinə görə narahat oldu. Xalid Müqəddəs Kitabı öyrənmək üçün tez-tez başqa şəhərə gedirdi və Samirə ərinin orada başqa arvad tapacağından qorxurdu.

Məsihçi olduğunu arvadına söyləmək Xalidin indiyə qədər apardığı ən çətin söhbətlərdən biri idi. Lakin o, qəlbinin və davranışlarının Məsihin məhəbbəti vasitəsilə dəyişdiyini söyləyərkən Samirə də həyatında bu dəyişikliyi istədi. Sonra o da ərinə qoşularaq İsanı ürəyinə qəbul etdi.

Xalid, arvadı Samirə və dörd övladı məscidə getməsələr də, yeni imanlarını gizli saxladılar. Xalidin Müqəddəs Kitabı öyrədən imanlı

dostları onun vəftiz olunmaq istədiyini soruşana qədər onlar iki il belə yaşadılar. Bu zaman o, İsaya imanını bəyan etməyin vaxtı çatdığını hiss etdi. Xalid vəftiz olunmaq üçün ailəsi ilə birgə dəniz sahilinə getdi və dostları gələndə Samirə də vəftiz olunmaq istədi.

"Müsəlman qardaşlar" adlı terror təşkilatının üzvləri onların vəftiz şəkillərini haradansa əldə edərək Yəməndəki müjdəçiləri hədəfə almaq üçün Feysbuk səhifəsində yerləşdirdilər. Bir neçə gün sonra Xalidin vəftiz şəkilləri, ailəsinin ünvanı və işlədiyi məktəbin ünvanı DVD-lərdə paylandı. İş yoldaşları bir neçə dəfə Xalidin üstünə daş atıb onu döydülər. Onun maşınının təkərlərini deşdilər, şüşələrini sındırdılar və qonşuları itini zəhərlədilər.

Samirə də onların hədəfinə çevrilmişdi. 2013-cü il ildə Samirə bir gün küçədən keçərkən Xalidin qardaşı oğlu ona hücum edərək qolunu sındırmışdı. Xalid polisə şikayət etmək istəyəndə ona çatdırmışdılar ki, arvadı məsihçi olduğuna görə döyülməyə layiqdir.

Ailələrinə olan təqiblər o qədər şiddətləndi ki, Xalid artıq dərs ilinin sonunda Yəməndən köçmək üçün çıxış yolu axtarmağa başladı.

2014-cü ilin iyunun 9-da səhər saatlarında oğlu Xalidi silkələyərək yuxudan oyatdı və qışqırdı: "Ata! Ana mətbəxdə yanır!"

Kimsə onların evinə soxulub bitki yağını benzinlə əvəz etmişdi. Xalid və oğlu alovu söndürərək Samirəni xəstəxanaya çatdırdılar.

Həkimlər Samirənin bədəninin yuxarı hissəsində 3-cü dərəcəli yanıq xəsarətləri olduğunu təyin etdilər. Amma xəstəxana işçiləri Samirənin məsihçi inancından xəbərdar olduqda onun qayğısına qalmaqdan imtina etdilər. Tibb bacıları onun sarğılarını dəyişmədilər və həkim Xalidi məcbur etdi ki, Samirənin dərmanını aptekdən öz pulu ilə alsın. Xəstəxana Samirənin otağına da bir imam çağırtdırdı. O, Samirə və Xalidə Qurandan oxudu və cütlüyə islama qayıtmaq üçün təzyiq göstərdi.

İyunun sonunda Xalid bu hadisələrdən təngə gəldi və həyat yoldaşını müalicə almaq üçün başqa yerə köçürmək istədiyini xəstəxana rəhbərliyinə bildirdi. Bundan sonra xəstəxanadakılar Samirə ilə daha yaxşı davranacaqlarına söz vedilər. Həkim Samirə üçün kalium xlorid reseptini yazıb Xalidə verdi və onu əmin etdi ki, bu dərman arvadını sağaldacaq.

Əczaçı Xaliddən dərmanın nə üçün istifadə olunacağını soruşdu. Xalid bunu ona izah edəndə əczaçı dərhal həkimə zəng etdi. Onların arasında

mübahisə yarandı, amma axırda həkimin dediyi sözdə qaldılar. Dərmanı alıb gətirdikdən sonra həkim onu Samirəyə vurdu. Xalid arvadı ilə qısa danışaraq birlikdə dua etdi və sonra qadının dincəlməsi üçün çıxıb getdi.

İki saatdan sonra o qayıdanda Samirə artıq ölmüşdü. Axırıncı vurulan dərmanın dəqiq miqdarı bilinməsə də, yüksək dozada kalium xlorid ürəyi dayandıra bilərdi.

Samirənin ölümündən sonra kənd sakinləri Xalid barədə yalan şayiələr yaydılar. Guya Xalid arvadının islama dönməsinə icazə vermədiyi üçün qadın özünü yandırmışdı. Onlar bu şayiələrlə Samirəni və Xalidi gözdən salmağa çalışdılar. Hətta Xalidin işlədiyi məktəbdəki şagirdlər eşitmişdilər ki, güya mətbəxdəki bitki yağını o özü benzin ilə əvəz etmişdi.

Bağışlamağın asan olmadığını etiraf edən Xalid ailəsini təqib edənləri Allahın lütfü ilə əfv etdiyini söylədi. O, 2018-ci ildə sosial şəbəkədə bu fikrini paylaşdı: "Məni sözlə, öz hərəkətləri ilə — birbaşa və ya dolayı yolla — təqib etməyə təşviq edən hər kəsi bağışlayıram". Əri ilə son söhbətində Samirə Xalidə onları təqib edənlərin hamısını, o cümlədən onun yanmasına səbəb olanları bağışladığını demişdi.

İsanın Matta 6:15-ci ayədə şagirdlərinə söylədiyi sözləri Xalid və Samirə nümunə olaraq göstərdilər: "Amma siz başqa insanları bağışlamasanız, Atanız da sizin təqsirlərinizi bağışlamaz".

# Keniya Sahil Hücumları

## (İyun-İyul 2014-cü il)

2014-cü ilin iyun-iyul aylarında Keniya sahillərindəki məsihçilər dəfələrlə islamçı qruplarının hücumlarına məruz qaldılar. Keniyada əhalinin əksəriyyətini məsihçilər təşkil etsə də, son illərdə ölkədə müsəlmanların nüfuzu artıb. İslam hərbçiləri, xüsusilə də Somalidə yaranmış Əş-Şəbab ekstremist qruplaşması məsihçiləri daha çox təqib edirlər.

Əş-Şəbab əvvəlcə iyun ayında Mpeketoni kəndini hədəfə aldı. Əlliyə yaxın silahlı şəxs kəndə basqın edib qapı-qapı gəzərək onların müsəlman, yoxsa məsihçi olduqlarını soruşmuş, sonra isə məsihçiləri öldürmüşdü. Hücumdan sağ çıxmış Samanta belə dedi: "Ərim onlara məsihçi olduğumuzu söylədikdən sonra silahlılar onu başından və sinəsindən güllələdilər". Beş saat davam edən bu hücüm nəticəsində altmış nəfər həyatını itirdi.

Bir neçə gün sonra silahlıların Keniyanın Poromoko şəhərinə hücumu nəticəsində on beş nəfər qətlə yetirildi və on iki qadın qaçırıldı. Mpeketoni hücumunda olduğu kimi, burada da gecə yarısı silahlılar qapı-qapı gəzərək insanları çölə çıxarıb kəlmeyi-şəhadəti söyləməyi əmr edirdilər. Bunu etməyənləri öldürürdülər.

Təxminən iki həftə sonra Hindi kəndinə edilən hücumda on dörd nəfər həyatını itirdi. Silahlı dəstə yenidən qapı-qapı gəzərək məsihçiləri evlərindən çıxarırdılar. Məsihçi kişiləri güllələməzdən və ya boğazlarını kəsməzdən əvvəl əllərini bağlayırdılar. İsanı inkar etməyən bir kişi kürəyində Müqəddəs Kitab üzüstə palçığın içində qalmışdı.

Bir çox keniyalılar məsihçiliyi ölkələrindən təmizləmək istəyən islamçı ekstremistlərin təqibləri ilə üzləşsələr də, imanlılar bütün bunlara mətinliklə dözür və Rəbbin şahidləri kimi öz xidmətlərinə davam edirlər.

# Terri Tumba

## (17 sentyabr 2014-cü il)

Terri və Elizabet təcavüzkarların Nigeriyada kəndlərinə yaxınlaşdığını eşidən kimi, cəld uşaqlarını dua etmək üçün bir yerə topladılar. Terri arvadından uşaqları götürüb qaçmağı xahiş etdi, lakin artıq gec idi. Arxa hasarın üstündən keçərkən Boko Haram döyüşçüləri onları tutdular.

2009-cu ildə yaradılan Boko Haram islamçı qruplaşması Nigeriyanın şimalını məsihçilərdən təmizləmək və islam qanunlarına əsaslanan müsəlman dövləti yaratmaq niyyətindədir.

Silahlılar dərhal Terrini hədələməyə başladılar və tüfəngi ona tuşlayaraq tələb etdilər: "Bizim dinimizi qəbul edəcəksən? Müsəlman olmaq istəyirsən?"

Elizabetin əri tərəddüd etmədən cavab verdi: "Mən müsəlman olmayacağam".

Daha sonra təcavüzkarlar Terrinin öz ailəsini təmin etmək üçün işlətdiyi kiçik dükanını qarət etdilər. Silahlılar düşünürdülər ki, Terri gəlir yerini itirdiyinə görə onlara qoşulacaq. Dəstənin adamları yenidən ona islamı qəbul etməyə təhrik etdilər, lakin bu dəfə də Terri imtina etdi.

Nəhayət, silahlılar ailə üzvlərinə bayıra çıxmağı əmr etdilər. Elizabet silahlılardan birinin mağazaya partlayıcı atdığını, digərinin isə ərini güllələdiyini öz gözləri ilə gördü.

Son nəfəsində Terri Xilaskarını çağırdı: "İsa, məni Sənin adına görə öldürürlər!"

Elizabet uşaqlarını götürüb kənddən qaçdı. Onlara kömək təklif edən bir məsihçini tapana qədər bir həftə piyada yol getdilər.

Terri Tumba ölümlə üz-üzə qaldıqda belə, Məsihə olan imanından dönmədi. Boko Haram və digər islamçı qruplaşmaların əli ilə Nigeriyanın şimalında saysız-hesabsız məsihçilər Xilaskarlarından üz döndərmədikləri üçün qətlə yetirilmişdir. Amma onların iman yolunda göstərdikləri dəyanət bir gün öz mükafatını alacaq.

# Şahzad və Şama

## (4 noyabr 2014-cü il)

Beş yüzdən artıq müsəlman Şahzad və Şamanın evini mühasirəyə aldı. İzdiham onları təhqir edərək hədələyirdi. Bu vaxt cütlük bir-birinə sıxılaraq dua edirdilər. Məscidin rəhbəri səsgücləndirici vasitəsilə cütlüyü Quranı yandırmaqda günahlandıraraq camaatın qəzəbini daha da artırdı. "Qurani-Kərimi yandırdıqlarına görə biz onların dərsini verəcəyik!" — deyə izdiham qışqırdı.

Qəzəbli müsəlmanlar cütlüyün samandan olan damlarındakı deşikdən evlərinə girib onları çölə çıxardılar. Mərhəmət üçün yalvarışlarına və Şamanın dördüncü övladına hamilə olmasına baxmayaraq, izdiham onları amansızcasına döyərək Şahzadın və Şamanın ayaqlarını sındırdı. Sonra camaat onları traktorun arxasına bağlayaraq otuz dəqiqədən çox sürüdü.

2000-ci ildə Şahzad qardaşları və atası Nazarla birgə Pakistanın Kot Radha Kişan şəhərinə köçmüşdü. Məsihçi imanına görə iş tapmaqda onlar çətinlik çəkirdilər. Pakistanda məsihçilərə ikinci dərəcəli vətəndaş kimi yanaşırlar və buna görə də onlar çox vaxt küçələrdə süpürgəçi və ya kanalizasiya işçisi kimi işləməli olurlar. Şahzadın ailəsi özlərinə ağır bir iş, kərpic bişirmək işini tapdı. Onlar qul kimi yaşayırdılar və kərpic sobasının sahibinə böyük borcları var idi, buna baxmayaraq yemək və yaşayışlarını təmin edə bilirdilər.

Altı il sonra Şahzad Şama adlı məsihçi bir qadınla evləndi. Onlar birlikdə özlərini Rəbbə və məsihçi cəmiyyətinə həsr edərək ayda iki dəfə dua etmək üçün yerli məsihçilərlə görüşürdülər. Şahzadın atası Nəzər isə bəzi yerli müsəlmanlarla dostluq etməyə başlamışdı və hətta onların bəzi dini ayinlərinə də qoşulmuşdu. Bu, Şamanı narahat edirdi və qayınatasının Məsihə sadiq qalması üçün ona yalvarmışdı. Nəzər daha sonra gəlininin məsləhətinə qulaq asaraq müsəlman ayinlərində iştirak etmədi və bu, kənd camaatının gözündən qaçmadı. Kənddəki müsəlmanlar düşünürdülər ki, Şama qayınatasını islamdan məsihçiliyə döndərib və buna görə qadına qarşı qəzəbləri daha da artmışdı.

Nəzər xəstələnəndə Şahzad onu müalicə etdirmək üçün işdən məzuniyyət götürdü. Oktyabrın sonunda Nəzər vəfat edəndən sonra Şahzad kərpic bişirmək işinə qayıtdı, lakin işə gəlmədiyi üçün rəhbərləri tərəfindən döyüldü. Şahzad bu işdən çıxmağı qərara gəldi. Amma Nəzərin kərpic sexinin sahibinə külli miqdarda borcu qalmışdı və Şahzad sülhlə işdən çıxmaq istəyirdi. O, sahibkara dedi: "Sizə nə qədər borcumuz olduğunu bizə deyin. Biz onu qaytaracağıq və kərpic bişirmək işimizi tərk edəcəyik".

Kərpic sobasının sahibi və onun köməkçisi ər-arvadın elə-belə çıxıb getməsini istəmirdilər. Onlar artıq Şahzaddan incimişdilər, çünki kişilər arvadı ilə pis davranarlar deyə, o, Şamanı orada işləməyə qoymamışdı. Sobanın sahibi və onun köməkçisi belə bir plan qurdular. Əgər onlar Şahzad və Şamanı Quranı yandırmaqda günahlandırsaydılar, buna görə cütlüyü döyüb zindana atacaqdılar. Beləliklə, 2014-cü il noyabrın 4-də səhər tezdən soba sahibi və onun köməkçisi yerli məscidə getdilər və məsihçi cütlüyü cinayətdə ittiham edərək müsəlmanlar arasında onlara qarşı hiddət yaratdılar.

İzdiham Şahzad və Şamanı sürüyərək kərpic sobasının həyətinə gətirdilər və onların cansız bədənlərini kərpic sobasının üstündəki deliklərə basaraq yandırdılar. Bütün bunlar dörd saat ərzində baş verdi.

Polis Quranın yandırılması ilə bağlı heç bir dəlilin olmadığını bildirdi və yerli siyasətçilər bu qətl hadisəsini pislədilər. Həmin gün 400 nəfər etdikləri əməllərə görə həbs olundu və ölkədəki küfr qanunlarını dəyişdirmək üçün hərəkat başladı. Küfr qanunları məsihçilərə qarşı geniş şəkildə istifadə edilir. Bu qanunlara əsasən, məsihçilər islamı, Quranı və Məhəmmədi təhqir etməkdə yalandan ittiham olunurlar. Şahzad və Şama son nəfəslərinədək İsaya imanlarında möhkəm qaldılar və ölümləri əbəs yerə olmadı.

# Verner, Jan-Pyer və Rode Qronvald

## (29 noyabr 2014-cü il)

Verner və iki övladı Əfqanıstanda Taliban döyüşçüləri tərəfindən öldürülməzdən təxminən bir ay əvvəl o, Məsih üçün yaşamağın dəyəri haqda konfransda güclü bir çıxış etdi. O, mövzunu bu sözlərlə bitirdi: "Biz yalnız bir dəfə ölürük. Bu, Məsih üçün də ola bilər". Verner bir neçə həftədən sonra özünün və uşaqlarının şəhid olacağını bilmirdi.

2002-ci ildə Pakistanda müjdəçilik səfərində olarkən Verner Tanrıdan hiss etdi ki, Məsihin əlləri və ayaqları olmaq üçün Cənubi Afrikadakı rahat həyatını tərk etməlidir. Geriyə ailəsinin yanına qayıdanda o, həyat yoldaşı Hanneliyə dedi ki, Əfqanıstana qısamüddətli səfərə getməli olduğunu hiss edir. Arvadı onunla razılaşdı və səfər zamanı Hanneli də qəlbində duydu ki, Rəbb onları Əfqanıstanda uzunmüddətli iş görməyə çağırır.

"Həyatımda ilk dəfə idi ki, Rəbbin xüsusi toxunuşunu bu şəkildə hiss edirdim. Mən ağlamağa başladım və bildim ki, Əfqanıstana və Pakistana, dünyanın harasına Rəbb səni çağırırsa, ora sənin evin ola bilər" — Hanneli dedi.

Ailə üçün köçmək qərarı asan deyildi, xüsusən də cütlük iki övladı üçün Əfqanıstandakı həyatlarının necə olacağını düşünürdü. Əfqanıstan 2001-ci ilin sentyabrın 11-də ABŞ-da hücumları həyata keçirən terrorçuların vətəni idi və burada məsihçilər üçün həyat çətin və təhlükəli idi. Onlar müharibə gedən bir ölkədə ölmək ehtimalını müzakirə etdilər. Ər-arvad sevən valideynlər kimi beş yaşlı oğulları Jan-Pyer və üç yaşlı qızları Rodeni necə oxudacaqları barədə narahat idilər. Lakin onlar Rəbbə güvənirdilər, çünki Onun çağırışının üzləşəcəkləri təhlükələr qədər gerçək olduğunu bilirdilər. Verner və Hanneli anlayırdı ki, Allaha itaətkar olmaq qorxularından daha üstündür.

2003-cü ildə Əfqanıstana köçəndən sonra onlar mədəniyyət şoku keçirdilər. Ailə yeni qonşuları ilə ünsiyyət qurmaqda çətinlik çəkirdi və hiss edirdi ki, onları həmişə güdürlər. Neçə illər ərzində Verner müxtəlif



*Verner Qronvald və oğlu Jan-Pyer və qızı Rode Əfqanıstanda Taliban tərəfindən öldürülərək şəhid oldular.*

humanitar təşkilatlarda xidmət göstərərək, rəhbərlik barədə və ingilis dilindən dərslər keçirdi. O, get-gedə əfqan xalqı ilə ünsiyyət yaradırdı və müəllimlik işini xoşlayırdı.

Ailəyə olan hücumdan bir neçə həftə əvvəl yaşadıqları bölgədə bir neçə partlayış baş vermişdi. Taliban Əfqanıstanda daha çox irəlilədikcə təhlükə artmışdı və ölkənin yeni prezidentinin andiçmə mərasimindən sonra sui-qəsd partlayışları çoxalmışdı. Hanneli həkim kimi xidmət etdiyi klinikaya maşınla gedərkən iki dəfə az qala partlayışa düşmüşdü. Amma heç kim onların ailəsinin həmin şənbə günü günortadan sonra hədəfə alınacağını gözləmirdi.

2014-cü ilin noyabrın 29-da səhər BMT-nin iclasında Hanneli və onun klinikasının tibb heyəti baş verə biləcək terror hücumu üçün hazır dayandılar. Jan-Pyer həmin gün otağında musiqi dinləmək, gitara çalmaq və sosial şəbəkələrdə dostları ilə söhbət etməklə, Rode isə toxumaq, kompüterdə işləmək və video oyunları oynamaqla məşğul idi. Verner səhər saat 8-də rəhbərlik dərslərinə hazırlaşmaq üçün yaşayış kompleksindəki ofislərinə getdi.

Saat 15:30 radələrində 3 silahlı şəxs onların həyətlərinə gəldi. Biri divarın üstündən tullanmaq üçün digər iki kişinin çiyninə çıxdı. Divarın üstündən içəri tullanan şəxs darvazanı açıb digərlərini içəri buraxdı. Silahsız əfqan qapıçı içəri girənlərlə qarşılaşdıqda dərhal güllələnərək öldürüldü.

Verner atəş səslərini eşidən kimi tələbələrindən Hannelinin məsləhət otağına sığınmasını xahiş etdi. Sonra özü yuxarı qalxdı, lakin təcavüzkarlarla qarşılaşdı və onu aşağı qayıtmağa məcbur etdilər.

“Ya Rəbb, bizə kömək et!” — Verner dedi. Ona üç dəfə atəş açdılar və o dərhal öldü. Sonra təcavüzkarlar Jan-Pyer və Rodeni də öldürdülər. Bu hücumdan dərs otağında gizlənən iki əfqan məsihçi sağ çıxdı, lakin terrorçuların otağa kor-koranə atəş açması nəticəsində məsihçilərdən biri ayağından yaralandı. Məsləhət otağında olan digər tələbələr girişdə barrikada qurdular, lakin hücumçunun qapıdan açdığı atəş nəticəsində onlardan biri öldü.

Hanneli işdən evə gələndə küçənin zirehli maşınlar və polis əməkdaşları tərəfindən bağlandığını gördü. O, tez Vernerə və uşaqlara zəng etdi. Onların yaşayış kompleksi əfqan polisi tərəfindən mühasirəyə alınmışdı

və onun qarşısında izdiham toplaşmışdı, lakin heç kim Hanneliyə nə baş verdiyini söyləmədi.

Saat 17:45-də vahiməli sükutu atəş səsləri, ardınca isə partlayışın gurultusu pozdu. Taliban döyüşçülərindən biri binanın dəhlizində bomba partladaraq özünü və başqalarını da öldürdü. Qalan iki silahlı təcavüskar isə polislə atışma zamanı öldürüldü. Sonra Hanneli dəhşətli xəbəri öyrəndi: əri və uşaqları həyatlarını itirmişdi.

"Bizim Allahdan dəqiq bir çağırışımız və onunla bağlı tapşırığımız var idi. Bunun bizə baha başa gələcəyini və belə bir hadisənin olacağını bilirdik. Allah hansısa bir səbəbə görə buna yol verdi" — Hanneli dedi.

Hanneli sözünə davam etdi: "Mən bilirəm ki, onlar yarışı bitirməyim, özü də yaxşı bitirməyim üçün məni alqışlayırlar. İnanıram ki, bir gün Jan-Pyer deyəcək: 'Ana, bura gəlib çıxmağın niyə belə uzun çəkdi?' İnanıram ki, onlar indi İsanın qucağındadırlar və mən də səbirsizliklə orada olmağı gözləyirəm. Amma Rəbb üçün mən bu yarışı bitirməliyəm".

# İyirmi bir məsihçi İŞİD tərəfindən şəhid edildi

(Fevral 2015-ci il)

Liviya sahilində 21 məsihçinin islamçı ekstremistlər tərəfindən edamının geniş yayılmış videosunu dünya dəhşət içində izlədi. Kişilərdən biri istisna olmaqla, hamısı Misirdən olan kopt məsihçilər idi. İŞİD-ə sadiqlik andı içmiş terrorçular videoda qara paltar geyinib üzlərini örtmüşdülər. Onlar məsihçiləri narıncı kombinezonda sahilə çıxardıb diz çökmələrini və üzlərini qumun üstünə qoymalarını əmr etdilər və sonra boyunlarını vurdular. Video dünyaya yayılanda cihadçılar açıq şəkildə bildirdilər ki, qurbanları düşmən Misir kilsəsinin üzvləri olan xaçpərəsərtlərdir.

Qətlə yetirilən məsihçilərin əksəriyyəti Yuxarı Misirin eyni kəndindən idilər və Liviyada işləyirdilər. Bir neçə ay əvvəl Liviya sahillərindəki silahlı basqınlar zamanı əsir götürülmüşdülər. Ailələri onların İŞİD tərəfindən oğurlandıqlarını eşidəndə doğmalarını yenidən görmələri üçün ümidlə dua etdilər, lakin daha çox onların Rəbbə sadiq qalmaları üçün Ona yalvardılar.

İŞİD bu qətl hadisəsini islamın qələbəsi kimi qiymətləndirsə də, məsihçilərin ailələri başa düşdülər ki, Rəbb bu faciəli hadisədən Öz əbədi izzəti üçün istifadə edə bilər. Şəhidlər arasında Samuel də var idi, onun qardaşı Bebavi Alham belə demişdi: “Biz onların Məsihin adı ilə şəhid olduqlarını eşidəndə çox sevindik. Onlar Allahın övladları olduqları üçün biz çox təsəlli tapdıq”.

Nəticədə, həmin video İŞİD-in nəzərdə tutduğu təsiri göstərmədi. Misirdə bir çox müsəlmanlar buna qarşı çıxdılar. Qahirədəki məşhur sünni Əl-Əzhər Universiteti məsihçilərin başlarının kəsilməsini “vəhşilik” adlandırdı. Digərləri qeyd edir ki, məsihçi kişilər sahildə diz çökərək ərəbcə “Rəbb İsa Məsih” dedilər. Onlar dillərində İsanın adı ilə əbədiyyətə qovuşdular.

Həlak olan məsihçilərin ailə üzvləri ərlərini, oğullarını və qardaşlarını öldürən ekstremistlər üçün dua etdiklərini söylədilər. “Biz onları bağışlayırıq və ümid edirik ki, onlar bir gün İsanı tanıyacaqlar” — Bebavi



*Özünü islam dövləti adlandıran İŞİD 21 məsihçinin başını kəsərək edam etdi.*

Alham dedi. Malak İbrahim Sinyoutun dul arvadı Məryəm də videonu görəndə belə reaksiya verərək dedi: “Mən çox fəxr edirəm ki, o, imanında möhkəm dayandı və İsanı inkar etmədi”.

Hətta o zaman gəlir ki, sizi öldürən
hər kəs Allaha xidmət etdiyini
zənn edəcək. Onlar bunları edəcəklər,
çünki nə Atanı, nə də Məni tanıdılar.

**Yəhya 16:2–3**



*Pastor Han Çanq-Reol şimali koreyalılara xidmət etdiyi üçün öldürüldü.*

# Pastor Han Çanq-Reol

## (30 aprel 2016-cı il)

Pastor Hana həyatının təhlükədə olduğunu artıq xəbərdarlıq etmişdilər. Çin polisi və Cənubi Koreya kəşfiyyatçıları Çinin Çanbay şəhərindən olan pastor Hanın Şimali Koreyanın "cinayətkarlar siyahı"sında olduğunu bildirmişdilər. Həyat yoldaşı və digər məsihçi rəhbərlər onun şimali koreyalılara xidmətini davam etdirməsinə icazə versələr də, pastoru qorumaq üçün təhlükəsizlik tədbirləri barədə razılığa gəlmişdilər. Lakin bir gün günorta pastor kilsədə olarkən kimsə ona zəng etdi və pastor bu ehtiyat tədbirlərinə məhəl qoymayıb görüşə tək getdi. Həmin axşam onun cəsədini Şimali Koreya ilə sərhəddə yerləşən bir kəndin yaxınlığında tapdılar.

1993-cü ildə Han kiçik bir kilsəyə pastorluq etmək üçün həyat yoldaşı ilə birgə Çanbaya köçmüşdü. Çinin həmin ərazisində əhalinin təxminən 25%-ni etnik koreyalılar təşkil edirdi. Han əslən koreyalı olsa da, Çin vətəndaşı idi.

Onlar buraya köçəndə Rəbbə xidmətlərinin şimali koreyalıları da əhatə edəcəyini düşünmürdülər. Onlar Çin və Şimali Koreya arasında sərhədə nəzarətin zəif olduğunu, bir çox çinli və şimali koreyalıların dostlarını və ailələrini ziyarət etmək üçün müntəzəm olaraq sərhəddən o tərəfə, bu tərəfə keçdiyini gördülər. 1990-cı illərdə iqtisadi çətinliklər və ərzaq çatışmazlığından əziyyət çəkən Şimali Koreya vətəndaşlarının ərzaq, tibbi yardım və daha yaxşı həyat üçün Çin sərhədini keçməkdən başqa seçimləri yox idi. Yardım axtaranlar arasında söz yayılmışdı ki, getmək üçün ən yaxşı yerlərdən biri kilsədir. Tezliklə Han və arvadı şimali koreyalılara yardım göstərməyə başladılar və nəticədə çoxları Məsihə iman etdi.

Han bu yeni imanlılara sədaqətlə həqiqəti öyrətdi, onlardan bir çoxu Müjdəni ailələri və qonşuları ilə bölüşmək üçün Şimali Koreyaya qayıtdılar. Pastor və arvadı təhlükəli iş gördüklərini anlasalar da, bilirdilər ki, Müjdənin Şimali Koreyaya çatdırılmasında ən yaxşı yol elə şimali koreyalıların özlərinin həmin xalqa həqiqəti bölüşməsidir.

Pastor Han şimali koreyalılar arasında kiminsə yardıma ehtiyacı olduqda arxalana biləcəyi bir adam kimi tanınmışdı. Hətta digər kilsələr Çin hökumətindən qorxaraq şimali koreyalılara xidmət etməyi dayandırsalar da, Han onlara qucaq açmaqda davam edirdi. Bu iş təhlükəli olsa da, onun xidməti uğur qazanır və durmadan inkişaf edirdi. Kilsə üzvləri Hanın adının axtarışda olan cinayətkarlar siyahısında olduğunu biləndə onu qorumaq üçün xüsusi təhlükəsizlik tədbirləri gördülər. Məsələn, o heç vaxt evindən və ya kilsədən tək çıxmırdı və sərhəd boyunca maşın sürmürdü.

2016-cı il aprelin 30-da kimsə Hana zəng etdi və o, cəld çıxıb harasa getdi və arvadı bunu adi qəbul etdi. Amma axşam əri evə qayıtmayanda narahat oldu və əri telefon zənginə cavab verməyəndə qadın polisə müraciət etdi.

Həmin axşam saat 19:00-da Şimali Koreya sərhədi yaxınlığındakı ucqar bir ərazidə Hanın cəsədi öz maşınında tapıldı. O, ürəyindən bıçaqlanmışdı və boğazı kəsilmişdi, bu, Şimali Koreya hökumətinin sui-qəsdçilərinə məxsus bir iş idi. Başında olan əlavə yaralar hücum edənlərin çox qəzəbli olduğunu göstərirdi.

Hanın əkdiyi toxumlar əbədi bəhrələr yetişdirir. Onunla görüşmüş bir çox şimali koreyalı öz ölkələrində dostları və ailələrinə Allahın məhəbbətindən danışırlar. Beləcə, onlar məsihçilər üçün ən böyük məhdudiyyət olan bir ölkəyə, Şimali Koreyaya Müjdənin nurunu gətirirlər.

# Monika Ogah

## (15 oktyabr 2016-cı il)

Monika Ogahın nənəsi ölüm ayağındaydı və qadının yeganə istəyi Nigeriyanın Qodoqodo kəndindəki öz evinə qayıtmaq idi. Ogahın kiçik qardaşı Zvandien kəndə qayıtmamağı onlara məsləhət gördü, çünki altı həftə bundan əvvəl Boko Haram islamçı terrorçularından qaynaqlanan silahlı fulani çobanları kəndə hücum etmişdilər. Ancaq nənəsinin xahişini yerinə yetirmək istəyən Ogah anası ilə birgə nənəni Qodoqodoya aparmaq qərarına gəldilər.

2016-cı ilin oktyabrın 15-də silahlı islamçı fulani çobanları Qodoqodoya qayıdanda, kəndliləri güllələyib evləri yandıranda Zvandienin dedikləri gerçəkləşdi. Atışma və qışqırıq səsləri artdıqca Ogah, anası və ölümcül xəstə nənəsi evlərinin içərisindəki kiçik otaqda gizləndilər. Onlar hücum edənlərin tezliklə ötüb keçəcəyinə ümid edərək səssizcə gözlədilər.

Daha sonra atışma və qışqırıqlar arasında fasilə zamanı Ogahın nənəsi özünü saxlaya bilməyib öskürdü və təcavüzkarlara gizləndikləri yeri bildirdi. Beş kişi otağa girərək qadınları mühasirəyə aldılar və silahlarını tuşlayaraq hədə-qorxu gəldilər. Ogah və anası kişilərə yalvardılar ki, onlara yazıqları gəlsin və qocalmış nənənin son günlərində ona qayğı göstərmələrinə icazə versinlər. Nəhayət, hücum edənlər güzəştə getdilər, onlardan yalnız bir nəfəri — Ogahı öldürəcəkdilər.

"Sən məsihçisən, yoxsa müsəlman?" — deyə kişilərdən biri ondan soruşdu.

"Mən məsihçiyəm" — deyə Ogah cavab verdi.

Hücum edənlər Ogaha islamı qəbul etdirə bilməyəndə, ona anasının və nənəsinin gözü qarşısında yerə uzanmağı əmr etdilər. Kişilərdən biri silahını qaldıraraq Ogahın başına atəş açdı, sonra isə hücum edənlər evi tərk etdilər.

Ogah o günkü hücumda öldürülən iyirmidən çox məsihçidən biri idi. Ailənin qəminə daha bir qəm də calandı. Nəvəsinin öldürüldüyünü görən Ogahın nənəsi iki gün sonra böyük kədər içində dünyasını dəyişdi.

Ogahın ölümündən əvvəlki illərdə Nigeriyanın şimalında məsihçilərə qarşı zorakılıq artmışdı. Uşaqlar valideynlərini, ər və arvadlar isə həyat yoldaşlarını itirmişdilər. Lakin davam edən təqiblərə baxmayaraq Nigeriyadakı məsihçilər Rəbdə təsəlli tapıb güclənirlər. Zvandien belə demişdi: "Bizim təsəllimiz İsa Məsihdədir. Bu həyatda nə baş versə də, Ona olan imanımız, xilasımız və etibarımız qalib gəlməkdə həmişə bizə kömək edəcək".

Çünki Məsihin əzablarını necə böyük həcmdə çəkiriksə, Məsih vasitəsilə o cür böyük təsəlli də tapırıq.

**2 Korinflilərə 1:5**

# Li Zinhen və Lu Linq Lina

(İyun 2017-ci il)

Onlar Pakistanın Taliban təsiri altında olan bölgəsinə köçdülər. Təhlükəyə baxmayaraq, Çin vətəndaşları Li Zinhen və Lu Linq Lina Müjdəni belə bir ərazidə bölüşməli olduqlarını hiss edirdilər. Onlar Pakistanda danışıq dili olan urdu dilini öyrənərkən və ölkənin ən kasıb yerlərindən birində məktəb açarkən qonşuları ilə yaxşı ünsiyyətlər qurdular. Lakin onların bölüşdüyü Müjdəni Kvetta şəhərində bir çoxları yaxşı qarşılamadı.

Mayın sonunda Li və Lu nahar fasiləsində olarkən polis formasında üç silahlı şəxs onları zorla maşınlarına mindirdi. Onlarla birlikdə başqa bir çinli qadın da qaçırıldı, lakin üçüncü qadının necə azad olduğu məlum deyil. Ya maşında yer olmadığına görə onu buraxmışdılar, ya da qadın kömək üçün qışqıraraq canının qurtara bilmişdi. Pakistanlı bir kişi baş verənləri görüb kömək etməyə çalışsa da, məhiçhiləri qaçıranlar onu ayağından güllə ilə vurmuşdular.

Li və Lu edam edilməzdən (videoya çəkilib) əvvəl bir neçə gün girov saxlanıldı. Özünü islam dövləti adlandıran İŞİD onların ölümündə cavabdehlik daşıdığını bildirdi və Pakistan hökuməti İŞİD-in sığınacağında reyd keçirdi. Lakin onlar gələnə qədər islamçılar qaçıb getmişdilər.

Bu qətlin istintaqı və cütlüyün cəsədlərinin çıxarılması üçün Çin hökuməti az səy göstərdi. Əslində, Çin hökuməti onların işlərini qeyri-qanuni hesab etdi və Pakistandakı digər müjdəçilik işləri ilə əlaqəsi olan Koreya kilsələrini günahlandırdı. Çin hökumətinin bu işə düzgün baxmadığına görə bəzi məsihçilər çıxış etdilər və onlar polis tərəfindən tutulub susmağa məcbur edildilər. Hökumətin dediyinə görə cütlüyün işlədiyi dil məktəbi sadəcə olaraq qeyri-qanuni dini fəaliyyətlər üçün bir yer idi.

Bundan başqa Pakistan hökuməti Li və Lunu ölkədə olduqları müddətdə “təbliğ etməkdə” günahlandırdı. Onların ölümündən sonra dil məktəbində işləyən cənubi koreyalı müəllimə ölkədən çıxıb getmək əmri verildi. Pakistan hökuməti müəllim Cean Von-seonu öz məktəbindən dini



*Çin məsihçiləri Li Zinhen və Lu Linq Lina qaçırıldı və Pakistanda qətlə yetirildilər.*

təbliğ etmək üçün istifadə etməkdə günahlandırdı. Çin və dünyanın hər yerində məsihçilər bu hadisədən çaşıb qalmışdılar, çünki həm Çin, həm də Pakistan hökuməti İŞİD-in iki Çin vətəndaşını öldürməsindən daha çox cütlüyün ölkədəki fəaliyyətinə diqqət yetirmişdi.

Yer üzündəki hakimiyyətlər tərəfindən Li və Lunun qurbanı inkar olunsa da, əbədi vətənlərində Padşahlarının diqqətindən yayınmayacaq. İbranilərə məktubun müəllifi bizə deyir: "Buna görə Allah Özünü onların Allahı adlandırmaqdan utanmır, çünki O onlar üçün şəhər hazırlamışdır" (İbranilərə 11:16).

"Dua edin ki, Allah mənim və eləcə də buradakı bütün övladlarının həyatında təqdis olunsun... Həyatımı Rəbbə qurban verərək çinlilər arasında yaşamaq və Rəbb canını bizim üçün fəda etdiyi kimi mən də onlar uğrunda əzab çəkmək istəyirəm."

**— Mildred Klark 1894-cü ildə öz gündəliyində bu sözləri yazmışdı. Bu qadın 1900-cü ildə Çində şəhid olmuşdu.**

# Kvetta kilsəsinə hücum

## (17 dekabr 2017-ci il)

Həmin səhər Fəzal həvəslə kilsəyə getmək üçün yeni ayaqqabılarını geyinərkən arvadı Şahnaz ona baxıb gülümsündü. Milad bayramına cəmi bir həftə qalmışdı və həmin gün o, Pakistanın Kvetta şəhərindəki Betel Memorial Metodist kilsəsində Rəbbin süfrəsini qəbul etməyi səbirsizliklə gözləyirdi. Gecikdiyinə görə Şahnaz bir az ərini danladı, sonra Fəzalı və oğlunu öpüb onlarla sağollaşdı, amma onun heç ağlına da gəlməzdi ki, ərini bir daha görməyəcək.

Fəzal və oğlu gəlib çatanda kilsə uşaqlar üçün Milad şənliyinə baxmağa gələn insanlarla dolu idi. Kilsədəki imanlılar Rəbbin süfrəsini qəbul etmək üçün sıraya düzülərkən, sui-qəsd jileti geyinmiş dörd kişi kilsəyə yaxınlaşdı. Bu təcavüzkarların niyyətindən xəbərdar olan təhlükəsizlik işçiləri onların kilsəyə girməsinə mane olmağa çalışdılar və binaya girmək istəyənlərdən birinə atəş açdılar. Dörd təcavüzkardan ikisi hadisə yerindən qaçıb getdi, lakin dördüncü şəxs giriş qapısından içəri keçərək partlayıcısını işə saldı. Partlayış baş verən zaman Fəzalın oğlu Rəbbin süfrəsini qəbul etməyə hazırlaşırdı və onun yanında olan qadın partlayış nəticəsində yaralandı.

Hücumda Fəzal da daxil olmaqla 11 məsihçi həlak oldu, çoxlu sayda insan isə yaralandı. Sonra özünü islam dövləti elan edən İŞİD partlayışa görə məsuliyyəti öz üzərinə götürdü.

Məsihçilər ölkə əhalisinin 1%-dən az hissəsini təşkil etsələr də, müsəlmanlar tərəfindən təcrid edilir və az maaşla aşağı səviyyəli işlərdə çalışmalı olurlar. Hökumət məsihçi cəmiyyətlərinin müdafiəsinə can atmır və çox vaxt onlar asanlıqla müsəlman ekstremistlərinin hədəfinə çevrilirlər. Adətən ekstremistlər öz çirkin niyyətlərini həyata keçirmək üçün məsihçi bayramlarında imanlıların böyük yığıncaqlarına hücum edirlər.

Kilsə üzvləri partlayışda həlak olanlar üçün yas tutarkən həm də Allaha şükür etdilər, çünki digər təcavüzkarlar da kilsəyə soxulub partlayıcılarını işə salsaydılar, onda ölənlərin sayı daha çox olardı.

Pakistanlı məsihçilər Rəbb uğrunda böyük çətinliklərə dözürlər. Qonşuları məsihçilərə nifrət edir və İsaya ibadət etdiklərinə görə onlarla

ikinci dərəcəli vətəndaşlar kimi davranırlar. İsa vəd etmişdi: "Bəşər Oğluna görə insanlar sizə nifrət edəndə... nə bəxtiyarsınız!" (Luka 6:22).

"Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi."

**Vəhy 21:4.**

# Pastor Gideon Periyasvami

(Yanvar 2018-ci il)

Bölgədəki radikal hindular pastora oranı tərk etməsi barədə xəbərdarlıq etmişdilər.

Pastor Gideon Periyasvami və onun kilsəsi aşağı kasta məxsus insanlara Müjdəni bölüşürdülər və bu, yuxarı kastadan olan kənd camaatı üçün qəbuledilməz idi. Qəzəblənmiş kənd sakinləri ona belə demişdilər: "Bu kəndi tərk etməsən, sənin həyatını çətinləşdirəcəyik". Lakin Periyasvami öz vətəni Hindistanda Tanrıya xidmət etməyin risklərindən xəbərdar idi. "Əgər Rəbbin iradəsidirsə, mən Məsih üçün şəhid olaram" — o pastor dostuna söyləmişdi.

Periyasvami gənc ikən hinduizmi tərk edib Məsihə iman etmişdi və həyatının çox hissəsini Rəbbə xidmətdə keçirmişdi. O, 2015-ci ildə Hindistanın Tamilnad ştatının Çennai şəhəri yaxınlığında yüksək kastalı hindular yaşayan bölgədə bir kilsə tikdi. Sözsüz ki, pastor yerli hindular tərəfindən yaxşı qarşılanmadı. Radikal hindular demək olar ki, hər bazar günü onu narahat edirdilər və hətta 2017-ci ildə onu döydülər. Buna baxmayaraq Periyasvami öz kilsəsinin üzvlərini qonşuları ilə sülh içində yaşamağa çağırdı.

2018-ci il yanvarın 20-də səhər vaxtı Periyasvaminin kilsəsinin üzvləri onun cəsədini evində tavandan asılmış halda tapdılar. Daha dərin təhqiqat işlərindən sonra məlum oldu ki, subay pastor qətlə yetirilmiş və sonra intihara bənzətmək üçün asılmışdı.

Raştriya Svayamsevak Sanqh (RSS) hindu millətçi təşkilatının siyasi qolu — hindu millətçi Bharatiya Canata Partiyası (BCP) ilə əlaqəsi olan Narendra Modinin 2014-cü ildə baş nazir seçilməsindən sonra radikal hinduların təqibləri güclənmişdi. Periyasvaminin şəhid olduğu dövrdə hamı bilirdi ki, Hindistanın hər bir kəndində RSS-nin xəbərçiləri yaşayır və məsihçilərin fəaliyyəti haqqında məlumat verirlər.

Təqiblərin artmasına səbəb həm də hinduları Məsihə gətirən Periyasvami kimi cəsarətli pastor və müjdəçilərin İsa barədə həvəslə bölüşməsi idi. Hindular tərəfindən olan təhdidlərə və döyülmələrə

baxmayaraq onlar fəaliyyətlərini dayandırmadılar. Hindular Məsihi qəbul etdikdə radikal hindular qəzəblənirdilər, çünki onların hindu xalqı üçün olan planları pozurlurdu. Buna baxmayaraq məsihçilər Hindistanda Müjdəni cəsarət və sədaqətlə bölüşməyə davam edir və bir çox hindular qəlblərini İsaya verirlər.

Lakin Peterlə Yəhya cavab verib dedilər: "Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq Allahın gözündə nə qədər doğrudur? Axı eşidib-gördüklərimizi deməyə bilmərik".

**Həvarilərin İşləri 4:19–20**

# Surabaya kilsəsində partlayışlar

## (13 may 2018-ci il)

Bazar günü səhər saat 7:30 idi. On altı və on səkkiz yaşlı iki qardaş öz motosikletlərinə minərək İndoneziyanın Surabaya şəhərindəki Müqəddəs Məryəm katolik kilsəsinə getdilər və sui-qəsd edərək partlayıcılarını işə saldılar. Partlayış nəticəsində özləri və altı nəfər həlak oldu.

Beş dəqiqə sonra oğlanların atası partlayıcı ilə doldurulmuş maşını ilə Surabaya Mərkəzi Pentikost kilsəsinə gəldi. Bombalar binanın qarşısında partladı, nəticədə sürücü və kilsəyə gələn altı nəfər həlak oldu.

Şəhərin başqa bir hissəsində oğlanların anası, doqquz və on iki yaşlarında olan iki bacısı bədənlərinə partlayıcı bağlayıb Diponeqoro İndoneziya Məsihçi kilsəsinə yaxınlaşdılar. Mühafizəçi onları saxladıqda partlayıcıları işə salaraq həm özlərini həm də mühafizəçini öldürdülər. Partlayış zamanı heç bir kilsə üzvü həlak olmadı.

Bir ailə on dəqiqə ərzində üç fərqli kilsəyə hücum etdi. Nəticədə, on iki məsihçinin həyatına son qoyuldu, qırxdan çox kişi və qadın yaralandı.

Hücumlardan qısa müddət sonra özünü islam dövləti elan edən İŞİD partlayışlara görə məsuliyyəti üzərinə götürdü. Nəhayət, təhqiqatlar zamanı məlum oldu ki, ailə Suriyada səfərdə olmuş və İndoneziyada Cemaah Anşarut Daulah adlı silahlı qruplaşma ilə əlbir imiş. Həmin qruplaşmanın İŞİD-lə sıx əlaqəsi var idi.

İndoneziya dünyada əhalisi ən çox müsəlman olan bir ölkədir. Son illərdə orada məsihçilərə qarşı hücumlar azalsa da, radikallaşma hələ də artmaqdadır. Ümumiyyətlə, sakit bir əyalət kimi tanınmış Surabayada bu hadisə şəhərdə ilk kilsə partlayışı kimi qeydə alındı.

Partlayışlardan sonra yerli məsihçilər qorxudan səpələnmək əvəzinə bir araya toplaşdılar. Bir kilsə rəhbəri belə demişdi: "Düşmənlərimiz istəyirlər ki, biz bir-birimizdən şübhələnək və bir-birimizə nifrət edək ki, onlar da asanlıqla daha çox terror hadisələri törədə bilsinlər". Lakin kilsə üzvləri birlikdə yaralılara qayğı göstərdilər və hətta kilsənin bərpasına

başladılar. Onlar qorxudan kənara çəkilməyəcəkdilər. “Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər” — deyə kilsə rəhbəri çarmıxda olan İsanın duasını təkrarladı.

Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir.

**1 Korinflilərə 12:26**

# Nigeriyanın Cos şəhəri yaxınlığında fulani islamçı qruplaşmasının hücumu

(İyun 2018-ci il)

Dalo bədəninin çox hissəsində ikinci dərəcəli yanıqlarla xəstəxanaya gətirildi. İyun ayında fulani islamçı qruplaşmasının silsilə hücumları nəticəsində Dalo valideynləri və bacılarını itirmişdi. Eləcə də həmin hücumlar zamanı yüzlərlə insan həyatını itirmiş və minlərlə insan evsiz-eşiksiz qalmışdı. Lakin səkkiz yaşlı Dalo ümidini itirmədi. Hər şeyini itirsə də, Dalonun ağzından qəzəbli və ya intiqam sözləri çıxmadı. Ona və ailəsinə hücum edənlər üçün Dalo dua etdi.

Nigeriyanın şimalında yaşayan məsihçilərlə müqayisədə ölkənin mərkəzində yaşayan Dalo kimi məsihçilər üçün həyat elə də təhlükəli sayılmırdı. Nigeriyanın şimalındakı müsəlmanlar uzun müddətdir ki, islam qanunları ilə idarə olunan başqa bir ölkə yaratmaq istəyirlər. Bu hücumlarda Boko Haram ekstremist qruplaşması əsas rol oynayır və bu yaxınlarda onlar fulani islamçı silahlılarını da özlərinə cəlb ediblər. Şimal əyalətlərindən zorakılıq tədricən cənuba doğru yayılmış və 2018-ci ilin iyunun axırlarında beş yüz fulani islamçı yaraqlısı Barkin Ladi və Cənub Cos bölgələrinə hücum etmişdi. Nəticədə, iki yüz nəfər qətlə yetirilmiş və on minlərlə məsihçi həmin ərazidən köçüb getmişdi.

Hücumlar nəticəsində ailələr dağıldı və minlərlə insan kədər içində qaldı. Bir gənc qız məktəbdən evə gələndə bütün ailəsinin öldürüldüyünü gördü. Bir qadınsa həyat yoldaşını və iki uşağını itirərək öz canını güclə xilas etdi; onun ailəsi islamdan dönüb İsa Məsihi qəbul etdiyi üçün xüsusi olaraq hədəfə alınmışdı. Dörd təcavüzkar kişi bir pastorun əl-ayağını bağlayıb evində arvadını təhqir etmişdilər. Hücum edənlər bir məsihçi dul qadının evini yandırmışdılar və öz heyvanlarını yedizdirmək üçün onun bağından məhsulunu oğurlamışdılar.

Fulani Milliyyət Hərəkatı hücumlara görə məsuliyyəti öz üzərinə götürdü və gələcəkdə daha çox belə hücumlar edəcəyi barədə bəyanat verdi. "Adamlarımız hazırdırlar. Biz döyüşmək istəyirik və niyyətimizi həyata keçirmək üçün ciddi-cəhdlə çalışırıq. *İnşəAllah* [Allah qoysa] bu döyüşü dənizin o tayında, quruda, havada, dağlarda, hazırda kafirlərin [imansızların] işğal etdiyi hər bir ərazidə aparacağıq" — deyə qrup xəbərdarlıq etdi. Onların dedikləri kimi neçə ay hücumlar davam etdi, daha çox insan şəhid oldu və daha çox insan evindən didərgin düşdü, dul və yetim qaldı. Bu hücumlar zamanı bir çox məsihçilər təcavüzkarları bağışlayır və böyük itkilər qarşısında belə Məsihi inkar etməyib Rəbbə sadiq qalırlar.

Bəşər Oğluna görə insanlar sizə nifrət edəndə, sizi cəmiyyətdən qovub təhqir edəndə, adınızı bədnam edəndə nə bəxtiyarsınız! O gün sevinin və sevincdən atılıb-düşün! Çünki göydə mükafatınız böyükdür. Axı onların ata-babaları da peyğəmbərlərlə belə davranıb.

**Luka 6:22,23**

Onda hər birinə ağ xalat verilib deyildi ki, özləri ilə birgə qulluq edən, onlar kimi öldürüləcək bacı-qardaşlarının sayı tamam olana qədər bir az vaxt da rahat olsunlar.

**Vəhy 6:11**

# Mündəricat


Ön Söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7

Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11

BİRİNCİ HİSSƏ
**BİRİNCİ ƏSRİN ŞƏHİDLƏRİ**

Erkən Kilsənin təqibi . . . . . . . . . . . . . . . . . . . . . 17

Stefan 19 ◆ Böyük Yaqub/Zavday oğlu Yaqub 21 ◆ Filip 25 ◆ Matta 28 ◆ Kiçik Yaqub/Halfay oğlu Yaqub 31 ◆ Mark 33 ◆ Peter 35 ◆ Paul 39 ◆ Mattiya 42 ◆ Andrey 43 ◆ Yəhuda/Tadday 46 ◆ Bartalmay/Natanael 48 ◆ Tomas 50 ◆ Millətçi Şimon/Kənançı Şimon 53 ◆ Luka 57 ◆ Yəhya 59

İKİNCİ HİSSƏ
**İKİNCİ ƏSRDƏN İYİRMİNCİ ƏSRƏ QƏDƏR OLAN ŞƏHİDLƏR**

Roma imperiyası dövründə təqiblər . . . . . . . . . . . . . . 65

Antakyalı İqnati 67 ◆ Smirnalı Polikarp 69 ◆ Şəhid Yustin 72 ◆ Skilliumdan olan şəhidlər 74 ◆ Perpetuya, Felisiti və Blandina 76 ◆ Origen 78 ◆ Kiprian 79 ◆ Valentin 81 ◆ Fivaida legionu 82 ◆ Alban 85 ◆ Sebastenin qırx şəhidi 87 ◆ Telemakus 89

Orta əsrlərdə təqiblər . . . . . . . . . . . . . . . . . . . . . 93

Bonifas 95 ◆ Elfec 97 ◆ Yepiskop Gellert 98 ◆ Pravoslav və Roma kilsələri arasında olan böyük ixtilaf 100 ◆ Səlib yürüşləri 102 ◆ Valdenslər 104 ◆

Uilyam Svinderbay 105 ◆ Yan Qus 107 ◆ Praqalı Yeronim 111 ◆ Con Oldkesl 113 ◆ Katerin Saube 115

Reformasiya dövründə təqiblər . . . . . . . . . . . . . . . . . . 117

Henri Voes, Cohan Ekk və Lampertus Torn 119 ◆ Anabaptistlər 121 ◆ Feliks Manz 123 ◆ Maykl Settler 125 ◆ Corc Uaqner 127 ◆ Baltazar Habmayer 128 ◆ Corc Blaurok 130 ◆ Patrik Hamilton və Henri Forest 131 ◆ Con Frit 133 ◆ Uilyam Tindeyl 134 ◆ Con Lambert 137 ◆ Corc Uişart 138 ◆ Dörk Uillems 140 ◆ Naqasaki Şəhidləri 141

XVI əsrdə İngiltərə və Avropada olan təqiblər . . . . . . . 143

Ceyn Qrey 145 ◆ Con Bradford 149 ◆ Con Huper 151 ◆ Con Rocers 153 ◆ Con Filpot 155 ◆ Lorens Sanders 158 ◆ Nikolas Ridli və Hyu Latimer 159 ◆ Roland Teylor 162 ◆ Uilyam Hanter 165 ◆ Tomas Kranmer 167 ◆ Culius Palmer 169 ◆ Hans Smit 171 ◆ Ualter Mill 173 ◆ Peter Ramus 175 ◆ Edmund Kempion 177 ◆ Con Penri 180 ◆ Robert Soutvel 182

Maarifçilik dövrü. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 187

Meri Dayer 189 ◆ Şotland Kovenanterlər 192 ◆ Ceyms Qutri 194 ◆ Hyu MakKeyl 196 ◆ Riçard Kameron 198 ◆ Donald Kargil 200 ◆ İzabel Alison və Mariyon Harvi 202 ◆ Con Dik 204 ◆ Con Peyton 206 ◆ Marqaret Uilson və Marqaret MakLaklan 208 ◆ Con Nesbit 210 ◆ Con Braun 212 ◆ Ceyms Renvik 214 ◆ Fransız Hugenotlar 216

Sənaye inqilabı dövründə təqiblər . . . . . . . . . . . . . . . . 219

Con Smit 221 ◆ Henri Layman 224 ◆ Con Uilyams 225 ◆ Endryu Kim De Qon 227 ◆ Allen Qardiner 229 ◆ Con Matzukkoni 231 ◆ Teofan Venar 233 ◆ Corc və Ellen Qordon və Ceyms Qordon 235 ◆ Con Klayn 237 ◆ Robert Tomas 239 ◆ Cast de Bretenires 241 ◆ Con Kolric Patteson 245 ◆ Ceyms Haninqton 247 ◆ Cozef Mukosa Balikuddembe 250 ◆ Namuqonqo Şəhidləri 253 ◆ Bernard Mizeki 255 ◆ Çində boksçu üsyanı 257 ◆ İya Uanq 258 ◆ Cənab Farsinq 258 ◆ Con və Sara Yanq 259 ◆ Karl Landberq 259 ◆ Horeys Treysi Pitkin 260 ◆ Lizi Atvater 261 ◆ Ceyms Çalmers 263 ◆ Con Kensit 266

İyirminci əsrdə təqiblər . . . . . . . . . . . . . . . . . . . . . . . 269
Xrizostom 271 ◆ Mançe Massemola 273 ◆ Con və Betti Stem 274 ◆ Maksimilian Kolbe 277 ◆ Con Uilfinger 280 ◆ Ditrix Bonhüfer 282 ◆ Mauris Torney 284 ◆ Cim Elliot, Pit Fleminq, Ed MakKulli, Neyt Sent, Rocer Yuderian 286 ◆ Ester Con 290 ◆ Paul Karlson 291 ◆ Yona Kanamuzeyi 294 ◆ Uatçmen Ni 297 ◆ Uanq Çiminq 300 ◆ Minka Hanskemp və Marqaret Morqan 301 ◆ Canani Luvum 302 ◆ Çester A. "Çet" Bitterman III 304 ◆ Pastor Mehr və Mehdi Dibaj 307 ◆ Abram Yak Denq 310 ◆ Antonio Revas 311 ◆ Qraham, Timotey və Filip Steins 313

## ÜÇÜNCÜ HİSSƏ
## **İYİRMİ BİRİNCİ ƏSRDƏ MÜASİR ŞƏHİDLƏR**

2000–2006 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 321
Yesu Dasu 322 ◆ Leu Heytonq 324 ◆ Çjun Cu Yu 325 ◆ Ceyms Əbdülkərim Yahaya 326 ◆ Emmanuel Allah Atta 327 ◆ U Maanq Tan 328 ◆ Məhəmməd Səid 329 ◆ Martin Rey Bornham 331 ◆ Kornelio Tovar 334 ◆ Bonni Uiterall 336 ◆ Bitrus Mencenq 339 ◆ Möhtərəm Hose Huan Lozada Korteza 342 ◆ Sandey Madumer 343 ◆ Redoy Roy 344 ◆ Cəmil Əhməd əl-Rifai 346 ◆ Möhtərəm Vau 349 ◆ Pastor Mariano Diaz Mendez və Pastor Hairo Solis Lopez 350 ◆ Canq Honqmey 351 ◆ Muxtar Masih 352 ◆ Sergey Bessarab 354 ◆ Əhməd Əl-Axval 356 ◆ Pastor Corc Masih 359 ◆ Samuel Masih 361 ◆ Ciyanq Zonqzi 363 ◆ Molla Əsəd Ullah 366 ◆ Susianti Tinulele 368 ◆ Cozef Mondol 369 ◆ Fransisko Montoya 370 ◆ Sandey Naçe Açi 373 ◆ Dulal Sərkər 375 ◆ Tapon Roy və Liplal Marandi 376 ◆ İzzət Həbib 378 ◆ Tereziya, Alfita və Yarni 380 ◆ Kolin Li 382 ◆ Qurban Dordi Turani 385 ◆ Arun Voraforn 389 ◆ Pastor Cimendra Nayak (Mantu) 392 ◆ Andrea Santoro 393 ◆ Yusebio Ferrao 395 ◆ Prem Kumar 397 ◆ Nigeriyalı Qadın 399 ◆ Y Nqo Adronq 401 ◆ Pastor İriyanto Konqkoli 402 ◆ İmmanuel Andegeresq və Kibrom Fayermişel 404

2007–2011 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 407
Kristiyana Oluvatoyin Olusase 408 ◆ Necati Aydın, Tilmann Geske və Uğur Yüksəl 411 ◆ Nigisti Heyl 415 ◆ Rami Əyyad 417 ◆ Tulu Mosisa 419 ◆ Orissa Hücumları 421 ◆ Geyl Uilyams 423 ◆ Dora Lilia və Ferli Saavedra 425 ◆ Fatimə Əl-Muteyri 429 ◆ Nepalda kilsədə partlayış 432 ◆ Qocra Hücumu 435 ◆ Manuel Kamaço 437 ◆ Məryəm Muhina Hüseyn 439 ◆ Naq-Hammadi Hücumu 441 ◆ Doqo Nahava Hücumu 443 ◆ İşaku və Selina Kadah 446 ◆ Yusif Əli Nur 448 ◆ Artur Süleymanov 450 ◆ Rəşid və Səcid Emmanuel 453 ◆ Şeril Bekett 456 ◆ Rosio Pino 459 ◆ Yunis Masih və Cəmil Masih 461 ◆ Klarito dela Kruz 463 ◆ Mario Asidre 464

2012–2018 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 467
Afrika Daxili Kilsəsinə Hücum 468 ◆ Matayo Kaçili 470 ◆ Bütün Müqəddəslər kilsəsinin bombalanması 472 ◆ Ehab Qattas 474 ◆ Dayk Oça 475 ◆ Samirə 476 ◆ Keniya Sahil Hücumları 479 ◆ Terri Tumba 480 ◆ Şahzad və Şama 481 ◆ Verner, Jan-Pyer və Rode Qronvald 483 ◆ İyirmi bir məsihçi İŞİD tərəfindən şəhid edildi 487 ◆ Pastor Han Çanq-Reol 491 ◆ Monika Ogah 493 ◆ Li Zinhen və Lu Linq Lina 495 ◆ Kvetta kilsəsinə hücum 498 ◆ Pastor Gideon Periyasvami 500 ◆ Surabaya kilsəsində partlayışlar 502 ◆ Nigeriyanın Cos şəhəri yaxınlığında fulani islamçı qruplaşmasının hücumu 504

KITABI-KNIGI.COM

İstənilən cihaza öz dilinizdə
yükləyin və oxuyun. Bütün ailə üçün
pulsuz elektron kitablar.



# Məsih uğrunda nə edərdiniz?

İki min il ərzində məsihçilər həqiqəti, İsanın adını cəsarətlə bölüşərək döyülmək, daşlanmaq, yandırılmaq, vəhşi heyvanlara atılmaq və hər cür zorakılıq üzərində qələbə çaldılar.

*Foksun yenilənmiş şəhidlər kitabı b.e. 33-cü ilindən bu günədək* olan cəsur iman qəhrəmanlarının hekayəsi və sizin məsihçi irsinizdir.

Con Foksun 1570-ci ildə çap olunmuş orijinal əsərinə 100-dən çox məsihçi şəhidin hekayəsi əlavə olunmaqla bu kitab yenilənmişdir. Burada erkən kilsənin yarandığı vaxtdan başlayaraq reformasiya, maarifçilik, sənaye inqilabı dövründə, eləcə də XXI əsrdə şəhid olan məsihçi qəhrəmanların həyatlarından danışılır.

Bu nəşrdə fransız hugenotlardan tutmuş Ditrix Bonhüferədək, Neyt Seyntdən Uatçman Niyə qədər bir çox şəhidlərin həyatı barədə qeyd olunub. Kitaba həmçinin 2000-ci ildən bəri şəhid olmuş altmış yeddi məsihçinin hekayəsi əlavə edilib. Siz bu imanlıların islamçı ekstremist qrupları, qəddar diktatorlar və hökumətin təzyiqləri qarşısında göstərdiyi cəsarətindən ruhlanacaqsınız. Məsihin Ruhu Stefanı, Peteri və Paulu gücləndirdiyi kimi bu gün də bütün dünyada fəaliyyət göstərdiyini sizə xatırladacaq.

AZ